AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

**(pedaqogika, psixologiya, tarix, filologiya,
riyaziyyat və informatika, biologiya, incəsənət)**

№ 2 (68)

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 27 dekabr 2004-cü il tarixdə
(Şəhadətnamə № 1158) qeydiyyata alınmış və nəşrə edilmiş dəyişikliklər
20 iyun 2019-cu il tarixdə Reyestrə əlavə edilmişdir.

NAXÇIVAN – NMİ "Məktəb", 2022

REDAKSİYA HEYƏTİ

Baş redaktor: **Azad Sevindik oğlu Novruzov**
Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Baş redaktorun müavini: **Qurban Məmməd oğlu Qurbanlı**
Naxçıvan Müəllimlər İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent

Məsul katib: **Zöhrə İlham qızı Sadıqova**
"Məktəb" nəşriyyatının direktoru

SAHƏLƏR ÜZRƏ REDAKSİYA HEYƏTLƏRİ

PEDAQOGİKA

İsmayıl İsrafil oğlu ƏLİYEV – pedaqogika üzrə elmlər doktoru, professor – elmi redaktor;
Fərahim Balakişi oğlu SADIQOV – pedaqogika üzrə elmlər doktoru, professor;
Akif Nurağa oğlu ABBASOV – pedaqogika üzrə elmlər doktoru, professor;
Əbülfət Qulam oğlu PƏLƏNGOV – pedaqogika üzrə elmlər doktoru, professor;
Vahid Məmməd oğlu RZAYEV – pedaqogika üzrə fəlsəfə doktoru, dosent.
Rövşən Xəlil oğlu VƏLİYEV – pedaqogika üzrə fəlsəfə doktoru, dosent.

PSİXOLOGİYA

Çapay Qadir oğlu QULİYEV – psixologiya üzrə fəlsəfə doktoru, NMİ-nin prorektoru – elmi redaktor;
Bəxtiyar Həmzə oğlu ƏLİYEV – AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor, Milli Məclisin deputatı, Milli Məclisinin Elm və təhsil komitəsinin sədri;
Gültac Bədəl qızı ƏLİYEVA – psixologiya üzrə fəlsəfə doktoru, professor.

TARİX

Elbrus Saleh oğlu İSAYEV – tarix üzrə fəlsəfə doktoru, dosent – elmi redaktor;
İsmayıl Muxtar oğlu HACIYEV – AMEA-nın həqiqi üzvü, tarix üzrə elmlər doktoru, professor, AMEA Naxçıvan Bölməsinin sədri;
Hacıfəxrəddin Yəhya oğlu SƏFƏRLİ – AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru, professor, AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru;
İbrahim ETEM ATNUR – tarix üzrə elmlər doktoru, professor, Millî Savunma Üniversitesi, Türkiyə.

FİLOLOGİYA

Yusif Səfər oğlu SƏFƏROV – filologiya üzrə elmlər doktoru, professor – elmi redaktor;
İsa Əkbər oğlu HƏBİBBƏYLİ – AMEA-nın həqiqi üzvü, filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın vitse-prezidenti;
Akif Kazım oğlu İMANLI – filologiya üzrə elmlər doktoru, professor;
Qurban Məmməd oğlu QURBANLI – filologiya üzrə fəlsəfə doktoru, dosent (rus dili üzrə mütəxəssis);
Həsənəli Cahangir oğlu EYVAZOV – filologiya üzrə fəlsəfə doktoru, dosent;
Şirməmməd Qüdrət oğlu QULİYEV – filologiya üzrə fəlsəfə doktoru, dosent (ingilis dili üzrə mütəxəssis).

RİYAZİYYAT VƏ İNFORMATİKA

Yaqub Yaqub oğlu MƏMMƏDOV – riyaziyyat üzrə elmlər doktoru, dosent – elmi redaktor;
Bilal Telman oğlu BİLALOV – AMEA-nın müxbir üzvü, riyaziyyat üzrə elmlər doktoru, professor;
Vaqif Sabir oğlu QULİYEV – AMEA-nın müxbir üzvü, riyaziyyat üzrə elmlər doktoru, professor;
Azad Sevindik oğlu NOVRUZOV – pedaqogika üzrə fəlsəfə doktoru, dosent;
Soltan Əli oğlu ƏLİYEV – riyaziyyat üzrə elmləri doktoru, professor;
Elşad Vəliqulu oğlu AĞAYEV – riyaziyyat üzrə fəlsəfə doktoru, dosent;

BİOLOGİYA

Lamiyə Telman qızı QULİYEVA – biologiya üzrə fəlsəfə doktoru – elmi redaktor;
Tariyel Hüseynəli oğlu TALIBOV – AMEA-nın həqiqi üzvü, biologiya üzrə elmlər doktoru, professor;
İsmayıl Bəqiyyət oğlu MƏMMƏDOV – biologiya üzrə elmlər doktoru, dosent;
Asif Həmzə oğlu AXUNDOV – biologiya üzrə fəlsəfə doktoru, dosent.

İNCƏSƏNƏT

Həbibə Rəşad qızı ALLAHVERDİYEVA – sənətşünaslıq üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Ali Məclisin deputatı – elmi redaktor;
Ülviyyə Tapdıq qızı HƏMZƏYEVA – Azərbaycan Respublikasının əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Milli Məclisin deputatı;
Məhəbbət Nizami qızı BABAYEVA – musiqişünas.

Ünvan: Az – 7003, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti-2
Tel.: (+994)545 32 02, (+994)544 04 41, (+994)544 04 29
E-mail: elmihisse@nmi.edu.az

MÜNDƏRİCAT

PEDAQOGİKA: NƏZƏRİYYƏ VƏ TARİX

9-12	**LALƏ ALLAHVERDİYEVA**	Tələbələrin ideya-siyasi tərbiyəsinin təşkili məsələləri
13-16	**TAHİRƏ HƏSƏNOVA** **SƏBUHİ ƏLƏKBƏROV**	Milli şüurun formlaşdırılması məsələlərinə dair
17-19	**ARZU SƏFƏROVA**	Müasir pedaqoq-mənəvi əxlaqi dəyərlərin və yaradıcı əməyin daşıyıcısı və ötürücüsü kimi
20-22	**RƏNA QURBANOVA**	Gənc nəslin tərbiyəsində dil və dinin rolu haqqında Həsən bəy Zərdabinin fikirləri
23-29	**NÜBAR SƏFƏRLİ**	Naxçıvanda ilk islam tipli məktəblərin yaranması və fəaliyyətinə dair
30-32	**NURAY MƏMMƏDOVA**	Müəllim şəxsiyyətinin pedaqoji fəaliyyətində rolu və ona verilən tələblər
33-36	**ESMİRA AĞAYEVA**	Kiçikyaşlı məktəblilərdə mənəvi-estetik dəyərlərin formalaşdırılması
37-40	**MƏSUD QƏHRƏMANOV**	Ümummilli lider Heydər Əliyev böyüyən nəslin Azərbaycançılıq ruhunda tərbiyəsi haqqında

PEDAQOGİKA: FƏNLƏRİN TƏDRİSİ METODİKASI

41-46	**RÖVŞƏN HƏSƏNOV**	Cəbr kursunun tədrisində kompüter texnologiyasından istifadə məsələləri haqqında
47-50	**TOFİQ MƏMMƏDOV**	Kəsr və hissə anlayışlarının təliminin modelləşdirilməsində İKT-dən istifadə təcrübəsindən
51-53	**TOFİQ ƏLİYEV** **AKİF MƏRDANLI**	Bitki toxuması kulturu ilə işləmək üçün laboratoriyaya verilən əsas tələblər
54-56	**AYGÜN SULTANOVA**	Müasir fizikanın fundamental modelləri
57-63	**MİRNAZİM SEYİDOV** **AKİF ƏLİYEV**	Tələbələrə ekoloji biliyin verilməsi yolları
64-69	**NAZİLƏ MURADOVA**	İbtidai siniflərin riyaziyyat kursunda həndəsi məzmunlu məsələlərin həllində qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları
70-73	**KƏMALƏ İBRAHİMOVA**	"İnformatika" fənninin tədrisidanin bəzi aktual problemlərinə dair
74-77	**COŞQUN QURBANOV** **RÖVŞƏN BAĞIROV** **NİZAMİ QULUYEV**	Orta ümumtəhsil məktəblərində texnologiya fənninin tədrisinin hazırki vəziyyətinə dair mülahizələr
78-81	**ZENFİRA SEYİDOVA**	Muzeylərdə kütləvi tədbirlərin keçirilməsi məsələləri
82-84	**ZİNYƏT ƏLİYEVA** **NURAY RZAYEVA**	Məktəbəqədər müəssələrdə oyunların qruplar üzrə təşkilinin xüsusiyyətləri
85-88	**SEVİNC EYLAZOVA**	Orta ixtisas təhsili müəssisələrində seminar məşğələlərinin interaktiv təlim üsulları ilə təşkili
89-92	**DİLBƏR ORUCOVA**	Konseptuallaşmada metonimiya koqnitiv proses kimi
93-95	**GÜLƏR ƏSƏDOVA**	Orta ixtisas və ali təhsil sisteminin tədris prosesində informasiya texnologiyalarından istifadə imkanları

PSİXOLOGİYA

96-100	**SALATIN HACIYEVA**	Müəllim - şagird münasibətlərinin psixoloji təhlili

TARİX

101-106 **ƏLƏKBƏR CABBARLI** — Heydər Əliyevin dövlətçilik fəaliyyətində Naxçıvanın yeri

107-113 **AYTƏKİN QƏHRƏMANOVA** — Şahbuz rayon əhalisinə nəqliyyat, rabitə və energetika xidmətinin təşkili tarixindən

114-117 **VALEH ƏLİXANOV, NAZİM ƏLİYEV** — Naxçıvan Muxtar Respublikasında boks tarixindən

FİLOLOGİYA

118-122 **SƏDAQƏT HƏSƏNOVA** — Adil Babayev və ədəbi dilimiz

123-126 **FƏXRİYYƏ CƏFƏROVA** — Aşıq Alının poetik dili

127-130 **ŞƏFƏQ VƏLİYEVA, BƏYİM TARVERDİYEVA, SEVDA HACƏLİYEVA** — Müasir İngilis dilində frazeologizmlərin səciyyəvi işlənmə xüsusiyyətləri

131-133 **NAHİDƏ HEYDƏROVA** — Məhəbbət konseptinin emosional aspektləri haqqında (V.Şekspirin yaradıcılığı əsasında)

134-138 **SAMİRƏ HƏSƏNOVA, ŞƏHLA FƏTƏLİYEVA** — Azərbaycan ədəbi dilində üzvlənməyən cümlələrin işlənmə xüsusiyyətləri

139-142 **NİCAT YAQUBOV** — Bir-sıra türk mənşəli sözlərdə leksik-semantik dəyişikliklərə dair

143-146 **GÜNEL ƏSGƏROVA** — "Molla Nəsrəddin" jurnalının Sovet dövrü və Naxçıvan həyatı

RİYAZİYYAT VƏ İNFORMATİKA

147-150 **SAHİB ƏLİYEV, CEYHUN ƏLİYEV, AYGÜN ƏFƏNDİYEVA** — I növ Çebişev çoxhədlilərin tətbiqi ilə bəzi məsələlərin həlli

151-157 **ABDULLA HƏSƏNOV** — $(f(x))^{g(x)}=(f(x))^{p(x)}$ şəklindəki üstlü-qüvvət tənliklərinin həlli haqqında

158-166 **AZAD MƏMMƏDLİ, ÜLVÜ VƏLİYEV** — $f(f(x))=x$ şəklində tənliklərin həlli haqqında

167-170 **RUMİYYƏ MƏMMƏDOVA** — Təhsildə rəqəmsallaşdırma-elektron təhsil və informasiya cəmiyyəti

BİOLOGİYA

171-175 **LOĞMAN BAYRAMOV** — Ordubad rayonu ərazisində aşkar edilmiş heyva formalarının tədqiqi və onların pomoloji xüsusiyyətlərinin öyrənilməsi

176-178 **İLAHƏ SEYİDOVA, GÜLTƏKIN HACIYEVA** — Naxçıvan Muxtar Respublikasının dağlıq ərazilərinin ekoloji problemləri

179-183 **GÜNEL İBRAHİMOVA** — Mərkəzi sinir sisteminin fiziologiyası fəninin ali məktəblərdə tədrisi məsələləri

İNCƏSƏNƏT

184-188 **LƏMAN MƏMMƏDOVA** — Ornamental və süjetli təsvirləri olan keramika haqqında

189-193 **RUHİYYƏ DÜNYAMALIYEVA** — Fikrət Əmirov Azərbaycanda konsert janrının yaradıcısı kimi

CONTENTS

PEDAGOGICAL THEORY AND HISTORY

9-12	**LALA ALLAHVERDIYEVA**	Organizational issues of ideological and political education of students
13-16	**TAHIRA HASANOVA** **SABUHI ALAKBAROVA**	On the issues of forming national consciousness
17-19	**ARZU SAFAROVA**	A modern educator as a bearer of spiritual and moral values and creative labor
20-22	**RENA GURBANOVA**	Hasan Bey Zardabi views on the role of language and religion in the education of the younger generation
23-29	**NUBAR SAFARLI**	Establishment and activity of first islamic type schools ın Nakhchivan
30-32	**NURAY MAMMADOVA**	The role of the teacher's personality ın pedagogical activity and the requirements for it
33-36	**ESMIRA AGHAYEVA**	Formation of spiritual and aesthetic values of junior schoolchildren
37-40	**MASUD GAKHRAMANOV**	National leader Heydar Aliyev on educating the younger generation in the spirit of azerbaijanism

PEDAGOGY: METHODOLOGY OF TEACHING SUBJECTS

41-46	**ROVSHAN HASANOV**	On the issue of using computer technology in teaching algebra course
47-50	**TOFIG MAMMADOV**	On the possibilities of use of ICT in modeling of training
51-53	**TOFIK ALIYEV** **AKIF MARDANLI**	Basic requırements for a laboratory for work with plant tıssue culture
54-56	**AYGUN SULTANOVA**	Fundamental models of modern physics
57-63	**MIRNAZIM SEYIDOV** **AKIF ALIYEV**	Ways to teach students with Environmental knowledge
64-69	**NAZILE MURADOVA**	Difficulties encountered in solving problems with Geometrical content in the mathematics course of primary classes and ways to overcome them
70-73	**KAMALA IBRAHIMOVA**	Actual problems of teaching "informatics" subject
74-77	**COSHGUN GURBANOV** **ROVSHAN BAGIROV** **NIZAMI GULUYEV**	In secondary schoolsteaching of the subject of ech-nology some considerations on its present situation
78-81	**SEYIDOVA ZENFIRA** **SEVDA OCAQQULIYEVA**	Organizing social activities in museums
82-84	**ZINYET ELIYEVA** **NURAY RZAYEVA**	Features of organizing games in groups in preschool ınstıtutıons
85-88	**SEVINJ EYLAZOVA**	Organization of seminar lessons at secondary specialized education institutions with interactive learning methods
89-92	**DILBAR ORUJOVA**	On the issues of conceptualization and metonymy
93-95	**GULAR ASADOVA**	Use of information technologies in the educational process of the secondary and higher education system

PSYCHOLOGY

96-100 **SALATIN HAJIYEVA** Psychological analysis of teacher-student relations

HİSTORY

101-106 **ALAKBAR JABBARLI** Hayder Alıyev's statemanship the place of Nakchivan in activity

107-113 **AYTEKIN GAHRAMANOVA** From the history of organization of transport, communication and power engineering services to the population of Shahbuz district

114-117 **VALEH ALIKHANOV NAZIM ALIYEV** From the history of the development of boxing in the Nakchivan Autonomous Republic

PHILOLOGY

118-122 **SADAGAT HASANOVA** Adil Babayev and our literary language

123-126 **FAKHRIYA JAFAROVA** The poetic language of Ashiq Ali

127-130 **SHAFAG MURADOVA BEYIM TARVERDIYEVA SEVDA HACALIYEVA** Typical usage peculiarities of phraseological unıts in modern english

131-133 **NAHIDA HEYDAROVA** Emotional concept of "love" aspects (V.Shakespeare based on creativity)

134-138 **SAMIRA HASANOVA SAHLA FATALIYEVA** Features of the processing of non-membered sentences in the literary language of Azerbaijan

139-142 **NIJAT YAGUBOV** Lexical-semantic change of some words of turkish origin

143-146 **GUNEL ASKEROVA** Soviet period and Makhchivan life of "Molla Nasraddin" magazine

MATHEMATICS AND COMPUTERS

147-150 **SAHIB ALIYEV JEYHUN ALIYEV AYGUN EFENDIYEVA** Solution of some problems by applying Chebyshev polynomials of type I

151-157 **ABDULLA HASANOV** About the solution of the equations of force-the superimposed in the form of $(f(x))^{g(x)}=(f(x))^{p(x)}$

158-166 **AZAD MAMMADLI ULVU ALIYEV** On the solution of equations in the form $f(f(x))=x$

167-170 **RUMIYA MAMMADOVA** On information and digitalization of education

BIOLOGY

171-175 **LOGMAN BAYRAMOV** Study of quince forms in the territory of Ordubad district and their pomological characterıstıcs

176-178 **ILAHA SEYIDOVA GULTEKIN HAJIYEVA** Environmental problems of mountainous areas of Nakhchivan Autonomous Republıc

179-183 **GUNEL IBRAHIMOVA** Physiology of the central nervous system on teaching issues in higher schools

ART

184-188 **LEMAN MAMEDOVA** About ceramics with ornamental and plot drawings

189-193 **RUHIYA DUNYAMALIYEVA** Fikrat Amirov concert in Azerbaijan as the creator of the genre

СОДЕРЖАНИЕ

ПЕДАГОГИКА: ТЕОРИЯ И ИСТОРИЯ

9-12	**ЛАЛЕ АЛЛАХВЕРДИЕВА**	Вопросы организации идейно-политического воспитания студентов
13-16	**ТАХИРА ГАСАНОВА** **САБУХИ АЛЕКБЕРОВ**	К вопросам формирования национального сознания
17-19	**АРЗУ САФАРОВА**	Современный педагог как носитель духовно-нравственных ценностей и творческого труда
20-22	**РЕНА ГУРБАНОВА**	Гасан бек Зардаби о роли языка и религии в воспитании подрастающего поколения
23-29	**НЮБАР САФАРЛИ**	Создание и деятельность первых исламских школ в Нахчыване
30-32	**НУРАЙ МАМЕДОВА**	Роль личности учителя в педагогической деятельности и требования к ней
33-36	**ЭСМИРА АГАЕВА**	Формирование духовно-эстетических ценностей младших школьников
37-40	**МАСУД ГАХРАМАНОВ**	Общенациональный лидер Гейдар Алиев о воспитании подрастающего поколения в духе азербайджанства

ПЕДАГОГИКА: МЕТОДИКА ПРЕПОДАВАНИЯ ПРЕДМЕТОВ

41-46	**РОВШАН ГАСАНОВ**	Об использовании компьютерных технологий в преподавании курса алгебры
47-50	**ТОФИГ МАМЕДОВ**	К возможности использования ИКТ в моделировании обучения
51-53	**ТОФИК АЛИЕВ** **АКИФ МАРДАНЛЫ**	Основные требования к лаборатории для работы с культурой тканей растений
54-56	**АЙГЮН СУЛТАНОВА**	О фундаментальных моделях изучения современной физики
57-63	**МИРНАЗИМ СЕИДОВ** **АКИФ АЛИЕВ**	Способы передачи экологических знаний студентам
64-69	**НАЗИЛЯ МУРАДОВА**	Трудности, возникающие при решении задач геометрического содержания в курсе математики начальных классов, и пути их преодоления
70-73	**КЯМАЛА ИБРАГИМОВА**	Актуальные проблемы преподавания дисциплины «Информатика»
74-77	**ДЖОШГУН ГУРБАНОВ** **РОВШАН БАГИРОВ** **НИЗАМИ ГУЛИЕВ**	Некоторые соображения о современном состоянии преподавания предмета технологии в средних общеобразовательных школах
78-81	**ЗЕНФИРА СЕИДОВА** **СЕВДА ОДЖАГГУЛИЕВА**	К вопросам проведения массовых мероприятий в музеях
82-84	**ЗИНЬЯТ АЛИЕВА** **НУРАЙ РЗАЕВА**	Особенности организации игр в группах в дошкольных учреждениях
85-88	**СЕВИНДЖ ЭЙЛАЗОВА**	Организация семинарных занятий в средних специальных учебных заведениях с интерактивными методами обучения
89-92	**ДИЛЬБАР ОРУДЖЕВА**	К вопросам концептуализации и метонимии
93-95	**ГЮЛЕР АСАДОВА**	Использование информационных технологий в образовательном процессе системы среднего специального и высшего образования

ПСИХОЛОГИЯ

96-100 **САЛАТЫН ГАДЖИЕВА** Психологический анализ отношений между учителем и учеником

ИСТОРИЯ

101-106 **АЛЕКБЕР ДЖАББАРЛЫ** Место Нахчывана в государственной деятельности Гейдара Алиева

107-113 **АЙТЕКИН ГАХРАМАНОВА** Из истории организации по транспорту, связи и энергетике обслуживания населения Шахбузского района

114-117 **ВАЛЕХ АЛИХАНОВ**
НАЗИМ АЛИЕВ Из истории развития бокса в Нахчыванской Автономной республике

ФИЛОЛОГИЯ

118-122 **САДАГАТ ГАСАНОВА** Адиль Бабаев и наш литературный язык

123-126 **ФАХРИЯ ДЖАФАРОВА** Поэтический язык Ашуга Алы

127-130 **ШАФАГ ВЕЛИЕВА**
БЕЙИМ ТАРВЕРДИЕВА
СЕВДА ГАДЖИЕВА Характерные особенности употребления фразеологизмов в современном английском языке

131-133 **НАХИДА ГЕЙДАРОВА** Эмоциональные аспекты концепта «любовь» (на материале твочцества У.Шекспира)

134-138 **САМИРА ГАСАНОВА**
ШАХЛА ФАТАЛИЕВА Особенности употребления предложений нерасчленённой структуры в азербайджанском литературном языке

139-142 **НИДЖАТ ЯГУБОВ** Лексико-семантические изменения ряда слов тюркского происхождения

143-146 **ГЮНЕЛЬ АСКЕРОВА** Советский период и нахчыванская жизнь журнала “Молла Насраддин”

МАТЕМАТИКА И ИНФОРМАТИКА

147-150 **САХИБ АЛИЕВ**
ДЖЕЙХУН АЛИЕВ
АЙГЮН ЭФЕНДИЕВА Решение некоторых задач с применением многочленов Чебышева I рода

151-157 **АБДУЛЛА ГАСАНОВ** О решении показательно-степенных уравнений в виде $(f(x))^{g(x)}=(f(x))^{p(x)}$

158-166 **АЗАД МАМЕДЛИ**
УЛЬВИ ВЕЛИЕВ О решении уравнений вида $f(f(x))=x$

167-170 **РУМИЯ МАМЕДОВА** К информатизации и цифровизации образования

БИОЛОГИЯ

171-175 **ЛОГМАН БАЙРАМОВ** Изучение форм айвы, выявленных на территории Ордубадского района, и изучение их помологических характеристик

176-178 **ИЛАХА СЕИДОВА**
ГЮЛЬТЕКИН ГАДЖИЕВА Экологические проблемы горных районов нахчыванской Автономной Республики

179-183 **ГЮНЕЛЬ ИБРАГИМОВА** К вопросам преподавания дисциплины «Физиология центральной нервной системы» в высших учебных заведениях

ИСКУССТВО

184-188 **ЛЯМАН МАМЕДОВА** О керамике с орнаментальными и сюжетными рисунками

189-193 **РУХИЯ ДУНЬЯМАЛИЕВА** Фикрет Амиров как создатель концертного жанра в Азербайджане

UOT 37.035.4

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 9-12
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 9-12
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 9-12

TƏLƏBƏLƏRİN İDEYA-SİYASİ TƏRBİYƏSİNİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

Müəllif:

Lalə Allahverdiyeva
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail:
laleallahverdiyeva@hotmail.com

Açar sözlər:
ideya-siyasi tərbiyə, vətənpərvərlik, ali məktəb tələbəsi, təlim prosesi, siyasi mədəniyyət, əqidəli gənc nəsil

Annotasiya. Məqalədə ali məktəb tələbələrinin ideya-siyasi tərbiyəsi məsələləri təhlil olunmuşdur. Elmi-pedaqoji ədəbiyyatda ideya və siyasi tərbiyə anlayışlarına dair yer alan fikirlər təhlil olunur, ideya-siyasi tərbiyənin tərbiyə işinin təşkilində əhəmiyyətinə diqqət yetirilir. İdeya-siyasi tərbiyənin təməli kimi vətənpərvərlik tərbiyəsinin məzmununa, ali məktəb tələbələrində vətənpərvəlik hisslərinin təzahürü və möhkəmlənməsi məqsədilə həyata keçirilən məqsədyönlü və planlı işlərin təşkilinə nəzər salınır. Həmçinin elmi pedaqoji ədəbiyyatda yer alan idealılıq anlayışına dair pedaqoqların şərhləri verilmişdir. Ali məktəb tələbələrinin idea-siyasi tərbiyəsinin formalaşması məqsədi ilə Naxçıvan Müəllimlər İnstitutunda həyata keçirilən tədbirlər qeyd olunmuşdur. İdea-siyasi tərbiyənin aşılanmasına tələbə şəxsiyyətinin inkişafına psixoloji təsir imkanları qeyd edilmişdir.

Author:

Lala Allahverdiyeva
Nakhchivan Teachers Institute
Doctor of philosophy in pedagogy, associate professor
E-mail:
laleallahverdiyeva@hotmail.com

Key word:
ideological and political education, patriotism, high school student, educational process, political culture, convinced young generation

ORGANIZATIONAL ISSUES OF IDEOLOGICAL AND POLITICAL EDUCATION OF STUDENTS

Abstract. The article analyzes the issues of ideological and political education of students of higher education. The ideas about the concepts of ideas and political education contained in the scientific and pedagogical literature are analyzed, attention is drawn to the importance of ideological and political education in the organization of educational work. The content of the education of patriotism as the basis of ideological and political education, the organization of purposeful and systematic activities carried out with the aim of manifesting and strengthening patriotic feelings among students of higher education are considered.

Автор:
Лале Аллахвердиева
Нахчыванский институт учителей
Доктор философии по педагогике, доцент
E-mail:
laleallahverdiyeva@hotmail.com

Ключевые слова:
идейно-политическое воспитание, патриотизм, студент вуза, учебный процесс, политическая культура, убежденное молодое поколение

ВОПРОСЫ ОРГАНИЗАЦИИ ИДЕЙНО-ПОЛИТИЧЕСКОГО ВОСПИТАНИЯ СТУДЕНТОВ

Аннотация. В статье проанализированы вопросы идейно-политического воспитания студентов высших учебных заведений. В ней анализируются содержащиеся в научно-педагогической литературе представления об идее и понятиях политического воспитания, обращается внимание на значение идейно-политического воспитания в организации воспитательной работы. Рассматривается содержание патриотического воспитания как основы идейно-политического воспитания, организация целенаправленной и планомерной работы, осуществляемой с целью проявления и укрепления патриотических чувств у учащихся высших учебных заведений. Также приведены комментарии педагогов по поводу понятия идеальности, содержащиеся в научно-педагогической литературе. Отмечены мероприятия, проводимые в Нахчыванском институте учителей с целью формирования идейно-политического воспитания студентов высших учебных заведений. Отмечены возможности психологического воздействия на развитие личности студента привития идейно-политического воспитания.

Tərbiyənin tərkib hissələrindən biri olan ideya-siyasi tərbiyə elmi pedaqogikada əks etdirdiyi məzmun və mahiyyətinə görə tarixi səciyyə daşıyır. İdeya-siyasi tərbiyə özündə ideya tərbiyəsi işi ilə siyasi tərbiyə işini birləşdirir. Buna görə də onun məqsədi, məzmunu və vəzifələri haqqında dolğun təsəvvürə malik olmaq üçün əvvəlcə ideya tərbiyəsi ilə siyasi tərbiyə barədə ayrı-ayrılıqda yığcam məlumat vermək lazım gəlir. İdeya yunan sözüdür, hərfi mənası - "anlayış", "təsəvvür" deməkdir. Fəlsəfi termin kimi bu söz - "məna", "mahiyyət" bildirir. Antik dövrdə Demokrit atomları ideya adlandırmış, Platon isə ideyanı konkret cisim və hadisələrdən kənarda yerləşən obyektiv reallıq hesab etmişdir. Orta əsrlərdə ideya ilahi ruha məxsus şeylərin timsalı kimi başa düşülmüş, sonrakı dövrlərin elmi-fəlsəfi ədəbiyyatında ideya obyektiv aləmin proses və qanunauyğunluqlarının, cisim və hadisələrin əks olunması, gerçəkliyi dərk etməyin yüksək forması kimi izah edilmiş və edilir.

Siyasi tərbiyə - bu, ideoloji işin mühüm tərkib hissəsidir və siyasətlə bağlıdır. Siyasət isə siniflər, millətlər və digər sosial qruplar arasında mövcud olan münasibətlərlə əlaqədar fəaliyyət sahəsidir. Siyasətin əsasında dövlət fəaliyyətinin məzmununu, formasını və vəzifələrini müəyyən etmək kimi məsələlər durur. Məktəbdə həyata keçirilən siyasi tərbiyə də, bu və ya digər dərəcədə olmaqla məhz həmin məsələlərlə şərtlənir.

Siyasi tərbiyənin məqsədi - onlarda dövlətə, ayrı-ayrı xalqlara və millətlərə, mövcud partiyalara və sosial qruplara düzgün, obyektiv münasibət formalaşdırmaq və bu münasibətə uyğun gələn fəaliyyət göstərməyi onlarda adət halına salmaqdır. Məzmununa aşağıdakılar daxildir: tələbələrdə siyasi şüur formalaşdırmaq, dünyada aparılan xarici və daxili siyasətin doğru, düzgün, ədalətli olub- olmamağını onlara dərk etdirmək, məktəbliləri inkişaf səviyyələrinə uyğun şəkildə bu məsələlərlə əlaqədar iş sahələri üzrə bilik, bacarıq və vərdişlərə yiyələndirmək, praktik fəaliyyətə alışdırmaq və s. İdeya-siyasi tərbiyənin vəzifəsi - qeyd olunan bu keyfiyyətləri tələbələrə alışdırmaqdan ötrü tələb olunan şəraiti yaratmaqdır. İdeya-siyasi tərbiyə şagirdlərdə elmi dünyabaxışının əsaslarını, ideya yetkinliyini, siyasi əqidə və maraqları, ictimai-siyasi fəallığı, həmçinin bunun üçün zəruri olan bilik, bacarıq və vərdişləri formalaşdırmağa xidmət edən məqsədyönlü təsirlər sistemidir və məqsədi yüksək əqidəyə və siyasi mədəniyyətə malik vətəndaşlar yetişdirməkdən, şagirdləri xalqın, vətənin mənafeyini dolğun əks etdirən ideologiya və siyasət ruhunda formalaşdırmaqdan ibarətdir. Məqsədə nail olmaq üçün məktəbli və tələbələrə aşılanan keyfiyyətlər toplusu məzmunu təşkil edir. Pedaqoji ədəbiyyatlardan birində göstərilir ki, ideya (hərfi mənası yunanca "anlayış", "təsəvvür" deməkdir) "məna", "mahiyyət" bildirən, həmçinin şüur və təfəkkürün kateqoriyaları ilə sıx bağlı olan fəlsəfi termindir [1, s.385]. Ayrı-ayrı dövrlərdə ideya anlayışını müxtəlif alimlər başqa-başqa mənalarda işlədiblər. Sonrakı dövrlərin elmi-fəlsəfi ədəbiyyatlarında ideya obyektiv aləmin proses və qanunauyğunluqlarının, cisim və hadisələrin əks olunması, gercəkliyi dərk etməyin yüksək forması kimi izah edilmiş və edilir. Aləmi dərindən və düzgün əks etdirən, həqiqəti təhrif etməyən, Vətənin, xalqın, kütlələrin mənafeyini güdən ideyalar içtimai prosesləri sürətləndirir, insanları ədalətin, xeyirxahlığın, yeniliyin bərqərar olmasına səfərbər edir.

İdeya tərbiyəsi, ideya-siyasi tərbiyə anlayışlarının mahiyyəti ilə bağlı fikirlərdə "ideya" terminə münasibət bildirmək təşəbbüslərinə elmi-pedaqoji mənbələrdə [2; 3; 5] çox rast gəlinir. Bu cür təşəbbüslərin əsasında isə ötən əsrin 70-ci illərinin sonlarında tərbiyənin (kommunist tərbiyəsinin) tərkib hissəsi kimi "ideya-siyasi tərbiyə" anlayışının dövriyyəyə çıxarılması olmuşdur. Tərbiyənin bu tərkib hissəsinin əsasında kommunist ideallığı prinsipi dururdu. Bu dövrdə "ideya inamı", "siyasi inam" ("убеждения политические"), "kommunistcəsinə inam" ("убежденность коммунистическая") və s. bu kimi anlayışlar altında siyasi ideologiyanın baxışlar sistemi, sovet adamlarının şüurlu surətdə mənimsəməli olduğu kommunizm idealları-na inam və sədaqət başa düşülürdü. İnsanların dövlət və ictimai fəaliyyət sahəsində fəal iştirakı kommunist partiyasının müəyyənləşdirdiyi kursa - içtimai hadisələrə sinfilik mövqeyindən yanaşmaya əsaslanırdı. Xalqların məqsəd və tələbatlarını sinfi maraqlara yönəltməklə nəticədə milli ideologiyanı, milli mənəvi dəyərləri saxta sovet vətənpərvərliyi və proletar beynəlmiləlçiliyinə qurban vermək kommunist ideologiyasının mahiyyətini təşkil edirdi. Mərhum professor B.Əhmədov pedaqogikaya aid məlum vəsaitində də "Şagirdlərin ideya-siyasi tərbiyəsi" adlı oçerkini daxil etməklə, Azərbaycanda bu məsələ ilə bağlı

ilk fikir söyləyən pedaqoqlardan olmuşdur. Onun fikrincə "İdeya-insanın... öz mənafeyini dərk etməyə olan daxili tələbatı ilə bağlıdır. Bu mənada idrak da tələbatdır, amma mənafeyin başa düşülməsinə yox, obyektiv həqiqətin dərk olunmasına yönəldilmiş tələbatdır" [1, s.251].

V.A.Suxomlinski uşaqların ideya tərbiyəsindən bəhs edərkən yazırdı: "İdeyalar ürəkdə yaşadıqları zaman qiymətli, müqəddəs qaydalar olurlar. Ona görə də gənc ürək zəngin ideya həyatı ilə yaşamalıdır... Gəncliyi tərbiyə etmək ustalığı, qarşısında içtimai həyat aləminin açıldığı hər kəsin yaxşılığın yalnız mübarizə, yalnız mərdlik, yalnız əmək, yalnız bütün qütblərin gərginliyini bildirdiyi vəziyyətlərdə öz mövqeyini düzgün təyin edə bilməsindən ibarətdir. Əsil tərbiyəçini təkcə nəciblik atəşində yandıran qızğın ürəyi deyil, həm də müdrikliyi, bacarığı olmalıdır. Gənclərə yaşamağı öyrətmək lazımdır" [4, s.49]. İdeyanın dərk edilməsi ağıl və ürəklə başa düşmə, əxlaqi həqiqətə, prinsipə şəxsi münasibətin formalaşması deməkdir. Bu isə o zaman mümkündür ki, şagirdin daxili mənəvi aləminə müraciət olunsun. İdeyalar təcrübədən götürülmüş ətraf aləmin düzgün və ya təhrif olunmuş inikasıdır. Pedaqoji ədəbiyyatda tez-tez rast gəldiyimiz "ideyalılıq" məfhumunun mahiyyətinə gəldikdə isə, bu terminin altında müəyyən ideyalar sisteminə və ona uyğun sosial, mənəvi və estetik ideallara tərəfdar olmaq, nəzəriyyə və praktikada onlara sadiq qalmaq başa düşülür. İdeyalılığın obyektiv meyarı inkişaf etdirilən baxışların, nəzəriyyələrin və ya içtimai fəaliyyətin sosial əhəmiyyətindədir. İdeyalılıq nümayiş etdirə bilmək, içtimai tərəqqinin, inkişafını dialektikasını başa düşmək, daim yaradıcı fəaliyyətdə olmaq, yeniliyə can atmaq, ona fəal münasibət göstərməkdir. V.A.Suxomlinski tövsiyə edirdi ki, "İdeala inam, ideal insana oxşamaq arzusu haqqında yeniyetmə qoy çox düşünsün. ...Şagirdləri Mayakovskinin dediyi kimi, "kiminsə həyatı" əsasında öyrətmək lazımdır" [3, s.60]. Professor Bəşir Əhmədovun belə bir müddəası ilə razılaşmaq lazımdır ki, şagirdlərin ideyaya inam tərbiyəsi işində biliyin (əxlaqi və idraki biliklərin) əqidəyə çevrilməsinə nail ola bilmək zəruridir. Tədqiqatçı alim biliyin əqidəyə çevrilməsi üçün bir sıra şərtlərə əməl etməyi vacib sayır ki, bu şərtlərdən aşağıdakılar daha səciyyəvidir: "- Şagirdin (tələbənin- L.Allahverdiyeva) ideyanı dərk etməsi, onun həqiqiliyinə və cəmiyyət, xalq üçün faydalı olmasına dərindən inanması, həmin ideya uğrunda var qüvvə ilə mübarizə aparması, ideyanın ruhuna uyğun hərəkət etməsi; - İdeyaya zorla, qorxunun təsiri ilə yox, daxili inam sayəsində yiyələnməsi, onu öz varlığının, həyatının mühüm komponenti kimi qəbul etməsi; - Şagirdlərin (tələbələrin- L.Allahverdiyeva) rassional və emosional aləminə vəhdət şəklində təsir göstərmək, onların ağıl və hisslərini qarşılıqlı əlaqədə inkişaf etdirmək zəruriliyi" [1, s.259].

F.Sadıqov yazır ki, "ideya" sözü bir anlayış kimi hələ antik dövrdən mövcuddur. Filosofların fikrinə istinad etsək deməliyik ki, daimi və dəyişməz ideya yoxdur. İnsanların ideyası təbii olaraq onların həyat tərzinə, maddi rifahına, cəmiyyətdəki mövqelərinə uyğun olaraq dəyişir, püxtələşir və beləliklə, insan özü də şəxsiyyət kimi formalaşmağa başlayır. Şəxsiyyət isə cəmiyyətə rəngarəng tellərlə bağlı olan bir ictimai varlıqdır. O, cəmiyyətin tərəqqisi ilə əlaqədar olaraq inkişaf edir və dəyişir. Dahi filosoflarımızdan Əbülhəsən Bəhmənyar Əl-Azərbaycani özünün "Ət-təhsil" əsərində göstərir ki, ictimai münasibətlərin yaradıcısı və içtirakçısı olan insan gercəkliyi düzgün dərk etdiyi təqdirdə güçlü şəxsiyyətə çevrilir. Hegelə görə, şəxsiyyət insan ruhunun daha dərin prinsipinin azad fəaliyyət prinsipinin dərk edilməsinin və idrakın ümumiliyinin və mədəniyyətinin məhsuludur. Deməli, insan ictimai münasibətləri yaratması, onun iştirakçısına çevrilməsi gercəkliyini düzgün dərk etməsi və beləliklə, əsl şəxsiyyətə çevrilməsi, onun əsas ideyasıdır. Hansı ki, bu keyfiyyətlərin əsas komponentlərini milli mənlik şuurunun yaradılması, milli-mənəvi və bəşəri dəyərlərin yaradılması, Vətən torpaqlarının yad nəzərlərdən qorunması, onun ekologiyasının saflaşdırılması, dövlət mənafeyinin şəxsi mənafedən üstün tutulması və s. təşkil edir. Bütün bunların məntiqi davamı kimi, yetişən gənc nəslin nümayəndələrini bir şəxsiyyət kimi formalaşdırmaq üçün onlarda siyasətçilik keyfiyyətlərinin aşılanması da ön plana çəkilmişdir".

"Ali məktəb tələbəsinin tərbiyəsi deyərkən, onun dünyagörüşünün, qabiliyyətlərinin, şüurluluğunun, məsuliyyət hissinin, intizamlılığın, özünütənqid və özünütərbiyənin, özünüdərk və özünü idarə etməyin, adamlarla işləmək bacarığının və digər şəxsi keyfiyyətlərinin inkişafı məqsədilə psixologiyasına fəaliyyət və davranışına edilən məqsədəuyğun təsirlər başa düşülür.

Ali təhsil müəssisəsində tələbənin tərbiyəsinin əsas istiqamətləri aşağıdakılardır: 1. aktiv təlim fəaliyyətinin təmin edilməsi; 2. ictimai və digər tapşırıqların verilməsi və icrası; 3. motivlərin inkişaf etdirilməsi və s." [6, s.509]. Tərbiyə nəzəriyyəsində mövcud olan prinsip və metodların düzgün tətbiqi tələbənin tərbiyəsi işinin təşkilində xüsusi əhəmiyyət kəsb edir və bu meyar kadr hazırlığı işində effektivliyin artmasına səbəb olur.

Naxçıvan Müəllimlər İnstitutunda tələbə heyətinin ideya-siyasi tərbiyəsinə dair tədbirlər aşağıdakı prinsiplər rəhbər tutularaq həyata keçirilir: - təşkilati-idarəetmə; - metodiki təminat; - nəzarət prinsipləri. İnstitutun ümumi iş planına uyğun olaraq təlim-tərbiyə işi həyata keçirilir.

Dövlətçilik ideologiyası əsasında tələbələrin vətəndaş-vətənpərvər tərbiyəsinin daha da təkmilləşdirilməsi, sosial fəal şəxsiyyətin formalaşdırılması, onlarda sağlam həyat tərzinin tərbiyə edilməsi, tələbələrin asudə vaxtlarının mənalı və səmərəli keçirilməsi, tələbə təşkilatı ilə bağlı nəzərdə tutulan bütün işlər institutda ideoloji və tərbiyəvi işlərin təşkilində prioritet istiqamətlərdir. Naxçıvan Müəllimlər İnstitutunda sadalanan bu sahələr konkret şəxslərə - Tədris və tərbiyə işlərə izrə prorektora, Tələbə Gənclər Təşkilatına tapşırılır və bu işlər daim institutun rəhbərliyinin sıx nəzarəti altında həyata keçirilir. Qlobal dünyada yeni cəmiyyətlərin həmişə yeni ideologiyalara ehtiyacı olur. Bu gün gənclərin vətənpərvərlik tərbiyəsi ideoloji işin ən vacib vəzifələrindən biri olaraq qalır. Vətənpərvərlik-sağlam düşüncə və təmiz qəlbə malik insanlarda ən ali bir hissdir, Açıq qəlbli və səxavətli olmaq, vətənini canından artıq sevmək, tolerantlıq, həqiqəti və ədaləti sevmək - bu, bizim xalqa xas olan cizgilər və keyfiyyətlərdir. Vətənpərvər insanlar da bu keyfiyyətləri özündə daşıyan insanlardır. Düşünürük ki, qlobal dünyada baş verən siyasi, iqtisadi, təhsil, texnologiya, səhiyyə və s. istiqamətlərdə müşahidə olunan yeniliklər hər bir dövlətin özünü mühafizə etməsi, yad ünsürlərdən qorunması, ərazilərini müdafiə etməsi, sağlamlığının qayğısına qalmasını tələb edir. Bu istiqamətlər üzrə işin yüksək şəkildə təmin və təşkil edilməsində gənclərin – dövlətçilik ənənələrinə sadiq tərbiyə işinin yaradılması isə mütləq şərtlərdən biridir. Bunun üçünsə istər ümumitəhsil, istətsə də ali təhsil müəssisələri səfər olmalı, qarşıya qoyulmuş məqsədlərə sadaqətlilik nümayiş etdirməlir.

Ədəbiyyat:

1.Əhmədov, B.A., Rzayev A.Q. Pedaqogikadan mühazirə konspektləri / B.A.Əhmədov, A.Q. Rzayev – Bakı: Maarif, – 1983. – 352 s.
2. Kazımov, N.M. Məktəb pedaqogikası / N.M. Kazımov – Bakı: Çaşıoğlu, – 2002.
3. Sadıqov, F. Pedaqogika. Dərs vəsaiti / F.Sadıqov – Bakı: Adiloğlu, – 2012.
4. Suxomlinski, V.A. Vətəndaşın doğulması / V.A.Suxomlinski – Bakı: Maarif, –1975. – 364 s.
5. Təlim-tərbiyə prosesinin aktual məsələləri / S.M.Zeynalov – Bakı: Maarif, –1990. – 230 s.
6. Rüstəmov, F., Dadaşova, T. Ali məktəb pedaqogikası. Magistratura pilləsi üçün dərslik / F.Rüstəmov, T. Dadaşova – Bakı: Nurlan, – 2007. – 568 s.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 06 fevral 2022-ci il
Son daxilolma tarixi:29 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 37.013.75+159.922.4

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 13-16
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 13-16
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 13-16

MİLLİ ŞÜURUN FORMLAŞDIRILMASI MƏSƏLƏLƏRİNƏ DAİR

Müəlliflər:

Tahirə Həsənova
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: tahire.h@mail.ru

Səbuhi Ələkbərov
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant

Açar sözlər:
milli şüur, xalq, artibut, bəşəri dəyərlər, azərbaycançılıq, milli ideologiya

Annotasiya. Məqalənin tədqiqat obyektini milli şüur məsələsi təşkil edir. Tarixi və müqayisəli metodlar əsasında tədqiqat aparılmış, mövzu elmi baxımdan şərh edilmişdir. Bildiyimiz kimi, milli şüur hər bir xalqın milli varlığının əsas atributlarından biri kimi çıxış edir. Azərbaycan milli şüuru dedikdə bu şüur ümumtürklüyü, Şərq islam və milli özünəməxsusluğu, ümumbəşəriliyi, azərbaycançılığı ilə fərqlənir. Milli şüur, həm də milli mənəvi dəyərləri özündə əks etdirən bir anlayışdır. Hər bir xalqın həyatında mühüm rol oynamaqla yanaşı, həm də xalqın öz varlığını əksetdirmə formasıdır. Bir millətin var olması isə onun milli şüuru ilə ölçülür. Hər bir xalqın milli şüuru onun malik olduğu adət-ənənələrdə, yaşam tərzində öz əksini tapır. Eyni zamanda, vətənsevərlik, vətənpərvərlik və milli dövlətçilik ənənələri də məhz milli şüurun tərkib hissəsi kimi çıxış edir.

Author:

Tahira Hasanova
Nakhchivan Teachers Institute
Doctor of Philosophy in Pedagogy
E-mail: tahire.h@mail.ru

Sabuhi Alakbarova
Nakhchivan Institute of Teachers
Master

Key word:
national consciousness, people, artibut, human values, azerbaijanism, national ideology

ON THE ISSUES OF FORMING NATIONAL CONSCIOUSNESS

Abstract. The object of research of the article is the issue of national consciousness. Research was carried out on the basis of historical and comparative methods, the topic was interpreted from a scientific point of view. As we know, national consciousness acts as one of the main attributes of the national existence of every nation. According to the national consciousness of Azerbaijan, this consciousness is distinguished by its Turkish universalism, Eastern Islamic and national identity, universalism, azerbaijanism. National consciousness is a concept that also includes national moral values. In addition to playing an important role in the life of every nation, it is also a form of reflection of the people's own existence. The existence of a nation is measured by its national consciousness. The national consciousness of each nation is reflected in its traditions and way of life. At the same time, the traditions of patriotism, patriotism and national statehood act as an integral part of national consciousness.

Автор:
Тахира Гасанова
Нахчыванский институт учителей
Доктор философии по педагогике
E-mail: tahire.h@mail.ru

Сабухи Алекберов
Нахчыванский институт учителей
Магистрант

Ключевые слова:
национальное сознание, народ, артибут, человеческие ценности, азербайджанство, национальная идеология

К ВОПРОСАМ ФОРМИРОВАНИЯ НАЦИОНАЛЬНОГО СОЗНАНИЯ

Аннотация. Объектом исследования статьи является вопрос национального сознания. Исследование проводилось на основе исторических и сравнительных методов, предмет трактовался с научной точки зрения. Как мы знаем, национальное сознание выступает одним из главных атрибутов национального бытия каждого народа. Под азербайджанским национальным сознанием это сознание отличается своей общечеловеческой, Восточной исламской и национальной самобытностью, общечеловечеством, азербайджанством. Национальное сознание-это также понятие, отражающее национальные духовные ценности. Он не только играет важную роль в жизни каждого народа, но и является формой отражения народом собственного бытия. С другой стороны, существование нации измеряется ее национальным сознанием. Национальное сознание каждого народа находит свое отражение в его традициях, образе жизни. При этом традиции патриотизма, патриотизма и национальной государственности выступают именно как составляющие национального сознания.

Qeyd edək ki, hər bir xalqın milli varlığının əsas atributlarından biri milli şüurdur. Azərbaycan xalqının milli şüuru və azərbaycançılıq ideyası vəhdət təşkil edərək, onun mövcudluğunu və inkişafını şərtləndirən amillərdən biri kimi çıxış edir. Azərbaycan milli şüuru dedikdə bu şüur ümumtürklüyü, Şərq islam və milli özünəməxsusluğu, ümumbəşəriliyi, müasirliyi, azərbaycançılığı ilə fərqlənir.

Milli şüur geniş anlayışdır. Geniş anlayış olan milli şüur, bir çox anlayışları özündə birləşdirir. Bunlardan biri də mənəvi dəyərlərdir. Şüur anlayışı ümumi, milli şüur isə həm ümumi, həm də xüsusi olur. Fərdi şüurla ümumi şüur arasında əlaqələndirici keyfiyyət vardır. Bildiyimiz kimi, hər bir fərd etnik, dini, mədəni xüsusiyyətləti ilə tanınır. Bütün bunlarda milli şüurda öz əksini tapmış olur. Bununla yanaşı, milli şüurda ümumi mahiyyətli bəşəri dəyərlər də öz əksini tapa bilər. Yəni hər birimiz konkret bir millətin, dinin, mədəniyyətin nümayəndəsi hesab edildiyimiz halda, digər tərəfdən bəşəriliyə aid əlamətlərin də daşıyıcısı oluruq.

Qeyd edilir ki, milli şüur nəsil, qan birliyinə əsaslanır. Bu isə belə deyildir. Bu mənada, milli şüur-milli ruh yalnız nəsil, qan birliyi əsasında formalaşa bilməz. Bu belə olarsa milli ideologiyanı qan-nəsil birliyi ilə necə formalaşdırmaq olar. Əlbəttə ki, çox çətin olar. Ona görə də, milli ideologiyanı formalaşdırmaq istəyiriksə ilk öncə milli şüuru formalaşdırmağa çalışmalıyıq.

Biz türklüyə, islamlılığa, çağdaşlılığa, ən əsası və azərbaycançılığa malik bir xalqıq. Bu anlayışların da inkişafına xüsusi diqqətlə yanaşmalıyıq. Həm də bizdə azərbaycançılığı ifadə edən yeni bir milli şüura ehtiyacımız var. Burada əsas məsələ dilimizi, dinimizi, inanc və etiqatlarımızı sevməli, müasitləşməyə doğru inkişaf etməliyik. Bu gün müasirlik, yeniləşmə zəmanənin tələbləri ilə bağlıdırvə biz də buna doğru getməliyik.

Bu gün "Milli şüur" və "milli özünüdərk" anlayışları qoşa işlədilir. Öyrəndiklərimizə, apardığımız tədqiqatlara əsaslanaraq deyə bilərik ki, "milli şüur" anlayışı "milli özünüdərk"dən daha konkret spesifik məzmuna malikdir. Belə ki, "milli şüur" millətin özü barədə biliklərini səciyyələndirir, onun adət-ənənəsini, milli mənəvi dəyərlərini birləşdirir. "Milli özünüdərk" isə daha çox bu millətin özünü başqa etnoslarla müqayisəsi nəticəsində aktuallaşan bilikləri nəzərdə tutur. Çünki hər bir xalqın özünəməxsus xüsusiyyətləri ənənələri vardır. Lakin hər halda bu anlayışlar bir-birini tamamlayan anlayışlardır.

Milli şüur hər bir etnosun həyatında böyük rola malikdir. Belə ki, milli şüur etnosun həyatında məna daşıyan, nizamlayıcı, ruhi başlanğıc hesab edilir. Həm də etnosun varlığı kimi onun milli şüuru iştirak edir. Varlıq deyəndə isə maddi və mənəvi gerçəkliklərin vəhdəti əsas götürülür. .

Azərbaycan xalqının etnik və milli şüurunun formalaşması da uzun zamanın məhsulu kimi çıxış edir. Burda xalqın özünü dərk etməsi məsələsi önəm kəsb edir. Bir xalq ilk öncə özünü dərk edə bilmirsə, özünü tanıya bilmirsə milli mənlik şüurundan söhbət gedə bilməz. Eyni zamanda, Xalqın özünəməxsus dəyərlər sistemi də burda əsas rola malikdir. Dəyərlər sistemi isə onun real tarixi gedişində formalaşır. Bu sistem onun milli vərdişləri ilə hansı ki, həyat tərzi, taleyi, təbii və sosial mühiti ilə şərtlənmişdir. Bir millət kimi, bizdə, yəni Azərbaycanda Milli şüur formalaşmasa idi, biz bir millət kimi yüksələ bilməz, kimliyimizi təsdiq edə bilməzdik. Milli şüur əsasında varlığımızı sübut etmiş olduq, əks təqdirdə millət kimi yox olar, tarix səhnəsindən silinmiş olardıq. Milli şüur bizi mənəvi tamlığa çevirdi, xalq olaraq tanındıq, kimliyimizi bütün dünyaya tanıtdıq.

Məlumdur ki, insan öz mədəniyyəti, sosial davranışı və təfəkkürü ilə şərtlənir. bunlarsız isə insan kimi fəaliyyət göstərə bimir. İnsani kommunikasiya vasitəsi kimi də çıxış edir.

Milli şüur, milli ideya dedikdə onun mənasına fikir verilməlidir. Bu ifadələr bəzən etnik mənada başa düşülür. Bu, isə doğru deyildir. Qeyd etdik ki, milli şüur hər şeydən öncə dil, mədəniyyət və qan-nəsil birliyi əsasında formalaşır. Hər bir insanın danışdığı dili onun milli varlığıdır. Elə bir varlıq ki, özünü onunla ifadə edir. Bu baxımdan dil bizim kimliyimizdir. Dil bizim özümüzü dərkimizdir. Dil həm də azərbaycanlılıq milli şüurun özünüdərk nümunəsidir. Deməli, əgər milli şüur formalaşdırmaq istəyiriksə, burda birinci yerdə dil dayanır.

Eyni zamanda həm sosial, həm də milli səciyyə daşımaqla dil zəruri olaraq özündə dünyagörüşü, etnik və mədəni dəyərlərin özəlliklərini və həmçinin bu və ya digər dil icmasına xas davranış normalarının izlərini əks etdirir [1, s.39-47].

Hər bir xalqın dili onun milli-mənəvi dəyərlərini yaşadan bir faktordur. Dil həm də xalqın milli kimliyini müəyyən edən mühüm bir amil-

dir. Əsas atribut hesab edilən dil xalqın varlığı ilə bağlıdır. Dil, milliyyətin təstiqi, kimliyidir. Dilsiz bir heç olub gedərdik. Milli kimliyimizin əsası kimi çıxış edən dil bizi bir xlq kimi yaşadır və tanıdır. Dilinə sahib çıxan millət və insanlar ölməzdir. Demək ki, dil milli şüurun özəyini və milli dövlətçilik ənənələrinin əsas qayəsini təşkil edir.

Deməli, milli şüur birbaşa milli təfəkkürə söykənir. Milli təfəkkürü milli dövlətdən ayrı düşünmək qeyri-mümkündür. Hətta ulu öndər Heydər Əliyev də milli şüur məsələsini diqqətdə saxlamış, millilikl ümumbəşəriliyin vəhdətini qeyd etmişdir. Öndər Heydər Əliyevin ifadəsi ilə desək, qloballaşma prosesinin verdiyi imkanlardan istifadə edərək, yəni sahib olduğumuz milli dəyərləri qarşılıqlı münasibətlərdə başqa millətlərə aşılamaq bir millət olaraq bizim üçün vacib məsələdir [2, s.391].

Dil və milli şüur milli kimliyin vacib elementləri hesab edilir.

Tarixdən məlumdur ki, XIX əsrin ortalarından başlayaraq çar Rusiyasının Azərbaycanı işğal etmək ideyası baş qaldırır. Bu işğal nəticəsində bəzi torpaqlarımız işğal edildi. İşğal altında olan Şimali Azərbaycanda yaşayan xalqlar öz milli varlıqlarını yaşatmaq üçün əllərindən gələni etmiş, burda yaşayan müxtəlif türk tayfaları dil və mədəniyyət birliyindən çıxış edərək milli varlıqlarını ifadə etməyə çalışmışlar. Bir millətin yaşaması, özünü təstiq etməsi üçün dil və mədəniyyətlərinə sahib çıxmalı idilər. Bu o dövrdə böyük bir hadisə idi. Bunun səbəbidir ki, Azərbaycan türk ziyalıları da çağdaş dövrün tələblərinə uğyunlaşmış, dil və mədəniyyətlərinə sahib çıxaraq özlərini təstiq etmişlər.

Belə ki, əvvəllər Bakıxanov, Axundzadə, Zərdabi kimi Azərbaycan mütəfəkkirlərinin də milli şüura yanaşması fərqli idi. Milli şüur məsələsini hər hansı milli və dini məsələyə ilə məhdudlaşdırmamışlar. Onlar milli şüura Qafqaz-Azərbaycan türklərinin səviyyəsində yanaşmışlar. Bu səbəbdəndir ki, bütün hallarda milli şüurun müasir dövrün tələblərinə uyğunluğu nəzərə alınmış, yeni dövrün tələbinə uyğun şəkildə formalaşması prosesi başlamışdır.

Tarixdən də məlumdur ki, bu bölgədə Azərbaycan türkləri də yaşamış və onlar qədər milli şüuru formalaşan ikinci bir xalqa təsadüf edilməmişdir Ona görə də, XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan da milli oyanış baş verir. Və bu milli oyanışda Azərbaycan türkləri öncül yerlərdən birini tutmuşlar. Milli şüurun formalaşdırılması prosesi daha da sürətlənmiş, bu yolda ciddi addımlar atılmışdır. Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşı, M.Ə.Rəsulzadə və b. sonunda anlamışlar ki, milil varlıqlarını ifadə etmək üçün ən güclü silahlardan biri türkçülükdür.

Deməli, milli şüurun formalaşmasında türkçülük mühüm rola malikdir. Belə ki, çar Rusiyasının ideoloqları tərəfindən Azərbaycan türklərinin milli kimliyi və milli dili saxtalaşdırılır həm də sıxışdırılırdı. Lakin onlar milli dil vasitəsilə milli şüurun oyanmasında mühüm rol oynamış, buna nail ola bilmişlər.

Tarixən "müsəlman", "tatar" adı altında Azərbaycan türklərinin milli kimliyini, habelə dili saxtalaşdırmağa çalışmışlar. Beləcə, Azərbaycan türklərinin milli şüuru parçalanmışdır. Sonradan bu şüur türkçülük əsasında formalaşmağa başladı. Beləcə, türklük milli şüurun formalaşmasında mühüm rol oynayaraq islamlıq və müasirlikdən önəmli olmasını sübub etdi. Beləliklə, formalaşan Azərbaycan türkçülüyü Azərbaycan xalqının milli şüurunun formalaşmasında təkanverici amil oldu.

Şübhəsiz, XX əsrin əvvəllərində milli şüurun formalaşmasında sanki bir irəliləyiş özünü göstərdi. Bu zaman çar Rusiyasında baş verən tarixi hadisələr də milli şüurun formalaşmasına təsirsiz qalmadı. Əvvəllər tayfa-xanlıqlar şüuru aparıcı idisə, artıq bu şüurdan uzaqlaşır, milli şüuru formalaşdırmağa başlayırlar. Beləcə, Azərbaycanda milli şüurun formalaşması baş verir.

Sonradan bu ifadə öz əksini "türk kimliyi", "türk dili", "türk mədəniyyəti", "türk tarixi", "türk ədəbiyyatı" anlayışı şəklində tapdı. "Açıq söz" qəzetinin şüarı kimi səslənən türkləşmək, müasirləşmək və islamlaşmaq sonradan milli şüurun formalaşmasında həlledici rol oynadı [4]. Çünki milli şüur öz təzahürünü məhz bu anlayışlarda tapırdı. Bunlarda milli şüurumuza təsir edərək onun formalaşmasını təmin etdi.

Amma belə çətin bir dövrdə, müxtəlif ideyaların formalaşdığı bir dönəmdə milli şüurun formalaşması heç də asan olmamışdır. Bu dövrdə milli şüurun formalaşması prosesinə əngəl olmağa çalışan qüvvəllər mövcud idi. Belə ki, marksistlər və sosialistlər, mühafizəkarlar və ittihadçılar milli şüur anlayışını qəbul etmir, hər vəclə bu prosesə əngəl olmağa çalışırdılar. Onlar milli şüur anlayışını dərk edə bilmir, düşünürdülər ki, milli şüura yiyələnmək sosializmin və islamiy-

yətin qələbəsinə mane olmaq deməkdir. Onların fikirlərinə görə, Azərbaycan milli ideyası utopiyadan başqa bir şey deyildir. Azərbaycan milli ideyasınə "İslam birliyi"nə, yaxud da sosializm hərəkatına bir zərbə kimi də qiymətləndirirdilər. Parlamentin ilk iclaslarının birində Rəsulzadə bunları nəzərə alaraq demişdir ki, vaxtilə Azərbaycan milli ideyası irəli sürüləndə mühafizəkar islamçılar bunu "İslam birliyi"ni parçlamaq, sosial-demokratlar isə dünyada sosializmin qalib gəlməsi ideyasına xəyanət kimi görmüşlər. Ancaq Cümhuriyyət yarandıqdan sonra istər mühafizəkar islamçılar, istərsə də sosialistlər Azərbaycan milli ideyasını iki əllə müdafiə edirdilər.

Rəsulzadənin bu tarixi çıxışından sonra bu qənaətə gəlmək mümkündür ki, həmin dövrdə milli şüurun qalib gəlməsi bir çoxlarını narahat edirdi, Azərbaycanda milli şüurun qələbəsini çoxlarını təmin etmir, buna görə də həzm edə bilmirdilər. Çünki biz türklüyə əsaslanan milli şüura sahib olduq. Sonra bu şüur islami və demokratik dəyərlərə əsaslanmağa başladı. Beləliklə, bütün bunların vəhdəti nəticəsində Azərbaycanda azərbaycanlılılq şüuru formalaşmış oldu.

Beləliklə, azərbaycanlılılq şüuru özündə təkcə dil, qan və mədəniyyət birliyinə əsaslanan türkçülüyü əks etdirmirdi. Eyni zamanda, bura islam, vətən və dövlət şüurunu da daxil edilirdi. Göründüyü kimi, türkçülük milli şüurun əsas xətlərindən biri hesab edilir.

Deməli, milli şüur öz-özlüyündə formalaşmır. Bunu yaradan xalqdır. Çünki xalq öz milli şüuru ilə tanınır. Milli şüur hər bir xalqın vətənpərvərlik və milli dövlətçilik ənənələrindən xəbər verir. Bu ənənələr isə qorunur, gələcək nəsillərə ötürülür.

"Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" deyən Heydər Əliyev azərbaycançılığı milli ideologiya olaraq irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi [3, s.123].

Bu gün gənc nəslin bu ruhda tərbiyə alması xüsusi əhəmiyyət kəsb edir. Vətəni sevmək, doğma yurda məhəbbət bəsləmək hər bir gəncin borcudur. Məhz bunun səbəbidir ki, biz 44 günlük müharibədə qələbə çaldır. Torpaqlarımızı azad etdik. Bütün bunlara qəlbində vətən sevgisi olan əsgərlərimizin qəhrəmanlığı nəticəsində nail olduq. Vətən üçün canlarından keçdilər. Şəhidlik zirvəsinə ucaldılar. Bununla bütün dünyaya gücümüzü, birliyimizi sübut etdik.

Hər bir xalqın özünəməxsus keçmişi vardır. Hər bir xalq öz keçmişinə söykənir, orda əldə etdiyi dəyərləri yaşatmağa çalışır. Bu mənada biz xöşbəxt xalqıq. Qədim xalq kimi Azərbaycan xalqının da şərəflə dolu bir keçmişi vardır. Bu keçmişdən bizə çox şey, ən əsası isə mənəvi dəyərlərimiz miras qalmışdır. Deməli, bizim qürur duya biləcəyimiz vətənimiz, torpağımız, milli-mənəvi dəyərlərimiz vardır. Hər bir Azərbaycan vətəndaşı bunlarla qürur hissi keçirtməli, onları qoruyun yaşatmalıdır. Keçmişdən bizə miras qalan bu zəngin xəzinə gələcək nəsillərə çatdırılmalı, xalq kimi nələrə qadir olmağımızı bütün dünyaya sübut etməliyik.

Bir sözlə, hər bir xalq özünəməxsus milli şüura malikdir. Hər bir xalq milli şüurunu inkişaf etdirməli, xalqının gələcək inkişafını əsas tutaraq onun yolunda fəfəkarlıq göstərməyi bacarmalıdır. Hər bir insan adət-ənənələri, milli dəyərləri dəyərləndirə bilməli, bunun üçün çalışmalıdır. Hər bir millətin tarix qarşısında öz missiyası var. Belə ki, hər bir millət öz gələcəyini aydın, işıqlı və xoşbəxt görmək üçün irəliyə doğru inamla addımlayır.

ƏDƏBİYYAT

1. Qurbanov, A. Milli şüur və milli dil qloballaşma şəraitində. Elm və İnnovativ // – Bakı: Texnologiyalar jurnalı. – s.39-47.
2. Xəlilov, S. Mədəniyyət fəlsəfəsi. / S.Xəlilov – Bakı: – 2007.
3. Xudiyev, N. Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli. / N.Xudiyev– Bakı, – 2006.
4. Azərbaycanda milli şüur məsələsi: tarix və çağdaşlıq - Modern ...https://modern.az › news

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Fərahim Sadiqov tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 08 fevral 2022-ci il
Son daxilolma tarixi:15 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 37.035.6

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 17-19
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 17-19
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 17-19

MÜASİR PEDAQOQ MƏNƏVİ-ƏXLAQİ DƏYƏRLƏRİN VƏ YARADICI ƏMƏYİN DAŞIYICISI KİMİ

Müəllif:

Arzu Səfərova
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə fəlsəfə doktoru

E-mail:
safarovaa3@gmail.com

Açar sözlər:
Pedaqoqun fəaliyyəti, inkişafetdirici qabiliyyət, təfəkkürünün inkişafı, ünsiyyət, şəxsi pedaqoji qabiliyyətlər

Annotasiya. Məqalə müasir mərhələdə pedaqoqun fəaliyyətinin düzgün qurulması üçün ona məxsus mühüm pedaqoji keyfiyyətlərin təhlilinə həsr olunmuşdur. Qeyd olunur ki, müəllim dərin biliyə, yaradıcı təfəkkürə malik olmaqla yanaşı, həm də bilik və bacarığını mənimsətməyi də bacarmalıdır. Bu qabiliyyətə malik olan müəllim şagird kollektivini təşkil edə bilir, ünsiyyət qurmağı, vaxtını səmərəli bölməyi və ona nəzarət etməyi bacarır.Müəllim şagirdlərin daxili aləminə nüfuz edə bilməli, onları duymalı, şəxsiyyətlərini qiymətləndirməyi bacarmalıdır. Bunun üçün müəllim-şagird ünsiyyəti birinci planda durur. Təcrübə göstərir ki, müəllim şəxsiyyəti təkcə dərs zamanı deyil, dərsdənkənar və məktəbdənkənar yerlərdə də şagirdin daxili aləminə müstəsna təsir göstərir. İdeal müəllimə yaranan məhəbbət onun tədris etdiyi fənnə də yaranır. Araşdırmalar göstərir ki, ideala çevrilən müəllimlər uşaqları sevən və ixtisasına bağlanandır.

Author:

Arzu Safarova
Nakhchivan Teachers Institute
Doctor of Philosophy in Mathematic
E-mail:
safarovaa3@gmail.com

Key word:
educator's activity, developing ability, development of thinking, communication, personal pedagogical abilities

A MODERN EDUCATOR AS A BEARER OF SPİRİTUAL AND MORAL VALUES AND CREATİVE LABOR

Abstract. The article is devoted to the analysis of important pedagogical qualities inherent in the educator for the correct Organization of his activities at the modern stage. It is noted that the teacher must have deep knowledge, creative thinking, as well as be able to master his knowledge and skills. Having this ability, a teacher is able to organize a collective of students, is able to communicate, effectively divide his time and control it. The teacher must be able to penetrate the inner world of students, hear them, be able to evaluate their personality. For this, teacher-student communication is in the first plan. As practice shows, the personality of the teacher has an exceptional effect on the inner world of the student not only during the lesson, but also in extracurricular and extracurricular places. The love that arises for the Ideal teacher also arises for the subject he teaches. Studies denote that teachers who become ideal are those who love children and are attached to their specialty.

Автор:
Арзу Сафарова
Нахчыванский институт учителей
Доктор философии по математике
E-mail:
safarovaa3@gmail.com

Ключевые слова:
деятельность учителя, развивающие способности, развитие мышления, общение, личностно-педагогические способности.

СОВРЕМЕННЫЙ ПЕДАГОГ КАК НОСИТЕЛЬ ДУХОВНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ И ТВОРЧЕСКОГО ТРУДА

Аннотация. Статья посвящена анализу важных педагогических качеств, присущих педагогу для правильного построения его деятельности на современном этапе. Отмечается, что учитель должен не только сам обладать глубокими знаниями, творческим мышлением, но и уметь содействовать учащимся овладевать знаниями и умениями. Обладая этой способностью, учитель способен организовать ученический коллектив, умеет общаться, эффективно распределяет свое время и контролирует его. Учитель должен уметь проникать во внутренний мир учащихся, чувствовать их, уметь оценивать их личность. Для этого на первом плане стоит общение учитель-ученик. Практика показывает, что личность учителя оказывает исключительное влияние на внутренний мир ученика не только во время урока, но и во внеурочное и внешкольное время. Любовь к идеальному учителю возникает и к предмету, который он преподает. Исследования показывают, что учителя, которые становятся идеалами, - это те, кто любит детей и привязан к своей специальности.

Müasir pedaqoqun fəaliyyətinin düzgün qurulması pedaqoji bacarıq və vərdişlərə malik olmasından asılıdır. Müəllim dərin biliyə, yaradıcı geniş təfəkkürə malik olmaqla yanaşı, həm də bilik və bacarığını mənimsətməyi də bacarmalıdır. Adətən müəllimin buradakı rolunu nəzərə alırıq. Onların qarşılıqlı təsiri şəraitində həm müəllimin, həm də şagirdin fəallığının nəticəsində şagird bilik və vərdişlər əldə edir. Müəllim bu prosesi idarə edir. Şagirdlərin diqqətini əsas obyektə -təlimə yönəltmək, onlara öyrənməyi öyrətmək və aldıqları biliyi praktikaya tətbiq etmək bacarığını aşılamaqdır. Bu fəaliyyət də ilk növbədə müəllim tərəfindən icra edilməli və şagirdlər isə onun iştirakçısına çevrilməlidirlər [2].

Şagirdlərin iştirak etdikləri inkişafetdirici bacarıq və vərdişlər şagird təfəkkürünün inkişafına gətirib çıxarır. Bu nəticəni əldə etmək üçün müəllimin pedaqoji bacarıq və vərdişlərini, dünyagörüşünü, tədris fəaliyyətini, peşəyə marağını şagirdlərin ahəngdar inkişafı ilə nail olmaq olar. Ümumiyyətlə, qeyd olunan pedaqoji bacarıq və vərdişlər düzgün yerinə yetirilərsə, şagirdlərin intelektual səviyyəsinin artmasına səbəb olar. Bunlarla bərabər, təlim prosesində müvəffəqiyyət əldə etmək üçün müəllim pedaqoji qabiliyyətə də malik olmalıdır.

Pedaqoji qabiliyyət özünü ən çox təlim prosesində göstərir. Qabiliyyət fəaliyyətin müvəffəqiyyətlə icrasına əsas verir. Pedaqoji qabiliyyət ən çox təlim prosesində özünü göstərir. Bu qabiliyyətə malik olmayan müəllim heç bir müvəffəqiyyətdən söz aça bilməz. Hər bir müəllim uzunmüddətli fəaliyyəti əsasında yiyələndiyi bilik, bacarıq və vərdişlərdən əldə etdiklərinin nəticəsində təlim-tərbiyə prosesini səmərəli təşkil edə bilir ki, bu da pedaqoji qabiliyyət hesab olunur [1].

Müəllim pedaqoji qabiliyyətlərinin bəziləri mühüm və əsas, bəziləri isə köməkçi və tamamlayıcı xarakterə malikdir. Bu şərtlərdə müəllimin qabiliyyətlərini şərti olaraq üç qrupa ayırmaq olar.

1) şəxsi pedaqoji qabiliyyətlər;

2) didaktik qabiliyyətlər;

3) təşkilati-kommunikativ qabiliyyətlər.

Şəxsi pedaqoji qabiliyyət dedikdə müəllimin özünü göstərən qabiliyyətləri nəzərdə tutulur. Bunlara dözümlülük, özünü ələ ala bilmək, şagirdi sonadək dinləməkdə səbirli olmaq, sinifdə sağlam mühit yarada bilmək və bəzən də valideynə çevrilməyi bacarmalıdır. Bu keyfiyyətləri özündə birləşdirən müəllim şagirdlərin sevimlisinə çevrilir və bunun nəticəsində şagirdlərin müəllimə və fənnə sevgiləri artır. Demək ki, hər bir pedaqoji qabiliyyətin əsasında dayanan ən böyük amil: uşaqlara sevgidir [1].

Didaktik qabiliyyət müəllimin təlim prosesində materialların məzmununu şagirdlərin səviyyəsinə uyğun qurmaq, şagirdləri təlimə cəlb etmək, onların müstəqil və yaradıcı fəaliyyətini inkişaf etdirmək, keçilən hər bir mövzunu aydın, başa düşülən izah edə bilmək hesab olunur. Buradan alınır ki, hər bir müəllimin akademik və natiqlik qabiliyyəti nəzərdə tutulur. Bütün bu keyfiyyətlərlə yanaşı müəllimin aktyorluq qabiliyyəti də olmalıdır. İzah etdikləri hər bir mövzuya uyğun səsinin tonunu alçaldır, bəzən ucaldır və bəzən də əllərinin hərəkəti, üzünün ifadəsi ilə mövzunun təsir gücünü artırır.

Müəllim şagirdə hər tərəfli təsir etməlidir ki, təlimdən nəticə əldə etsin. Müəllimdə nitq qabiliyyəti də əsas amillərdən biridir. Nitqi aydın, fikri məntiqi olmayan müəllim şagirdlərin fikrini mərkəzləşdirə bilməz. Nitq qabiliyyəti - şagirdlərin fikrini əsas obyektə - təlimə yönəldir və onun üzərində mərkəzləşdirir. Natiqlik qabiliyyəti olan müəllimlər dolaşıq fikirlərdən uzaqdırlar. Onlar mürəkkəb, çətin başa düşülən sözləri sadələşdirib şagirdlərin başa düşəcəyi tərzdə çatdırırlar. Bu da ondan irəli gəlir ki, müəllim tədris etdiyi fənni dərindən bilməklə bərabər, həm də tədqiqatçısıdır. Belə qabiliyyətli müəllimlər bilik dairəsinə və səviyyəsinə başqalarından fərqlənirlər. Onlar lazım gəldikdə müəllimlərin yaxın köməkçisinə və elmi məsləhətçisinə çevrilirlər [3].

Təşkilatçılıq qabiliyyəti pedaqoji fəaliyyət zamanı böyük əhəmiyyət kəsb edir. Öz işini düzgün planlaşdırması, onu düzgün qura bilməsi, özünü hər bir çətinliyə hazırlaya bilməsi müəllimin təşkilatçılığından asılıdır. Təşkilatçılıq qabiliyyəti şagird kollektivini təşkil etmək, möhkəmləndirmək, digər tərəfdən özünə qarşı tələbkar olmaq işgüzarlıq, dəqiqlik, öz fəaliyyətini düzgün təşkil edə bilməklə özünü göstərir. Bu qabiliyyətə malik olan müəllim şagird kollektivini təşkil edə bilir, ünsiyyət qurmağı, vaxtını bölməyi planlaşdırmağı, ona nəzarət etməyi bacarır.

Müxtəlif xarakterə malik olan şagirdlərlə məşğul olan müəllim onlara elə təsir etməlidir ki, şagirdlər onu qəbul etsin, ona hörmət etsin, inansın, hər sözünü-canla başla yerinə yetirsin.

Buradan belə alınır ki, hər bir müəllim həm də psixoloq olmalıdır. Müəllim dərin müşahidə qabiliyyətinə malik olmalı, şagirdlərin bütün müsbət və mənfi cəhətlərini görməli, dərhal anlamalıdır [2].

Müəllim şagirdlərin daxili aləminə nüfuz edə bilməli, onları duymalı, şəxsiyyətlərini qiymətləndirməyi bacarmalıdır. Bunun üçün müəllim-şagird ünsiyyəti birinci planda durur. Müəllim-şagird ünsiyyətinin yaradılması təlim-tərbiyə prosesinin səmərəliliyinə nail olur. Ünsiyyət əsasında insan öz bilik və təsəvvürlərini, şəxsi mülahizələrini bir-birinə çatdıra bilir. Pedaqoji fəaliyyətin uğurlu olması pedaqoji ünsiyyətdən asılıdır. Pedaqoji ünsiyyət zamanı həqiqi müəllim dostluq mövqeyinə üstünlük verir. O şagirdləri qavrayır təlim prosesində rəftarını, səmimiyyətini ideal müəllim səviyyəsinə qaldırır [3].

Təcrübə göstərir ki, müəllim şəxsiyyəti təkcə dərs dediyi müddətdə deyil, dərsdən sonra və ictimai yerlərdə də şagird aləminə müstəsna təsir göstərir. Müəllimi özləri üçün ideal seçən şagirdlər onun bütün xüsusiyyətlərini mənimsəyirlər. İdeal müəllimə yaranan məhəbbət onun dediyi fənnə də yaranır. Araşdırmalar göstərir ki, ideala çevrilən müəllimlər uşaqları sevən və ixtisasına bağlanandır.

Ədəbiyyat

1. Qasımova, L., Pedaqogika. / L.Qasımova, R. Mahmudova – Bakı: – 2012. – 546 s.
2. Əliyeva, G. Şəxsiyyətin formalaşmasının psixoloji problemləri. / G.Əliyeva – Bakı: – 2010. – 423 s.
3. Seyidov, S.İ. Ümumi psixologiya. / S.İ.Seyidov, M.Ə.Həmzəyev – Bakı: – 2014. – 434 s.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 03 mart 2022-ci il
Son daxilolma tarixi:29 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 37.017+ 82.091

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 20-22
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 20-22
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 20-22

HƏSƏN BƏY ZƏRDABİ GƏNC NƏSLİN TƏRBİYƏSİNDƏ DİL VƏ DİNİN ROLU HAQQINDA FİKİRLƏRİ

Müəllif:

Rəna Qurbanova
Azərbaycan Dövlət Pedaqoji Universiteti

E-mail:
rena_qurbanova@bk.ru

Açar sözlər:
Həsən bəy Zərdabi, gənc nəsil, tərbiyə, milli dil, islam dini

Annotasiya. Məqalədə qeyd olunur ki, XIX əsrin II yarısı və XX yüzilliyin başlanğıc illərində ömür sürmüş Həsən bəy Məlikov Zərdabinin yaşayıb fəaliyyət göstərdiyi dövr Azərbaycan xalqının tarixində məxsusi bir mərhələ kimi fərqlənir. Müasirləri və həmməsləklərinin "Zaqafqaziya müsəlman ziyalılarının müəllimi və mənəvi atası" adlandırdığı Həsən bəy Zərdabi Azərbaycan xalqının mədəniyyət, maarifçilik, ictimai, pedaqoji fikir tarixində müstəsna dərəcədə əhəmiyyətli rol oynamış fikir və qələm sahiblərindən biridir. Məqalədə hüquqşünas, pedaqoq, publisist, kənd təsərrüfatı mütəxəssisi, qəzet redaktoru və ya müxbir, duma deputatı, ictimai xadim və s. kimi fəaliyyət göstərmiş Həsən bəy Zərdabinin maarifçilik fəaliyyəti, xüsusilə gənc nəslin tərbiyəsində dil və dinin rolu, habelə milli dildə təlimin, milli dərslik, tədris və metodiki vəsaitlərin imkanları haqqında fikirləri geniş təhlil olunur, ümumiləşdirmələr aparılır.

Author:

Rena Gurbanova
Azerbaijan State Pedagocial University

E-mail:
rena_qurbanova@bk.ru

Key word:
Hasan Bey Zardabi, young generation, education, national language, Islamic religion

HASAN BEY ZARDABİ VİEWS ON THE ROLE OF LANGUAGE AND RELİGİON İN THE EDUCATİON OF THE YOUNGER GENERATİON

Abstract. It is noted in the article that Hasan Bey Malikov Zardabi, who lived in the second half of the XIX century and the beginning of the XX century, is distinguished as a special stage in the history of the Azerbaijani people. Hasan Bey Zardabi, whom his contemporaries and colleagues called "the teacher and spiritual father of the Transcaucasian Muslim intelligentsia", is one of the owners of ideas and pens that played an exceptionally important role in the history of culture, enlightenment, public and pedagogical thought of the Azerbaijani people. The article includes a lawyer, educator, publicist, agricultural specialist, newspaper editor or correspondent, duma deputy, public figure, etc. Hasan Bey Zardabi's views on the educational activity, especially the role of language and religion in the education of the younger generation, as well as the possibilities of training in the national language, national textbooks, teaching and methodological aids are widely analyzed, generalizations are made.

Автор:

Рена Гурбанова
Азербайджанскоий государственный педагогический университет

E-mail:
rena_qurbanova@bk.ru

Ключевые слова:
Гасан бек Зардаби, молодое поколение, воспитание, национальный язык, ислам

ГАСАН БЕК ЗАРДАБИ О РОЛИ ЯЗЫКА И РЕЛИГИИ В ВОСПИТАНИИ ПОДРАСТАЮЩЕГО ПОКОЛЕНИЯ

Аннотация. В статье отмечается, что период жизни и деятельности Гасан бека Меликова Зардаби, прожившего жизнь во второй половине XIX и начале XX веков, выделяется как особый этап в истории азербайджанского народа. Гасан бек Зардаби, которого современники и соратники называли «учителем и духовным отцом мусульманской интеллигенции Закавказья», является одним из тех людей, которые сыграли исключительную роль в истории культуры, просвещения, общественной, педагогической мысли азербайджанского народа. В статье, которая содержит и информацию о Зардаби как о юристе, педагоге, публицисте, специалисте по сельскому хозяйству, редакторе или корреспонденте газеты, депутате Думы, общественном деятеле и т. д., в ней широко анализируется просветительская деятельность Гасан бека Зардаби, особенно его взгляды на роль языка и религии в воспитании подрастающего поколения, а также на возможности обучения национальному языку, национального учебника, учебно-методических пособий.

XIX əsrin II yarısı və XX yüzilliyin başlanğıc illərində ömür sürmüş Həsən bəy Məlikov Zərdabinin yaşayıb fəaliyyət göstərdiyi dövr Azərbaycan xalqının tarixində məxsusi bir mərhələ kimi fərqlənir. Həmin mərhələni başqa tarixi dövrlərdən fərqləndirən əsas və fərqli spesifik cəhətlər xalqımızın tarixi taleyi, iqtisadiyyatı, sənayesi, təsərrüfatı, mədəniyyəti, ədəbiyyatı, mənəviyyatı, elmi, maarifi, təhsili, pedaqoji həyatı və nəhayət, ictimai-siyasi həqiqətləri, istiqbalı və istiqlalı ilə sıx surətdə bağlı idi. Xalqımızın inkişaf tarixində son dərəcə zəngin, mürəkkəb, keşməkeşli hadisələri ilə xatırlanan, ədəbi-mədəni mühitin coşqun templə yüksəlişə başlayan bu zaman kəsimində Azərbaycanın iqtisadiyyat və təsərrüfatında nəzərə çarpacaq irəliləyiş baş vermiş, sənayedə sıçrayış və sürətli inkişaf özünü göstərmiş, bunun nəticəsində kapitalist-burjua münasibətləri vüsətli inkişaf etmişdir. Eyni zamanda o dövrə nəzər saldıqda ictimai-siyasi həyatda bir coşqunluq, məktəb və maarif həyatında canlanma, təhsildə, pedaqoji mühitdə Avropa ölçülərinin, müasir meyarların tətbiqinə başlanma hiss olunur. Sürətli yüksəlişlə müşayiət olunan və avropalaşan pedaqoji mühitin ab-havasında müasir mədəni, mütərəqqi dünyaya inteqrasiyanın inkişafı başlanmış, maarif və təhsil prosesində yeniləşmə meyllərinin bünövrəsi qoyulmuşdur. Milli burjuaziyanın formalaşması nəticəsində burjuaziya ədəbi-mədəni, maarif-pedaqoji hərəkatın müasir məcrada irəliləyişinə yardım etmiş, yeni tipli təlim ocaqlarının yaranması yeni təfəkkürlü, yeni dünyagörüş və məfkurəli, milli əqidə və etiqadlı ziyalı dəstəsinin meydana gəlməsinə səbəb olmuşdur. Məfkurə, məslək qovğaları, mühafizəkar baxışlarla varlığa yeni münasibətlərin ziddiyyəti, savaşı fonunda milli idealların, milli özünüdərkin, milli mənlik şüurunun nəşət və oyanma prosesi baş vermişdir. Xalqın xoşbəxt istiqbalı, hürr istiqlalı uğrunda mücadilə baş vermişdir.

Bəhs etdiyimiz tarixi dönəmdə xalqımızın yetişdirdiyi mütəfəkkir zəka sahibləri öz müsbət fəaliyyətləri, dəyərli əsərləri ilə bəşəriyyətin və öz xalqlarının mədəniyyət, mənəviyyat, elm və pedaqoji xəzinəsini zənginləşdirmişlər.

Müasirləri və həmməsləklərinin "Zaqafqaziya müsəlman ziyalılarının müəllimi və mənəvi atası" adlandırdığı Həsən bəy Zərdabi Azərbaycan xalqının mədəniyyət, maarifçilik, ictimai, pedaqoji fikir tarixində müstəsna dərəcədə əhəmiyyətli rol oynamış fikir və qələm sahiblərindən biridir. Həqiqətən də, o, xalqımızın mədəniyyət tarixində "fəxri yer tutur" və XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamış Azərbaycan ziyalı nəslinin yetişməsində, mənəvi və əməli cəhətdən vətənpərvər, millətpərvər ruhda formalaşmasında nümunəvi fəaliyyəti ilə xidmətləri danılmazdır.

Hüquqşünas, pedaqoq, publisist, kənd təsərrüfatı mütəxəssisi, qəzet redaktoru və ya müxbir, duma deputatı, ictimai xadim və s. kimi fəaliyyət göstərmiş Həsən bəy Zərdabinin maarifçilik fəaliyyəti çoxşaxəli, çoxistiqamətli xarakter daşıyır. Bir sözlə, vətənpərvər ziyalı xalqın xoşbəxt istiqbalı, hürr istiqlalı uğrunda mücadilədə zamanın tələbinə uyğun olaraq hər nə mümkünsə, onu da edir. Xalqı maarifləndirmək, onu yeni dövrün ab-havasına müvafiq surətdə tərbiyələndirmək yolunda bir sıra gərəkli tərbiyə vasitələrinin yaradılması və inkişafı naminə fədakarlıqla çalışmışdır.

Azərbaycan xalqının tərəqqisi yolunda geniş, çoxistiqamətli, çoxşaxəli fəaliyyət göstərmiş ziyalı müxtəlif mövzu və məzmunda çoxlu məqalələr yazmış, xalqımızın ədəbi-mədəni inkişaf tarixində, pedaqoji və maarifçilik hərəkatında, milli-mənəvi intibah meydanında misilsiz dərəcədə xidmətlər göstərmişdir. Azərbaycanda xeyriyyə cəmiyyətlərinin, milli teatr və milli mətbuat yaradılması, Avropa tipli təhsil ocaqları, məktəblər açılması və xalqın övladlarının bu məktəblərə cəlb edilməsi, kütlə arasında şifahi şəkildə təbliğat-təşviqat aparılması dedikdə ilk yada düşən ad onun adıdır desək yanılmarıq.

"Bizim zəmanəmiz elm zamanıdır və elm təhsil etmək hər tayfaya vacibdir ki, zindəganlıq davasında heç olmasa özünü saxlaya bilsin və belə elm təhsil etmək ilə tərəqqi edib irəli gedən vaxtda hər tayfa gərək iki şeyi bərk saxlasın ki, bu şeylər hər tayfanın dirəkləri hesab olunurlar və onların tayfa olmağına səbəbdirlər. Bu şeylərin birisi dil və birisi din və məzhəbdir. Elə ki, bunların birisi əldən getdi, tayfanın beli sınan kimidir. İkisi də gedəndə tayfa qeyri tayfalara qarışır, mürur ilə yox olur. Çünki dil və məzhəb tayfanın ruhu olan kimidir" [6, s.58] deyən millət xadimini narahat edən, XIX əsrin II yarısı və XX əsrin əvvəllərindəki ictimai-siyasi, ədəbi-mədəni və pedaqoji gerçəkliyinin ən mühüm problemlərindən biri də ana dilinə münasibət məsələsi idi. Çünki dil xalqın qlobal mənada mübarizəsində, "zindəganlıq davası"nda, öz varlığını təsdiq etmək və özünü yaşatmaq, xalqların ölüm-dirim savaşında qalib gəlmək yolunda ilk və əsas silahı idi.

H. Zərdabi bütün fəaliyyəti boyunca daim ana dilinin təssübünü çəkmiş, onun qayğısına qalmış, onu ədəbi-mədəni və pedaqoji gerçəkliyə daxil etmək, qoruyub yüksəltmək istəyən ziyalı elitasının önündə gedənlərdən olmuşdur.

Müəllif bildirir ki, hər bir xalq elm, təhsil və maarif işlərini öz dilində, öz dininin tələblərinə uyğun aparmalıdır ki, öz milli-mənəvi həqiqətlərini və varlığını da hifz edib saxlaya bilsin. Həsən bəy eyni zamanda Azərbaycanın bir hissəsinin Rusiyanın təxti-himayəsinə keçdikdən sonra uzun illər boyunca çarizmin burada yeritdiyi ruslaşdırma, xalqa öz milli kimliyini unutdurma siyasətinə də toxunur. Göstərir ki, hökumət dairələri yerlərdə, o cümlədən Azərbaycanda təhsil ocaqları açsa da, bunlar əsasən, rus dilində idi. Ana dilində "elm təhsil etmək yolu" bağlanmışdı, "öz milləti məktəbxanalarımız" yox idi. Ona görə də həmin məktəblərdə öz dilimizdə, öz məzhəbimizə müvafiq təhsil almaq mümkün deyildi. Bunun üçün də məktəblərə rəğbət yox idi. Kütlə ilə məktəb arasında uçurum vardı. Rus dilindəki məktəblər xalqa nə öz dilini, nə də şəriətini qaytara bilirdi. Əksinə onun dilini və dinini əlindən alırdı. Bu cür məktəblərdə oxuyub "dil və məzhəbdən əl çəkməklə zindəganlıq davasından qaçıb qurtarmaq" mümkün deyildi.

Bəli, H.Zərdabinin tayfanın tayfa olmağına iki səbəb dil və dini məzhəblərində görürdü. O, sovet dövrünə aid bir sıra araşdırmalarda "kainatın Allah tərəfindən yaradılması haqqında hər cür təsəvvürü rədd edən", "kainatın təbii qanunauyğunluqlar əsasında heç bir ilahi qüvvənin, təbiətdən xaric qüvvənin iştirakı olmadan inkişaf etdiyini göstərən", "təbiət hadisələrini materialistcəsinə və ateistcəsinə" izah edən bir ziyalı kimi təqdim [4, s. 164] edilməsinə baxmayaraq öz yaradıcılığında və maarifçilik baxışlarında dinə tərbiyəyə münasibət xüsusi yer tutur.

Dinə xalqın tarixi taleyində mühüm bir amil kimi baxan Həsən bəy onun normal tədrisinin qayğısına qalmağı da vacib bir məslə hesab edir. Onun fikrincə din və şəriət qaydaları məktəblərdə savadlı müəllimlər tərəfindən, münasib proqramla elmi şəkildə, sağlam əsaslarla tədris olunmalıdır. 1905-1906-cı illərdə, yəni Birinci rus inqilabı zamanı dövlət məktəblərində şəriət fənninin tədrisi ilə bağlı edilən yeniliklər H. Zərdabini ciddi şəkildə narahat edir. O, bildirir ki, bu cür proqramları işi bilən mütəxəssislər tərtib etməli, fənni isə təsadüfi müəllimlər yox, peşəkar, şəriət bilən pedaqoqlar tədris etməlidir. Belə bir mühüm məsələni işdən bixəbər məktəb hakimlərinin ixtiyarına buraxmaq olmaz. Müəllif yazır: "Odur ki, ilin başında bizdən bixəbər məktəblərin hakimi öz tərəfindən bizim dilimizi və adabi-şəriəti oxutmaq üçün müəllimlər təyin edib və bu halda onlar nə oxudurlar və necə oxudurlar, biz bilmirik. Bəs biz qonşularımıza qoşulub bu ixtiyarları istəyəndə nə üçün istəyirdik və qonşularımız o ixtiyarlardan nəfbərdar olub dəxi artıq elm təhsil etməyindən bizlərə bir xeyir olacaqmı?

Qardaşlar, yatmaq vaxtı deyil. Ayılıb bir fikr edin, bu işlərin axırı necə olacaq? Yoxsa, həqiqət, bizim ruhumuz gedib bircə cəsədimiz qalıb. Belədə vay bizim halımıza" [6, s.32].

Göründüyü kimi, dahi mütəfəkkir bu vacib problemlərə diqqət yetirmək üçün həyəcan təbili çalır. Kütləni və ziyalıları bu işdə ayıqlığa və səfərbərliyə çağırır. Milli dildə dərsliklərin, tədris və metodiki vəsaitlərin, oxu kitablarının yoxluğu da Həsən bəy Zərdabini ömrünün son dəqiqələrinə qədər düşündürmüş, bu sahədəki ehtiyacı aradan qaldırmaq uğrunda fədakarlıqla mübarizə aparmışdır. Ölkə vətəndaşlarının dini, etiqadı, daxili inancı, həmçinin insanpərvər ruhda böyüməsi H. Zərdabinin tərbiyə nəzəriyyəsinin əsas xətlərindən birini təşkil edir. Lakin o, vətəndaşların xürafat, mövhumat ruhunda yox, sağlam dini dünyagörüşə malik vətəndaşlar kimi tərbiyə edilməsinin tərəfdarı kimi çıxış edir. Tərbiyədə sağlam elmə və məntiqə söykənən dini düşüncənin cəhalət, xürafat və mövhumatdan tamamilə fərqli şeylər olduğunu, tərbiyədə həmin faktorun mütləq mənada nəzərə alınmalı olduğunu söyləyir.

Ədəbiyyat

1. Azərbaycan pedaqoji antologiyası. XIX əsr – XX əsrin əvvəlləri (tərtib edəni: Əhmədov H.). 3 cilddə. II c., Bakı: Təhsil, 2011, 543 s.
2. Həsən bəy Zərdabinin bioqrafiyası və epistolyar irsi (nəşrə hazırlayanlar: Məmmədova M., Ramazanova A.) AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı: Nurlan, 2006, 183 s.
3. Köçərli F. Seçilmiş əsərləri. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1963, 341 s.
4. Rüstəmov, İ. Həsən bəy Zərdabi / İ. Rüstəmov. -Bakı: Gənclik, -1969. -187 s.
5. Zərdabi, H. Zindəganlıq davası və yaxud dirilik mübarizəsi // Həyat. -1906. 4 yanvar
6. Zərdabi, H. Dil və din // Həyat. -1906. 6 yanvar.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 10 mart 2022-ci il
Son daxilolma tarixi:02 aprel 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 37.014.521+297

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 23-29
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 23-29
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 23-29

NAXÇIVANDA İLK İSLAM TİPLİ MƏKTƏBLƏRİN YARANMASI VƏ FƏALİYYƏTİ

Müəllif:

Nübar Səfərli
"Naxçıvan" Universiteti

E-mail:
nubar_seferli@mail.ru

Açar sözlər:
mədrəsələr, mollaxanalar, ibtidai məktəblər, xanəgahlar, kitabələr.

Annotasiya. Azərbaycanın ilk elm və mədəniyyət mərkəzlərindən olan Naxçıvan Böyük İpək yolunun üzərində yerləşən, orta əsrlər dövründə belə Yaxın və Orta Şərqdə tanınan dahi şəxsiyyətlərin vətənidir. Orta əsrlər dövrünə aid əsərlərin, fərmanların incələnməsinin nəticəsi olan bu məqalədə Naxçıvanın qədim dövrlərdən başlayaraq bir elm ocağı olduğu göstərilmişdir. IX əsrdən başlayaraq bu qədim diyarda islam tipli məktəblər yaranmış və dünya şöhrətli alimlər məhz bu tip məktəblərdə yetişmişdir. Naxçıvanda açılmış islam tipli məktəblər, mədrəsələr islam ölkələrində məhşurlaşdığından Naxçıvan orta əsrlərdə İslam mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilmişdi. Məqalədə bu qədim diyarda təşkil olunmuş ilk İslam tipli təhsil müəssisələri, onların fəaliyyəti araşdırılmışdır.

Author:

Nubar Safarlı
"Nakhchivan" University

E-mail:
nubar_seferli@mail.ru

Key word:
madrasas, mollakhans, primary schools, khanagah, inscriptions.

ESTABLISHMENT AND ACTIVITY OF FIRST ISLAMIC TYPE SCHOOLS IN NAKHCHIVAN

Abstract: Nakhchivan, one of the first scientific and cultural centers of Azerbaijan, located on the Great Silk Road, is the home of geniuses known in the Near and Middle East even during the Middle Ages. In this article, which is the result of analyzing works and edicts of the Middle Ages, it is shown that Nakhchivan has been a center of science since ancient times. Starting from the 9th century, Islamic-style schools were established in this ancient land, and world-renowned scholars grew up in these schools. As the Islamic schools and madrasahs opened in Nakhchivan became popular in Islamic countries, Nakhchivan became one of the main centers of Islamic culture in the Middle Ages. The article examines the first Islamic educational institutions organized in this ancient land, and their activities.

Автор:

Нюбар Сафарли
Университет «Нахчыван»

E-mail:
nubar_seferli@mail.ru

Ключевые слова:
медресе, моллаханы, начальные школы, ханаги, надписи.

СОЗДАНИЕ И ДЕЯТЕЛЬНОСТЬ ПЕРВЫХ ИСЛАМСКИХ ШКОЛ В НАХЧЫВАНЕ

Аннотация. Нахчыван, один из первых центров науки и культуры Азербайджана, расположенный на Великом Шелковом пути, является родиной великих личностей, известных на Ближнем и Среднем Востоке еще в эпоху Средневековья. В этой статье, являющейся результатом изучения средневековых трудов, указов, было показано, что Нахчыван был центром науки, начиная с древних времен. Начиная с IX века в этой древней стране возникли школы Исламского типа, и именно в этих школах воспитывались всемирно известные ученые. В Средние века Нахчыван стал одним из основных центров исламской культуры, так как открывшиеся в Нахчыване школы Исламского типа, медресе приобрели популярность в исламских странах. В статье были рассмотрены первые образовательные учреждения Исламского типа, организованные в этой древней стране, их деятельность.

İslam dini möhkəm iradəyə, sağlam təfəkkürə, dərin məntiqə əsaslanan bir dindir. İlk surəsi "oxu", "qələm", "öyrətmək" sözləri ilə başlayan müsəlmanların müqəddəs kitabı "Qurani-Kərim" elmi, biliyi, əqidəni, mərifəti, tərbiyəni insanın ən böyük üstünlüyü hesab edir. İslam tərbiyəsinin əsasını isə Məhəmməd Peyğəmbərin (s.a.v.) kəlamları və fikirləri təşkil edir. "Bilik mənim mirasımdır, məndən əvvəlki peyğəmbərlərin mirasıdır" buyuran Peyğəmbərimiz ilk islam məktəbinin də banisidir. İslam dinində ilk təlim, tərbiyə işi Həzrəti peyğəmbərə (s.a.v.) öyrətmə, təbliğ etmə əmrinin verilməsi ilə başlamışdır. Bilindiyi kimi İslam tarixinin ilk illərində təlim, tərbiyə işi daha çox gizli şəkidə tətbiq olunurdu. İslamiyyəti ilk qəbul edən müsəlmanlar Hz. Xədicə, Hz. Əbu Bəkr, Hz. Zeyd, Hz. Əli, Hz. Osman, Hz. Ömər olmuşdur ki, onlar peyğəmbərimizin rəhbərliyində bir yerə - "Dar-əl-Əqrəm"ə (Əqrəmin evi) toplaşaraq ona gələn vəhyləri, "Qurani-Kərim"i öyrənirdilər. Beləliklə də, ilk İslam məktəbi yarandı. İlk zamanlarda bu məktəbin fəaliyyəti gizli təşkil olunsa da sonralar yəni peyğəmbərliyin dördüncü ilində Hz. Peyğəmbərimiz (s.a.v.) açıq-aşkar şəkildə vəhyləri insanlara öyrətməyə başladı. Beləliklə, öyrənmə, o cümlədən təlim sürətli təşkil olunan bir prosesə çevrilmişdi. Çünki, İslama görə bir insanın digərinə elm öyrətməsi xeyirxah və vacib əməl hesab olunurdu. Hz. Məhəmmədin (s.a.v.) Mədinəyə Hicrəti (622) ilə birlikdə islam məktəb sistemində yeni bir tarixi mərhələ yarandı. Belə ki, Həzrəti peyğəmbər (s) Mədinəyə gələn kimi müsəlmanların ibadət etmələri və İslami bilikləri mənimsəmələri üçün kərpicdən bir məscid inşa etdirdi ki, buna "Məscidi – Nəbi" deyildi (peyğəmbərə məxsus məscid). *Məscidi-Nəbinin* arxasında qiblə divarı üzərində hazırlanmış kölgəlik yerə "Suffə" deyilirdi. Burada axşamlar açıq səma altında, gündüzlər kölgəlikdə təhsil almaq daha rahat idi. Beləliklə, *Suffə* İslamın ilk kollektiv oxuyub, yazma yeri hesab edilirdi [8, s.89]. Sonrakı dövrlərdə isə *məscid və camilər* yaranmağa başladı ki, bu da daha çox insanın kollektiv şəkildə öyrənməsinə səbəb olurdu. İslamın fəth etdiyi yerlərdə sürətlə məscid şəbəkəsi yaranmağa başladı.

Azərbaycanda səkkizinci əsrin əvvəllərindən başlayaraq məscid şəbəkəsinin yayılması sürətləndi və mahiyyət baxımından da digər ölkələrdən fərqləndi. Azərbaycanda məscidlərin tərkibinə müsafirxana, ibadətxana, qərargah və təlim yeri daxil idi. Bura çox sayda insanlar yığışır və eyni vaxda dərsləri dinləyirdilər ki, bu da öyrənmədə çətinlik törətdiyindən həlqələr yaranmağa başladı. Müəllimin ətrafına bir qrup dinləyicinin toplaşaraq öyrənməsinə "Həlqə", bu cür tədris üsuluna isə "Həlqeyi – tədris" deyilirdi. Məscidlərdə həlqələr çoxaldıqca səslər bir-birinə qarışır və öyrənmək çətinləşirdi. Həmçinin, Azərbaycanda da digər xilafət tərkibində olan ölkələr kimi dövlət dili ərəb dili olduğundan tədris də ərəb dilində aparılırdı ki, bu da məscidlərdə öyrənmə işinə mənfi təsir göstərən amillərdən idi. Beləliklə, əvvəllər tədris üçün yararlı hesab olunan məscidlərin sonralar yalnız ibadət yeri ola biləcəyi açıq-aydın görüldüyündən məktəblər məscidlərdən ayrılmağa başladı ki, bunlara da "Kuttab" deyilirdi. Firədun İbrahimov və Rüfət Hüseynzadənin birgə yazdıqları "Pedaqogika" dərsliyinə əsasən demək olar ki, kuttablar ərəbcə "yazı öyrətmək" mənasını verən, məhəllələrdə yaradılan, məscid və camilərə bağlı olan ibtidai məktəblər idi. Kuttabların fəaliyyətini və xüsusiyyətini araşdıran zaman bu günkü təlimin izlərini aydın şəkildə görmək olur. Belə ki, kuttablarda dərs deyənlərə "müəllim" (ərəb sözü olub, mənası öyrədən, tədris edən deməkdir) deyilir, onlara əmək haqqı verilirdi ki, bu da müəllimlik peşəsinin formalaşmasına böyük təkan verirdi. Kuttablarda həmçinin ilk dəfə olaraq yazı lövhələrindən və silgidən istifadə olunur, o cümlədən uşaqlara istirahət üçün dərslərarası fasilələr də verilirdi.

VIII-IX əsrlərdə Azərbaycanın bir çox bölgələrində olduğu kimi Naxçıvanda da iki növ kuttablar və məktəblər fəaliyyət göstərirdi. Birinci növ kuttablarda yalnız oxuma və yazma öyrədilirdisə, ikici növ kuttablarda isə Quranı və dini hökmləri öyrədirdilər. Kuttablarda oğlanlar 18 yaşına qədər oxuya bilərdilər, qızlar isə 7 yaşa qədər oğlanlarla birgə oxuyub, sonra buradan ayrılaraq məişət işlərinə cəlb olunurdular. Lakin, varlı ailələr qızları üçün evdə təhsil təşkil edərək onların daha yaxşı Quranı öyrənməsinə şərait yaradırdılar.

Kuttablar üçün *ilk proqramı* Hz. Ömər tərtib etmişdir. Proqramın mətnində belə deyilirdi: "Uşaqlara üzməyi və ata minməyi öyrədin. Onlara geniş yayılmış zərbül-məsəlləri və gözəl şeirləri də öyrədin. Uşaqlara öyrədiləsi gərəkən şeylər: Oxu, yazı, hesab və üzməkdən ibarətdir"

[6, s.57].

Tarixi ədəbiyyatların tədqiqindən belə nəticəyə gəlmək olur ki, IX əsrin sonları, X əsrin əvvəllərində Orta Asiyada o cümlədən Azərbaycanda sufizm hərəkatı başlamışdı. Bu isə öz növbəsində yeni tədris müəssisələrinin: *Xanəgahların, Təkyələrin* (buna təkkə də deyilir), *Zaviyələrin, Dərgahların, Ribatların, Türbələrin* yaranmasına səbəb oldu [4, s.360]. Bu dövrdə daha çox Naxçıvanda Xanəgahlar, Təkyə və Zaviyələr fəaliyyət göstərirdi. "İbadət yeri" mənasını verən Xanəgahlarda əsasən din, əqidə və müəyyən təriqətlər təbliğ olunsa da insanlara burada həm də elm, bilik verilir, dünyagörüşləri formalaşdırılırdı. Naxçıvan MR-nın Culfa rayonunda, Əlincə çayının sahilindəki Xanağa kəndində orta əsrlərin Xanəgahından müxtəlif qalıqlar qalmışdır. Bu Xanəgah iki mərtəbədən ibarətdir. Alt mərtəbə sərdabə adlanır ki, Hürufilik təriqətinin banisi Nəiminin qəbri buradadır. Müəllimlər otağı, kitabxana, təlim-məşğələ otağı, yığıncaq otağı ikinci mərtəbədə yerləşir. Qırmızı və ağ bişmiş kərpiclə tikilmiş və yaşıl kaşilərlə bəzədilmiş abidə 8 guşədən ibarət olub üzərində çox əzəmətli bir künbəz var. Xanəgahın ön tərəfində müxtəlif fiqurlarla nəqş edilmiş 10 metr yüksəkliyində 4 sütun tikilmişdir. Xanəgahın divarından düşmüş yazılı bir daş kitabə bu gün Xanəgah məqbərəsində saxlanılmaqdadır. Vaxtilə buradakı Xanəgahda şeir məclisləri, dini, elmi söhbət və müzakirələr keçirmək üçün həmin dövrün bilikli adamları, şair və ziyalıları toplaşardılar [11, s.247]. Erkən orta əsrlərin ən qiymətli memarlıq abidəsindən biri də Naxçıvan şəhərindəki *Bektaşilərə məxsus Zaviyə* ("Künc", "Guşə" mənasını verir) məscididir. Bektaşilər bu Zaviyədə həm ibadətlə, həm də təlim, tədris işləri ilə məşğul olurdular. Zaviyəyə gələnlər müxtəlif elm, bilik sahələrinə dair təriqət başçılarından, dövrün böyük alimlərindən və ziyalılarından dərs almışlar. Zaviyədə təlim, təhsil və tərbiyə prosesi ilə geniş məşğul olunduğundan buraya mədrəsə də deyilirmiş [12, s.366].

Bektaşilik XII-XIII əsrlərdə Anadoluda, Azərbaycanda və xüsusilə Naxçıvanda geniş yayılmış islami təriqətlərdən biridir. Bu təriqətin yaradıcısı *Hacı Bektaş Vəli* olmuşdur. Onun "Məqalat" adlı bir kitabı günümüzə qədər gəlib çatmışdır. Kitab dörd qapıdan, hər qapı isə on məqamdan ibarətdir. Kitabda da göstərildiyi kimi Bektaşiliyin mahiyyəti insanın özünü tanıması, özünü dərk etməsidir ki, bu da "Vəhdəti-vücud" nəzəriyyəsindən irəli gəlmişdir. Hər bir Bektaşi təkkələrinin giriş qapısında "Ədəb" sözü yazılıb ki, buda təkkələrin ədəb-ərkan mərkəzi olduğuna işarə idi.

Hazırda Naxçıvanda, Bakıda Bektaşilər nəslinin nümayəndələrindən elm, maarif, mədəniyyət sahəsində çalışan, "Haqdan xalqa enməli", "Qalxdınsa xidmət üçün qalx" - Bektaşi deyimini həqiqətən laiqincə həyata keçirən tanınmış insanlar yaşayırlar. Bektaşilərə məxsus Zaviyə məscidi və "Pirqəmiş" adlanan came-məscid var ki, bu gündə fəaliyyət göstərməkdədir. "Pirqəmiş" məscidi XIV əsrdə yaşamış böyük alim, övliyalar başçısı, mürşid və Şeyx olmuş Pir Xəmuşun adı ilə bağlı təkyədir.

Pir Xəmuşun iki misralıq şeiri məlumdur:

"Şirindilli canım azdı düşdü mürşüd havasına,
Gəlib Mərəndə tutuldu dinməz Xəmuş sevdasına"

Təriqət üzvləri Pir Xəmuş təhkiyəsinə toplaşar, dini ayinləri icra edər, Şeyxin moizələrini dinləyər, zikir mərasimləri, səma rəqsləri keçirər və bu zaman bəstəli musiqi, şeir oxuyardılar. Bu cür şeirlərin birində deyilir:

"Guşeyi xəlvət nə əcəb çai imiş,
Sirri nehan onda hüveyda imiş"
(Yəni xəlvət guşəsi nə yaxşı yer imiş,
Gizli sirlər orada aşkar imiş).

Bu şeirdən belə qənaətə gəlmək olar ki, Pir Xəmuş təkyəsinin "Xəlvət"i, "Çiləxana"sı da olmuşdur ki, "Xəlvətilik" təriqətinin nümayəndələri zahidlik həyatına qədəm qoyan zaman burada xəlvətə, tənhalığa çəkilmiş, öz-özü ilə baş-başa qalıb təfəkkür, düşüncə mərhələsinə keçmiş, hər cür pislikdən arınmış, paklanmış, iradəsini möhkəmlətmiş, nəfsinə qalib gəlmişdir [7, s.115].

"Xəlvətilik" təriqətinin banisi farsca, ərəbcə, türkcə dini-didaktik əsərlər yaratmış, XV əsrdə xeyli məktəb-mədrəsələr açan, Təkyələr kompleksi olan Şirvanşahlar sarayında böyük Xanəgah yaratmış Şeyx Seyid Bakuvi olmuşdur. Ordubad rayonunun Vənəndçay vadisindəki Xanəgahlar orta əsrlərdə sufiliyin mərkəzi hesab olunurdu. Hacı Fəxrəddin Səfərli Xanağa, Sir Xanağa, Pir Maqsud, Xəlifə Süleyman və Pir Yaqub kimi xanəgahlar haqqında tədqiqatlar aparmış, onların Vənəndçay vadisindəki sufi xanəgahları olduğunu dəlillərlə sübüt edərək bildirmişdi ki, buradan Böyük ipək yoluna məxsus karvanların keçməsi, yalnız xanəgahların inkişafına deyil, həm də əhalinin mədəni, iqtisadi, siyasi dünyagörüşünün

formalaşmasına böyük təsir göstərmişdir.

"Pir Yaqub" xanəgahı orta əsrlər zamanı Naxçıvan şəhərində fəaliyyət göstərən və qaynaqlarda da dəfələrlə xatırlanan çoxlu xanəgahlardan biri olmuşdur. Yerləşdiyi coğrafi mövqe, şəhərin mərkəzində qurulması onun əhəmiyyətli xanəgahlar sırasında olması və orta əsrlər zamanı şəhərin sosial-siyasi və ideoloji həyatında mühüm oynadığını söyləməyə əsas verir [16, s.160].

Ərəblər ölkələri fəth etdikcə İslam dini ilə bərabər müxtəlif elmləri də yayırdılar ki, bu elmləri də öyrənmək üçün xüsusi məktəb şəbəkəsi yaranırdı. İlkin orta əsrlərdə Azərbaycanın Təbriz, Ərdəbil, Həmədan, Marağa, Gəncə, Bərdə, Beyləqan, İrəvan, Dərbənd, Şəki, Şamaxı, Bakı kimi şəhərlərində olduğu kimi Naxçıvanda da İslam məktəbləri və mollaxanalar açılmağa başladı. "Məktəb" sözü ərəb sözü olan "ketb" (yazı yazmaq) kökündən əmələ gəlmişdir ki, Azərbaycan dilində mənası "yazı yazılan yer" deməkdir. Məktəbdə dərs deyən müəllimlərə "molla" deyildiyindən, həmin dövrdəki məktəblərə "mollaxana" deyilirdi. Müxtəlif ədəbiyyatlarda mollaxanaların ətalətin, geriliyin, savadsızlığın rəmzi olaraq göstərilməsi bir çox hallarda həqiqəti əks etdirmir. Əksinə mollalar, mirzələr insanların savadlı, bilikli şəxsiyyət kimi formalaşaraq cəhalətdən qurtarmaları üçün o dövrə görə böyük işlər görən savadlı şəxslər olmuşlar. Bu səbəbdəndir ki, xalq arasında belə bir deyim var: "Hər oxuyan Molla Pənah olmaz". Təsadüfi deyildir ki, elm, mədəniyyət, ədəbiyyat, memarlıq sahəsində ilk görkəmli alimlər, şairlər məhz bu məktəblərin yetirmələri idilər. Professor Əsəd Yəqubi XI əsrdə yetişən Əbu-Ömər Naxçıvani, Ekmiləddin Naxçıvani, Qətran Təbrizi, habelə XII əsrin görkəmli filosofu Şihabəddin Sührəvərdinin öyrənmə, ilk təhsil alma yeri kimi məktəbləri əsas götürərək belə bir qənaətə gəlirdi: "Azərbaycanda elm və təhsilin sürətlə inkişafı daha çox XII əsrdə nəzərə çarpır. Azərbaycanda formalaşmış məktəb və mədrəsə sisteminə aid olan ilk konkret faktlar da məhz bu dövrə aiddir" [14, s.7].

Akademik İsa Həbibbəyli "Qədim karvan yolu üzərində Naxçıvan" adlı məqaləsində göstərmişdir ki, karvan yollarının, əsasən də Böyük İpək Yolunun Naxçıvan ərazisindən keçməsi ən qədim dövrlərdən başlayaraq burada həm Şərq, həm də Qərb maarif və mədəniyyətinin inkişaf etməsinə şərait yaratmışdır. Xüsusilə XII əsrdə *Atabəylər* dövlətinin paytaxtı olan Naxçıvanda dövlət başçısı *Atabəy Şəmsəddin Eldənizin* fərmanları ilə (hakimiyyət illəri - 1136-1225) inşa edilən dövrümüzdəki universitet dərəcəsində olan mədrəsələr Şərq ölkələrində tanınmış və böyük şöhrət tapmışdır. Həmin mədrəsələrdə Şərq mədəniyyəti ilə yanaşı, dünyəvi elmlər də - həndəsə, riyaziyyat, astronomiya, tibb tədris olunurdu. Şəmsəddin Eldəniz ölkəsində elmin, təhsilin, mədəniyyətin, ədəbiyyatın inkişafı üçün bir sıra işlər görmüş, məscidlər, camilər, məqbərələr, məktəblər və türbələr inşa etdirmişdir ki, bunların da əksəriyyətinin *Memar Əbubəkr Əcəmi Naxçıvaninin* bu dövrdə inşa etdiyi və müasir dövrümüzdə də dünya mədəni irs siyahısına daxil olduğu hərkəsə məlumdur.

XII əsrdə Naxçıvan haqqında yazılan əsərlərin hər birində burada olan məktəb və mədrəsələr, onların fəaliyyəti ilə bağlı qısa da olsa, məlumata rast gəlmək mümkündür. Naxçıvan orta əsrlər dövründə hər tərəfli inkişaf etmiş, zəngin mədəniyyətə malik bir şəhər olmuşdur. Atabəylər dövləti təxminən 30 il Naxçıvanın mərkəzi meydanında ucalan Darül-mülkdən (Hökümət evi) idarə olunmuşdur. Heç şübhəsiz ki, mərkəzi meydanda ucalan digər tikililərlə yanaşı, mədrəsələr də dövlət qayğısı ilə əhatə olunmuş və əsərdə də qeyd olunduğu kimi əhalisi çox olan bu şəhərdə əsas təhsil müəssisəsi idi. Müxtəlif tarixi əsərlərin tədqiqindən belə nəticəyə gəlmək olar ki, XII əsrdə Naxçıvanda "Mədrəseyi-Bəhtaniyyə" və "Mədrəseyi İrşadiyyə" adı ilə fəaliyyət göstərən mədrəsələrdə təkcə dini dərslər deyil, dünyəvi dərslər də keçirilir, hətta burada təhsil almaq üçün Yaxın və Orta Şərqin bir sıra ölkələrindən də uşaqlar gəlirdilər. Bu iki böyük mədrəsədən əlavə orta əsr mənbələrində verilmiş məlumata, o cümlədən Övliya Çələbinin yazdığına görə bu dövrdə Naxçıvanda 10200 "örtülü böyük ev", 40 məscid, 20 karvansara fəaliyyət göstərmişdir. XIII əsrdə isə təhsil şəbəkəsi daha da genişlənmişdir. Belə ki, bu dövrdə Naxçıvanda 4 ali tipli mədrəsə, məscidlərin nəzdində 60-dan çox ibtidai məktəb fəaliyyət göstərmişdir. Bu mədrəsələr XX əsrin əvvəllərinə qədər mövcud olmuşdur [15, s.22].

Naxçıvan mədrəsələri Möminə xatın və Yusif Küseyir oğlu türbələrinə aid olmuş və onların vəqfləri, gəlirləri hesabına maliyyələşmişdir. Tarixi əsərlərin tədqiqindən məlum olur ki, Şərq ölkələrində məktəb və mədrəsələrin əksəriyyəti məscidlərin və məqbərələrin vəqfləri hesabına

ödənilirdi.

Naxçıvanda XII əsrin məktəb və mədrəsələrinin tarixinə və onların inkişafına dair dəyərli sənədlər və fərmanların bəziləri günümüzə qədər gəlib çatmışdır. Məktəb və mədrəsə tarixinə aid günümüzə qədər gəlib çatmış ən dəyərli sənədlərdən biri "Təqrir-i tədris-i mədrəseyi Naxçıvan əz inşa mərhum Şəmsəddin Sahib-Divan" ("Mərhum Sahibi Divan Şəmsəddinin inşa etdirdiyi Naxçıvan mədrəsələrinin tədrisi təqdirinə dair") adlı Fərmandır. Fərmanda Atabəylər dövlətinin başçısı Sultan Şəmsəddin Eldənizin Naxçıvanda tikdirdiyi mədrəsələr və onların idarə olunması haqqında çox dəyərli məlumatlar verilmişdir. Bu mədrəsələr əsasən Əcəminin yaratdığı Mömünə Xatun (1186-cı il) və 1162-ci ildə inşa edilmiş Yusif İbn Küseyr türbəsi ilə eyni vaxta tikilmişdir. Müəllifi Elxanilər sarayında baş vəzir işləmiş Şəmsəddin Məhəmməd Cüveyni olan bu fərmandan görünür ki, Atabəylər dövründə Naxçıvanda mədrəsələr çox məşhur olduğundan dövlət himayə etmişdir [16, s.59].

Bu Fərmanda təkcə mədrəsələrin inşası və bərpası haqqında məlumatlar verilmir. Belə ki, burada mədrəsənin quruluşu, təhsilin məzmunu, müdərris və tələbələrin vəzifələri göstərilməklə yanaşı, ilk dəfə olaraq mədrəsədə "Ədəb qaydaları" haqqında məlumat verilir. Ədəb qaydalarında müdərrislər qarşısında xüsusi tələblər qoyulur və tələb olunan qaydalara ciddi əməl olunması göstərilir: müdərris tələbələrə ehtiramla yanaşmalı və onları öz ruhani oğlu hesab etməlidir, onların yaş və fərdi xüsusiyyətlərini nəzərə almalı, dərsi asan və anlaşılan şəkildə aparmalı, şagirdlərlə keçirilən dərsləri müzakirə etməli, ayda bir dəfə imtahan təşkil etməli, fərqlənən tələbələri başqalarına tanıtmalı idi. Əsrlər sonra çex pedaqoqu Y.A.Komenski də təxminən eyni formada belə demişdir: "Sən ata kimi hərəkət etmirsənsə, müəllim kimi fəaliyyət göstərə bilməzsən".. Fərmana görə şagirdlər də aşağıdakı vəzifələri yerinə yetirməli idilər: onlara dərs keçən məlimlərin birini digərindən üstün tutmamalıdırlar; tənbəllikdən uzaq olub keçilmiş dərsləri təkrar etməlidirlər; dərsdə diqqətli olub, mövzuya dair sual verməlidirlər; bir dərsi mənimsəmədən başqasına keçməməlidirlər; təkcə elmə deyil, əxlaq təmizliyinə də diqqət verməlidirlər.

Azərbaycanda təhsil və pedaqoji fikir tarixi üçün önəmli olan digər fərman isə tarixçi alim Əli Hüseynzadənin "Naxçıvan mədrəsələrinə dair bir Elxani fərmanı" adlı məqaləsi ilə hər kəsə məlum olan fərmandır. Fərmanda mədrəsə təhsilinin quruluşu, məzmunu, müdərris və tələbələrin vəzifələri öz əksini tapmışdır. Fərmana görə müəllimlər (müdərrislər) təlim, tərbiyə prosesində tələbələrə əziyyət verməməli, onları yormamalı, fərdi xüsusiyyətlərini nəzərə alaraq onlara təlim fənni təyin etməli, dərs zamanı yaranmış elmi mübahisəni düzgün istiqamətləndirməli, həftədə bir dəfə tələbələrlə dərslərin müzakirəsini keçirməli idi. Dərsin keyfiyyətini yoxlamq və yaxşı oxuyan tələbələri üzə çıxarmaq məqsədi ilə ayda bir dəfə imtahanlar keçirilir və istedadlı uşaqlar hamıya tanıtdırılırdı. Fərmanda tələbələr üçün nəzərdə tutulan qaydalara görə isə tələbələr: tənbəllik və səhlənkarlıq etməməli, hər daim dərsləri təkrar etməli; dərsdə diqqətli olmalı, başa düşmədikdə sual verməli; bir mövzunu mənimsəmədən yeni mövzuya keçməməli; yalnız elmlə kifayətlənməyərək əxlaqi biliklərə də yiyələnməlidirlər. Mədrəsədaxili nəzərdə tutulan hər bir qaydaya əməl edən və yaxşı oxuyan tələbə digərlərindən üstün tutulmalı idi. Fərmanda həmçinin mədrəsələrdə tədris olunan fənlər və onların proqramları haqqında da məlumat verilmişdir.

Qədim Naxçıvan tarixini öyrənmək üçün yalnız fərmanlar və əsərlərdən istifadə edilmir, çünki, burada antik və orta əsrlər dövrünə aid müxtəlif mədəniyyət nümunələri və ilk insanların məskunlaşdıqları mağaralar, erkən dövrlərə aid şəhər mədəniyyəti, möhtəşəm qala divarları, qayaüstü rəsmlər, daş qoç heykəlləri, antik dövr memarlığının ən mükəmməl nümunələri olan türbələrlə, digər tarixi abidələrlə zəngindir. Naxçıvan ərazisində daş dövrünə aid - Qazma, Əshabi-Kəhf və Kilit mağaraları, Batabat yaylağında, Naxçıvançay və Əlincəçay vadilərində, Haçadağın cənub ətəyində aşkar olunan tarixi abidələr indi də qalmaqdadır. Tarixi abidələrin qalıqlarından məlum olur ki, II- IV minilliklərdə Naxçıvan ərazisində Oğlanqala, Çalxanqala, Govurqala kimi qədim qalaşəhəri yaranmışdır. Naxçıvandakı daş dövrünə aid abidələr içərisində ən məşhuru və qədimi Əshabi-Kəhfdir. Eramızdan əvvəl III əsrə aid olunan, əcdadlarımızın yadigarı olan, xalqımızın bir sıra inanclarını özündə əks etdirən bu abidədən müqəddəs dini kitablarda bəhs edilməsi, "Quran"da ayrıca surənin olması onun

daha əvvəllər də islam ölkələrində tanınmasının sübutudur. Qeyd olunan fərmanlardan başqa yazılma tarixi 1221-1231-ci illər ehtimal olunan farsca yazılmış anonim əsər olan "Əcaib əd-Dünya" əsəridir. Əsərdə müxtəlif ölkələrin tarixi, coğrafiyası barədə məlumatlar verilib ki, bu məlumatlar daha çox şifahi və müşahidə yolu ilə əldə olunub. Müəllif əsərdə ən çox Azərbaycanla bağlı məlumat verdiyindən onun bu ölkəylə bağlılığı sezilir. Daha çox Ərdəbil, Arran, Dərbənd, Bərdə, Təbriz, Salmas, Şirvan, Şamaxı, xüsusilə də Naxçıvan haqqında məlumatlar diqqəti cəlb edir. Əsərdə Naxçıvan haqqında aşağıdakı məlumatlar qeyd olunmuşdur: "Naxçıvan Azərbaycanda böyük və əhalisi sıx olan gözəl şəhərdir. Hündür ərazidə yerləşən bu şəhərdə çoxlu saraylar, köşklər, eyvanlar, mədrəsələr, məscidlər, qala tikilmişdir. Bütün bu binalar gəc və bişmiş kərpicdən tikilmişdir. Araz çayı şəhərin sərhədlərindən keçir. Şəhərin yaxşı ərazisi, axar suyu, bağları, göy-göyərtisi, dadlı meyvələri var. Eldənizlər dövlətinin paytaxtı olan şəhərin əhalisi incə təbiətli, igid, oxatan, qəribsevən, xoş dilli, gözəl qiyafəlidir" [11, s.118].

Orta əsrlər dövründə Naxçıvan şəhərinin bu dərəcədə gözəl memarlıq incilərinə sahib olması təsadüfi deyil. Çünki, orta əsr Azərbaycan memarlığına yeni istiqamət vermiş, özünün sənət dühası ilə Səlcuqilər dövrü memarlığının ağır və sərt üslubuna böyük incəlik və dinamiklik gətirmiş, Yaxın Şərq memarlığına güclü təsir göstərmiş Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvanidir. Bu məktəb bəşəriyyətə Əmirəddin Məsud Naxçıvani, Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani kimi dahi memarlar, sənətkarlar bəxş etmşdir. Şərqin böyük dühaları tərəfindən "Şeyxül-mühəndis" (mühəndislərin başçısı) adlandırılan Əcəmi Naxçıvani yaratdığı əsərlərin üzərinə özünü tanıtmaq üçün "Əbubəkr oğlu Əcəmi, Naxçıvanlı memar" sözlərini yazmışdır. Əcəmi Naxçıvaninin yaratdığı ilk memarlıq əsəri *Yusif ibn Küseyir* türbəsidir .

Bu türbə Naxçıvan şəhərinin mərkəzində yerləşir və el arasında "Atababa günbəzi" adlanır. Səkkizbucaqlı gövdədən, qülləvari günbəzdən, bucaqlarda qoyulmuş dayaqlardan ibarət bu abidə 1162-ci ildə kərpicdən hörülmüş, divarları quraşdırma həndəsi ornamentlərlə örtülmüşdür. Əcəmi Naxçıvaninin ikinci böyük əsəri el arasında "Atabəy günbəzi" adlanan *Mömünə xatun türbəsidir* .

Bu türbə Atabəy Şəmsəddin Eldənizin arvadı, Məhəmməd Cahan Pəhləvanın anası Mömünə xatunun şərəfinə 1186-cı ildə tikilmişdir. Türbə iri ölçüsü, yeraltı sərdabənin quruluşu ilə həmin dövrə aid olan bütün abidələrdən fərqlənən böyük sənət əsəridir. Əcəmi Naxçıvaninin memarlıq əsərlərini tədqiq etdikdə görürük ki, o böyük bir memarlıq kompleksi yaratmışdır. Bu kompleksə Mömünə xatun türbəsi, qoşa minarədən və bunları birləşdirən baştağdan ibarət abidə, Naxçıvan Cümə məscidi, Darülmülk (Eldənizlər sarayı) və Dövlətxana (hökümət binası) daxildir. Lakin tədqiqatçılar Əcəmi Naxçıvaninin memarlıq əsərlərinin yalnız qeyd etdiklərimizlə yekunlaşmadığını, Atabəylər paytaxtında çoxlu tikililərin müəllifi olduğunu, lakin onların günümüzə qədər gəlib çatmadığını söyləyirlər. Əcəmi Naxçıvaninin memarlıq əsərlərinin tədqiqi göstərir ki, o bu əsərləri yaradan zaman orta əsr anlayışı çərçivəsinə sığmayan riyazi və bədii fikrin vəhdətindən istifadə etmişdir.

Günümüzə qədər gəlib çatmış fərman və əsərlərin tədqiqindən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda məktəb və maarifin sürətlə inkişafı XII əsrin sonları, XIV əsrin əvvəllərində daha açıq-aydın özünü göstərir. Bu cür sürətli inkişaf dövründə Naxçıvanda mütəfəkkirlər, ədiblər və şairlər yaşayıb-yaratmışlar. Bu şəxsiyyətlər fəlsəfə, ədəbiyyat, incəsənət, siyasət kimi elmlərlə yanaşı, təlim-tərbiyənin də inkişafı üçün böyük işlər görmüşlər. Naxçıvanın XIII-XIV əsr alimləri sırasında Nəsrəddin Tusi, Qazı Nəcməddin Əhməd ibn Məhəmməd, Həsən ibn Ömər Naxçıvani, Kamaləddin Əbülfəzail Məhəmməd ibn Əbülfəzail ən-Naxçıvani, Fəxrəddin Əbülfəzl Məhəmməd ibn Deyləm ən-Naxçıvani, Abdulla ibn Əhməd ət-Tusi ən-Naxçıvani, İbn Savəci Məhəmməd Səd ibn Məhəmməd, Fəxrəddin Hinduşah Naxçıvani, Məhəmməd ibn Hinduşah Naxçıvani, Baba Nemətullah Naxçıvani, Fəxrəddin Əhməd ibn Aribşah ibn Əli ibn Cəbrayıl ən-Naxçıvani, Əlaəddin Əbu Abdulla Məhəmməd ibn Əli ən-Naxçıvani, Fəxrəddin Əbülqasim Əli ibn Tamam ibn Xələf ən-Nəsibi ən-Naxçıvani və başqalarını qeyd etmək olar [15, s.24].

Ədəbiyyat

1. Ağayev, Ə. Pedaqoji emlimizin dünəni və bu günü / Ə.Ağayev – Bakı: Elm, – 2003.
2. Ahmet, Ç. İslamda eğitim-öğretim tarihi / Ç.Ahmet – Damla yayın evi, – 1983.
3. Bünyadov, Z. Azərbaycan VII-IX əsrlərdə / Z.Bünyadov – Bakı: Elm, – 1989.
4. Əliyeva, N. Azərbaycanda İslam mədəniyyəti / N.Əliyeva – Bakı: Elm və təhsil, – 2017.
5. Hacıyev, İ. Naxçıvan və naxçıvanlılar / İ.Hacıyev – Bakı: Elm, – 2001.
6. Hüseynzadə, R. Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. Nurlar Yayınları, 2007.
7. Hüseynzadə, R. Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqoji fikir / R. Hüseynzadə – Bakı: MBM, – 2005.
8. İbrahimov, F. və Hüseynzadə, R. Pedaqogika / F.İbrahimov, R.Hüseynzadə – Bakı: Mütərcim, – 2012.
9. İslam ansiklopedisi / Hazırlayan İsmayıl Özcan. – Milliyyet Yayınları, –1991.
10. Məmmədov, K. Şərq pedaqoji fikir tarixindən (Tədris vəsaiti) / K.Məmmədov – Bakı: Mütərcim, – 2011.
11. Naxçıvan ensiklopediyası / Naxçıvan ensiklopediyası. – AMEA Yayınları, – I cild, – 2002.
12. Naxçıvan ensiklopediyası / Naxçıvan ensiklopediyası. – AMEA Yayınları, – II cild, – 2002.
13. Piriyev, V. Naxçıvan tarixindən səhifələr (XIII- XIV əsrlər) / V.Piriyev – Bakı: Müəllim, – 2004.
14. Rzayev, V. XIX əsr və XX əsrin əvvəllərində İrəvanda və Naxçıvanda məscid məktəbləri və mədrəsələr / V.Rzayev – Naxçıvan: Əcəmi, – 2016.
15. Rzayev, V. Naxçıvanda məktəb və pedaqoji fikir (XIX əsr və XX əsrin əvvəllərində) / V.Rzayev – Naxçıvan: Əcəmi, – 2017.
16. Səfərli, F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər / F.Səfərli – Bakı: Elm, – 2003.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Fərahim Sadiqov tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 07 fevral 2022-ci il
Son daxilolma tarixi:03 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 372.400

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 30-32
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 30-32
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 30-32

MÜƏLLİM ŞƏXSİYYƏTİNİN PEDAQOJİ FƏALİYYƏTDƏ ROLU VƏ ONA VERİLƏN TƏLƏBLƏR

Müəllif:

Nuray Məmmədova
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant

E-mail:
memmedlinuray2000@gmail.com

Açar sözlər:
müəllim, şəxsiyyətin pedoqoji fəaliyyəti, şəxsi nümunə

Annotasiya. Təqdim olunan məqalədə müəllim şəxsiyyətinin pedaqoji fəaliyyətdəki roluna toxunaraq qeyd olunur ki, yüksək mənəviyyata, nəcib əxlaqi keyfiyyətlərə yüksək peşəkar qabiliyyətlərinə malik olan müəllim üzərinə düşən vəzifələri uğurla yerinə yetirir. Müəllim yüksək nüfuz sahibi və uşaqlara nümunə olmalıdır. Dərin bilik, mədənilik, mənəviyyat nümunəsi olan müəllimin nüfuzu da yüksək olur. Müəllim ona həvalə edilmiş işin keyfiyyətinə və nəticələrinə görə həm də hər bir təhsilalanın intellektual, emosional, mənəvi inkişafı üçün məsuliyyət daşıyır. Müəllim şəxsi, didaktik, təşkilatçılıq, kommunikativ, perseptiv, pedaqoji təxəyyül, suqqestiv, pedaqoji refleksiya və aktyorluq kimi xüsusi pedaqoji qabiliyyətlərə malik olmalıdır.Məqalədə eyni zamanda müəllim şəxsiyyətinin şagirdlərin təlimi, tərbiyəsi, inkişafı və formalaşmasına göstərdiyi təsirdən və əldə olunan nəticələrdən bəhs olunur.

Author:

Nuray Mammadova
Nakhchivan Teachers Institute
Master
E-mail:
memmedlinuray2000@gmail.com

Key word:
teacher, pedagogical activity of personality, personal example

THE ROLE OF THE TEACHER'S PERSONALITY IN PEDAGOGICAL ACTIVITY AND THE REQUIREMENTS FOR IT

Abstract. In the presented article, referring to the role of the teacher's personality in the pedagogical activity, it is noted that the teacher who has high morale, noble moral qualities and high professional abilities successfully fulfills his duties.The teacher should be a high authority figure and an example for children. The authority of the teacher, who is an example of deep knowledge, culture, spirituality, also becomes high. The teacher is responsible for the quality and results of the work entrusted to him, as well as for the intellectual, emotional, spiritual development of each student. The teacher must have special pedagogical abilities, such as personal, didactic, organizational, communicative, perceptive, pedagogical imagination, suggestive, pedagogical reflection and acting. The article also talks about the influence of the teacher's personality on the training, upbringing, development and formation of students and the results obtained.

Автор:

Нурай Мамедова
Нахчыванский институт учителей
Магистрант
E-mail:
memmedlinuray2000@gmail.com

Ключевые слова:
учитель, педагогическая деятельность, личность, личный пример

РОЛЬ ЛИЧНОСТИ УЧИТЕЛЯ В ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ И ТРЕБОВАНИЯ К НЕЙ

Аннотация. Затрагивая в представленной статье роль личности учителя в педагогической деятельности, отмечается, что учитель, обладающий высокими профессиональными способностями, высокой нравственностью, благородными нравственными качествами, успешно выполняет возложенные на него задачи. Педагог должен обладать высоким авторитетом и примером для детей. Авторитет учителя, являющегося образцом глубоких знаний, культурности, духовности, также становится высоким. Учитель несет ответственность за качество и результаты порученной ему работы, а также за интеллектуальное, эмоциональное, духовное развитие каждого воспитанника. Учитель должен обладать особыми педагогическими способностями, такими как личностные, дидактические, организаторские, коммуникативные, перспективные, также педагогическое воображение, соучастие, педагогическая рефлексия и актерское мастерство.В статье также рассказывается о влиянии личности учителя на обучение, воспитание, развитие и формирование учащихся, а также о достигнутых результатах

Müəllim cəmiyyətimizdə yetişən nəsli ən yeni biliklərlə silahlandıran, tərbiyələndirən fəal bir ziyalıdır. Müəllimlik peşələrin ən şərəflisidir. Bütün peşələrin müvəfəqiyyətlə həyata keçirilməsində, müəllimin yetişdirdiyi gənc nəslin hərtərəfli şəkildə formalaşmasında müəllim şəxsiyyəti əsaslı rol oynayır. Eyni zamanda müəllim şəxsiyyəti onun pedoqoji fəaliyyətinin peşə fəallığının mənbəyi və hərəkətverici günəşidir. Aparılan müşahidələr göstərir ki, müəllimlik fəaliyyətində onun şəxsiyyəti həlledici rola malikdir. Əgər müəllim şəxsiyyəti verilən tələblər səviyyəsində formalaşmamışsa nəticədə ictimaiyyətin müəllimin qarşısında qoyduğu sosial sifarişi uğurla həyata keçirməsi mümkün ola bilməz. Müəllim gənclərin şəxsiyyət kimi formalaşmasında, onların mənəvi cəhətdən zənginləşməsində önəmli rol oynayan əsas simadır. Cəmiyyətdə hər kəs ən dəyərli sərvəti olan uşaqlarını, gələcəyimizi, xəyallarını, ümidlərini müəllimə etibar etməyi özünün vəzifəsi hesab edir. Müəllimlər pedoqoji fəaliyyət prosesində şagirdləri şəxsiyyət kimi yetişdirmək, onları dövlətimiz üçün layiqli vətəndaş olaraq tərbiyə edir. Onun yetişdirdiyi insanın biliyi, bacarığı, məslək və əqidəsi cəmiyyətin inkişafında mühüm yer tutur. Müəllim əməyi ona görə qiymətlidir ki, o, şəxsiyyətin özünü formalaşdırır. Yüksək gənc nəslin təlim və tərbiyəsində müəllimin əvəzedilməsi rolu bütün dövrlərdə zəmanənin görkəmli şəxsiyyətləri tərəfindən həmişə yüksək qiymətləndirilmişdir.

Uşaq tərbiyəsi həmişə əbədi, zəruri bir fəaliyyətdir. Hər bir yerdə, hər bir ölkədə cəmiyyətin firavan, azad və xoşbəxt yaşayışı, dövlətin qüdrəti və gücü böyüməkdə olan gənc nəslin düzgün qurulmuş təlim-tərbiyəsindən asılıdır. Məhz bunun üçün gənclərin şəxsiyyətinin formalaşmasında müəllimin şəxsi keyfiyyətləri, öz şəxsiyyəti əsaslı və həlledici rola malikdir. Bunun üçün də pedoqoji prosesin uğurla həyata keçməsində müəllimin şəxsiyyətinin hərtərəfli formalaşması zəruri rola malikdir. Hər bir şagird müəlliminə oxşamağa çalışır, onun şəxsiyyətindəki müsbət cəhətləri özündə formalaşdırmaq arzusunda olur. Müəllim şəxsiyyətində özünü göstərən bu cür əlamətlərə qısaca nəzər salaq.

Müəllimlərin şəxsiyyətini təhlil etdikdə onların yüksək insani keyfiyyətlərə malik olduğunu görürük. Müəllimin təcrübəsini müşahidə etdikdə hər bir müəllimdə dərin zəka, şüurluluq, mənəvi və əxlaqi keyfiyyətləri görürük. Bu keyfiyyətlərin hər biri pedoqoji bacarıqla,qabiliyyətlərlə bir yerdə hər bir müəllimə öz peşə fəaliyyətində müvəfəqiyyət qazanmağa imkan vermiş olur. Müəllimlər peşə fəaliyyətində uğur qazanmaları üçün yüksək əxlaqi və iradi keyfiyyətlərə malik olmalıdır.

Müəllimin iradi keyfiyyətlərindən ən əhəmiyyətlisi onun öz məqsədinə yönəlməsi, həmçinin əhəmiyyətli pedoqoji vəzifələri həll etməyi bacarmasından ibarətdir. İradəli, səriştəli, bacarıqlı, tələbkeş müəllim şagirdin qarşısına təkcə tələb qoymaqla kifayətlənə bilməz, bununla yanaşı bu tələblərin düzgün və dəqiq yerinə yetirilməsinə xüsusilə nəzarət edir. Bununla yanaşı müəllim təkidli olmalıdır. Müəllimin şagirdlərə qarşı tələbkarlığı təkidli olmaq kimi qiymətləndirilməlidir. Təkidli müəllim hər bir şagirdə nəzarət etməklə yanaşı olaraq, eyni zamanda pedoqoji fəaliyyət prosesində qarşıya qoyduğu vəzifələri yerinə yetirərkən qarşısına çıxan çətinlikləri, maneləri aradan qaldırması üçün də vacibdir. Bu keyfiyyət eyni zamanda fasiləsiz olaraq öz üzərində işləməsi, öz ixtisasını artırması üçün də zəruridir [1. s.34].

Müəllim peşə fəaliyyətində müvəfəqiyyət qazanmaq üçün dözümlü və hövsələli olmalıdır. Müəllim səbrli olmalı, özünü ələ ala bilməlidir. Bundan əlavə olaraq hər bir müəllim öz hərəkətlərini idarə etməyə nəzarət etməyə qadir olmalıdır. Müəllimin təvazökarlığı və özünə qarşı tələbkarlığı onun şəxsiyyəti üçün xarakterik keyfiyyət hesab olunur. Bunlar öz peşəsini sevən hər bir müəllimə xas olan zəruri və müsbət keyfiyyət hesab olunur.

Pedaqoji ustalığa yiyələnmək üçün hər bir müəllim bu keyfiyyətləri özündə formalaşdırmağı bacarmalıdır. Apardığımız ədəbiyyat araşdırmalarında görkəmli pedaqoqların, görkəmli şəxsiyyətlərin uşaqların şəxsiyyət kimi formalaşmasında mühüm və əhəmiyyətli rol oynadığı haqqında mülahizələrinə rast gəlirik. A.L.Gerstenin fikrincə müəllimin sadəcə biliyi deyil, onun şəxsiyyəti, mənəvi keyfiyyətləri də öz şagirdlərinə əhəmiyyətli və əsaslı təsir göstərmiş olur.

Müəllimlərin şəxsi nümunəsi, onun şəxsiyyəti şagird şəxsiyyətini təşəkkül etdirmək, onun hərtərəfli inkişafına şərait yaradır [1. s.153].

Müəllim məktəbdə təlim tərbiyə prosesini təşkil edən və həyata keçirən şəxsiyyətdir.

Y.A.Komenski dərs deyən müəllimin hər birini şüa saçan günəş adlandırmışdır. Şüa sa-

çan günəş hər bir canlı aləmə həyat verdiyi kimi müəllim də saçdığı şüa ilə hər bir gənci həyata hazırlamış olur. Bunlarla yanaşı olaraq müəllim şəxsiyyəti məktəblinin əqli keyfiyyətlərinin inkişafına təsir göstərir. Bunun əsasında da məktəblilərin həyatı dəyişir. Hər bir müəllim təkcə dərs dediyi müddətdə deyil,şagirdlər orta məktəbi bitirdikdən sonra da onların şəxsiyyət kimi yetişməsində əsaslı rol oynayır. Buna görə də deyə bilərik ki, hər bir məktəbli oğlan və ya qız ona dərs deyən müəllimini özünə ideal seçir. Öz şəxsi keyfiyyətlərini də müəllimindən götürmüş olur.

Hər bir müəllim pedaqoji fəaliyyətini elə qurmalıdır ki, o, öz şagirdlərinə, müəllim yoldaşlarına, hətta ətrafındakı hər bir insana nümunə olsun.

Müəllimin pedaqoji fəaliyyətinə bir sıra tələblər verilmişdir ki, onlara aşağıdakıları aid edə bilərik:

1. Peşəyə sevgi. Uğurun əsas dərəcəsi peşəyə olan sevgidən başlayır. Müəllim öz peşəsini böyük məhəbbətlə sevməli, onun başqa peşələrdə gözü olmamalıdır [4. s.31].

2.İxtisasa aid olan elmi biliklər sisteminə yiyələnmək,öz biliyini dərinləşdirmək. Tələb olunur ki, hər bir müəllim ixtisasını yaxşı bilməklə yanaşı olaraq, digər elmlərdən də xəbərdar olsun.

3. Elmi bilikləri öyrətmə metodikası. Bilirik ki, müəllim hər bir şagirdi öyrədir, tərbiyə edir. Öyrədə bilmək üçün öyrənmək lazımdır. Müəllim şagirdlərə bilik verməkdə maarifləndirdiyi, öyrətdiyi kimi özünü də elmi biliklərin əsaslarına geniş şəkildə yiyələnməyi öyrətməlidir.

Bəşəriyyət müəllimsiz gənc nəslə təlim-tərbiyə verməkdən yaşaya bilməz, inkişaf və tərəqqi edə bilməz. Məhz buna görə də müəllimlik peşəsi uludur, ülvidir.

Cəmiyyətin firavan, xoşbəxt yaşayışını və sürətli inşikafını təmin etmək üçün müəllimlərə yüksək dərəcəli hazırlıqlı, geniş elmi məlumatlı və bilikli ideya-siyasi və mənəvi cəhətdən sağlam, saf, nəcib, əxlaqlı,yüksək mədəniyyətli, humanist bir insan olması zəruridir.

Ədəbiyyat

1. Orucəliyev, N.B. Pedaqoji ustalığın əsasları. / N.B.Orucəliyev – Bakı: – 2005.
2. Qasımova, L. Pedaqogika. / L.Qasımova, R.Məmmədova – Bakı: – 2019.
3. Əliyev, İ. Pedaqogika. / İ.Əliyev – Bakı: – 2017.
4. Kərimova, H. Müəllimlik peşəsi və pedaqoji mərifət (metodiki vəsait). / H.Kərimova – Bakı: – 2011.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 01 fevral 2022-ci il
Son daxilolma tarixi:26 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 371.32

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 33-36
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 33-36
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 33-36

KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ MƏNƏVİ-ESTETİK DƏYƏRLƏRİN FORMALAŞDIRILMASI

Müəllif:

Esmira Ağayeva
Azərbaycan Respublikasının Təhsil İnstitutu

E-mail:
aagayevaesmira@gmail.com

Açar sözlər:
estetik dəyərin istiqamətləri, sinifdənkənar fəaliyyətlər, dərnək dərsləri, bədii və estetik yaradıcılıq.

Annotasiya. Kiçikyaşlı məktəblilərdə estetik tərbiyə sıx əməkdaşlıq şəraitində həyata keçirilir. Bu əməkdaşlıq ailə-məktəb-əlavə təhsil müəssisələri-ətraf mühit konseptində baş verir və bu prosesdə hər bir komponentin rolu çox böyükdür. Məqalə kiçikyaşlı məktəblilərin estetik dəyərlərinin formalaşması problemindən bəhs edir. Müəllif müəllim işinin konkret formalarını təqdim edir, dərsdənkənar vaxtlarda kiçik yaşlı şagirdlərin estetik dəyər istiqamətlərinin səmərəli formalaşdırılmasına kömək edən şagirdlərin bədii-estetik fəaliyyət növlərini təsvir edir. Bu konseptdə humanist dəyərlər müxtəlifdir. Burada şəxsi dəyərlər, ailə dəyərləri (valideynlər, qardaşlar, bacılar, qarşılıqlı münasibətlər və s.), vətən dəyərləri (bağça, məktəb, sosial mühit, təbiət, doğma diyar, doğma diyar, adət-ənənələr, incəsənət və s.), şagirdin özünküləşdirdiyi dəyərləri də var.

Author:

Esmira Aghayeva
Institute of Education of the Republic of Azerbaijan
E-mail:
aagayevaesmira@gmail.com

Key word:
areas of aesthetic value, extracurricular activities, lessons of association, artistic and aesthetic creativity.

FORMATİON OF SPİRİTUAL AND AESTHETİC VALUES OF JUNİOR SCHOOLCHİLDREN

Abstract. Aesthetic education of young schoolchildren is carried out in close cooperation. This cooperation takes place in the concept of family-school-additional educational institutions-environment, and the role of each component in this process is very important. The article deals with the problem of formation of aesthetic values of young schoolchildren. The author presents the concrete forms of the teacher's work, describes the types of artistic-aesthetic activities of the students that help to effectively form the aesthetic values of the younger students during extracurricular time.In this concept, humanistic values are different. Here, personal values, family values (parents, brothers, sisters, mutual relations, etc.), homeland values (kindergarten, school, social environment, nature, native land, native land, traditions, art, etc.), the student's own also have values.

Автор:

Эсмира Агаева
Институт образования Азербайджанскоий Республики
E-mail:
aagayevaesmira@gmail.com

Ключевые слова:
направления эстетического значения, внеурочная деятельность, уроки объединения, художественно-эстетическое творчество

ФОРМИРОВАНИЕ ДУХОВНО-ЭСТЕТИЧЕСКИХ ЦЕННОСТЕЙ МЛАДШИХ ШКОЛЬНИКОВ

Аннотация. Эстетическое воспитание младших школьников осуществляется в тесном сотрудничестве. Это сотрудничество происходит в концепции семья-школа-дополнительное образовательное учреждение-среда, и роль каждого компонента в этом процессе очень важна. В статье рассматривается проблема формирования эстетических ценностей младших школьников. Автор представляет конкретные формы работы учителя, описывает виды художественно-эстетической деятельности учащихся, помогающие эффективно формировать эстетические ценности младших школьников во внеурочное время. Гуманистические ценности разнятся в этом концепте. Здесь имеются личностные ценности, семейные ценности (родители, братья, сестры, взаимоотношения и др.), ценности Родины (детский сад, школа, социальная среда, природа, родной край, родной край, традиции, искусство и др.), усвоенные как собственные ценности.

Müasir cəmiyyətin inkişafının mürəkkəb və ziddiyyətli şəraitində etik və estetik, xeyirxahlıq və mənəviyyat vəhdətinin təmin edilməsi problemi açıq olaraq qalır. Cəmiyyətin inkişafının özü insanın mənəvi cəhətdən zəngin, yaradıcı, fəal şəxsiyyət kimi formalaşmasına zəmin yaradır. Bu öz mahiyyətinə görə insanın vahid etik və estetik dəyərlərinin daşıyıcısı kimi formalaşması vəzifələrini ön plana çıxarır [10, s.45].

Müasir təhsil sisteminin vəziyyəti təhsil və tərbiyənin humanistləşdirilməsi və humanitar-laşdırılması, onun üçün açılan müxtəlif perspektivlərdə öz müqəddəratını təyin edə bilən vahid, çoxşaxəli şəxsiyyətin inkişafına yönəldilməsi ilə xarakterizə olunur. Təhsilin humanistləşdirilməsinin gücləndirilməsində mühüm proseslərdən biri onun aksiolojiləşdirilməsi – dünyagörüşünün formalaşmasında, gənc şagirdin mənəvi inkişafında mühüm rol oynayan dəyərli məzmun kompo-nentləri ilə təmin olunmasıdır. Məhz buna görə də müasir cəmiyyətdə mənəvi dəyərlər istiqamətində öz müqəddəratını təyin etmək qabiliyyətinə malik şəxsiyyət kimi formalaşma prosesinə yeni yanaşmaların axtarışı, onların mənimsənilməsi, mədəni cəhətdən uyğun həyat tərzinin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu məsələdə fərdin estetik dəyər münasibətləri xüsusi rol oynayır, çünki məktəblilərin bədii mədəniyyət dəyərləri, daxili şüuru və onların əməli fəaliyyətdə təzahürü onların fərdi mənəvi mövqeyinin formalaşmasında ən güclü motivasiyaya çevrilir. Bura məqsəd və ona çatmaq üçün vasitələr də daxildir.

İlk dəfə olaraq "estetik dəyər" termini pedaqogikada, amerikalı tədqiqatçılar U.Tomas və F.Znametskinin əsərlərində "dəyər" fəlsəfi konsepsiyasının analoqu kimi meydana çıxmış və bu termin bu gün də, müəllimlər, filosoflar, psixoloqlar tərəfindən istifadə olunur. Dəyər insanın şəxsiyyətinin əsas xüsusiyyətlərindən biri olub, bütövlükdə cəmiyyətin inkişaf xüsusiyyətlərini, sosial mühitini, insanın dünyagörüşünü səciyyələndirən öz "mən"inin mahiyyətini dərk etməyin unikal formasıdır. Şagirdin fəaliyyət qabiliyyəti, intellektual və yaradıcı fəaliyyəti də bu silsilədəndir. "Dəyər istiqamətləri" termininin bir sıra şərhlərini başa düşmək üçün ümumi "dəyər" anlayışının mahiyyətini daha ətraflı nəzərdən keçirmək lazımdır. Fəlsəfi lüğətdə dəyər insan varlığının və bütövlükdə cəmiyyətin mənalarını müəyyən edən maddi və mənəvi hadisələrin sosial cəhətdən şərtləndirilmiş mənalarını ifadə edən fəlsəfi kateqoriya kimi müəyyən edilir. Kulturoloji lüğətdə dəyər norma və ideallarla yanaşı, insan mədəniyyətinin ən mühüm komponentləri kimi müəyyən edilir; fərdin, bir qrup insanın, bütövlükdə cəmiyyətin ehtiyaclarını, istəklərini, maraqlarını ödəmək üçün müəyyən obyekt və ya hadisənin mülkiyyətidir [2, s.147].

Pedaqoji lüğətdə dəyər insanın maddi və mənəvi dəyərlərə seçici münasibəti, onun şüur və davranışda ifadə olunan münasibətləri, inancları, üstünlükləri sistemi kimi müəyyən edilir [1, s.60].

Pedaqoji lüğətdə "dəyər" şəxsiyyətin münasibətləri, inancları və üstünlükləri sistemi kimi şərh edilir. S.İ. Ojegova isə "dəyər"i çox dar mənada maya dəyəri, qiymət və ya əhəmiyyəti kimi müəyyən edir [4, s.759].

Bir çox mütəfəkkirlər həqiqət, yaxşılıq və gözəllik arasındakı əlaqəni araşdıraraq, onlar üçün ortaq məxrəc – "dəyər" anlayışını tapmışdılar. Bu tamamilə başa düşüləndir - axı, yaxşılıq mənəvi dəyərdir, həqiqət idrak, gözəllik isə estetikadır. S.F Anisimov sözləri ilə desək, "dəyər hər şeyi əhatə edən, bütövlükdə bütün dünyanın mənasını müəyyən edən, hər bir insanda, hər bir hadisədə və hər bir hərəkətdə olan bir məvhumdur" [1, s.126].

Texnologiyanın hazırki inkişafı nəticəsində bu gün uşaqlar bir çox məlumatları mediadan, internetdən, filmlərdən alırlar. Bu, çox zaman cəmiyyətdə əxlaq normalarının düzgün başa düşülməməsinə gətirib çıxardır və bu da mənəvi dəyərlərin formalaşmasında bir sıra ziddiyətlər yaradır. Xeyirxahlıq və cavabdehlik, ədəb və nəciblik, dürüstlük və əməksevərlik, vətəndaşlıq və vətənpərvərlik və s. xüsusiyyətlərin formalaşmasında əsas yük ailənin və məktəbin payına düşür [3, s.42].

Beləliklə, şagirdin əxlaqi və estetik tərbiyəsində müasir təhsil sistemi mühüm rol oynayır. Məhz məktəbdə şagirdin təkcə intellektual deyil, həm də mənəvi-mədəni həyatı formalaşır. Şəxsiyyətin əxlaqi inkişafı və tərbiyəsi sistemli şəkildə, ardıcıl olaraq yalnız ümumi təhsil məktəbində baş verir. Bu səbəbdən, kiçikyaşlı məktəblilərdə mənəvi-estetik dəyərlərin formalaşdırılması bu gün müasir təhsil sisteminin qarşıya qoyduğu əsas amillərdən biridir. Bu istiqamətdə, aparılan işlər çərçivəsində, məktəblərdə sinifdənkənar fəaliyyət ekskursiya və dərnəklər, bölmələr, də-

yirmi masalar, konfrans və debatlar, məktəb elmi cəmiyyətləri və olimpiadaları, müsabiqələr, axtarış və elmi tədqiqatlar, ictimai faydalı təcrübələr və s. kimi formalar vasitəsilə həyata keçirilir [5, s.16].

Şagirdin bu sahədə inkişafı məktəb həyatının bütün pillələrində təmin edilir. Ümumi ibtidai təhsil səviyyəsində şagirdlərin məktəbdənkənar fəaliyyətlərinin vəzifələri şagirdlərin mənəvi-əxlaqi inkişafı və tərbiyəsi vəzifələrinə uyğundur. Burada şagirdin bədii və estetik mədəniyyət haqqında bilikləri mənimsəməsi, dəyər, gözəllik, fəlsəfi baxış təsəvvürlərin formalaşması mühüm rol oynayır. Bu istiqamətdə məktəblərdə sinifdənkənar tədbirlər aşağıdakı dərnək dərsləri vasitəsilə həyata keçirilə bilər:

1. İşin yerinə yetirilməsi üçün qeyri-ənənəvi üsul və üsulları özündə birləşdirən "Ətrafımız

dakı gözəllik" dərnəyi.

Bu dərnək təbiətin bütövlüyünü, harmoniyasını öyrənmək istiqamətində kiçikyaşlı şagirdlərdə təbiətdə gözəllik hissinin inkişafına kömək edir.

2. "Yaradıcılıq emalatxanası" dərnəyi.

Dərnək, müxtəlif istiqamətlərdə inkişafı təklif edir: bədii və estetik zövqün formalaşması,

dizaynın, obrazlı və məkan təfəkküründün inkişafı və s.

Bu dərnəyin aparıcı ideyası rahat ünsiyyət mühitinin yaradılması, hər bir şagirdin bacarıqlarının, yaradıcı potensialının inkişafı və özünü reallaşdırmasıdır.

3. Əsasən təbii və tullantı materiallardan tikinti işlərini əhatə edən "Bacarıqlı əllər" dərnəyi.

Uşaqlarda təxəyyül, forma və rəng, dəqiqlik, çalışqanlıq hisslərinin inkişafına kömək edir, onlara gözəllik sevgisini aşılayır. Təbii və digər materiallardan ibarət olan materiallarla dizaynla məşğul olan uşaq həm də, təbiət hadisələrinin müşahidəsi ilə məşğul olur, bitki aləmi ilə yaxından tanış olur, ətraf mühitə qayğı göstərməyi öyrənir.

4. "Dəcəl ovuclar" dərnəyi.

Barmaq teatrı üçün kuklaların hazırlanmasını və barmaq kuklalarının köməyi ilə teatr tamaşalarının səhnələşdirilməsini əhatə edir. Məşğələlərindəki bu cür fəaliyyət kiçikyaşlı məktəblilərdə reallığı, həyatın bütün tərəflərini onun müxtəlif təzahürlərində bilməyə, onları narahat edən mənəvi problemlərin əks olunmasına münasibət yaradır; teatr üçün yaradılmış əsər vasitəsilə tamaşaçı ilə ünsiyyət; teatr sənətinə marağın formalaşması; onun ifadəli dilinə, aktyor sənətinin əsaslarına yiyələnmək istəyi formalaşır [8, s.90].

Yekun olaraq qeyd etmək olar ki, ibtidai sinif müəllimlərinin qabaqcıl təcrübəsinin təhlilindən göründüyü kimi kiçikyaşlı məktəblilərdə sinifdənkənar fəaliyyətlərdə estetik dəyər formalaş-dırılması uşağın şəxsiyyət kimi yetişməsinin mühüm elementdir.

Kiçikyaşlı məktəblilərdə estetik dəyərin formalaşmasının spesifikliyi ondan ibarətdir ki, "daxili mövqe" müəyyən bir özünüdərk səviyyəsində yaranır və uşağın özünə, ətrafındakı insanlara, hadisələrə və əməllərə qarşı şüurlu münasibətini təmsil edir [6, s.121]. Yəni, şagird şəraitdən asılı olmayaraq həmişə və hər yerdə əməl etdiyi və ya əməl etməyə çalışdığı əməlləri və mövqeyi ilə seçilir. Zehni funksiyaların formalaşması və bütövlükdə inkişaf prosesində mənimsənilmiş dəyərlər artıq bir vərdişə çevrilir. Bu dəyərlərin vərdişə çevrilməsi şagirdin gələcək həyatında sərbəst seçim etməsinə zəmin yaradır [9, s.27].

Yuxarıda qeyd etdiklərimizi nəzərə alaraq, belə bir nəticəyə gəlirik ki, kiçikyaşlı məktəblilərdə mənəvi-estetik dəyərlərin formalaşdırılması prosesi ümumtəhsil məktəbləri üçün ciddi bir addım, böyük məsuliyyətdir [7, s.42]. Estetik keyfiyyətlərin formalaşması təkcə sinifdə deyil, həm də dərsdənkənar tədbirlərdə, seçmə fənlər üzrə məşğələlərdə, uşağın həm yaradıcı, həm də zehni şəkildə inkişafını təmin edir. Bu həm də estetikanın hər hansı təzahürünü dərk etmək və onu ayırd etmək bacarığını öyrətmək, estetika zövqünü formalaşdırmaq, hər hansı bir sənət və reallıq hadisəsini qiymətləndirmək, bacarıqlarını inkişaf etdirmək istiqamətində şagirdə böyük imkanlar açır. Təbbi ki, təhsil prosesində kiçikyaşlı şagirdlərin estetik keyfiyyətlərinin formalaşması artıq sübut olunmuş tədris metodlarından istifadə etməklə aparılır.

Beləliklə, məktəb təhsil verməklə yanaşı həm də estetik keyfiyyətlərin aşılanması və forma-laşmasında aparıcı rol oynayır. Müəllimlərin pedaqoji təcrübəsinin təhlili göstərir ki, məktəblərdə bu dəyərlərin tədris və tətbiq olunması kiçikyaşlı tələbələrin estetik keyfiyyətlərinin formalaşmasına öz müsbət töhfəsini verir.

Ədəbiyyat

1. Anisimov, S.F. Müasir tələbə gənclərin dəyər və peşəkar istiqamətləri: sosioloji aspekt // –

Sankt-Peterburq: SZAGS, – 2000, – 166 s.
2. Bozoviç, L.İ. Şagirdlərin dəyər istiqamətinin fəaliyyətin dəyişməsindən asılılığı. – Moskva: MGPI, – 2004, – 212 s.
3. Juravleva, H.A. Rusiya cəmiyyətində fərdin dəyər istiqamətlərinin dinamikası. – M.: – 2006, – 335 s.
4. Ojegov, S.I. Rus dili lüğəti: Ok. 57000 söz / Ed. N.Y. isveçli. – M .: – 1984, – 797 s.
5. Şmalkova, L.V. Məktəbdənkənar tədbirlərin həyata keçirilməsinin planlaşdırılması və təhlili // İbtidai məktəbin idarə edilməsi. – 2011, – № 12, – s. 5-16.
6. Yaşina, N.Y. Kiçik yaşlı şagirdlərdə estetik təsəvvürlərin formalaşdırılması. – M.: Vlados, – 2001.
7. Rojkov, M.I. Uşaq qruplarında özünüidarənin inkişafı: dərslik. – M.: Humanitar. Mərkəzi VLADOS, – 2002, – 160 s.
8. Sozonov, V. P. Sinifdə tərbiyənin işinin təşkili. – M.: Mərkəzi. Pedaqoji axtarış, – 2000, –160 s.
9. Shurkova, N. E. Məktəblinin təhsil proqramı. – M.: Ümumi pedaqogika, – 1998, – 48 s.
10. Yaroshenko, N.N. Sosial-mədəniliyin pedaqoji paradiqmaları. – Dərslik, – M.: – 2004, – 253 s.

Məqalə pedaqogika üzrə elmlər doktoru, profesor Akif Abbasov tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 28 fevral 2022-ci il
Son daxilolma tarixi:30 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 37.03+94(479.24)

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 37-40
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 37-40
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 37-40

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV BÖYÜYƏN NƏSLİN AZƏRBAYCANÇILIQ RUHUNDA TƏRBİYƏSİ HAQQINDA

Müəllif:

Məsud Qəhrəmanov
Naxçıvan Müəllimlər İnstitutu
Magistrant
E-mail:
mesudqehreman_3@mail.ru

Açar sözlər:
Ümummilli lider Heydər Əliyev irsi, azərbaycançılıq ideyası, ümumtəhsil məktəbi, şagirdlər, dövlət atributları

Annotasiya. Məqalə ümummilli lider Heydər Əliyevin irsində azərbaycançılıq ideologiyasının öyrənilməsinə həsr olunmuşdur. Burada azərbaycançılıq ideologiyasının sosial-siyasi mahiyyəti haqqında Heydər Əliyevin nəzəri irsi, müdrik tövsiyələri haqqında məlumat verilir, ümumtəhsil məktəbində bu böyük irsin öyrənilməsi məsələlərindən bəhs olunur. Təhsilimizə göstərilən yüksək səviyyəli diqqətin nəticəsidir ki, ulu öndər Heydər Əliyev özünün dövlət quruculuğu strategiyasında təhsilə dövlətçiliyimizin təməl prinsipi kimi yanaşmış, bu sahəyə diqqət və qayğısını heç bir zaman əsirgəməmişdir. Azərbaycan xalqının ümumimilli lideri Heydər Əliyev təhsilimizin dünya standartlarına uyğun olaraq daima inkişafı, müəllimlərimizin, elm adamlarının nüfuzlarının artırılması, məktəb şəbəkəsinin yüksək səviyyədə genişləndirilməsi ilə bağlı onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar vermişdir. Görkəmli dövlət xadimi bir sıra mühüm dövlət sənədləri imzalamışdır ki, bunlar da birbaşa elm və təhsildə olan problemlərin həll olunması istiqamətində müsbət nəticələr əldə edilməsinə imkan verir, böyüyən nəslin azərbaycançılıq ruhunda tərbiyəsini təmin edir.

Author:

Masud Gakhramanov
Nakhchivan Teachers Institute
Master
E-mail:
mesudqehreman_3@mail.ru

Key word:
the legacy of national leader Haydar Aliyev, the idea of Azerbaijanism, secondary school, students, attributes of the state

NATİONAL LEADER HEYDAR ALİYEV ON EDUCATİNG THE YOUNGER GENERATİON İN THE SPİRİT OF AZERBAİJANİSM

Abstract. The article is devoted to the study of the ideology of Azerbaijanism in the legacy of national leader Haydar Aliyev. It provides information about the socio-political essence of the ideology of Azerbaijanism, the theoretical heritage of Haydar Aliyev, wise recommendations, discusses the study of this great heritage in a secondary school. The result of the high level of attention to our education is that the great leader Haydar Aliyev, in his strategy of state-building, approached education as a fundamental principle of our statehood, never spared attention and care about this area. The national leader of the Azerbaijani people, Haydar Aliyev, has issued dozens of historically significant decrees and orders related to the constant development of our education in accordance with international standards, increasing the prestige of our teachers, scientists, and expanding the school network at a high level. The prominent statesman signed a number of important state documents that allow us to achieve positive results directly in the direction of solving problems in science and education, and ensure the upbringing of the younger generation in the spirit of Azerbaijanism.

Автор:

Масуд Гахраманов
Нахчыванский институт учителей
Магистрант
E-mail:
mesudqehreman_3@mail.ru

Ключевые слова:
наследие общенационального лидера Гейдара Алиева, идея азербайджанства, общеобразовательная школа, ученики, атрибуты государства

ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ О ВОСПИТАНИИ ПОДРАСТАЮЩЕГО ПОКОЛЕНИЯ В ДУХЕ АЗЕРБАЙДЖАНСТВА

Аннотация. Статья посвящена изучению идеологии азербайджанства в наследии общенационального лидера Гейдара Алиева. Здесь дается информация о социально-политической сущности идеологии азербайджанства, о теоретическом наследии Гейдара Алиева, мудрых рекомендациях, обсуждаются вопросы изучения этого великого наследия в общеобразовательной школе. Результатом высокого уровня внимания к нашему образованию является то, что великий лидер Гейдар Алиев в своей стратегии государственного строительства подходил к образованию как к основополагающему принципу нашей государственности, никогда не жалел внимания и заботы об этой сфере. Общенациональный лидер азербайджанского народа Гейдар Алиев издал десятки исторически значимых указов и распоряжений, связанных с постоянным развитием нашего образования в соответствии с мировыми стандартами, повышением престижа наших учителей, ученых, расширением школьной сети на высоком уровне. Видный государственный деятель подписал ряд важных государственных документов, которые позволяют добиваться положительных результатов непосредственно в направлении решения проблем в науке и образовании, обеспечивают воспитание подрастающего поколения в духе азербайджанства.

Bu gün dünyada baş verən hadisələr diqtə edir ki, insanlarımızın ideya inamı keyfiyyətlərinin formalaşdırılması işində münasibətlərimizə bir daha nəzər yetirək, onun yeniləndirilməsi və təkmilləşdirməsi istiqamətində əsaslı ideya–nəzəri mənbələrin öyrənilməsi üzrə səylərimizi gücləndirək. Bu istiqamətdə aparılan işlərin səmərəliyi üçün ümumtəhsil məktəbinin pedaqoji kollektivlərinin üzərinə çox böyük məsuliyyət düşür. Belə bir baxımdan orta təhsil müəssisələri böyüyən nəsldə Heydər Əliyev ideyalarının sistemli və ardıcıl, anlaşıqlı şəkildə təbliği və tərbiyəsi işinə xüsusi diqqət yetirməlidir.Orta təhsil müəssisələrinin pedaqoji kollektivləri bu sahədə davamlı və məqsədyönlü iş aparmalı, məktəbliləri hərtərəfli ideyalı şəxsiyyət kimi yetişdirmək işində uğur qazanmaq üçün qüvvə və bacarıqlarını əsirgəməməlidir.

Ümummilli lider Heydər Əliyev milli ideologiyamızın konsepsiyasını, azərbaycançılıq ideologiyasının təməl prinsiplərini məktəb yaşından öyrətməyi və həm də gecikmədən başlamağı zəruri hesab edirdi. Heydər Əliyev nitqlərindən birində söyləyirdi: "Milli ideologiyamızın konsepsiyası olmalıdır. Bu konsepsiya əzəli keçmişimiz, mədəni, milli ənənələrimiz üzərində olmalıdır. Biz 20-ci əsrdə ağır mərhələlərdən keçdik, müxtəlif ideologiyaların təsiri altında qaldıq. İndi millətimiz bütün cəhətlərdən azaddır. Lazımdır ki, daima düşünən beyinlərimiz, elm adamlarımız, alimlərimiz, o cümlədən təhsil səhəsində çalışan müəllimlərimiz ideologiyamızın daima düzgün formalaşması üçün öz əməklərini əsirgəməsin. Belə əsrarəngiz ideologiya yaratmaq, düzgün formada təşkil etmək, həm də layiqli şəkildə həyata keçirmək məqsədəuyğundur. [1, s.286].

Dahi Heydər Əliyevin bəşəri və milli mənəvi dəyərlərlə bağlı tövsiyyələrinin əsasında ilk növbədə Azərbaycançılıq ideyaları durur. "Gənclərimiz milli ruhda tərbiyələnməlidir, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir" deyən böyük mütəfəkkir azərbaycançılıq ideologiyasının məzmununu konkretləşdirir, bu nəcib idealın mənəvi əsaslarına müəyyənlik gətirirdi. Heydər Əliyevin nitqində dəqiq ifadə olunurdu ki, Vətənpərvərlik Vətəni sevmək, xalqını sevmək, dilini sevmək, mənəvi dəyərlərini sevmək və ona sahib çıxmaq deməkdir. [1, s.357].

Ümummilli lider Heydər Əliyev məktəblilərin milli tərbiyə işinin məzmununda azərbaycançılıq hissinin formalaşdırılması ideyasını qoyur və onun məktəbdə həlli yollarını vacib hesab edirdi. Heydər Əliyevə görə bu cəhət həm milli tərbiyə konsepsiyasının, həm də milli ideologiyamızın əsas ideya qaynaqlarından biri olmalı idi. Heydər Əliyev azərbaycançılıq hislərinin zəruriliyindən bəhs edərkən söyləyirdi: "Azərbaycançılıq hissiyatını gənclərdə yaratmaq lazımdır. Azərbaycanı sevmək azərbaycançılıq hissiyatını özündə cəm etmək deməkdir. İndi müstəqil Azərbaycan Respublikası məlum olan Azərbaycanın hüdudları çərçivəsindədir. Keçmiş dövrlərdə, keçmiş əsrlərdə Azərbaycan dövlətləri daha da geniş ərazidə olmuşlar. İndi bizim Azərbaycandan savayı, dünyanın çox ölkələrində azərbaycanlılar yaşayır. Amerika qitəsində də, Avropa qitəsində də, Asiya qitəsində də azərbaycanlılar yaşayır. Onlar da azərbaycanlılardır, onlarda da azərbaycançılıq hisləri yaşamalıdır, onlar da özlərini azərbaycanlı kimi hiss etməlidirlər, onlar da Azərbaycanla bağlı olmalıdırlar" [6, s.360].

Xalqımızın bütövlüyünü, həmrəyliyinin daima təmin olunması, cəmiyyətimizin formalaşması, bütün dünya azərbaycanlılarının "Azərbaycan" əbədi birliyinə nail olunması kimi ali məqsədlər, ülvi amallar Heydər Əliyev fəaliyyətinin çox mühüm, başlıca tərkib hissəsi idi. "Azərbaycançılıq -müstəqil Azərbaycanın milli dövlətçilik ideologiyasıdır" prinsipini irəli sürən Heydər Əliyev bütün dünya ölkələrində yaşayan həmvətənlərimizin azərbaycançılıq hissiyatını formalaşdırmağı lazım bilirdi.

Dahi Heydər Əliyev Azərbaycançılıq ideyasından ayrı təsəvvür etmirdi. Müdrükcəsinə söyləyirdi ki, təhsil dövlətçilik hislərinin, müstəqillik atributlarının mənimsənilməsinə birbaşa xidmət etməlidir, milli ideologiyanın əhali arasında təbliğinə və qorunmasına zəmin yaratmalıdır. Millətin gələcəyi olan təhsilsiz heç bir xalq, dövlət irəli gedə bilməz. Təhsil xalqın intellektual səviyyəsini özündə ehtiva edir. Böyük mütəfəkkir doğru

olaraq hesab edirdi ki, hər bir xalqın tərəqqiyə, düzgün ictimai-siyasi və elmi görüşlərə, yaxşı həyati baxışlara nail ola bilməsi təhsilin aparıcı məzmun istiqamətindən asılıdır. Məktəblilər öz vətənini tanımalı, onu sevməli, onun atributlarını qorumalı, üzərində böyüyüb boya-başa çatdığı torpağa bağlılığını, sədaqətini göstərməyi bacarmalıdır. Məktəblilər bilməlidir ki, Azərbaycan dünyanın hər hansı bir ölkəsində yaşayan azərbaycanlılarındır.

Azərbaycançılıq hislərinin təməl daşları kiçik yaşlardan-məktəbəqədər tərbiyə müəssi-sələrindən, ibtidai təhsil mərhələsindən başlamalıdır. Məktəbəqədər yaş dövründə bayrağımız və gerbimiz haqqında uşaqlarda təsəvvür yaratmaq vacib məsələlərdən biridir. Xalqımızın Ümummilli lideri Heydər Əliyev dövlət rəmzlərimizin və təhsil islahatlarının öyrədilməsi məsələlərinə toxunaraq qeyd edirdi ki, bütün məktəblərdə Dövlət müstəqilliyimizin, azadlığımızın mənası bütün məktəblilərdə geniş formada tədris olunmalıdır. Bu həddindən çox əhəmiyyətli olmalıdır, ona görə ki "Azərbaycançılıq" hissləri bütün ölkə vətəndaşlarına uşaq vaxtlarından daima aşılanmalıdır və öyrədilməlidir.

Heydər Əliyev prezident kimi fəaliyyəti dövründə təhsil müəssisələrində tez-tez görüşlər keçirərdi. Məktəblilərlə görüşlərinin birində Azərbaycan bayrağı haqqında dediyi sözlər azyaşlı məktəbli uşaqların da həmişə ruhuna təsir edən, onları daima ruhlandıran, onlarda iftixar və qürur hissləri yaradan fikirlərdir: "Mən bir çox ölkələrdə olmuşam. Həmin ölkələrdə Azərbaycan bayraqlarını görəndə həddindən çox sevinmişəm. Yaşadığım hər bir yerdə, oturduğum maşınların üzərində bayrağımızı həmişə görürəm. Bu, bizim müstəqilliyimizin rəmzidir. Buna görə də, hər bir Azərbaycan vətəndaşı, xüsusən yeniyetmə nəsil həmişə bunu dərk etməli və qiymətləndirməyi bacarmalıdır. Onlarda bayrağımıza olan məhəbbət həmişə xalqa, dövlətimizə olan məhəbbətə daima bərabər olsun. Hər bir evimizdə dövlətimizin bayrağı daima olmalıdır, bütün ailələrdə bayrağımıza həmişə hörmət edilməlidir. Bayrağımız rəsmi yerlərdə yox, həmçinin idarələrdə, müəssisələrdə, məktəblərdə, saraylarda yox, hər bir Azərbaycan ailəsinin həyatının önəmli bir hissəsi olmalıdır."[6, s.389].

Məktəblərimizdə Dövlət atributlarımız yaxşı təbliğ olunmalıdır. Dövlət müstəqilliyimizi təmsil edən bayrağımıza münasibət, onun müqəddəs olması hər bir gənc nəslin daxildə olmalıdır. bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir… biz öz müstəqil dövlətimizdəyik, ölkəmizdəyik. Hansı ölkəyə gediriksə-gedək, Azərbaycanın bayrağının o ölkədə asılması həm Azərbaycanın orada təmsil olunduğunu göstərir, həm də bizim ölkəmizi tanıdır, eyni zamanda bizdə iftixar hissi oyadır.

Azərbaycan xalqının Ümumimilli Lideri Heydər Əliyev və onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bütün çıxışlarında dövlətçiliyimizin və azərbaycançılığın əsas atributlarına, o cümlədən, Azərbaycanın Dövlət himninə daima hörmət etmək hər bir azərbaycan vətəndaşının müqəddəs borcu olmalıdır. Ulu Öndər Heydər Əliyev himnimiz haqqında da böyük iftixar hissi ilə söhbət açaraq bildirirdi. "Məktəblərimizdə Dövlət müstəqilliyimizin atributları çox yaxşı şəkildə təbliğ olunmalıdır" prinsipindən çıxış edərək söyləyirdi ki, bayrağımız kimi himnimizin də müqəddəsliyi ilə bağlı hisslər hər bir cocuqda, hər bir yeniyetmədə daxildən gələn hiss olmalıdır. Hər zaman müşahidə edib görürəm ki, Dövlət himnimizin müəllifləri bu himnimizi çox böyük ustalıqla yaradıblar. Getdiyim bütün xarici dövlətlərdə himnimizə qulaq asarkən mən həmişə iftixar hissi duymuşam... Buna rəğmən mən ali və orta məktəblərimizin həmişə qarşısında böyük vəzifə qoyuram ki, qısa bir zaman ərzində bütün şagirdlərimiz, tələbələrimiz və müəllimlərimiz Azərbaycan himnini daima oxusunlar" [6, s.388].

"Həyatımın məqsədi həmişə Azərbaycan olmuşdur, Azərbaycan xalqı, Azərbaycan Respublikası, Azərbaycan vətəndaşı" deyən Ulu Öndərimiz Heydər Əliyevin irsində Aərbaycançılıq ideyası həmişə gur səslənmişdir. Bütün ömrü boyu azərbaycançılığın müqəddəsliyi uğrunda mübarizə aparmış hüdudsuz zəka sahibi Heydər Əliyevin həyat fəaliyyəti nümunəsində ideya tərbiyəsi zəruri və əhəmiyyətli bir sahədir və onun

daima təkmilləşdirilməsi, yeniləşdirilməsi pedaqoji düşüncənin başlıca vəzifələrindən biridir. Bu istiqamətdə müəyyən işlərin görülməsinə baxmayaraq məktəblilərin Heydər Əliyev nümunəsində Aərbaycançılıq hisslərinin tərbiyə edilməsi günümüzün aktuallaşdırdığı problemdir. Heydər Əliyevin Aərbaycançılıq ideyaları nümunəsində şagirdlərin tərbiyəsi işinin məzmunu, əsas komponentləri, aşılanma yol və vasitələri daha dərin tədqiqatların aparılmasını zəruri edir.

Ədəbiyyat

1.Əliyev, H.Ə. Təhsil millətin gələcəyidir. / H.Ə.Əliyev – Bakı: Təhsil, – 2022.
2. Allahverdiyeva, L. İbtidai sinif şagirdlərinin ideya inamının formalaşdırılmasında Heydər Əliyevin irsindən istifadənin elmi pedaqoji əsasları, Ped.elm.fəls.dok.dis.Avtoreferatı./ – Naxçıvan, 2012.
3. Quliyeva, K.R. Hedər Əliyev irsində mənəvi tərbiyə məsələləri. Ped.elm.fəls.dok. dis.Avtoreferatı./ – Bakı, 2012.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 07 fevral 2022-ci il
Sondaxil olma tarixi:19 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT: 372.8: 512

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 41-46
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 41-46
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 41-46

CƏBR KURSUNUN TƏDRİSİNDƏ KOMPÜTER TEXNOLOGİYASINDAN İSTİFADƏ MƏSƏLƏSİ HAQQINDA

Müəllif:

Rövşən Həsənov
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent

E-mail:
hrovsen.2020@gmail.com

Açar sözlər:
cəbr, MATLAB, vektor, matris, metodika

Annotasiya. Kompüter texnologiyasından təlim prosesində istifadə olunması tədrisin keyfiyyət və səmərəsinə müsbət təsir göstərməklə bərabər, tələbələrin İKT – nin tətbiq sahələrinə cəlb olunmasına, onlarda İKT -dən istifadə mədəniyyətinin formalaşmasına ciddi təkan verir. Təqdim olunan işdə ali pedaqoji məktəblərdə cəbr kursunun tədrisində göstərilən istiqamətdə əhəmiyyət kəsb edən bir sıra məsələlərə diqqət yetirilmiş, onların praktik həlli öyrənilmişdir. Müəyyən edilmişdir ki, cəbr kursunda, o cümlədən xətti cəbrdə həllinin analitik üsulla reallaşdırılması mümkün olmayan və ya həlli çox vaxt tələb edən məsələlər MATLAB dördüncü nəsil proqramlaşdırma dilinin köməyi ilə asanlıqla həll edilir. Bunu göstəmək üçün vektor və matrislərin daxil edilməsi, onlar üzərində aparılan sadə əməllərin MATLAB proqram paketinin əmrləri və standart funksiyaları ilə icra edilməsi məsələləri, tədris prosesində öyrənilən cəbri anlayış və qaydaların verilməsinə uyğunlaşdırılaraq tələbələrə mənimsədilməsinin təşkili və metodiki xüsusiyyətləri araşdırılmışdır. Göstərilir ki, aparılan praktik işlərin tədris planında nəzərdə tutulmuş məşğələlərdən kənar müstəqil laboratoriya işlərində icrası məqsədəuyğundur.

Author:

Rovshan Hasanov
Nakhchivan Teachers Institute
Doctor of Philosophy in Mathematic, associate professor

E-mail:
hrovsen.2020@gmail.com

Key word:
algebra, MATLAB, vector, matrix, methodology

ON THE İSSUE OF USİNG COMPUTER TECHNOLOGY İN TEACHİNG ALGEBRA COURSE

The use of computer technology in the learning process, along with having a positive impact on the quality and efficiency of teaching, gives a significant impetus to the involvement of students in the areas of application of ICT, the formation of a culture of using ICT in them.In the presented work, attention was paid to a number of issues of importance in the indicated direction in teaching algebra course in higher pedagogical schools, their practical solution was studied. It has been established that in the algebra course, including in linear algebra, issues whose solution cannot be realized by an analytical method or whose solution requires a lot of time are easily solved with the help of the MATLAB fourth generation programming language. To demonstrate this, the inclusion of vectors and matrices, the implementation of simple actions carried out on them with the commands and standard functions of the MATLAB software package, the organization and methodological features of mastering to students by adapting to the provision of algebraic concepts and rules studied in the educational process were investigated. It is indicated that it is advisable to carry out practical work in independent laboratory work outside the exercises provided for in the curriculum.

Автор:

Ровшан Гасанов
Нахчыванский институт учителей
Доктор философии по математике, доцент

E-mail:
hrovsen.2020@gmail.com

Ключевые слова:
алгебра, MATLAB, вектор, матрица, методология

ОБ ИСПОЛЬЗОВАНИИ КОМПЬЮТЕРНЫХ ТЕХНОЛОГИЙ В ПРЕПОДАВАНИИ КУРСА АЛГЕБРЫ

Аннотация. Использование компьютерных технологий в учебном процессе оказывает положительное влияние на качество и эффективность образования, а также является серьезным стимулом к вовлечению учащихся в применение ИКТ, формированию культуры использования ИКТ. В представленной работе уделено внимание ряду вопросов, имеющих значение в указанном направлении преподавания курсов алгебры в педагогических вузах, и изучены их практические решения. Установлено, что в курсе алгебры, в том числе линейной алгебры, задачи, которые не могут быть решены аналитически или требуют много времени, легко решаются с помощью языка программирования четвертого поколения MATLAB. Для демонстрации этого включение векторов и матриц, выполнение простых операций над ними командами и стандартными функциями пакета программ MATLAB, организация и методические особенности освоения учащимися адаптированы к усвоенным в учебном процессе алгебраическим понятиям и правилам. Отмечено, что практическую работу целесообразно проводить в самостоятельных лабораторных работах вне занятий, предусмотренных учебным планом.

MATLAB riyazi proqram paketinin köməyi ilə müxtəlif riyazi əməliyyatları kompüterin vasitəsi ilə reallaşdırmaq olar [3,4,6]. Analitik üsulla həllinin icrası qeyri-mümkün olan və ya saatlarla vaxtın sərfini tələb edən bir sıra cəbri, o, cümlədən hesablama məsələlərinin həllinin kompüter texnologiyasının köməyi ilə həyata keçirilə bilməsi, həmin texnologiyadan istifadə etmək zərurətini yaradır [2]. Ona görə yeni kompüter texnologiyalarının tədris prosesinə daxil olduğu zamandan etibarən ali məktəblərdə cəbr kursunun tədrisinə yeni yanaşma tələbi aktuallaşır.

Bu proqramdan təkcə cəbrdən və digər riyazi fənlərdən məşğələlərdə deyil, təhsil, elm və texnikanın müxtəlif sahələrində istifadə olunur. Qeyd etmək lazımdır ki, MATLAB mühitində qeyri-səlis cəbrin proqramlaşdırma məsələləri [5, s.399] və qərar qəbul etmənin qeyri-səlis modelləri işlənib hazırlanmışdır [5, s.464].

Ümumiyyətlə, MATLAB ədədi və analitik üsulların həll alqoritmlərini reallaşdıran universal dördüncü nəsil proqramlaşdırma dilidir. Onun tətbiqi ilə məsələlər yüksək dəqiqliklə və operativ surətdə həll olunur. Paketin üstünlüklərindən biri də hesablamanın nəticəsinin qrafik və animasiya vasitəsilə vizuallığının təmin edilməsidir. Proqramın əsas xüsusiyyəti onun "açıq" arxitekturaya malik olması və genişlənə bilənliyidir. Təcrübəli istifadəçilər, nəinki proqramda reallaşmış həll alqoritmlərindən istifadə edə bilər, həmçinin özünün proqramlaşdırma vasitəsilə *Cu* və ya *Fortran* proqramlaşdırma dillərində proqram tərtib etməklə fərdi alqoritm kitabxanası yarada bilərlər.

Bu proqramda hesablamalar riyazi ifadələr üzərində yerinə yetirilir. Riyazi ifadə *Command Window* pəncərəsinin əmr sətrində hər hansı dəyişənin adına mənimsədilə bilər və ya ≫ işarəsindən sonra birbaşa daxil edilə bilər. İfadəni daxil edib *Enter* düyməsini sıxdıqdan sonra ifadənin qiyməti ekranda əks olunur. Əgər ifadə birbaşa əmr sətrinə daxil edilmişdirsə, ifadənin qiyməti avtomatik olaraq *ans* adlı sistem dəyişəninə mənimsədilir.

Əmrləri yazarkən vektorlar və matrislər böyük, funksiyalar isə kiçik hərflərlə işarə edilir. Əgər əmr bir sətirdə yerləşmirsə, sətrin sonuna boşluq olmadan üç nöqtə qoyulur, sonra *Enter* düyməsi sıxılır və bundan sonra yığım (mətn) yeni sətirdən davam etdirilir.

Hər bir əmrin nəticəsi dərhal ekranda göstərilir. Sətrin sonunda nöqtəli vergül ilə ayıraraq eyni sətirdə bir neçə əmr daxil edilə bilər.

Proqramda işləməyin ən sadə yolu birbaşa hesablama rejimi (kalkulyator) olur. Əmrlər daxil olduqdan dərhal sonra yerinə yetirilir və nəticə monitorda göstərilir.

Məsələn, əmri daxil edin:

≫ sin(0.5)

Enter düyməsi sıxılır. Proqram özü ifadəni qiymətləndirir, xüsusi dəyişən *ans*-ə mənimsədir və nəticədə alınan qiyməti ayrı bir sətirdə göstərir.

ans =

0.4794

Beləliklə, MATLAB proqramı ilə ilk tanışlıq üçün bəzi zəruri məlumatları verdik. Əlbəttə ki, bu məlumatları tələbələrə tədris planında cəbr kursuna ayrılmış mühazirə və praktik məşğələlərdə çatdırmaq nəzərdə tutulmur. Bu məqsədlə təşkil olunan laboratoriya məşğələləri müəllimin rəhbərliyi altında həyata keçirilir. Tələbələr MATLAB sistemində işləmək üçün zəruri bilik və bacarıqlara yiyələndikdən sonra, mühazirə və praktik məşğələlərdə müəllimin verdiyi tapşırıqları müstəqil şəkildə kiçik qruplar halında və ya fərdi olaraq işləyirlər. Beləliklə, cəbr kursu üzrə aidutoriya məşğələlərində və təşkil olunmuş laboratoriya məşğələlərində verilmiş tapşırıqların icrası həyata keçirilir. Bununla cəbr kursunun tədrisində tələbələrin MATLAB proqramından istifadə etmək bacarığı və vərdişləri yaranır.

Məqalədə proqramın mühitində cəbr kursunun məsələlərinin həlli qaydalarının asanlıqla yerinə yetirilməsi mümkün olan nümunələrindən bəhs edilir. Əvvəlcə sadə əməliyyatlar və onlardan istifadə qaydalarını verməklə, daha mürəkkəb əməliyyatları icra etmək üçün zəmin yaradılır.

Bir xətti cəbrin əsasən "vektor" və "matris" anlayışları ilə bağlı olan bir sıra mövzularının tədrisində göstərilən tapşırıqların mahiyyətini və onların tədris metodikasını şərh edəcəyik.

Vektor – bir ölçülü massivdir. MATLAB – da vektor bir sətirdən və ya bir sütundan ibarət olan matrisdir. Bu vektora uyğun olaraq sətir-vektor və ya sütun-vektor kimi baxmaq olar.

Vektorları vermək üçün bir neçə üsuldan istifadə etmək olar. Vektorun elementləri probel (boşluq) və ya vergüllə ayrılırlar.

1. Vektorun elementlərini sadalamaqla vektorun verilməsi üsulu.

Məsələn,

$\gg A = [4\ \ 7\ \ 20\ \ 30]$

$A =$

$4\ \ 7\ \ 20\ \ 30$

Əgər vektorun yazılışında, onun elementləri nöqtəli vergüllə ayrılmışdırsa, onda sütun vektor alınır. Məsələn,

$\gg B = [1; 3; 16]$

$B =$

1

3

16

2. Əgər vektorun elementləri ədədi silsilə yaradırsa, onda bu vektoru başlanğıc qiyməti, addım və son qiyməti göstərməklə vermək olar. Məsələn, başlanğıc qiyməti 2, addımı 3, son qiyməti 20 olan ədədi silsiləyə uyğun vektor belə modelləşdirilir:

$\gg C = 2:3:20$

A vektorunun formasını dəyişmək üçün transponirə əməliyyatı aparılır. A-nın transponirəsi A' kimi işarə edilir.

3. Vektor bir neçə vektorun birləşməsi yolu ilə verilə bilər. Məsələn,

$\gg A = [4\ \ 5\ \ 6];\ B = [17\ \ 18\ \ 19];\ C = [10, 15, 20];\ D = [A\ \ B\ \ C\ ]$

$D =$

$4\ \ 5\ \ 6\ \ 17\ \ 18\ \ 19\ 10\ \ 15\ \ 20$

Vektorlara aid verilən məlumatların "Hesabi vektor fəzalar" mövzusu [1, s.111] tədris edilərkən tələbələrin müstəqil öyrənmələri üçün nəzərdə tutulur. Həmin laboratoriya məşğələsində vektorlar üzərində aşağıdakı əməllərin icrası da həyata keçirilir:

Eyni ölçülü və eyni tipli vektorların toplanması və çıxılması:

$\gg A + B; \gg A - B;$

Eyni ölçülü iki vektorun vurulması (A sətir-vektor, B isə sütun-vektor olduqda): $\gg A * B;$

A sütun-vektor, B isə sətir-vektor olduqda:

$\gg B * A$

kimi modelləşdirilir.

Vektorun ədədə vurulması. A vektorun n ədədinə vurulmasə: $\gg A * n$ kimi ifadə edilir.

MATLAB proqramında matrislər üzərində transponirə, toplama, çıxma, vurma və matrisin ədədə hasili əməlləri aşağıdakı kimi modelləşdirilir.

A matrisinin transponirəsi - $\gg A'$,

A və B matrislərinin cəmi - $\gg C = A + B$,

A və B matrislərinin fərqi - $\gg C = A - B$,

A və B matrislərinin hasili - $\gg C = A * B$,

A matrisinin n ədədinə hasili - $\gg C = A * n$

Qeyd edək ki, matrislər üzərində göstərilən əməlləri icra etməzdən əvvəl matrislər daxil edilməlidir. Vektorlardan fərqli olaraq, matrisin sətir elementlərini daxil etdikdən sonra nöqtəli vergül (;) işarəsini qoymaq və ya *Enter* düyməsini sıxmaq lazımdır. Matrisləri daxil edərkən müvafiq əməllərin yerinə yetirilməsi şərtlərini nəzərə almaq lazımdır. Matrislər üzərində göstərilən əməliyatları MATLAB proqramında "Matrislər üzərində əməllər" mövzusu [1, s.164] öyrənildikdən sonra tələbələr laboratoriyada müstəqil olaraq icra edə bilərlər.

Bir sıra xüsusi tip matrisləri daxil etmək üçün MATLAB proqramında standart funksiyalar mövcuddur:

1. Vahid matris – *eye* (n);
2. Sıfır matris – *zeros* (n);
3. Vahidlərdən ibarət olan matris – *ones* (n);

4. Diaqonal matris – *diag* (A), burada A daxil edilən matrisin dioqanal elementlərindən təşkil olunmuş vektordur.
5. Adamar matrisi – *hadamar* (n). Belə matrislərin ixtiyari iki sütunun uyğun elementlərinin hasilləri cəmi sıfıra bərabər olur.
6. Hilbert matrisi – *hilb* (n).
   Elementləri

$$h_{ij} = \frac{1}{i+j-1}, \qquad i,j = 1,2,\dots,n$$

bərabərlikləri ilə təyin olunan $H = \|h_{ij}\|$ matrisi Hilbert matrisi adlanır.

7. Tərshilbert matrisi – *invhilb* (n)

Xüsusi tip matrislərin sayını artırmaq olar. Baxılan tip matrislərlə tanış olan tələbə onların cəbri nəzəriyyəsini öyrənməyə sövq edilir.

MATLAB proqramında matrislər üçün xüsusi funksiyalar vardır. Onlardan xətti cəbr elementlərinin tədrisində istifadə edilərək matrislərin əsas göstəriciləri [6, *səh.* 168] tapılır.

det (A) - funksiyası kvadrat matrisin determinantını hesablamaq üçün tətbiq edilir;

inv (A) - A kvadrat matrisinin tərs matrisinin tapılması üçün istifadə edilir;

rank (A) - funksiyası ilə ixtiyari matrisin ranqı müəyyən edilir;

trase (A) – funksiyası ilə matrisin izi hesablanılır;

eig (A) – funksiyası ilə matrisin məxsusi (xarakteristik) qiymətləri tapılır.

MATLAB proqram paketində matrisin və vektorun elementlərinin xarakteristikalarını (sətir (sütun) elementlərinin cəmi, hasili, maksimal elementi, minimal elementi, ədədi orta qiyməti, çeşidləmə və s.) müəyyən edən standart funksiyalar vardır. Həmçinin matrisin və vektorun elementlərini emal edən əmrlər də mövcuddur [4, 6].

Biz dəyişənli çoxhədli onun əmsallarının verilməsi ilə tamamilə müəyyən olunur. Bunu nəzərə alaraq MATLAB sistemində çoxhədli həmin çoxhədlinin əmsallarından düzəldilmiş vektor şəklində verilir və saxlanılır. Bu isə MATLAB - da çoxhədlilərlə işləmək üçün funksiyaları nəzərdə tutmağa imkan verir. Həmin funksiyaların köməyi ilə çoxhədlinin qiymətini hesablamaq, onun köklərini tapmaq, çoxhədlilərin vurulması və bölünməsi əməliyyatlarını icra etmək və i.a. mümkün olur [6, s.60].

Birdəyişməli çoxhədli ümumi halda

$$P(x)\text{-}a_1x^n + a_2x^{n-2} + \dots + a_n + 1$$

şəklində ifadədir. Bu çoxhədlinin əmsalları

$$P = [a_1, a_2, \dots, a_n + 1]$$

vektorunun elementləridir. P(x) və P arasında qarşılıqlı birqiymətli uyğunluq mövcuddur. P-yə P(x) çoxhədlisinin əmsallar vektoru deyilir. P vektorunun elementləri sayı, P(x) çoxhədlisinin dərəcəsindən bir vahid artıq olmalıdır. Əgər çoxhədlidə x –in hər hansı qüvvətinə uyğun toplanan iştirak etmirsə, onda bu halda vektorda uyğun əmsalın qiyməti kimi sıfır götürülür.

Məsələn, tutaq ki,

$$2x^4 + x^3 - 4x - 12$$

çoxhədlisi verilmişdir. Çoxhədlinin əmsallar vektoru

$$P = [2\ 1\ 0\ -4\ -12]$$

Olacaqdır.

Arqumentin hər hansı x – qiymətində çoxhədlinin qiymətini hesablamaq üçün *polyval* (P, x) funksiyası nəzərdə tutulmuşdur, burada P – çoxhədlinin əmsallar vektorudur, x – arqumentin qiymətidir.

```
>> P= [2 1 0 – 4 -12]
>> y=polyval (P,2)
y =
   20
```

Beləliklə, x = 2 olduqda $2x^4 + x^3 - 4x - 12$ çoxhədlisinin qiyməti alındı.

x arqumentinin qiyməti olaraq vektor və matrisi də göstərmək olar. Nəticədə arqumentlə eyni ölçülü və ya matris alınacaqdır.

Məsələn.

```
≫ P= [2 1 0 – 4 -12]
≫ A = [1:5];
≫ B =polyval (P,A)
    B =
  -13  20  165  548  1363
```

B vektorunun elementləri A vektorunun hər bir elementi üçün çoxhədlininn hesablanmış qiymətidir.

Çoxhədlininn köklərini *roots* funksiyasının köməyi ilə hesablamaq olar. Bu zaman çoxhədlininn kökləri sayı çoxhədlininn dərəcəsinə bərabər olur.

$2x^2+5x-3$ çoxhədlinin köklərini tapaq

```
≫ P= [2  5 - 3]
≫ roots (P)
ans =
-3.0000
 0.5000
```

Yuxarıdakı misalda əvvəlcə çoxhədlini təmsil edən P vektoru müəyyən edilmiş, sonra isə *roots* (P) funksiysı ilə çoxhədlinin kökləri tapılmışdır.

Çoxhədlinin törəməsini hesablamaq üçün *polyder* funksiyasından istifadə edilir. Bu funksiyanın qiyməti vektor olur. Həmin vektorun koordinatları ilkin çoxhədlinin törəməsi olan çoxhədlinin əmsallarını təsvir edirlər. Məsələn,

```
≫ P= [3 1  – 2  5   12]
≫ polyder (P)
ans =
12  3  - 4   5
```

MATLAB – da çoxhədlilərin vurulması və bölünməsini həyata keçirmək üçün *conv* və *deconv* funksiyaları nəzərdə tutulmuşdur.

Z = *conv* (P1, P2)

burada, P1 və P2 – vektorlarla verilən çoxhədlilərdir;
Z isə vektorlarla verilən P1 və P2 çoxhədlilərinin vurulması nəticəsində alınan çoxhədlinin əmsallar vektorudur.

[R1, R2] = *deconv* (P1, P2)

Bu funksiyanın işinin nəticəsi iki R1 və R2 vektorudur. Belə ki, R1 və R2 vektorları P1 və P2 vektorları ilə verilən çoxhədlilərin bölünməsi nəticəsində alınan uyğun olaraq qismət - çoxhədlisinin və qalıq – çoxhədlisinin əmsallar formalarıdır.

Bütün bunları laboratoriya məşğələlərində tələbələr müstəqil olaraq öyrənirlər.

MATLAB proqram paketinin cəbr kursunda daha mürəkkəb məsələlərini (cəbri və transendent tənliklərin həlli, xətti cəbri tənliklərin həlli, qeyri-xətti tənliklərin həlli) həll etmək üçün imkanlar vardır. Bununla bərabər MATLAB proqram paketinin ali məktəblərin digər kurslarında (riyazi analiz, diferensial tənliklər və b.) öyrənilən bir sıra mövzuların tədrisində mühüm tətbiqləri vardır [6]. Bunlardan başqa həmin proqramın riyazi tədqiqatlarda çox geniş tətbiq sahələri vardır [7]. Ona görə də ali pedaqoji məktəblərin cəbr kursunda, həmçinin digər bir sıra kurslarında MATLAB proqramı haqqında göstərilən metodika ilə sadə məsələlərin öyrənilməsi mühüm əhəmiyyət daşıyır.

Nəticə. Ali pedaqoji məktəblərdə cəbr kursunun tədrisində MATLAB proqram paketindən göstərdiyimiz metodika ilə istifadə etmək imkanı vardır. Belə ki, həmin yolla MATLAB proqramının tətbiqi ilə vektor və matrislərə aid sadə əməliyyat və proseduraların verilməsi sonralar mürəkkəb məsələlərin həll edilməsinə zəmin yaradır. Tələbələrin kompüter texnologiyalarının yiyələnməyə və ondan gələcəkdə öz fəaliyyətində istifadə etməyə müsbət təsir göstərir. Ali pedaqoji məktəblərin digər bir sıra riyazi kurslarının tədrisində həmin metodika ilə MATLAB proqramından istifadə edilməsi məqsədəuyğundur.

ƏDƏBİYYAT

Baxşəliyev, Y.R. Cəbr və ədədlər nəzəriyyəsi kursu. Dərslik. / Y.R.Baxşəliyev, L.Ş.Əbdülkərimli. – Bakı: Nurlan, – 2008. – 560 s.
Говорухин, В. Компьютер в математическом исследовании. Учебный курс. / В. Говорухин, В. Цибулин. – СПб.: Питер, – 2001. – 624 с.
Курбатова, Е.А. Матлаб 7: (Самоучитель) / Е.А. Курбатова. – М.: Диалектика, – 2006. – 256 с.
Лазарева, Т.И. Решение Задач в системе MATLAB. (Практическое пособие) /Т.И. Лазарева, И.В.Мартынова, И.К.Ракова – Санкт-Петербург: Балт.гос.техн.ун-т. – 2013. –110 с.
Леоненков, А.В. Нечеткое моделирование в среде МАТЛАВ и fuzzy TECH. – Петербург: БХВ, – 2005. -736 с.
Məmmədov, H.Ə.– Mühəndis riyaziyyatı (MATLAB/ SİMULİNK – də modelləşdirmə) Dərslik / H.Ə. Məmmədov, Q.Ə. Rüstəmov, R.Q. Rüstəmov. Dərslik. – Bakı: AZTU, – 2015. – 440 s.
Чен, К. MATLAB в математических исследованиях: Пер.с.англ. / К.Чен, П.Джублин, А. Ирвин. – Москва: Мир, – 2001. – 346 с.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 11 fevral 2022-ci il
Son daxilolma tarixi:05 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 372.851

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 47-50
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 47-50
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 47-50

TƏLİMİNİN MODELLƏŞDİRMƏSİNDƏ İKT-DƏN İSTİFADƏ İMKANLARINA DAİR

Müəllif:

Tofiq Məmmədov
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

E-mail:
tofigm25@hotmail.com

Açar sözlər:
informasiya, innovativ tədris texnologiyaları, tədrisin modernləşdirilməsi, elektron resurslar, tapşırıq, problemin həlli

Annotasiya. Bu məqalədə tədris prosesində informasiya kommunikasiya texnologiyalarından istifadə edərək modelləşdirmənin həyata keçirilməsi məsələləri nəzərdən keçirilir. Məqalədə göstərilir ki, bu gün dərs həmişə olduğu kimi tədris prosesinin əsasını təşkil edir. Müəllimin və şagirdlərin tədris fəaliyyəti dərslərdə dəqiq müəyyənləşdirilir. Müasir dərs axtarış, idrak və fəaliyyət dərsidir. Müəllim və şagirdlərin funksiyaları dərsin tələbinə uyğun olaraq dəyişir: müəllim şagirdi tədqiqat aparmağa yönəldir. Məqalədə müasir dərsin xüsusiyyətləri şərh olunur. Qeyd olunur ki, multimedia və internetin sürətli inkişafı müəllimlərin kompüter tədrisinə böyük marağına səbəb olub, modelləşdirmə və informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə tədrisin keyfiyyətinin və effektivliyinin təmin edilməsi aşağı səviyyədə qalır. Sonda deyilir ki, müəllimin tədris fəaliyyətində İKT-dən istifadə tədris prosesinin səmərəliliyinin artırılmasına kömək edir. Məqalə tədris prosesinin modernləşdirilməsi üçün informasiya və kommunikasiya texnologiyasına həsr edilmişdir.

Author:

Tofig Mammadov
Nakhchivan Teachers Institute
Doctor of philosophy in pedagogy, associate professor
E-mail:
tofigm25@hotmail.com

Key word:
information, innovative teaching technologies, modernization of teaching, electronic resources, assignment, problem solving

ON THE POSSIBILITIES OF USE OF ICT IN MODEL ING OF TRAINING

Abstract. This article considers the issues of modeling using information communication technologies in the educational process. The article shows that today the lesson, as always, is the basis of the educational process. The teaching activities of the teacher and students are clearly defined in the lessons. The modern lesson is a lesson of search, cognition and action. The functions of the teacher and the students change according to the demand of the lesson: the teacher directs the student to research. The article describes the features of the modern lesson. It is noted that the rapid development of multimedia and the Internet has caused teachers' great interest in computer teaching, and ensuring the quality and effectiveness of teaching by using modeling and information and communication technologies remains at a low level. In conclusion, it is said that the use of ICT in the teaching activity of the teacher helps to increase the efficiency of the teaching process. The article is dedicated to information and communication technology for the modernization of the educational process.

Автор:

Тофиг Мамедов
Нахчыванский институт учителей
Доктор философии по педагогике, доцент
E-mail:
tofigm25@hotmail.com

Ключевые слова:
информативный, инновационный образовательные технологии, модернизация образования, электронные ресурсы, задание, решение задач

К ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ИКТ В МОДЕЛИРОВАНИИ ОБУЧЕНИЯ

В данной статье рассмотрены вопросы реализации моделирования с использованием информационно-коммуникационной технологии в учебном процессе.В статье указано, урок сегодня, как и всегда, составляет основу учебного процесса. Учебная деятельность учителя и учащихся выявляет именно на уроках. Современный урок - это урок поиска, познания и деятельности. Функции учителя и учащихся меняются в соответствии с требованием урока: учитель ориентирует ученик вести исследования. В статье комментируются особенности современного урока. Отмечено, что стремительное развитие мультимедиа и интернета вызывало большой интерес у педагогов к компьютерному обучению, обеспечение качества и эффективности обучения с использованием моделирования и с использованием информационно-коммуникационной технологии остается на низком уровне. В заключение сказано, что использование ИКТ в учебной деятельности преподавателя способствует повышению эффективности учебного процесса. Статья посвящена информационно-коммуникационной технологии для модернизации учебного процесса.

Həyatı tələblərini ödəmək üçün insan ömrü boyu qarşısına müəyyən məqsədlər qoyur. Məqsədli fəaliyyətin səmərəli və keyfiyyətli olması seçilmiş metod və vasitələrin rolundan çox asılıdır. İnsan ömrünün sonununa kimi öyrənir və öyrədir (xüsusi ilə müəllimlər). Həyatı qabiliyyətini reallaşdırması üçün o, müəyyən bilik, bacarıq və vərdişlərə malik olmalıdır. Bilik, bacarıq və vərdişlərin müvəffəqiyyətlə rallaşdırılması üçün isə təlimin üç prinsipinə əməl etmək proritetdir: nəyi öyrətmək-mövzunu, necə öyrətmək-metodu düzgün seçmək və nə üçün öyrətmək-mövzunu öyrətməkdə məqsədin nədir?

XXI əsrin əvvəlində həyatın bütün sahələrində olduğu kimi, Azərbaycan təhsilində də əsaslı müsbət dəyşiliklər baş vermişdir. Təhsil haqqında Azərbaycan Respubilkasının Qanunun qəbul edilməsi, təhsil islahatının həyata keçirilməsi, milli dəyərləri saxlamaqla inkişaf etmiş dünya ölkələrinin təhsil sisteminə inteqrasiya, Boloniya Konsepsiyasına qoşulma, ilk dəfə olaraq təhsildə kredit sisteminin təşkili, "hafizə", "yaddaş " məktəbi modelinə keçidin əsasını təşkil edən yeni fənn proqramlarının (kurikulumların) təhsildə tətbiqi " Azərbaycan Respubilkasında təhsilin inkişafı üzrə Dövlət strategiyası"nın qəbul edilməsi (2013-cü il 24 oktyabr dövlət proqramı) və s. [1].

Bu dəyişiliklərə təhsilin modelləşdirilməsi və informasiya və kommunikasiya texnologiyalarının təhsil sistemində səmərəli tətbiqini və onun təlimi keçən əsrdə şagirdlər I sinifdə oxumaq, yazmaq və hesab əməlləri öyrədilirdisə, indi bu bacarıqlar məktəbəqədər təhsil müəssisələrində praktikal məzmunlu biliklər şəklində formalaşdırılır. Müasir dövrün şagirdi internet vasitəsilə özü üçün maraqlı olan istənilən mövzu üzrə axtarış aparmaq və onu mənimsəməkdə bir o qədər də çətinlik törətmədiyindən, onları təccübləndirmək, diqqətini təlim prosesində daim nəzarətdə saxlamaq o qədərdə asan deyildir [2].

Şagirdlərin hissə və kəsr anlayışları ilə tanışlığı praktik işlərdən başlayır.

Düz xətt parçasının, dairənin, kvadrat və düzbucaqlının iki bərabər hissəyə bölünməsi "yarsı," "ikidə bir hissəsi" anlayışlarının, həmin kəmiyyətlərin dörd bərabər hissəyə bölünməsi, kəmiyyətin "dörddə biri" və ya yarsının yarsı kimi kəsr ədədlər ilə ifadə olunması, şagirdlərin nəzər-diqqətinə çatdırılır. Bu vasitələrin içərisində dairənin hissələrə bölünməsini əyani göstərilməsi başqa vasitələrə nisbətən daha yaxş dərk olunur. Çünki, dairənin bərabər hissələrə bölünməsi dairənin özünə oxşamadığından uşaqların görmə yaddaşına daha tez hək olunur. Burada iki istiqamətdə praktik iş aparmaq olar.

1) Verilən fiqurun bərabər hissəərə bölünməsi;

2) Hissələri birləşdirərək, yenidən əvvəlki fiqurun bərpa edilməsi.

Müəllimin göstərişi ilə uşaqlar özlərində olan didaktik materiallarını 2, 4 hissələrə bölür və ½, ¼ kəsrləri ilə ifadə olunduğunu yazılı şəkildə göstərirlər. Fiqurların bərabər hissələrə bölüməsini aşağıdakı mərhələlər üzrə öyrədilməsində didaktikanın asandan çətinə prinsipinə əsaslanır və aşağıdakı ardıcıllıqla öyrədilməsi məqsədə uğundur.

-2, 4, 8 bərabər hissələrə bölmə;

-3, 6, 9 bərabər hissələrə bölmə;

-5, 10 bərabər hissələrə bölmə.

Düz xətt parçasının, düzbucaqlının bərabər hissələrə bölünməsində xətkeşdən, dairənin hissələrə bölünməsində isə xətkeş və pərgardan istifədə olunmasını müəllim şəkilləri lövhədə çəkərkən istifadə edir.

Lakin İKT-dən istifadə etdikdə xətkeşdən, pərgardan pozandan və ağ rəqələmdən istifadə edilmir (Bu o deməkdir ki, şagirdlər əlavə xərclərdən azad olurlar). Bu vasitələrin hamısı kompüterin müxtəlif proqramlarında yerləşdirilmişdir. Sadəcə olaraq bu alətlərin kompüterin hansı proqramında yerləşən ünvanı bilmək lazımdır.

Göstərilən kəsrlərin modelləşdirilməsində İKT-dən istifadə etməklə öyrədilməsinin bir neçə nümunələrini göstərək:



Bu model vasitəsilə sadə kəsrlərin xırdalanması və çevrilməsini əyani şəkildə səmərəli üsulla öyrətmək çox əlverişlidir.

Bu vasitələr kompüterin "Point" və "afvtofiqurlar" alt proqramında yerləmişdir. Bu şəkilləri çəkməklə həmdə şagirdlər kompüterlə işləmək üsullarını mənimsəyir.

Məsələ: Üç rəfdə 171 kitab vardır. İkinci rəfdə birincidən iki dəfə, üçüncüdə isə ikincidən üç dəfə çox kitab vardır. Hər rəfdə neçə kitab vardır?

Məsələnin həlli "Point" proqramında modelləşdirərək göstərilmişdir.



1-ci rəfdəki kitabların sayını 1 hissə qəbul etsək, 2-ci rəfdəki kitabların sayı şəkildə göründüyü kimi iki hisə, 3-cü rəfdəki kitabların sayı isə altı hissə olar. Bu hissələrin sayı cəmi 9 hissə təşkil edir və rəfdəki kitbların sayı 171-ə bərabər olduğuna görə 171:9=19 (I rəfd), 19x2=38 (ikinci rəfdə), 19x6=114 (3-cü rəfdə) kitab olar. Yoxlama: 19+38+114=171(kitab).

Tədqiqatın elmi yeniliyi. Təlimin modelləşdirilməsində, İKT-dən istifadə etdikdə tədrisin səmərililiyini artıran yeni məzmunlu metodik sistem müəyyən edilmişdir.

NƏTİCƏ

1. Riyaziyyatın tədrisi prosesində kompüterdən təlim vasitəsi kimi istifadə etməyin xüsusi rolu və əhəmiyyəti vardır.

2. Hissə və kəsr anlayışlarına aid məsələ həlli şagirdlərin düşünmə, mühakimə yürütmə, müqayisə etmə, analiz və sintez, konkretləşmə və ümumiləşdirmə, təlimi modelləşdirmə kimi təfəkkür əməliyyatlarını hərəkətə gətirir və inkişaf etdirir.

3. Hissə və kəsr anlayışlarının modelləşdirilməsində İKT-dən istifadə:

a) şagirdlərin intutiv biliklərini,

b) hissə və kəsr haqqındakı bilik və bacarıqlarını,

c) əyani vasitələrlə praktik işlərini möhkəmlədir və zənginləşdirir.

4. Həndəsənin ilk anlayışlarından düz xətt parçası, düzbucaqlı, kvadratın və dairəni modelləşdirərək, İKT vasitəsilə öyrədilməsi, hissə və kəsr anlayışları haqqında şagirdlərin əyni təsəvürlərinin formalaşdırılmasını təmin etməklə yanaşı, onların praktik bilik, bacarıq və vərdişlərinin inkişafını sürətləndirir.

5. Hissə və kəsr anlayışlarının təliminin modelləşdirilməsində İKT-dən istifadə şagirdlərdə vaxta qənaət, dəqiqlik, sistemlilik və məntiqi düşünmək kimi müsbət əxlaqi keyfiyyətlər formalaşdırmaqla yanaşı, həmdə onların İKT vasitələri ilə işləmək vərdişlərini inkişaf etdirir.

Ədəbiyyat

1. Azərbaycan Respubilkasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. – 2013, 24 oktyabr.
2. Məmmədov, T.Ə. İbtidai siniflərdə riyaziyyatın tədrisi metodikası. / T.Ə.Məmmədov – Naxçıvan: Əcəmi, – 2011. – s.169-172.
3. Adıgözəlov, A., İbtidai siniflərdə riyaziyyat təliminin xüsusi metodikası. Dərslik. / A.Adıgözəlov, İ.Əhmədov – Bakı: Mütərcim, – 2001.
4. Истомина, Н.Б. Методика обучения математике в начальных классах. – М.: Академия, – 2000. – с.32-38.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 12 fevral 2022-ci il
Son daxilolma tarixi:26 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 372.857

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 51-53
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 51-53
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 51-53

BİTKİ TOXUMASI KULTURU İLƏ İŞLƏMƏK ÜÇÜN LABORATORİYAYA VERİLƏN ƏSAS TƏLƏBLƏR

Müəlliflər:

Tofiq Əliyev
Naxçıvan Dövlət Universiteti
Pedaqogika üzrə fəlsəfə doktoru
E-mail:
tofiq.ə15@mail.ru

Akif Mərdanlı
Naxçıvan Dövlət Universiteti
Kənd təsərrüfatı üzrə fəlsəfə doktoru, dosent

Açar sözlər:
bitkilərin hüceyrə kulturası, hüceyrələrin suspenziya kulturaları, steril otaq, laminar-boks

Annotasiya. Hazırda bitki toxumalarının və hüceyrələrinin kultura üsullarına maraq xeyli artmışdır. Bu, həm genetika və fiziologiya, molekulyar biologiya və bitki sitologiyasında fundamental tədqiqatlarda hüceyrə kulturalarının artan rolu, həm də hüceyrə texnologiyalarının kənd təsərrüfatı və sənayedə praktiki tətbiqi imkanları ilə bağlıdır. Bitkilərin toxuma kulturası ilə iş üçün laboratoriyaya verilən əsas tələblər bunladır. Metodikaların çoxunda ilkin material kimi hüceyrələrin kallus və ya suspenziya kulturasından istifadə olunur. Mühitin hazırlanması üçün ayrıca otağın olması məsləhətdir. Toxuma kulturaları ilə iş zamanı steril köçürmələr üçün laminar-bokslar istifadə olunur. Kallus kulturalarının böyük kolleksiyaları üçün temperaturu 25oC olan termostatlaşdırılmış otağın olması vacibdir. Suspenziya kulturalarının qarışdırılması və aerasiyası üçün ən ucuz sistem açıq platformaya malik olan dairəvi fırlanan yellənəcəklərdir.

Authors:

Tofik Aliyev
Nakhchivan State University
Doctor of philosophy in pedagogy, teacher
E-mail:
tofiq.ə15@mail.ru

Akif Mardanli
Nakhchivan State University
Doctor of philosophy in agriculture, associate professor

Key word:
plant cell culture, plant tissue culture, cell suspension cultures, sterile room, laminar-box

BASIC REQUIREMENTS FOR A LABORATORY FOR WORK WITH PLANT TISSUE CULTURE

Abstract. At present, the interest in culture methods of plant tissues and cells has increased significantly. This is related to the growing role of cell cultures in fundamental research in genetics and physiology, molecular biology and plant cytology, as well as the possibilities of practical application of cell technologies in agriculture and industry. Here are the basic requirements for the laboratory for work with tissue culture of plants. Most of the methods use callus or suspension culture of cells as starting material. It is recommended to have a separate room for the preparation of the environment. Laminar-boxes are used for sterile transfers when working with tissue cultures. For large collections of callus cultures, it is important to have a thermostated room at 25oC. The least expensive system for mixing and aerating suspension cultures is a circular rotary shaker with an open platform.

Авторы:
Тофик Алиев
Нахчыванский государственный университет
доктор философии в педагогике, педагог
E-mail:
tofiq.ə15@mail.ru
Акиф Марданлы
Нахчыванский государственный университет
кандидат сельскохозяйственных наук, доцент

Ключевые слова:
культура клеток растений, культура тканей растений, суспензионные культуры клеток, стерильная комната, ламинарный бокс

ОСНОВНЫЕ ТРЕБОВАНИЯ К ЛАБОРАТОРИИ ДЛЯ РАБОТЫ С КУЛЬТУРОЙ ТКАНЕЙ РАСТЕНИЙ

Аннотация.В настоящее время значительно возрос интерес к методам культивирования тканей и клеток растений. Это связано как с растущей ролью клеточных культур в фундаментальных исследованиях в области генетики и физиологии, молекулярной биологии и цитологии растений, так и с возможностями практического применения клеточных технологий в сельском хозяйстве и промышленности. Таковы основные требования к лаборатории для работы с культурой тканей растений. Во многих методиках в качестве исходного материала используют каллусные или суспензионные культуры клеток. Для приготовления среды желательно иметь отдельную комнату. Ламинарный бокс используется для стерильных пересадок при работе с культурой тканей. Для больших коллекций каллусных культур необходима термостатирующая комната с температурой 250С. Для перемешивания и аэрации суспензионных культур самой дешевой системой является качалки с круговым вращением, имеющие открытую платформу.

В настоящее время значительно возрос интерес к методам культуры тканей и клеток растений. Это связано как с увеличением роли клеточных культур в фундаментальных исследованиях по генетике и физиологии, молекулярной биологии и цитологии растений, так и возможностями практического применения клеточных технологий в сельском хозяйстве и промышленности.

В мире актуальны и фундаментальные, и прикладные аспекты использования культивируемых клеток растений. В фундаментальных исследованиях клетки и ткани invitroявляются основой, которая позволяет объединить разные уровни исследования, начиная с молекулярно-генетического и кончая популяционным, что очень важно для изучения различных проблем биологии растений.

Методы культивирования изолированных органов, тканей и клеток растенийпоявились примерно век назад и с тех пор постоянно совершенствуются. Работа в этом направлении привела к некоторым принципиальным достижениям в понимании процесса развития растения.Однако лишь недавно, в связи с возросшим интересом к вопросам, связанным с биотехнологией растений, методы клеточных культур сталишироко применять в лабораториях, занимающихся изучением растений. Культуры клеток растений используются не только для генетических манипуляций с растениями, но и в качестве источников ферментов и продуктов вторичного метаболизма, а также как модельные системы для изучения дифференциальной экспрессии генов.

Несмотря на то что многие методы, используемые при манипуляцияхс культурами клеток растений и для их получения, сами по себе довольно просты, изложение их в одной статье представляет довольно сложную задачу, поскольку различные виды растений поразному реагируют на сходные химические и физические условия культирирования. Подобная изменчивость неизбежно приводит к необходимости использовать эмпирические подходы к подбору соответствующих условий культивирования для видов растений, исследуемых в этом плане впервые.

Во многих методиках, описанныхразными авторами в качестве исходного материала используюткаллусные или суспензионные культуры клеток растений. Суспензионные культуры клеток обычно получают из каллусных; кроме того, последние представляют собой удобную форму поддержания линий и часто являются тем типом культуры, из которого проводят регенерацию растений. В связи с тем что суспензионные культуры в основном состоят из относительно гомогенной популяции клеток, которые можно быстро и сходным образом обрабатывать с помощью добавляемых извне химических веществ, они очень удобны для биохимических экспериментов, проводимых при исследовании индукции ферментов, экспрессии генов, метаболизма добавляемых веществ, а также для выделения и характеристики мутантов.

В основном для работы с культурой тканей растений необходимо следующее:

1) место для приготовления сред;

2) стерильная комната или ламинар-бокс для стерильной пересадки;

3) комната с постоянной температурой или термостат для выращивания каллусных культур;

4) качалки для суспензионных культур клеток.

Некоторые исследователи считают, что для приготовления сред желательно иметь отдельную комнату. В случае, если это невозможно, необходимо соблюдать чистоту при хранении стеклянных сосудов для культур, а также следить за тем, чтобы в среды не попадали следовыеколичества химических реактивов, например, с грязных чаш весов или с электродов pH-метра. Как показала практика, небрежность, допущенная при проведении эксперимента, даже при хорошей оснащенности рабочего места, сводит к нулю все затраченные усилия, поэтому чистота гораздо важнее, чем изысканное специальное оборудование.

Ламинар-бокс в настоящее время вполне доступен и широко используется для стерильных пересадок при работе с культурой тканей. Некоторые ламинар-боксы оснащены ультрафиолетовыми лампами, которые можно оставлять на ночь для стерилизации внутренней поверхности. Однако даже после

этого рабочую поверхность перед использованием желательно протереть этанолом или 20% водным раствором фенола (обязательно в перчатках!). При отсутствии ламинар-бокса для стерильных работ можно использовать небольшую изолированную комнату. В этом случае для работы необходимо иметь поверхность, которую можно легко простерилизовать спиртом или 20% фенолом. Кроме того, до начала работы и во время нее на каждом конце рабочей поверхности должны быть зажжены две горелки Бунзена. Дополнительной мерой предосторожности служат ультрафиолетовые лампы, которыми в нерабочее время проводят стерилизацию поверхности. Такая стерильная комната, конечно, уступает ламинар-боксу, тем не менее и такое оснащение позволяет успешно работать.

Основным физическим требованием для выращивания и поддержания культур клеток растений является постоянная температура. Для небольшого числа каллусных культур вполне пригоден стандартный микробиологический термостат, работающий в режиме 25±2°C. Многие исследователи выращивают культуры каллусов в темноте, однако при необходимости в помещении может быть и свет. Для больших коллекций каллусных культур необходима термостатируемая комната с температурой 25°C. Для культивирования наиболее гибкой и удобной является система полок с трубчатыми люминесцентными лампами над ними(лампы можно прикрепить с нижней стороны верхней полки). Такая система пригодна для выращивания культур в любом световом режиме. Культуры с требованиями к темноте выращивают в той же комнате, но в темном шкафу.

Для перемешивания и аэрации суспензионных культур самой дешевой системой являются качалки с круговым вращением, имеющие открытую платформу. Такие качалки с платформами, которые можно приспособить для колб разного диаметра, помещают в термостатируемую комнату с необходимым световым режимом. Лучший контроль за условиями выращивания (при больших денежных затратах) достигается в закрытых термостатах с круговым вращением. Такие качалки снабжены лампами дневного света, вмонтированными в крышку, и ручками управления, позволяющимиустанавливать различную продолжительность светового дня.

При работе с культурой клеток растений важно снабдить качалку цельной системой охлаждения, поскольку нагрев мотора может привести к значительному повышению температуры внутри камеры.

Каллусные культуры выращивают в пластиковых чашках Петри, в стеклянных пробирках для культуры тканей или в пластмассовых баночках с завинчивающейся крышкой. Суспензионные культуры обычно выращивают в стеклянных конических колбах.

Литература

1. Бекер, М.Е. Биотехнология. / М.Е.Бекер, Г.Клиепиныи, Е.П.Райпулис – М.: Агропромиздат, – 1990. – 334 с.
2. Назаренко, Л.В. Биотехнология растений. / Л.В.Назаренко, Ю.И.Долгих, Н.В.Загоскина Г.Н.Ралдугина – М.: Юрайт, – 2018. – 161 с.
3. Сазыкин, Ю.О. Биотехнология. / Ю.О.Сазыкин, С.Н.Орехов, И.И.Чакалева – М.: Академия, – 2008. – 256 с.
4. Фаталиев, Х.К. Биотехнология. / Х.К.Фаталиев, Ш.Е.Алиев, Т.М.Мусаев – Баку: Экопринт, – 360 с. (на азербайджанском языке)
5. Шевелуха, В.С. Сельскохозяйственная биотехнология. / В.С.Шевелуха – М.: Высшая школа, – 2003. – 416 с.
6. Flick C.E., Evans D.A., Sharp W.R. (1983) in Handbook of Plant Cell Culture Macmillan, New York, p.13

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 02 fevral 2022-ci il
Son daxilolma tarixi:01 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT:372.8+53

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 54-56
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 54-56
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 54-56

MÜASİR FİZİKANIN ÖYRƏNİLMƏSİNİN FUNDAMENTAL MODELLƏRİ HAQQINDA

Müəllif:

Aygün Sultanova
Naxçıvan Müəllimlər İnstitutu
Fizika üzrə fəlsəfə doktoru, dosent
E-mail:
aygunsultanova60@gmail.com

Açar sözlər:
fizika, metodologiya, təlim metodları, elektron, stasionar, interaktiv, cazibə, ətalət, impuls.

Annotasiya. Müasir fizikanın model xarakteri yalnız təbiətə istiqamətlənmiş müəyyən biliklər vermək deyil, həm də onların öyrənilmə metodik və texnologiyasını adekvat əks etdirməklə, fizika metodologiyasının əsas inkişaf istiqamətlərinin təqdimatını təmin etməkdir. Qlobal problemlərin tədqiqində müasir fizikanın daha fundamental modellərindən biri fenomenoloji termodinamikadır. Fizikanın ümumi inkişafında bu gün termodinamikanın artan rolu nəzərə alındığından, onun öyrənilməsi metodikasının gələcəkdə daha da təkmilləşdirilməsi üçün problemin həllinə tamam yeni yanaşma tələb olunur. Fizikanın tədrisində informasiya kommunikasiya texnologiyalarının tətbiqi dərslərin modelləşdirilməsini, hər cür əyaniliyi (statik və dinamik), fərdiləşdirməni, fərdi yanaşmanı və istənilən formalı əks əlaqəni həyata keçirməklə müasir təlim metodlarının, o cümlədən interaktiv təlimin tətbiqinə geniş imkan açır. İnformasiya texnologiyalarının inkişaf istiqaməti, texnika və texnoloji əsasların formalaşdırılması üçün avtomatlaşdırılmış təlim sistemindən, ekspert sistemdən, elektron dərslikdən, fəal təlim üsullarından optimal istifadə fizika təlim prosesində əsaslı dəyişiklərin edilməsinə imkan verir.

Author:

Aygun Sultanova
Nakhchivan Teachers Institute
Doctor of Philosophy in Physics, associate professor
E-mail:
aygunsultanova60@gmail.com

Key word:
electronic, stationary, technical, interactive, .pedagogical, attraction, inertia, impulse.

FUNDAMENTAL MODELS OF MODERN PHYSİCS

Abstract. The model nature of modern physics is not only to provide certain knowledge directed to nature, but also to provide the presentation of the main directions of development of physics methodology by adequately reflecting their learning methodology and technology. One of the more fundamental models of modern physics in the study of global problems is phenomenological thermodynamics. Considering the growing role of thermodynamics in the general development of physics today, a completely new approach to solving the problem is required for further improvement of its study methodology in the future.The application of Information and Communication Technologies in the teaching of physics predisposes for the application of modern teaching methods, including interactive learning, through the implementation of lesson modeling, all kinds of visualization (static and dynamic), individualization, individual approach and any form of feedback. The development of information technologies, optimal use of automated training system, expert system, electronic textbook, active learning methods for the formation of technical and technological bases allows to make fundamental changes in the process of physics training

Автор:
Айгюн Султанова
Нахчыванский институт учителей
Доктор философии по физике, доцент
E-mail:
aygunsultanova60@gmail.com

Ключевые слова:
физика, методология, методы обучения, электронные, стационарные, интерактивные, гравитационные, инерционные, импульсные.

О ФУНДАМЕНТАЛЬНЫХ МОДЕЛЯХ ИЗУЧЕНИЯ СОВРЕМЕННОЙ ФИЗИКИ

Аннотация. Модельный характер современной физики заключается не только в предоставлении определенных знаний, ориентированных на природу , но и в адекватном отражении методики и технологии их изучения, обеспечении изложения основных направлений развития методики физики.Одной из наиболее фундаментальных моделей современной физики в изучении глобальных проблем является феноменологическая термодинамика. Поскольку возрастающая роль термодинамики сегодня рассматривается в общем развитии физики, то для дальнейшего совершенствования методики ее изучения в дальнейшем необходим совершенно новый подход к решению задачи. Применение информационно-коммуникационных технологий в обучении физике открывает широкие возможности для применения современных методов обучения, в том числе интерактивного обучения, путем реализации моделирования уроков, всевозможных наглядностей (статических и динамических), индивидуализации, индивидуального подхода и обратной связи любой формы. Направление развития информационных технологий, оптимальное использование автоматизированной системы обучения, экспертной системы, электронного учебника, активных методов обучения для формирования технико-технологических основ позволяет осуществлять принципиальные изменения в процессе обучения физике.

Məktəb fizika kursunda öyrənilən universal modellərdən fenomenoloji termodinamika – istilik hadisələri haqqında elm olub, özünün nəzəri və praktik əhəmiyyətinə görə başqa materiallardan ciddi fərqlənir.

Təbiət hadisələrinin müvəffəqiyyətlə təsviri onun fiziki modelinin uğurlu seçilməsi və həmin prosesin modeli əsasında müvafiq nəzəriyyənin necə ifadə edilməsi ilə əlaqədardır. Kifayət qədər ümumi istənilən fiziki nəzəriyyə özünəməxsus mürəkkəb komponentləri özündə əks etdirir [2].

Son illər fundamental elmlərdə köklü dəyişikliklərin və praktik istiqamətdə intensiv inkişafının şahidiyik. Heç vaxt elmi nailiyyətlər indiki qədər insanların elmi dünya görüşünə, həyat tərzinə, təhsil sisteminə və iqtisadiyyata bu qədər təsir etməmişdir. Odur ki, elmin inkişafı cəmiyyətdə bir sıra problemlərin meydana çıxmasına səbəb oldu.

Ümumtəhsil tam orta məktəbin X sinfində termodinamikanın əsaslandığı prinsiplər sistemi təcrübi faktların ümumiləşdirilməsini, elmin özü isə fenomenoloji yanaşmanın tipik nümunəsini əks etdirir [1].

Termodinamikanın fenomenoloji xarakteri, yəni onun öyrəndiyi qanunauyğunluqların molekulyar-kinetik mahiyyətlə bağlı olmaması, bir tərəfdən fiziki sistemlərin xassələrinə aid məlumatların dərindən öyrənilməsini məhdudlaşdırır, digər tərəfdən öyrənilən hadisələrin təbiətini aşkar etməyə imkan vermir. Ona görə də öyrənilən cisimlərin quruluşu haqqında heç bir mülahizə söylənilmir. Bu baxımdan termodinamikanın orta məktəbdə öyrənilməsinin əsaslarını aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Termodinamika fenomenoloji nəzəriyyədir.

2. O, istənilən cismi deyil, məhz ölçüləri mikro hissəciklərlə müqayisədə kifayət qədər böyük olan, digər tərəfdən bu ölçülər sonsuz olmayan makroskopik cisimləri tədqiq edir.

Ümumtəhsil tam orta məktəbin X sinfində molekulyar fizikanın əsas bölmələrindən biri olan termodinamika mürəkkəb məntiqi quruluşa, elmi-texniki ümumiləşmələrə, bir sıra çətin dərk edilən spesifik anlayışlara malik olduğundan tədris materiallarının sistemli mənimsənilməsi fizika müəllimləri qarşısında həmişə aktual bir problem olaraq qalmaqdadır.

Respublika təhsilində islahatlarla əlaqədar aparılan işlər ayrı-ayrı fənlərin məzmununda və tədrisində ciddi dəyişikliklərin olması zərurətini meydana çıxarmışdır. Bu baxımdan fizika tədrisi metodikasının əsas məsələlərindən biri - fizika dərslərində nəyi öyrətmək lazım gəldiyi, həmişə aktual olaraq qalmaqdadır. Fizika fənni üzrə tərtib edilmiş yeni proqram, konsepsiya və dərsliklər özündən əvvəlkilərdən müsbət fərqlənsə də müəyyən məsələlərin işlənməsinə ehtiyac vardır. Məktəb fizika kursunun bir sıra mövzu və bölmələrinin praktik tətbiq istiqamətləri gücləndirilməlidir. Bu şagirdlərdə həyat yönümlü biliklər aşılamaqla, materialın qeyri-profil sinif şagirdlərinin yadından çıxarmağa imkan verməyəcəkdir.

Hazırda orta məktəb fizika kursunda mövcud olan bütün təbiət hadisələrinin xəttı və qeyri-xətti istiqamətlərə bölünməsi ilə əlaqədar ümumi bir sistem praktik olaraq yoxdur. Fizika qanunauygunluqlarında əks olunan fundamental qanunlar, metodologiya və prinsiplərdən fərqli olaraq təbiətin riyazi təsvir üsullarını müəyyənləşdirir [5].

Xətti fizika xətti tənliklərlə təsvir edilir. Əgər tənliyin iki həlli tapılıbsa, onda bunlardan hər birinin həlli ayrılıqda həyata keçirilməli, daha optimalı müəyyənləşdirilməlidir. Fiziki baxımdan bu superpozisiya prinsipinə uyğundur. Belə ki, mürəkkəb fiziki təsirlərin son nəticəsinin effekti hər bir təsir effektlərinin cəmi ilə müəyyən edilir. Sistemin xəttiliyini tam təsvir etmək üçün onun ayrı-ayrı elementlərinin təsirinə baxmaq kifayətdir [3].

Qeyri-xətti sistemlərdə superpozisiya prinsipi özünü doğrultmur. Xətti nəzəriyyədən qeyri-xətti nəzəriyyəyə keçidi fəlsəfi olaraq kəmiyyət dəyişikliyindən keyfiyyət dəyişikliyinə keçid kimi izah etmək olar.

Ümumiyyətlə, deyə bilərik ki, bütün fiziki hadisə və proseslər, əsasən qeyri-xətti qanunauyğunluga tabe olduğu halda, ümumtəhsil məktəblərinin fizika kursunun intensiv tədrisini tələb edən elmin yeni sahələrindən birinin "qeyri-xətti" proseslərinin elmi əsaslarının açılması zərurəti meydana çıxır.

Bu məsələnin müsbət həllində İKT-nin imkanları olduqca böyükdür.

NƏTİCƏ

1. Qeyri-xətti sistemlərdə superpozisiya prinsipi özünü doğrultmur. Xətti nəzəriyyədən qeyri-xətti nəzəriyyəyə keçidi fəlsəfi olaraq kəmiyyət dəyişikliyindən keyfiyyət dəyişikliyinə

keçid kimi izah etmək olar.

2. Məktəb fizika kursunda öyrənilən universal modellərdən fenomenoloji termodinamika – istilik hadisələri haqqında elm olub, özünün nəzəri və praktik əhəmiyyətinə görə başqa materiallardan ciddi fərqlənir.

3. Fiziki baxımdan bu superpozisiya prinsipinə uyğundur. Belə ki, mürəkkəb fiziki təsirlərin son nəticəsinin effekti hər bir təsir effektlərinin cəmi ilə müəyyən edilir. Sistemin xəttiliyini tam təsvir etmək üçün onun ayrı-ayrı elementlərinin təsirinə baxmaq kifayətdir.

4. Ümumiyyətlə, deyə bilərik ki, bütün fiziki hadisə və proseslər, əsasən qeyri-xətti qanunauyğunluga tabe olduğu halda, ümumtəhsil məktəblərinin fizika kursunun intensiv tədrisini tələb edən elmin yeni sahələrindən birinin "qeyri-xətti" proseslərinin elmi əsaslarının açılması zərurəti meydana çıxır.

Ədəbiyyat

1. İsmayılov, İ. Fizikanın tədrisi metodikasının müasir problmləri. / İ.İsmayılov – Bakı: – 2016.
2. Məmmədov, Ə. Müasir fizikaya fəlsəfi baxış. / Ə.Məmmədov, V.İsmayılov – Bakı: – 2001.
3. İsmayılov, İ. Ümumtəhsil məktəblərində fizika təliminin müasir texnologiyaları. / İ.İsmayılov – Bakı: – 2012.
4. Kərimov, Y. Təlimin metodları. / Y.Kərimov – Bakı: – 2007.
5. Orucov, V. Fizikanın tədrisi metodikasının aktual problemləri. / V.Orucov – Bakı: – 2007.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 15 fevral 2022-ci il
Son daxilolma tarixi:07 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT: 658 (07) – 002

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 57-63
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 57-63
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 57-63

TƏLƏBƏLƏRƏ EKOLOJİ BİLİYİN VERİLMƏSİ YOLLARI

Müəlliflər:

Mirnazim Seyidov
Naxçıvan Dövlət Universiteti
Kimya üzrə fəlsəfə doktoru, dosent
E-mail: m.nazimseyid@ gmail.ru

Akif Əliyev
Naxçıvan Dövlət Universiteti
Kimya üzrə fəlsəfə doktoru, dosent
E-mail: a.aliyev@gmail.ru

Açar sözlər:
ekoloji problemlər, çirkab suları, toksikantlar, ağır metallar, fenol, xloridlər, karbohidrogenlər, yoluxucu xəstəliklər.

Annotasiya. Məqalədə izah edilmişdir ki, sənaye müəssisələrindən ayrılan sular çoxkomponentli sulardır. İstehsalatda çirkab suları adlandırılan bu suların həcmi müəssisənin gücündən, xammalın və texnoloji prosesin növündən asılıdır. Neft-kimya və kimya müəssisələrində istifadə olunan su daha çox çirklənir. Bu müəssisələrdə su əsasən absorbent kimi istifadə edildiyi üçün onun tərkibinə mexaniki qarışıqlar və suda həll olan maddələr daha çox daxil olur. Suyun toksikantlar və ağır metallarla çirklənməsi haqqında məlumat vermək üçün müəllim izah etməlidir ki, suyun keyfiyyəti ilə əlaqədar olaraq hər il milyonlarla insan yoluxucu xəstəliklərə yoluxur. Odur ki, suyun keyfiyyəti başlıca problemlərdən biridir. Yuxarıda qeyd edilən ekoloji problemləri aradan qaldırmaq üçün tullantı sularının təmizlənərək su hövzələrinə verilməsi bəşəriyyət qarşısında qoyulmuş mühüm məsələlərdəndir.

Authors:

Mirnazim Seyidov
Nakhchivan State University
Doctor of philosophy in chemistry, associate professor
E-mail: m.nazimseyid@ gmail.ru

Akif Aliyev
Nakhchivan State University
Doctor of philosophy in chemistry, associate professor
E-mail: a.aliyev@gmail.ru

Key word:
environmental problems, wastewater, toxicants, heavy metals, phenol, chlorides, hydrocarbons, infectious diseases.

WAYS TO TEACH STUDENTS WİTH ENVİRONMENTAL KNOWLEDGE

Abstract. The article is about the water which is released from industrial enterprises is multi-component water. The volume of this water, called industrial wastewater, depends on the capacity of the enterprise, the type of raw material and technological process. Water used in petrochemical and chemical plants is more contaminated. As water is mainly used as an absorbent in these enterprises, it contains more mechanical compounds and water-soluble substances. To inform about the pollution of water with toxicants and heavy metals, the teacher must explain that millions of people are infected with infectious diseases every year due to the quality of water. Therefore, water quality is one of the main problems. In order to eliminate the above-mentioned environmental problems, the treatment of wastewater and its transfer to water bodies is one of the essential issues that mankind face.

Авторы:

Мирназим Сеидов
Нахчыванский государственный университет
Доктор философии по химии, доцент
E-mail: m.nazimseyid@ gmail.ru

Акиф Алиев
Нахчыванский государственный университет
Доктор философии по химии, доцент
E-mail: a.aliyev@gmail.ru

Ключевые слова:
экологические проблемы, сточные воды, токсиканты, тяжелые металлы, фенол, хлориды, углеводороды, инфекционные заболевания

СПОСОБЫ ПЕРЕДАЧИ ЭКОЛОГИЧЕСКИХ ЗНАНИЙ СТУДЕНТАМ

Аннотация. В статье объясняется, что воды, отходящие от промышленных предприятий, являются многокомпонентными. Объем этих вод, которые в производстве называются сточными водами, зависит от мощности предприятия, вида сырья и технологического процесса. Вода, используемая на нефтехимических и химических предприятиях, больше загрязняется. Так как вода на этих предприятиях используется в основном как абсорбент, то в ее состав чаще входят механические примеси и водорастворимые вещества. Чтобы дать информацию о загрязнении воды токсикантами и тяжелыми металлами, преподаватель должен объяснить, что миллионы людей ежегодно заражаются инфекционными заболеваниями в связи с качеством воды. Поэтому качество воды - одна из главных проблем. Для устранения вышеупомянутых экологических проблем очистка сточных вод и их подача в водоемы являются одними из важнейших задач, поставленных перед человечеством.

Məqalənin elmi yeniliyi: İstehsal proseslərinin tədrisi zamanı texnoloji proseslərdə yaranan ekoloji problemlərin meydana çıxması səbəbləri və bu ekoloji problemlərin aradan qaldırılması yolları tələbələrə elmi cəhətdən hərtərəfli əsaslandırmaqla izah edilməlidir ki, bu yolla da tələbələrin ekoloji təhsilləri artsın və ekoloji tərbiyəyə yiyələnsinlər.

Nəticə: İstehsal prosesində ətraf mühitə çoxlu miqdarda bərk, maye və qaz halında olan tullantılar atılır. Bu da suyu, torpağı və heyvanı zəhərləyir, ətraf mühiti çirkləndirir və beləliklə də canlı aləmə böyük zərər vurur. Ekoloji problemlərin aradan qaldırılması insanlar qarşısında duran bir nömrəli problemdir. Ekoloji problemin həllini iki əsas yolla həyata keçirmək olar:

1. Sənayedə istehsal tullantılarının qarşısını alan texnoloji proseslərin yaradılması.
2. Alınan sənaye tullantılarının zəhərləyici və çirkləndirici maddələrdən təmizlənməsi.

Kimya texnologiyası fənnində üzvi və qeyri-üzvi maddələrin sənayedə istehsalı haqqında geniş məlumat verilir. Lakin istehsal prosesi zamanı yaranan ekoloji problemlər və onların həll yolları haqqında dərslikdə kifayət qədər məlumat verilmir. Məlumdur ki, istehsal prosesi zamanı yaranan ekoloji problemlərdən biri də su hövzələrinin istehsal tullantıları ilə çirkləndirilməsidir. Bu cür ekoloji problemlərin mövcudluğunu və bu problemlərin aradan qaldırılması yollarının istehsal proseslərinin izahı zamanı tələbələrə aşağıdakı materiallar əsasında izah edilməsini məqsədəuyğun hesab edirik.

Kimyanın öyrənilməsi zamanı tələbələr kimyəvi elementlərlə, onların birləşməsi, parçalanması, bir sözlə dəyişməsi ilə tanış olurlar ki, bu da dünyanın kimyəvi vəziyyəti haqqında təsəvvürlərin formalaşmasına kömək edir. Tələbələr təbii maddələrin, cisimlərin kimyəvi tərkibi ilə tanış olurlar. Üzvi, qeyri-üzvi, kimya texnologiyası, yüksəkmolekullu birləşmələr kimyası və s. kimyanın öyrənilməsi prosesində əsas diqqət təbii kimyəvi maddələrin istehlakı və insan tərəfindən yüksək fəallıqla sintez edilmiş kimyəvi birləşmələr haqqında təsəvvürlərə yönəldilir. İnsan fəaliyyətinin nəticəsi olaraq ətraf mühitin korlanması, yəni təbiətlə cəmiyyət arasındakı ekoloji tarazlığın pozulması insanın özü üçün təhlükəyə çevrilir. Xüsusi ilə ağır metallar ətraf mühitdə böyük təhlükə yaradır.

Təbii olaraq maddələr gübrə şəklində istifadə olunur. İnsanın təsərrüfat işləri ilə məşğul olması nəticəsində biosferdə kimyəvi elementlərin yenidən paylanması baş verir ki, bu da ayrı-ayrı regionlarda qeyri-normal hadisələrə gətirib çıxarır.

Suyun fiziki-kimyəvi xassələri mövzusunun tədrisində qeyd olunur ki, su universal həlledicidir və onun keyfiyyəti onda həll olan maddələrin kəmiyyətindən asılıdır.

Ümumdünya səhiyyə təşkilatının məlumatına görə dünyada yoluxucu xəstəliklərin 80%-ə yaxını içməli suyun keyfiyyətinin qeyri-qənaətbəxş olması və su təchizatının sanitar-gigiyenik normalarının pozulması ilə əlaqədardır.

Birləşmiş Millətlər Təşkilatının məlumatına əsasən dünyada 1 milyon adda məhsul buraxılır ki, onlardan 100 mini kimyəvi birləşmədir və onlardan da 15 mini potensial toksikantdır.

Ekspertlərin fikrincə xarici sferaya düşən kimyəvi birləşmələrin 80%-ə qədəri gec-tez su mənbələrinə düşür.

Alman filiz bilicisi Georq Aqrikolo hələ 450 il öncə yazırdı ki, filiz çıxarıldıqca sahələr məhv edilir. Filizlərin yuyulması arxları və çayları çirkləndirir, balıqları öldürür və ya qovur. Hidrosferin elementlərinin əsas çirkləndiriciləri sırasına neft və neft məhsulları, karbohidrogenlər, səthi aktiv maddələr, xloridlər, ağır metallar, radioaktiv maddələr, sulfatlar, ammonium duzları, iki və üç valentli dəmir duzları, fenollar, mineral yağlar, üzvi turşular, qələvilər və digər komponentlər aiddir [1, s.35; 2, s.68].

Suda neftin təsərrüfat – içməli su təchizatı üçün buraxıla bilən miqdardan qismən artıq olması xüsusi iyin əmələ gəlməsinə səbəb olur. Neftin suda miqdarı 0,1-0,2 mq/dm^3 olduqda həmin sudan tutulmuş balıq hətta bişirildikdən sonra da neft iyi verir.

Bir ton neft təxminən 2,6 km^2 su səthində örtük təbəqəsi əmələ gətirir. Həmin sahədə işıq selinin intensivliyi azalır, fotosintez və su kütləsinin acrasiyası zəifləyir. Suda oksigen qıtlığı yaranır ki, nəticədə də fauna və floraya ziyan dəyir.

Karbohidrogenlər arasında daha zəhərliləri benzol, toluol, ksiol, çox nüvəli aromatik karbohidrogenlərdir. Hətta az qatılıqlarda belə onlar su tutumlarında və su axarlarında həyatın aşağı formalarına zəhərləyici təsir göstərirlər.

Səthi aktiv maddələr də su hövzələri üçün böyük təhlükə yaradırlar. Bu maddələr neft yataqlarının istismarı zamanı neft hasilatını artırmaq üçün istifadə edilir. Hətta az miqdarlarda belə səthi aktiv maddələr yosunların və digər bitkilərin inkişafını dayandırır.

Xlor üzvi birləşmələr olduqca təhlükəlidirlər. Onlar balıqların və zooplanktonların bədənində 50-200 mq/kq miqdarında olduqda həmin canlılar üçün öldürücü təsirə malikdirlər.

Fenollar suya çətin aradan qaldırıla bilən, xoşagəlməz iy və dad verir. İri miqyaslı fenol tullantıları əmələ gəldikdə zəhərli və toplanmağa davamlı köpük əmələ gəlir.

1990-cı ilin aprelində içməli suyun fenol ilə çirklənməsi Ufa şəhərinin 900 min əhalisinə təsir etdi.

Xloridlər suda yaxşı həll olurlar. Onlar davamlı, parçalanmayan, absorbsiya olunmayan maddələr olub yüksək miqrasiya xassəsinə malikdirlər. Yüksək qatılıqlı xlorid məhlulları böyük sıxlığa malik olur. Odur ki, xloridlərlə çirklənmiş hissə sulu horizontun aşağısına keçir və az sahəyə yayılır.

Hg, Pb, Sn, Cr, Ni, Cu, Zn və s. kimi ağır metallar olduqca zəhərlidirlər. Məsələn, civə mərkəzi sinir sistemini zəhərləyir. Kadmium əsasən böyrəyə, selen qaraciyərə təsir edir. Onların miqdarı balıqların bədənində onların yaşadıqları suda olduğundan min dəfələrlə çox ola bilər.

Tullantı sularının zərərli cəhətlərini aydınlaşdırmaq üçün müəllim tələbələrə izah edir ki, hər il dünyada 420 km^3-dan çox tullantı suları əmələ gəlir. Bu sular 7 min km^3 içməli suyu yararsız hala sala bilir. Bu da MDB ölkələrinin çaylarının suyundan 1,5 dəfə çoxdur.

Hidrosferin çirklənməsinin əsas mənbələri aşağıdakılardır:

sənaye tullantı suları;
təsərrüfat-məişət tullantı suları;
suvarılan torpaqların drenaj suları;
yaşayış məskənlərinin və sənaye sahələrinin ümumiləşmiş və pərakəndə tullantı suları;
kənd təsərrüfatı sahələri və iri heyvandarlıq kompleksləri;
su nəqliyyatı.

Külli miqdarda çirkləndirici maddələr su səthinə qara və əlvan metallurgiya, kimya, neft kimya, neft, qaz, kömür, meşə, sellüloz – kağız sənayelərinin müəssisələrinin kənd təsərrüfatı və kommunal təsərrüfatının tullantı suları vasitəsilə düşür [3, s.125-130].

Rusiya Federasiyasının əksər su obyektlərində çirkləndirici maddələrin qatılıqları icazə verilən qatılıq (İVQ) həddindən çoxdur.

Tullantı sularının su hövzələrini belə çirkləndirməsi həm həmin hövzədə yaşayan canlılara, həm də bu hövzələrin suyundan istifadə edən insanlara zərərli təsir edir.

Zərərli maddələr su hövzələrinə təmizləmə qurğularında qəzalar zamanı daha çox tökülür.

Keçən əsrin 80-ci illərinin ortalarında Reyn çayına sutkada 50 min ton sənaye tullantısı atılırdı. Nəticədə bu çayda istənilən həyat növü dayandı.

Suyun toksikantlar və ağır metallarla çirklənməsi haqqında məlumat vermək üçün müəllim izah edir ki, suyun keyfiyyəti ilə əlaqədar olaraq hər il milyonlarla insan yoluxucu xəstəliklərə yoluxur. Odur ki, suyun keyfiyyəti başlıca problemlərdən biridir.

Əhalinin sağlamlığı üçün təhlükə suyun kimyəvi tərkibi ilə də əlaqədardır. Təbiətdə heç zaman suya kimyəvi təmiz birləşmə kimi rast gəlinmir. Universal həlledici xassəsinə malik olan su daima böyük miqdarda müxtəlif elementləri və birləşmələri özündə saxlayır.

Həm yerüstü, həm də yeraltı təbii suların tərkibinə texnogen çirklənmələr böyük təsir göstərir.

Zərərli maddələr su hövzələrində həm qəzalar, həm də müasir olmayan təkmilləşməmiş texnologiyaların istifadəsi ilə bağlı olaraq tökülə bilər.

Məsələn, 1989-cu ildə AFR-in sahillərində Elbanın mənsəbində Hollandiyanın "Oostsee" adlı yük gəmisi fırtınaya düşmüşdü. Onun yükü SSRİ-nin Sayzximeksport təşkilatının 850 ton yüksək zəhərli mayesi – epixlorhidrin var idi. Bu maddə hətta kifayət qədər zəif qatılıqlarda

xərçəng xəstəliyi törədir və insan üçün məhvedicidir. Bu maddənin 6 min tonu dənizə tökülmüşdür. Tezliklə Elbanın mənsəbindəki adalarda qağayıların kütləvi ölümü qeydə alınmışdır.

Qızıl çıxarma zamanı civə istifadə edilir. Allivial qızılı təmizləmək üçün onu civə ilə qarışdırıb sonra buxarlandırırlar, Brazilyanın qızıl mənbələrində (Para ştatında) qızıl çıxarma zamanı hər il Tapajos çayına 70 ton civə tökülür. Zəhərli civə buxarları çöküntü halında ağacların yarpaqlarının üzərinə və torpağa tökülür. Sonra civə leysan yağışları vasitəsilə çaylara və su hövzələrinə tökülərək onları zəhərləyir. Həmin ərazidə yaşayan insanların qanının analizi göstərdi ki, onların qanında civənin miqdarı İVQ-dən 14-20 dəfə çoxdur.

İrkutsk vilayətində Usoleximprom və Sayanskximprom müəssisələri 25 il müddətində Enisey çayının qolu olan Anqara çayına və Bratsk su ambarına 80 ton civə atmışdır.

Yaponiyada İntay çayının sahilində yaşayan adamların kadmium ilə kütləvi zəhərlənmələri müşahidə edilmişdir. 200 adam kadmium ilə zəhərlənmişdir ki, onlardan da yarısı ölmüşdür. Zəhərlənmənin səbəbi kadmium mədənin tullantı sularının düyü plantasiyalarının suvarılmasında istifadə edilməsi olmuşdur.

Macarıstanda xrom duzları ilə çirklənmiş yeraltı suları istifadə edərkən dermotitlərin əmələ gəlməsi müşahidə edilmişdir.

Yaponiyada sənaye tullantı sularının Yokoqama körfəzinə və Aqano çayına tökülməsi hesabına civə ilə kütləvi zəhərlənmələr qeydə alınmışdır. Belə ki, balıq yerli əhalinin əsas qida mənbəyidir və çirklənmiş su hövzəsində ovlanan balıqlardan civənin miqdarı İVQ-dən xeyli çox olmuşdur.

Ayrı-ayrı sənaye sahələri su hövzələrinə müxtəlif ağır metalları atır

Təbii mühiti ağır metallarla çirkləndirən sənaye sahələri

№	Sahələrin adları	Cd	Cr	Cu	Hg	Pb	Ni	Sn
1	Selliloz-kağız sənayesi		+	+	+	+	+	
2	Dağ-mədən sənayesi	+	+		+	+		+
3	Xlor və qələvilər istehsalı	+	+		+	+		+
4	Gübrə istehsalı	+	+	+	+	+	+	
5	Neftin təmizlənməsi	+	+	+		+	+	
6	Polad istehsalı	+	+	+	+	+	+	+
7	Əlvan metallurgiya		+	+	+	+		
8	Avto və Aviasiya sənayeləri	+	+	+	+	+		+
9	Şüşə, sement, keramika		+					
10	Toxuculuq sənayesi		+					
11	Dəri emalı sənayesi		+					
12	Buxargüc qurğuları		+					

Çoxlu sayda müşahidələr göstərir ki, Almaniyada dənizlərin və çayların dibindəki çöküntülərdə ağır metalların miqdarı onların sudakı miqdarlarından 1000 – 10000 dəfə çox olur.

Bəzi ağır metallar üçün mikrobioloji alkilləşmə imkanları aşkar olunmuşdur. Beləliklə, onlar qidalanma tsiklinə qoşula bilərlər. Metilləşmə civə və arsen üçün xarakterikdir. Aerob şəraitlərdə trimetilarsen, anaerob şəraitlərdə dimetilarsin əmələ gəlir.



Metallik civə iki mərhələdə metilləşə bilər:

$Hg \rightarrow CH_3Hg^+ \rightarrow (CH_3)_2Hg$

Həm metilcivə ionu, həm də dimetil civə orqanizm tərəfindən sorbsiya olunur.

1953-cü ildə Yaponiyada Minamata buxtası sahillərində 121 nəfərdə orqanlarda kəskin ağrılar, eşitmə və görmə qabiliyyətlərinin pozulması ilə müşayət olunan xəstəlik müşahidə olunmuşdu. Xəstələrdən 40 nəfəri ölmüşdü. İntensiv tədqiqatlar göstərdi ki, asetilen zavodunun civəli tullantısı Minamata buxtasına tökülən çaya atılması nəticəsində xəstələnmə baş vermişdir [4, s.140-150].

Yuxarıda qeyd edilən ekoloji problemləri aradan qaldırmaq üçün tullantı sularının təmizlənərək, su hövzələrinə verilməsi bəşəriyyət qarşısında qoyulmuş mühüm vəzifələrdəndir. Çirkab sularının təmizlənməsi müxtəlif üsullarla həyata keçirilir. Bu üsulların tətbiq edilməsi çirkabın təbiətdən və onun sudakı qatılığından asılıdır. Belə üsullardan bir neçəsini nəzərdən keçirək.

1.Termiki üsul. Bu üsul suda olan üzvi birləşmələrin yüksək temperaturda oksidləşməsinə (yanmasına) əsaslanır. Bu zaman yanma məhsulları zərərsiz qazlar, qalıq isə bəzən sənayedə istifadə olunan bərk maddə olur. Bu üsul çirkabın qatılığı çox olan suyun təmizlənməsi üçün tətbiq olunur.

2. Mexaniki üsul. Bu üsulla suyun təmizlənməsi suyun "ələnməsi" (suyun tordan və ələkdən keçirilməsi), saxlanması və süzülməsi ilə həyata keçirilir. Sudakı çirkab böyük hissəciklər şəklində olduqda onu tor və ya ələkdən buraxırlar. Kobud dispers hissəciklər su çökdürücüləri saxlanmaqla çökdürülür. İncə dispers hissəciklər koaqulyatorların ($FeCl_3$, $AlCl_3$ və s.) köməyi ilə süzgəcdən süzülür. Sıxlığı suyun sıxlığından az olan incə dispers hissəcikləri sudan ayırmaq üçün su flotasiya edilir.

3. Fiziki-kimyəvi üsul. Bu üsul daha çox yayılmışdır və onun aşağıdakı növləri məlumdur:

a) *ekstraksiya üsulu.* Çirkab sularından fenolları, yüksəkmolekullu turşuları və digər üzvi birləşmələri ayırmaq üçün istifadə olunan bu üsul ən geniş yayılmış və perspektivli üsuldur. Ekstraksiya üsulu ilə çirkab suları təmizləmək üçün suya çirkabı özündə həll edən, özü isə suda həll

olmayan həlledici əlavə edilir və su çalxalanır. Həlledici çirkabı, zərərli maddələri özündə həll edir (ekstrakt) və çirkabdan ayrılmış suyun (rafinatın) üzərində təbəqə əmələ gətirir. Ayırıcılar vasitəsilə ekstrakt rafinatdan ayrılır, rafinata yenidən həlledici əlavə edilir və proses beləcə bir neçə dəfə təkrarlanır. Nəticədə ekstraktlar birləşdirilir və distillə yolu ilə həlledici zərərli maddələrdən ayrılır.

Fenolu sudan təmizləmək üçün ən yaxşı həlledici (ekstragent) butilasetat, etilasetat, diizopropil efiri və benzol hesab edilir. Fenolla birlikdə yağ turşuları və və hidrogen sulfid də ayrılır. Bu məqsədlə ekstraksiya kalonlarından, tozlandırıcıdan və qarışdırıcı ekstraktorlardan istifadə edilir;

b) *enaporasiya üsulu* ilə çirkab suları təmizləmək üçün çirkabı su buxarı ilə qovurlar. Bu məqsədlə buxar - sirkulyasiya üsulu daha çox tətbiq olunur. Bu halda buxar çirkabı sudan qovub çıxarır, özü isə qələvi ilə yuyularaq yenidən prosesə qaytarılır və orada yenidən qələvi ilə yuyulur, yəni buxar prosesdə sirkulyasiya etdirilir.

Buxar – sirkulyasiya üsulu ilə koks – kimya zavodlarının çirkab sularından fenolu, *n* – krezolu, karbon turşularını, α- və β- naftolları, fenolformaldehid qatranlarını ayırmaq üçün istifadə edilir;

v) *azeotrop qovma üsulu.* Bu üsul bir çox kimyəvi maddələrin su ilə azeotrop qarışıq əmələ gətirməsinə əsaslanır. Distillə kalonunda su buxarı ilə qızdırılan çirkab suyun bir qismi çirkabla birlikdə azeotrop qarışıq kimi buxar halında kondensatora daxil olur və orada kondensləşir. Soyumuş kondensat separatorda iki təbəqəyə ayrılır. Təmiz su təbəqəsi aşağıdan xaric olur. Sudakı çirkləndirici maddələrin qatılığı çox olduqda və onlar suda pis həll olduqda azeotrop qovma üsulu daha effektli olur;

q) *iondəyişmə üsulu* ionit ionlarının suyu çirkləndirən ionlarla mübadilə olunmasına əsaslanır;

d) *adsorbsiya üsulu* daha çox yayılmış üsullardan biridir. Bu üsulla çirkab sularındakı qatılığı ən az olan zərərli maddələri sudan ayırmaq mümkündür. Belə hallarda başqa üsulların tətbiqi ya çox baha başa gəlir, ya da o üsulları tətbiq etmək mümkün olmur. Adsorbsiya üsulu ilə çirkab sularındakı bütün üzvi maddələri ayırmaq mümkündür. Adsorbent kimi aktivləşmiş kömür və sintetik qatranlar götürülür. Göstərilən adsorbentlər hidrofob xassəlidir. Ən yaxşı adsorbent KAD markalı aktivləşdirilmiş kömür hesab edilir.

4.Biokimyəvi üsul mikroorqanizmlərin köməyi ilə çirkabları zərərsiz hala salmağa imkan verir. Oksidləşmə nəticəsində zərərli maddələr suya, karbon qazına, sulfat və nitrat ionlarına çevrilir. Biokimyəvi təmizlənmə üsulunda iki metoddan istifadə edilir: aerob metodu (oksigen iştirakında), anaerob metodu (oksigen olmayan mühitdə). Axırıncı üsul nisbətən az yayılmışdır. Biokimyəvi üsullarla çirkab sularda həll olmuş mineral və üzvi maddələr kənar edilir.

ƏDƏBİYYAT

1. Əliyeva, R.Ə. Ekologiya. Dərslik. / R.Ə.Əliyeva, Q.T.Mustafayev – Bakı: BDU, – 2001. – 432 s.
2. Əliyeva, R.Ə. Ekologiyanın əsasları. / R.Ə.Əliyeva, Q.T.Mustafayev, S.V.Hacıyeva – Bakı: BDU, – 2008. – 536 s.
3. Babayev, H.B. Ekologiya və müasir hidrosfer. / H.B.Babayev – Bakı: Çaşıoğlu, – 2007. – 491 s.
4. Sultanov, R.L. Ümumi ekologiya. Dərs vəsaiti. / R.L.Sultanov, N.A.Sadıqova, U.E.Ataşova – Bakı: Bakı universiteti, – 2010. – 384 s.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor Fərahim Sadiqov tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 13 fevral 2022-ci il
Son daxilolma tarixi:09 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 372.851

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 64-69
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 64-69
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 64-69

İBTİDAİ SİNİFLƏRİN RİYAZİYYAT KURSUNDA HƏNDƏSİ MƏZMUNLU MƏSƏLƏLƏRİN HƏLLİNDƏ QARŞIYA ÇIXAN ÇƏTİNLİKLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

Müəllif:

Nazilə Muradova
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyat üzrə fəlsəfə doktoru
E-mail:
nazilemurad4@gmail.com

Açar sözlər:
riyaziyyat təlimi, ibtidai sinif, həndəsə məzmun xətti, məsələ həlli

Annotasiya. İbtidai siniflərin riyaziyyat kursunda həndəsə məzmun xətti üzrə riyaziyyatın təlimi şagirdlərin həndəsi fiqurlarla, xassələri və münasibətləri ilə tanış edilməsi, real həyatda olan obyektlərin həndəsi fiqurlara oxşar formalara malik olmasını və bununla da qazanılmış biliklərin həyatda tətbiqinə nail olmaq məqsədini daşıyır. Həndəsə məzmun xətti üzrə riyaziyyatın təlimi ibtidai siniflərdə şagirdlərin fəza təsəv¬vürlərinin və təfəkkürlərinin inkişafında mühüm rol oynayır. İbtidai siniflərin riyaziyyat kursunda şagirdlərin məntiqi mühakimələrinin inkişafında riyaziyyatın müxtəlif bölmələrinə aid çalışmalarla yanaşı, həndəsi məzmunlu məsələlərin də rolu böyükdür. Şagirdlərin riyazi biliklərinin mənimsənilməsində məsələ həllinin rolunu nəzərə alaraq məqalədə həndəsi məzmunlu məsələlərin həllində qarşıya çıxan çətinliklər əsaslandırılmış və onların aradan qaldırılması üçün müəyyən tövsiyələr verilmişdir.

Author:

Nazile Muradova
Doctor of Philosophy in Mathematics
Nakhchivan Teachers Institute
E-mail:
nazilemurad4@gmail.com

Key word:
math teaching, elementary class, geometry content line, sum solution

DİFFİCULTİES ENCOUNTERED İN SOLVİNG PROBLEMS WİTH GEOMETRİCAL CONTENT İN THE MATHEMATİCS COURSE OF PRİMARY CLASSES AND WAYS TO OVERCOME THEM

Abstract. In the mathematics course of elementary grades, the teaching of mathematics on the geometry content line aims to familiarize students with geometric figures, their properties and relationships, to make objects in real life have shapes similar to geometric figures, and thus to achieve the application of the acquired knowledge in life. The teaching of mathematics on the content line of geometry plays an important role in the development of spatial imagination and thinking of students in elementary grades. In the mathematics course of primary classes, the role of geometrical issues is also important in the development of students' logical judgments, in addition to studies related to various sections of mathematics. Taking into account the role of problem solving in students' acquisition of mathematical knowledge, the article substantiates the difficulties encountered in solving geometrical problems and gives certain recommendations for their elimination.

Автор:

Назиля Мурадова
Нахчыванский институт учителей
Доктор философии по математике
E-mail:
nazilemurad4@gmail.com

Ключевые слова:
обучение математике, начальная школа, линия содержания геометрии, решение задач

ТРУДНОСТИ, ВОЗНИКАЮЩИЕ ПРИ РЕШЕНИИ ЗАДАЧ ГЕОМЕТРИЧЕСКОГО СОДЕРЖАНИЯ В КУРСЕ МАТЕМАТИКИ НАЧАЛЬНЫХ КЛАССОВ, И ПУТИ ИХ ПРЕОДОЛЕНИЯ

Аннотация. Обучение математике по линии содержания геометрии в курсе математики начальных классов направлено на ознакомление учащихся с геометрическими фигурами, их свойствами и отношениями, обеспечение того, чтобы объекты реальной жизни имели формы, сходные с геометрическими фигурами, тем самым достигая применения полученных знаний в жизни. Обучение математике по линии содержания геометрии играет важную роль в развитии пространственных представлений и мышления учащихся начальных классов. В курсе математики начальных классов велика роль задач геометрического содержания, а также задач, относящихся к различным разделам математики, в развитии логических суждений учащихся. Учитывая роль решения задач в усвоении математических знаний учащихся, в статье обоснованы возникающие трудности решения задач геометрического содержания и даны определенные рекомендации по их преодолению.

Mövzunun aktuallığı. İbtidai siniflərin riyaziyyat kursunda biliklərin qazanılmasında, bacarıq və vərdişlərin formalaşmasında məsələlərin rolu böyükdür. Qeyd edək ki, hesab məsələləri ilə yanaşı həndəsi məzmunlu məsələlərin də həlli prosesində şagirdlərin bilik, bacarıq və vərdişləri formalaşır, riyazi təfəkkürü zənginləşir. Həndəsi fiqurların xassələrinin sistematik öyrənilməsində də həndəsi məzmunlu məsələlər böyük əhəmiyyətə malikdir.

İbtidai siniflərdə həndəsə materialının təlimi əsasən hesab materialı ilə sıx əlaqələndirilir. Lakin məsələlərin məzmunu konkret məzmun xəttinə aid olduqda şagirdlər qismən çətinlik çəkirlər. Məqalədə həndəsi məzmunlu məsələlərin həllində qarşıya çıxan bu çətinliklərin aradan qaldırılması yollarından bəhs edilmişdir. Bununla əlaqədar olaraq baxılan işin mövzusu aktuallıq kəsb edir.

Riyaziyyat təlimi prosesində məsələlər böyük praktik əhəmiyyətə malikdir. Məsələ həlli riyazi anlayışların və riyazi nəzəriyyənin şagirdlər tərəfindən mənimsənilməsi üçün ən yaxşı vasitədir. İstər ibtidai siniflərdə, istərsə də yuxarı siniflərdə riyaziyyatın öyrənil-məsində nəzəri hissə ilə məsələ həlli üzvi bir vəhdət təşkil edir. Məsələlər bir tərəfdən nəzəri bilikləri təcrübə ilə bağlayır, digər tərəfdən isə şagirdlərdə riyazi təfəkkürün, idrakın inkişafına, riyaziyyata olan həvəsin güclənməsinə xidmət edir.

Riyaziyyat elminin əsas tərkib hissələrindən biri olan həndəsənin məzmun xətti olaraq məktəb riyaziyyat kursunda tədrisinin başlıca məqsədi - şagirdlərin fəza təsəvvürlərini və təfəkkürlərini inkişaf etdirmək, yuxarı siniflərdə həndəsi materialların daha yaxşı mənimsənilməsinə və həndəsi biliklərin digər fənlərdə tətbiq edilməsinə nail olmaqdan ibarətdir. Həndəsi biliklərin həm gündəlik həyatda, həm də məktəbdə tədris olunan digər fənlərdə öz tətbiqini tapması isə riyaziyyat təliminin həyatla əlaqələndirilməsini göstərən faktlardan biridir.

İbtidai siniflərin riyaziyyat kursunda şagirdlərin məntiqi mühakimələrinin inkişafında riyaziyyatın müxtəlif bölmələrinə aid çalışmalarla yanaşı, həndəsi məzmunlu məsələlərin də rolu böyükdür. İbtidai sinif dərsliklərində verilmiş həndəsi məzmunlu məsələlər aşağıdakı kimi səciyyələnir:

1. Həndəsi fiqurların elmentləri və hissələri sayma obyekti kimi istifadə olunan məsələlər.
2. Həndəsi kəmiyyətlər haqqında təsəvvürlərin və ölçmə vərdişlərinin formalaşmasına (parçanın uzunluğu, fiqurun sahəsi və həcmi) xidmət edən məsələlər.
3. Həndəsi fiqurların perimetrini və sahəsini tapmağa aid məsələlər.
4. Sadə həndəsi qurmalara aid məsələlər (xətkeş, pərgar vasitəsilə damalı və damasız kağızda fiqurların çəkilməsi).
5. Fiqurları hissələrə bölməyə aid məsələlər.
6. Fiqurların təsnifinə aid məsələlər.
7. Fiqurların adlandırılması və tələffüz edilməsinə aid məsələlər.
8. Yer üzərində ölçmə işləri ilə bağlı məsələlər (ölçmə, hesablama və s.)
9. Real əşyaların həndəsi formalarının müəyyən edilməsinə aid məsələlər.
10. Həllində həndəsi fiqurlar və ya onların xassələrindən istifadə olunan məsələlər.

İbtidai sinif dərsliklərindəki həndəsi məzmunlu məsələləri hesablamaya və qurmaya aid etmək olar. Bu səbəbdən də deyə bilərik ki, ibtidai siniflərin riyaziyyat kursunda həndəsi məzmunlu məsələlərin tədrisi əsasən şagirdlərin fəza təfəkkürünün formalaşdırılmasına və əyani praktik materiallar əsasında sadə ölçmə-qurma vərdişlərinin yaradılmasına xidmət edir.

İbtidai siniflərdə şagirdlərdə həndəsi biliklərə dair bacarıq və vərdişlərin formalaşması, fəza təsəvvürlərinin inkişaf etdirilməsi üçün həndəsə elementlərinin hesab materialı ilə əlaqəli tədrisinin böyük əhəmiyyəti vardır [1, s.278]. Ümumiyyətlə, həndəsə materialının tədrisi praktik işlər və məsələ

həlli ilə müşayiət olunur. Həndəsəyə aid məsələ həllinə əsasən II sinifdən başlanılır və bu iş sonrakı siniflərdə intensivləşdirilir. İbtidai siniflərin riyaziyyat kursunda həndəsənin müəyyən məsələlərinin öyrədilməsi nəzərdə tutulur: parçaların qurulması, parçaların ölçülməsi, parçalar üzərində əməllər, sınıq xəttin uzunluğu, çoxbucaqlının perimetri, verilmiş fiqurun hissələrə bölünməsi, çoxbucaqlının sahəsi (düzbucaqlı və kvadratın sahəsi).

Parçalar üzərində əməllərin öyrədilməsinə başlamazdan əvvəl parçaların ölçülməsi qaydalarını şagirdlərə öyrətmək lazımdır [2, s.51]. Parçaların üzərində toplama əməlinin öyrədilməsinin bünövrəsi I sinifdən başlayır. Belə ki, şagirdlər 12 sm + 5 sm = 17 sm kimi tapşırıqlar yerinə yetirməklə kəmiyyətləri toplamaq vərdişlərinə yiyələnirlər. II siniflərdə isə bu iş daha da təkmilləşir. Belə ki, müxtəlif formalı müstəvi fiqurlarının tərəflərinin ümumi uzunluğunu, yolun uzunluğunu hesablamaq üçün müvafiq olaraq müstəvi fiqurunun hər bir tərəfinin və ya yolu təşkil edən parçaların uzunluqları toplanılır [3, s.54].

Tapşırıq. Arif və babası birlikdə kvadrat şəkilli göyərti ləkini çəpərləyirlər. Lakin bir tərəfinin uzunluğu 2 m olarsa, onlar cəmi neçə metr çəpər çəkməlidirlər?

Baxdığımız bu tapşırıqda söhbət perimetrdən gedir. Bu tip tapşırıqların II sinifdə öyrədilməsi şagirdlərdə perimetr haqqında biliklərin formalaşmasına zəmin yaradır. Şagirdlərin perimetr haqqında bilikləri III sinifdə daha da təkmilləşir. Artıq III sinifdə onlar perimetrin fiqurların tərəflərinin uzunluqları cəmini ifadə etdiyini başa düşürlər, sadə həndəsi fiqurların tərəflərinin xassələrindən istifadə etməklə nəinki onların perimetrini, hətta müxtəlif formalı çoxbucaqlıların perimetrlərini də hesablaya bilirlər.

IV sinifdə isə şagirdlər fiqurların perimetrlərini düstur şəklində ifadə edib hesablama apara bilirlər. Bunun üçün ilk öncə sadə həndəsi fiqurların perimetr düsturları şagirdlərin diqqətinə çatdırılır:

- Uzunluğu a, eni isə b olan düzbucaqlının perimetrini $P = 2 \cdot (a + b)$ düsturu ilə hesablamaq olar.

-Tərəfi a olan kvadratın perimetrini $P = 4a$ şəklində düstur ilə hesablamaq olar.

- Bütün tərəfləri bərabər olan üçbucağın perimetrini $P = 3a$ düsturu ilə hesablamaq olar və s.

Şagirdlər perimetrə aid məsələləri həndəsi fiqurların əlamətləri ilə əlaqələndirməyi də bacarmalıdırlar. Düzgün fiqurların bütün tərəfləri bərabərdir. Məsələn, tərəfi a olan düzgün altıbucaqlının perimetrini $P = 6a$ düsturu ilə hesablamaq olar.

IV sinifdə şagirdlər perimetrləri eyni, ölçüləri isə müxtəlif olan fiqurlar haqqında fikir yürütmək qabiliyyətinə yiyələnirlər. Məsələn, ölçüləri 4 sm və 6 sm olan düzbucaqlının perimetri neçə santimetr-dir ? - $P = 2 \cdot (4 + 6) = 2 \cdot 10 = 20sm$. Düzbucaqlının ölçülərini elə dəyişmək mümkündürmü ki, onun perimetri dəyişməsin ? - Bəli. Çünki tərəfləri 3sm və 7 sm , 2 sm və 8 sm, 1sm və 9 sm olan düzbucaq-lıların da perimetri 20 sm-dir.

$$P = 2 \cdot (3 + 7) = 2 \cdot 10 = 20sm$$
$$P = 2 \cdot (2 + 8) = 2 \cdot 10 = 20sm$$
$$P = 2 \cdot (1 + 9) = 2 \cdot 10 = 20sm$$

Həmçinin şagirdlər IV sinifdə daha mürəkkəb fiqurların perimetrlərinin hesablamasına aid məsələlər də həll edirlər. Məsələn, şəkildəki fiqurun perimetrini hesablamaq üçün şagird əvvəlcə uzunluqları məlum olmayan hissələrin ölçülərini təyin etməlidir

Bunun üçün 12 sm-lik tərəfin qarşısındakı sual işarəsinə uyğun uzunluq

$12sm-8sm=4sm$, 7 sm-lik tərəfin qarşısındakı sual işarəsinə uyğun uzunluq isə $7sm-4sm=3sm$ kimi tapıla bilər. Onda

$$P=7sm+4sm+3sm+8sm+4sm+12sm=38sm$$

olar. Əslində bu fiqurun perimetri tərəfləri 7 sm və 12 sm olan düzbucaqlının perimetri ilə eynidir.





İbtidai siniflərdə şagirdlərdə fiqurun sahəsi haqqında təsəvvür yaratmaq üçün əvvəlcə onların diqqətini məişətə yönəltmək lazımdır. Sahə anlayışı insanların məişəti ilə sıx bağlı olduğundan şagirdlər "Bir otaq o biri otaqdan böyükdür", "Yaşadıqları mənzilin sahəsi ayrı-ayrı otaqların sahələrindən təşkil olunmuşdur." kimi mülahizələri daha yaxşı başa düşəcəklər. Daha sonra müəllim lövhədə bir neçə fiqur çəkməklə, onlardan hansının sahəsinin böyük olduğunu müəyyən etməyi şagirdlərə tapşıra bilər. Aydındır ki, bu zaman şagirdlər lövhədə fiqurların tutduğu yerə görə hansı fiqurun sahəsinin böyük olduğunu müəyyən edəcəklər.

III siniflərdə mürəkkəb konturlu fiqurların sahəsini hesablamaq tələb olunur [4, s.77]. Bunun üçün şəffaf materialdan hazırlanmış və sahəsi $1sm^2$ olan kvadratlara bölünmüş palet adlanan ölçü vasitəsindən istifadə etmək olar. Palet vasitəsilə hər hansı müstəvi fiqurunun sahəsini hesablamaq üçün paleti həmin fiqurun üzərinə qoyurlar. Əvvəlcə paletin fiqurun səthi üzərində yerləşən tam kvadratlar sayılır; sonra isə natamam kvadratları sayıb onların sayını ikiyə bölməklə təxmini olaraq tam kvadratlara ayırmaq lazımdır. Sonra isə alınan kvadratların sayı ilə tam kvadratların sayı toplanılır. Alınan ədəd həmin fiqurun sahəsinin təxmini qiyməti olacaqdır. Paletin bölgüsü hansı vahidlədirsə, axtarılan sahə də həmin vahidlə ifadə olunacaqdır. Əgər sahə vahidləri m^2 (kvadrat metr), dm^2 (kvadrat desimetr), sm^2 (kvadrat santimetr)kimi işarə olunarsa, hər bir halda sahənin tərəfi $1m,1dm,1sm$ olan kvadratlarla ifadə olunduğu nəzərdə tutulur.

Şagirdlər paletin köməyilə hər hansı fiqurun sahəsini tapmağı öyrəndikdən sonra fiqurların sahəsinin düsturla da tapmaq mümkün olduğunu bilməlidirlər. III-IV siniflərdə şagirdlər müstəvi fiqurlarının, eləcə də müxtəlif çoxbucaqlıların sahələrini onların üzərini örtən kvadrat vahidlərin sayı ilə ifadə etməyi öyrənirlər. Burada ölçü vahidi kimi damalı dəftərin bir daması qəbul edilə bilər.□-1 kvadrat vahid. Bu bacarıqları formalaşdırmadan sahənin düstur şəklində öyrədilməsi məqsədəuyğun deyil. Çünki şagirdlər düstur ilə hesablamaları mexaniki aparırlar. Məsələn, şəkildəki düzbucaqlının sahəsini tərəfi 1 sm olan kvadratların sayına görə tapa bilərik. Düzbucaqlının uzunluğu boyunca tərəfi 1 sm olan 4, eni boyunca isə 3 kvadrat yerləşir. Deməli, düzbucaqlının sahəsi 12 kvadrat santimetrdir. Buradan şagirdlər nəticə çıxarırlar ki, düzbucaqlının sahəsini tapmaq üçün uzunluğunu eninə vurmaq lazımdır.



Beləliklə, uzunluğu a ilə, eni b ilə, sahəni isə S hərfi ilə işarə etsək, düzbucaqlının sahəsini $S = a \cdot b$ düsturu ilə hesablaya bilərik. Tərəfi a sm olan kvadratın sahəsi isə $S = a^2$ düsturu ilə hesablanır.

Müxtəlif formalı fiqurları isə düzbucaqlılara bölməklə onların sahələrini hesablamaq olar [5, s.103]. Verilmiş fiqurun sahəsi onu təşkil edən düzbucaqlıların sahələri cəminə bərabər olacaqdır.

Nümunə : Şəkildə verilmiş çoxbucaqlının sahəsini hesablayaq.



I hal. 1) $S_1 = 8m^2$

2) $S_2 = 10 \cdot 2 = 20m^2$

$S = S_1 + S_2 = 8 + 20 =$

II hal. Şagird bu fiquru ölçüləri $10m \times 6m$ olan düzbucaqlıdan tərəfləri $8m \times 4m$ olan kiçik düzbucaqlının ayrılması kimi də hesablaya bilər: $S = 10 \cdot 6 - 8 \cdot 4 = 60 - 32 = 28m^2$



İbtidai siniflərdə şagirdlər sahənin hesablanmasına aid verilənlərə görə məsələ həlli ilə kifayətlənməməlidirlər. Bilavasitə ölçmə nəticəsində alınan ədədlərə görə (sinif otağının, mənzillərinin, yazı taxtasının) sahəsini tapmağa dair praktik işlər də yerinə yetirməlidirlər. Bu zaman çalışmalara funksional məzmunlu və zehni gərginlik tələb edən aşağıdakı kimi məsələlər də daxil etmək lazımdır:

1)Kvadratın bir tərəfini 5 dəfə artırsaq (azaltsaq) onun sahəsi necə dəyişər?

2)Perimetrləri eyni olan düzbucaqlıların sahələri müxtəlif ola bilərmi?

3)Sahələri eyni olan düzbucaqlılardan perimetri ən kiçik olanını(ən böyük olanını) tapın.

Qurma məsələlərinə aid bacarıq və vərdişlər də şagirdlərdə ibtidai siniflərdən ardıcıl və sistematik şəkildə formalaşdırılır. İbtidai siniflərdə şagirdlər qurmanı xətkeş, transportir, günyə, pərgar vasitəsilə yerinə yetirirlər. Belə ki, xətkeşlə hər hansı parçaya bərabər parçanı qurmaq, pərgarla verilmiş radiuslu çevrəni çəkmək, günyə ilə bucaq çəkmək və s. qurmaları yerinə yetirirlər. Lakin ibtidai siniflərdə qurmanın əsaslandırılması tələb olunmur, sadə həndəsi qurmalar praktik və intuitiv əsasda həyata keçirilir. Qeyd edək ki, həndəsi çertyojlar, sadə qurmalar həm həndəsi bilik və

vərdişlərin qazanılmasında mühüm rol oynayır, həm də məntiqi məsələlərin həllində, kəmiyyətlər arasında miqdari münasibətlərin əyaniləşdirilməsində və məsələnin həll yolunun tapılmasında mühüm rol oynayır.

Aparılmış tədqiqatlar göstərir ki, ümumtəhsil məktəb riyaziyyat kursundahəndəsə məzmun xətti üzrə materialların tədrisi zamanı şagirdlər müəyyən çətinliklərlə qarşılaşırlar. Belə ki, V sinifdə şagirdlər qurma məsələlərinin həlli zamanı çertyoj alətlərindən bəzən düzgün istifadə etməyi bacarmırlar. Ona görə də ibtidai siniflərdə şagirdlərin çertyoj alətlərindən düzgün istifadə etmələrinə xüsusilə diqqət etmək lazımdır. Çünki şagirdlər ibtidai siniflərdə əldə etdikləri bilik, bacarıq və vərdişlərlə V sinifə keçirlər. Əgər onların həndəsə məzmun xətti üzrə bilik, bacarıq və vərdişlərində nöqsanlar mövcud olarsa, bu nöqsanları aradan qaldırmadan V sinifdə şagirdlərin həndəsi biliklərini genişləndirmək və dərinləşdirmək olmaz.

Beləliklə, ibtidai siniflərdə həndəsə materialının metodik cəhətdən düzgün tədrisi yuxarı siniflərdə həndəsə materialının səmərəli tədrisinə imkan yaradır. Bunun üçün

- dərsliklərdəki verilmiş həndəsi məzmunlu çalışmaların sayı əlavə mənbələr hesabına artırılmalıdır;
- müəllimin yaradıcı fəaliyyətindən asılı olaraqəyləncəli,oyun xarakterli müxtəlifhəndəsi çalışmalardan istifadə edilməlidir;
- fiqurun hissələrə ayrılması və müxtəlif fiqurlardan yeni bir fiqurun düzəldilməsinə aid çalışmalardan istifadə edilməlidir;
- məsələ məzmununu əyaniləşdirməyə xidmət edən həndəsi fiqurlardan istifadə edilməlidir;
- sadə həndəsi qurmalara aid çalışmalardan istifadə edilməlidir.

ƏDƏBİYYAT

1. Həmidov, S.S. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası. / S.S.Həmidov – Bakı: – 2012.
2. Məhərrəmov, M. Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün riyaziyyat dərsliyi. / M.Məhərrəmov, G. Hüseynzadə, S.Abdullayeva, İ.Rüstəmova – Bakı: – II hissə. – 2020.
3. İsayev, Z. Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün riyaziyyat dərsliyi. II hissə. / Z.İsayev, M.Məhərrəmov, G.Hüseynzadə, S.Abdullayeva, İ.Rüstəmova – Bakı: – 2021.
4. Qəhrəmanova, N. Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün riyaziyyat dərsliyi. / N.Qəhrəmanova, C.Əsgərova, L.Qurbanova – Bakı: – 2018.
5. Qəhrəmanova, N. Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün riyaziyyat dərsliyi. / N.Qəhrəmanova, C.Əsgərova – Bakı: – 2019.

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 01 fevral 2022-ci il
Son daxilolma tarixi:15 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 371:004

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 70-73
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 70-73
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 70-73

"İNFORMATİKA" FƏNNİNİN TƏDRİSİNİN AKTUAL PROBLEMLƏRİ

Müəllif:

Kəmalə İbrahimova
Naxçıvan Müəllimlər İnstitutu

E-mail:
kamalaibraqimova100@mail.com

Açar sözlər:
informatika, tədris, alqoritmlər, məntiqi mühakimə, kompüter, əməliyyat

Annotasiya. Bu gün yaşadığımız müasir cəmiyyətimizi informasiyasız təsəvvür etmək qeyri-mümkündür. Elə buna görə də cəmiyyətimiz informasiyalaşdırma adlanan tarixi bir prosesə qoşulmuşdur. İnformatikanın bünövrəsi isə ibtidai siniflərdə qoyulur. Bu fənnin tədrisi uşaqlarda dərketmə anlayışını formalaşdırmaqla yanaşı, onlarda mövcud hadisələr arasında əlaqəni, fərqi başa düşməyə də xidmət edir. Bu, isə öz-özlüyündə uşaqlarda alqoritmik düşüncə tərzini formalaşdırmış olur. Buna görə də İnformatika fənninin tədrisi xüsusi aktuallıq kəsb edir. İnformatika fənninin tədrisi şagirdlərdə bir çox bacarıqları formalaşdırır. Şagird artıq obyektlər qrupundakı əşyaları əlamətlərinə görə tanıdığını nümayiş etdirir, sadə alqoritmləri anlayır, məntiqi mühakimələri ilə çıxış edir. Kompüter qarşısına keçib bəzi əməliyyatları yerinə yetirir, özünə uyğun şəkillər çəkir, lazımi mətnlər yığır. Bu proseslərin həyata keçirilməsi şagirdlərdə İnformasiya texnologiyalarının əhəmiyyətini başa düşməyə səbəb olur.

Author:

Kamala İbrahimova
Nakhchivan Teachers Institute

E-mail:
kamalaibraqimova100@mail.com

Key word:
informatics, teaching, algorithms, logical reasoning, computer, operation.

ACTUAL PROBLEMS OF TEACHİNG "INFORMATİCS" SUBJECT

Abstract. It is impossible to imagine our modern society without information. That is why our society has joined a historical process called informatization. The foundation of informatics is laid in primary classes. The teaching of this subject not only forms the concept of understanding in children, but also helps them to understand the connection and difference between existing events. This in itself forms an algorithmic way of thinking in children. Therefore, the teaching of Informatics is of particular importance.Teaching computer science develops many skills in students. The student already demonstrates that he recognizes the objects in the group of objects by their signs, understands simple algorithms, and makes logical judgments. He walks in front of the computer and performs some operations, takes suitable pictures and collects the necessary texts. The implementation of these processes causes students to understand the importance of Information technologies.

Автор:

Кямала Ибрагимова
Нахчыванский институт учителей
E-mail:
kamalaibraqimova100@mail.com

Ключевые слова:
информатика, обучение, алгоритмы, логическое суждение, компьютер, операция

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ПРЕПОДАВАНИЯ ДИСЦИПЛИНЫ «ИНФОРМАТИКА»

Аннотация. Сегодня невозможно представить наше современное общество, в котором мы живем, без информации. Вот почему наше общество вовлечено в исторический процесс, называемый информатизацией.А основы информатики закладываются в начальных классах. Преподавание этого предмета не только формирует у детей понимание осмысления, но и служит для понимания у них связи, разницы между имеющимися явлениями. А это само по себе сформировало у детей алгоритмическое мышление. Поэтому преподавание информатики приобретает особую актуальность.Преподавание информатики формирует у учащихся многие навыки. Учащийся уже демонстрирует, что распознает предметы в группе предметов по их признакам, понимает простые алгоритмы, делает логические суждения. Он стоит перед компьютером и выполняет некоторые операции, рисует подходящие для себя картинки, набирает нужные тексты. Реализация этих процессов приводит к пониманию важности информационных технологий у учащихся.

Müstəqillik qazandığımız respublikamızda yetişən gənc nəslin hərtərəfli inkişafı zamanın tələbi kimi qarşıda durur. Gənc nəslin gələcəyin savadlı vətəndaşı kimi yetişməsində təhsilin əhəmiyyəti danılmazdı. Belə ki, Azərbaycan Respublikasının 2009-cu ildə qəbul etdiyi Təhsil Qanunu da məhz bu məqsədə xidmət edir [4].

Belə ki, təhsildə yeni islahatlar aparmaq, yeni texnologiyalara əsaslanmaq, tədrisi müasir tələbləri səviyyəsində qurmaq, tərtərəfli biliyə malik gənclər yetişdirmək kimi məsələlər Qanunda öz əksini tapır.

Bu mənada, bu gün yaşadığımız müasir cəmiyyətimizi informasiyasız təsəvvür etmək qeyri-mümkündür. İnformasiya artıq cəmiyyətimizin əsasını təşkil edir. Bu informasiya olmadan keçinmək olmaz. Artıq cəmiyyətimiz informasiya prosesə qoşulmuşdur. Bu prosesi isə öz-özlüyündə həyata keçirilə bilməz. Burda kompüterlərin roluna üstünlük verilir. Bu gün cəmiyyətin elmi-texniki və sosial-iqtisadi inkişafının əsas göstəricisi məhz informasiyalaşdırma prosesindən asılıdır. İnformasiyalaşdırma prosesi isə inkişafımızın başlıca mənbəyi hesab edilir. Əgər bu gün hərtərəfli inkişaf edən gənclərə sahib olmaq istəyiriksə, bunun yolu ancaq informasiyalaşdırma prosesindən keçir.

Böyük fəxr hissi ilə deyə bilərik ki, hər bir sahədə sürətlə inkişaf edən müstəqil Azərbaycanımız da informasiya cəmiyyətinə qoşulmuş, bu isə informasiya texnologiyalarının inkişafını bir zərurətə çevirmişdir. Bu gün inkişaf etmiş təhsildən söhbət gedirsə, artıq yeni forma və metodlara əsaslanmalı, təhsilimizdə yeniliklərə imza atmalıyıq. Bütün bunlara məhz informasiya texnologiyalarından istifadə vasitəsi ilə nail ola bilərik.

Bu texnologiyalardan istifadə şagirdlərə imkan verəcək ki, kompüterdən fərdi istifadə etməklə ətraf aləmdə gedən dəyişikliklərə və cəmiyyətdəki sosial proseslərə öz münasibətlərini bildirə bilsinlər.

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın 5.4.1.2. ("İnformatika" fənni üzrə yüksəkixtisaslı pedaqoji kadrların hazırlanması və onların peşəkarlıq səviyyəsinin daim artırılmasına dair tədbirlərin həyata keçirilməsi) və 5.4.1.3. (Təhsilin bütün pillələri üçün informatikanın vahidlilik və davamlılıq prinsipi əsasında tədrisinin təşkili üzrə təkliflərin hazırlanması və həyata keçirilməsi) bəndlərindən irəli gələn vəzifələri əsas götürərək təhsilin bütün pillələrində "İnformatika" fənninin məzmununa yenidən baxılıb inkişaf etdirilməsi və bu sahədə yüksəkixtisaslı kadrların hazırlanması aktual məsələ kimi qarşıya qoyulub [1].

Deməli, bu gün "İnformatika" fənninin tədrisi sahəsində mühüm addımlar atılmış, yüksək ixtisaslı kadrların hazırlanması məsələsi öz həllini tapmışdır. Bu da öz növbəsində hər bir gəncin kompüterdən müstəqil istifadə edə bilməsinə səbəb olmuşdur. Danılmaz faktdır ki, informasiya mühitini kompütersiz təsəvvür etmək mümkün deyildir. İnformasiya mühitində kompüterlərin tətbiqi isə informasiya texnologiyasının inkişafını yeni mərhələyə çatdırdı. Artıq cəmiyyətimiz yeni informasiya texnologiyaları mərhələsinə qədəm qoyub.

Bildiyimiz kimi, informatikanın bünövrəsi ibtidai siniflərdə qoyulur. İbtidai siniflərdə şagirdlərin bu elmlə tanış olmaları bir az çətin ola bilər. Amma ibtidai təlim təhsilin başlanğıcı olduğu kimi, informatika elmi ilə ilk tanışlıq da məhz burdan başlayır. Şagirdlərin ibtidai siniflərdə qazanmış olduqları bilik və bacarıqlar sonradan onların bu elmə yiyələnmələrində təməl rolunu oynamış olur. İnformatika fənninin tədrisi uşaqlarda bir çox vərdişləri tərbiyə etmiş olur. Belə ki, şagirdlər bu fənnə yiyələndikcə dünyanı dərk edir, hadisələr arasında əlaqəni görə bilir, alqoritmik düşüncə tərzinə yiyələnmiş olurlar.

Təhsil prosesində şagirdlərin "İnformatika" fənnindən əldə etdikləri bilik və bacarıqlar onların daha da irəli gedə bilmələrini təmin edir. Bu zaman şagirdlər digər fənlərin də tədrisində kompüterdən istifadəni zəruri hesab edir, mövzuların əlaqəli, interaktiv şəkildə tədrisini tələb etmiş olurlar. Şagirdlər bu yolla yeni bilikləri tam və asan mənimsəyir, mövcud informasiyadan yararlanmış olurlar. İnformatikanın tədrisi bir çox məsələlərin həllini zəruri edir. İlk öncə dərsin təşkili üçün bir çox vasitələrin olması lazım gəlir.

Bu vasitələr nədir?

Əgər şagirdlərin yeni texnologiyalardan istifadəsini təmin etmək istəyiriksə İnformatika fənninin tədrisində bir çox vasitələrdən istifadəni həyata keçirməliyik.

- İlk növbədə məktəblərdə kompüter siniflərinin olması təmin edilməlidir

- Məktəblərdə ilk öncə İnformatika kurslarını təşkil edilməlidir. Bu kursların həm də proq-

ram-metodik təminatı həyata keçirilməlidir. İnformatika kurslarının tədrisi müəyyən proqramla həyata keçirilməli, şagirdlərə müəyyən biliklər verilməlidir.

- Tədris materialları olmalı, bu materiallardan dərs vaxtı istifadə edilməlidir. Tədris materialı olmadan tədris həyata keçirilə bilməz, ona gərə də tədris materiallarının olması olduqca vacibdir.

Eyni zamanda, telekommunikasiya sistemləri, internet bağlantısı vasitələri və digər lokal şəbəkələr, İnformatika kursunun proqram-metodik təminatına dərsliklər, müəllim üçün metodik vəsaitlər, iş dəftərləri, informatika üzrə əlavə kompakt-disklər və s. daxildir [3, s.118-125].

Təbii ki, bunlarsız informatikanın tədrisi mümkün deyildir.

İnformatika dərsləri eyni zamanda, adi otaqlarda, yəni kompüter olmayan otaqlarda keçirilə bilməz. Bu zaman dərsin heç bir müsbət tərəfi olmaz. Ona görə də dərs kompüterlərlə təchiz olunmuş siniflərdə aparılmalı, şagirdlər kompüterlə təmasda olmalıdırlar.

Onu da qeyd edək ki, kompüter otqaları dedikdə lokal şəbəkələrdə birləşdirilmiş periferiya qurğularından, proqram təminatı və texniki qurğulardan ibarət otaq nəzərdə tutulur [3, s.160-164].

İnformatikanın tədrisi informasiya anlayışları ilə başlayır. Çünki informasiya informatikanın əsas anlayışıdır. İnsan bütün həyatı boyu informasiyaya möhtacdır. İnsan ətraf aləmi informasiya vasitəsi ilə dərk edir. Bəzən məişətdə də informasiyaya ehtiyac duyulur. Hər hansı bir məlumatın əldə edilməsində informasiya böyük rola malikdir. Ona görə də ibtidai siniflərdən uşaqlarda informasiya əldə etməyin yolları öyrədilir. Bu informasiya isə kompüter vasitəsi ilə təmin edilir.

Bu mənada, İnformatikanın tədrisi artıq uşaqlarda sərbəst şəkildə kompüterdən istifadəni formalaşdırır. Bu zaman şagird:

- eynicinsli obyektlər qrupunda əşyanı seçir. Əşya seçildikdən sonra şagirdlər onları əlamətlərinə görə ayırmağı və müqayisə etməyi öyrənir;

- ardıcıllığı gözləməklə hərəkət edir, buraxılan addımı təyin edə bilir;

- müəllimin köməyi ilə qanunauyğunluqları müəyyən edə bilir;

- sadə riyazi alqoritmləri həyata keçirə bilir;

- sadə əməliyyatları icra edə bilir;

Eyni zamanda, mətn redaktorunda sadə mətnlər yığır, redaktə edir və onlara rəsmlər daxil edir [2, s.19-20].

Təlimin sonuna doğru şagird bir çox əməliyyatları yerinə yetirə bildiyini nümayiş etdirir. Belə ki, şagird artıq obyektlər qrupundakı əşyaları əlamətlərinə görə tanıdığını nümayiş etdirir, sadə alqoritmləri anlayır, məntiqi mühakimələri ilə çıxış edir. Kompüterdə bəzi əməliyyatları icra edir, lazımi şəkillər çəkir, özü üçün mətnlər yığır. Bu əməliyyatları həyata keçirtməklə şagirdlər informasiya texnologiyalarının əhəmiyyətini anlayır, cəmiyyətimizin inkişafında onların rolunu dərk etmiş olurlar.

Bütün bunlara nail olmaq üçün İnformatika dərsləri yüksək səviyyədə təşkil edilməli, müəllim yüksək peşəkarlıq nümayiş etdirməklə şagirdlərin kompüterlə sərbəst işləyə bilməsinə nail olmalıdır.

İnformatika kursunda həyata keçirilən məsələlərdən biri də şagirdlərin informasiyanı əldə etmələri və bu informasiyanı ötürə bilmələridir ki, bu da dərs boyu şagirdlərə izah edilməlidir. Tədris zamanı mühüm anlayışlar da şagirdlərə izah edilməli, bununla da onlarda müəyyən biliklər formalaşdırılmalıdır. Müəllim ölçü vahidləri, informasiya daşıyıcıları, işarə, simvol, model, kod və s. haqqında da məlumat verməli, bu anlayışların düzgün mənimsədilməsi üçün informatikanın gücündən istifadə etməlidir. İnformatikanın tədrisində əsas anlayışların mənimsədilməsi diqqətdə saxlanılmalı, bir çox prinsiplərə əməl edilməlidir:

1) Birinci yerdə sistemlilik prinsipi dayanır. Kursun öyrədilməsində şagirdin fikrində bütün anlayışların ardıcıl sistemi qurulmalıdır. Yəni şagird kurs boyu hansı mövzunu hansı ardıcıllıqla öyrənəcəyini qabaqcadan dərk etməlidir.

2) İkincisi, Paralellik prinsipidir. Bu prinsipə əsasən həm nəzəri, həm də praktiki biliklər paralel öyrədilməli, şagirdlərin əsas anlayışları öyrənmələri diqqətdə saxlanılmalıdır.

3) Sonuncusu isə özünütədris və qarşılıqlı öyrənmə prosesidir. İnformatika elmi inkişafda olan bir elmdir. Şagirdlər təkcə müəllimin verdiyi biliklə kifayətlənməməli əlavə mənbələrdən, internet resurslarından istifadə etməklə özləri informatika üzrə yeni biliklər əldə etməyə çalışmalıdırlar.

Hətta qeyd edildiyi kimi, sinif yoldaşları ilə bu məlumatları paylaşaraq onların da maraq və bilik dairəsini genişləndirə bilərlər [2, s.83].

Məlumdur ki, informasiya proseslərinə informasiyanın ilk öncə toplanması prosesi həyat keçirilir. Bundan sonra informasiyanın ötürülməsi, saxlanması, emalı və istifadəçiyə çatdırılması prosesləri baş verir. Əldə edilən informasiya ötürülməzsə onun heç bir əhəmiyyəti ola bilməz. Ona görə də şagirdlərə bu kimi anlayışlar başa salınmalı, lazımi bilikərə yiyələnmələri təmin edilməlidir. Deməli, bu kimi proseslərin həyata keçirilməsi məhz İnformatika dərslərində həyata keçirilir.

Kompüterin təlimin gedişində rolu böyükdür. Təlim zamanı kompüter iki funksiya yerinə yetirir.

1. Öyrənmə obyekti olmalıdır. Öyrənmə obyekti olmadan tədris mümkün olmur.

2. Öyrətmə vasitəsi olmaq. Kompüter digər fənlərin tədrisində öyrətmə obyekti kimi çıxış edir.

Kompüterin öyrənmə vasitəsi olmaqla həm təhsilin keyfiyyətinə təsir edir, həm də təhsilin kompüterləşməsini həyata keçirdir .

Bu gün bütün sahələrdə informasiya texnologiyalarının tətbiqi zəruri olaraq həyata keçirilir. Təhsildə İKT-nin tətbiqi geniş imkanlar açır, həm müəllimlərin, həm də yeni nəslin yeni texnologiyalardan istifadəsini təmin edir. Əgər bu gün təhsilimizin inkişafını, dünya təhsilinə inteqrasiyasını düşünürüksə, bu istiqamətdə işimizi günün tələbləri səviyyəsində qurmalı, təhsildə İKT-dən geniş istifadə etməyi öyrənməli və öyrətməliyik.

Ona görə də orta ümumtəhsil məktəblərində "İnformatika" fənninin tədrisi daim diqqətdə saxlanılmalı, inkişaf etdirilməlidir. İKT-dən istifadə zəruri olduğuna görə orta məktəbdə "İnformatika" fənninin tədrisinə geniş yer verilməli müəyyən mövzular xüsusi olaraq tədris edilməlidir. Müəllimlər də məhz bu məsələyə ciddi yanaşmalı, qarşıya qoyulan məqsədə nail olmaq üçün çalışmalıdırlar.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı. https://www.president.az/articles/21127
2. Novruzova, X.T. İnformatikanın tədrisi metodikası.(1-4-cü siniflər). Dərslik. / X.T.Novruzova – Bakı: – 2017. – 152 s.
3. Рыжов, В.Н. Методика преподавания информатики. Учебник. / В.Н.Рыжов – Саратов: – 2008.
4. http://portal.edu.az

Məqalə pedaqogika üzrə elmlər doktoru, professor İsmayıl Əliyev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 11 fevral 2022-ci il
Son daxilolma tarixi: 01 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 372.862

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 74-77
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 74-77
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 74-77

ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TEXNOLOGİYA FƏNNİNİN TƏDRİSİNİN HAZIRKİ VƏZİYYƏTİNƏ DAİR BƏZİ MÜLAHİZƏLƏR

Müəlliflər:

Coşqun Qurbanov
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: cosqun1993@outlook.com

Rövşən Bağırov
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: rovshanb@outlook.com

Nizami Quliyev
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: nizamiq@outlook.com

Açar sözlər:
ümumtəhsil məktəbi, müəllim, şagird, fənn, texnologiya, müasir təlim

Annotasiya. Məqalədə texnologiya fənninin cari vəziyyəti haqqında ümumi məlumat verilmişdir. Texnologiya fənnin tədris edən müəllimlər nəyə və nələrə diqqət etməli olduqları məsələlərə baxılmışdır. Müasir dövrdə texnologiya fənninin qarşısında bir sıra tələblər qoyulur. Texnologiya müəllimləri tədris etdikləri fənni şagirdlərə sevdirmək üçün müxtəlif metod və üsullardan istifadə etməlidirlər ki, müsbət nəticə əldə edə bilsinlər. Bəzi məktəblərdə texnologiya fənninə ögey münasibətin olması və dərsi az olan müəllimlərə, yəni qeyri-ixtisas fənn müəllimlərinə verilməsi hal hazırda ən böyük problemlərdən biridir. Həmin müəllimlər isə bu fənni şagirdlərə sevdirə bilmirlər. Ancaq öz fənnini şagirdlərə sevdirən bir çox texnologiya müəllimləri də vardır. Məqalədə həmin müəllimlərin işi haqqında müəyyən qeydlər öz əksini tapmışdır.

IN SECONDARY SCHOOLSTEACHING OF THE SUBJECT OF TECHNOLOGY SOME CONSIDERATIONS ON ITS PRESENT SITUATION

Authors:

Coshgun Gurbanov
Nakhchivan Teachers Institute
E-mail: cosqun1993@outlook.com

Rovshan Bagirov
Nakhchivan Teachers Institute
E-mail: rovshanb@outlook.com

Nizami Guliyev
Nakhchivan Teachers Institute
E-mail: nizamiq@outlook.com

Key word:
Subject, teacher, school, technology, form, modern, teaching, superior, delivery, difference, position, subject, student

Abstarct. General information about the current state of the subject of technology. What should teachers of the subject of technology pay attention to? What are the requirements for the subject of technology in modern times? What methods and techniques should technology teachers use to get students to love the subject they are teaching in order to achieve positive results? One of the biggest problems at the moment is that some schools have a stepfather approach to the subject of technology and give it to teachers with few lessons, ie non-specialty teachers. Those teachers cannot make students love this subject. However, there are many technology teachers who love their subject. The article contains some notes on the work of these teachers.

НЕКОТОРЫЕ СООБРАЖЕНИЯ О СОВРЕМЕННОМ СОСТОЯНИИ ПРЕПОДАВАНИЯ ПРЕДМЕТА ТЕХНОЛОГИИ В СРЕДНИХ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

Авторы:

Джошгун Гурбанов
Нахчыванский институт учителей
E-mail: cosqun1993@outlook.com

Ровшан Багиров
Нахчыванский институт учителей
E-mail: rovshanb@outlook.com

Низами Гулиев
Нахчыванский институт учителей
E-mail: nizamiq@outlook.com

Ключевые слова:
общеобразовательная школа, учитель, ученик, предмет, технология, современное обучение

Аннотация. В статье даны общие сведения о текущем состоянии технологической дисциплины. Рассматривались вопросы о том, на чем и на чем должны сосредоточиться преподаватели, преподающие технологический предмет. В современную эпоху перед технологической дисциплиной ставится ряд требований. Учителя технологий должны использовать различные методы и приемы, чтобы заставить учеников полюбить предмет, который они преподают, чтобы они могли получить положительный результат. “В настоящее время одна из самых больших проблем заключается в том, что в некоторых школах наблюдается отчужденное отношение к предмету технологии, и его отдают учителям, у которых мало уроков, то есть неквалифицированным учителям-предметникам. А эти учителя не могут полюбить этот предмет. Но есть также много учителей технологий, которые заставляют студентов любить свой предмет. В статье содержатся определенные упоминания о работе этих учителей.

olunmur. Bunun bir çox səbəbləri vardır. Nəzərə alsaq ki, müasir dövrdə bütün fənlərin ixtisaslı müəllimlər tərəfindən tədris olunması qarşıya bir məqsəd kimi qoyulsa da bu əsasən belə deyildir. Bütün məktəb direktorlarında belə bir fikir formalaşmışdır ki, texnologiya dərslərini nisbətən az dərsi olan müəllimlər arasında bölmək daha yaxşı olardı.

Bu isə hal hazırki dövrdə texnologiya fənninə ögey bir münasibətdir. Qeyd etməliyəm ki, hər bir müəllim öz ixtisası üzrə daha faydalı ola bilər. Buna həmişə diqqətlə yanaşmaq faydalı olar. Əgər müasir dövrdə hər bir texnologiya müəllimi tədris etdiyi mövzunu şagirdlərə çatdırmaq üçün səmərəli yollardan istifadə etmirsə demək həmin müəllim şagirdlərin sevimlisinə çevrilə bilməz. Bu bütün fənlərin tədrisində tələb olunur, nəyə görə texnologiya fənninin tədrisində bu üsul tətbiq edilməsin.

Texnologiya müəllimi hər şeydən əvvəl tədrisində İKT-dən istifadə etməklə müasir texnologiyaların üstünlüyü haqqında və eləcədə fənninə aid bütün yenilikləri şagirdlərə çatdıra bilməzmi. Şatdırmağa çalışmalı bu kimi əyani vasitələrdən həmişə istifadə etməlidir. Çünki şagirdlər bütün yeniliklər haqqında nəisə eşitdikdə öz işlərində yəni dərsdənkənar vaxtlarında istifadə etməyi və yaxud tətbiq etməyi sevirlər.

Əgər deyilənlərə diqqət yetirsək onda görərik ki, heçdə həmişə asan olmur. Deyilənlərə qiqqət yetirmək və işdə tətbiq etmək isə texnologiya müəlliminin metoduna və istifadə etdiyi üsula bağlıdır.

Texnologiya müəllimi tədris etdiyi mövzu üzrə şagirdə nə isə yeni bir iş, fikir və yeni maraqlı bir yön göstərmirsə şagird həmin dərsdən diqqəti digər tərəfə yönəldəcək, fikrı müəllimdə olmayacaq. Bunu aradan qaldırmaq üçün hər bir texnologiya dərsi praktik olmalıdır. Bu zaman müəllim şagirdlərin qabiliyyətinə dah çox fikir verməli və ortaya çıxan qabiliyyətin inkişafına təkan verməlidir. Bu müəllimin gündəlik işində daha dəqiq olmaqla yerinə yetirilməlidir. Hər bir şagird dərsdə nəyisə öyrənməlidir ki, gələcəkdə ona texnologiya fənni daha maraqlı gəlsin. öyrənmək üçün daima can atsın. Əgər keçirilən dərsdə texnologiya müəllimi yeni nəyisə öyrədirsə dərs maraqlı olmaqla yanaşı öyrədici dərsə çevrilir. Bu da müəllimilərin həmçinin texnologiya müəlliminin bu gün qarşısına qoyulan vəzifələrdən biri deyilmi.[1]

İndi isə aparılan tədqiqatın nəticələrinə diqqət yetirək. Həm Azərbaycan Respublikasının təqribən bütün təhsil müəssələrində texnologiya dərslərini ixtisaslı müəllimlər tədris etmir. Bu həmdə Naxçıvan Muxtar Respublikasındakı təhsil müəssələrinə də aiddir. Hələ bir neçə il əvvəl Naxçıvan Dövlət Universitetində keçirilən tədbirlərin birində bu məsələ Təhsil Nazirinin diqqətinə çatdırılmışdır. Ancaq hələlik demək olar ki, heç bir yenilik yoxdur.

Həm şəhər məktəblərində həm də rayon daxilindəki təhsil müəssələrində texnologiya dərsləri ixtisas sahibi olan texnologiya müəllimləri tərəfindən aparılmır. Bu da texnologiya dərslərinə şagirdlər tərəfindən diqqətsizliyə ehtinasızlığa gətirib çıxarır. Bunu aradan qaldırmaqla həm bütün təhsil müəssələrində yeni biliyə malik, bütün texnologiyaların iş prosesinə yiyələnmiş gənc müəl-limlərin işlə təmin olunması və həmin məktəblərdə ixtisaslı müəllimlərin yerləşdirilməsi ilə yanaşı texnologiya dərslərinə şagirdlərin marağını da artırmış oluruq.

Həqiqət naminə demək lazımdır ki, həm rayon daxilindəki təhsil müəssələrində həm də Naxçıvan şəhərindəki, məktəblərdə ixtisasını sevən və sevdirən çox dəyərli müəllimlər vardır. Texnologiya müəllimliyini bitirib yeni fəaliyyət göstərən gənc müəllimlərdə həmişə öz işlərində yenilikçi olmağa çalışırlar. Yeniliyin texnologiya dərslərində tətbiqi isə dərsə marağı tamamilə dəyişir. Buna misal olaraq Şərur rayonunun 1 saylı tam orta məktəbində texnologiya müəllimlərinin eləcədə Çomaxtur kənd tam orta məktəbində texnologiya müəlliminin fəliyyətini nümunə kimi demək yerinə düşərdi. Dişər tərəfdən isə Naxçıvan şəhərindəki, 14 saylı tam orta məktəbinin də texnologiya müəllimlərinin müsbət işindən danışmamaq mümkün deyildir. Ordubad rayonunda yerləşən internat məktəbinin texnologiya müəlliminin işininə qeyd etsək yerinə düşmüş olur. İşinə məsuliyyətlə yanaşan bir çox texnologiya

müəlliminin adlarını və yaxud işini misal gətirmək olardı. Həmin təhsil müəssələrində işləyən müəllimlər gündəlik işlərində diqqətli və tələbkardırlar ki, bu da dərslərin tamamilə səmərəli keçməsinə və maraqlı olmasına səbəb olur.[3]

Təhsil Nazirliyinin proqramı əsasında mövzuların dəqiq yerinə yetrilməsi üçün və həmin mövzunun tam qavranması üçün texnologiya müəllimləri daha cox əyaniliyə fikir verməli və buna nail olmağa çalışmalıdırlar. Dərsdə həmin qabaqcıl müəllimlər yeni metodlardan istifadə etməklə işlərini günün tələbləri səviyyəsində qurmağa çalışmalı və digər həmkarlarının da buna nail olmasına can atmalıdırlar. Bu isə hal hazırki mərhələdə məktəbdə şagirdlərin diqqətini peçələrə yönəltməklə onların həmin peşəni sevməsinə səbəb olurlar. Texnologiya müəllimlərinin qarşısına bugünkü qoyulan məsələlərdən biri də şagirdlərin müasir peşələrə istiqamətləndirilməsi vəzifəsi qoyulmuşdur. Keçmiş peşələrdən fərqli olaraq indiki , dövrdə elə dünyəvi əhəmiyyətə malik peşələr vardır ki, şagirdlərimizin müəyyən faizini ora yönəltməklə həm dövlətimizə həm də xalqımıza böyük köməklik etmiş oluruq. Dediklərimizin həyata keçrilməsi isə ilk növbədə müəllimin dərsinə və işinə vicdanla yanaşmasından asılıdır. Əgər dərsi tədris edən müəllim işinə vicdanla yanaşmırsa demək heçbir nəaliyyətə çatmaq və yaxud yiyələnmək olmaz.[2]

Məgər yuxarıda dediklərimiz hazırki dövrdə texnologiya müəllimlərinin qarşısına qoyulan müasir tələblər deyilmi. Texnologiya dərslərinin hazırki vəziyyəti dedikdə bir istiqaməti də yaddan çıxarmaq lazım deyil. Nədir bu istiqamət. Gəlin görək texnologiya dərslərində istifadə olunacaq dəzgahlar, tərtibatlar və avadanlıqlar bütün məktəblərdə vardırmı. Əlbəttə buna tam müsbət cavab vermək olmaz. Elə məktəblərimiz var ki, orda texnologiya dərslərində heç həmin avadanlıqların və yaxud dəzgahların şəkli belə yoxdur. Bax bu məktəblərdə hansı müasir texnologiya dərsinin səmərəliliyindən keyfiyyətindən danışmaq olar. Bu mümkün olmayan bir işdir. Azərbaycan Respublikasının və Təhsil Nazirliyinin bu gün bir tələbi vardır. Səmərəli dərs keçmək, xalqına və millətinə xeyir verə biləcək savadlı kadırlar hazırlamaq. Buna nail olmaq üçün isə hər bir müəllim üzərinə düşən işi layiqincə yerinə yetirməlidir. Bir tədris müəssəsində texnologiya müəlliminin istifadə edə biləcəyi bir əyani vəsait yoxdursa həmin müəllim bugünkü gündə texnologiya dərslərində tələb olunanlara necə cavab verəcək. Digər tərəfdən isə texnologiya müəllimi dediklərimizin olmaması qarşısında əlacsız qalmamalıdır. Burda bir sual meydana şıxır. Müəllim nə edə bilər? Həmin təhsil müəssisəsində fəaliyyət göstərən texnologiya müəllimi ən azından əl qabiliyyətindən istifadə edərək (burada şagirdlərin əl qabiliyyətindən də) dəzgahların, tərtibatların, avadanlıqların və alətlərin şəkillərini cəkməklə dərsi nisbətən maraqlı edə bilər. Digər tərəfdən texnologiya dərslərində müasir texnologiyalardan istifadə etməklə yəni texnologiya dərsində İKT- dən istifadə edərək bütün dəzgahların, avadanlıqların və alətlərin iş prosesindən danışaraq onu əyəni göstərərək dərsin daha canlı keçməsinə nail ola bilər. Bu isə həmin dərsə əyanilikdən istifadəni təmin edir.

Bu gün texnologiya dərslərində daha bir yenilik tətbiq edilir. Bu STEAM adlanır. Buradan görünür ki, zaman keçdıkcə texnologiya müəllimlərinin qarşısına taha çox tələblər qoyulur ki, şagirdləri bu peşələrə yönləndirin. Texnologiya dərsləri həm də STEAM-ın tətbiqi ilə yəni müasir avadanlıqların proqramlaşdırma yolu ilə tətbiqinə üstünlük veməklə tədris olunduğu vacib sayılır.

STEAM-ın tətbiqi daha maraqlı təşkil olmalı, şagirdlər yeniliklərə yiyələnmək üçün çox əzimkarlıqla çalışmalı və öyrənməlidirlər. Bunun öyrənilməsi üçün sadəcə maraq və həvəs yetərli deyildir. Şagirdin digər fənlərlə də əlaqəsi mükəmməl olmalıdır. Yeni avadanlıq, İKT-dən istifadə texnologiya dərslərində modelləşdirməni də ön plana çıxarır. STEAM-da əsas məsələ proqramlaşdırmanı mükəmməl bir şəkildə öyrənməyi vacib sayır və əsas məsələ kimi qarşıya qoyulur. [3]

Burdan belə nəticəyə gəlirik ki, müasir dövrdə texnologiya müəllimlərinin qarşısında çox böyük tələblər qoyulur. Bunların yerinə yetrilməsi üçün isə hal-hazırki dövrdə texnologiya dərslərinin bugünkü vəziyyətini kökündən dəyişmək

əsas məqsəd olmalıdır.

Texnologiya dərslərinin hazırki vəziyyəti bir o qədərdə pis olmasada yaxşı da deyildir.

Texnologiya müəllimləri qarşıya qoyulan məsələnin tam müsbət həlli üçün işlərində dönüş yaratmalı, dərslərin səmərəliliyini artırmalı və yeniliklərin dərslərində tətbiqinə nail olunmalıdır. Aydin məsələdir ki, hər yeni texnologiyanın tətbiqi asan olmur. Ancaq bunu həyata keçirmək üçün var qüvvə ilə çalışmaq vicdanla işləmək üzərimizə düşən işləri layiqincə yerinə yetirmək əsəs məsələ olmalıdır.

Bu isə bugünkü gündə texnologiya dərslərinin hazırki vəziyyətinin dahada yaxşılaşdırılmasına xidmət edir.

Ədəbiyyat

1. Nəzərov Müslüm. Pedaqoji Texnologiyalar. / Nəzərov Müslüm, Quliyev Nizami – Bakı: – 2019.
2. Dəmirov, A.H. Yeni təlim texnologiyaları və müasir dərs. / A.H.Dəmirov, S.M.Məmmədov, Ş.N.İsmayılov – Bakı, – 2007. – 109 s.
3. İKT. Materialları.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 03 fevral 2022-ci il
Son daxilolma tarixi:19 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 372.83+343+069

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 78-81
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 78-81
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 78-81

MUZEYLƏRDƏ KÜTLƏVİ TƏDBİRLƏRİN KEÇİRİLMƏSİ MƏSƏLƏLƏRİNƏ DAİR

Müəlliflər:

Zenfira Seyidova
Naxçıvan Dövlət Universiteti
E-mail:
zemfiraseyidova44@mail.ru

Sevda Ocaqquliyeva
Naxçıvan Dövlət Universiteti

Açar sözlər:
Muzey, eksponat, ekspozisiya, əşya, tədbir, təbliğ

Annotasiya. Kütləvi tədbirlər şəxsiyyətin fomalaşması, gənclərin elmi dünyagörüşünün inkişaf etdirilməsi, ictimai fəallığın, estetik qiymətləndirmə qabiliyyətinin və insanlar arasında mədəni ünsiyyətin daha da möhkəmləndirilməsinə xidmət göstərir. Buna görə də kütləvi tədbirlərin təşkilində bir sıra elmlərin nailiyyətlərindən yaradıcı şəkildə istifadə olunur. Məsələn, müəyyən kütləvi tədbir hazırlanarkən bədii əsərlərdən ədəbi-bədii kompozisiyalar qurulur, ssenarilər üzərində işləyərkən tətbiq edilən metodlara, janrlara geniş şəkildə müraciət edilir. Müstəqil respublikamız həyatın bütün sahələrində olduğu kimi milli mədəniyyət və incəsənətin o sıradan mədəni-kütləvi tədbirlər kontekstində xalq mədəniyyəti incilərinin də qorunub saxlanmasını tələb edir. Məqalədə həmçinin kütləvi tədbirlərin keçirilməsinin forma və üsulları haqqında da geniş məlumatlar öz əksini tapmışdır.

Authors:

Zenfira Seyidova
Naxcivan State University
E-mail:
zemfiraseyidova44@mail.ru

Sevda Ocaqquliyeva
Naxcivan State University

Key word:
Museum, exhibit, exposition, item, event, promotion

ORGANIZING SOCIAL ACTIVITIES IN MUSEUMS

Abstract. Mass events serve to form the personality, develop the scientific outlook of young people, further strengthen social activity, aesthetic appreciation and cultural communication between people. Therefore, the achievements of a number of sciences are creatively used in the organization of mass events. For example, when a certain mass event is being prepared, literary and artistic compositions are created from artistic works, methods and genres applied when working on scenarios are widely applied. Our independent republic, as in all spheres of life, requires the preservation of national culture and art in the context of cultural and mass events. The article also contains extensive information about the forms and methods of holding mass events.

Автор:

Зенфира Сеидова
Нахчыванский государственный университет
E-mail:
zemfiraseyidova44@mail.ru

Севда Оджаггулиева
Нахчыванский государственный университет

Ключевые слова:
музей, экспонат, экспозиция, предмет, мероприятие, продвижение

К ВОПРОСАМ ПРОВЕДЕНИЯ МАССОВЫХ МЕРОПРИЯТИЙ В МУЗЕЯХ

Аннотация. В статье обосновывается, что массовые мероприятия служат формированию личности, развитию научного мировоззрения молодежи, дальнейшему укреплению общественной активности, способности к эстетической оценке и культурному общению между людьми. Поэтому в организации массовых мероприятий творчески используются достижения ряда наук. Например, при подготовке определенного массового мероприятия из художественных произведений строятся литературно-художественные композиции, широко применяются приемы, жанры, применяемые при работе над сценариями. Наша независимая республика, как и во всех сферах жизни, требует сохранения жемчужин национальной культуры и искусства в контексте культурно-массовых мероприятий. В статье также содержится обширная информация о формах и способах проведения массовых мероприятий.

Kütləvi tədbir nədir? Necə və nəyə xidmət edir? Adından da göründüyü kimi, kütləvi tədbir bir çox insanın, kütlənin səyi nəticəsində yaranan bir hadisədir. Belə tədbirlərin təşkilinə insanlar hamılıqla qatılır. Çünki əsasən hər kəsə bəlli olan maraq dairəsində dayanan və yaxından maraqlandığı əlamətdar günlərə həsr edilir. Kütləvi tədbir kütləvi tamaşa deməkdir.

Həmin kütləvi tamaşanın da özünün səciyyəvi xüsusiyyətləri, yaranma və yaşama prinsipləri var. Kütləvi tamaşalar müxtəlif janr qarışığından, əsasən dil ilə ifadə olunan, şer, nəsr, felyeton, parodiya, eyni zamanda aparıcı mətni, ədəbi-bədii kompozisiyalar və s. yaranır. Bədii kütləvi tədbirləri yüksək səviyyədə keçirmək üçün təşkilatçıdan ciddi hazırlıq və hərtərəfli bilik səviyyəsi tələb olunur. Təşkilatçı tədbirin mövzusu ilə bağlı hadisələrin tarixini, mahiyyətini, etnoqrafiyasını və başqa lazımi cəhətlərini dərindən bilməli, tədbirdə istifadə olunacaq ədəbi-bədii materialların estetik dəyərini düzgün qiymətləndirməyi bacarmalıdır. Kütləvi tədbirin bədii-estetik dəyərindən çox, onun təşkilatçılıq istiqamətinə diqqət yetirilməlidir. Bu təbliğatçılıq tələbələrə, məktəblilərə, ümumiyyətlə, xalq kütlələrinə, şair və yazıçılarımızın keçdiyi inkişaf yolu, tariximizi, memarlığımızı öyrənməkdə böyük rol oynamalıdır. Eyni zamanda belə tədbirlər kütlələrə vətənpərvərlik hissi aşılamalıdır.

Sözsüz ki, bu tədbirlərin əsas məqsədi bədii irsin ana xəttini tamaşaçılara çatdırmaqdan ibarətdir. Belə tədbirlər sayəsində tamaşaçılar respublikamızda baş verən hadisələr və respublikamızım görkəmli, ictmai, elm-mədəniyyət xadimləri haqqında düzgün məlumat almış olurlar [1, s.10].

Elə buna görə də muzeylərdə mədəni-kütləvi tədbirlərin geniş tamaşaçı kütləsi üçün gərəkliliyi və səmərəliliyi böyük əhəmiyyət kəsb edir. Təbii ki, muzeylərdə bu formada atılan hər yeni addım milli mədəniyyətimizin tərəqqisini genişləndirdiyi kimi müasir tamaşaçını da qədim və zəngin mədəniyyətimizə hörmət ruhunda tərbiyə etməkdən ibarətdir.

Muzeyin bütün fəaliyyəti qüvvədə olan əsas vəzifələrin həlli – yeni insan tərbiyəsi, hərətərəfli inkişafı və xalqın tarixi mədəniyyətinin sevilməsi işinə yönəldilmişdir. Muzeylər bu məqsədlə kütləvi işin müxtəlif formalarından ekskursiyalar, mühazirələr təşkil edir, məktəblər arasında əlaqə yaradır, müxtəlif sərgilər, kütləvi tədbirlər təşkil edir.

Kütləvi tədbiri keçirmək üçün tədbirin keçirilməsinə məsul olan şəxs məktəblərlə birlikdə proqram tərtib etməlidir. Həmin proqramda keçiriləcək tədbirin adı, giriş sözü və çıxış edəcək başqa şəxslərin adı qeyd olunmalıdır.

Tədbirə hazırlıq zamanı muzey işçisi yubilyar haqqında olan ədəbiyyatı seçməli və həmçinin dövri mətbuatda dərc olunan materiallardan da istifadə etməlidir. Tədbirin keçirilməsində orta məktəbin ədəbiyyat müəllimlərinin, məktəbin sinif şagirdlərinin müxtəlif mədəniyyət işçilərinin imkanlarından maksimum istifadə etmək vacibdir.

Bədii-kütləvi iş muzey işinin tərkib hissəsi olmaqla ən geniş iş sahəsidir. Şəxsiyyətin formalaşması, elmi dünyagörüşün inkişafı ictimai fəallığın estetik qiymətləndirmə qabiliyyətinin və insanlar arasında mədəni ünsiyyətin daha da artması işinə xidmət edir. Bədii-kütləvi tədbirlər cəmiyyətin mədəni həyatını zənginləşdirir, asudə vaxtın mənalı və səmərəli keçməsinə kömək göstərir [2, s.6]

Məsələn, "Hüseyn Cavidin bədii irsi", "Hüseyn Cavidin dramaturgiyası", "Hüseyn Cavidin həyat və yaradıcılığı", "Hüseyn Cavidin poeziyası" və s. mövzularda ədəbi-bədii gecələr keçirilə bilər. Adından da göründüyü kimi, tədbir iki hissədən ibarət olur: ədəbi və bədii. Birinci hissədə müzakirə olunan əsər və ya mövzu haqqında məruzə, çıxışlar olur. İkinci hissədə isə tədbiri keçirən muzeyin imkanlarından asılı olaraq bədii proqram təşkil edilir. Ədəbi və bədii hissənin proqramı ayrı-ayrılıqda tutulur və hər iki hissə eyni mövzuya həsr edilir. İkinci hissədə onun yazdığı şerlərdən parçalar, pyesləri əsasında düzəldilmiş kiçik səhnələr və lirikasına bəstələnmiş mahnılar formasında ssenari tərtib edilməlidir. Tədbirin mövzusuna uyğun materiallar keyfiyyətlə seçilməli, bədii hissə ssenari ilə uyğunlaşmalıdır.

Kütləvi tədbirlərin təbliğat formalarından biri də sərgilərin hazırlanmasıdır. Sərgilərdə mövzuya müvafiq olaraq ədəbiyyatın yerləşdirilməsi yeri gəldikcə illüstrasiya materiallarından, şəkillərdən və sitatlardan da istifadə edilməlidir. Sərgilər xüsusi zövqlə tərtib olunmalı, məzmununa, bədii-estetik dəyərlərinə ciddi fikir verilməli, çap məhsulları, şəkillər və sitatlar xüsusi sistemdə düzülməlidir. Belə sərgilər daha cəlbedici olur və seçilmiş materiallar mövzunun bütün tələb-

lərini əhatə edir. Sərgilər vasitəsilə tədbirin ideya-məzmunu tamaşaçılara əyani olaraq çatdırılır.

Kütləvi tədbirlər keçirilərkən tədbirlərdə, məsələn, "Hüseyn Cavidin dramaturgiyasına həsr olunmuş sərgi", "Hüseyn Cavid 140" başlığı altında düzəltmək olar. Sərgiyə baxan hər bir tamaşaçı Hüseyn Cavid yaradıcılığının ölməz inciləri olan müxtəlif dram əsərlərinin tamaşalarından fotolarla tanış olmaq imkanını qazanır. Sərgidə nümayiş edilən hər bir foto-şəkil tamaşaçını ədibin zəngin yaradıcılığı ilə tanış edir. Sərgidə görkəmli rejissorların, aktyorların və başqa görkəmli xadimlərin ədib haqqında dediyi qiymətli fikirlərdən sitatlar da öz əksini tapmalıdır. Bir sözlə, sənətkarın yaradıcılıq irsinin müəyyən məqamlarının bədii tərtibatı sərgilər vasitəsilə geniş tamaşaçı kütləsinə göstərilməsi muzeylərdə keçirilən tədbirlərin bədii-estetik gücünü artırır. Çünki keçirilən hər bir tədbirin səviyyəsi haqqında təəssüratı onlar yaradır.

İndiki zamanda cəmiyyət üzvlərinin hər birinin elm, təhsil və mədəni-mənəvi problemlərinin həllinə mədəni-kütləvi tədbirlərin, asudə vaxtının səmərəli təşkilinə qayğı göstərilməsi mühüm əhəmiyyət kəsb edir. Bu cəhətdən müasir gənclərin dünyagörüşünün formalaşmasına, intellektinə müsbət təsir göstərən asudə vaxtlarının səmərəli təşkilinə böyük ehtiyac vardır. Çünki mədəni-kütləvi tədbirlərin, əyləncəli oyunların, konsert-tamaşaların təşkili, ədəbi-bədii və tematik gecələrin, muğam, mahnı, viktorinaların keçirilməsi, gənclərin mədəni-mənəvi və intellektual səviyyəsinin inkişafına böyük təkan verir. Əsas məqsəd cəmiyyət həyatının müasir mərhələsində mədəniyyət müəssisələrində mədəni-kütləvi fəaliyyət üçün geniş nəzəri baza və əməli vərdiş formalaşdırmaqdan ibarətdir.

Müstəqil respublikamız həyatın bütün sahələrində olduğu kimi milli mədəniyyət və incəsənətin o sıradan mədəni-kütləvi tədbirlər kontekstində xalq mədəniyyəti incilərinin də qorunub saxlanmasını tələb edir.

Ölkəmiz müstəqillik qazandıqdan sonra tərbiyəvi işin məzmunu müsbət hal kimi xeyli dəyişmiş, söykökə qayıdış, milli-mənlik şüurunun formalaşması, özünüdərk, milli tərbiyə amili ön plana çəkilmişdir. Ötən illərdən fərqli olaraq aşkar edilmiş və yalnız ailələrdə izi qalmış milli adət və ənənələrə geniş yer verilmiş, mövsümi bayramların, o cümlədən baharın gəlişi, təbiətin oyanışı, yeni ilin başlanmasının rəmzi olan milli Novruz bayramının habelə Qurban və Ramazan bayramlarının, ictimai-siyasi bayramların, o cümlədən "Dünya Azərbaycanlılarının Həmrəylik günü", "Müstəqillik günü"nün və peşə bayramlarının dövlət səviyyəsində keçirilməsi xalq tərəfindən rəğbətlə qarşılanmışdır [4, s.17].

Kütləvi tədbirlər sənədliliklə bədiiliyin sintezindən yarandığına görə əsasən mövzunun tarixi faktları toplanır. Hətta milli-adət-ənənələrimizi tədbir şəklinə salanda da keçmişimizə, tariximizə nəzər salmağı unutmuruq.

Hər hansı mərasimin təşkili zamanı estetik gözəlliyə də fikir verilir. Ona görə də tədbir hazırlayarkən estetiklərin gözəllik kateqoriyası ilə yanaşı, eybəcərliklərin də komiklik, faciəvilik, qorxaqlıq və qəhrəmanlıqların da nümayişinə diqqət yetirilməlidir.

Mədəni-kütləvi tədbirlərin təşkilində əsas vasitələrdən biri də ondan ibarətdir ki, kütləvi tədbirlərin mövzularını işləyərkən həyat həqiqətlərindən nümunələr götürülməsinə böyük üstünlük verilməlidir [3, s.80]

Mədəni-kütləvi tədbirlər tərbiyəvi vəzifə daşımaqla yanaşı, həm də böyüməkdə olan gənc nəslin asudə vaxtının səmərəli, mənalı və məzmunlu keçirilməsinə xidmət edir. Gənclərin asudə vaxtının səmərəli təşkili üçün bir sıra vasitələrin gücündən istifadə lazım gəlir. Bu vasitələr içərisində pedaqoji cəhətdən düzgün hazırlanmış hər hansı bir mədəni-kütləvi tədbir belə vasitələrdən hesab oluna bilər. Bədii zövqün, estetik mühakimə və hisslərin, eləcə də digər mənəvi keyfiyyətlərin formalaşmasına yardım göstərməklə yanaşı, gənclərdə şüurluluğu, bilik və bacarığı, əqidəliyi inkişaf etdirir, onlara nəcib mənəvi sifətlər, etik və estetik normalar aşılayır.

Müasir Azərbaycan Respublikasının dünyanın inkişaf etmiş ölkələri səviyyəsində idarə olunması, xalq təsərrüfatı, mədəniyyət və incəsənətin müxtəlif sahələrində fəaliyyətin yüksək səviyyədə təşkili bugünkü gənclərin təlim-tərbiyəsindən asılıdır. Yaşadığımız XXI əsrdə vətənimizin, millətimizin taleyi müasir gənclərimizin fəaliyyəti ilə əlaqədar olacaqdır. Qarşıdakı böyük quruculuq işlərinə layiqli vətəndaşların hazırlanması üçün tərbiyə sisteminin hər bir komponentindən səmərəli istifadə gərəkdir.

Bədii kütləvi tədbirlərin iş planı da muzey əməkdaşları tərəfindən tərtib edilməlidir. Həmin planda xalqın həyatı ilə bağlı bayramlar, tarixi hadisələr və əlamətdar günlər geniş yer tutur.

Bədii kütləvi tədbirlər sənədli və bədii materiallar toplusundan yaranır. Şəxsiyyətin formalaşması, elmi-dünyagörüşünün inkişafı, ictimai fəallığın, estetik qiymətləndirmə qabiliyyətinin və insanlar arasında mədəni ünsiyyətin daha da artması işinə xidmət edir. Bədii-kütləvi işin mövzu dairəsi məhdud olmamalı, o, ictimai-siyasi həyatın mənzərəsini, beynəlxalq hadisələri kütləvi tədbirlər yolu ilə işıqlandırmalıdır [5, s.5].

Kütləvi tədbirlər içərisində planında xalqımızın milli, ənənəvi bayramları xüsusui yer tutur. Bu bayramlarda qədim mədəniyyətimizi əks etdirəcək cəhətlərin nümayişinə də diqqət yetirilir [5. s.7]. Misal olaraq qədim mədəniyyətimizi özündə əks etdirən xalq bayramlarını göstərmək olar.

Zaman-zaman yaratdığımız mənəvi sərvətləri müasir dövrümüzə qədər qoruyub saxlaya bilmişik. Araşdırmalar göstərir ki, qədim bayram və mərasimlərdə xalqımızın ictimai-siyasi baxışları bədii emosional hiss və duyğuları cəmlənmişdir. Həmin mərasim və bayramlarda müxtəlif fikirlər ifadə edən bədii xalq oyunlarımız, rəqslərimiz, poetik yadigarlarımız qorunub saxlanılmışdır. Onlar indi də mənəvi həyatımızı zənginləşdirir, milli ruhumuzu, mənliyimizi tərənnüm edir [5. s.13].

Milli-mənəvi dəyərlərimizin nəsildən-nəslə ötürülməsi, qorunması böyük önəm daşıdığı üçün bu missiyanı bir növ muzeylər öz üzərinə götürür. Muzey bəşəriyyətin çoxəsrlik tarixi ərzində ən qiymətli sərvətlərin mühafizəsi, xəzinədarı və yaddaşnaməsidir. Qədim dövrlərdə və sonrakı dövrlərdə bəşəriyyətin qoruyub saxladığı tarixi mədəniyyət abidələri, maddi-mədəniyyət nümunələri, kitablar, adət-ənənələr nəsildən-nəslə keçərək bu günə kimi gəlib çatıb. Bütün maddi-mənəvi dəyərlərimizin qorunub saxlanmasında və onların mühafizə edilməsində ən etibarlı məkanda elə muzeylərdir.

Ədəbiyyat

1. Alxasova, E. Asudə vaxt təşkilində muzeylərdə elmi-kütləvi tədbirlərdə elmi-kütləvi ədbirlərdən istifadə edilməsi metodikası. / E.Alxasova – Bakı: – 1998.
2. Alxasova, E. Mədəni-kütləvi tədbirlərin təşkili. / E.Alxasova – Bakı: – 2010.
3. Ağayev, R. Kütləvi tədbirlərdə iş metodikası. / R.Ağayev – Bakı: – 2003.
4. Haqverdiyev, T. Bədii kütləvi işin təşkili metodikası. / T.Haqverdiyev – Bakı: – 1992.
5. Haqverdiyev, G. Bədii-kütləvi işin təşkili və metodikası. / G.Haqverdiyev – Bakı: – 1992.

Məqalə pedaqogika üzrə elmlər doktoru, profesor Akif Abbasov tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 12 fevral 2022-ci il
Son daxilolma tarixi: 27 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 37.013

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 82-84
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 82-84
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 82-84

MƏKTƏBƏQƏDƏR MÜSƏSSƏLƏRDƏ OYUNLARIN QRUPLAR ÜZRƏ TƏŞKİLİNİN XÜSUSİYYƏTLƏRİ

Müəlliflər:

Zınyət Əliyeva
Naxçıvan Müəllimlər İnstitutu
E-mail:
zinyet.esger@gmail.com

Nuray Rzayeva
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: nuray1993.rn@gmail.com

Açar sözlər:
məktəbəqədər yaşlı uşaq, süjetli-rollu oyunlar, didaktik oyunlar, əqli inkişaf, təfəkkürün inkişafı

Annotasiya. Müasir insanın təşəkkül tapmasında oyun başlıca vasitə olmuşdur. Oyun dünyanı dərketmə vasitəsi kimi yeni nəslin fəal həyata hazırlanmasında əvəzedilməz mövqe tutmuşdur. Uşaq ömrünün ilk addımlarından həyat üçün zəruri olan lazımi vərdiş və keyfiyyətləri oyun vasitəsi ilə qazanır. Oyun əqli inkişaf etdirir, təxəyyül və qavrayışları formalaşdırır, əmək alətləri ilə işləmək üçün mühüm vərdişlər aşılayır. Bundan əlavə, psixoloji və insan üçün lazım olan bir çox həyati keyfiyyətləri inkişaf etdirir, habelə ömürboyu insanın hərəkətə olan meylini saxlayır, onda yaradıcı fəaliyyətin bünövrəsini qoyur. Bütün dünya xalqlarının həyatına oyunun daxil olmasının, oyundan istifadə etməsinin əsas səbəbi də məhz bundadır.

Authors:

Zinyet Eliyeva
Nakhchivan Teachers Institute
E-mail:
zinyet.esger@gmail.com

Nuray Rzayeva
Nakhchivan Teachers Institute
E-mail: nuray1993.rn@gmail.com

Key word:
preschooler, role-playing games, didactic games, mental development, development of thinking

FEATURES OF ORGANIZING GAMES IN GROUPS IN PRESCHOOL INSTITUTIONS

Abstract. The game has been the main tool in the formation of modern man. The game, as a means of understanding the world, has taken an indispensable position in preparing the new generation for an active life. From the first steps of life, a child acquires the necessary habits and qualities necessary for life through play. The game develops the mind, shapes imagination and perceptions, instills important habits for working with labor tools. In addition, it develops psychological and many vital qualities necessary for a person, as well as preserves a person's tendency to action throughout his life, lays the foundation of creative activity in him. This is the main reason why the game is included in the lives of all the peoples of the world and why they use the game.

Авторы:

Зиньят Алиева
Нахчыванский институт учителей
E-mail:
zinyet.esger@gmail.com

Нурай Рзаева
Нахчыванский институт учителей
E-mail:
nuray1993.rn@gmail.com

Ключевые слова:
дошкольник, ролевые игры, дидактические игры, умственное развитие, развитие мышления

ОСОБЕННОСТИ ОРГАНИЗАЦИИ ИГР В ГРУППАХ В ДОШКОЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

Аннотация: Игра была основным инструментом в формировании современного человека. Как средство познания мира игра стала незаменимой в подготовке нового поколения к активной жизни. С первых шагов жизни ребенок через игру приобретает навыки и качества, необходимые для жизни. Игра развивает ум, формирует воображение и восприятия, прививает важные навыки работы с орудиями труда. Кроме того, она развивает психологические и многие необходимые человеку жизненные качества, а также поддерживает склонность человека к действию на протяжении всей его жизни, составляет основу творческой деятельности. Это главная причина, по которой игра входит в жизнь всех народов мира и они ею пользуются.

Oyun və dərketmə - bu iki anlayış məktəbəqədər yaşlı uşaqların riyazi inkişafının müasir sistemində əsas rol oynayır. Məşhur alimlər tərəfindən müəyyən edilmişdir ki, uşağın ümumi inkişafında məntiqi əməliyyatlara yiyələnmə xüsusi yer tutur. Uşaq fəaliyyətdə inkişaf edir. Fəaliyyət - insanın özünüaçması, özünütəsdiqinin yeganə üsuludur. Uşaq aktiv fəaliyyətə can atır və ən vacibi buna mane olmamaq, əksinə onun sonrakı inkişafına kömək etməkdir. Uşaqların riyazi inkişafının reallaşması proqramının əsas yolları idrakı və inkişafetdirici oyunlardır (oyun məşğələləri), həmçinin uşağın müstəqil fəaliyyəti, riyazi konkurslar, əyləncələr də bura aid edilə bilər. Oyun məşğələlərinin keçirilməsi - riyazi inkişaf proqramının reallaşmasının əsas yollarından biridir. Elm və təcrübədə oyunun bir təlim vasitəsi fikri təsdiq olunub, lakin bu vasitə o zaman effektiv ola bilər ki, "lazım olan yerdə, lazım olan vaxtda və lazım olan qədər" istifadə edilsin. Böyüklər tərəfindən formallaşdırılmış, reqlamentləşdirilmiş, vaxtı uzadılmış, emosional gücü olmayan, uşaqların intellektual imkanlarını əskildən və ya həddən artıq yüksəldən oyunlar xeyirdən çox ziyan gətirə bilər. Suxomlinskiy yazırdı: "Oyun zamanı uşaq qarşısında dünya açılır, şəxsiyyətin yaradıcı qabiliyyətləri açılır. Oyunsuz tam zehni inkişaf olmayıb və olmayacaq da." Oyun - bu uşaq üçün təkcə sevinc və zövq deyil, bu həm də uşağın özü üçün çox vacibdir. Onun köməyilə diqqəti, yaddaşı, dərketməni, təxəyyülü inkişaf etdirmək olar. Oynayaraq uşaq özü də bilmədən yeni biliklər, bacarıqlar əldə edir, qabiliyyətlərini inkişaf etdirə bilir. Oyun təlimi - ictimai təcrübənin bütün təzahürlərində: bilik, bacarıq, vərdişlərin yaradılması və mənimsənməsinə yönəlmiş şərti situasiyalarda təlim prosesinin formasıdır. Oyunun vacib xüsusiyyətlərindən biri ondan ibarətdir ki, oyunda uşaqlar, ekstremal situasiyalarda olduğu kimi, çətinlikləri dəf etməkdə bütün güclərini sərf edərək hərəkət edirlər. Aktivliyin bu cür yüksək səviyyəsi onlar tərəfindən könüllü, məcbur edilmədən əldə edilir. Buna görə də məktəbəqədər yaşlı uşaqların başlıca fəaliyyət növü oyun olur. Tərbiyəçi müxtəlif yaşlı uşaqların fəaliyyətinin təşkili prosessində onların tələbat və maraqlarının oyunlarda təmin edilməsi, qarşılıqlı münasibətlərin düzgün tənzimlənməsi, inkişafı barədə də düşünməlidir. O, qarışıq qruplarda uşaqların oyunlarına pedaqoji rəhbərliyi həyata keçirərkən, hərəkətlərini və qarşılıqlı münasibətlərini təşkil edərkən nəzərə almalıdır ki, onlar oyun fəaliyyətini müxtəlif səviyyələrdə mənimsəyirlər. Onların birgə oyun və məşğələ təcrübələri fərqlənir. Uşaqların fəaliyyətini təşkil edərkən, qarışıq qrupların tərbiyəçiləri ətraflı fikirləşməlidirlər ki, kimi kimlə birləşdirmək, hansı qarşılıqlı münasibətləri formalaşdırmaq, oyun prossesində davranışdakı hansı müsbət cəhətlərə istinad etmək, hansı mənfi təsirin qarşısını almaq lazımdır. Qaydalı oyunlarda uşaqların müsbətlərinin yaradılmasına onların həmin qaydalara riayət etməyi çətinləşdirir, onu oyunun qaydaları deyil, hərəkətin özü cəlb edir. Böyük qrupun uşaqları üçün isə bu oyunlarda qaydalar əsasdır. Bu səbəbdən kiçik və böyükyaşlı uşaqların eyni oyunda birləşdirilmələri məqsədəuyğun deyil. [5, s.27]

Oyunlar xarakteri, məzmunu, yaranma səbəbləri və motivləri nə görə müxtəlifdir. Oyun prosessində həmişə qarşıya məqsəd qoyulur, ona nail olmaq üçün vasitələr axtarılır, hərəkətlərin ardıcıllığı düşünülür nəticə əldə edilir. Oyun prosessi realdır, burada güman edilən situasiya yoxdur, çünki uşaq fəaliyyət zamanı onların köməyi ilə dəyişdirə biləcəyi real əşyalarla iş görür.

Oyunu bir fəaliyyət növü kimi uşaq özü inkişaf etdirir. Pedaqoq oyuna nəzarət edərkən uşağın fikirləri və maraqları ilə hesablaşır, özü isə həmişə onun iştirakçısı olmur. Onun oyuna bilavasitə müdaxiləsi həmişə vacib deyil. Burada uşağın fikir və ideyalarının inkişafı aparıcı əhəmiyyətə malikdir. Oyun ya fərdi ya da başqa uşaqlarla birlikdə keçirilir və bu zaman uşaqlarda fikrin vahidliyi, uşaqların bir-birinə rəğbəti yaranır. Oyun prosessində yaşlılar və uşaqlar fəaliyyəti ümumi nəticənin əldə edilməsinə yönəldərək, birgə çalışırlar. Yaşlılar daha təcrübəli və bacarıqlı olduqlarından uşaq üçün nümunə göstərirlər. Oyun istənilən mərhələdə başa çatdırıla bilər, bununla o, öz cazibəsini heç də itirmir. Yenidən oyuna qayıtdıqda isə hər şey təzədən başlanır. Oyunun həmişə nəticəsi olur, onun əsas mənası da bundadır.

Məktəbəqədər yaşlı uşaqlarla aparılan iş prosessində oyun vasitəsi ilə tərbiyə həyata keçirilir. Oyun vasitəsilə uşaqlar vərdişlərə yiyələnirlər, onların hərəkətlərində inam yaranır. Oyun situasiyalarına özünəxidmət vərdişlərinin formalaşdırılmasının yeganə vasitə kimi baxmaq düzgün deyil. Oyun bir fəaliyyət növü kimi sevinc, gümrahlıq mənbəyi olmaqla, uşaqların əqli inkişafını

təmin edir. Professor Y.Talıbov yazırdı: "Oyunsuz uşaq həyatı yoxdur". Onun fikrincə, oyun uşaqların tərbiyə mənbəyidir. Oyunda uşağın əqli, mənəvi, estetik hissləri, fiziki qüvvəsi inkişaf edir. Ətraf aləmi əks etdirən oyunlar uşağın ağlını, nitqini inkişaf etdirir, onun xəyalına, fikri əməliyyatlarına qol-qanad verir. Uşaqlar oyun prosessində oyuncaqları, ətraf aləmi diqqətlə öyrənir, əşyaların xassələri, ölçüsü, forması, rəngi, tətbiqi sahələri ilə tanış olurlar. [2, s.9]

Oyun böyüməkdə olan orqanizmin tələbatı sayıldığından onun fiziki, psixi, iradi, əqli inkişafına güclü təkan verir. Uşaq oyun prosessində əşyanı müşahidə edir, onun haqqında məlumatı dinləyir, toxunur, başqa əşyalarla tutuşdurur, aralarındakı fərqi, oxşarlığı, qanunauyğunluqları öyrənir. Deməli, oyun prosessində uşaqlar ətraf aləmlə fəal şəkildə tanış olur, onu dərk edirlər. Məhz bu baxımdan oyun əqlin inkişafı üçün güclü mənbədir. Hazırda uşaqlara fərqli materiallardan hazırlanmış müxtəlif oyuncaqlar təqdim olunur. Təəssüf ki, onların əksəriyyəti uşaqların hisslərinin, təfəkküründün, əqlinin inkişafına təsir göstərmir, çünki oyuncaqların bir çoxu onların hər gün real həyatda gördükləri əşyaların kobud, zövqsüz təsvirindən ibarətdir. Oyuncaq uşağın nitqini, əqlini inkişaf etdirməyə, onu düşünməyə, gördüyü haqqında danışmağa, öyrətməyə istiqamətləndirir. Uşaq özünü oyuncağın axtarıcısı, yaradıcısı hesab edir. Deməli, oyun uşaqların əqli inkişafına güclü təsir göstərir. Yazıçı Marsel Brenşviç demişdir: "Hansı oyunu oynadığını de, sənin kim olduğunu söyləyim". Ona görə də uşaqları daim inkişaf etdirən, fantastik aləmə, xoş gələcəyə aparan onların oyuncaqlar arasında böyümələridir.

Y.Y.Komenski "Böyük didaktika" əsərində yazırdı ki, uşaqları kiçik yaşlarından oyuna alışdırmaq lazımdır ki, kədərin, qüssənin, qəm çəkməyin, bədbinliyin nə olduğunun bilməsinlər. Oyunların növləri müxtəlidir: stolüstü, hərəkətli, süjetli-rollu, didaktik və s. Bu oyunların hər birinin uşağın əqli inkişafına müxtəlif təsiri var. Oyunlar cəmiyyətin həyatı ilə bağlı olur. Bu gün respublikanın müxtəlif bölgələrindəki xalq oyunları ancaq bizim cəmiyyətimizə aiddir. Bununla belə, yerli şəraitdən asılı olaraq, bu və ya digər oyun müəyyən bölgə üçün xarakterikdir. Uşaq oyunlarının bir çoxu nəsillər arasında varisliyin yaradılmasını təmin edir. Hər bir oyunla əlaqədar əqli inkişafın da rolu qeyd edilməlidir. Böyük qrup uşaqları arasında aparılan sorğu göstərdi ki, uşaqların 75% -ə qədəri hərəkətli oyunları çox sevirlər. Belə oyunlar bir tərəfədən fiziki tələbatı təmin edir, hərəkət, enerji sərf etməyə şərait yaradır, digər tərəfdən onların əqli inkişafına müsbət təsir göstərir. Belə oyunlar uşaqların müstəqilliyinə də yol açır, uşaqlar həm hərəkətlərində, həm də nitq fəqliyyətində sərbəst olurlar. Müstəqillik azadlığa aparan yol olduğundan insanın ən böyük arzusudur. Uşaqların sərbəst oyun fikirləşib tapmaları və onun qaydalarını tərtib etmələri mühüm məsələdir.

Həm valideynlər, həm də pedaqoqlar bilirlər ki, oyunlar uşağın intellektual inkişafı, yaradıcı qabiliyyətlərinin və təxəyyülünün formalaşdırılması üçün güclü faktordur. Ən başlıcası uşaqda qavramaya maraq oyatmaqdır. Ona görə də məşğələlər əyləncəli oyun formasında keçirilməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) "Kurikulum", – 2017.
2. Quliyev, B. Mütəhərrik və əyləncəli oyunlar. / B.Quliyev – Bakı: ADPU, – 2011.
3. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu) (3-6 yaş).
4. Hacıyeva, S.Q. Sadə riyazi təsəsvvürlərin formalaşması metodikası. / S.Q.Hacıyeva – Bakı: – ADPU, – 2019.

Məqalə pedaqogika üzrə elmlər doktoru, profesor İsmayıl Əliyev tərəfindən təqdim olunmuşdur

İlk daxilolma tarixi: 05 fevral 2022-ci il
Son daxilolma tarixi:18 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 378.147.34

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 85-88
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 85-88
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 85-88

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNDƏ SEMİNAR MƏŞĞƏLƏLƏRİNİN İNTERAKTİV TƏLİM ÜSULLARI İLƏ TƏŞKİLİ

Müəllif:

Sevinc Eylazova
Bakı Slavyan Universiteti
E-mail:
sevinc.eylazova.00@mail.ru

Açar sözlər:
seminar məşğələləri, interaktiv təlim, pedaqogika, "şaxələndirmə" üsulu, əqli hücum, müzakirə xəritəsi

Annotasiya. Elm və texnika inkişaf etdikcə cəmiyyətdə, o cümlədən təlimdə, tədrisdə yeni, fəal daha mütərəqqi üsullardan istifadə imkanları yaranır. Bizim məqsədimiz təlimdə ənənəvilərlə yanaşı müasir dövrün tələblərinə cavab verən ən optimal, yeni üsul və vasitələrdən istifadə etməklə öyrənənlərin bilik və bacarıqlara dərindən yiyələnmələrinə nail olmaqdır. XXI əsr təhsil, texnika, sürət əsri olduğundan dərslərdə texniki vasitələrdən, interaktiv təlim üsullarından daha çox istifadə etmək təlimin səmərəsini artırmağı, tələbələrin müstəqil işinin təşkili, aparılması və səmərəli nəticələnməsini şərtləndirir. Məqalədə mövzunun dinamikliyi əsaslandırılmış, problemin işlənilmə səviyyəsinə münasibət bildirilmişdir. Pedaqogika dərslərində yeni təlim texnologiyalarından istifadənin vacibliyi və keyfiyyətindən söz açılıb. Təlimdə pedaqoji fənlərin keyfiyyətinin yüksəldilməsində interaktiv təlim üsullarının rolu, mümkünlüyü, yeri və əhəmiyyəti şərh edilib.

Author:

Sevinj Eylazova
Baku Slavic University
E-mail:
sevinc.eylazova.00@mail.ru

Key word:
seminar exercises, interactive learning, pedagogy, "branching" method, brainstorming, discussion map

ORGANIZATION OF SEMINAR LESSONS AT SECONDARY SPECIALIZED EDUCATION INSTITUTIONS WITH INTERACTIVE LEARNING METHODS

Abstract: As science and technology develop, there are opportunities to use new, active, more progressive methods in society, including training and teaching. Our goal is to achieve deep acquisition of knowledge and skills by using the most optimal, new methods and tools that meet the requirements of the modern age in addition to the traditional ones. Since the 21st century is the century of education, technology, and speed, the use of technical tools and interactive teaching methods in classes increases the effectiveness of training, the organization, conduct, and effective outcome of students' independent work. In the article, the dynamism of the topic is justified, and the attitude towards the level of processing of the problem is reported. The importance and quality of using new learning technologies was discussed in pedagogy classes. The role, possibility, place and importance of interactive learning methods in improving the quality of pedagogical subjects in the training were explained.

Автор:

Севиндж Эйлазова
Бакинский славянский университет
E-mail:
sevinc.eylazova.00@mail.ru

Ключевые слова:
семинарские занятия, интерактивное обучение, педагогика, метод диверсификации, мозговой штурм, карта обсуждения

ОРГАНИЗАЦИЯ СЕМИНАРНЫХ ЗАНЯТИЙ В СРЕДНИХ СПЕЦИАЛЬНЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ С ИНТЕРАКТИВНЫМИ МЕТОДАМИ ОБУЧЕНИЯ

Аннотация: По мере развития науки и техники в обществе, в том числе в обучении, появляются возможности использования новых, активно более прогрессивных методов обучения. Наша цель - добиться глубокого усвоения учащимися знаний и умений, используя в обучении наряду с традиционными наиболее оптимальные, новые методы и средства, отвечающие требованиям современности. Поскольку XXI век - это век образования, техники, скорости, то большее использование технических средств, интерактивных методов обучения на уроках обусловливает повышение эффективности обучения, организации, проведения и эффективного результата самостоятельной работы учащихся. В статье обоснована динамика темы, выражено отношение к уровню проработки проблемы. Было высказано мнение о важности и качестве использования новых технологий обучения на уроках педагогики. В статье отмечены роль, возможность, место и значение интерактивных методов обучения в повышении качества педагогических дисциплин.

Təhsil, təlim, tərbiyə ölkənin beynəlxalq aləmdə rolunu müəyyən edən əsas amillərdəndir. Təlim prosesində tələbələrə bilikləri mənimsətmək tələbi ənənəvi təhsilin təzahürü olaraq, fəal təlimin prinsiplərinə və tələblərinə uymur. Təhsil sistemində baş verən bu dəyişikliklər, İKT-nin sürətli inkişafı pedaqogika fənninə ənənəvi yanaşmanı dəyişmiş və pedaqogika fənninin tədrisi artıq yeni mərhələyə qədəm basmışdır.

"Tədris prosesi elə təşkil olunmalıdır ki, o, idrak fəallığı, təbii öyrənmə fəaliyyəti doğursun. Tələbəyə ilk kəşf sevinci keçirməyə imkan versin, onda yeni biliklərə yiyələnmək həvəsi yaratsın" [1].

Ölkəmizdə təhsil sistemində böyük dəyişikliklər baş vermişdir. Tətbiq olunan yeni təhsil standartları, tədris və təlim prosesinin geniş miqyasda yenidən qurulmasını tələb edir ki, bunun da nəticəsi tələbələrin təhsil səviyyələrini müstəqil şəkildə yüksəltmək ehtiyacları, istək və bacarıqlarıdır. İstər orta ixtisas, istər ali təhsil müəssisələrində tələbələrlə işləyərkən tez-tez öyrənmək üçün motivasiya çatışmazlığı, özünü inkişaf etdirmə ehtiyacı, bilik əldə etmək və praktikada tətbiq etmək bacarığı ilə qarşılaşırsınız, buna görə də bu şərtlərdə yalnız ənənəvi üsullarla hazırlanmış dərslər təsirsiz qalır.

Hal-hazırda orta ixtisas məktəblərində seminar məşğələlərinin keçirilməsi prosesində yeni təlim texnologiyaları öz yerini tapmalıdır. Müasir tələbənin təlim prosesinə olan öz tələbatları vardır və ənənəvi təlim üsulları artıq lazımi keyfiyyəti vermir.

Tədris və tərbiyənin fərdiləşdirilməsini təmin etmək, tələbələrin müstəqilliyini inkişaf etdirmək, eyni zamanda sağlamlığın qorunması və möhkəmləndirilməsini təşviq etmək üçün nəzərdə tutulmuş yenilikçi üsulların və yeni pedaqoji texnologiyaların tədris prosesinə gətirilməsinə ehtiyac var. İnteraktiv üsullar bu tələbələrə tam cavab verir.

İnteraktivlik (və ya ünsiyyətə açıqlıq) bu günlərdə xüsusi əhəmiyyət kəsb edir. İnteraktiv təlim müəllim və tələbələr arasında dialoqa əsaslanan mürəkkəb qarşılıqlı bir prosesdir. Dialoqda iştirak etmək yalnız dinləmək deyil, eşitmək, yalnız danışmaq deyil, həm də başa düşmə qabiliyyətinə yiyələnməyi tələb edir.

İnteraktiv tədris üsulları çox təsirli olur, çünki yüksək motivasiyaya, tədrisin maksimum fərdiliyinə kömək edir, tələbələrin yaradıcılığı, özünü dərk etmələri üçün geniş imkanlar təklif edir. İnteraktiv üsullar məsuliyyətləri bölüşdürmək, hədəflər qoymaq, balanslı, düzgün seçim etmək, vəziyyəti təhlil etmək və riskləri qabaqlamaq qabiliyyətinin formalaşmasına kömək edir.

Fəal təlim üsullarının üstünlüyü nədir? Sualını cavablandıraq. Əvvəla, fəal təlim üsulu ilə keçirilən dərslərdə tələbələr özlərini tam rahat hiss edirlər. Tələbələrə verilən bu sərbəstlik mövzunu qavramağa geniş imkan verir. Daha dəqiq desək, tələbələr mövzunu özününküləşdirirlər. Burada ənənəvi üsulla interaktiv üsulun arasında gedən ciddi mübarizə açıq-aydın duyulur. Tələbələrin hərtərəfli inkişafı üçün interaktiv üsullar çox faydalıdır.

İnteraktiv təlim faydalı üsul kimi həm də tələbənin əqli cəhətdən yorulmalarının qarşısını alır. Bu yeni üsulla keçilən dərslərin bir üstün cəhəti də ondan ibarətdir ki, dərsin sonunda tələbələr obyektiv olaraq özü-özünü qiymətləndirir. İnteraktiv tədrisdə istifadə olunan bir çox təlim üsulları vardır. Ancaq bunlardan istifadə edərkən fənnin xarakterik xüsusiyyətlərinə, mövzuya, məqsədə və vəzifəyə uyğunluğu nəzərə alınmalıdır. Sokrat dialoqu, kipling modeli, əqli hücum, söz assosiyasiyası, proqnozlaşdırma, şaxələndirmə, frayer modeli, auksion, sinkveyn, ziqzaq, sinektika, qərarlar ağacı, müzakirə xəritəsi və digər fəal təlim üsulları dərsin cari planlaşdırılmasında istifadə edilməlidir.

Şaxələndirmə üsulu tələbələrin eyni bir mövzu, hadisə, xüsusiyyət haqqında mövcud olan biliklərinin aktivləşməsinə və sərbəst düşünməyə imkan yaradır. Bu üsul fərdi, cütlərlə, qrup şəklində həyata keçirilə bilər. Üsulun məqsədi tələbələrin mövzu barəsində əvvəlki təcrübəsini nəzərdən keçirmək, yeni söz assosiasiyaları stimullaşdırmaq, bilikləri sistemləşdirmək və əhatə dairəsini genişləndirmək, lüğət ehtiyatını zənginləşdirməkdir.

İnteraktiv təlim üsullarından biri "Əqli hücum" üsuludur. Orta ixtisas təhsili səviyyəsində seminar məşğələlərinin təşkilində bu üsuldan istifadə edilə bilər. "Əqli hücum" üsulu vasitəsilə müəllim tələbələrin şəxsi düşüncəsini inkişaf etdirir, onlarda özünə inam hissi formalaşdırır, məntiqi və tənqidi təfəkkür inkişaf edir. Bu zaman hər bir tələbə bütün problemlərin həllində iştirak edir. Üsul məntiqi və müstəqil düşünmə bacarığını, fərdi və qrup məsuliyyətini, ünsiyyət qabiliyyətini və qrupdaxili qarşılıqlı əlaqə hisslə-

rini aşılayır. Bu üsulu eyni zamanda beyin həmləsi də adlandırırlar. Tələbələrdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya pis) bildiklərini araşdırmaq məqsədilə bu üsuldan tədris zamanı geniş istifadə edilir. Hazırlanmış sual lövhədə yazılır, ya da şifahi şəkildə tələbələrin diqqətinə çatdırılır. Tələbələr suallara əsasən fikirlərini bildirirlər. Bütün idealar müzakirəsiz dinlənilir və qeyd edilir. Yalnız bundan sonra söylənmiş ideyaların müzakirəsi, şərhi başlayır. Aparıcı idealar yekunlaşdırılır, tələbələr söylənmiş fikirlərini təhlil edir və qiymətləndirir.

Aktiv və interaktiv seminarlar müxtəlif formalarda aparıla bilər: problemli mühazirə, planlı səhvlərlə mühazirə, mühazirənin vizuallaşdırılması, mühazirə-dialoq, konkret situasiyaların təhlili ilə mühazirə və s. Seminar tələbələrin tədris prosesinə fəal cəlb edilməsinin ən ümumi və nisbətən sadə formasıdır. Müəllim və auditoriya arasında birbaşa təmasdan ibarətdir.

Seminarın üstünlüyü ondan ibarətdir ki, tələbələrin diqqətini mövzunun ən vacib hissəsinə yönəltməyə, tələbələrin fərdi xüsusiyyətlərini nəzərə alaraq tədris materialının məzmunu və təqdimetmə sürətini təyin etməyə imkan verir. Hər bir tələbəni ikitərəfli fikir mübadiləsinə cəlb etmək həmişə mümkün olmadığı üçün qrup tədris mühitində mühazirənin effektivliyi azalır. Bu, ilk növbədə qrup az olsa da, vaxt çatışmazlığı ilə əlaqədardır. Eyni zamanda, qrup söhbəti tərəflərin fikirlərini genişləndirməyə, tələbələrin düşüncəsini aktivləşdirməkdə böyük əhəmiyyət kəsb edən kollektiv təcrübə və bilikləri cəlb etməyə imkan verir.

Problemli təlimin aktiv üsullarından biri kimi tədrisdə müzakirə özünəməxsus yer tutur, getdikcə daha çox istifadə olunur, dəyirmi masa, konfrans, mətbuat konfransı və s. şəklində təşkil olunur. Bu üsul bir qrup tələbələr tərəfindən məsələlərin müzakirəsi şəklində həyata keçirilir. Bu, bir qayda olaraq, ümumi bir fikrə çatmaq üçün bir prosedurdur.

"Müzakirə xəritəsi" interaktiv təlim üsullarından biridir. Orta ixtisas səviyyəsində seminar məşğələlərinin təşkilində bu üsul müvafiq formada istifadə edilə bilər. "Müzakirə xəritəsi" üsulunun məqsədi - müəyyən edilmiş mövzu, məsələ və ya problem ətrafında ideyaların, informasiyanın, təəssüratların, tənqidin və təkliflərin qarşılıqlı fikir mübadiləsidir. Müzakirə xəritəsi tələbəyə şəxsi konseptual anlayışını qurmağa, ideyalarını əsaslandırmağa, müzakirəni stimullaşdırmağa kömək edir.

Pedaqogika fənn proqramına müvafiq olaraq, "Müzakirə xəritəsi" üsulu üzrə dərs aparmaq olar. Bəs necə tətbiq edək? Bu üsuldan istifadə edərkən tələbələrə hər hansı bir mövzu, məsələ və ya problem ətrafında sual verilir.

Ardıcıllıq belə aparılır:

1) geniş spektrli sual verilir;

2) cavablar ya fərziyyələr dinlənilir;

3) deyilənlər üçün izah və əsaslandırma istənilir;

4) alternativ fikir va ideyalara sövq edilir;

5) fikirləri asas mövzuya yönəldən sual verilir;

6) müzakirənin sonunda əsas məqamlar və deyilən fikirlər ümumiləşdirilir.

İnteraktiv təlim üsulunun tədris prosesinə daxil edilməsi tələbələrin passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin, yaradıcılığının formalaşması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradaraq Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramında göstərilən demokratikləşdirmə, humanistləşdirmə, humanitarlaşdırma, diferensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya prinsiplərini həyata keçirməyə imkan yaradır.

İnteraktiv təlimin tətbiq edilməsi müəllimləri tələbəyə yönəltmiş və təhsil islahatlarının prinsiplərinə əsaslanan məqsəd və vəzifələri yerinə yetirməyə, müasir tələblərə cavab verən təlimin məzmununu yaratmağa obyektiv, çevik qiymətləndirmə sistemi tətbiq etməyə, demokratik sosial-psixoloji mühit yaratmağa sövq edir.

Bütün bu araşdırmalara diqqət etsək, görərik ki, interaktiv təlim üsulları dərsin keyfiyyətini artırmaq məqsədi ilə ən səmərəli vasitə ola bilər.

Məqalənin aktuallığı. Pedaqoji təcrübədə yeni təlim texnologiyalarının tətbiqi müasir təhsil sisteminin inkişaf etdirilməsində aparıcı amillərdən biridir.

Məqalənin elmi yeniliyi. İnteraktiv təlimin orta ixtisas təhsil sisteminə tətbiqi, tətbiqi yollarının araşdırılması və müəyyənləşdirilməsi problemin elmi yeniliyini təşkil edir.

Məqalənin praktik əhəmiyyəti. Orta ixtisas təhsili müəssisələrində seminar məşğələlərində interaktiv təlim üsullarından istifadə dərsin səmərəsini artırır, onu müasirləşdirir, tələbələrdə müstəqil fikir yürütmək bacarığını inkişaf etdirir, mövzuya marağını yüksəldir, təhsil prosesini

xeyli sadələşdirir və təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Ədəbiyyat

1. Veysova Z. Fəal-interaktiv təlim. Müəllimlər üçün vəsait / Z.Veysova. – Bakı, – 2007.
2. Ağayev Ə. Təlim prosesi – ənənə və müasirlik / Ə.Ağayev. – Bakı: Adiloğlu, – 2006.
3. Mehrabov A.O. Öyrədən və öyrənən münasibətlərinin tənzimlənməsində interaktiv üsulların rolu // "Təhsil problemləri" qəz, – 2008, 11-20 noyabr.
4. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri / A.O. Mehrabov. – Bakı: Mütərcim, – 2010.
5. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar / A.Mehrabov, Ə.Abbasov, Z.Zeynalov, R. Həsənov. – Bakı:Mütərcim, – 2006.
6. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş / Ə.Ə.Əlizadə, H.Ə.Əlizadə. – Bakı: ADPU, – 2008.
7. Sultanov R.L. Kurikulum və Bolonya prosesinə gedən yol / "Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri" mövzusunda beynəlxalq konfransın materialları. – Naxçıvan, – 2011.
8. Azərbaycan Respublikası Təhsil Nazirliyi Təhsil Problemləri İnstitutu. "Təlim prosesində yeni pedaqoji və İKT texnologiyalardan istifadənin elmi əsasları və təlimin keyfiyyətinə onların təsiri" hesabat. – Bakı, – 2012.
9. Fazilova İlahə. Yeni informasiya texnologiyalarının öyrənmə prosesinə tətbiqində müəllimin rolu / Fazilova İlahə. – Bakı, – 2015.

Məqalə pedaqogika üzrə elmlər doktoru, profesor Fərahim Sadiqov tərəfindən təqdim olunmuşdur.

İlk daxil olma tarixi: 02 fevral 2022-ci il
Son daxil olma tarixi:16 fevral 2022-ci il
Qəbul edilmə tarixi: 26 aprel 2022-ci il

UOT 378.147. 81

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 89-92
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 89-92
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 89-92

KONSEPTUALLAŞMA VƏ METONİMİYA MƏSƏLƏLƏRİNƏ DAİR

Müəllif:

Dilbər Orucova
Naxçıvan Dövlət Universiteti
E-mail:
dilbarorucova115@gmail.com

Açar sözlər:
konseptualizasiya, konsept, metonimiya, köçürmə, koqnitiv dilçilik

Annotasiya. Konseptuallaşdırma insan idrakının vacib proseslərindən biridir. Bu proses hadisənin ümumi qəbul edilmiş məlum mənasını deyil, müəyyən bir fərz edilən mahiyyətini anlamağa çalışır və nəticədə ya yeni bir mahiyyət yaranır, ya da əvvəlki mahiyyət müəyyən bir istiqamətdə genişlənir. Beləliklə, konseptuallaşdırma yeni mahiyyətlərin yaradılması prosesidir və yeni biliklərin formalaşmasını əks etdirir. Konseptuallaşdırmada idrak qavrayış obyektinin müxtəlif aspektlərinə, eləcə də bütövlükdə obyektin özünə diqqət yetirir. Qeyd etmək lazımdır ki, qavrayış obyektləri fərqlidir və onların fraqmentləri kəmiyyət və keyfiyyət baxımından fərqlənir. Təbiət, cəmiyyət, həyat, ölüm, xoşbəxtlik, bədbəxtlik, din, müharibə, cins, kişi, qadın, sərvət, dil və s. qavrama obyekti ola bilər.

Author:

Dilbar Orujova
Nakhchivan State University
E-mail:
dilbarorucova115@gmail.com

Key word:
conceptualization, concept, metonymy, transfer, cognitive, linguistics

ON THE İSSUES OF CONCEPTUALİZATİON AND METONYMY

Abstract. Conceptualization is one of the important processes of human cognition. This process tries to understand not the generally accepted known meaning of the phenomenon, but a certain assumed essence, and as a result either a new essence is created or the previous essence is expanded in a certain direction. Thus, conceptualization is the process of creating new essences and reflects the formation of new knowledge. In conceptualization, cognition focuses on various aspects of the object of perception, as well as the object itself as a whole. It should be noted that the objects of perception are different and their fragments differ in terms of quantity and quality. Nature, society, life, death, happiness, unhappiness, religion, war, gender, male, female, wealth, language, etc. can be an object of perception.

Автор:

Дильбар Оруджева
Нахчыванский государственный университет
E-mail:
dilbarorucova115@gmail.com

Ключевые слова:
концептуализация, концепт, метонимия, перенос, когнитивная лингвистика

К ВОПРОСАМ КОНЦЕПТУАЛИЗАЦИИ И МЕТОНИМИИ

Аннотация: Концептуализация - один из важных процессов человеческого познания. Этот процесс направлен на понимание сути того или иного предсказания, а не общепринятого известного значения события, и в результате либо возникает новая сущность, либо предыдущая сущность расширяется в определенном направлении. Итак, концептуализация - это процесс создания новых сущностей и отражает формирование новых знаний. В концептуализации познание фокусируется на различных аспектах объекта восприятия, а также на самом объекте в целом. Следует отметить, что объекты восприятия разные, а их фрагменты различаются по количеству и качеству. Природа, общество, жизнь, смерть, счастье, несчастье, религия, война, секс, мужчина, богатство, язык и так далее. может быть объектом восприятия.

Son dövrlərdə bu və ya digər hadisənin, predmetin və s. dildə ifadəsinin semantik strukturu məsələsinin aydınlaşdırılmasına diqqət xeyli dərəcədə artırılmışdır. Bu məsələ gerçəkliyin və ya onun müəyyən fraqmentinin konseptuallaşdırılması kimi dəyərləndirilir. Dil konseptuallaşdırılmasının nəticəsi konseptual struktur şəklində təzahür edir. Konseptual struktur öz maddi formasına görə semantik strukturla eyniyyət təşkil etsədə, funksional cəhətdən ondan fərqlənir. Həmin fərq eyni bir dildənkənar reallığın alternativ konsepti ilə ifadə olunmaqla əlaqədardır. Son illərə qədər dilçilikdə forma ilə məzmun arasındakı münasibətə diqqət yetirilirdi. Söyləmin gerçəkliyə münasibəti, daha dəqiq desək, referensiyanın linqvistik nəzəriyyəsinin mahiyyətini təşkil edən bu məsələ leksik və semantik semantikadan asılı olmadan öyrənilirdi.

Eyni bir hadisə haqqında eyni bir kontekst çərçivəsində müxtəlif fikirlər ortaya atıla bilər. Məsələn "traktorlar tarlaya çıxdı" və "traktorlar tarlanı şumlayır" cümlələrində gerçəkliyin eyni bir fraqmentindən – tarlaların şumlanmasından bəhs olunur. Buna baxmayaraq, gerçəkliyin eyni bir fraqmenti müxtəlif şəkildə konseptuallaşdırır. Hər bir konseptuallaşma öz söyləmi əsasında aşkara çıxır. Mahiyyət etibarı ilə burada "əkin" konsepti aktualdır. Fərqli şəkildə konseptuallaşmada konseptlə denotat münasibəti real olaraq aşkara çıxmır. Fərqli konseptuallaşmazamanı fərq qiymətləndirmə və diqqət hədəfində özünü göstərir. İnsanın gerçəkliyə konseptual yanaşmasında diqqət mərkəzinə çəkilən obyekt dəyişir. "Traktorlar tarlaya çıxdı" cümləsində fokus nöqtəsində, ilk baxışdan "traktorlar" durur.Lakin baş vermiş və ya baş verən hadisədə diqqətin fokuslanması ötürən informasiyadan asılı olur. Xəbər, yaxud məlumat yalnız hadisənin təsviri ilə bitmir. İnsanın düşüncə tərzi real situasiya ilə bağlı ötürülən informasiyanın məqsədini aydınlaşdırır. Traktorların tarlaya çıxması zaman və məkan komponentlərinə malikdir. İnsan baş verən hadisəni qiymətləndirir, onu öz düşüncə süzgəcindən keçirir. Traktorun və ya traktorların tarlaya çıxması hadisəsində onların, yəni traktorların görəcəyi iş də əsas yeri tutur. Deməli, traktorların tarlaya çıxması, tarlanın şumlanması ilə bağlıdır. Şumlama "əkin" üçün ilkin hadisədir. Yəni tarla əvvəlcə şumlanmalı, sonra malalanmalıdır. Yalnız bundan sonra səpin hadisəsi reallaşdırıla bilər. Konseptuallaşma müəyyən parametrə görə, konsepti dəyişmək imkanına malikdir.Hər bir söyləm müəyyən konseptual struktur əmələ gətirir. Konseptual yanaşma söyləmlə ötürülən informasiyanı qiymətləndirməklə ona yaxın situasiyaya aid konseptual strukturu aktuallaşdırmağı nəzərdə tutur. Bu şəkildə yanaşma konseptual strukturlaşdırma ardıcıllığı əmələ gətirir. Nəticədək strukturlar ardıcıllığı formalaşır. Bu k strukturlar həm informasiyanı ötürənin, həm də onu qəbul edənin idrak sahəsində yer alır. Burada bir cəhət də xüsusi nəzərə alınmalıdır.Yəni biz k strukturların formalaşmasına təsir göstərən ekstralinqvistik alimləri də diqqət mərkəzinə çəkməliyik. Yuxarıdakı nümunlərdə belə funksiyanı yerinə yetirən əsas ekstralinqvistik amil informasiyanın ötürülmə zamanıdır. İnsan bu amilə istinadla əkin, səpin və ya biçin konseptlərini qurur. Vacib məqamlardan biri ondan irəli gəlir ki, insan əsas konsepti müəyyənləşdirərkən insan haqqında danışılan hadisənin konseptini təyin edir, ona yaxın olan və nəzərdə tutulan konseptləri isə kənarə qoyur. Məsələn, əgər əkin vaxtıdırsa, səpin konsepti ikinci mövqeyə keçir. Əgər səpin vaxtıdırsa, əkin konsepti arxa planda qalır. Real gerçəklik hadisələri gələcəyə yönəldiyinə görə, baş vermiş deyil, baş verəcək hadisələri aktuallaşması və k strukturlarda yer alması hadisəsi müşahidə olunur. Yəni səpin konsepti daha əvvələ aid olan şumlama hadisəsini kənara qoyur. Gerçəklik fraqmentlərinin hər cür konseptuallaşması zamanı reallığın bir sıra aspektləri vurğulanır, aktuallaşır, digərləri zəifləyir, fon mövqeyinə keçirlər. Nəticədə gerçəkliyin sxemləşdirilməsi baş verir (Borşev, Parti 1999, s. 163). Müəyyən hadisənin konseptuallaşması zamanı digər hadisələrin zəifləməsi, yaxud fon mövqeyinə keçməsi canlandırılmış kontekst daxilində implisit şəkildə iştirak edir. Zəifləyən aspektlər hissə-tam, parametr-məna, səbəb-nəticə kimi məsələlərlə bağlıdır. Bu isə metonimiya hadisəsini doğurur, fon qarşıdurması əmələ gətirir (Tabti 1983, s. 127, Langacher1987).

R.S.Cəkendof konseptuallaşdırmada fiqur–fon qarşılaşdırılmasını izah edərkən "Pişik xalçanın üstündə oturub" cümləsini təhlilə cəlb etmişdir. Bu cümlədə iki obyekt - pişik və xalça vardır. Diqqət mərkəzində olan pişikdir. Xalça isə məkan sahəsi kimi konseptuallaşdırılır. Belə konseptuallaşdırma pişiyi diqqət mərkəzində qoyur. Sintaktik münasibəti dəyişdikdə "xalça pişiyin altındadır" cümləsi alınır.Məsələyə konkret

dil prizmasınan yanaşdıqda bu cümlə müəyyən qədər qəribə səslənir. Mental münasibət, dərketmə məkan münasibətlərini implisit və ya eksplisit nəzərə nəzərə almağı tələb edir. Xalçanın ölçülərinə görə pişikdən böyüklüyü insan təfəkküründə yer almış, onun təcrübəsi əsasında təyin edilmişdir. Kiçik ölçülü olanın yerini böyük ölçülü məkan əsasında təyin edilməsi qəbul edilmişdir. Ona görə də, "pişik xalçanın üstündə oturub" düzgün təsvirdir. "Xalça pişiyin altındadır' cümləsi sanki pişiyin ölçülərini böyüdür, xalçanın ölçülərini isə azaldır. Buradan belə nəticə çıxır, bəzi konseptuallaşdırmaların dildə ifadəsi təbii səslənir, digərlərində isə belə təbiilik yoxdur (Jackendoff 1996, s 544).

Gerçəkliyin konseptuallaşdırılmasının mümkün potensialı dildən əhəmiyyətli dərəcədə asılıdır. Bəzi dillərdə təsvir olunan fiqurun diqqət mərkəzinə çəkilməsi vacib deyildirsə, başqa dillərdə bu zəruridir.

Metonimiya nitqin vacib fiqurlarından biri olub, məkanının köçürülməsinə əsaslanır. Ənənəvi olataq metonimiya – (yun. metonymia- təkrar adlandırma) müəyyən sinfə aid obyektlərin, yaxud tək obyektin adının başqa sinfə aid obyektlərə və ya tək obyektə müntəzəm və ya okkozional köçürülməsidir. Bu zaman adın köçürüldüyü obyektlə köçürülən adın obyekti arasındakı müştərəklik, oxşarlıq, yaxud eyni hadisədə iştirak mövcud olmalıdır. (Linqvistiçeskiy ensikloped)

Metonimiya sözün lüğəvi və kontekstual mənaları arasındakı münasibətə söykənir və anlayışın verilmiş mənalarında onları əlaqələndirən müəyyən assosisiyalara əsaslanır. Bu mənaların qarşılıqlı əlaqələri aydın olur (Galperin 1977, s. 144).

Bəzi tədqiqatçılar metonimiyanı nitq fiqurlarına aid edirlər. Metonimiyada real gerçəklikdə iki obyekt arasındakı əlaqəyə, müştərəkliyə əsaslanan keyfiyyət üzrə adın köçürülməsi baş verir (Skrebnev 2000, s. 108).

Metonimiyada ənənıvi yanaşmada onun nitq fiquru kimi qəbul edilməsi, mənaların müştərəkliyinə əsaslanan üslubi informasiya daşımasının həlledici olmasına istinad edilməsi bu fiquru leksik səviyyə ilə məhdudlaşdırır. Yəni belə hesab edilir ki metanomiya leksik səviyyənin vahidi olub, üslubu əhəmiyyət daşıyır.

Dilin koqnitiv səviyyədə öyrənilməsində dil fəaliyyəti insanın ümumi koqnitiv fəaliyyətinin bir mövü kimi götürülür. Dil hadisələrinin əsasında qavrama, dərk etmə, idrak, anlama və izah etmə kimi koqnitiv proseslər durur. Koqnitiv linqvistikada ilkin olan insan şüurundakı koqnitiv strukturlar və proseslər hesab edilir. Bunlar kateqoriya, konsept, freym, ssenari, model və s. anlayışları əhatə edir.

Dilçilik, psixologiya, psixolinqvistika və ədəbiyyatşünaslıq tədqiqatlarının nəticələri metonimiyadan insanın gündəlik düşüncə tərzinin əsasında duran koqnitiv fenomen kimi danışmağa əsas verir. Dildə metonimiya dilin konseptual mahiyyətinin əks etdirən vasitədir. Bu cəhət metonimiyanın əsas rolunun referent funksiyasını yerinə yetirmək olması haqqında fikirləri təkzib edir. Metonimiya metafora kimi insan idrakını konseptullaşdırma və kateqoriyalaşdırma kimi koqnitiv proseslərdə iştirak edir. Metonimiyaya aid müasir tədqiqatlar ona obrazlı nitq hadisəsi olaraq yanaşmaq hüdudlarından kənara çıxır.

C.Lakof və M.Conson metonimiyanın metafora kimi insanın dünyanı dərk etməsinin qurulmasının ən güclü aləti olduğunu qeyd etmişlər. Onlar belə hesab etmişlər ki, metonimiya dərk edilən obyektin başqa obyektə münasibətdə qavranmasına imkan verir. Bundan əlavə metonimiya konseptləri, yalnız dili deyil, təfəkkürü, münasibəti və fəaliyyəti strukturlaşdırır.(Lakoff, Conson, s. 37)

R.Lanqager metonimiyanı bir konsentin başqa bir konsent vasitəsilə dərk edilməsi şəklində gedən koqnitiv proses kimi izah etmiş, onu koqnitiv dilçiliyin vahidi hesab etmişdir (Langacker, s. 30). R.Langakerdən fərqli olaraq A.Blank metonimiyaya koqnitiv freym elementləri arasındakı konseptual münasibətlərə əsaslanan linqvistik vaditə adlandırmışdır(Blank , s. 174)

Metonimiyanın ənənəvi və koqnitiv nəzəriyyələri vardır. Bununla yanaşı, metonimiyanın ənənəvi və koqnitiv qavramı arasında heç bir fərqin olmadığı da qeyd edilir. Bu cür yanaşmalarda ənənəvi dilçiliyin "effekt üçün səbəb", "yerləşdirilənlər üçün konteyner" kimi konseptual anlayışlara istinad edilməsi də müşahidə olunur. Əsas ziddiyyət metonimiyanın təsvirindən irəli gəlir. Ənənəvi dilçilik üçün metonimiya bir-biri ilə müəyyən əlaqəsi, bağlılığı olan iki predmetdən birini digəri ilə ifadə etməkdir. Bu onu göstərir ki, metonimiya adlar səviyyəsində fəaliyyət göstərir, bir adın digəri ilə əvəzolunma prosesini əhatə edir. Bu zaman iki predmetin bağlılığı nəzərə alınır. Metonimiyaya koqnitiv mövqedən

yanaşmada başqa amillərə də istinad olunur. Metonimiyaya koqnitiv proses kimi baxılır. Bu prosesdə vasitə, yaxud ötürücü olan bir konseptual birlik başqa bir konseptual birliyə mental keçidi təmin edir. Hər iki konseptual birlik vahid ideallaşdırılmış koqnitiv model daxilində yerləşir.

Metonimiyaya koqnitiv yanaşma 3 postulata əsaslanır:1)metonimiya konseptual fenomendir; 2)metonimiya koqnitivv prosesdir; 3)metonimiya ideallaşdırılmış koqnitiv model daxilində fəaliyyət göstərir (Radden, Kovecses, s. 17–61).

Q.Radden və Z. Koveksisin irəli sürdüyü hər üç postutalat müəyyən şərh tələb edir. Hər şeydən əvvəl, metonimiyanın konseptuallığını nəzərdən keçirək. Metonimiya dil səviyyəsində predmentin adını ifadə edir və bu zaman adın necə yaranması, meydana gəlməsi haqqında məlumat da mövcud olur. Deməli, metonimiya həm də sözün leksik mənasının əsasında duran konsentə də işarə edir. Bu isə koqnitiv səviyyənin göstəricisidir.

Ədəbiyyat

1.Jackendoff R.S. Semantic and Cognition // The Handbuk of Contenporary Somantic Theory. Oxford, UK: Blackwell, 1996. Pp. 539 – 559.
2.Talmy L.How language structures space // Spatial oriantation. Theory, Reserch, and Application New York: Plenum Press, 1983. Pp.225-282
3.Langacker R.A Foundations of Cognitive Grammar Vol.1.Stanford .1987
4.Galperin I.R. Stylistics. Moscow: Higher Scholl, 1977,-p.
5.Skrebnev Y.M. Fundamentals of English Stylistic . Moscow: Higher School, 2000,- P.
6.Blank A. Co –presence and succesion: A cognitive typology of metonymy //in Language and Thought. Amsterdam/ Philadelphia: John Benjaimns, 1990, Pp.169-191
7.Алефиренко, Н.Ф. Язык, познание и культура: Когнитивно-семиологическая синергетика слова: Монография / Н.Ф. Алефиренко. -Волгоград: Перемена, 2006. - 228 с.
8.Болдырев Н.Н. Когнитивная семантика: курс лекций по английской филологии. – Тамбов: Изд-во Тамб. Ун-та, 2001. — 123с.
9.Вежбицкая, А. Семантика, культура и познание: общечеловеческие понятия в культуроспецифичных контекстах / А. Вежбицкая. Thesis. Вып. 3. М., 1993. С. 185-206
10.Воркачев, С.Г. Концепт счастья в русском языковом сознании: опыт лингвокультурологического анализа: Монография / С.Г. Воркачев. Краснодар: Техн. ун-т КубГТУ, 2002. 140 с.

Məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Quliyev tərəfindən təqdim olunmuşdur

İlk daxilolma tarixi: 04 fevral 2022-ci il
Son daxilolma tarixi:16 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 378.147+004.9

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 93-95
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 93-95
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 93-95

ORTA İXTİSAS VƏ ALİ TƏHSİL SİSTEMİNİN TƏDRİS PROSESİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ

Müəllif:

Gülər Əsədova
Naxçıvan Müəllimlər İnstitutu

E-mail:
guleresedova2018@gmail.com

Açar sözlər:
informasiya inqilabı, informasiya texnologiyaları, fərdi kompüter, təhsil sistemi, orta ixtisas təhsili

Annotasiya. Məqalə orta ixtisas və ali təhsil sisteminin tədris prosesində müasir informasiya texnologiyalarından istifadəyə, tələbələri özünütəhsil və özünüinkişafa həvəsləndirmək, davamlı təhsil sistemində onların kompüter savadlılığını və İKT səriştəsini yüksəltməyə həsr edilmişdir. Yeni minillik informasiya inqilabı informasiya cəmiyyətinə keçid prosesində təhsilin əsas məqsədini dəyişir ki, bu da təkcə materialın mənimsənilməsindən ibarət deyil, həm də tələbələrin özünütəhsilini həyata keçirməsi və öz müqəddəratını təyin etməsi üçün şəraitin təmin edilməsindən ibarətdir. Yeni nəslin təhsil sistemində şagirdlər müəllimin təsir obyekti kimi deyil, idrak fəaliyyətinin subyekti kimi çıxış edirlər. İnformasiya inqilabı sayəsində biz media ilə doymuş və bəzən həddindən artıq doymuş qlobal və mürəkkəb cəmiyyətdə yaşayırıq. Müasir dünyanı informasiya texnologiyaları olmadan təsəvvür etmək mümkün deyil. Kompüter texnologiyaları insan həyatının bütün sahələrində, ticarətdən tutmuş turizmə qədər istifadə olunur.

Author:

Gülar Asadova
Nakhchivan Teachers` Institute

E-mail:
guleresedova2018@gmail.com

Key word:
information revolution, information technologies, personal computer, education system, secondary education

USE OF INFORMATION TECHNOLOGIES IN THE EDUCATIONAL PROCESS OF THE SECONDARY AND HIGHER EDUCATION SYSTEM

Abstract. The article is dedicated to the use of modern information technologies in the teaching process of the secondary and higher education system, encouraging students to self-education and self-development, and improving their computer literacy and ICT competence in the continuous education system. The information revolution of the new millennium changes the main purpose of education in the process of transition to the information society, which consists not only in mastering the material, but also in providing conditions for students to carry out self-education and self-determination. In the educational system of the new generation, students act not as the object of the teacher's influence, but as the subject of cognitive activity. Thanks to the information revolution, we live in a global and complex society saturated and sometimes oversaturated with media. It is impossible to imagine the modern world without information technologies. Computer technologies are used in all areas of human life, from commerce to tourism.

Автор:

Гюлер Асадова
Нахчыванский институт учителей

E-mail:
guleresedova2018@gmail.com

Ключевые слова:
информационная революция, информационные технологии, персональный компьютер, система образования, среднее специальное образование

ИСПОЛЬЗОВАНИЕ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ СИСТЕМЫ СРЕДНЕГО СПЕЦИАЛЬНОГО И ВЫСШЕГО ОБРАЗОВАНИЯ

Аннотация: Статья посвящена использованию современных информационных технологий в учебном процессе системы среднего специального и высшего образования, мотивации учащихся к самообразованию и саморазвитию, повышению их компьютерной грамотности и ИКТ-компетентности в системе непрерывного образования. Новое тысячелетие информационная революция в процессе перехода к информационному обществу меняет главную цель образования, которая заключается не только в усвоении материала, но и в обеспечении условий для осуществления учащимися самообразования и самоопределения. В системе образования нового поколения учащиеся выступают не как объект воздействия учителя, а как субъект познавательной деятельности. Благодаря информационной революции мы живем в глобальном и сложном обществе, насыщенном средствами массовой информации, а иногда и перенасыщенном. Современный мир невозможно представить без информационных технологий. Компьютерные технологии используются во всех сферах жизни человека, от торговли до туризма.

İnformasiya texnologiyası (İT) verilənləri və ya məlumatı saxlamaq, emal etmək, ötürmək və idarə etmək üçün kompüterlərdən istifadə texnologiyasıdır.

İnformasiya isə kommunikasiya texnologiyalarının (İKT) tərkib hissələrindən biridir. Hal-hazırda "informasiya texnologiyası" kimi bir anlayış ən çox kompüter və kompüter şəbəkələrinin sinonimi kimi istifadə olunur. İnformasiya texnologiyaları bir çox fəaliyyət sahələrini əhatə edir: elektronika, proqram təminatı, internet, elektron ticarət, telekommunikasiya avadanlığı. İnformasiyanın saxlanması və emal texnologiyaları əsasında aşağıdakı növləri vardır:

– İnformasiya texnologiyasının inkişaf mərhələsi: ilkin mexaniki texnologiyalar (e.ə. 3000 -1840)- mexaniki texnologiya;

– elektromexaniki texnologiyalar (1840-1940);

– elektron texnologiyalar (1940 - bizim dövrümüz) [1].

Bu gün mobil telefonlar, fərdi kompüterlər, portativ qurğular, elektron poçt və internet həyatı-mızın ayrılmaz hissəsinə çevrilib. İnformasiya və kommunikasiya texnologiyaları insanların tez və effektiv şəkildə qarşılıqlı əlaqə qura və ünsiyyət qura bildiyi cəmiyyətin inkişafında böyük sıçrayış edib. İKT aşağıdakı xüsusiyyətlərə malikdir.

İnformasiya texnologiyaları: təlim prosesində tələbələrin idrak fəaliyyətini rasional təşkil etmək;

Multimedia kontekstində tələbənin hissiyyat qavrayışının bütün növlərini cəlb etməklə və intellektini yeni konseptual vasitələrlə silahlandırmaqla öyrənməni daha effektiv etmək;

Hər bir insana öz öyrənmə yolunu təmin edən açıq təhsil sistemi qurmaq;

Müxtəlif qabiliyyətli uşaqları fəal təhsil prosesinə cəlb etmək və öyrənmə tərzi;

Təhsil prosesini fərdiləşdirməyə və prinsipcə yeni idrak vasitələrinə müraciət etməyə imkan verən kompüterin spesifik xüsusiyyətlərindən istifadə etmək [2].

"21-ci əsrin rəqəmsal mediası yazının əsrlər boyu olduğu kimi intellektual iş üçün təbii mühitdir" fikri ilə təhsil sahəsində çalışan bir çox pedaqoq razılaşır [3]. Ona görə də hazırda informasiya vasitə-lərinə əsaslanan orta ixtisas və ali təhsilin formalarının, məzmununun və metodlarının dəyişdirilməsi kimi başa düşülən təhsilin informasiyalaşdırılmasına böyük diqqət yetirilir. Təhsildə yeni informasiya texnologiyalarından istifadə, təhsil almaq üçün tamamilə yeni üsullar, müasir kompüterlərin və telekommunikasiya cihazlarının imkanları nəzərdə tutulur. Onlar aşağıdakı məqsədlərə nail olmaq məqsədi daşıyır:

– İnformasiya ilə işləməyi öyrənmək, ünsiyyət bacarıqlarını inkişaf etdirmək;

– Tədris materialının inkişafı;

– Tədqiqat bacarıqlarının formalaşdırılması, müstəqil optimal qərarlar qəbul etmək bacarığı;

– İnformasiya cəmiyyəti şəxsiyyətinin formalaşması [4].

Müasir texnologiyalar informasiya və medianın əvəzsiz mənbəyidir. Ali və orta təhsil müəssi-sələrində informasiya texnologiyalarından istifadə etməklə tələbələr müxtəlif üsullarla məlumatı qəbul etməyi, emal etməyi və mübadilə etməyi, nəticə və ümumiləşdirmələr aparmağı öyrənirlər. Beləliklə, kompüterdən öyrənmə vasitəsi kimi istifadə prioritet rol oynayır. Fərdi kompüter və periferik qurğular-dan istifadə edən metodlar ənənəvi tədris metodlarından bir sıra üstünlüklərə malikdir: öyrənilən materialın həcmini və mənimsənilməsi asanlığını artırmağa imkan vermək; dilçilik sahəsində bacarıqların formalaşmasına kömək etmək, modullaşdırmaq kommunikativ vəziyyətləri, nitq və dil hərəkətlərini optimallaşdırmaq; müxtəlif növ nitq fəaliyyətini öyrətməyə imkan vermək: tələbələrin idrak fəaliyyətini artırmaq və mövzuya marağı qorumaq; fərdi yanaşmanın həyata keçirilməsini və müstəqil inkişafı təmin etmək; tələbələrin sosial-mədəni səriştəsini inkişaf etdirmək üçün effektiv üsul olan internetdən istifadə etməyə imkan vermək.

İnternet və onun alətləri (elektron poçt, çatlar, forumlar, veb-kvestlər, bloqlar və s.) kimi informasiya texnologiyalarının unikal imkanları tələbələrin mədəniyyətlərarası ünsiyyət bacarıqlarının inkişafına kömək edir, onların mədəni şüurunu artırır və əldə etdikləri məlumatlardan istifadə etmək imkanı verir. Real həyat situasiyalarında bilik, bacarıq və bacarıqlara yiyələnir və öyrəndikləri və mənimsədikləri materialın mücərrəd deyil, əsaslı tətbiqi və mənası olduğunu hiss edirlər. İnternetə çıxış maraqlı və effektiv dərslərin keçirilməsi üçün lazım olan məlumat çatışmazlığı problemini praktiki olaraq aradan qaldırır. İnternet müxtəlif layihələrdə iştirak et-

mək imkanı verir, istifadəçilərə əsas tədris materialına əlavə kimi istifadə oluna bilən müxtəlif məlumat və resurslar təklif edir [5]. Amma təbii ki, müəllimlər unutmamalıdırlar ki, qlobal internet həm də mənbədir. Yanlış, bəzən zərərli məlumatları olan tələbələr optimal nəticələr və daha faydalı məlumat əldə etmək üçün bu şəbəkədən düzgün istifadə etməyi öyrənməlidirlər.

Hazırda orta ixtisas təhsili müəssisələrinin cari vəzifələri bunlardır:

• müəssisənin vahid informasiya və təhsil mühitinin inkişafı;

• təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə müasir informasiya-kommunikasiya texnologi-

yalarından istifadə üsullarının işlənib hazırlanması və onların tədris prosesində tətbiqi;

• nəşr vasitəsilə təhsil məlumatlarının təhlili və yoxlanılması;

• audiovizual proqramlar, elektron poçt, informasiya axınlarının təşkili, informasiya mədəniyyə-

tinin və kompüter qrafikasının formalaşması və inkişafı;

• tələbələrin, müəllimlərin və idarə heyyətinin potensialı; vahid istifadəçi məlumat sisteminin hazırlanması.

Hal-hazırda çoxlu müxtəlif müasir multimedia tədris vəsaitləri mövcuddur ki, burada müəllimlər hər yaşda və müxtəlif bilik səviyyələrində olan tələbələr üçün çalışmalar tapa bilərlər. Multimedia təlim proqramlarında müxtəlif tədris metodlarından istifadə olunur. Onlar tanışlıq, təlim, sınaq zamanı tələbələrin bilik və bacarıqlarına nəzarət, tədris prosesinin monitorinqi, bu tip tədris vəsaitlərinin didaktik material kimi hazırlanmasına imkan verir [6].

Ədəbiyyat

1. Grigoriev, S.G. Grinshkun V.V. Dərslik - Təhsilin informasiyalaşdırılması təlim sisteminə doğru bir addım // Məktəb dərsliyinin problemləri: məqalələr toplusu. elmi tr - M.: ISMO PAO, – C. 219
2. İnteraktiv WEB saytları / A. A. Prokin, V. A. Bogatyrskaya, E. S. Sergu - No 4 (19). - S. – 200.
3. Dergacheva, L. M. Didaktik oyunlardan istifadə əsasında informatikanın öyrənilməsində məktəblilərin tədris fəaliyyətinin aktivləşdirilməsi. müəllif. dis. ... cand. ped. Elmlər. – M., Telegin A. A. Müəllimlərə informatikada elektron təhsil resurslarının inkişafı tədrisinin metodik sisteminin təkmilləşdirilməsi: dis. ... cand. ped. Elmlər. – M. – 172 s.
4. Tixonov, A.N. "Təhsil və elmdə informasiya texnologiyaları və telekommunikasiya", beynəlxalq elmi konfransın materialları/ FGU GNII ITT <<İnformatika>>-M.: EGRI, 2007. - 222 s.
5. Effektiv WEB saytının yaradılmasının əsasları / A. A. Prokin, V. A. Bogatyrskaya, E. S. Serquşina, V. Yu. Klipikov // E.
6. Creative Commons Attribution 4.0 International (CC BY 4.0) Konsepsiya, elmi və metodik elektron jurnal, – 2019 Prokin A.A., Veçkanova E.A., Fadeeva K.A., – 2019.

Məqalə pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 17 fevral 2022-ci il
Son daxilolma tarixi:01 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 159.9+37.015.32

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 96-100
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 96-100
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 96-100

MÜƏLLİM - ŞAGİRD MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ TƏHLİLİ

Müəllif:

Salatın Hacıyeva
Naxçıvan Müəllimlər İnstitutu
Psixologiya üzrə fəlsəfə doktoru, dosent

E-mail:
salatinhaciyeva@mail.ru

Açar sözlər:
müəllim, şagird, münasibət, təlim, pedaqoji ünsiyyət

Annotasiya.Məqalə müəllim-şagird münasibətlərinin psixoloji təhlilinə həsr olunub. Qeyd edilir ki, səmərəli təşkil edilmiş pedaqoji ünsiyyət müəllimlə uşaqlar arasında real psixoloji əlaqənin yaranmasına zəmin yaradır. Pedaqoji ünsiyyət həm də təlim-tərbiyə prosesində şagird şəxsiyyətinə təsir etmək üçün ən önəmli vasitələrdən biridir. Pedaqoji ünsiyyətin hansı növündən istifadə edilməsindən asılı olmayaraq müəllimin şagird kollektivi ilə məhsuldar ünsiyyət prosesi təşkil olunmadan pedaqoji fəaliyyətin didaktik və tərbiyəvi vəzifələrini lazımi şəkildə həyata keçirmək mümkün deyildir. Bütün bu halların hamısında pedaqoji ünsiyyətin yüksək səviyyədə təşkili tələb olunur. Müəllim müəyyən sahəyə aid dərin biliyə yiyələnməklə yanaşı, elə bilik, bacarıq və vərdişlərə malik olmalıdır ki, onların köməyilə şagirdlərə təsir göstərə bilsin, şagird kollektivindəki qarşılıqlı münasibətləri fəal şəkildə idarə edə bilsin. Bunlar isə səmərəli pedaqoji ünsiyyətin olması deməkdir. Müəllimlərin danışıq tərzi, şagirdə yanaşması, baxış tərzi, istifadə etdiyi sözlər, səs tonu və s. davranışları şagirdlərin tərbiyəsində mühüm rol oynayan önəmli məqamlardır.

Psychological analysis of teacher-student relations

Author:

Salatin Hajiyeva
Nakhchivan Teachers Institute
Doctor of philosophy in psychology, associate professor

E-mail:
salatinhaciyeva@mail.ru

Key word:
relation, training, pedagogical communication

Abstract. The article is devoted to the analysis of the teacher-student relationship. It is noted that effectively organized pedagogical communication lays the foundation for the creation of a real psychological relationship between the teacher and the children. Pedagogical communication is also one of the most important means to influence the student's personality in the educational process. Regardless of what type of pedagogical communication is used, it is impossible to properly implement the didactic and educational tasks of the pedagogical activity without organizing a productive process of communication between the teacher and the student collective. In all these cases, a high level of organization of pedagogical communication is required. In addition to acquiring in-depth knowledge of a certain field, a teacher must have such knowledge, skills and habits that he(she) can influence students with their help and actively manage mutual relations in the student body. These mean effective pedagogical communication. The way teachers speak, their approach to students, their way of looking, the words they use, their tone of voice, etc. behaviors are important points that play an important role in the education of students.

Психологический анализ отношений между учителем и учеником

Автор:

Салатын Гаджиева
Нахчыванский институт учителей
Доктор философии по психологии, доцент

E-mail:
salatinhaciyeva@mail.ru

Ключевые слова:
учитель, ученик, отношение, обучение, педагогическое общение

Аннотация. Статья посвящена психологическому анализу отношений учителя и ученика. Отмечается, что эффективно организованное педагогическое общение создает основу для формирования реальной психологической связи между учителем и детьми. Педагогическое общение также является одним из важнейших средств воздействия на личность учащегося в процессе обучения и воспитания. Независимо от того, какой вид педагогического общения используется, невозможно адекватно реализовать дидактические и воспитательные задачи педагогической деятельности без организации процесса продуктивного общения учителя с коллективом учащихся. Во всех этих случаях требуется высокий уровень организации педагогического общения. Помимо приобретения глубоких знаний в определенной области, учитель должен обладать такими знаниями, умениями и навыками, чтобы с их помощью оказывать влияние на учащихся, активно управлять взаимодействием в коллективе учащихся. А это означает наличие эффективного педагогического общения. То, как учителя говорят, их подход к ученику, их взгляд, слова, которые они используют, тон голоса и другие элементы их поведения - важные моменты, которые играют незаменимую роль в воспитании учащихся.

Təlim və tərbiyə prosesində müvəffəqiyyətin qazanılması müəllim-şagird arasındakı münasibətin xarakterindən çox asılıdır. Şübhəsiz ki, öz məktəb illərini və müəllimlərlə qarşılıqlı münasibətlərini unutmayan və ali məktəbi yenicə bitirən hər bir gənc müəllim məktəbə gəlincə öz şagirdləri ilə ən yaxın dost olacağı, onları anlayacağı və dəstək olacağı, onlara istiqamət göstərəcəyi ilə bağlı xəyallar qurur. Lakin məktəbin astanasına ayaq basıb, bir müddət işlədikdən sonra gənc müəllim xəyallarını gerçəkləşdirməyin o qədər də asan olmadığını anlayır və hətta onun xəyallarını və məktəbdə işləmək arzusunu puç edən bir sıra problemlərlə qarşılaşır. Bu problemlər isə yalnız fənnin tədrisi, hər hansı bir sənədin yazılması, dərsdəki intizam-intizamla deyil, əsasən müəllimlərin şagirdlərlə, bəzən də iş stajı çox olan müəllimlərlə düzgün ünsiyyət qura bilməməsi ilə əlaqədar olur.

Antuan de Sent-Ekzüperi insanlar üçün ünsiyyəti dünyanın ən böyük sərvəti adlandırmışdır. Lakin ünsiyyət bir halda "sərvət", digər halda isə peşəkarlıq zərurətidir. Müəllim əməyi elə bir əmək növüdür ki, ünsiyyətsiz onu həyata keçirmək qeyri mümkündür.

Təlim və tərbiyə prosesinin əsasında ünsiyyət dayanır: ünsiyyət vasitəsilə müəllim şagirdlərin fəaliyyətini və davranışını təşkil edir, onların hərəkətlərini və əməllərini qiymətləndirir, baş verən hadisələrlə bağlı məlumatlandırır, çətinliklərin aradan qaldırılmasına və öz imkanlarına inamın itməməsinə kömək edir.

Bu gün səmərəli təşkil edilmiş pedaqoji ünsiyyət müəllimlə uşaqlar arasında real psixoloji əlaqənin yaranmasına zəmin yaradır. Pedaqoji ünsiyyət həm də təlim-tərbiyə prosesində şagird şəxsiyyətinə təsir etmək üçün ən önəmli vasitələrdən biridir.

Təlim prosesinin müvəffəqiyyətlə həyata keçməsinin ən mühüm amillərindən biri təsirli ünsiyyət üsullarıdır. İnsanlar şifahi, yazılı, virtual və bədən dili kimi ünsiyyət vasitələrindən təlim prosesində də istifadə edirlər. Fənni bilməklə yanaşı, onu şagirdlərə çatdıra bilmək də son dərəcədə önəmlidir.

Təhsil mühitində müəllim və şagirdlər arasında sağlam bir ünsiyyətin qurulması olduqca vacibdir. Bu səbəbdən də təhsilin əsas faktoru olan müəllimlər ünsiyyət vasitələrini çox yaxşı bilməli və şagirdləri öyrədərkən istifadə etməlidirlər. Çünki şagirdlər həmişə müəllimləri nümunə kimi qavrayırlar. Müəllimlərin danışıq tərzi, şagirdə yanaşması, baxış tərzi, istifadə etdiyi sözlər, səs tonu və s. davranışları şagirdlərin tərbiyəsində mühüm rol oynayan önəmli məqamlardır.

Məzmunundan asılı olmayaq, hər hansı bir məsələni həll etmək üçün fikir mübadiləsi etmək və ya ünsiyyətə girmək lazımdır.

Ünsiyyət insanlar üçün həyati əhəmiyyət kəsb edən bir prosedir. İnsanlar əsasən beş məqsəd üçün ünsiyyət qururlar: xəbərləşmək, paylaşmaq, təsir etmək və yönləndirmək, əyləndirmək və xoşbəxt olmaq.

Təlim prosesində ünsiyyətin əhəmiyyəti daha böyükdür. Çünki təhsil qarşılıqlı təsir prosesidir və bu prosesin də əsas vasitəsi ünsiyyətdir. Buna görə də, məktəbdə həm idarəetmə işinin, həm də təhsilin səmərəliliyi üçün ünsiyyət əsas tələblərdən biridir. Məktəblərin məqsədi işçilərin sosial məqsədlərə uyğun daha sıx əməkdaşlıq etmələri və öz qüvvələrini səfərbər etməsindən ibarətdir. Ona görə də hazırda yaşadığımız informasiya əsrində məktəb kollektivində ünsiyyətin rolu daha böyükdür.

Müəllim-şagird ünsiyyətində, xüsusilə ibtidai siniflərdə məktəbin ilk günü və ilk həftələrində ünsiyyətin düzgün qurulması olduqca vacibdir. Müəllim şagirdlərə gülümsəməli, "xoş gəldiniz" deyərək qarşılamalı, lazım gələrsə onlarla görüşməlidir. Bununla yanaşı ilk günlərdə müəllim şagirdləri sinif yoldaşları ilə tanış etməli və onlara bir-birinin adlarını öyrətməlidir.

Şagirdlər üçün məktəbin ilk günləri unudulmayan anlardır. Şagird burada yeni bir məkan, yeni bir mühit, yeni insanlarla qarşılaşır. Şagirdin tamamilə yeni bir dünyaya daxil olması və oradakıların hamısı ilə ilk dəfə qarşılaşması çox çətin və həyəcanvericidir [1, s.45].

Təhsil-təlim sistemində yaxşı bir öyrədən olmaq üçün ünsiyyət prosesini və onun vasitələrini düzgün seçmək lazımdır. Ünsiyyət prosesinin əsas komponentləri məlumatı ötürən, kanal, məlumat və informasiyanı alandır. Təlim prosesində informasiyanı verən müəllim, qəbul edən şagirdlərdir. Məlumat isə dərsliklər, proqramlar, əyani vəsaitlər və s. vasitəsilə çatdırılır [3, s.34].

Lakin məktəb mühitində ünsiyyətin səmərəliliyi rəhbərlik və müəllimlərdən asılıdır. Müəllimlər ünsiyyət prosesində şagirdlərin məqsəd və motivlərini müəyyən edən, qəbul edilən informasiyaların düzgün qavranılmasına təsir edən insan-

lardır.

Təlim prosesində də müəllimlər verbal və qeyri – verbal ünsiyyət vasitələri ilə yanaşı, kitab, dəftər, elan, isarələr, simvollar, divar yazıları, rəsmlər kimi müxtəlif ünsiyyət vasitərindən istifadə etməklə məlumatları şagirdlərə çatdırırlar. Şagirdlər bu və ya digər vasitələrlə onlara ötürülən hər hansı bir məlumata ya müsbət, ya da mənfi reaksiya verirlər ki, müəllim də bunu görüb hiss edəcəkdir. Ünsiyyət prosesindəki bu mərhələ əks əlaqə adlanır. Əks əlaqənin yaranması ilə ünsiyyət prosesi də başa çatmış olur.

Sinif daxilində ünsiyyət əsasən nitq vasitəsiə və nitqdən kənar vasitələr, yəni hərəkətlər, mimika, yestlər vasitəsiə, başqa sözlə bədən dili vasitəsilə həyata keçirilir. Nitq vasitəsilə ünsiyyət müəllimin nitqinin inkişaf səviyyəsini, onun düşüncə tərzini, məzmununu, danışıq üslubunu əks etdirən ünsiyət elementidir. Müəllimin səs tonu, tembri, intonasiyası, nitqinin ifadəliliyi və təsirliliyi də verbal ünsiyyətdə mühüm rol oynayır.

Pedaqoji ünsiyyətin hansı növündən istifadə edilməsindən asılı olmayaraq müəllimin şagird kollektivi ilə məhsuldar ünsiyyət prosesi təşkil olunmadan pedaqoji fəaliyyətin didaktik və tərbiyəvi vəzifələrini lazımi şəkildə həyata keçirmək mümkün deyildir. Görkəmli psixoloq A.V. Petrovski müəllimin fəaliyyətində ünsiyyətin aşağıdakı hallarda həyata keçirildiyini qeyd edir: birincisi, xüsusi təlim vəzifələrinin həyata keçirilməsi vasitələri kimi; ikincisi, tərbiyə prosesinin həyata keçirilməsinin sosial-psixoloji sistemi kimi; üçüncüsü, təlim və tərbiyənin müvəffəqiyyətini təmin edən müəllim və şagirdlər arasındakı müvafiq qarşılıqlı əlaqə sisteminin təşkili yolları kimi; dördüncüsü, hər bir şagirdi bir fərd kimi tərbiyə etməyə imkan verən proses kimi.

Bütün bu halların hamısında pedaqoji ünsiyyətin yüksək səviyyədə təşkili tələb olunur. Müəllim müəyyən sahəyə aid dərin biliyə yiyələnməklə yanaşı, elə bilik, bacarıq və vərdişlərə malik olmalıdır ki, onların köməyilə şagirdlərə təsir göstərə bilsin, şagird kollektivindəki qarşılıqlı münasibətləri fəal şəkildə idarə edə bilsin . Bunlar isə səmərəli pedaqoji ünsiyyətin olması deməkdir [4, s.180].

Uşaqlarla ünsiyyəti elə təşkil etmək lazışmdır ki, bu onlar üçün təkrarolunmaz prosesə çevrilsin. Müasir dövrdə pedaqoji ünsiyyətin bir çox üslubu fərqləndirilir, lakin biz bunlardan ən əsaslarına diqqət yetirəcəyik

1. Avtokratik (təkhakimiyyətlilik) üslub: Bu tərzə malik olan müəllim kolektivə təkbaşına rəhbərlik edir, şagirdlərə öz fikirlərini söyləməyə imkan yaratmır, onların təkliflərini nəzərə almayaraq təkbaşına qərarlar çıxarır.

2.Avtoritar (hakimlik) üslub. Bu tərzin əsas əlaməti avtokratik tərzin əsas əlamətlərindən ibarətdir. Fərq ondan ibarətdir ki, belə tərz zamanı kollektivin qarşısında duran vəzifələrin həllində şagirdlərin fikir və mülahizələri dinlənilir. Lakin onlar bəzən nəzərə alınır, bəzən isə nəzərə alınmır. Qərarı müəllim öz istədiyi kimi verir [2, s.270].

Avtoritar üslub üçün səciyyəvi olan sərt idarəçilik və hərtərəfli nəzarət meyli onunla ifadə olunur ki, bu üsluba malik olan müəllim həmkarlarına nisbətən daha çox əmredici tondan istifadə edir, kəskin iradlar edırlər. Avtoritar müəllim nəinki işin ümumi məqsədini təyin edir, həm də məsələnin həlli yollarını göstərir, kimin kimlə işləyəcəyini sərt şəkildə müəyyənləşdirir və s. Tapşırıq və onun həlli yolları müəllim tərəfindən mərhələlərlə verilir. Bu cür yanaşma fəaliyyətin motivasiyasını aşağı salır, çünki insan gördüyü işin məqsədinin nə olduğunu, həmin mərhələnin funksiyasının nə olduğunu və gələcəkdə onu nələr gözlədiyini bimir. Qeyd etmək lazımdır ki, fəaliyyətin mərhələli tənzimlənməsi və ona ciddi nəzarət müəllimin şagirdlərin imkanlarına inanmadığını göstərir. Onların nəzərində şagirdlərdə məsuliyyətlilik aşağı səviyyədədir və onlar ən sərt rəftara layiqdirlər. Eyni zamanda, hər hansı bir təşəbbüs avtoritar müəllim tərəfindən arzuolunmaz özbaşınalıq kimi qiymətləndirilir. Araşdırmalar göstərir ki, bu cür davranış müəllimin öz səlahiyyətini itirmək qorxusu ilə izah edilir. Bundan əalvə, avtoritar rəhbər öz tabeçiliyində olanların uğurlarını subyektiv qiymətləndirir, işin özü barədə deyil, onu yerinə yetirənin şəxsiyyəti barədə iradlar deyir.

3. Demokratik üslub. Müəllimin bu cür üslubu nəticəsində kollektivdə qərar şagirdlərin arzularına əsasən verilir. Müəllim kollektivin əsas fikrini öz fikri ilə əlaqələndirib ümumiləşdirir və hamının razılaşdığı qərarı verir.

4. Birgə yaradıcı fəaliyyətdən ruhlanmaya əsaslanan ünsiyyət. Bu üslubun əsasında müəllimin yüksək peşəkarlığı və əxlaqi davranışının birliyi dayanır. Çünki, şagirdlərlə birgə axtarış həvəsi yalnız müəllimin ünsiyyət fəaliyətinin de-

yil, həm də onun bütünlükdə pedaqoji fəaliyyətə münasibətinin nəticəsidir. Bu ünsiyyət üslubuna uğurlu təlim-tərbiyə fəaliyyətinin əsas sərti kimi baxmaq olar. Müəllim və şagirdlər arasındakı münasibətlərə toxunan A.S.Makarenko qeyd edirdi ki, pedaqoq bir tərəfdən şagirdin ən yaxın yoldaşı və tərbiyəçisi, digər tərəfdən isə birgə fəaliyyətin iştirakçısı olmalıdır. Tərbiyəçilərlə uşaqların münasibət formaları barədə fikir yürüdərək A.S.Makarenko qeyd edirdi: "heç bir halda müəllim və rəhbərlik ədəbsiz yanaşmaya: lağlağılıq, lətifələr söyləmək, dildə sərbəstlik, təqlidçilik, kobudluğa yol verməməlidir. Digər tərəfdən, müəllim və rəhbərlərin şagirdlərin yanında hüznlü, hirsli, əsəbi olmaları, yüksək səslə danışmaları da yolverilməzdir".

5. Ünsiyyət –məsafə. Bu ünsiyyət üslubundan həm təcrübəli pedaqoqlar, eləcə də yeni başlayanlar istifadə edir. Bu üslubun mahiyyəti müəllim – şagird arasındakı münasibətlər sistemində məsafənin məhdudlaşdırıcı rol oynamasından ibarətdir. Amma burada da müəyyən ölçü gözlənilməlidir. Məsafənin gözlənilməməsi müəllim və tələbələr arasında bütün sosial psixoloji qarşılıqlı sistemin rəsmiləşməsinə gətirib çıxarır, bu isə dərin yaradıcı atmosferin yaradılmasına imkan vermir. Müəllim – şagird arasındakı münasibətlər sistemində məsafə olmalıdır və bu vacibdir. Amma bu, müəllim və şagird arasındakı münasibətin məntiqindən irəli gəlməli və müəllim tərəfindən şərh edilməməlidir. Məsafə müəllimin aparıcı rolunun göstəricisi kimi çıxış edir və onun nüfuzuna əsaslanır. Bu göstəricinin pedaqoji ünsiyyətdə dominantlıq qazanması müəllim və şagirdlrin birgə işinin yaradıcılıq səviyyəsini kəskin surətdə aşağı salır. Nəticə etibarilə müəllim və şagirdlər arasındakı münasibətlər sistemində avtoritar prinsipin bərqərar olmasına gətirib çıxarır, bu isə fəaliyyətin nəticəsinə mənfi təsir göstərir. A.V.Petrovski və V.V.Şpalinski qeyd edirlər ki, "müəllimlərin avtoritar rəhbərlik metodlarları ilə dərs dedikləri siniflərdə adətən nizam-intizam və müvəffəqiyyət pis olmur, lakin xarici görünüşdə mövcud olan bu rifah şagird şəxsiyyətinin mənəvi keyfiyyətlərinin formalaşdırılması işində müəllimin ciddi qüsurlarını gizlədə bilər".

6. Ünsiyyət- qorxutma. Bu ünsiyyət üslubundan daha çox gənc müəllimlər istifadə edir ki, bu da onların birgə fəaliyyət zamanı səmərəli ünsiyyət qurmaq bacarığının olmaması ilə bağlıdır. Səmərəli ünsiyyət qurmaq çətin olduğundan, gənc müəllim də əsasən ünsiyyətdə qorxutma və məsafəni seçməklə daha asan yolla gedirlər. Yaradıcı münasibətdə ünsiyyət – qorxutma ümumiyyətlə faydasızdır.

7. Zarafatlaşma. Bu üslubdan da əsasən ünsiyyət çətinlikləri ilə qarşılaşan gənc müəllimlər istifadə edirlər. Mahiyyət etibarilə bu ünsiyyət üslubu pedaqoji etikanın tələblərinə zidd olaraq, uşaqların yanında yalançı, ucuz nüfuz qazanmaq cəhdlərinə cavab verir. Bu ünsiyyət üslubunun təzahürü bir tərəfdən uşaqlarla daha tez əlaqə yaratmaq cəhdi, sinif tərəfindən bəyənilmək istəyi ilə bağlıdırsa, digər tərəfdən ümumpedaqoji və ünsiyyət mədəniyyətinin, pedaqoji ünsiyyətə dair bilik və bacarıqların, peşəkar təcrübəninn olmaması ilə bağlıdır.

Hər bir müəllimdə bu ünsiyyət üslublarının hamısına rast gəlinir, yəni təmiz bir ünsiyyət üslubu mövcud deyil. Hər bir müəllimin fəaliyyətində bu rəhbərlik tərzlərindən biri əsas rol oynadığından,şagird kollektivlərinə müxtəlif tərzlərdə rəhbərlik edilir. Bu hal şagird şagird kollektivlərinin eyni ahənglə işləməsinə imkan vermir. Ona görə də, şagird kollektivlərinə rəhbərlik zamanı demokratik ünsürləri üstünlük təşkil edən tərzlərdən istifadə etməyə çalışmalıdırlar verir [2, s.271].

Eyni zamanda ünsiyyət üslubunda müəllimin fərdi xüsusiyyətləri də aydın şəkildə özünü göstərir. Müəllimin nitqi şagirdlərin öz təfəkkür imkanlarını tanımağa imkan verən əsas vasitədir. Əgər ünsiyyətin təlim prosesi ilə kəsişən bir proses olduğunu nəzərə alsaq, iki əsas ünsiyyət modelini ayıra bilərik: təlim - intizamyönümlü və şəxsiyyətyönümlü.

Müəllimlərin şagirdlərlə ünsiyyəti şagirdlərin yaş xüsusiyyətlərindən də asılıdır. Kiçik yaşlı şagirdlərə nisbətən yeniyetmələr və gənclər müəllimlərlə ünsiyyətə daha çox meyl edirlər. Müəllimlərin bəziləri yeniyetmə və gənclərin özlərini yetkin adam kimi göstərmə cəhdlərini qəbul edə bilmədikdə, şagirdlərin bir qismi müəllimlərin istədikləri formada ünsiyyət saxlayır, digər bir qismi isə yaşlıların əlaqə tərzlərinə müvafiq ünsiyyətə çalışırlar. Hər iki halda şagirdlər öz mənəvi aləmini dəqiq üzə çıxarda bilmirlər ki, müəllim şagirdlərdə müsbət və mənfi cəhətləri müəyyənləşdirə bilsin və onları düzgün istiqamətləndirib, mənfi cəhətləri aradan qaldırsın. Müəlimlərin şagirdlərə etibar etməmələri, inanmamaları, on-

lara ədalətsiz münasibət bəslənilməsi, tələbkarlığın düzgün tətbiq edilməməsi, müəllimlərin öz fikirlərini şagirdlərə məcburi qəbul etdirməsi, müəllimin müəllimlik qabiliyyətindəki naqis cəhətlər şagirdlərlə müəllimlər arasında səmərəli ünsiyyət təşkil etməyə imkan vermir. Müşahidə və təcrübələr göstərir ki, müəllimlərin şagirdlərə qayğıkeş münasibəti, onların imkanlarını düzgün qiymətləndirməsi, şagirdlərə mehribanlığı, həssaslığı müəllimlərlə şagirdlər arasında əlaqənin düzgün tənzim edilməsində müsbət rol oynayır.

Beləliklə, deyə bilərik ki, bu gün pedaqoji ünsiyyətdə müəllim şəxsiyyəti xüsusi rol oynayır. Müəllimin qarşısında duran mürəkkəb məsələlər arasında səmərəli ünsiyyətin təşkili də yer alır.

Şagirdlərin müəllimdə üstünlük verdiyi keyfiyyətlər aşağıdakılardır: insani keyfiyyətlər: xeyirxahlıq, şənlik, məsuliyyətlilik, ağırlıq (xasiyyətdə).

- təşkilatçılıq keyfiyyətləri: ədalətlilik, dürüstlük, ardıcıllıq, başqa insanlara hörmət;
- işgüzar keyfiyyətlər: faydalılıq, demokratiklik, maraqlanma bacarığı;
- xarici görünüş: yaxşı geyim, mülayim səs, ümumi cəlbedicilik.

Müəllimdə bəyənilməyən mənfi keyfiyyətlərə isə qışqırmaq, sözü kəsib axıra kimi dinləməmək, şagirdlərə ayrı seçkilik qoymaq, hər şeydə bəhanə axtarmaq, şagirdlərə kiçik uşaq kimi yanaşmaq, hörmətsizlik etmək, sirr saxlaya bilməmək və s.aid edilir.

Müəlimin şagirdlərlə ünsiyyətində müəllimin tədris etdiyi fənnin də rolu böyükdür. Unutmaq olmaz ki, hər şeydən öncə müəllimin siniflə ünsiyyəti bir kollektiv kimi işgüzar ünsiyyətdir.

Ədəbiyyat

1. Qədirov, Ə. Yaş psixologiyası. / Ə.Qədirov, İ.Məmmədov – Bakı: – 1986.
2. Məmmədov, A. Təlimin psixoloji əsasları. Dərslik. / A. Məmmədov – Bakı: – 1993.
3. Məmmədov, T. Psixologiya. Dərslik. / T.Məmmədov, S.Məmmədov, Ə.Dadaşzadə – Bakı: – 2017.
4. Həmzəyev, M. Pedaqoji psixologiya. / M.Həmzəyev – Bakı: – 1991.

Məqalə psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 01 fevral 2022-ci il
Son daxilolma tarixi:18 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 94(479.24)

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 101-106
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 101-106
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 101-106

HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK FƏALİYYƏTİNDƏ NAXÇIVANIN YERİ

Müəllif:

Ələkbər Cabbarlı
Naxçıvan Dövlət Universiteti
Tarix üzrə fəlsəfə doktoru,
dosent

E-mail:
ecabbarli44@gmail.com

Açar sözlər:
Azərbaycan, Heydər Əliyev, Naxçıvan, qərar, inkişaf, müstəqillik

Annotasiya. Məqalədə ulu öndər Heydar Əliyevin fəaliyyətində Naxçıvanın həmişə diqqət mərkəzində olması, bu istiqamətdə tarixi qərarlar qəbul edilməsindən bəhs edilir. Qeyd olunur ki, Azərbaycan xalqı XX əsrdə ikinci dəfə öz müstəqilliyini əldə etdi. Lakin müstəqilliyin ilk iki ilində, 1991-1993-cü illərdə ölkə daxilində cərəyan edən ictimai-siyasi hadisələr müstəqilliyin perspektivdə daha böyük təhlükələrlə üzləşəcəyindən xəbər verirdi. Lakin bu dəfə Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya və möhkəmləndirə bildi. Şübhəsiz ki, bu uğur ilk növbədə bütün dünya tərəfindən böyük siyasi xadim kimi tanınan və qəbul olunan, eləcə də XX əsrin son qərinəsində Azərbaycanın siyasi və dövlətçilik mühitində silinməz izlər qoyan Heydər Əliyevin ölkədə rəhbərliyə gəlməsi ilə bağlı oldu. Məqalədə tarixi-müqayisəli metoddan istifadə etməklə ulu öndərin Azərbaycan xalqının tarixinin, mədəniyyətinin öyrənilməsini, tədqiqini həmişə diqqətdə saxlaması, bu sahədə müvafiq tədbirləri həyata keçirməsi, alim və tədqiqatçılar üçün lazımi şəraitin yaradılması məsələləri də tədqiq edilmiş, təhlillər aparılmış, müəyyən elmi nəticələr əldə edilmişdir. Məqalədə bu kimi məsələlərin şərhinə geniş yer verilmişdir.

Author:

Ələkbər Cabbarlı
Nakhchivan State University
Doctor of Philosophy in History,
docent

E-mail:
ecabbarli44@gmail.com

Key word:
Azerbaijan, Heydar Aliyev, Nakhchivan, decision, development, independence

HAYDER ALIYEV'S STATEMANSHIP THE PLACE OF NAKCHIVA IN ACTIVITY

Abstract. The article mentions that Nakhchivan was always in the center of attention in the activities of the great leader Heydar Aliyev, and historical decisions were made in this direction. It is noted that the people of Azerbaijan gained their independence for the second time in the 20th century. However, in the first two years of independence, in 1991-1993, the socio-political events in the country indicated that independence would face greater threats in the future. But this time, Azerbaijan was able to preserve and strengthen its state independence. Undoubtedly, this success was primarily due to Heydar Aliyev, who is recognized and accepted by the whole world as a great political figure, and who left an indelible mark on the political and state environment of Azerbaijan at the end of the 20th century. In the article, using the historical-comparative method, the issues of the great leader always keeping in mind the study and research of the history and culture of the Azerbaijani people, implementing relevant measures in this field, and creating the necessary conditions for scientists and researchers were also studied, analyzes were conducted, and certain scientific results were obtained. The article provides ample space for the interpretation of such issues.

Автор:

Алекбер Джаббарлы
Нахчыванский государственный университет
Доктор философии по истории, доцент

E-mail:
ecabbarli44@gmail.com

Ключевые слова:
Азербайджан, Гейдар Алиев, Нахчыван, решение, развитие, независимость

МЕСТО НАХЧЫВАНА В ГОСУДАРСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ ГЕЙДАРА АЛИЕВА

Аннотация. В статье говорится о том, что в деятельности великого лидера Гейдара Алиева Нахчыван всегда был в центре внимания, принимались исторические решения в этом направлении. Отмечается, что азербайджанский народ во второй раз обрел независимость в XX веке. Однако общественно-политические события, происходившие в стране в первые два года независимости, с 1991 по 1993 год, предсказывали, что независимость в будущем столкнется с гораздо большими опасностями. Однако на этот раз Азербайджану удалось сохранить и укрепить свою государственную независимость. Несомненно, этот успех был обусловлен в первую очередь приходом к власти в стране Гейдара Алиева, признанного и принятого всем миром как великого политического деятеля, а также оставившего неизгладимый след в политической и государственной среде Азербайджана в последней трети XX века. В статье, используя историко-сравнительный метод, были также исследованы, проанализированы и получены определенные научные результаты, связанные с тем, что великий лидер всегда уделял внимание изучению истории, культуры азербайджанского народа, проводил соответствующие мероприятия в этой области, создавал необходимые условия для ученых и исследователей. В статье много места уделено интерпретации таких вопросов.

XX əsr Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafı tarixində mühüm bir mərhələ təşkil edir. Bu mərhələ, eyni zamanda, milli dövlətçilik ənənələrinin bərpası və inkişafı baxımından da diqqəti cəlb edir. Məhz bu əsrdə Azərbaycan xalqı iki dəfə – 1918-ci və 1991-ci illərdə öz dövlət müstəqilliyinə qovuşmuşdur. 1918-ci il mayın 28-də elan olunmuş Azərbaycan Xalq Cümhuriyyəti yaranmış gərgin beynəlxalq münasibətlər, ölkəmizin yerləşdiyi coğrafi ərazidə dünyanın aparıcı dövlətlərinin geostrateji maraqlarının toqquşması şəraitində cəmi 23 ay fəaliyyət göstərərək bir sıra daxili və xüsusən xarici amillərin təsiri ilə süqut etdi. Növbəti dəfə sovet Rusiyası tərəfindən işğal olunan Azərbaycan 1922-ci ilin dekabr ayından rəsmən tərkibində olduğu SSRİ-nin tənəzzülü və süqutu ilə 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdi.

Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il avqustun 30-da "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannamə qəbul etdi. Həmin il oktyabrın 18-də Ali Sovetin sessiyasında qəbul edilən "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Konstitusiya Aktı həmin Bəyannamənin hüquqi cəhətdən möhkəmləndirilməsi, müstəqilliyin hüquqi bazasının yaradılması istiqamətində mühüm konstitusion-hüquqi sənəd idi. Konstitusiya Aktının 2-ci maddəsi ilə Azərbaycan Respublikası 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriy-yətinin varisi elan olundu. Noyabrın 15-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikası referendumunun keçirilməsi haqqında" Ali Sovetin qərarı ilə 1991-ci il dekabrın 29-da müvafiq referendum keçirildi və Azərbaycan xalqı yekdilliklə müstəqilliyin bərpasına səs verdi.

Beləliklə, ölkəmiz XX əsrdə ikinci dəfə öz müstəqilliyini əldə etdi. Lakin müstəqilliyin ilk iki ilində, 1991-1993-cü illərdə ölkə daxilində cərəyan edən ictimai-siyasi hadisələr müstəqilliyin perspektivdə daha böyük təhlükələrlə üzləşəcəyindən xəbər verirdi. Bir tərəfdən, xüsusilə müstəqillik ərəfəsində ermənilərin keçmiş sovetlər birliyi rəhbərliyinin fəal dəstəyi ilə Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə çıxış etməsi, azərbaycanlılara qarşı həm Qərbi Azərbaycan ərazisində, həm də Dağlıq Qarabağda deportasiya və qırğın siyasəti yürütməsi, digər tərəfdən isə SSRİ-nin süqutundan dərhal sonra onun yeni formada bərpası cəhdləri vəziyyəti daha da kəskinləşdirirdi.

Lakin əsrin əvvəllərindən fərqli olaraq, bu dəfə Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya və möhkəmləndirə bildi. Şübhəsiz ki, bu uğur ilk növbədə bütün dünya tərəfindən böyük siyasi xadim kimi tanınan və qəbul olunan, eləcə də XX əsrin son qərinəsində Azərbaycanın siyasi və dövlətçilik mühitində silinməz izlər qoyan Heydər Əliyevin ölkədə rəhbərliyə gəlməsi ilə bağlı oldu. 1993-cü ildə Azərbaycan dövlətçiliyi məhv olmaq, cəmiyyət isə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldıqda məhz bu böyük dövlət idarəçiliyi təcrübəsinə sahib olan görkəmli siyasi xadimin ölkədə hakimiyyətə qayıdışı bütün ictimai-siyasi proseslərin axarının müstəqil-liyimiz üçün arzu olunan istiqamətdə inkişaf etməsində həlledici amil oldu.

Hələ 1969-cu il iyulun 14-də Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (Azərbaycan KP MK) birinci katibi vəzifəsinə seçilməsi ilə keçmiş SSRİ-nin tərkibində geridə qalmış aqrar respublika kimi tanınan Azərbaycanda sosial-iqtisadi, ictimai-mədəni həyatda fundamental keyfiyyət dəyişiklikləri baş vermişdi. İstər 1982-ci ilədək – Azərbaycanda özünün ilk rəhbərliyi dövründə, istərsə də 1982-1987-ci illərdə SSRİ rəhbərliyində Nazirlər Soveti sədrinin birinci müavini və Sovet İttifaqı Kommunist Partiyası (Sov.İKP) Siyasi Bürosunun üzvü kimi mühüm hökumət və siyasi (dövlət) vəzifələri tutduğu illərdə Azərbaycanın hərtərəfli inkişafı məsələləri daim Heydər Əliyevin diqqət mərkəzində olmuş, o, bütün imkanlarından istifadə edərək doğma Vətəninin tərəqqisi naminə səylə çalışmışdı.

Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi yüksəlişi ilə yanaşı, respublikada elm və təhsilin, mədəniyyətin və incəsənətin inkişafı məsələləri də Heydər Əliyevin daim qayğı ilə yanaşdığı sahələr olmuşdur. O, dövlət rəhbəri kimi fəaliyyətinin bütün dövrlərində Azərbaycan xalqının tarixinin, mədəniyyətinin öyrənilməsini, tədqiqini həmişə diqqətdə saxlamış, bu sahədə müvafiq tədbirləri həyata keçirməklə, alim və tədqiqatçılar üçün lazımi şəraitin yaradılmasını təmin etmişdi. Heydər Əliyevin özünəməxsus siyasi portreti yalnız onun dövlətçilik və siyasi fəaliyyəti ilə bağlı olmaqla qalmayıb, eyni zamanda, bu böyük siyasi xadimi Azərbaycan tarixinin kamil bilicisi, ədəbiyyatın və mədəniyyətimizin böyük qayğı-

keşi kimi səciyyələndirməyə imkan verən saysız faktlarla zəngindir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 21 yanvar 2013-cü il tarixdə "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" Sərəncamda deyilir: "Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır" [2].

Heydər Əliyevin zəngin həyatı və fəaliyyətində Naxçıvanın özünəməxsus yeri və rolu vardır. Bu, xalqımızın ümummilli liderinin yalnız 1923-cü ildə Naxçıvanda dünyaya gəlməsi və uşaqlığını burada keçirməsi ilə bağlı olmayıb, onun həyatının, siyasi və dövlətçilik fəaliyyətinin sonrakı mərhələlərində də Azərbaycanın bu qədim diyarı ilə bağlılığı sübut edən faktlarda, o cümlədən 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi, muxtar respublikaya rəhbərlik etməsi, ölkəyə rəhbərliyinin hər iki dövründə buraya olan çoxsaylı səfərləri və daimi diqqəti ilə bağlıdır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə bağlı təntənəli mərasimdəki nitqində dediyi sözlər ümummilli lider Heydər Əliyevin Naxçıvanla bağlı fəaliyyətinə verilən ən yüksək qiymətdir: "Naxçıvanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə ona görə ki, Naxçıvan Azərbaycan xalqına ulu öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı" [10, s.70].

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə çox mühüm tarixi qərarlar qəbul edildi. Naxçıvanda ictimai-siyasi şəraiti daha da stabilləşdirmək və sağlamlaşdırmaq üçün böyük tədbirlər həyata keçirildi. Getdikcə güclənən erməni təcavüzünün və düşmənin yaratdığı blokadanın ağır nəticələrinin qarşısının alınması üçün düşünülmüş və çevik siyasət yürüdüldü.

Heydər Əliyevin qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına ardıcıl səfərləri, bu səfərlər zamanı imzalanan müqavilələr Naxçıvanın və onun əhalisinin sosial-iqtisadi vəziyyətinin yüngülləşdirilməsində müstəsna rol oynadı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illəri əsl tarixçi qələmi ilə qiymətləndirərək demişdir: "1990-cı ilin iyul ayında ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublikanın ərazisini erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etmişdir. Həmin illərdə ümummilli liderimizin muxtar respublika parlamentində xüsusi bəyanatla çıxış etməsi, Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəliyə gətirərək, dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkarlıq siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci ömür vermişdir" [11, s.99].

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə, eləcə də müstəqil Azərbaycanda hakimiyyətdə olduğu illərdə Naxçıvanın inkişafına, bölgənin tarixinin hərtərəfli araşdırılmasına xüsusi diqqət yetirmişdir. O, tarixən daim Azərbaycan ərazisi olmuş Naxçıvanın çoxminillik tarixini daim yüksək qiymətləndirərək, bu bölgənin qədim, orta əsrlər, yeni və müasir tarixinin öyrənilməsini Naxçıvan tarixinin tədqiqatçıları qarşısında mühüm vəzifə kimi qarşıya qoymuşdu: "Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvan tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi – həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az işlər görülübdür".

XX əsrin 90-cı illəri və XXI əsrin ilk illərində Naxçıvanın təhlükəsizliyinin təmin edilməsi, muxta-riyyət statusunun möhkəmləndirilməsi, dövlətçilik istiqamətində yeni tarixi qərarların qəbul edilməsi, burada elmin və təhsilin inkişafı, bölgənin tarixinin, arxeoloji abidələrinin öyrənilməsi, əsaslı tədqiqatların aparılması məhz Heydər Əliyevlə, onun müəyyənləşdirdiyi siyasi

xətlə bağlıdır.

Beləliklə, Heydər Əliyevin Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında hər bir sahə ilə bağlı həyata keçirdiyi islahat xarakterli tədbirlər, yürütdüyü siyasət həm uğurla nəticələnmiş, həm də bu siyasətin özü daim tədqiqatçıların diqqət mərkəzində olmuş, Heydər Əliyevin çoxşaxəli siyasi və dövlətçilik fəaliyyətinin müxtəlif istiqamətləri ilə bağlı sanballı tədqiqat işləri aparılmışdır.

Heydər Əliyevin Naxçıvan tarixində, onun ətraflı tədqiqi və öyrənilməsində oynadığı rol, göstərdiyi geniş fəaliyyətlə bağlı tarixi məqamların sistemli şəkildə təhlil edilməsi, onun çoxillik siyasi fəaliyyətinin Naxçıvan dövrünün ayrıca tədqiqi və bu dövrün Azərbaycanın müstəqil dövlətçilik tarixində xüsusi əhə-miyyəti Azərbaycan tarixşünaslığının mühüm istiqamətini təşkil edir. Belə ki, 1969-1982-ci, 1990-1993-cü və 1993-2003-cü illərdə Naxçıvanda baş verən hadisələr, proseslər, muxtar respub-likanın inkişafı məsələləri, muxtariyyət statusunun möhkəmləndirilməsi, bölgənin tarixinin öyrənilməsi, ordu quruculuğu, bölgənin erməni təcavüzündən müdafiəsinin təşkil olunması və xilası, iqtisadiyyatın, elmin və təhsilin inkişafı məsələ-ləri sistemli şəkildə tərəfimizdən tədqiq olunmuşdur [5]. Ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətdə olduğu bu illər bütövlükdə Azərbaycan tarixinin mühüm bir dövrüdür.

1969-cu ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra məhz onun həyata keçirdiyi tədbirlər Naxçıvanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatına öz müsbət təsirini göstərmişdir. Həmin dövrdə Naxçı-vanda dövlətçilik istiqamətində mühüm addımlar atılmış, muxtar respublikada sosial-iqtisadi sahə ilə yanaşı, elm, təhsil və mədəniyyət də inkişaf mərhələsinə qədəm qoymuşdur [13, s.145-263].

1990-cı ildə Heydər Əliyevin Naxçıvana gəlişi ilə bölgə erməni təcavüzündən xilas oldu. Milli döv-lətçilik ənənələrinin bərpası və yaradılması istiqamətində tarixi qərarlar qəbul edildi, Naxçıvanın müdafiəsinin hərbi-siyasi və diplomatik yollarla təşkili sayəsində muxtar respublika erməni təcavüzündən qorundu, sosial-iqtisadi sahədə mühüm tədbirlər həyata keçirildi [8; 9; 13, s. 298-363].

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu 1993-2003-cü illər ölkəmiz, o cümlədən Naxçıvan üçün daha əlamətdar və yaddaqalan oldu. Müstəqillik tarixinin taleyüklü həmin mərhələsində Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün ciddi addımlar atıldı, ölkədə ictimai-siyasi sabitlik, sosial-iqtisadi dirçəliş təmin edildi, nizami milli ordu yaradıldı. Aparılan uğurlu xarici siyasət sayəsində ölkə beynəlxalq aləmdə öz mövqeyi ilə tanınan və qəbul edilən dövlətə çevrildi, elm, təhsil, mədəniyyət inkişaf etdi. Müstəqil Azərbaycanın 1995-ci il Konstitusiyasında [1] Naxçıvanın muxtar dövlətçiliyinin əsas konstitusion prinsipləri ali hüquqi səviyyədə təsbit edildi. Naxçıvana dövlət qayğısı daha da artdı, onun muxtariyyət statusunu möhkəmləndirmək istiqamətində bir sıra addımlar atıldı, muxtar respublikanın yaradılmasının yubiley ildönümləri dövlət səviyyəsində geniş qeyd edildi. Habelə Naxçıvan tarixinin hərtərəfli araşdırılıb tədqiq edilməsi, yenidən yazılması məsələləri mühüm bir vəzifə kimi qarşıya qoyuldu.

Bu baxımdan ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci, 1993-2003-cü illərdə, eləcə də Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi, Ali Məclisin Sədri vəzifəsində işlədiyi 1990-1993-cü illərdə milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində qəbul etdiyi qərarlar, ərazi bütövlüyü uğrunda apardığı mübarizə, Naxçıvanın konstitusion-hüquqi, hərbi-siyasi və diplomatik səviyyədə etibarlı müdafiəsinin təşkili, bölgənin muxtariyyət statusunun möhkəmləndirilməsi, tarixinin öyrənilməsi və tədqiqi məsələləri, elm, təhsil, mədəniyyət, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar bilavasitə Azərbaycan xalqının ümummilli liderinin adı ilə bağlıdır [8; 9; 13; s.145-263].

Azərbaycanın dövlət müstəqilliyinin bərpası və ümummilli lider Heydər Əliyevin ölkəmizdə hakimiyyətə qayıdışı yalnız ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi həyatın bütün sahələrində əsaslı dönüşün yaranmasına, siyasi və dövlətçilik tariximizin obyektiv və dolğun, eyni zamanda doğru-düzgün yazılması üçün zəruri şərait yaratdı. Sovet hakimiyyəti illərində avtoritar rejimin siyasi-psixoloji və yad ideoloji buxovlarının müəyyən etdiyi çərçivədə yazılan, XX əsrin 80-ci illərinin sonu 90-cu illərinin populizm, nihilizm, diletantlıq və s. xoşagəlməz meyillərin təsiri duyulan Azərbaycan tarix elmi çoxminillik tariximizin mürəkkəb problemlərini elmi baxımdan uğurla həll edə bilmirdi. Xüsusən XIX-XX əsrlər Azərbaycan tarixinin ayrı-ayrı

problem-məsələlərinə dair təzadlı fikirlər çoxalmışdı və sürətlə yayılırdı.

Həm dövlətçiliyimiz, həm də tarix elmimiz üçün belə bir mürəkkəb şəraitdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1993-cü il sentyabrın 21-də [2, 1993, 24 sentyabr] və 1997-ci il yanvarın 31-də [2, 1997, 1 fevral] Azərbaycan MEA-da aparıcı ziyalılarla, elmi institutların və ali təhsil müəssisələrinin rəhbərləri ilə, elmi ictimaiyyətin və Azərbaycan tarixçilərinin qabaqcıl nümayəndələri ilə çox mühüm və ciddi dönüş nöqtəsi sayılacaq iki görüş keçirdi. Bu görüşlərdəki elmi proqram xarakterli nitqində Heydər Əliyev Azərbaycan tarixi elmində yaranmış vəziyyəti dərindən təhlil etdi, tarixçi alimlərin təklif və mülahizələrini də dinləyərək ölkəmizin və xalqımızın XIX-XX əsrlər tarixinin yenidən yazılmasına dair konkret göstərişlər və tapşırıqlar verdi, tarix elminin qarşısında mühüm vəzifələr qoydu. Bu görüşlərdə Heydər Əliyev bir tərəfdən sovet hakimiyyəti illərində antimilli ideoloji çərçivədə yazılmış, digər tərəfdən isə son vaxtlarda tarix elmində baş qaldırmış populist və volyuntarist meyillərin aradan qaldırılmasını, Vətən tarixinin, xüsusilə XIX-XX əsrlər tariximizin yeni təfəkkür tərzində, yüksək səviyyədə, obyektiv və ləyaqətlə tədqiq olunmasını əsas vəzifələrdən biri kimi müəyyənləşdirdi: "70 illik sovet dövründə Azərbaycan tarixi təhrif edilib. Tarixçilərin yadındadır ki, mən 70-80-ci illərdə alimlərlə dəfələrlə görüşmüşəm, hər dəfə də narahatçılığımı bildirmişəm… O vaxtlar da demişəm, indi də deyirəm ki, tarixçilərimiz üçün bütün şəraiti yaratmağa hazırıq. Bir şərtlə ki, tarixçilərimizdən bu gün üçün, gələcək nəsillər üçün yaxşı əsərlər ala bilək" [4, s. 93].

Ümummilli liderin mövqeyi Azərbaycanın sovet dövrü tarixinin yeni müstəvidə tədqiq edilməsinin müasir dövrümüzdə olduqca aktual olduğunu sübut edirdi. Məsələn, XX əsrin 20-30-cu illəri, ümummilli lider Heydər Əliyevin dediyi kimi, Azərbaycan tarixşünaslığında ciddi tədqiqata ehtiyacı olan dövrlərdən biri kimi böyük aktuallıq kəsb edirdi. Çünki 1920-30-cu illər "Azərbaycan xalqı üçün, bir tərəfdən çox məşəqqəli olubdur, qurbanlar verilibdir, günahsız repressiyaya uğrayıbdır; ikinci tərəfdən də xalqımız inkişaf edibdir, savadsızlıq tamamilə ləğv olunubdur, ali təhsil müəssisələri, böyük sənaye və iqtisadi potensialı yaranıbdır, mədəniyyətimiz sürətlə inkişaf edibdir". Bu prizmadan çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev Azərbaycanın XX əsr tarixinin yenidən obyektiv, doğru-düzgün yazılmasına xüsusi diqqət yetirilməsini vacib sayırdı: "Xalqımız böyük tarixi yol keçibdir. Tariximizin parlaq səhifələri də, qaranlıq səhifələri də var. Tariximizin hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq... Biz qısa vaxtda heç olmasa, XX əsrin tarixini yazmalıyıq" [2, 1996, 23 iyun].

Heydər Əliyev XX əsrin tarixinin müstəqillik dövrünün yaratdığı imkanlar daxilində obyektivcəsinə yazılmasının tərəfdarı idi. O bu dəfə də sovet hakimiyyəti illərində qazanılan bir sıra naliiyyətləri tam inkarçılıq xətti tutan bəzi subyektiv düşüncəli tarixçiləri nəzərdə tutaraq demişdir: "Keçmiş tariximizi yüksək qiymətləndirərək, eyni zamanda XX əsrdə xalqımızın həyatında, tarixində böyük nailiyyətlər əldə olunmasını və böyük dirçəlişi, böyük irəliləməni xüsusi qiymətləndirməliyik. Biz bunu nəinki qeyd etməliyik, biz bununla fəxr edə bilərik və mən, şəxsən özüm, fəxr edirəm. Mən XX əsrin əvvəllərində doğulmuşam, indi XX əsrin sonuna qədər yaşayıram. Mənim həyatım bu dövrdə keçibidir və çox şeylərin şahidiyəm. Ona görə də mən bilirəm, görmüşəm və tarixi də oxumuşam ki, bizim xalqımız bu dövrdə böyük bir inkişaf dövrü keçibdir" [6, s.449-450]. Xalqımızın tarixinin doğru-düzgün yazılmasına, hadisələrin və tarixi faktların obyektiv tədqiq edilməsinə, tarixi həqiqətlərin üzə çıxarılmasına, zəngin arxiv materiallarının elmi dövriyyəyə cəlb edilməsinə və fundamental tarix kitablarının hazırlanmasına böyük əhəmiyyət verən ümummilli liderimiz deyirdi: "...Tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır, ...hər bir gənc gərək Azərbaycan tarixini yaxşı bilsin, oxusun, öyrənsin" [2, 1997, 1 fevral].

Ulu öndər qətiyyətlə bildirirdi ki: "Biz Azərbaycanın XX əsr tarixini yazmalıyıq, XX əsrdə keçdiyimiz yolu araşdırmalıyıq, tədqiq etməliyik. Bu, bizim alimlərimizin, tədqiqatçılarımızın qarşısında duran vəzifədir. Biz bunu etməliyik" [2, 1996, 9 aprel]. Buna görə də "tarixçilərimiz apardıqları araşdırmalarına yüksək tələbkarlıqla yanaşmalıdırlar. Tarixi həqiqətlər aşkar edilməli, ...sovet dövründə qadağa qoyulmuş bütün dövrlər tədqiqat obyektinə çevrilməlidir. Azərbaycan xalqının və onun qurduğu dövlətlərin tarixinin araşdırılmayan bircə səhifəsi belə qalmamalıdır" [7, 2009, 9 dekabr].

Həmin görüşlərdə ulu öndər XIX-XX əsrlər Azərbaycan tarixinin yazılmasını daim nəzarət altında saxlayacağını, ona hərtərəfli kömək və yardım edəcəyini də bildirirdi. Bu, Prezident Heydər Əliyevin Azərbaycan tarixinə dövlət siyasəti səviyyəsində diqqət və qayğının parlaq ifadəsi, tarixçilər qarşısında isə duran dövlət proqramı, fəaliyyət proqramı idi. Ümumiyyətlə, Heydər Əliyev bütün fəaliyyəti boyu Azərbaycan tarix elminin də böyük qayğıkeşi kimi özünü göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2000-ci il dekabrın 29-da "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti" [3] əslində milli ideologiyamızın tarixi-nəzəri konsepsiyasıdır. Bu mühüm sənəd digər tərəfdən ulu öndərin sovet hakimiyyəti süqut etdikdən və müstəqillik dövründə tarix elminin əvvəlki dövrün ziyanlı ideoloji buxovundan yenicə qurtulduğu bir vaxtda tarixçi alimlər üçün Azərbaycan tarixinin yeni, dəqiq və bütün konturları əhatəli şəkildə cızılmış konsepsiyası kimi tarixə yazıldı. Bu baxımdan Heydər Əliyev həm milli tarix elminin böyük himayədarı, həm müasir dövr Azərbaycan tarixinin böyük bir mərhələsinin yaradıcısı, həm də milli tarix konsepsiyasının müəllifi kimi müstəsna hüquqla çoxminillik dövlətçilik tariximizə adını əbədi yazdıran ən böyük lider oldu.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Qanun, – 2009. – 68 s.
2. Azərbaycan qəzeti.
3. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. – Naxçıvan: Əcəmi, – 2001. – 192 s.
4. Bayramov, Q. Heydər Əliyev və Azərbaycan tarix elmi. / Q.Bayramov – Bakı: Təhsil, – 2004. – 263 s.
5. Cabbarlı, Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. / Ə.Cabbarlı – Naxçıvan: Əcəmi, – 2015. – 232 s.
6. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. IX kitab. / H.Ə.Əliyev – Bakı: Azərnəşr, – 2000. – 466s.
7. Xalq qəzeti.
8. Qayıdış (1990-1993). Sənədlər toplusu. – Bakı: Azərbaycan, – 1996. – 780 s.
9. Qayıdış (1990-1993). Sənədlər toplusu. Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. – Bakı: Azərbaycan, – 2008. – 840 s.
10. Naxçıvan Muxtar Respublikası – 90. – Naxçıvan: Əcəmi, – 2014. – 104 s.
11. Naxçıvan Muxtar Respublikasının yubileyləri. – Naxçıvan: Əcəmi, – 2014. – 212 s.
12. Naxçıvan tarixi. [Üç cilddə]. – Naxçıvan: Əcəmi, – c.2. – 2014. – 528 s.
13. Naxçıvan tarixi. [Üç cilddə]. – Naxçıvan: Əcəmi, – c.3. – 2015. – 560 s.

Məqalə tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 07 fevral 2022-ci il
Son daxilolma tarixi:18 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 94(479.24)

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 107-113
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 107-113
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 107-113

ŞAHBUZ RAYON ƏHALİSİNƏ NƏQLİYYAT, RABİTƏ VƏ ENERGETİKA XİDMƏTİNİN TƏŞKİLİ TARİXİNDƏN

Müəllif:

Aytəkin Qəhrəmanova
AMEA Naxçıvan Bölməsi
Tarix üzrə fəlsəfə doktoru

E-mail:
aytekin1962@ mail ru

Açar sözlər:
Şahbuz, əhali, ənənəvi nəqliyyat vasitələri, rabitə, energetika, mavi yanacaq.

Annotasiya. Məqalədə Şahbuz rayon ərazisində əhalinin ənənəvi və müasir nəqliyyat vasitələrindən istifadəsi, həmçinin onların yaranması və inkişafı tarixindən bəhs edilmişdir.Aparılan araşdırmalar nəticəsində rayon ərazisində rabitənin yaranma tarixi, inkişafı və əhaliyə müasir rabitə və informasiya-kommunikasiya xidmətinin təşkilinə dair məlumatlar verilmişdir. Məqalədə həmçinin muxtar respublika ərazisində olan elektrik stansiyaları haqqında məlumat verməklə yanaşı, Şahbuz rayonunun yaşayış məntəqələrinin elektrikləşdirilməsi tarixindən də bəhs edilmişdir. Eyni zamanda müstəqillik illərində dövlətin gördüyü tədbirlər nəticəsində əhalinin fasiləsiz olaraq elektrik enerjisi ilə təmin edilməsi haqqında məlumatlar da öz əksini tapmışdır. Ümumiyyətlə, məqalədə dövlətin dəstəyi ilə muxtar respublikanın mərkəzində olduğu kimi, rayonlarımızda, hətta ən ucqar kəndlərimizdə belə nəqliyyat-kommunikasiya sisteminin bərpası, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaratmasından bəhs edilmişdir.

Author:

Aytekin Gahramanova
Nakhchivan Branch of ANAS
Doctor of philosophy in history

E-mail:
aytekin1962@ mail ru

Key word:
Shahbuz, population, traditional transport vehicles, communication, power engineering, blue fuel

From the history of organization of transport, communication and power engineering services to the population of Shahbuz district

Abstract. The article talks about the use of traditional and modern means of transport by the population in Shahbuz district, as well as the history of their creation and development. As a result of the conducted research, information was provided on the history of communication in the region, its development, and the organization of modern communication and information-communication services to the population.In addition to providing information about power plants in the territory of the autonomous republic, the article also talks about the history of electrification of residential areas of Shahbuz region. At the same time, as a result of the measures taken by the state in the years of independence, the information about the uninterrupted supply of electricity to the population was also reflected. In general, in the article, as in the center of the autonomous republic with the support of the state, in our districts, even in the most remote villages, the restoration of the transport and communication system, the solution of social issues such as electricity, communication, gas, water supply, the application of modern information technologies, cultural-intellectual it was mentioned about the creation of a fundamental basis for the rise.

Автор:

Айтекин Гахраманова
Нахчыванское отделение НАНА
Доктор философии по истории

E-mail:
aytekin1962@ mail ru

Ключевые слова:
Шахбуз, население, традиционные транспортные средства, связь, энергетика, голубое топливо

Из истории организации обслуживания населения транспорту, связи и энергетике Шахбузского района

Аннотация. В статье рассказывается об использовании на территории Шахбузского района традиционных и современных транспортных средств населения, а также об истории их возникновения и развития. В результате проведенных исследований были получены сведения об истории возникновения, развития связи на территории района и организации современных коммуникационных и информационно-коммуникационных услуг населению.В статье также была представлена информация об электростанциях, находящихся на территории Автономной Республики, а также об истории электрификации населенных пунктов Шахбузского района. В то же время в результате мер, принятых государством в годы независимости, нашла свое отражение информация о бесперебойном обеспечении населения электроэнергией.В целом, в статье говорится о том, что восстановление транспортно-коммуникационной системы при поддержке государства как в центре автономной республики, так и в наших районах, даже в самых отдаленных селах, решение социальных вопросов, таких как электроснабжение, связь, газ, водоснабжение, также внедрение современных информационных технологий способствуют культурно-интеллектуальному росту населения.

Tarixən nəqliyyat vasitələri hər hansı bir ərazinin təbii-coğrafi şəraitindən, onun relyef quruluşunun xarakterindən asılı olaraq yaranmışdır. Mənbələrdə vaxtilə Azərbaycanda nəqliyyat vasitələrinin sadə yük nəqliyyatı, minik-yük nəqliyyatı, qoşqu nəqliyyatı və su nəqliyyatı vasitələrinin olduğu göstərilir [1, s.245]. Lakin, müasir dövrdə nəqliyyat vasitələrinə avtomobil nəqliyyatı, hava və dəmiryolu nəqliyyatı da əlavə edilir.

Əsrlər boyu ölkəmizin hər bir bölgəsində olduğu kimi, Şahbuz ərazisində də əhali əsas nəqliyyat vasitəsi kimi minik və yük heyvanları olan atdan, dəvədən, ulaqdan, öküzdən istifadə etmişdir. Əhalinin təsərrüfat məişətində mühüm rol oynayan at ən qiymətli xalq nəqliyyat vasitələrindən biri kimi ölkəmizdə minilliklər boyu öz dövrünün ən sürətli və ən rahat minik nəqliyyat vasitəsi olmuşdur. Tədqiqatçılar atdan nəqliyyatda istifadə edilməsinin e.ə. IV minilliyin axırlarına təsadüf edildiyini yazırlar [3, s.3]. Atdan yük və qoşqu heyvanı kimi istifadə olunması isə e.ə.III minilliyin sonu - II minilliyin əvvəllərinə aid edilir. Şahbuz rayonunun Keçili, Külüs, Şahbuzkənd, Biçənək, Ağbulaq, Kolanı, Nurs və digər kəndlərində atçılığın gündəmdə qalması yaşayış məntəqələrinin təbii-coğrafi şəraitindən irəli gələn amillərlə əlaqədardır.

Bütün dövrlərdə, eyni zamanda XVIII-XIX əsrlərdə də ölkəmizdə maldarlıq təsərrüfatının inkişafında atçılıq xüsusi əhəmiyyət kəsb etmişdir. Azərbaycanda nəqliyyat vasitələri olan at və qatırlar haqqında İ.Şopen yazırdı ki, bu dövrdə atlardan və qatırlardan minik vasitəsi kimi istifadə olunurdu [38, 1231 c.].

Azərbaycanda münasib minik və yük heyvanlarından biri də dəvə olmuşdur. Tədqiqatçılar Cənubi Qafqazda dəvədən istifadə edilmə tarixini eradan əvvəl II minilliyin ikinci yarısına aid edirlər [4, s.93]. Tarixən ölkələr və xalqlar arasında iqtisadi, ticarət və mədəni əlaqələrin həyata keçirilməsində mühüm rol oynayan, Böyük İpək yolunun yardımçı qollarından biri də Naxçıvan şəhərindən başlayaraq Şahbuz ərazisindən keçərək şimala doğru gedən Naxçıvan-Qarababa, Gorus istiqamətində olmuşdur. Naxçıvan vadisi ilə Biçənək aşırımına, oradan Gorus-Laçın-Şuşa-Ağdam-Yevlax istiqamətində uzanan bu karvan yolu Naxçıvan bölgəsini Azərbaycandan keçən İpək yolu ilə birləşdirirdi [9, s.99]. Şahbuz rayonu ərazisinin kəndlərinin karvan yolunun üzərində yerləşməsi ilk növbədə bu ərazilərdə heyvandarlığın, qoyunçuluq, maldarlıq, dəvəçilik, atçılıq və s. növlərinin inki-şafından xəbər verir. At və dəvə ilə yanaşı, Şahbuz rayonunun çətin keçilən dağ yollarında uzunqulaq yeganə nəqliyyat vasitəsi olmuşdur. Bölgədə ulaqların təsərrüfat həyatında müstəsna rola malik olması həm qaynaqlardan, həm də texnikanın inkişaf etməsinə baxmayaraq, günümüzdə də bu heyvanın dağ kəndlərinin təsərrüfat həyatında önəm daşımasından bəllidir. Uzaq keçmişdə dəvə karvanını müşayiət edən sarbanlar və çarvadarlar həmişə karvanın qabağında uzunqulağa minib gedərmişlər. Çünki, yaxşı yaddaşa malik olan uzunqulaq bir dəfə keçdiyi təhlükəli yoldan ikinci dəfə keçməzdi [10, s.67]. XIII əsr coğrafiyaşünas-səyyah Zəkəriyyə Qəzvini yazırdı ki, əgər dumanlı havada çarvadar yolu itirərdisə, onda qabağa uzunqulağı buraxardı [34].

Nəqliyyat vasitələri, eləcə də onların hərəkəti üçün vacib yolların olması ayrı-ayrı tarixi dövrlərdə hər bir xalqın maddi mədəniyyətinin inkişaf səviyyəsini göstərən mühüm amildir. Rusiya tərəfindən Naxçıvanın ilhaqı və sonrakı dövrdə vaxtilə mövcud olan karvan və poçt yolları əsasında şöse yolları salınırdı. 1828-ci ildən sonra Naxçıvan-Yerevan, Culfa, Ordubad və Sisyan arasında şose yolu salındı [2, s.214]. Bu yolun bir hissəsi Şahbuz ərazisindən keçirdi. Bu yol haqqında Z. Şahverdiyev yazır: "Naxçıvandan Qarababa istehkamı vasitəsilə Bərgüşad çayınadək Qarabağ əyalətinə gedirdi [23, s.101]. Yolun Naxçıvanla Biçənək keçidi arasındakı hissəsi XIX əsrin sonunda yararlı hala salınmışdır. Yalnız Biçənəklə Gorus arasında mürəkkəb relyefli dağlıq ərazidə arabaların hərəkəti mümkün deyildi. Bu hissədə yalnız ilin quraqlıq çağında yük heyvanlarının keçə biləcəyi cığırlar mövcud idi [5, s.103].

Şahbuz rayonu ərazisindən keçən şose yoluna Şahbuzun kənd yolları da birləşirdi. Kəndləri bir-biri ilə birləşdirən yollardan əhali öz aralarında iqtisadi və mübadilə əlaqələri yaratmaq üçün istifadə edirdilər. Bu cür yollar daxili yollar idi. Daxili yolları əhali "araba yolu", "qara yol", "el yolu" və s. adlandırırdı.

Muxtar respublikada nəqliyyat vasitələrinin, sərnişin və yükdaşımanın tarixi nə qədər qədim olsa da, onun dövlət səviyyəsində idarə olunması avtomobil nəqliyyatının təşəkkülü ilə bağlıdır. Muxtar respublikada avtomobil nəqliyyatının mərkəzləşdirilmiş qaydada fəaliyyəti ötən əsrin iyirminci illərindən, muxtariyyət dövründən başlamış, avtomobil nəqliyyatı ilə əlaqədar olan ilk təşkilatlar Naxçıvan Kommunal Təsərrüfat Ko-

missarlığının tərkibində yaranmışdır [7, s.45].

Arxiv materiallarına istinadən demək olar ki, SSRİ MİK və XKS-nin 3/III-1936-cı il tarixli "Torpaq və şose yollarının quruluşu və təminatı əhalinin əmək iştirakı haqqında"kı qərarında əsasən xalqların iqtisadi və mədəni tələbatının təmin edilməsi məqsədilə yol quruculuğu sahəsində olduqca böyük məsələlərin durduğu açıqlanırdı. Qərardan irəli gələn vəzifələri həyata keçirmək məqsədilə muxtar respublika üzrə sosialist yarışı təşkil edilir. Yolların təmirinə və yenidən qurulmasına başlayan Şahbuz rayon yol şöbəsinin kollektivi Ordubad rayon yol şöbəsinin kollektivini sosialist yarışına çağırır. Onu da qeyd etmək lazımdır ki, daimi yol kolxoz briqadalarına 18-45 yaşadək kişilər, 16-40 yaşadək qadınlar cəlb edilirdi [13].

1939-cu ildə Şahbuz rayonunun bir çox kənd yollarının təmir edilməsi illik plana daxil edilmişdir. Arxiv materiallarında yolları təmir ediləcək kəndlərin adı, rayon mərkəzindən həmin kəndə qədər olan məsafə, yola düşən yerin xarakteristikası (düz, təpəlik, dağlıq yol tiraslar və torpağın növü) qeyd olunmuşdur [14]. Həmin plana əsasən rayonun dağ kəndlərindən Keçili, Şada, Biçənək və digər kənd yollarının təmiri nəzərdə tutulmuşdur. Lakin, rayonun yollarının çox hissəsi ötən yüzilliyin 70-ci illərinə qədər tamamilə təmir edilməmişdir.

Ötən əsrin 70-80-ci illərində Şahbuz rayonunda aşağıdakı istiqamətlərdə yeni yollar salınmışdı: Remeşin-Kükü, Şahbuzkənd-Keçili, Aşağı Remeşin - Yuxarı Remeşin, Badamlı-Şada, Kömür-Gecəzur və s. Bu yolların əksəriyyətinin Naxçıvanın Ermənistanla həmsərhəd dağlıq ərazilərində çəkildiyini nəzərə alsaq, onların Azərbaycan və Naxçıvanın gələcəyi üçün strateji əhəmiyyəti aydın olar.

XX əsrin 90-cı illərinin ortalarından başlayaraq inkişaf və tərəqqi yoluna qədəm qoyan Naxçıvanda digər sahələr kimi, yol infrastrukturunun qurulmasına da xüsusi diqqət yetirilmiş, muxtar respublika ərazisində yolların çəkilişi, yenidən qurulması istiqamətində irimiqyaslı işlər həyata keçirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir", - fikrinin işığında nəinki muxtar respublika ərazisindəki magistral yollar, hətta ən ucqar kəndlərimizə gedən yollar belə, yüksək standartlara uyğun qurularaq istifadəyə verilmişdir. Bunun bariz nümunəsidir ki, "2000-ci ildə Naxçıvan Muxtar Respublikasında Görüləcək işlərin Proqramı"na daxil edilmiş Batabat magistral yolunun təmir edilməsi Şahbuz rayon Yol İstismar İdarəsinin qarşısına məqsəd kimi qoyulmuşdur [26, s.46]. Sərnişin daşınmasının və avtobus xidmətinin səviyyəsini yaxşılaşdırmaq məqsədilə 2009-cu ildə Şahbuz şəhərində də avtovağzal kompleksi istifadəyə verilmişdir [31, s.21].

Bu illər ərzində yol-nəqliyyat kompleksinin yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir, magistral yollar yenidən qurulur. Bu sahədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamlar Naxçıvanda da yol-nəqliyyat infrastrukturunun müasir tələblər səviyyəsində qurulmasına səbəb olub. Son illərdə Naxçıvanda yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində həyata keçirilən mühüm layihələr sırasında öz yeri olan Naxçıvan-Şahbuz-Batabat avtomobil yolu ilk növbədə əhalinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdəndir. Ümumi uzunluğu 88,8 kilometr olan yolun tikintisi 2012-ci ildə başlamış və 2014-cü ildə işlər keyfiyyətlə başa çataraq istifadəyə verilmişdir. Tikinti işləri zamanı yol yatağı genişləndirilmiş, hərəkət hissəsinin eni bəzi yerlərdə 17 metrə çatdırılmışdır. Naxçıvan-Şahbuz-Batabat avtomobil yolunun üzərində körpülər, beton-selötürücü və su keçidləri də inşa edilmişdir. Bu gün Şahbuz rayonunun bütün kəndlərinin yollarına asfalt örtük çəkilmiş, nəqliyyatın gediş-gəlişi asanlaşmış və bütün kəndlərə marşrutlar salınmışdır.

Muxtar respublikada əhəmiyyətli avtomobil yollarının 65 km-i Naxçıvan-Şahbuz istiqamətində fəaliyyət göstərir. Yerli əhəmiyyətli avtomobil yollarının 174 km-i Şahbuz rayonu ərazisindədir. Bu yolun 100 km-i ikinci dərəcəli kateqoriyaya, 9 km-i isə 3-cü dərəcəli kateqoriyaya aiddir [11, s.219, 347].

Muxtar respublikada nəqliyyat sisteminin müasir standartlara uyğun qurulması nəticəsində muxtar respublikanın digər bölgələrində olduğu kimi, Şahbuz rayonunda da nəqliyyat sisteminin yük və sərnişin daşınmasında müsbət nailiyyətlər əldə edilmişdir. Bu gün rayon üzrə 29 marşrut, 34 avtobus və 27 taksi vasitəsi ilə əhaliyə nəqliyyat xidməti göstərilir. Beləki, Şahbuz rayonu üzrə 2021-ci ildə 409 min 900 ton yük, 1 milyon 260 min 200 sərnişin daşınmışdır. Yük və sərnişin daşın-madan bütövlükdə 1 milyon 496 min 600 manat vəsait əldə edilmişdir [22].

Mənbələrdə XIX əsrin 30-cu illərində Quba, Naxçıvan, Şuşa, Şamaxı, eləcə də Lənkəran, Nuxa (Şəki), Salyan və digər yerlərdə də poçt idarələri yaradıldığı haqqında məlumat verilir. Məlumdur ki, poçt yolları adətən mövcud olan şose yollarının kənarları ilə çəkilirdi. 1828-ci ildən sonra Naxçıvan-Yerevan, Culfa, Ordubad və Sisyan arasında şose yolu, 1870-ci ildə isə Naxçıvan-Şuşa poçt yolu çəkilir ki, bu yolun müəyyən bir hissəsi Şahbuz ərazisindən keçirdi [2, s.214]. Onu da qeyd edək ki, Azərbaycanda ilk teleqraf xətti 1864-cü ildə Naxçıvanla Culfa arasında çəkilmişdir [1, s.293]. Teleqrafın da mövcud olması rabitənin yeni, həm də daha rahat və təcili növü olan telefonun yaranmasına səbəb oldu.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1923-cü ilin may ayında Naxçıvan diyar Komitəsinin qərarına uyğun olaraq Naxçıvan şəhərində radio stansiyası təşkil olunmuşdur. 1924-1925-ci illərdə Naxçıvan şəhərində mövcud olan radio şəbəkə aparatları ilə 7 məntəqə üzrə-partiya, komsomol, qadın klubları və s. verilişlər təşkil olunmuşdur [16].

Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Xalq Komissarları Soveti tərəfindən 1926-cı il 17 mart tarixli "Naxçıvan MSSR-nin telefonlaşdırılması haqqında" qərar qəbul edilmiş və həmin qərara əsasən, ilk növbədə, Naxçıvan-Qıvraq-Baş Noraşen və Naxçıvan-Cəhri-Şahbuz-Biçənək xəttinin çəkilməsi nəzərdə tutulmuşdur. 1930-cu ildə Şahbuzda 30 yerdə radio qovşağı quraşdırılmışdır [7, s.44-45]. 1931-ci ildə Şahbuz rayonunun bir çox kəndləri ilə yanaşı, Nurs kəndinə də radio xətləri çəkilmişdir [17]. Muxtar respublikanın bütün rayon mərkəzlərində, eyni zamanda Şahbuz rayonunda da radio qovşağının təşkili məqsədilə Naxçıvan MSSR MİK-nin 1 aprel 1932-ci il tarixli qərarı əsasında radioverilиş komitəsi təşkil olunmuşdur [18]. 1932-1934-cü illərdə Şahbuzda radio qovşağı tikilərək istifadəyə verilmişdir. 1933-1936-ci illərdə Şahbuz rayonunun Kənd Şahbuz (Şahbuzkənd), Sələsüz, Mahmudoba, Ərinc (Ayrınc) və s. kəndlərinə radio xətti çəkilmişdir [19].

Naxçıvan MSSR Radio Komitəsinin rəhbərliyi və təşkilatçılığı altında 1 yanvar 1940-cı ildən mövcud olan 7 radio qovşağı ilə 1684 nöqtə üzrə radio verilişlər təşkil olunmuşdur ki, bunlardan 75-i Şahbuz rayonunda təşkil olunmuşdur [20].

1940-1941-ci illərdə muxtar respublikanın bütün rayonlarında artıq radio-verilişləri komitələri təşkil olunmuşdur. 1941-ci ildə Şahbuz rayonunda 150 radio-reproduktor mövcud idi [21]. 1978-ci ildə Şahbuz rayonunun Badamlı, Kükü, Külüs kəndlərində radioqovşaqlar fəaliyyətə başlamışdı.

Artıq, 1970-ci ildə Şahbuz rayonu üzrə rabitə müəssisələri və bölmələrinin sayı 17-yə çatmışdır. Əhalidə olan telefon aparatlarının sayı 420 olmuşdur [12, s.206].

1980-1985-ci illərdə Naxçıvan şəhəri ilə muxtar respublikanın bütün rayon mərkəzləri arasında, o cümlədən Şahbuz rayonunda da 60 kanallı kabel xəttləri istifadəyə verilərək tam avtomat telefon əlaqəsi yaradılmışdır.

Sovetlər dövründə Naxçıvanın bütün telekommunikasiya xətləri Ermənistan ərazisindən keçdiyi üçün 1990-cı il yanvar ayının 17-də erməni işğalçıları tərəfindən Gorus rayonunda yerləşən Üçtəpə radioteleötürücü stansiyasına gələn xətləri kəsməklə Naxçıvan Muxtar Respublikasına ötürülən televiziya və radio verilişlərini dayandırdılar. Muxtar respublika tam informasiya blokadasına alındı [24].

1998-ci ildə Cənubi Koreyanın "DEU Telekom" şirkəti ilə bağlanmış müqaviləyə əsasən muxtar respublikada yaşayış məntəqələri telefonlaşdırılaraq abonentlər birbaşa Beynəlxalq Telefon rabitə sisteminə çıxma imkanı əldə etmişlər [8, s.231].

1998-ci ildə Şahbuz rayonu üzrə rabitə müəssisələri və bölmələrinin sayı 18, əhalidə olan telefon aparatlarının sayı isə 733 olmuşdur. Rabitə əlaqəsini təmin etmək məqsədilə Türkiyə və Naxçıvan Muxtar Respublikası arasında radiotele xətti çəkilib istifadəyə verilmişdir. Bu zaman muxtar respublikanın digər bölgələrində olduğu kimi, Şahbuz rayonunun qəsəbə və kəndlərində də telefon xəttinin çəkilişi davam etmiş və 2000-ci ildə 700 nömrəlik telefon çəkilişi başa çatmışdır. Bununla yanaşı, muxtar respublika ərazisində 1-ci respublika proqramı üzrə radioyayımın keyfiyyətini yaxşılaşdırmaq məqsədilə Şərur, Culfa və Şahbuz rayonlarında FM radioqəbuledicisi quraşdırılmışdır. Həmçinin, Şahbuz, Şərur və Babək rayonlarında teleqraf sexi faks sisteminə keçirilməsi qarşıya məqsəd qoyulmuşdur [26, s.46].

Muxtar respublikanın sosial-iqtisadi inkişafına nəzər saldıqda məlum olur ki, Şahbuz rayonunda telefon xətlərinin çəkilişi sonrakı illərdə də davam etmişdir. Rayon ərazisində 2003-cü ildə 164 nömrəlik yeni telefon xətləri [27, s.26], 2004- cü ildə139 [28, 12, s.49], 2005 -ci ildə 70 sayda telefon xətləri çəkilmişdir [29, s.31]. 2006-

cı ildə isə Aşağı Qışlaq kəndində kəndində 192 nömrə tutumluluq yeni elektron avtomat telefon stansiyası Mahmudoba kəndinə yeni poçt bölməsi istifadəyə verilmişdir [30 s.28].

2015-ci ilin iyul ayında Naxçıvan özünün "NAXTEL" mobil rabitə sistemini təsis edib, muxtar respublika ərazisinin 83 faizi simsiz telefonla təmin etdi.

Bu gün muxtar respublikanın bütün rayonlarında olduğu kimi, Şahbuz rayonunda da hər 100 ailəyə düşən stasionar telefon aparatlarının sayı 67, mobil telefonların sayı isə 104-ə çatmışdır. Muxtar respublikada mobil telefon abunəçilərinə xidmət edən 4 mobil operator fəaliyyət göstərir və bu da yaşayış ərazilərinin 93 faizindən çoxunu mobil rabitə ilə təmin edir.

İnformasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi rabitə xidmətlərinin də artmasına təsir göstərir. Beləki, Şahbuz rayon ərazisində 2002-ci ildə əhaliyə 190,0 manat dəyərində informasiya və rabitə xidməti göstərildiyi halda, 2020-ci ildə bu rəqəmin sayı 2354,7 minə çatmışdır [35].

Rabitə sahəsində qazanılan uğurların nəticəsidir ki, muxtar respublikanın yaşayış ərazilərinin 98 faizində genişzolaqlı, 99 faizində isə simsiz internet xidmətləri təşkil edilir [6, s.79].

Görülən işlərin nəticəsində Şahbuz rayonunda 2021-ci ilin yanvar-may aylarında poçt və rabitə xidməti sahəsində müəyyən nailiyyətlər əldə edilib. Beləki, 293 min 969 manat barat qəbul edilib, 223 min 997 manat barat ödənilib. 101 nəfər pensiyaçıya poçt bölmələri tərəfindən 165 min 697 manat məbləğində pensiya, müavinət və təqaüdlər ödənilib. Bununla yanaşı, 37 yeni telefon xətti çəkilib, ümumilikdə, əhaliyə 866 min 100 manatlıq rabitə xidməti göstərilib [22]. Bu gün Şahbuz əhalisinin demək olar ki, əksəriyyəti rəqəmsal televizordan, həmçinin internet şəbəkələrindən istifadə edir.

Əhalinin sosial inkişafına təsir edən amillərdən biri də onların energetika və mavi yanacaqla mütəmadi təmin edilməsidir. Mənbələrdən aydın olur ki, Naxçıvan Muxtar Respublikasında 1930-1940-cı illərdə bir sıra çayların, həmçinin yüksək debitli bulaqların üzərində su elektrik stansiyaları tikilmişdir. Bunlardan Əlincəçay üzərində Xanağa, Naxçıvançay üzərində Qarababa, Asnı bulağı üzərində Qarabağlar, Elsuyu üzərində Çalxanqala və s. su elektrik stansiyalarını göstərmək olar [2, s.143]. Onlardan ayrı-ayrı yaşayış məntəqələrini işıqlandırmaqda istifadə edirdilər. Lakin, bunlar əhalinin elektrik enerjisinə olan tələbatı ödəmirdi.

1955-ci ildə Mingəçevir Su Elektrik Stansiyasının istifadəyə verilməsi Azərbaycanla yanaşı, bütün Zaqafqaziya respublikalarında da su-elektrik enerjisinin inkişafı sahəsində yeni dövr oldu. Həmin vaxtlar Mingəçevir Su Elektrik Stansiyası Gürcüstana 500 mln, Ermənistana 700 mln kilovot saat enerji verdi. 1958-ci ildə isə Yerevan-Naxçıvan yüksək gərginlikli elektrik xəttinin çəkilişi başa çatdı [2, s.143].

1966-cı ilin sonunadək muxtar respublikanın bütün yaşayış məntəqələri o cümlədən, Şahbuz rayonunun yaşayış məntəqələri də başdan-başa elektrikləşdirildi. Həmin dövrdən muxtar respublika elektrik enerjisi ilə Zaqafqaziyanın vahid energetika sistemindən 220 kilovoltluq Ararat-Babək, 110 kilovoltluq Ararat-Şərur, Araz Su Elektrik Stansiyası vasitəsi ilə təhciz edilirdi [6, s.81].

Mənfur qonşularımızın düşmənçilik siyasəti nəticəsində 1990-cı ildən etibarən muxtar respublikaya enerji verilişi dayandırıldı, yalnız Araz Su Elektrik Stansiyasında istehsal edilən 15-20 nvt gücündə elektrik şəbəkələrə ötrüldü.

Muxtar respublikada elektroenergetikanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. 1991-1992-ci illərdə yaranmış çətin vəziyyətə baxmayaraq, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə blokadada olan Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi ilə təchiz etmək məqsədilə Türkiyə Cümhuriyyətindən 154 kilovoltluq və İran İslam Respublikasından Naxçıvana 132 kilovoltluq yüksək gərginlikli elektrik verilişi xətti çəkildi. Muxtar respublikaya Türkiyədən və İrandan elektrik enerjisi alınmağa başlandı.

1993-cü ilin ortalarında muxtar respublikaya İran İslam respublikasından 42 meqavat, Türkiyə Respublikasından isə 63 meqavat gücündə elektrik enerjisi daxil olurdu ki, bu da muxtar respublika əhalisinin yaşayış standartlarının normalaşmasında mühüm mərhələ idi [25].

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında elektrik enerji təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2005-ci il 2 may tarixli Sərəncamına uyğun olaraq muxtar respublikada kompleks tədbirlər həyata keçirilmiş, 2006-cı ilin dekabrında ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, 2006-cı ildə Şahbuz rayonunun bütün istifadəçilərinin, həmçinin Ba-

bək rayonunun Cəhri, Nəzərabad, Kərimbəyli kəndlərində elektrik təchizatını yaxşılaşdırmaq məqsədi ilə 110/35 kilovoltluq 50 meqavat güclü ikitransformatorlu "Xalxal" elektrik yarımstansiyası tikilib quraşdırılmış və istismara verilmişdir [36].

2007-2009-cu illərdə muxtar respublikanın bütün ərazisində, həmçinin Şahbuz rayonunda da vətəndaşların mənzillərində pulsuz olaraq müasir tipli elektron sayğaclar quraşdırılmış, mənzillərə giriş elektrik xətləri yeniləri ilə əvəz olunmuşdur. 2008-ci ildə Şahbuz rayonunda istehlak edilmiş enerji 12897 min kvt-saat olmuşdur. 2012-ci ildə Şahbuz rayonunda elektrik verilişi xətlərinin uzunluğu 693,3 kilometr, elektrik yarımstansiyaların sayı 188 ədəd, elektrik sayğaclarının sayı 4179 ədəd, istehlakçıların sayı 4179 olmuşdur [37, s.23, 25, 26, 27, 28]. Bu gün isə bütün şahbuzlular tamamilə elektrik enerjisi ilə fasiləsiz olaraq təmin olunmuşlar.

Hazırda muxtar respublikada Araz Su Elektrik stansiyası, Naxçıvan Qaz Turbin Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində su elektrik stansiyası, Naxçıvan Modul Elektrik Stansiyası, Biləv Su Elektrik Stansiyası, Arpaçay Su Elektrik stansiyası və digərləri ilə yanaşı, 2015-ci ildə Babək rayonunun Xalxal kəndi yaxınlığında tikilmiş Naxçıvan Günəş Elektrik stansiyası, 2019-cu ildə isə Kəngərli rayonunda Günəş Elektrik stansiyası istismara verilib [6, s.88].

Ümumiyyətlə, sovet hakimiyyəti illərində muxtar respublikada cəmi 1 elektrik stansiyası fəaliyyət göstərirdirsə, bu gün ərazidə 9 elektrik stansiyası fəaliyyət göstərir. Artıq muxtar respublika ərazisində vətəndaşlar fasiləsiz olaraq elektrik enerjisi ilə təmin olunub.

Naxçıvan Muxtar Respublikasında qaz təsərrüfatının yaradılması da ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin göstərişinə əsasən Azərbaycan Respublikası Nazirlər Sovetinin 1973-cü il 22 avqust tarixli və Azərbaycan Respublikası "Başqaz" İdarəsinin 1973-cü il 6 sentyabr tarixli əmri ilə "Naxçıvan Zonal İstehsalat Qaz Birliyi" yaradılmışdır. Bunun davamı olaraq Heydər Əliyevin təsəbbüsü ilə 1978-1980-ci illərdə Yevlax-Xankəndi-Laçın-Şahbuz-Naxçıvan yer-altı Dy-720 millimetrlik yüksək təzyiqli magistral qaz kəməri çəkilmiş və ilk dəfə olaraq 1980-ci ildə Naxçıvan səhərinə təbii qaz verilmişdi. Lakin, o zaman muxtar respublikanın bütün yaşayış məntəqələrinin qazlaşdırılması işi başa çatdırılmadı. Çünki, mənfur qonşumuz tərəfindən torpaqlarımızın işğalı nəticəsində 1991-ci ildə muxtar respublikaya təbii qazın nəqli dayandırıldı.

Ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdə çətin şəraitdə Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi zaman bölgənin energetika və yanacaq probleminin həlli bu fəaliyyətin aktual istiqamətlərindən biri idi. Muxtar respublikanın qazla təmin edilməsini İran İslam Respublikası vasitəsilə həyata keçirmək qarşıya məqsəd kimi qoyulmuşdur. Nəticədə, 1992-ci ildə Heydər Əliyevin İran İslam Respublikasına səfəri zamanı "Xoy-Culfa" qaz kəmərinin çəkilməsi və Naxçıvanın qazla təmin edilməsi barədə protokol imzalanmışdır.

Ölkə prezidenti cənab İlham Əliyevin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na (2004-2008-ci illər) uyğun olaraq Naxçıvan Muxtar Respublikasının təbii qazla təminatının bərpası və təbii qaza olan tələbatını ödəmək məqsədilə 5 avqust 2004-cu ildə "Azəriqaz" QSC və İran Milli Qaz İxrac Sirkəti arasında "Təbii qaz mübadiləsi" haqqında müqavilə imzalandı. Bununla da, bölgə üçün sosial sahədə olan ən zəruri problematik məsələ uğurlu və daimi həllini tapmış oldu. Nəhayət, 20 dekabr 2005-ci ildə 14 illik fasilədən sonra muxtar respublikaya mavi yanacağın verilməsi bərpa olundu.

Qısa müddət ərzində Naxçıvan qazlaşdırıldı, Culfa- Ordubad və Şahbuz-Sədərək ötürücü qaz kəmərinin təmiri və bərpası tamamlandı. 2011-ci ilin sonunda isə muxtar respublikanın ən ucqar dağ kəndləri də əhatə olunmaqla bütün əraziləri qazlaşdırılmışdır [32, s.1-14], 2012-ci ildə isə uzunluğu 27 kilometr olan Cəhri-Şahbuz ortatəzyiqli qaz xəttində tikinti işləri başa çatdırılmışdı [33, s.15]. Görülən səmərəli fəaliyyət nəticəsində 2012-ci ildə Şahbuz rayonunda mavi yanacaq istehlakçılarının sayı 4400 olduğu halda [36, s.3]. 2021-ci ildə 4749 olmuşdur. Bundan əlavə qaz istehlakçılarının sayı özəl müəssisələrdə 101, dövlət obyeklərində isə 122 olmaqla cəmi 4972 istehlakçı olmuşdur. Şahbuz rayonunda 2021-ci ildə mavi yanacaq sərfi 9 mln. 906 min 744 kub olmuşdur.

Dövlətin dəstəyi ilə muxtar respublikanın mərkəzində olduğu kimi, rayonlarımızda, hətta ən ucqar kəndlərimizdə belə nəqliyyat-kommunikasiya sisteminin bərpası, elektrik enerjisi,

rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaratmışdır.

Ədəbiyyat

1. Azərbaycan etnoqrafiyası. [Üç cilddə]. – Bakı: Şərq-Qərb, – c.2. – 2007. – 384 s.
2. Babayev, S. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. / S.Babayev – Bakı: Elm, – 226 s.
3. Bünyadov, T.Ə. Azərbaycanda qədim nəqliyyat vasitələri. / T.Ə.Bünyadov – AEAX: – 1961. №3, s.3
4. Bünyadov, T.Ə. Azərbaycanda maldarlığın inkişafı tarixindən. / T.Ə.Bünyadov – Bakı: Elm, –1969. –185 s.
5. Əliyev, Q. XIX-XX yüzilin başlanğıcında nəqliyyatın inkişafı. / Q.Əliyev – Bakı: – 1995. – 193 s.
6. Hacıyev, İ. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı. / İ.Hacıyev – Naxçıvan: Əcəmi, – 2020. – 224 s.
7. Hacıyev, İ. Naxçıvan Muxtar Respublikası-90. / İ.Hacıyev, B.İsmayılov – Naxçıvan: Əcəmi, – 2014. – 184 s.
8. Hacıyev, İ. Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında. / İ.Hacıyev s.231
9. İsayev, E. Böyük İpək yolu və Naxçıvan. / E.İsayev – Bakı: Elm və təhsil, – 2012. – 212 s.
10. Hacıyeva, S. XVIII-XIX əsrlərdə Naxçıvanın təsərrüfat həyatında nəqliyyat vasitələri kimi istifadə edilən heyvanlar haqqında. //– Naxçıvan: Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, İctimai elmlər seriyası. – 2018. – № 6 (95), – s. 67-69
11. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. [iki cilddə] / İqtisadi və sosial coğrafiya. – Naxçıvan: Əcəmi, – c. 2. – 2018. – 384 s.
12. Naxçıvan: Muxtar Respublikası-80 (Tarixi-statistik məcmuə). – Bakı: Səda, – 2004. – 212 s.
13. NMRDA:f. 277, siy.1, iş7
14. NMRDA: f. 177, siy. 1, iş 1
15. NMRDA: f. 235, siy.1, iş 38, v. 9
16. NMRDA: f.1, siy.1, iş.83, v. 2
17. NMRDA: f. 5, siy1, iş 13, v. 2
18. NMRDA: f. 40, siy.1, iş 247, v. 34
19. NMRDA: f.362, siy.1, iş.20, v.14
20. NMRDA: f.362, siy.1, iş.20, v. 18-20
21. NMRDA, f.362, siy.1, iş.24, v.1-6
22. Oğuz səsi. – 2021, 17 iyul.
23. Şahvediyev, Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. / Z.Şahvediyev – Bakı: Qismət, – 2008. – 222 s.
24. Şərq qapısı. – 1990 19 yanvar.
25. Şərq qapısı. – 2010, 20 oktyabr.
26. 2000-ci ildə Naxçıvan Muxtar Respublikasında görüləcək işlərin proqramı. – Naxçıvan: Qeyrət, – 56 s.
27. 2003-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. – Naxçıvan: Əcəmi, – 2004. – 60 s.
28. 2004-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları haqqında. – Naxçıvan: Əcəmi, – 2005. – 75 s.
29. 2005-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. – Naxçıvan: Əcəmi, – 2006. – 154 s.
30. 2006-cı il 2005-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. – Naxçıvan: Əcəmi, – 2007. – 188 s.
31. 2009-cu ildə Naxçıvan Muxtar Respublikanın sosial-iqtisadi inkişafının xülasəsi. – Naxçıvan: Əcəmi, – 2010. – 182 s.
32. 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. – Naxçıvan: Əcəmi, – 2012. – 87 s.
33. 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. – Naxçıvan: Əcəmi, – 2014. – 95 s.
34. htts://heyvanbazari, az/articles/meqaleler/faydali/ulaq neqliyyat vasitesi kimi
35. http://statistika.nmr.az/source/communication/index.php
36. energetika.pdf-Adobe Reader, s. 9
37. http://statistika.nmr.az/library/source/energetika.pdf s.23, 25, 26,27,28)
38. Шопен И. Исторический памьятник состояния Армянской области вэпоху ее присоединения к Российской империи, Санкт-Петербург: ипография императорской АН, 1852, 1231с.)

Məqalə tarix üzrə elmlər doktoru, professor Zəhmət Şahverdiyeva tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 11 fevral 2022-ci il
Son daxilolma tarixi:19 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 94(479.24)+ 79

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 114-117
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 114-117
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 114-117

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA BOKSUN İNKİŞAFI TARİXİNDƏN

Müəlliflər:

Valeh Əlixanov
Naxçıvan Dövlət Universiteti

Nazim Əliyev
Naxçıvan Dövlət Universiteti
E-mail:
nazimaliyev22@outlook.com

Açar sözlər:
dövr, bədən tərbiyəsi, idman, turnir, yarışlar,medal, boks, kubok

Annotasiya. Məqalədə Naxçıvan Muxtar Respublikasında idmanın boks növünün inkişafı tarixindən və bügününkü vəziyyətindən bəhs edilir. Qeyd edilir ki, boks bütün dövrlərin idman növüdür. Boksun inkişafı beş min illik tarixi əhatə edir. Cəmiyyətin yaranmasının ilk dövrlərindən boks yaranmağa başlamış və müxtəlif formada dünya xalqları arasında yayılmışdır. Hələ beş min il bundan əvvəl Misir və Babilistanda mövcud olmuş yumruq döyüşü əsasında inkişaf etmişdir. Xüsusilə Yunanıstanda boksun məhşur olmasını qeyd etmək olar. Azərbaycanın əksər bölgələrində olduğu kimi qədim yaşayış məskəni Naxçıvan Muxtar Respublikasında da boks idman növünün tarixi ənənələri var. Belə ki, 1946-cı ildən Naxçıvan şəhər uşaq-gənclər idman məktəblərinin yarandığı vaxtdan etibarən boks idman növü başqa idman növləri kimi yaranıb, təkmilləşib və inkişaf dövrü keçib. Müxtəlif illərdə boks üzrə mütəxəssislər UGİM-lərdə və Daxili İşlər Nazirliyinin "Dinamo" İdman Cəmiyyətində bu idman növü üzrə təlimlər keçmiş, daim kiçik və böyük yarışlar təşkil etmiş, Azərbaycan boksunun inkişafına böyük töhfələr vermişlər.

Authors:

Valeh Alikhanov
Nakhchivan State University

Nazim Aliyev
Nakhchivan State University
E-mail:
nazimaliyev22@outlook.com

Key word:
period, physical education, sports, tournaments, competitions, medals, boxing, cup

FROM THE HISTORY OF THE DEVELOPMENT OF BOXING IN THE NAKCHIVAN AUTONOMOUS REPUBLIC

Abstract. The article talks about the history of the development of boxing in the Nakhchivan Autonomous Republic and its current state. It is noted that boxing is a sport of all times. The development of boxing covers five thousand years of history. Boxing began to emerge from the early days of society and spread among the peoples of the world in various forms. It developed on the basis of fist fighting that existed in Egypt and Babylonia five thousand years ago. It can be noted that boxing is especially popular in Greece. As in most regions of Azerbaijan, the ancient settlement of Nakhchivan Autonomous Republic has historical traditions of boxing. Thus, since 1946, since the establishment of Nakhchivan sports schools for children and youth, the sport of boxing, like other sports, has been developed, improved and passed a period of development. Over the years, boxing specialists have trained in this sport at UGIMs and the "Dinamo" Sports Society of the Ministry of Internal Affairs, constantly organized small and large competitions, and made great contributions to the development of Azerbaijani boxing.

Авторы:

Валех Алиханов
Нахчыванский государственный университет

Назим Алиев
Нахчыванский государственный университет
E-mail:
nazimaliyev22@outlook.com

Ключевые слова:
период, физкультура, спорт, турнир, соревнования, медаль, бокс, Кубок

ИЗ ИСТОРИИ РАЗВИТИЯ БОКСА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

Аннотация. В статье рассказывается об истории развития и сегодняшнем состоянии вида спорта бокса в Нахчыванской Автономной Республике. Отмечается, что бокс - это спорт всех времен. История развития бокса насчитывает пять тысяч лет. С первых времен зарождения общества бокс начал зарождаться и в различных формах распространяться среди народов мира. Он развивался на основе кулачного боя, который еще пять тысяч лет назад существовал в Египте и Вавилонии. В частности, можно отметить популярность бокса в Греции.Как и в большинстве регионов Азербайджана, в древнем поселении Нахчыванская Автономная Республика бокс имеет исторические традиции. Так, с 1946 года, с момента создания детско-юношеских спортивных школ (ДЮСШ) в городе Нахчыван, бокс, как и другие виды спорта, зародился, совершенствовался и прошел период развития. В разные годы специалисты по боксу проводили тренировки по этому виду спорта в ДЮСШ и спортивном обществе «Динамо» Министерства внутренних дел, постоянно организовывали и проводили малые и крупные соревнования и внесли большой вклад в развитие азербайджанского бокса.

Müasir dövrdə bədən tərbiyəsi və idmanın inkişafı hər bir dövlətdə insanların sağlamlığı və mənəvi yüksəlişi ilə yanaşı, milli potensialın maksimum səmərəli reallaşdırılması, cəmiyyətin saflaşması və yetkinləşməsi, genefondun qorunub saxlanması baxımından son dərəcə mühüm vasitə sayılır. İstənilən dövlətdə idmanın inkişafının yüksəlişini bu sahənin inkişafı üçün atılan davamlı məqsədyönlü addımlar, idmanın müxtəlif sahələri üzrə maddi bazanın genişləndirilməsi, təkmilləşdirilməsi, öz bacarığı ilə idmanın inkişafına təkan verə biləcək peşəkar mütəxəssislərin yetişdirilməsi şərtləndirir.

Bədən tərbiyəsi və idman cəmiyyətin sivilizasiyasının ilk dövrlərindən təşəkkül tapmış və müxtəlif formalarda dünya xalqları arasında geniş yayılmışdır. Bədən tərbiyəsi və idmanın inkişafı birbaşa insanların fiziki və mənəvi sağlamlığının, cəmiyyətin genefondunun qorunub saxlanılması və inkişaf etdirilməsi, milli potensialın və insan kapitalının səmərəli şəkildə reallaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Bu sahənin gələcəyini düzgün proqnozlaşdırmaq, inkişaf strategiyası və meyillərini elmi-tarixi faktlar əsasında müəyyənləşdirmək baxımından onun tarixini hərtərəfli şəkildə dərindən öyrənmək və öyrətmək son dərəcə aktualdır. İdman tarixçilərinin bu istiqamətdə atdığı hər bir addım təqdirə layiqdir. İndi isə Naxçıvan boks məktəbinin yetirmələrini tanıyaq.

Seymur Hüseynov Nazim oğlu 1981-ci ildə Sədərək rayonunda anadan olmuşdur. 1997-ci ildə Sədərək rayon 1№ li orta məktəbini bitirib. 1998-2002-ci illərdə Naxçıvan Dövlət Universitetinin Bədən tərbiyəsi və idman ixtisasında təhsil almışdır. Həmin ildən Dinamo Boks cəmiyyətində idmana başlamışdır.

2002-ci ildən hərbi xidmətə yollanıb. 2003-cü ildə hərbi xidməti başa vurmuşdur. Həmin ildən Sədərək rayonunda məşqçi müəllim vəzifəsində işləyir [1, s.103].

Mizəffər Həbibov Rəsul oğlu 1981-ci ildə Ordubad şəhərində anadan olmuşdur. O, 2011-ci ilin oktyabr ayından Ordubad rayon Uşaq Gənclər İdman məktəbində boks üzrə məşqçi müəllim vəzifəsində işləyir. Yetişdirdiyi boksçular Nax. MR və Azərbaycan birinciliklərinin qalibi və mükafatçıları olmuşlar.

Öz nailiyyətləri ilə həmişə məktəbdə seçilən məşqçi müəllim olmuş. Belə ki, keçirilmiş kütləvi idman tədbirlərində, yarışlarda, yoldaşlıq, görüşlərində, Muxtar Respublika çempionatlarında daima yetişdirdiyi idmançılar ilə iştirak etməklə uğurlu nəticələr əldə etmişdir. Məktəbin idmançıların vətənpərvər ruhda tərbiyə olunmasında onun xidmətləri çoxdur [1, s.104].

Teymur Əsgərov Xəlil oğlu 1985-ci ildə dekabrın 22-də Naxçıvan şəhərində anadan olub. 1993-2003-cü illərdə Eynal Sultanov adına 7 nömrəli məktəbdə təhsil almış.

1995-ci ildə Uşaq Gənclər İdman Məktəbində boks idman növüylə məşğul olmağa başlamışdır. Məşğul olduğu müddətdə 2 dəfə yeniyetmələr arasında, 1 dəfə gənclər arasında Respublika Çempionu olmuş, 2 dəfə Heydər Əliyev adına beynəlxalq turnirdə, 2 dəfə Abbas Ağalarov adına keçirilən beynəlxalq turnirdə qalib olmuşdur.

Rusiyada keçirilən bir neçə beynəlxalq turnirdə 1-ci və 2-ci yerləri tutmuşdur.

2006-cı ildə Mərakeşdə Gənclər arasında keçirilən dünya çempionatında ¼ finala kimi irəliləmişdir.

2003-2007-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akademiyasında təhsil almışdır.

2008-2009-cu illərdə ordu sıralarında xidmət etmişdir.

Hal-hazırda Bakı şəhərində Qızıl Əlcək idman klubunda boks üzrə məşqçi müəllim kimi fəaliyyət göstərir [1, s.108-110].

Məhəmməd Əliyev Məmmədcəfər oğlu 22 iyun 1986-cı ildə Naxçıvan şəhər Qaraçuq kəndində anadan olmuşdur. 1992-2003-illərdə Naxçıvan şəhər Qaraçuq kənd orta məktəbini, indiki 9 nömrəli məktəbi bitirmiş.

İdmanın boks növü ilə uşaq yaşlarından məşğul olmağa başlamış. Dəfələrlə Naxçıvan şəhər MR birinciliklərinin qalibi olmuşdur.

2002, 2003, 2004, 2005-ci illərdə Azərbaycan birinciliklərinin və Beynəlxalq turnirlərin qalibi və mükafatçısı olmuş.

2007-2008-ci illərdə ordu sıralarında xidmətdə olmuşdur.

Naxçıvanda qazandığı nəticələrə görə Azərbaycan Gənclər və İdman Nazirliyi tərəfindən "İdman ustası" adı ilə təltif edilmişdir [1, s.111-112].

Əli Tağıyev Fazil oğlu 1987-ci il 16 fevral Azerbaycanın Cəbrayıl şəhərində anadan olmuş. 1993-2004-cü illərdə Naxçıvan şəhər 11 nömrəli məktəbdə orta təhsil almışdır.

1997-ci ildə 48 kq çəki dərəcəsində boks üzrə Azərbaycan üçüncüsü olmuş və dəfələrlə

Naxçıvan birinciliklərinin qalibi və 2003-cü ildə Azərbaycan çempionu olmuş.

2004-cü ildə İpək yolu turnirində 2-ci yerə layiq görülmüş. 2006-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mükafatı uğrunda Boks üzrə Naxçıvan birinciliyində 1-ci yerə layiq görülmüş və 2011-ci ildə Türkiyədə keçirilən açıq turnirdə çempion olmuşdur.

Naxçıvan Boks Federasiyasında məşqçi kimi fəaliyyət göstərmiş və yetirmələri bir sıra nailiyyətlər qazanmış, Naxçıvan çempionatlarında, Azərbaycan və İranda keçirilən beynəlxalq yarışlarda çempion olmuşlar [1, s.113-115].

Rasim İsgəndərov Vasif oğlu 1 aprel 1989-cu ildə Şərur rayonunun Xələc kəndində anadan olmuşdur. 1996-cı ildə Xələc kənd orta məktəbinin 1-ci sinifinə daxil olub. 2003-cü ildən boksla məşğul olmağa başlayış. 2006-cı ildə orta məktəbi bitirib.

2007-ci ilin aprel ayında hərbi xidmətə getmiş , 2008- ci ilin oktyabr ayında hərbi xidməti bitirmişdir.

Boksla məşğul olduğu müddətdə Naxçıvan çempionatının qalibi olmuş. Türkiyə və İran İslam Respublikasında keçirilən beynəlxalq turnirlərdə iştirak etmiş və çempion olmuşdur. Türkiyədə keçirilən profesional Boks yarışında gümüş medalın sahibi olmuşdur.

Məşqçi müəllimi Vüqar Novruzov olmuşdur. 2011-ci ildən bəri Şərur rayon UGİM-də boks müəllimi kimi fəaliyyət göstərir. Tələbələri İsmayılov Alişan, Zeynalov Vüsal, Cəfərov Çingiz, Məmiyev Məhəmməd, Şəfiyev Kənan Naxçıvanda Heydər Əliyev kuboku uğrunda keçirilən yarışlarda dəfələrlə çempion olmuşlar. Naxçıvan Muxtar Respublikasında keçirilən beynəlxalq turnirdə Şəfiyev Kənan bürünc medal qazanmış daha sonra isə Türkiyədə keçirilən beynəlxalq turnirdə gümüş medalın sahibi olmuşdur. İsmayılov Alişan Bakıda keçirilən yeniyetmələr arasında boks yarışmasında 1-ci yerə layiq görülmüşdür.

İsgəndərov Rasim 2020-ci ildə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin fəxri diplomuna layiq görülmüşdür [1, s.116-117].

Eldar Quliyev Səfər oğlu 11 avqust 1992-ci il tarixdə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

1998-ci ildə Akademik Zərifə Əliyeva adına tam orta məktəbə orta təhsilini almaq üçün başlamış və 2009-cu ildə orta məktəbi bitirmişdir. 2010-2012-ci illərdə həqiqi hərbi xidmət də olmuşdur.

İdman ustası Valeh Əlixanovun rəhbərliyi altında boks idman növü ilə məşğul olmuş. Naxçıvan Muxtar Respublikasında təşkil olunmuş yeniyetmələr arasında keçirilən boks yarışlarında iştirak edərək, uğur qazanmış. Dəfələrlə milli və beynəxalq yarışlarda iştirak edib, müvəfəqqiyyət əldə etmişdir.

2016, 2017, 2018-ci illərdə kişilər arasında 81 kq-da Azərbaycan çempionu ünvanı qazanmışdır. Dəfələrlə boks üzrə Dünya və Avropa çempionatı iştirakçısı olaraq, nailiyyətlər qazanmışdır [1, s.125-128].

Hal-hazırda Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşıdır.

Yuris Allahverdiyev Oktay oğlu 18 fevral 1996-cı ildə Babək rayon Hacıvar kəndində anadan olmuş.

2006-cı ildən boks idman növü ilə məşğul olmağa başlamışdır. Məşğul olduğu dövrlərdə Azərbaycan çempionatlarının, Naxçıvan şəhər, Muxtar Respublika birinciliklərinin və beynəlxalq turnirlərin qalib və mükafatçısı olmuşdur. 2013-cü ildə Babək rayon Hacıvar kənd tam orta məktəbini bitirmiş elə həmin il Naxçıvan Dövlət Universitetinin Bədən tərbiyəsi və idman ixtisasına daxil olmuş və 2017-ci ildə həmin ixtisas üzrə təhsilini başa vurmuşdur.

Hal-hazırda Naxçıvan Şəhər Uşaq və Gənclər idman məktəbində məşqçi müəllim vəzifəsində işləyir. Yetirmələri bir sıra yarışların qalib və mükafatçılarıdır [1, s.139-140].

İbrahim Cəfərzadə Rahib oğlu 17.05.1996-cı ildə Naxçıvan şəhərində anadan oluş. 2002-ci ildə 4 nömrəli orta məktəbin birinci sinfinə daxil olmuş 2013-cü ildə təhsilini başa vurmuşdur.

2005-ci ildə müəllimi Məmmədli Eyvazovun rəhbərliyi ilə boks həyatına başlamışdır. Müəlliminin onun bir idmançı kimi yetişməsində çox böyük rolu olmuşdur.

2008-ci ildə Balakən rayonunda keçirilən 4 gün davam edən Azərbaycan çempionatında 1-ci yerə layiq görülmüşdür. 2010-cu ildə Türkiyə Respublikasında keçirilən Beynəlxalq turnirdə 2 döyüş keçirmiş, elə həmin yarışda da 1-ci yerə layiq görülmüşdür. 2012-ci ildə İran İslam Respublikasında keçirilən 3 gün davam edən beynəlxalq turnirdə 1-ci yerə layiq görülmüş. 2013-cü ildə

Naxçıvan şəhərində Heydər Əliyev kuboku uğrunda keçirilən yarışda birinci yeri qazanmışdır.

Naxçıvan şəhərində keçirilən yarışlarda dəfələrlə çempion olmuşdur.

2014-cü ildə Biləsuvar rayonunda gənclər arasında keçirilən Azərbaycan çempionatında 2-ci yerə layiq görülmüş. 2016-cl ildə kişilər arasında keçirilən 6 günlük Azərbaycan çempionatında 3-cü yerə layiq görülmüşdür. 2017-ci ildə Naxçıvan şəhərində 12 ölkə arasında keçirilən Heydər Əliyev kuboku uğrunda turnirdə 2-ci yere çıxmışdır.

2019-cu ildə Naxçıvan şəhərində Heydər Əliyev kuboku uğrunda keçirilən yarışda kubokun sahibi olmuş və "Yarışın ən texnikalı boksçusu" adı ilə təltif olunmuşdur [1, s.141-142].

Əliyev Tayfur Nəriman oğlu 1996-cı ildə Şərur rayon Aralıq kəndində anadan olmuş. Orta təhsilini 2003-2014-cü illərdə Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbdə almış.

2014-2018-ci illərdə Naxçıvan Dövlət Universitetində Bədən tərbiyəsi ixtisası üzrə ali təhsil almışdır.

8-15 yanvar 2015-ci ildə Bakı şəhərində kişilər arasında keçirilən Azərbaycan çempionatında bütün görüşlərini udaraq qalib olmuş və çempionatın ən güclü, texnikalı boksçusu Tayfur Əliyevə qızıl əlcək kuboku təqdim olunmuşdur.

Bakı-2015 ilk Avropa oyunlarının bürünc mükafatçısı olmuş və cənab Prezident İlham Əliyev tərəfindən "Tərəqqi medal"ı ilə mükafatlandırılmışdır.

02-07 fevral 2016-cı ildə Macarıstanın Depretsen şəhərində kişilər arasında beynəlxalq turnirdə Azərbaycan milli komandasının tərkibində həmin turnirdə iştirak etmiş və bütün rəqiblərini udaraq qızıl medal almışdır.

26-31 yanvar 2018-ci ildə Bakı şəhərində keçirilən böyüklər arasında Azərbaycan birinciliyində bütün rəqiblərini məğlub edərək qızıl medala sahib olmuşdur.

Əliyev Tayfur Nəriman oğlu boks üzrə idman ustası, 11 dəfə Azərbaycan çempionu. 2020 – ci il Tokio olimpiadasının iştirakçısı. 2021-ci il Hərbiçilərin Dünya çempionatının bürünc mükafatçısı. Serbiyanın Belqrad şəhərində keçirilən dünya çempionatının 1/8 finalçısı olmuşdur (1,s.146-152).

Əliyev Sərxan Nəriman oğlu 1997-ci ildə Şərur rayon Aralıq kəndində anadan olmuş. Orta təhsilini 2004-2015-ci illərdə Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbdə almış.

2015-2019-ci illərdə Naxçıvan Dövlət Universitetində Bədən tərbiyəsi ixtisası üzrə ali təhsil almışdır.

İdman ustası Sərxan Əliyev həm də gücünü Azərbaycanda peşəkar boksçular arasında keçirilən reytinq yarışlarında sınamış və üç debüt keçirərək tam üstünlüklə qələbə qazanmışdır.

8-14 fevral 2016-cı ildə Bakı şəhərində gənclərin Azərbaycan birinciliyində bütün rəqiblərinin üzərində qələbə qazanmış və I yerə çıxmışdır.

25-30 yanvar 2017-ci ildə Bakı şəhərində kişilər arasında Azərbaycan çempionatında II yeri tutaraq gümüş medal almışdır. 14-17 mart 2017 ci ildə Bakı şəhərində "İpək Yolu" Beynəlxalq turnirində I yeri tutaraq qızıl medal qazanmışdır.

Əliyev Sərxan Nəriman oğlu boks üzrə idman ustası, 8 dəfə Azərbaycan çempionu, 2016-cı il Xorvatistanda keçirilən beynəlxalq turnirin qalibi, 2020-ci il avqust ayında Bakı şəhərində professionallar arasında reytinq yarışlarının qalibi olmuş. Serbiyanın Belqrad şəhərində keçirilən dünya çempionatının bürünc mükafatçısı olmuşdur (1,s.153-157).

Ədəbiyyat

1. Əlixanov, V. Naxçıvan boks məktəbinin yetirmələri. / V.Əlixanov – Naxçıvan: – 2021.

2. Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf tarixi. / D.Quliyev – Bakı: – 2004.

3. Qafarov, A. "Azərbaycanda Bədən tərbiyəsi və idman" Uşaq – Gənclər Ədəbiyyatı. / A.Qafarov, M.İsgəndərov – Bakı: – 1958.

4. Əliyev, M. Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idman hərəkatı. / M.Əliyev – Naxçıvan: Əcəmi, – 1999.

Məqalə tarix üzrə fəlsəfə doktoru, professor Hacıfəxrəddin Səfərli tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 01 fevral 2022-ci il
Son daxilolma tarixi:15 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 811.512.162

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 118-122
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 118-122
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 118-122

ADİL BABAYEV VƏ ƏDƏBİ DİLİMİZ

Müəllif:

Sədaqət Həsənova
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə elmlər doktoru, professor

E-mail:
hasanovasedaget@gmail.com

Açar sözlər:
dil, üslub, söz, ifadə, bədiilik

Annotasiya. Məqalədə Azərbaycan şairlərindən Adil Babayevin dil-üslub xüsusiyyətlərindən danışılır. Bu məqsədlə şairin poeziyası linqvistik cəhətdən təhlil edilir. Adil Babayev Azərbaycan poeziyasına janr yeniliyi gətirən söz sənətkarı kimi qiymətləndirilir. Onun ədəbiyyatla yanaşı, dilimizə də xidmət etməsi haqqında danışılır. Şairin yaradıcılığında Azərbaycan dilində işlənən bəzi sözlərə münasibət göstərilir. Adil Babayevin şeirlərindəki dil-üslub faktları üzə çıxarılır və onlar haqqında elmi-nəzəri fikirlər deyilir. Maraqlıdır ki, Adil Babayevin dilində sözlərdən çox fikirlərin sinonimliyi diqqəti çəkir. Əsərdə sinonimlərin işlənməsi hər bir müəllfin bədii məqsədinə xidmət edir. Dilin sinonimlərlə zənginləşməsində bədii üslub böyük əhəmiyyətə malikdir. Fikir sinonimliyi isə sənətkarlıq keyfiyyətləri ilə bağlı məsələdir. Bu mənada, Adil Babayev Azərbaycan dilinin təbiilik və gözəlliyini çoxaldan şair kimi qiymətləndirilir. Onun poeziyasındakı fərqli məqamlara diqqət edilir və işlətdiyi fərqli bədii söz və ifadələr təhlil edilir. Məqalədəki elmi-nəzəri fikirlər dil-üslub materialları ilə əsaslandırılır.

Author:

Sadagat Hasanova
Nakhchivan Teachers Institute
Doctor of science philology, professor
E-mail: sadaqathasanova@gmail.com

Key word:
language, style, word, expression, artistry

ADIL BABAYEV AND OUR LITERARY LANGUAGE

Abstract. The article talks about the linguistic and stylistic features of Adil Babayev, one of the poets of Azerbaijan. For this purpose, the poet's poetry is analyzed linguistically. Adil Babayev is considered as a word artist who brought genre innovation to Azerbaijani poetry. It is said that he served our language as well as literature. Some words used in the Azerbaijani language are treated in the poet's work. The linguistic and stylistic facts in Adil Babayev's poems are revealed and scientific-theoretical opinions are expressed about them. It is interesting that the synonymy of ideas rather than words in Adil Babayev's language attracts attention. The use of synonyms in the work serves the artistic purpose of each author. Artistic style is of great importance in enriching the language with synonyms. In this sense, Adil Babayev is considered as a poet who multiplied the naturalness and beauty of the Azerbaijani language. Attention is paid to different points in his poetry and different artistic words and phrases he uses are analyzed. Scientific-theoretical ideas in the article are justified by language-style materials

Автор:

Садагат Гасанова
Нахчыванский институт учителей
Доктор наук по филологии, профессор
E-mail: sadaqathasanova@gmail.com

Ключевые слова:
язык, стиль, слово, выражение, художественность

АДИЛЬ БАБАЕВ И НАШ ЛИТЕРАТУРНЫЙ ЯЗЫК

Аннотация. В статье говорится о языковых и стилистических особенностях творчества одного из азербайджанских поэтов Адиля Бабаева. Для этого проводится лингвистический анализ поэзии поэта. Адиль Бабаев считается художником, внесшим жанровое новаторство в азербайджанскую поэзию. В статье констатируется, что он служил нашему языку так же, как и литературе. Некоторые слова, употребляемые в азербайджанском языке, своеобразно интерпретируются в творчестве поэта. Выявляются лингвистические и стилистические факты в стихах Адиля Бабаева и о них высказываются научно-теоретические мысли. Интересно, что в языке Адиля Бабаева обращает на себя внимание синонимия идей, а не слов. Использование синонимов в произведении служит художественной цели любого автора. Художественный стиль имеет большое значение в обогащении языка синонимами. Синонимия идей - это вопрос творческих качеств. В этом смысле Адиль Бабаев считается поэтом, приумножившим естественность и красоту азербайджанского языка. Обращается внимание на разные моменты в его поэзии, анализируются различные художественные слова и фразы, используемые им. Научно-теоретические идеи в статье обосновываются языковыми материалами.

Azərbaycan bədii dili yarandığı gündən indiyədək böyük bir inkişaf yolu keçərək zəngin ənənə, poetik imkan genişliyi, məna sanbalı, yeni söz-ifadə yaradıcılığı xüsusiyyətləri əldə edərək bu günümüzə qədər dəyərli qaynaq məziyyəti qazanmışdır. Sözsüz ki, bədii dili şairlərsiz təsəvvür etmək mümkün deyil. Hər bir söz sənətkarı poetik dilə öz töhfəsini verərək onu mövzu-məzmun cəhətləri ilə yanaşı, dil gözəlliyi ilə də təmin etmişdir. Bədii dilin indiki səviyyəyə gəlməsində ustad qələm sahiblərinin rolu böyükdür. Ədəbi dilimiz yazarlarımızın xidməti nəticəsində zaman-zaman zənginləşmiş və bu prosesdə hər bir qələm sahibi öz gücü daxilində iştirak etmişdir. Bu müəlliflərdən biri də Azərbaycan ədəbi mühitinə janr yeniliyi gətirən, dil sadəliyi, üslub aydınlığı ilə yaddaşlarda qalan Adil Babayevdir. O, həqiqi sənət ölçülərinə cavab verən şeirlərin müəllifi kimi ədəbi aləmdə izi və sözü olan şairlərimizdəndir. Şeir dilinin ən vacib şərti olan sadəlik və aydınlıq onun bütün əsərlərində görünür. Çünki şair tərənnüm və təsvir obyekti ilə bütövlükdə tanışdır, onu dərk edir, duyur, poetik fəhminin əhatəsinə salır. Bu, müəllifin duyum səviyyəsi ilə bağlıdır. Dil sadəliyi, üslub aydınlığı imkan verir ki, əsərin məziyyəti dərk edilsin. Poetik dilin sadəliyi şairin mədəniyyəti ilə bağlı anlayışdır. Bu, əsəri bəsit dildən qoruyur, xoşagəlməz dəbdəbədən uzaqlaşdıraraq ana dilinin gözəlliklərindən istifadəyə yeni imkanlar təqdim edir. Adil Babayev adi həqiqətləri poetikləşdirməyi və onlara hikmət verməyi bacaran sənətkarlardandır:

İnsan gəlir dünyaya, yaşayır, bir gün köçür,
Sağ ikən ölən də var, ölüb sağ qalan da var.
Günlərin əllərindən gah şirin şərbət içir,
Gah acı zəhər içir dünyada yaşayanlar (14 , 113).

Şeir sənətinə qədəm qoyanlar sözün həm forma, həm də məzmun baxımından uğurlu olmasına çalışıblar. Söz fəhminə, əslində, poetik fəhmə malik olan şairlər onun bütün mənalarına nüfuz edə bilirlər. Bu mənada, Adil Babayevin də müəyyən qədər xidməti vardır. Şairin yaradıcılıq səyləri sözü poetik məqsədə yönəldir:

Elimi düşünüb yazan şairə
Bir məslək lazımdır, bir kağız, qələm (7, 92).

Bədii dildə obrazlılıq zərurət kimi qarşıya çıxır. Sözsüz ki, obrazlılığın maddi əsasında söz və ifadələr dayanır. Bədii dildən danışanlar "söz vahiməsi" kimi ifadəni vurğulamaqda haqlıdırlar. Belə ki, sözdən qorxmayanlar, onun qarşısında həyəcan hissi keçirməyənlər bu məna xəzinəsinin sehrinə düşə bilmirlər. Obrazlılığın vasitələri çoxaldıqca əsərin bədii gücü də artır. Obrazlılıq məna ilə bağlı anlayışdır. Bu mənada, o qafiyədən yuxarıda durur. Qafiyə səslənmədə əsas olduğu kimi, obrazlılıq üslubu keyfiyyət baxımından təyin edən vasitə kimi qiymətlidir. Bu vasitənin dərinliyində məcazlıq dayanır. Ona görə də qafiyə sistemi güclü olsa da, məcazlıqdan məhrum əsərlər uğurlu hesab edilmir. Bu baxımdan, bədiilik yaratmaq qafiyə qoşmaqdan çətin işdir. Bunların hər ikisi iştirak etdiyi əsərlər dəyərlidir və bu, Adil Babayevin yaradıcılığı üçün də səciyyəvidir.

Qorxutmasın bir kimsəni
Saçlarıma səpilmiş dən,
Alnımdakı bu qırışlar.
Mən şairəm, şair üçün
Nə qocalıq, nə ölüm var (12, 21).

Kamil sənət əsəri onunla seçilir ki, usluba laqeyd olan dil vahidinə imkan vermir. Onun dilində üsluba yaraşmayan soz, ifadə və ya misraya rast gəlmirsən. Sozlərin qaydası, düzümü, bir tərəfdən də, şairlərin fərdi üslubu ilə bağlıdır. Yuxarıdakı əsərin dilində Adil Babayevin qələminə məxsus "mürgüləyən vicdan", "könüllü dustaqlıq" ifadələri kifayətdir ki, onun linqvistik xüsusiyyəti təyin edilsin. Sənətkarlığı cəsarət hesab edənlər yanılmayıblar. Sözləri ram etməyi bacarmaq cəsarətin bir növüdür. Adi nitqdə soz hər hansı əşya, hərəkət, keyfiyyət, hadisə və s.-ni umumiləşmiş tərzdə adlandırmağa xidmət edir və bu funksiyanı bədii əsərdə

də saxlayır. Bununla yanaşı, bədii söz həm də estetik tələblərə cavab verir və buna gorə də adlandırmaqla bərabər, fərdi, subyektiv duyğu və hissləri də ifadə edir. Buna gorə deyirlər ki, soz bədii əsərdə iki planlıdır: bir tərəfdən obyektiv şəkildə (umumxalq dilindəki məna); digər tərəfdən subyektiv şəkildə (şairə məxsus olan, fərdi mənada) işlədilir. Sozun fərdi mənada və deməli, poetik planda işlənməsi, adətən, diqqəti xususilə cəlb edir və məhz fərdi olduğu ücün də daha cox emosional-estetik səciyyə daşıyır. Bu mənada, Adil Babayevin "Sözlərin kökü" adlı şeri xüsusi maraq oyadır:

Öyrənmək istəyirəm diqqət ilə, səy ilə,
Sözlər necə yaranıb, hardan gəlibdir dilə (17).

Əsər sözlərin etimologiyasını ortaya qoyan linqvistik mənbə təsiri bağışlayır. Şair dilimizdə aktiv mövqeyə malik bir sıra sözlərin kökünü araşdıran dilçi alim mövqeyində dayanır.

O, beş leksik-qrammatik vahidin – "azadlıq", "vətən", "həsrət", "işıq" və "ümid" sözlərinin poetik etimologiyasını yaradır:

Azadlıq həsrətiylə yanan zaman Vətənim,
Yəqin, "azadlıq" sözü dilimə gəlmiş mənim (17).

Bundan sonra şair poetik dillə "vətən" sözünün kökünü axtarır və belə bir iddia ilə çıxış edir:

İnsanlar sürüləndə yurdundan diyar-diyar,
Yəqin, "Vətən" sözünü qürbətdə yaratdılar (17).

Dilimizdə "elmi etimologiya" və "xalq etmologiyası" terminləri vardır. Adil Babayevin "Sözlərin kökü" şeri "şair etimologiyası" və ya "poetik etimologiya" ifadəsinin reallığını əsaslandırır. "Vətən" sözündən sonra şair "həsrət" sözünün yaranması haqqında danışır:

Bilirəm torpağımın sevinci var, yası var,
Onun gözünün dağı hicranlı Arazı var.
"Həsrət" sözü Arazın yaranıb sularından (17).

"Sözlərin kökü" şeri dil-üslub keyfiyyətləri baxımından maraqlı əsərdir. Burada şairin psixologiyası, yaradıcı təxəyyülü, tarixi hadisələrə vətəndaş münasibəti özünü göstərir. "İşıq" sözünün yaranmasına da şair münasibəti fərqlidir:

Ürəklər bir çırağın həsrətiylə yananda
"İşıq" sözünü ilkin dilə gətirmişik biz,
Arzunun işığıyla "işıq" gəzib nəslimiz? (17).

Adil Babayevin dilində "ümid" sözünün etimoloji təhlili də diqqəti çəkir. O bu sözü "işıq"la əlaqələndirir:

Bəlkə, ölüm anında ümid gözləyən gözdə
Ümid də yaranıbdır "ümid" ünvanlı sözdə? (17).

Sözlərin mənşəyini axtaran şair belə bir qənaətə gəlir ki, hər bir sözün yaradılışında arzu və istəklərin, ən əsası ürəyin yeti və rolu vardır:

Məncə, hər söz yaranıb bir arzudan, diləkdən,
Sözlər də məcrasını alır yanan ürəkdən (17).

Adil Babayevin poetik etimologiyasını araşdıran qanadlı sözləri dərin qatlara işıq salır. Oxucu inanır ki, doğrudan da, şairin haqqqında danışdığı sözlər onun dediyi kimi yaranıb. Aşağıdakı şeirdə deyilənləri də şair bir gerçəklik kimi qələmə verir və ona inam yaradır:

Əslində, sənəti həyat yaradır,
Şair onu tapıb verir aləmə (15, 9).

Şairə elə gəlir ki, hələ istədiyi şeri yazmayıb, təzə şeirlər onu gözləyir. Nədənsə bu hiss şairlərin çoxunun yaradıcılığından tanışdır:

Hardasa bir şeir gözləyir məni,
Ahəngi qəlbaçan, biçimi təzə.
Yəqin ki, o şeir izləyir məni,
Arxamca dost kimi hey gəzə-gəzə (15, 10).

Adil Babayev vətənpərvər şairdir. Lakin o, heç zaman "vətən!" deyib bağırmır, şeirləri bir "vətən nəğməsi" təsirindədir:

Hardasa bir nəğmə məni gözləyir,
Könlüm o nəğmənin sorağındadır.
Gəzirəm...yəqin ki, o təzə şeir
Doğma Azərbaycan torpağındadır (15, 10).

Şairin təbiətə münasibəti də fərqlidir. O, payızın, qışın gəlişini gözəl bir poetik dillə təqdim edir, qarı "qış yorğanı" adlandıraraq "yorulmuş torpağa" layiq bilir:

Təbiət, hazırla qış yorğanını,
Yorulmuş toprağın gəlir yuxusu (15, 63).

Adil Babayevin "torpaq" sözünə seçdiyi epitet diqqəti cəlb edir. Bədii təsvir və ifadə vasitələri sırasında fəxri yerə malik olan epitet obrazlı münasibətin dərinliyini ortaya qoyur, bədii dilin fərqli imkanlarını üzə çıxarır. Maraqlı epitetlərlə estetik keyfiyyətdə yeniləşmə özünü göstərir. Sonetlərinin birinin terset hissəsində Adil Babayev deyir:

Hər şey qiymətlidir gərəkli anda,
Qaranlıq gecədə yoldan azanda
Bir kibrit çöpü də gərəkli olur (15, 223).

Bu fikirlərin hikmətamiz xarakteri dərhal üzə çıxır.

Adil Babayevin yaradıcılığında diqqəti çəkən mövzulardan biri onun daşlar haqqındakı sözləridir. Daşlara şairanə təfəkkürlə yanaşan şair məsələ ilə bağlı Əliağa Kürçaylı mövqeyini yada salır. "Daşların baş nəğməkarı" olan Əliağa Kürçaylı kimi Adil Babayev də daşları obrazlaşdırır, onlara dəyər verir:

Kim deyir ki, daşların yoxdur sözü-sohbəti?
Duyanlarla danışır onlar bir insan kimi (15, 228).

Azərbaycan dilinin hərbi leksikasında bir çox leksemlər qeyd edilsə də, daşların bu məqsədlə bağlılılğından az danışılıb. Adil Babayev daşlara bu prizmadan da yanaşır:

Daşlar bəzən qılınca, bəzən oxa dönüblər,
Daşlar bəzən batıblar az qala göz yaşına (15, 228).

Azərbaycan ədəbi mühitində daşlara sonet yazan ilk şair Adil Babayevdir. Daşların çox işə yaramasını şair obrazlı dillə göstərir. Sözsüz ki, bədii əsərin dili obrazlı olmalıdır. Lakin obrazlılıq vasitələrindən başqa adi əşyaları obrazlaşdırmaq sənətkarlıq yüksəkliyidir. Adi hesab edilən əşya, insan və hadisələrin bədii keyfiyyətlə nə dərəcədə təqdimi müəllifin poetik münasibəti ilə

bağlıdır.

Saray sütunlarında, qəbristan daşlarında.
…Söhbəti çox dərindir bu dilsiz daşların da (15, 228).

Adil Babayev sözləri bir-birinə uyuşdurmağı bacaran şairdir. Məlumdur ki, bədii dildə sozlərin ahəngdarlığı həmişə diqqət mərkəzində olmuş, bədii əsərlər onsuz təsəvvür edilməmişdir. Şairin əsərlərindəki poetik səslənmə də gözəldir. O, dilimizdəki səslərin uyğunlaşmasına diqqət etmiş, hətta az işlənən samitlərin də alliterasiyasını yarada bilmişdir. Bu baxımdan, aşağıdakı misralarda "x" və "ş" samitlərinin səslənməsi səciyyəvidir:

Xoş söz, xoş üz, xoş baxış xoşbəxtlik nişanıdır,
Xoşbəxtlik insanları uzaqdan da tanıdır (9, 29).

Adil Babayevin dilində az işlənən sözlərə də rast gəlirik:

Özüylə yanaşı duran əsgəri
Yadına salanda alacalandı (8, 11).

Örnəkdəki "alacalanmaq" sözü səslənməsinə və mənasına görə diqqəti çəkən leksik-qrammatik vahidlərdəndir. Adil Babayevin dilində "tutar" sözü də diqqətimizi çəkdi. Adətən, daha çox həmin söz əsasında yaradmış "tutarlı" sözünü işlədirik. "Tutar" az işlənən leksik-qrammatik vahidlərdəndir, lakin milli olduğu üçün dəyərlidir:

Yoxsa neçə külfətin nurunu, tutarını
Göndərəcək Bağdada Atabəy yığın-yığın (10, 8).

"Tutar" güc, qüvvət, taqət, təpər" mənasındadır və izahlı lüğətimizdə yer alır. Bu söz aktiv leksem kimi orfoqrafiya lüğətində də qeyd olunmuşdur (6, 654).

Adil Babayevin çox sayda əsərlərinin içərisində "Mən dünyada olmayanda" şerinin özəl yeri vardır. Fikrimizcə, şairin yaddan çıxmamasında, adı çəkiləndə ilk xatırlanan əsər də odur:

Qarlar, buzlar əriyəcək,
Çöllər yaşıl don geyəcək,
Bir şair də mənim kimi
Öz yurdunda söz deyəcək,
Mən dünyada olmayanda (15, 332).

Bu əsərdə nə isə məftunedici bir cəhət, ilk baxışda bilinməyən bir yenilik vardır. Bədii əsərdə, şeirdə mutləq yenilik olmalıdır. Sözsüz ki, yeniliyə, xüsusilə də məna yeniliyinə malik olan əsərlər ictimai hadisə səviyyəsinə qalxa bilir. Şairin haqqında yazanlar həmin məziyyətin sehrinə düşüblər. Həmid Abbas Adil Babayevin "Mın dünyada olmayanda" şerinə cavab kimi səslənən "Sən dünyada olmayanda..." şerində deyir:

Az deyil nəğmələrin,
Bu nəğmənsə
yaman toxunur bizə (20).

Həmid Abbas şerində Adil Babayevin dilini, deyim tərzini də vurğulayır:

Sevindin də, qəm də yedin,
Nə dedinsə, şirin dedin,
Unudulmaz sözün, adın,
Alovludur yenə odun,
Sən dünyada olmasan da (20).

Adil Babayevin "Mən dünyada olmayanda" şeri yeni və fərqli bir anlam yükü ilə səciyyələnir. Şeirdə güclü fəlsəfi məna, fərqli və dərin bir nisgil, uzaq gələcək haqqındakı düşüncələrdən irəli gələn reallığın doğurduğu həyəcan duyğusu oxucunu fikirləşməyə vadar edir. Bundan başqa, şeir şairin gözəl arzularını əks etdirir:

Ömrüm Aya, Günə sirdaş,
Ağarır saç, çoxalır yaş,
Bircə kəlməm, bircə sözüm
Ürəklərdə qalaydı, kaş,
Mən dünyada olmayanda (15, 332).

Şair bəlkə də bilməyib ki, şeirdəki arzuya çoxdan çatıb, nəinki o, dünyada olmayanda, hətta yaşarkən onun sözlərinə maraq çox idi.

"Mən dünyada olmayanda" şerinin səslənməsi də gözəldir. Sözün dəyərini bilənlər onun xarici cəhət hesab edilən səslənmə məsələsinə həmişə həssas münasibət göstəriblər. Həqiqi sənət əsərində sözlər elə qayda ilə düzülür ki, onların ahəngi də formalaşır. Əsərin səs cildində həm qafiyə yaradan sözlərdən (məsələn, yuxarıdakı əsərin dilində sirdaş, yaş, kaş) başqa, şairin qabiliyyəti də müəyyən qədər önəmlidir.

Adil Babayevin mövzuları, fikirləri qədər dili də zəngin və gözəldir. "Sənətkarın bədii əsər üzərində, dil uzərində işi xüsusi, şəxsi iş deyildir, umumxalq işidir. Umumiyyətlə, bədii ədəbiyyatın taleyi bədii dilin vəziyyətindən cox asılıdır. Deməli, bədii əsərin dili məsələsi mühüm ictimai mənaya malikdir" (1, 253). Hər bir qələm sahibinin dil sənətkarlığı onun ədəbi dildəki mövqeyini müəyyənləşdirir.

Adil Babayevin yalançı pafoslardan uzaq olan dili şeirlərini artıq ifadələrdən qoruyur. Söz duyğusu dərin olan şair poetik imkanları genişləndirsə də, qrammatik normalara da laqeyd qalmır. Maraqlıdır ki, poetik normaların qarşısında qrammatik qayda-qanunlar imkansız görünmür. Onun dilində heç bir fikir dolaşıqlığına rast gəlmirik. Bu, şairin ümumxakq dilinə bələdliyinin dərinliyi ilə bağlıdır. Şairin dilində poeziya üçün

yararsız sayılan faktlara rast gəlmirik. O, sözləri çərçivəyə də salmır, onlara azadlıq verir. Lakin şairin dilindəki sözlərin özü poetik leksikaya xas olan məcra yaradır:

Üzük yar barmağında,
Gəlin toy otağında,
Bülbül gül budağında,
Gül tağında gözəldir (17).

Şair bütün poetik detallara diqqət edir. Onun şeir dili sənətin ölçülərinə, qaydalarına cavab verir. Poetik yaradıcılıqda aparıcı olan dil materialı baxımından şairin şeirləri layiqli qaynaqlardan biri kimi qəbul edilir. Həyatı, insanları, təbiəti obrazlarla qavramaq qabiliyyəti yüksək olduğundan şeirlərinin dili də rəvan və oxunaqlıdır:

Həyat doğma diyarın
Torpağında gözəldir (17).

Dili obraz yaratmanın əsas vasitəsi kimi dəyərləndirənlər, doğrudan da, haqlıdırlar. Adil Babayevin yaradıcılığı bu fukrin təsdiqi üçün tutarlı örnəkdir. Onun əsərləri bir daha göstərir ki, sözləri hərəkətə gətirən, onlara xüsusi bir canlılıq verən obrazlılıqdır.

Şair ömrü bir şeir
Sorağında gözəldir (17).

Adil Babayev dilimizin hikmət xəzinəsinə də özünəxas töhfələr verib. Onun dilindəki aşağıdakı fikirlər məna sanbalı ilə seçilir:

Ucalıq insanın fitrətindədir (15, 225).
Torpaq insan ilə dönür vətənə (19).
Satqınlıq nəfs ilə əkiz doğulur (11, 20).
Böyüklərin hər günahı tarix üçün
Bağışlanmaz bir yük olur (18).
Keçmişdən üz çevirsək, gələcək bizdən küsər (12, 17).

Adil Babayev bədii dilimizin söz-ifadə yaradıcılığına da diqqət etmişdir. Lakin söz durğunluğu sevmir, daim inkişafda, hərəkətdədir. Sözün əsasında sözlər, ifadələr yaranır. Bu prosesdə Adil Babayevin də müəyyən qədər rolu vardır. Aşağıdakı ifadələr şairin öz qələminə məxsusdur: qayğı qəhətliyi, alçaqlara nifrət edə-edə ucalmaq, qırıq şöhrət, mürgüləyən vicdanlar, könüllü dustaqlıq, gözəllik saatları, sədaqət saatları, fikir ordusunun sərkərdəsi, əlbi, fikri zəlil, fikri sərxoş xanımlar, sözü meyxoş, ürəyi boş, diqqət qıtlığı və s. Şairin istedadını təsdiq edib ona uğur qazandıran şeirlərinin dilində maraqlı dil-üslub faktları müşahidə edilir.

Beləliklə, Adil Babayevin dil-üslub xüsusiyyətləri üzərindəki araşdırma şairin yaradıcılıq örnəklərinin linqvistik tədqiqatlar üçün layiqli material verən maraqlı qaynaqlardan biri olduğunu təsdiq edir.

Ədəbiyyat

1. Adilov M. Bədii dilimizin bəzi məsələləri. Əsərləri, VIII c. Məqalələr (1955-1969-ci illər). Bakı, "Elm və təhsil", 2020, s. 253-259.
2. Adilov M. S.Vurğunun "Azərbaycan" şeirinin dili haqqında. Əsərləri, IX c. Məqalələr (1970-1980-ci illər). Bakı, Bakı, "Elm və təhsil", s. 357-366
3. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, Şərq-Qərb, 2007, 568 s.
4. Azərbaycan dilinin izahlı lüğəti, I c. Bakı, Şərq-Qərb, 2006, 744 s.
5. Azərbaycan dilinin izahlı lüğəti, IV c. Bakı, Şərq-Qərb, 2006, 712 s.
6. Azərbaycan dilinin otfoqrafiya lüğəti. Bakı, Elm, 2021, 756 s.
7. Babayev A. Fəsillər dəyişəndə. Bakı, Yazıçı, 1991, 132 s.
8. Babayev A. Gecikmiş bahar. Bakı, Azərnəşr, 1965, 155 s.
9. Babayev A. Qılınclar arasında. Bakı, Gənclik, 1969, 83 s.
10. Babayev A. Memarın məhəbbəti. Bakı, Gənclik, 84 s.
11. Babayev A. Mənim əqidəm. Bakı, Gənclik, 1979, 222 s.
12. Babayev A. Şeirlər. Bakı, Azərnəşr, 1954, 72 s.
13. Babayev A. Şeirlər. "Ədəbiyyat və incəsənət", 24 aprel, 1971
14. Babayev A. Təzədən doğulur şair ölən gün. Bakı, Gənclik, 1981, 203 s
15. Babayev A. Yolda görüş. Bakı, Gənclik, 1974, 325 s.
16. Bədəlzadə A. Sözün poetikası və bədii dilin estetikası. Hüseynov M. Şeirşünaslıqda dil sənətkarlığı. Bakı, Elm, 2007, 240 s. s. 3-17.
17. https://www.adalet.az
18. https://ikisahil.az
19. https://ne-np.facebook.com
20. http://www.anl.az ›

Məqalə filologiya üzrə elmlər doktoru, profesor İsa Həbibbəyli tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 04 fevral 2022-ci il
Son daxilolma tarixi:20 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 811.512.162

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 123-126
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 123-126
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 123-126

AŞIQ ALININ POETİK DİLİ

Müəllif:

Fəxriyyə Cəfərova
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent

E-mail:
fexriyyeceferova47@mail.ru

Açar sözlər:
Aşıq şeiri, Aşıq Alı, poetik dil, ədəbi dil, üslub özəllikləri, poeziya

Annotasiya. Məqalənin tədqiqat obyekti Aşıq Alının poetik dilidir. Bildiyimiz kimi, Göyçə mahalı əsrlər boyu Azərbaycan xalqının saz və söz məbədgahlarından biri olmuş, onun yetişdirdiyi istedadlı sənətkarlar poeziyamızın iftixarına çevrilmişlər. Bu böyük sənətkarlar içərisində Aşıq Alının imzası seçilən imzalardandır. Məqalədə də məhz Aşıq Alının dilindən danışılır. Bu məqsədlə onun üslub xüsusiyyətləri üzə çıxarılır. Aşığın dilindən alınmış üslub faktları elmi-nəzəri təhlilə cəlb olunur.Aşıq Alının dil-üslub özəllikləri üzərindəki araşdırmalar təsdiq edir ki, aşığın dilində bütün dil vahidlərinin üslub səviyyəsi vardır və bu mənada, üslub faktları qrammatik materiallardan irəlidə dayanır. Bədii dildə bu, təbii proseslərdən biridir. Aşıq Alının dilində isə üslub keyfiyyətləri qabarıqlığı ilə səciyyəvidir. Bu mənada, Azərbaycan ədəbi-bədii dilində Aşıq Alının əbədi bir mövqeyi vardır.

THE POETIC LANGUAGE OF ASHIQ ALI

Author:

Fakhriya Jafarova
Nakhchivan Teachers Institute
Doctor of philosophy in philology, associate professor

E-mail:
fexriyyeceferova47@mail.ru

Key word:
Ashig poem, Ashig Ali, poetic language, literary language, stylistic features, poetry

Abstract. The research object of the article is the poetic language of Ashıg Ali. As we know, Goycha district has been one of the temples of music and words of the Azerbaijani people for centuries, and the talented artists it trained have become the pride of our poetry. Ashıg Ali's signature is one of the best among these great artists. The article also talks about the language of Ashıg Ali. For this purpose, its stylistic features are revealed. The stylistic facts taken from the language of Ashig are involved in scientific-theoretical analysis. Studies on the language-stylistic features of Ashiq Ali confirm that the language of Ashiq has a stylistic level of all language units, and in this sense, stylistic facts are ahead of grammatical materials. In artistic language, this is one of the natural processes. In the language of Ashıg Ali, stylistic qualities are characteristic. In this sense, Ashiq Ali has an eternal position in the literary and artistic language of Azerbaijan.

ПОЭТИЧЕСКИЙ ЯЗЫК АШУГА АЛЫ

Автор:

Фахрия Джафарова
Нахчыванский институт учителей
Доктор философии по филологии, доцент
E-mail:
fexriyyeceferova47@mail.ru

Ключевые слова:
ашугская поэзия, Ашуг Алы, поэтический язык, литературный язык, особенности стиля, поэзия

Аннотация. Объектом исследования статьи является поэтический язык Ашуга Алы. Как мы знаем, на протяжении веков одним из храмов саза и словесности азербайджанского народа было Гёйче, питомцы чего являлись талантливыми мастерами, стали гордостью и нашей поэзии. Среди этих великих художников Ашуг Алы занимает особое место. В статье говорится о языке Ашуга Алы. С этой целью выявляются его стилевые особенности. Факты стиля, заимствованные из языка Ашина, привлекаются к научно-теоретическому анализу. Исследования языковых и стилевых особенностей Ашуга Алы подтверждают, что ашугский язык имеет уровень стилизации всех языковых единиц, и в этом смысле факты стиля опережают грамматический материал. В художественном языке это один из естественных процессов. А на языке Ашуга Алы стилистические качества характеризуются его выразительностью. В этом смысле в азербайджанском литературно-художественном языке Ашуг Алы занимает твердую позицию

Azərbaycan mədəniyyətində zəngin ideya-estetik keyfiyyəti ilə seçilən aşıq sənəti keçdiyi tarixi inkişaf yolunda kifayət qədər böyük sənətkarlar yetişdirmişdir. Bu mənada, Göyçə mahalı əsrlər boyu Azərbaycan xalqının saz və söz məbədgahlarından biri olmuş, onun yetişdirdiyi istedadlı sənətkarlar poeziyamızın iftixarına çevrilmişlər.

XIX əsr bütövlükdə Azərbaycan tarixində mürəkkəb bir dövrdür. Təsadüfi deyildir ki, Azərbaycanda milli şüurun oyanması, milli azadlıq hərəkatının ilk faktorları da sözügedən yüzilliklə bağlanır. Həmin dövrün aşıq sənəti Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər kimi sanballı sənətkarlarla təmsil olunur. Bu böyük sənətkarlar içərisində Aşıq Alının imzası seçilən imzalardandır. Onu bizdən təxminən iki yüz illik bir tarixi zaman ayırsa da, dilinin sadəlik və şirinliyi hələ də nəinki azalmamış, hətta hər dəfə oxuyanda yeni bir gözəlliklə insanları heyrətdə qoyur. Təsvir etdiyi hər hansı bir hadisəni öz poetik nəfəsinin odu ilə isindirən, onu sənətin heyrətamiz dili ilə əks etdirən Aşıq Alı insan qəlbini ən ülvi duyğular qucağında əsrarəngiz gözəlliklər aləminə aparır, onu yüksək estetik ideallar, nəcib hisslərlə zənginləşdirir:

Bir nişan istədim gülüzlü yardan,
Dirsəyin göstərdi: alısan, - dedi.
Dedim: ay qız, köçdüm, sənnən əl çəkdim,
Əlbət bir yadına salısan, - dedi [1, s.24].

Bu misralar canlı xalq dilinin sərrast ifadələri ilə yoğrulmuş, coşqun bir poetik ülviyyətlə, sadə və əzəmətli poetik dillə bizə təqdim edilmişdir. Aşıq Alı dilinin qüdrəti, əzəməti də məhz dilinin sadəliyi ilə ölçülür. Özünə məxsus üslub özəllikləri ilə diqqət çəkir:

Yar yolunda günahkaram,
Doğru sözüm yalan oldu.
Yürüş etdi qəm ləşkəri,
Könlüm şəhri talan oldu [1, s.21].

Bu gəraylının üçüncü misrasında "yeridi" sadə nitq vahidinin əvəzinə, "yürüş etdi" tərkibi felinin işlənməsi dili mürəkkəbləşdirmək yerinə, onun bədiiliyinə müsbət təsir edir. Aşıq Alının dil-üslub xüsusiyyətləri Ç.Aytmatovun aşağıdakı fikrinin nə qədər də obyektiv olduğunu göstərir: "Xalqın ölümsüzlüyü onun dilindədir... Hər bir dil öz xalqı üçün böyükdür. Bizim hər birimizin bizi yaradan, bizə özünün ən ulu sərvətini – öz dilini verən xalqa övladlıq borcumuz var: onun dilinin təmizliyini qorumaq, onu daha da zənginləşdirmək" [4, s.17]. Aşıq Alının sənət nümunələrini oxuduqca onun simasında dilimizin təmizliyinin, leksik-qrammatik vahidlərinin məna bolluğunun hər bir azərbaycanlıda qürur hisslərini gücləndirməyə qadir olduğunu düşünürsən:

Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım, döndü közə,
Keçən sözü çəkmə üzə,
Keçən keçdi, olan oldu [1, s.21].

Bu üslub, bu axıcılıq sonrakı şeirlərə köçmüş, Aşıq Alının misraları, ifadələri bir sıra sənətkarların, o cümlədən Hüseyn Arifin dil cazibədarlığını artırmışdır. "Hüseynə olan oldu, Özünə heyfim gəldi" həmin axıcılıq və rəvanlığı özündə yaşadır. Xalqımızın dilində "sözü üzə vurmaq" ifadəsi vardır və o, işlənmə aktivliyi ilə seçilən frazemlərdəndir. Aşıq Alı isə bu mənada "sözü üzə çəkmək" ifadəsini işlətmişdir ki, o, öz dadı-duzu ilə yuxarıdakı gəraylının dilinə yeni bir ovqat qatmışdır. Ümumiyyətlə, aşığın dilində ümumişlək söz və ifadələrin yeni simasını görmək mümkündür. Məsələn, dilimizdəki "qərar vermək" birləşməsi onun dilində "qərar qoymaq" şəklində işlənmişdir və bu, nəzm dilində heç bir qaydasızlıq yaratmır, əksinə, həm ürəyə yatır, həm də qulağa xoş gəlir:

Yaradanmı qərar qoyub?
Bağrımın başını oyub?
Çoxlarını ağlar qoyub
Dağlar qoynunda-qoynunda [1, s.21].

Məlumdur ki, "Dağlar qoynunda-qoynunda" misrası eyni ilə aşıq Mikayıl Azaflının da dilində işlənmiş və bu Aşıq Alı irsinin təsir dairəsinin zaman və məkan baxımından geniş olduğunu göstərir.

Aşıq Alı bədii dildə klassik ifadələrlə xalq şeri faktlarını bir araya gətirərək ədəbi dilimizlə danışıq dili arasındakı dərinliyi aradan qaldırmaqda qüdrətli sənətkarlardan biridir: "Ədəbi dil xalq danışıq dili ilə bağlı meydana çıxır. Ümumxalq dili olmadan ədəbi dil inkişafdan qalar" [2, s.8]. Aşıq Alının əsərlərində klassik Azərbaycan ədəbi dilində işlənən bir sıra vahidlər, yeni üslub keyfiyyətində yenidən meydana çıxır. Məsələn, Aşıq Alıya qədər "Badi-səba" müraciət forması ilə biz daha çox yazılı ədəbiyyat örnəklərində qarşılaşırıq. Bu baxımdan, klassik üslubda yazılan əsərlər Ə.Nəbati, Q.Zakir kimi ədəbi simaların yaradıcılığında fəal mövqeli bu xitab aşığın dilində yeni bir gözəlliklə ortaya çıxır:

Badi-səba, ərzim budur,

Dəymə tellərə-tellərə.
Seyraqub gözü tutulub,
Düşsün əllərə-əllərə [1, s.22].

Aşıq Alı dilinin ən böyük məziyyətlərindən biri eyni leksik-qrammtik vahidin təkrarı ilə yaranan mürəkkəb sözlərin ritmik təkrar yaratmasıdır ki, bu bədii vasitədən o, bol-bol istifadə etmişdir:

Qarşıdakı sarı laçın,
Fələk qoymur qəddim açım,
Gəl səni götürüm, qaçım
Bizim ellərə-ellərə [1, s.22].

Bir məşhur Kərkük xalq mahnısını xatırladan bu nümunədə ismin yönlük hal əlamətini qəbul etmiş "ellər" sözünün (ümumiyyətlə, gəraylıdakı həmin şəkilçi ilə işlənən "tellər", "əllər", "yollar" sözlərinin də) ritmi çox qiymətli poetik əhval yaradaraq təkririn poetik çalarlarının müxtəlifliyini və bunun üslubi-semantik funksiyada zəruri olduğunu təsdiq edir. Üslubiyyatda qədimliyi ilə fərqlənən təkrir qrammatikadakı ədatla müqayisə edilə bilər. Onlar fikrə yeni bir məlumat əlavə edə bilmir, lakin hər ikisi mənanı qüvvətləndirə bilir. Bu mənada, təkrir daha çox intensivliyi və diqqəti əsərin, fikrin dərinliyinə aparması qabiliyyəti ilə qrammatik vahidlərdən yüksəkdə dayanır:

Alı deyər, bir gül əkdim,
Gülün çox cəfasın çəkdim,
Qürbət eldə gözüm dikdim
Uzaq yollara-yollara [1, s.22].

Yalnız gəraylılarında deyil, qoşmalarında da təkrar sözlərin iştirakı ilə formalaşan mürəkkəb sözlərdən geniş istifadə edən Aşıq Alının dilindəki ekspressivliyin dərinliyi buna görədir. Poetik dinamikliyi təmin edən belə sözlər, bir tərəfdən də fikrin tam çatdırılmasına kömək edir:

Gəlib gedər yaxşılar da, yaman da,
Qu tükündə, saman üstdə yatan da,
Aşıq Alı, nə qazandın cahanda?..
Səndən qalan qatar-qatar söz oldu [1, s.33].

Aşıq Alının dilindən alınmış örnəklər fikir əlaqələrinin qurulmasında təkrar söz, ifadə və misraların əvəzsiz vasitə olduğunu göstərir. S.Rüstəmxanlı yazır: "Elə sözlər var ki, ürəkdə doğurduğu duyğuları yazası olsan, bir kitaba sığmaz" [5, s.38]. Aşığın dilindən qopan ifadələrin yaratdığı duyğular da belə dərindir:

Kimi ay qabağa cığa tel düzər,
Kimi qaş altından gözləri süzər,
Kimi yeyib-içib sallanıb gəzər,
Kiminin axırı vay oldu, getdi [1, s.35].

Və elə sözlər də vardır ki, təşbehə sığmır, onun anlamını dəqiq vermək üçün sözə möhtac olursan, dilin imkanlarını sona qədər kəşf etmək olmur. Sənətkarların dilində söz-ifadə icadı da belədir. Bu baxımdan, Aşıq Alının dilindəki "gözün gözlə savaşı" kimi uğurlu bir üslub faktı diqqəti cəlb edir:

Əl götürməz gözüm gözlə savaşdan,
Geyin əndamına aldan, qumaşdan,
Bir seyrə çıx laləzarı o başdan,
Pünhan gəzib məni cana gətirmə [1, s.52].

"Gətirmə" rədifli qoşmanın bu bircə bəndində həm yeni bir maraqlı ifadə, həm frazeoloji vahid (əl götürmək), həm də sadalama intonasiyası tələb edən eyni sintaqmlar dilin bədiiliyini çoxaltmaqla onun üslub sanbalının yüksəkliyini əsaslandırır. Aşıq Alının poeziyasında dilimizin məğzində olan tanış intonasiya onun üslub fərdiliyini yox edə bilmir, bəlli dil faktlarının fonunda aşıq öz imzasını tanıdır, xaslığını bildirir. Onun əsərləri aşıq poeziyasının tanış notlarını yaşatsa da, sözlərin məna qatında aşığın yeni yanaşması diqqəti cəlb edir:

Giryanam gözəllər xası ucunnan,
Qəhərlənib tutdum yası ucunnan,
Bir busənin təmənnası ucunnan
Məhrəm ilə savaşmağı tərk elə [1, s.80].

Aşıq Alının dilində xitabların üslub keyfiyyəti maraqlı məsələlərdən biridir. Onun dilindəki, ey mələkzada, ay hazarat, könül, ay ağalar və s. kimi xitablar bol-bol işlənmişdir. Aşığın dilində feli sifətlə ifadə olunan xitablara da rast gəlirik:

Təşrif buyur, gedən, bizim ellərə,
Zülal suyu, çeşmələri gözəldir.
Qız-gəlinlər gül-bənövşə dərəndə
Şümşad bilək, bəyaz əllər gözəldir [1, s.67].

Məlumdur ki, xitab cümlə üzvləri ilə qrammatik əlaqədə olmasa da, məntiqi baxımdan onlar arasında üzvi bir bağlılıq vardır. Bu bağlılığı əsaslandıran xitabların intonasiyasıdır. İntonasiyanın üslub imkanları böyük olduğundan xitabın üslub çalarlarına əhəmiyyətli dərəcədə təsir edir. Bu mənada, xitabların işlənmə yeri də müəyyən qədər rol oynayır. Yuxarıdakı örnəkdə xitabın (gedən) misranın ortasında gəlməsi onun intonasiyasını yüksəldir ki, bu da bədii çaları gücləndirir. Bədii dildə xitabın funksiyası yalnız müraciət bildirmə ilə məhdudlaşmır, o, daxili hiss və duyğuların qabarıq verilməsində də faydalıdır. Aşıq Alının dilindəki xitablardan biri də "qasid"dir:

Qasid, yarım məni səndən sorarsa,
Söylə, Məcnun çıxdı dağa, soruşma.

Sorğu-sual çox dərinə vararsa,
De, ahından odlar yağa, soruşma [1, s.71].

Burada mətn deyil, əhval-ruhiyyə yüksəkdədir və bu anlamda, xitabın əhəmiyyətini kənarda qoymaq olmaz. Aşığın dilində qeyri-təyini birləşmələrlə ifadə olunmuş xitablar da maraqlıdır. Bu baxımdan, "ay qoşa xallı", "gözəl qiyafəli", "Leyli kamallı" kimi xitablar diqqəti çəkir. Bədii dildəki üslub çalarlarına, ritorikliyi gücləndirdiyinə görə xitabı üslubi fiqur hesab edirlər:

Ay ağalar, gəlin sizə söyləyim,
Nə cür olsa, yenə vətən yaxşıdı.
Qohum-qardaş, dost-müsahib görəndə
Şəfa tapır yaralarım, yaxşıdı [1, s.93].

Aşıq Alının dil-üslub özəllikləri üzərindəki araşdırmalar təsdiq edir ki, aşığın dilində bütün dil vahidlərinin üslub səviyyəsi vardır və bu mənada, üslub faktları qrammatik materiallardan irəlidə dayanır. Bədii dildə bu, təbii proseslərdən biridir. Aşıq Alının dilində isə üslub keyfiyyətləri qabarıqlığı ilə səciyyəvidir. Bu mənada, Azərbaycan ədəbi-bədii dilində Aşıq Alının əbədi bir mövqeyi vardır.

Ədəbiyyat

1. Aşıq Alı. Əsərləri. – Bakı: Avrasiya press, – 2006, –192 s.
2. Bayramov, İ. Azərbaycan dilinin dialekt leksikası./ İ.Bayramov – Bakı: Elm və təhsil, – 2011, – 120 s.
3. Xəlilov, B. Dil mədəniyyəti. / B.Xəlilov – Bakı: Papirus NP, – 2016, – 192 s.
4. İsmayılov, H. Ön söz / Aşıq Alı. Əsərləri./ H.İsmayılov – Bakı: Avrasiya press, – 2006, – 192 s., s.4-18.
5. Seyidov, Y. Yeni dövr və dil problemləri.Yazıçı və dil münasibətləri / Əsərləri. / Y.Seyidov [VI ciliddə] – Bakı: Bakı Universiteti, – 2007, – 569 s., s.3-40.

Məqalə filologiya üzrə elmlər doktoru, profesor Yusif Səfərov tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 08 fevral 2022-ci il
Son daxilolma tarixi: 19 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 811.111

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 127-130
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 127-130
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 127-130

MÜASİR İNGİLİS DİLİNDƏ FRAZEOLOGİZMLƏRİN SƏCİYYƏVİ İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Müəlliflər:

Şəfəq Vəliyeva
Naxçıvan Müəllimlər İnstitutu
Bəyim Tarverdiyeva
Naxçıvan Müəllimlər İnstitutu
Sevda Hacəliyeva
Naxçıvan Müəllimlər İnstitutu

E-mail:
sefeqvaliyeva@gmail.com

Açar sözlər:
frazeologiya, ədəbi dil, üslub, struktur-semantik xüsusiyyətlər, dil vahidi

Annotasiya. Məqalədə müasir İngilis dilində mövcud olan frazeoloji birləşmələrin səciyyəvi xüsusiyyətlərinin öyrənilməsindən bəhs olunur. Frazeologizmlər xalqın həyat tərzi, sənəti və peşəsi, mifik əfsanələri, dini və abstrakt təsəvvürləri, adət-ənənələri və əqli dünyagörüşü əsasında yaranıb və yaranmaqdadır. Bu birləşmələr müxtəlif sosial-tarixi şəraitdə və müxtəlif səbəblərdən yaranmışdır. İngilis dilində frazeologizmlərin əsas mənbəyi bədii ədəbiyyat və mifik əfsanələrdir. Zənginliyinə və müxtəlifliyinə görə İngilis dilində frazeoloji birləşmələr digər dillərin frazeoloji birləşmələrindən fərqlənir. Bu frazeoloji birləşmələrin digər dillərə tərcümə edilməsi əsas və mürəkkəb məsələlərdən biridir. Məqalədə həmçinin müasir İngilis dilində mövcud olan frazeoloji birləşmələrin səciyyəvi struktur-semantik xüsusiyyətlərindən də bəhs olunur. Burada İngilis dilində mövcud olan frazeoloji söz birləşmələri yazılı ədəbiyyat, publisistika, həmçinin danışıq dili nümunələri əsasında tədqiq olunur.

Authors:

Shafag Muradova
Nakhchivan Teachers Institute
Bayim Tarverdiyeva
Nakhchivan Teachers Institute
Sevda Hajaliyeva
Nakhchivan Teachers Institute
E-mail:
sefeqvaliyeva@gmail.com

Key word:
phraseology, literary language, style, semantic-structural peculiarities, language unit

TYPICAL USAGE PECULIARITIES OF PHRASEOLOGICAL UNITS IN MODERN ENGLISH

Abstract. The article deals with the study of the specific peculiarities of the phraseological units in modern English. Phraseological units were formed and will be formed by the influence of the people's mode of life, trade and profession, mythical legends, religious and abstract ideas, customs and traditions and mental outlook.These units were formed in different social-historical condition and on the basis of various reasons. The main sources of English phraseological units are fiction, mythical legends.According to their richness and variety English phraseological units differ from the phraseological units of the other languages.Translation of these phraseological units into other languages is one of the main and complicated problems. İn the article the specific structural-semantic peculiarities of the phraseological units in modern English are stated as well. Here the functional-stylistic features of English phraseological word combinations are investigated on the material of belles-letters, publicity and also colloquial speech.

Авторы:

Шафаг Велиева
Нахчыванский институт учителей
Бейим Тарвердиева
Нахчыванский институт учителей
Севда Гаджалиева
Нахчыванский институт учителей
E-mail:
sefeqvaliyeva@gmail.com

Ключевые слова:
фразеология, литературный язык, стиль, структурно-семантическая характеристика, языковые единицы

ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ У ПОТРЕБЛЕНИЯ ФРАЗЕОЛОГИЗМОВ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Аннотация. В статье рассказывается об изучении характерных особенностей фразеологических сочетаний, существующих в современном английском языке. Фразеологизмы возникали и возникают на основе образа жизни народа, его ремесел и профессий, мифических легенд, религиозных и абстрактных представлений, традиций и ментального мировоззрения. Фразеологические сочетания возникали в различных социально-исторических условиях и по разным причинам. Основным источником фразеологизмов в английском языке является художественная литература и мифические легенды. По своему богатству и разнообразию фразеологизмы в английском языке отличаются от фразеологических сочетаний других языков. Перевод этих фразеологических сочетаний на другие языки является одним сложных вопросов. В статье также рассматриваются характерные структурно-семантические особенности фразеологических сочетаний, существующих в современном английском языке. Эти фразеологические словосочетания изучаются на основе образцов письменной литературы, публицистики, а также разговорной речи.

Dilçiliyin ayrıca bir şöbəsi kimi frazeologiyanın öyrənilməsinin müstəsna əhəmiyyəti vardır. Məlumdur ki, frazeologiya uzun müddətli tarixi inkişaf prosesi keçərək müstəqil dilçilik şöbəsi kimi yaranmamışdır. Dilçilik elmində frazeologiya leksikologiyanın bir şöbəsi kimi öyrənilirdi. Lakin sonralar frazeologiyanın zənginliyi, onun hərtərəfli şəkildə araşdırılması, müxtəlif istiqamətlərdən tətbiq edilməsi üçün müstəqil dilçilik şöbəsinin yaradılmasının zəruriliyi nəzərə alınaraq dilçilikdə frazeologiya nəzəriyyəsi yaranmışdır. Uzun bir tarixi inkişaf yolu keçmiş frazeologiya ümumi dilçilikdə müstəqil bir elm kimi təşəkkül tapdıqdan sonra müxtəlif aspektlərdə tədqiq olunmağa başlanmışdır. Frazeologiya ilə məşğul olan alimlərin zəhməti uğurlu və təqdirəlayiqdir. Keçən əsrin ikinci yarısından başlayaraq frazeoloji vahidlərlə bağlı tədqiqatlar çox yüksək nəzəri səviyyədə aparılır. İngilis dilinin frazeologiyası da sistemli şəkildə öyrənilmiş, araşdırılıb təhlil edilmiş, nəzəri ümumiləşdirmə aparılmış, frazeoloji sistemin bəzi prinsipləri müəyyənləşdirilmişdir. Buna baxmayaraq, ingilis dilinin frazeologiyasının bir sistem kimi öyrənilməsinə hələ də ehtiyac vardır. Bu dilin frazeologiyası bütövlükdə dünya dilçiliyi və ümumi frazeologiya nəzəriyyəsi baxımından dəyərləndirilir. Frazeologizmlərin quruluşunun və xarici strukturunun, onların ayrı-ayrı dillərdə mövqeyinin öyrənilməsi, tərcümə yollarının araşdırılması, milli mahiyyətinin şərh olunması, onların işlənmə yerinin və istifadə yollarının təhlili həm nəzəri, həm də praktik cəhətdən çox aktualdır. Frazeologizmlərdən istifadə etməklə insanlar fikirlərini daha dəqiq, qısa ifadə etmək imkanı əldə edirlər. Onlar hər hansı bir məfhumu konkret ifadə edir. Frazeologizmlərin ən mühüm xüsusiyyəti onların emosional olmasıdır. Frazeologizmlər ayrı-ayrı xalqların həyat tərzi, adət-ənənələri, rəvayətləri, dini düşüncələri, dünyagörüşü ilə əlaqədar yaranmış və daima yaranmaqdadır. İngilis dilinin frazeologizmləri müxtəlif tarixi şəraitdə və çox müxtəlif səbəblərdən yaranmışdır. İngilis dilinin frazeologiya dünyası çox böyük və zəngindir. İngilis dilinin tarixi inkişafı nəticəsində əmələ gəlmiş frazeologizmlər o dərəcədə zəngindir ki, danışıq zamanı frazeologizmlərdən istifadə etməklə hər hansı bir fikri aydın şəkildə çatdırmaq mümkündür. Bu dilin frazeologizmlərinin minillik tarixi vardır. İngilis dilinin frazeologizmlərinin əmələ gəlməsinin əsas mənbəyi xalq danışıq dili, folklor və yazılı ədəbiyyat olmuşdur. İngilis dilində frazeoloji birləşmələr söz birləşmələrinin modelləri əsasında yaranmışdır və daima ondan qidalanır. Söz birləşmələrinin bir növü olan frazeologizmlər dilin əsas nitq vahidlərindəndir.

Nitqimizdə də ayrı-ayrı sözlərlə yanaşı, bütövlükdə, bir leksik mənanı ifadə edən frazeologizmlərdən geniş istifadə edirik. Frazeoloji birləşmələr nitqə obrazlılıq verən, fikri ifadəli edən vahidlərdir. Belə birləşmələrə sabit söz birləşmələri də deyilir. Frazeoloji birləşmələr əsasən məcazi mənalı olur. Məsələn: əldən düşmək, od ilə su arasında qalmaq, özündən çıxmaq, dərs almaq, gözdən düşmək və s. [3, s.7]

Ümumilikdə frazeoloji birləşmələrin əsas xüsusiyyətlərini nəzərdən keçirsək, frazeoloji birləşmələrin tərkibi dəyişməzdir.Məsələn: to move heaven and earth-yerin altını üstünə çevirmək, to turt a deaf ear-qulaq ardına vurmaq və s.

Bu ifadələr dildə hazır şəkildə olur, frazeologizmlərin tərkibinə daxil olan sözlər həqiqi mənalarını itirir və yalnız məcazi mənada işlənir. Məsələn: spread yourself too thin-bir əldə iki qarpız saxlamaq, between hammer and anvil-odla su arasında qalmaq və s.

İki və daha artıq sözdən ibarət olurlar, bu birləşmələr bütöv bir leksik vahid kimi lüğətlərdə verilir, tərkib hissələrinə ayrılmadan bütöv bir cümlə üzvü olurlar, bəziləri bir sözlə ifadə oluna bilir. Məsələn: yadda saxlmaq – to keep in mind / to remember, yaddaşına həkk etmək, to bear smth in mind və s.

Frazeologizmlərin sabitliyini göstərən əsas əlamət tərkibindəki komponentlərin mənaca qovuşuq və ayrılmaz olmasıdır. Frazeologizmlərin məna strukturunda məna fərqləndirən əlamətlər var və onların rəngarəng olduğunu göstərən əlamətlər diferensial əlamətlər, frazeologizmin digərinə uyğun olduğunu göstərən əlamətlər isə inteqral əlamətlər hesab olunur. Frazeologizmlərin mənası onu təşkil edən komponentlərin mənaları əsasında deyil, bütövlükdə müəyyənləşdirilir. Odur ki, frazeologizmləri təşkil edən sözlərə, struktur modellərə xüsusi diqqət yetirmək lazımdır.

İngilis dilin lüğət tərkibinin zənginləşməsində frazeoloji vahidlərin çox böyük əhəmiyyəti var. Bu vahidlər dilin lüğət tərkibinin ayrılmaz və zəngin xüsusiyyətə malik bir qatıdır. İngilis dilində frazeologizmlərdən həm bədii, həm publisist, həm də digər üslublarda istifadə olunur.

Bu vahidlər əsasən ədəbi-bədii üslubda yazılan əsərlərdə, xüsusi rola malikdir. Frazeoloji birləşmələr yazıçı fikrinin tutumunu artırır, üslubi keyfiyyətlərinin zənginləşməsinə xidmət edir. Yazıçı frazeoloji birləşmələrdən istifadə edərək əsərin emosionallığını artırır [4, s.14]. Frazeologizmlər möhkəm milli xüsusiyyətə malikdir,onlar hər bir xalqın həyat və yaşayış tərzi, sənəti, peşəsi, mifik rəvayətləri, dini və mövhümi təsəvvürləri, adət-ənənəsi, dünyagörüşü ilə əlaqədar yaranmış və indi də yaranmaqdadır. İngilis dilində mövcud olan frazeologizmlərin özünəməxsus strukturu ondan ibarətdir ki, onlar vahid məna daşıyan, bir-birinə bağlı sözlərin möhkəm birliyidir. Bu birliyi əmələ gətirən sözlər öz mənalarını itirərək vahid məna əsasında birləşirlər. Bir sıra qərb dilçiləri frazeoloji vahidləri "idiom" adlandırırlar. Frazeoloji birləşmələr mənanın qüvvətlənməsi üçün istifadə olunan ən təsirli vasitədir və bu birləşmələr daha mürəkkəb kommunikativ vahidlər hesab olunur.

İngilis dilin frazeoloji vahidlərində xalqın həyat tərzinin və məişətinin, keçmişinin, ənənələrinin, tarixinin, milli dəyərlərının çox aydın əksini görürük. Frazeologizmlər get-gedə saflaşır, obrazlılığı, ifadəliliyi artırmaqla nitqin emosionallığına böyük təsir göstərir. Frazeoloji vahidlər dil sistemində struktur baxımdan xüsusi diqqət tələb edir, çünki bu vahidlər milli təfəkkürü qabarıq şəkildə, daha dərin əks edən mühüm işarələrdir. Dilçilikdə frazeoloji vahidlərin təşəkkülünə və onların əsasını təşkil edən elementlərə xüsusi diqqət yetirilməlidir. Belə ki, bunlar həm milli adətənənələri, həm tarixi, həm də mədəniyyəti özündə əks etdirən ən qiymətli dil vahidləridir [1, s.169].

İngilis dilində frazeoloji birləşmələrinin yaranmasında və lüğət tərkibinin zənginləşməsində fellər xüsusi rol oynayır. İngilis dilində frazeoloji birləşmələrin əksəriyyətində felin iştirakı mütləqdir. Felin demək olar ki, bütün növləri frazeoloji birləşmənin tərkibində iştirak edərək, özlərinin ilkin mənalarını itirir, yeni məna ifadə edir. Məsələn: to cut no ice -əhəmiyyəti olmamaq, to make a monkey out of somebody- bir kəsi ələ salmaq, to make the fur fly - səs-küy salmaq, dava salmaq, spill the beans- ağızdan qaçırtmaq, sirri vermək, strike oil -uğur qazanmaq və s.

Frazeoloji birləşmələrdə əksər hallarda fel əsas komponent rolunu oynayır. Bu qəbildən olan frazeoloji vahidlər cümlədə emosionallığı artırır. İngilis dili frazeologizmlərinin əsas mənbələri Bibliya, rəvayətlər və əfsanələrdir. İngilis dilinin frazeologizmlərlə zənginləşməsində Bibliyanın rolu çox böyükdür. Bibliya insanlar tərəfindən ən çox oxunan kitab olduğundan ingilis dilindəki frazeologizmlərin əksəriyyəti Bibliyadan götürülmüşdür və sayını söyləmək qeyri-mümkündür. Məsələn: to be of one mind -bir fikirdə qalmaq, in the twinkling of an eye -bir göz qırpımında. to possess one's soul in patience -səbrini yığmaq, to strengthen somebody's hand -bir kəsə dəstək olmaq, a drop in the bucket- can leopard change his spots- qozbeli qəbr düzəldər və s.

İngilis dilində frazeologizmlərin əksəriyyət Roma və Yunan ədəbiyyatından götürülmüşdür. Məsələn: the golden age -qızıl əsr (bu frazeologizm yunan poemasından götürülmüşdür), a labor of Hercules- Herkules əməyi (çox çətin iş), Augean stables - avgi tövlələri (baximsiz yer, xaraba qalmış yer) və s.

İngilis dili frazeologizmlərinin bəziləri dualardan götürülmüşdür. Məsələn: for better, for worse -yaxşı və pis gündə, from the bottom of the heart - səmimi qəlbdən, lay violent hands on oneself -özünə qəsd etmək; like a giant refreshed - yeni qüvvə ilə və s. Bəzi frazeologizmlər zaman keçdikcə qismən dəyişdirilmiş və ingilis dilinin lüğət tərkibinə yeni formada daxil olmuşdur;. Məsələn: A man soweth, that shall he reap-Nə əkərsən, onu da biçərsən frazeolgizmində "to sow" felinin arxaik forması dəyişdirilmişdir. Bu frazeologizmin hal-hazırda işlədilən forması isə belədir: Whatever a man sows, that shall he reap [5, s.55] .

İngilis dilində frazeoloji vahidlər tədricən formalaşaraq zənginləşmiş və sistem halına düşmüşdür. Hər hansı bir xalqın frazeologizmlərini öyrənmək, bizə həmin xalqın mədəniyyəti, tarixi, həyat tərzi,adət ənənələri ilə yaxından tanış olmaq imkanı yaradır. İngilis dilin mükəmməl formada öyrənilməsi, onun frazeologizmlərini bilmədən qeyri mümkündür.

NƏTİCƏ – Frazeoloji birləşmələr hər bir xalqın milli kaloritini, adət-ənənəsini, nəhayət dil sistemindəki özünəməxsus leksik-qrammatik formalarını əks etdirdiyi üçün belə ifadələr azərbaycan dilinə çox zaman səhv tərcümə edilir. Onların səhv tərcüməsinin əsas səbəblərindən biri onların verilmiş mətndən düzgün seçilməməsi, sərbəst söz birləşmələri ilə qarışdırılmasıdır. Buna görə də, tərcüməçinin ingilis dilində ve-

rilmiş frazeologizmi Azərbaycan dilinə düzgün, səhvə yol vermədən, orijinaldakı xüsusiyyətlərini saxlamaq şərtilə tərcümə etməsi üçün aşağıdakı qaydalara riayət edilməlidir: tərcümə olunacaq frazeologizmi tam başa düşməli, tərcümə prosesində lüğətdən düzgün istifadə etməli, dil və üslub məsələlərinə bələd olmalı, hər iki dilə məxsus olan fərqli ifadə vasitələrindən düzgün istifadə etməli, verilmiş frazeologizmin doğma dilə tərcüməsində sinonimlərindən istifadə etməyi bacarmalı, tərcümə metodlarından düzgüz istifadə etmək bacarığına malik olmalıdır.

Ədəbiyyat

1. Arnold, İ.V. The Engilish word. / İ.V.Arnold – Moscow: – 1966. – p 165-179.
2. Bayramov, H. Azərbaycan dili frazeologiyasının əsasları. / H.Bayramov – Bakı: – 1978. – s. 4-67.
3. Həsənov, H. Azərbaycan dilinin frazeologiyası. / H.Həsənov – Bakı: – 2007. – s. 2-9.
4. Кунин, А.В. Английская фразеология. / А.В.Кунин – Москва: – 1970. – s. 7-12.
5. Vəliyeva, N. Azərbaycanca-ingiliscə- rusca frazeoloji lüğət. / N.Vəliyeva, – Bakı: – 2006. – s. 54-59.

Məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Quliyev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 01 fevral 2022-ci il
Son daxilolma tarixi:17 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022

UOT 821.111

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 131-133
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 131-133
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 131-133

MƏHƏBBƏT KONSEPTİNİN EMOSİONAL ASPEKTLƏRİ HAQQINDA (V.ŞEKSPİRİN YARADICILIĞI ƏSASINDA)

Müəllif:

Nahidə Heydərova
Naxçıvan Müəllimlər İnstitutu

E-mail:
nahide_90@yahoo.com

Açar sözlər:
Azərbaycan dili, ingilis dili, Şekspirin sonetləri, sevgi, duyğu, xoşbəxtlik, gözəllik

Annotasiya. Azərbaycan və ingilis ədəbi dilində, ədəbi mətnlərdə "Məhəbbət" estetik bir kateqoriya kimi konseptual komponentləri təsvir və müəyyən edilir. Ən qatılaşdırılmış formada «Məhəbbət» anlayışı ingilis dilinin ədəbi dil konseptində obyektivlik xüsusiyyətlərini ifadə edir. Məqalədə Şekspir sonetlərinin mətnlərində qeyd olunmuş məhəbbət anlayışının emosional cəhətlərinin araşdırılması nəticəsində ilk dəfə olaraq emosional dəyərləndirmə dissonansı, yəni emosiyanın xarakteri ilə qiymətləndirmənin işarəsi arasında təzadı araşdırılmışdır. İnsan taleyində yaşanan Renesans dövrünün yazıçı və şairləri öz yaradıcılıqlarına müxtəlif sahələrdən: siyasi, hərbi, iqtisadiyyat, hüquq mövzularına toxunmuşdur. V.Şekspirin sonetləri həyati reallıqlarla onlardan çox fərqlənir. Eyni zamanda qədim mədəniyyətə təsir edən sonetlər çox aktual idi. Məhz buna görə də Renesans dövründə sevgi əsasən hökmdar və qulluqçu kimi verilirdi.

Author:

Nahida Heydarova
Nakhchivan Teachers Institute
E-mail:
nahide_90@yahoo.com

Key word:
love, emotion, language, sonnet, meaning, quality, happiness, beauty

EMOTIONAL CONCEPT OF "LOVE" ASPECTS (V. SHAKESPEARE BASED ON CREATIVITY)

Abstract. In the Azerbaijani and English literary languages, literary texts describe and define the conceptual components of an aesthetic category "Love". In its most condensed form, the concept of "love" expresses the features of objectivity in the concept of literary language of English. The article examines for the first time the contrast between the dissonance of emotional evaluation, ie the nature of emotion and the sign of evaluation, as a result of the study of the emotional aspects of the concept of love mentioned in the texts of Shakespeare's sonnets. Writers and poets of the Renaissance, who lived in human destiny, touched upon their works in various fields: politics, military affairs, economics, law Shakespeare's sonnets are very different from realities. At the same time, the sonnets that influenced the ancient culture were very relevant. That is why in the Renaissance love was given mainly as a ruler and servant.

Автор:

Нахида Гейдарова
Нахчыванский институт учителей
E-mail:
nahide_90@yahoo.com

Ключевые слова:
азербайджанский язык, английский язык, сонеты Шекспира, любовь, эмоция счастье, красота

ЭМОЦИОНАЛЬНЫЕ АСПЕКТЫ КОНЦЕПТА «ЛЮБОВЬ» (НА МАТЕРИАЛЕ ТВОРЦЕСТ ВА У.ШЕКСПИРА)

Аннотация. На азербайджанском и английском литературных языках художественные тексты описывают и определяют концептуальные компоненты эстетической категории "Любовь". В своей наиболее сжатой форме понятие "любовь" выражает черты объективности в концепции литературного языка английского языка. В статье впервые рассматривается контраст между диссонансом эмоциональной оценки, т.е. природой эмоции и знаком оценки, в результате изучения эмоциональных аспектов понятия любви, упоминаемых в текстах сонетов Шекспира. Писатели и поэты эпохи Возрождения, жившие человеческой судьбой, затрагивали свои произведения в различных областях: политике, военном деле, экономике, юриспруденции. Сонеты Шекспира сильно отличаются от реальности. В то же время сонеты, оказавшие влияние на древнюю культуру, были очень актуальны. Вот почему в эпоху Возрождения любовь представлялась главным образом как правитель и слуга.

Sevgini insanın mənəvi aləminə güc verən enerji kimi dəyərləndirmək olar. Qəlb sevgi ilə dolanda, insan qeyri-adi düşünülməmiş hərəkətlər edir, xeyirxahlıq, mərhəmətlilik , ürəyiaçıqlıq kimi keyfiyyətləri üzə çıxır, onu əhatə edən gözəllilkləri görməyə başlayır. Məhz məhəbbət insanı hamıya xo.bəxtlik və sevinc arzulamağa vadar edir. Məhəbbətin gücü insanı gümrahlaşdırır, psixoloji və fizioloji sağlamlığın yaxşılaşmasına təsir edir. Hərəkətin səbəbi olaraq sevgi varsa, onda bu cür hərəkət zərərsiz olur. Məhəbbət sözünün mənası sözün əsl mənasında həqiqətdir. İnsan ürəyi sevgi hissi ilə doludursa, o, daxili sakitlik, yaradıcılıq və xoşbəxtlik hissləri keçirir.[1]

İnsanlıq antropoloji şərait nəticəsində yaşayır. Onun ən mühüm təzahürlərindən biri sevgi və ailə münasibətləri böhranıdır, cəmiyyətdən və təbiətdən-nəticədə özündən, özünün əsl daxili "mən"indən, "daxili insanlğından" özgələşdirməsinin nəticəsidir. Sevgi-insan varlığının təməlidir, o insan üçün maddi və mənəvi harmoniyanın reallığıdır, onda insan özünün "mən"ini tapır. Lakin hazırki vəziyyətdə ideal sevgi öz dəyərini və ontoloji statusunu tamamilə itirmişdir. Sevgi erotika və ehtiras, idealda isə qovuşmazlıq, müasir şəraitdə isə özgələşmişdir. Belə ki, insan simvolik dünyaya girir, sevgidə "insan varlığı"nın parçalanması linqvistikada əksini tapır. [3]

Müasir linqvistikada dilşünaslar sevgi fenomenini linqvo-konseptologiyada tədqiq etmiş və aşağıdaki aspektləri nəzərə almışlar:

1. leksik - semantik ve leksikoqrafik - emosiyaların müxtəlif dillərdə ifadəsi zamanı leksik vahidlərin sistemli təhlili və təsviri vasitəsilə inkişaf etdirmək.

2. Dünyanın və mentalitetin təsviri etnolinqvistik vasitələrlə linqvokulturologiyada araşdırmaq.

3. Parameloji

4. Linqvostilistik

5. Psixolinqvistik

6. Etno-linqvistik

Linqvokulturoloji araşdırmalar, əsas "anlayış" kimi "konsept" kimi işlənməsi çox məhsuldar olmuşdur. Belə ki, dil sistemində və insanın nitq fəaliyyətində sevgi fenomeni insanın emprik hissələrini toplayan və izləyən daxili hissələrini, özünü birbaşa ifadə etməyə çətinlik çəkir və analitik tədqiq edir.[2]

Tədqiqatçıların araşdırmaları nəticəsində müasir insanların sevgisinin təsviri linqvokulturoloji təhlilə ehtiyac duyduğu aydın görünür.

Nümunə olaraq, H.Spenserin fikrini qeyd edək :

"...Culture is a fuzzy set of attitudes, beliefs, behavioral conventions, and basic assumptions and values that are shared by a group of people, and that influence each member's behavior and each member's interpretations of the "meaning" of other people's behavior"

Mədəniyyət - bir qrup insanların davranışı, qeyri-müəyyən inancları və qeyri-müəyyən münasibətləri , davranış konvensiyaları və hər qrupun üzvünün davranışı və dəyərləri, bir qrup insanlar tərəfindən paylaşılan fərziyyələridir.

Mədəniyyət və "mən" strukturunda sevgi fenomeninə aid suala cavab vermək üçün onu mədəni və mənəvi dəyərlər sistemində qiymətləndirmək, daha doğrusu sevgini mədəniyyətin müxtəlif elementləri ilə necə təsvir etmək lazım olduğunu müəyyən etmək lazımdır. Bu münasibətlər dilin şəxsiyyətinə antroposentik baxışın fundamentini qoyur, sevgi aləmində özünəməxsus təzahürlərin təhlili üçün xidmət göstərir.

"Məhəbbət" sözünün cəlbediciliyi və hər dildə ifadə olunan leksemi onun milli-mədəni və sosial həyatı ilə sıx bağlılığını tədqiqatlarda aydın görmək olar. Digər kateqoriyalara nəzər saldıqda hər bir dilin lüğət tərkibində "məhəbbət" sözü emosional xarakterli söz olduğunu müəyyən etmək olar. Onun geniş mənada ifadə olunması dil ilə əlaqədar deyil, bu insan şüurunda yaratdığı emiosional düşüncə ilə bağlıdır.

Mədəniyyət baxımından "məhəbbət" sözünə nəzər yetirsək, o təkcə kimə isə, nəyə isə dəyər vermək deyil. O, xüsusi zəhmət verilmiş, ruhu qidalandıran , mənəvi sakitlik verən və özəl tərkibli bir duyğudur.

Məhəbbət məfhumunun ən aşağı səviyyə ilə dəyərləndirsək, o, mənəvi və daxili aləmin həyati tələbatlarını ödəyən xüsusi bir duyğudur. Bu mərhələdə ona görə sevirlər ki, bu sevginin nəticəsində həzz alırlar, öz xeyirlərinə həyatı və hadisələri dərk etmək düşüncəsində olurlar. Bu predmetlərdən yemək, əşya, əyləncə və yaxud ehtiras həzləri ola bilər. Əlbəttə, yüksək ifadə ilə desək bu məhəbbət deyil. Və onun yaradıcı mənası burada zəif səslənir. Bu halda onun mənəvi dəyəri və keyfiyyəti çox aşağı qiymətləndirilir.

Növbəti mərhələdə , sevginin özünü idarə mərhələsi ilə dəyərləndirsək o, daha dərin ehtiraslara dayanır. Bu halda hadisələr nəticələrdən

daha gözlənilməz olur. Sevgidə şəxsiyyətin tanımı baş verir. Daha vacibi sevməkdir, nəinki sevilmək, sevgi əzabını çəkmək əsas hesab olunur. Bu valideyn sevgisinə aid olunur. Bu mərhələdə estetik anların verdiyi gözəllik əsasdır.

Şəxsi zəmində şəxsiyyətini tanımaq üçün baş verən sevgi aşağıdaki proseslərdə özünü göstərir:

- şəxsi eqoizmindən önə keçmək;
- hörmət göstərmək;
- digər şəxsin qayğısına qalmaq;
- tərki-dünyalıqdan azad olmaq;
- həyatın mənasını dərk etmək;
- yeni yaradıcılıq bacarıqlarını kəşf etmək və s. kimi şəxsi keyfiyyətləri özündə birləşdirir.

Estetik mənada “məhəbbət” insanlığın yüksək həddi ilə dəyərləndirilir. İnsana, insan varlığına və həyatına qarşı yüksək humanist dəyərlə yanaşılır. Məhəbbət zülmə və pisliyə qarşı ən güclü və həqiqi qüvvə kimi başa düşülür.

Digər bir mənada isə “sevgi” daim gözəllik axtarışında olan duyğu kimi başa düşülür. Nəticədə həmin gözəllikdən aldığı həzlə yeni gözəlliklər yaratmaq eşqilə yaşamaq həvəsi bəxş edir.

Ədəbiyyat

1. Abdullayev, K. Azərbaycan dili sintaksisinin problemləri. / K.Abdullayev – Bakı: – 1998. – 428 s.
2. Adilov, M.İ. Azərbaycan dilində sintaktik təkrarlar. / M.İ.Adilov – Bakı: Elm, – 1974. – 340 s.
3. Axundov, A. Dil və üslub məsələləri. / A.Axundov – Bakı: Gənclik, – 1970. – 104 s.
4. Axundov, A.A. Ümumi dilçilik./ A.A.Axundov – Bakı: Şərq-Qərb, – 2006. – 278 s.
5. Azərbaycan dilinin qrammatikası. I hissə, – Bakı: AMEA, – 1960. – 640 s.
6. Azərbaycan Milli Elmlər Akademiyası, Nəsimi adına dilçilik institutu “Azərbaycan dilinin izahlı lüğəti” – Bakı: Şərq-Qərb, – c.2. – 2006. – 538 s.
7. Babayev, A.S. Dilçiliyə Giriş. / A.S.Babayev – Bakı: Maarif, – 1992. – 376 s.
8. Bayramov, H. Azərbaycan dili frazeologiyasının əsasları. / H.Bayramov – Bakı: – 1978. – 67 s.

Məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Quliyev tərəfindən təqdim olunmuşdur.

İlk daxil olma tarixi: 08 fevral 2022-ci il
Son daxil olma tarixi:18 fevral 2022-ci il
Qəbul edilmə tarixi: 26 aprel 2022-ci il

UOT 811.512.162

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 134-138
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p.134-138
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 134-138

AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ ÜZVLƏNMƏYƏN CÜMLƏLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Müəlliflər:

Samirə Həsənova
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Şəhla Fətəliyeva
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent

E-mail:
samirehesenova75@gmail.com

Açar sözlər:
Azərbaycan ədəbi dili, üzvlənməyən cümlələr, adlıq cümlə, söz-cümlə, xitab-cümlə, klassik poeziya, Şah İsmayıl Xətai, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri

Annotasiya. Məqalədə müasir ədəbi dilimizdə üzvlənməyən cümlələr, onların işlənmə sahəsi, növ və tiplərindən bəhs olunur. Bu məqalədə üzvlənməyən cümlə növlərinin tip və formalarının nə zaman əmələ gəldiyinə, necə formalaşıb sabitləşdiyinə toxunulmasa da, onların bədii ədəbiyyatımızın yalnız Azərbaycan dilinə məxsus xüsusi, yazılı abidələrində istifadə, işlənmə dairəsi xronoloji ardıcıllıqla göstərilmişdir. Həmçinin nəzərdən keçirdiyimiz mənbələr əsasında ədəbi dilimizin bu cəhətdən inkişafı XX əsrin sonlarından XXI əsrin əvvəllərinədək izlənilmişdir. Tədqiqatlardan belə nəticəyə gəlmək olar ki, XIX əsrin 50-ci illərində yaranıb sonralar daha da inkişaf etdirilən dramaturgiya, yeni üslublu hekayə-povest, daha sonralar roman və s. ədəbi janrlar xalq dili xəzinəsindən geniş istifadə etmək, canlı nitqin üslub rəngarənglik-lərindən faydalanmaq zərurəti öz növbəsində, dilimizin ifadə zənginliklərini, qrammatik imkanlarını hərtərəfli üzə çıxardı və buna görə də üzvlən¬məyən cümlələrin işlənmə nisbəti dəyişdi.

Authors:

Samira Hasanova
Nakhchivan Teachers İnstitute
Doctor of philosophy in philology, associate professor
Sahla Fataliyeva
Nakhchivan Teachers İnstitute
Doctor of philosophy in philology, associate professor
E-mail:
samirehesenova75@gmail.com

Key word:
Azerbaijani literary language, non-membered sentences, noun phrase, sentence, address-sentence, classical poetry, Shah Ismayil Khatai, Bakhtiyar Vahabzade, Nabi Khazri

FEATURES OF THE PROCESSİNG OF NON-MEMBERED SENTENCES İN THE LİTERARY LANGUAGE OF AZERBAİJAN

Abstract. The article talks about non-membered sentences in our modern literary language, their field of development, kinds and types.Although this article does not touch on when the types and forms of the non-membered sentence types were formed, how they were formed and stabilized, their use and development scope in the special, written monuments of our fiction literature specific to the Azerbaijani language is shown in chronological order. Also, on the basis of the sources we reviewed, the development of our literary language in this aspect was followed from the end of the 20th century to the beginning of the 21st century.It can be concluded from the researches that the dramaturgy, new-style story-narrative, later novel and other literary genres emerged in the 1950s and were further developed, the need to make extensive use of the vernacular treasure, to benefit from the stylistic variety of living speech, in turn, revealed the riches of expression and grammatical possibilities of our language comprehensively, and therefore the rate of development of non-membered sentences changed.

Авторы:

Самира Гасанова
Нахчыванский институт учителей
Доктор философии по филологии, доцент
Шахла Фаталиева
Нахчыванский институт учителей
Доктор философии по филологии, доцент
E-mail:
samirehesenova75@gmail.com

Ключевые слова:
азербайджанский литературный язык, предложения нерасчленённой структуры, назывное предложение, слово-предложение, обращение-предложение, классическая поэзия, Шах Исмаил Хатаи, Бахтияр Вагабзаде, Наби Хазри

ОСОБЕННОСТИ УПОТРЕБЛЕНИЯ ПРЕДЛОЖЕНИЙ НЕРАСЧЛЕНЁННОЙ СТРУКТУРЫ В АЗЕРБАЙДЖАНСКОМ ЛИТЕРАТУРНОМ ЯЗЫКЕ

Аннотация. В статье рассматриваются виды и типы предложений нерасчленённой структуры в азербайджанском литературном языке и сферы их употребления. Хотя в данной статье не затрагивается вопрос о том, когда образуются, как формируются и закрепляются типы и формы таких предложений, в хронологическом порядке показана сфера их использования, употребления в письменных памятниках нашей художественной литературы, относящихся только к азербайджанскому языку. Также, на основе рассмотренных нами источников, развитие нашего литературного языка в этом аспекте прослеживалось с конца XX до начала XXI века. Из исследований можно сделать вывод, что в 50-е годы XIX века возникла и получила дальнейшее развитие драматургия, новые жанры повествования -повесть, позже роман и др. литературные жанры, становилась необходимостью широкое использование сокровищ народного языка, пользование стилевым многообразием живой речи, что, в свою очередь, всесторонне раскрыло выразительные богатства нашего языка, его грамматические возможности, в связи с чем изменилось соотношение употребления предложений нерасчленённой структуры.

Dilimizdə elə cümlələr işlədilir ki, onları baş və ikinci dərəcəli üzvlərə ayırmaq, onların bu və ya digər üzvdən (və ya üzvlərdən) ibarət olduğunu söyləmək qeyri-mümkündür. Bu cür cümlələr bitmiş fikir ifadə etsə də, üzvlənmir, ona görə də üzvlənməyən cümlələr adı altında öyrənilir [3, s. 203].

Müasir ədəbi dilimizdə üzvlənməyən cümlələrin işlənmə sahəsi geniş, növ və tipləri çoxdur. Aydındır ki, bunlar birdən-birə yaranmamış, hər hansı bir dil vahidi kimi, bu cümlə tipləri də uzun müddətli bir inkişaf prosesinin məhsulu olaraq formalaşıb, bugünkü səviyyəyə çatıncayadək özünəməxsus bir inkişaf tarixi keçirmişdir. Üzvlənməyən cümlələrin ayrı-ayrı tip və formaları da dilin digər ünsürləri kimi, öz əsası ilə qədim dövrlərə bağlıdır. Qeyd edildiyi kimi, üzvlənməyən cümlələrin dilimizdə daha çox müşahidə olunan, mənbələrdə daha çox nəzərə çarpan növləri haqqında məqalədə qısa məlumat verməklə kifayətlənmək olar.

1. Adlıq cümlə. Müasir dilimizdə adlıq cümlənin bir çox tip və formalarından istifadə olunur.

Lakin qədim mənbələrə müraciət etsək, bu cümlə tipinn az olduğunu, bəzi formalarının isə

olmadığını görərik.

Adlıq cümlənin əsas iki tipini göstərmək olar:

1) hissi və həyəcanlı halları ifadə etmək üçün daha yararlı olan söz-cümlə tipi;

2) əsasən başlıqlarda verilən sərlövhə-cümlə tipi.

Adlıq cümlənin müasir ədəbi dilimizdə olan birinci tipinə XIX əsrin ortalarınadək nəzərdən keçirdiyimiz mənbələrdə son dərəcə az rast gəlirik.

Şah İsmayıl Xətainin əsərlərində, xüsusilə "Dəhnamə" poemasında adlıq cümlənin bir tipini xatırladan misralara təsadüf oluur:

Hər dəstə butük vərdi-qaymaq,
Sünbül çiçək ilə oymaq-oymaq.
Quzuqulağı, güli-qərənfil,
Təkəsaqqalı və göy sünbül.
Sordum bulara qamu Səbanı.

Qara rənglə verilmiş misralar özündən əvvəlki və sonrakı cümlələrlə qrammatik cəhətdən lazımi qədər bağlanmadığı kimi, həmin misralara daxil olan sözlərin hansı cümlə üzvünə mənsub olduğu da konkret şəkildə müəyyən deyil.

Füzulinin lirik şeirlərində adlıq cümləyə rast gəlmək çətindir. Amma onun bəzi şeirlərində bu cümlə növünün birinci tipini xatırladan sözlərə təsadüf olunur:

Dərdinə bulunmaz oldu dərman,
"Məcnun" dedi, verdi aqibət can.

Burada başqa (üzvlənən) cümlənin bir üzvü kimi istifadə olunan "Məcnun"sözü eyni vəziyyətdə, yaxud ayrılıqda adlıq cümlənin birinci tipini də xatırladır. Bu fikri həmin əsərdən alınmış:

Müjdə ki, zəmanə verdi kamın.
Müjdə ki, müyəssər oldu məqsud.
Müjdə ki, muradın oldu hasil.
misralarının ilk sözlərinə də aid etmək olar.

Lakin dramaturgiyamızın və yeni tipli nəsrimizin yaranması, inkişafı ilə adlıq-söz cümlənin bu tipi də artıq "tam" formalaşmış bir şəkildə keşən əsrdən nəzərə çarpmağa başlayır. Məsələn: Baaa!.. Quldurov!.. Heç bilirsiniz bu kimdir?.. (H.Vəzirov); Su! Su! Öldüm, allah vayyyyy (H.Vəzirov); Cəhənnəm, nə cəhənnəm! Tamaşası cəmi dünyaya dəyər! (Ə.Haqverdiyev).

Müasir ədəbi dilimizdə, məsələn, Nəbi Xəzrinin əsərlərinə müraciət etsək, adlıq cümlənin yeni tipinə daha çox rast gəlmək olar:

Bağ həyəti. Səhərdir [4, s.253]. Mağara. Yanar və Mədəd [4, s.275)]və s.

Deməli, tədqiqata cəlb edilən mənbələrə əsaslanaraq, adlıq cümlənin bu tipini dilimizin inkişafında, əsasən son əsrlərin sintaktik hadisələrindən biri saymaq olar.

Söz-cümlə. Müasir ədəbi dilimizdə söz-cümlənin bir sıra tip və formaları var ki, bunlardan əvvəlki dövrlərə nisbətən müasir ədəbi dilimizidə müqayisəyə gəlməz dərəcədə çox istifadə edilir. Deməli, üzvlənməyən cümlələrin bir sıra növləri kimi, söz-cümlənin ayrı-ayrı tip və formaları da son iki əsrdə yaranmış bədii ədəbiyyatımızın dilində daha əhatəli işlənir.

İstər klassik poeziyamızın, istərsə də XIX əsrdə yaranıb, sonra daha da inkişaf etdirilən canlı danışıq dilində bu cümlə növünün dörd tipi xüsusilə müşahidə edilir.

1) Təsdiq söz-cümlə tipinə aydın-bitkin şəkildə, əsasən XVI əsrin materiallarında rast gəlirik:

Sordu ona ki, Səbamisən sən,
Kim, aşiqi-xəstədən gəlirsən,
Halından onun xəbər bilirsən?
Aydır ki, bəli, Səba mənəm!
(Xətai)

XIX əsrdən başlayaraq, söz-cümlənin bu tipindən geniş şəkildə istifadə olunmağa başlandı. Məsələn:

- Bu yaraq, əsbab sənindir, Hacı? – Bəli! – Sənə hər necə deyirəm, elə eylə!.. – Baş üstə, ağa!; - Amma gərək Məstəlişah.. xəlvət bura gəlsin... – Əlbəttə... – Əgər sən və Namaz mənə kömək edib bir iş

eləsəniz, özümün kürd atımı bağışlaram Namaza və bir yanı buzovlu inək də sənə verrəm. – Doğrudan bir inək?! – Şəksiz, şübhəsiz! (M.Axundov).

2) İnkar söz-cümlə tipinə XIX əsrə qədər az, əsasən XV-XVI əsrlərin yazılı abidələrində təsadüf olunur:

Ey ağzı qönçə, çöhrəsi gül, xətləri səmən..
Naz eyləyən, girişmə qılan, aşiq öldürən!
Yox yox! Xəta dedim, kəc anladım! (Həbibi)

Bu cümlə tipinə XIX əsr yazılı mənbələrində nisbətən çox rast gəlirik:

Nə üçün təəccüb edib fikrə getdiniz? – Heç! (N.Nərimanov); - Şeyx Şəbanı siz tanıyırsınızmı? – Xeyir! (Ə.Haqverdiyev) və s.

3) Sual söz-cümlə tipinin müstəqil heç bir leksik əlaməti yoxdur. Buna görə də XIX əsrə qədər tədqiqata cəlb etdiyimiz mənbələrdə bu cümlə tipinə nadir hallarda rast gəlirik. Hətta XX əsrə aid yazılı mənbələrin dilində sual söz-cümlədən söz-cümlənin digər tiplərinə, xüsusən nida söz-cümlələrə nisbətən məhdud ölçüdə istifadə olunmuşdur. Məsələn:

- Nadir, özünə çox ümid edirsən, yaman fikirləri başından daşla! – Yoxsa başından özgə bir xəyallar keçir? – Hə?; - Şamdan bəy dəli olubdur. – Yox a?.. (N. Nərimanov).

XX əsrin sonu XXI əsrin əvvəllərində ədəbi dilimizdə söz-cümlənin bir sıra tiplərindən geniş şəkildə istifadə olunmuşdur. Məsələn:

Xeyr! Qisasında yanılmısan sən! [2, s.271].
Bəli!
Belə ölümə
Həyatın qibtəsi var [2, s.420].

4) Nida söz-cümlə dilimizin müasir səviyyəsində üzvlənməyən cümlələrin ən çox işlənənidir. Söz-cümlənin bu tipi həm nidavari sözlərdən, həm sırf nidalardan, həm də ibarələnmiş (frazeoloji) ifadələrdən ibarət olur. XVIII əsrə qədər bu cümlə tipi, əsasən, xitabların iştirakı ilə formalaşır.

Afərin, ey şəhriyari-mülkpərvər, afərin!; Ey kilgi-pəvəndə, barəkallah! (Füzuli); Afərin, ey maliki-mülki-cahan, səd afərin! (Məsihi); Mərhəba, sən bizə, ey türfə cavan, xoş gəldin! (Vaqif).

XIX əsrdən başlayaraq, nida söz-cümlənin hətta müasir ədəbi dilimizdə də geniş tədqiqə ehtiyacı olan bir sıra formalarından hədsiz dərəcədə istifadə olunur.

1. Məsdər-cümlə. Azərbaycan ədəbi dilində üzvlənməyən cümlələrdən ən az işlənən,

xüsusən, keçmiş dövrlərin yazılı mənbələrində ən az təsadüf edilən məsdər-cümlədir. Bu cümlə növünün ayrı-ayrı tipləri, bir sıra sintaktik xüsusiyyətlərinə görə, adlıq cümlənin birinci tipini və söz-cümlənin bəzi formalarını xatırladır.

Məlum olduğu kimi, məsdər-cümlənin üzvlənən və üzvlənməyən tipləri var. Bu tiplər orta əsrlərin bədii abidələrinin dilində olduqca az işlənmişdir. Müasir ədəbi dilimizdə isə ikinci tip (yəni üzvlənməyən) məsdər-cümlədən onun birinci tipinə (yəni üzvlənən məsdər-cümləyə) nisbətən daha çox və daha əhatəli şəkildə istifadə olunur.

Bununla belə, XVI- XVII əsrlərə aid aşağıdakı nümunələr məsdər-cümlənin bilavasitə ikinci tipinin həmin əsrlərdə artıq formalaşmış olduğunu göstərir. Məsələn: Səndən tələb eyləmək rəvanı, Bizdən qılmaq nisar canı. Səndən meydanə qılmaq ahəng, Bizdən yandırmaq atəşi cəng. Səndən qoymaq ayaq cidalə, Bizdən durmaq rəhi-qitalə. Vərqa ilə qılmaq aşinalıq, Vermək o çırağə ruşnalıq (Məsihi, XVII).

XVIII-XIX əsrlərdə də (xüsusən Vaqif və Vidadinin, M.F.Axundov və N.Vəzirovun əsərlərində) üzvlənməyən məsdər-cümlənin işlənmə dairəsi dar və formaları məhduddur. Nümunələr bunlardır:

Gəl, tanrı üçün, Vaqifə çox vermə əzabı; Dəxi nə yaşınmaq, nə bürünmək, nə utanmaq? (Vaqif, XVIII əsr); - Mən gedirəm şəhərə, lazımı şeylər almağa, siz də yavaş-yavaş hazırlaşın. – Hə hazırlaşmaq? (N.Vəzirov, XIX əsr).

Lakin XX əsrin əvvəllərindən başlayaraq, məsdər cümlədən get-gedə çox istifadə olunur. Xüsusilə müasir bədii ədəbiyyatımızın dilində, qüvvətli emosional təsir yaratmaq xüsusiyyətinə görə, məsdər-cümlənin ikinci tipi işlək bir sintaktik vahidə çevrilmişdir.

1. Xitab-cümlə. Xitab-cümlə də üzvlənməyən cümlələr qrupuna daxil edilə bilər. Lakin üzvlənməyən cümlələrin digər növlərindən fərqli olaraq, xitab-cümlədən yalnız müasir ədəbi dilimizdə deyil, keçmiş əsrlərdə yaranmış bədii ədəbiyyatımızın dilində də çox istifadə olunmuşdur.

Başqa sintaktik vasitələr kimi, xitablar da struktur və semantik baxımdan əsasən sabit olmuş, yalnız bir sıra alınma leksik və sintaktik vasitələrlə (izafət birləşmələri ilə) ifadəsinə görə müasir dildən fərqlənmişdir. Q.Zakirin dilində sevdiyim, ey Leylicəmal, ey çeşmi-xumar, dilbər tipli xitablarla yanaşı, klassik ədəbiyyatdan və folklordan gələn rəmzi-bədii xitablar da işlənmişdir [1, s. 283].

Müasir ədəbi-bədii dilimizdə olduğu kimi, klassik ədəbiyyatımızın dilində də üzvlənən cümlələr ilə əlaqəsinə görə, xitab cümlənin iki tipi var.

1) Üzvlənən cümlələr ilə bilavasitə bağlı xitab-cümlə müstəqil işlənmir. Xitab-cümlənin bu tipi

mətndə başqa cümlənin iştirakına möhtacdır, ondan asılıdır, ona tabedir. Bu cəhətdən, xitab-cümlə ilə onun əlaqədar olduğu üzvlənən cümlə arasındakı bağlılıq, tabeli budaq cümlə ilə baş cümlə arasındakı bağlılığı xatırladır. Əsrlər üzrə nümunələrə diqqət yetirək. Məsələn:

XIV əsr:

Hökmünə təslim olur canü könül, Ey vücudum təxtinə sultanımız; Ey əzəli can ilə cananımız, Eşqi-ruxundur əbədi şanımız! (Nəsimi).

XV əsr:

Ey donu qızıl, bənzi qızıl, mışki gülalə!
Sənsən çəməni-hüsn ara bir dəstə lalə!
(Kişvəri)

XVI əsr:

İncimən, dərdindən, ey könlüm alan nazik sənəm! (Xətai)

XVII əsr:

Nə ağlarsan, nə sızlarsan,
Bir dərdi beş olan könlüm!
(Tufarqanlı Abbas)

Ey dərdə qılan məni griftar,
Qıl hikmətilə əlac bimar! (Məsihi)

XVIII əsr:

Ey qaşları hilal, yanaqları gül,
Zülfləri reyhan, xalları fülfül,
Aşiqin öldürən birəhmü bidil!
Sənintək aləmdə ev yıxan yoxdur!
(Vaqif)

XIX əsr:

Bir saat havada qanad saxlayın,
Nizam ilə gedən qoşa durnalar!
(Zakir)

Ey Şeyx Nizami, ey Nizamı dağılan,
Ey Gəncədə izzü ehtişamı dağılan,
Olubmu sənin lə mənim kibi aləmdə
Beyti, evi, məktəbi, kəlamı dağılan!

Xitab-cümlənin bu tipindən XX əsrdə istifadə vəziyyəti də təxminən əvvəlki əsrlərdə olduğu kimidir. Lakin XIX əsrin sonlarından başlayaraq, izahedici xitab-cümlələrdən də istifadə olunmağa başlanır. Belə xitablar xitab-cümlənin birinci tipi ilə ikinci tipi arasında ortaqlı bir vəziyyət əmələ gəlməsinə səbəb olur.

2) Üzvlənən cümlələrlə bilavasitə bağlanmayan xitab-cümlə tipinin iki formasına bədii ədəbiyyatımızın dilində nisbətən daha çox rast gəlirik.

Nəsrlə yazılmış bədii əsərlərdə az təsadüf edilən bu cümlə tipinin birinci formasından klassik poeziyamızın lirik şeir növündə, xüsusən rübai, qismən də müsəddəs, müxəmməsdə və s. bir qədər çox istifadə olunur.

Klassik poeziyamızda xitab-cümlənin ikinci forması isə, əsasən məsnəvi şəkilli poemalarda işlənir. Belə əsərlərdə bir sıra misraları əhatə edən xitablar, nisbətən, çox işlənir. Belə xitab-cümlələr zəif də olsa, mətnin üzvlənən cümlələri ilə müəyyən bağlılıq var. Məsələn:

Ey yüzündən hurü qılman münfəil!
Ey qaşından mahi-taban münfəil.
Ey ləbindən abi-heyvan münfəil!
Ey xətindən vərdü reyhan münfəil!
(Nəsimi)

İkinci tip xitab-cümlənin hər iki formasından Xətainin və Füzulinin əsərlərində çox istifadə olunur. Həm Xətainin Ey xublar içində tələt hüsn ilə bay olan - misrası ilə başlanan üç beytlik qəzəli və "Dəhnamə" poemasına daxil edilən Ey cani-dili xərab edən eşq! misrasından Səd naz ilə min itab edən eşq! misrasınadək başqa bir qəzəli, Füzulinin:

Ey nəşəti-hüsni eşqə təsir qılan.
Eşqilə binayi-kövni təmir qılan!
Leyli səri-zülfünü girehgir qılan!
Məcnuni-həzin boynuna zəncir qılan.

Və yaxud "Leyli və Məcnun" poemasındakı:

Ey cudi vicudi-kövnə vahib:
Zati kimi etirafı vacib.

misraları buna misal ola bilər.

Məsihinin XVII əsrin əvvəllərində yaratdığı "Vərqa və Gülşa" poemasından aldığımız:

Key mədəni-cövhəri-həyatım.
Vey məsdər səfheyi-sifatım!
Ey ayineyi-vücudum ana!
Vey sağəri-bəzmi-cudum ana!..

xitab-cümlələr özündən əvvəlki və sonrakı üzvlənən cümlələr ilə qismən bağlıdır.

Tədqiqatlarımızdan belə məlum olur ki, XX əsrdə xitab-cümlənin ikinci tipinin işlənmə dairəsi hətta şeirdən dramaturgiyayadək və nəsrin digər növlərinədək genişlənir. Əlbəttə, burada "genişlənmə" sözü həmin cümlə tipinin keyfiyyətinə -sintaktik cəhətdən təkmilləşməsinə aiddir. Məsələn, müasir ədəbiyyatımızda Nəbi Xəzrinin əsərlərinə diqqət yetirsək, görərik ki, burada da xitab-cümlə modelləri öz əvvəlki funksiyasnı qoruyub saxlamışdır:

Salam, sən ey ucsuz-bucaqsız torpağımızın yeni doğulan şəhəri! Xırdalan şəhəri! Mən indidən sənin əllərini sıxıram [4, s.127].

Və yaxud B.Vahabzadənin "Şəbi-hicran" poemasından bir parçaya nəzər salsaq, yuxarıda qeyd etdiyimiz fikirləri bir daha təsdiq etmiş olarıq:

Ey Vətən gözəli, gəl, öpüm sənin
"Vətən dili" deyən dodaqlarından [2, s.263].

Bu məqalədə üzvlənməyən cümlə növlərinin tip və formalarının nə zaman əmələ gəldiyinə, necə formalaşıb sabitləşdiyinə toxunmasaq da, bədii ədəbiyyatımızın yalnız Azərbaycan dilinə məxsus xüsusi, yazılı abidələrində istifadə, işlənmə dairəsini xronoloji ardıcıllıqla göstərməyə çalışdıq. Əsərlərdən nümunələr gətirərək, onları yeri gəldikcə şərh edərək, nəzərdən keçirdiyimiz mənbələr əsasında ədəbi dilimizin bu cəhətdən inkişafını XX əsrin sonlarından XXI əsrin əvvəllərinədək izlədik.

Azərbaycan ədəbi dilinin XIV əsrdən başlayaraq nəzərdən keçirdiyimiz qədim yazılı mənbələrində üzvlənməyən cümlələrin bəzi tiplərinə təsadüf etmədik, bəzi tip və formalarına isə son dərəcə az rast gəldik. Bununla əlaqədar, belə qənaətə gəldik ki, qədim yazılı mənbələrdə üzvlənməyən cümlələrin ayrı-ayrı tip və formalarının istifadə dairəsi məhdud olmuşdur. Bu, fikrimizcə, onunla izah edilir ki, üzvlənməyən cümlələr daha çox kütləvi canlı nitq ilə bağlıdır; mövcud qədim mənbələrdə isə belə bir nitqin mükəmməl nümunəsi hələlik məlum deyil. Deməli, canlı nitq, qədim yazılı abidələrin dilinə nisbətən müasir bədii ədəbiyyatımızın dili üçün daha səciyyəvidir.

Tədqiqatlarımızdan belə nəticəyə gəlirik ki, XIX əsrin 50-ci illərində yaranıb sonralar daha da inkişaf etdirilən dramaturgiya, yeni üslublu hekayə-povest, daha sonralar roman və s. ədəbi janrlar xalq dili xəzinəsindən geniş istifadə etmək, canlı nitqin üslub rəngarəngliklərindən faydalanmaq zərurətini doğurdu. Bu da öz növbəsində, dilimizin ifadə zənginliklərini, qrammatik imkanlarını hərtərəfli üzə çıxardı. Buna görə də başqa nitq – dil vahidlərindən az və ya çox dərəcədə fərqli olaraq, üzvlənməyən cümlələrin işlənmə nisbəti dəyişdi və bu nisbət arasındakı fərq get-gedə artdı.

Ədəbiyyat

1. Azərbaycan ədəbi dili tarixi. [4 cilddə] / – Bakı: Şərq-Qərb, – c.3. – 2007.
2. Vahabzadə, B. Seçilmiş əsərləri. [2 cilddə] / – Bakı: Yazıçı, – c.1. – 1983.
3. Kazımov, Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis. / Q.Ş.Kazımov, – Bakı: Ünsiyyət, – 2000.
4. Nəbi Xəzri. Ümmandan damlalar. – Bakı: Yazıçı, –1979.

Məqalə filologiya üzrə elmlər doktoru, profesor Akif İmanlı tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 06 fevral 2022-ci il
Son daxilolma tarixi:16 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 811.512.162

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 139-142
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 139-142
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 139-142

BİR SIRA TÜRK MƏNŞƏLİ SÖZLƏRİN LEKSİK-SEMANTİK DƏYİŞİKLİYİ

Müəllif:

Nicat Yaqubov
Naxçıvan Müəllimlər İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru

E-mail:
nicatyaqubov82@gmail.com

Açar sözlər:
Azərbaycan dili, leksika, semantika, türk mənşəli sözlər, çoxmənalılıq

Annotasiya. Azərbaycan dilinə tarixi inkişaf baxımından yanaşdıqda müxtəlif dövrlərdə söz yaradıcılığı məsələsi diqqəti çəkməkdədir. Söz yaradıcılığı məsələsinin müxtəlif yolları vardır, əsasən bu məqalədədə öz əksini tapan üç yolla (1. Əsl Azərbaycan sözlərinin mənaca dəyişilib başqa məna kəsb etməsi ilə, 2. Alınma sözlərin semantik yolla yeni məna yaratması ilə, 3. Türk mənşəli sözlərin öz mənasından ayrılıb yeni məna kəsb etməsi ilə) daha aktiv formada özünü göstərdiyini müşahidə etməkdəyik. Qeyd etdiyimiz formalar Azərbaycan dilinin semantikasında xüsusi əhəmiyyət kəsb etməklə bərabər dilimizdə məna və ifadə baxımındanda böyük zənginlik yaratmaqdadır. Onu da qeyd etmək vacibdir ki, semantik yolla söz çoxaltmaq, söz yaratmaq o deməkdir ki, hər hansı bir söz vaxtilə bir mənada işlənsə də, hazırda öz ilkin mənasından uzaqlaşıb yeni məna kəsb etməkdədir.

Author:

Nijat Yagubov
Nakhchivan Teachers Institute
Doctor of philosophy in philology

E-mail:
nicatyaqubov82@gmail.com

Key word:
Azerbaijani language, lexicon, semantics, words of Turkish origin, polysemy

LEXİCAL-SEMANTİC CHANGE OF SOME WORDS OF TURKİSH ORİGİN

Abstract. When approaching the Azerbaijani language from the point of view of its historical development, the issue of word creation in different periods attracts attention. There are different ways of the problem of word creation, mainly in three ways that are reflected in this article (1. By changing the meaning of original Azerbaijani words and acquiring a different meaning, 2. By semantically creating a new meaning of borrowed words, 3. By separating words of Turkish origin from their original meaning and creating a new meaning. we observe that it manifests itself in a more active form. The mentioned forms are of special importance in the semantics of the Azerbaijani language and create great richness in terms of meaning and expression in our language. It is also important to note that multiplying words and creating words in a semantic way means that any word, although it was once used in one sense, is currently moving away from its original meaning and acquiring a new meaning.

Автор:

Ниджат Ягубов
Нахчыванский институт учителей
Доктор философии по филологии, доцент

E-mail:
nicatyaqubov82@gmail.com

Ключевые слова:
азербайджанский язык, лексика, семантика, слова тюркского происхождения, многозначность

ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ ИЗМЕНЕНИЯ РЯДА СЛОВ ТЮРКСКОГО ПРОИСХОЖДЕНИЯ

Аннотация. При подходе к азербайджанскому языку с точки зрения исторического развития в разные периоды времени обращается внимание на вопрос о словотворчестве. Существуют различные способы решения проблемы словопроизводства, в основном тремя способами, описанными в этой статье. Это 1) изменение значения и приобретение нового значения у исконно азербайджанских слов; 2) развитие нового значения у заимствованных слов семантическим путем, 3) отделение от своего значения и приобретения нового значения у слов тюркского происхождения, что проявляют себя в более активной форме в последнее время. Упомянутые нами формы, наряду с особым значением в семантике азербайджанского языка, создают в нашем языке большое богатство смысла и выражения. Также важно отметить, что семантическое воспроизведение слова, словообразование означает, что любое слово, хотя когда-то использовалось в каком-то смысле, в настоящее время отклоняется от своего первоначального значения и приобретает новое значение.

Hər hansı bir dilin ən dəyişkən qeyri–sabit və mütəhərrik sahəsi onun lüğət tərkibidir. Azərbaycan dilinin də lüğət tərkibi daima dəyişir, öz istifadə dairəsini azaldan və ya itirən sözlər köhnələrək dilin qeyri–fəal fonduna keçir və həyatımızda baş verən bütün ictimai–siyasi, mədəni hadisələr nəticəsində dilimizə yeni sözlər keçir, beləliklə, dilin söz ehtiyatı, söz xəzinəsi yeni leksik vahidlərlə zənginləşir. Bir məqamı da vurğulamaq lazımdır ki, dilin təkmilləşməsi, zənginləşməsi təkcə onun kəmiyyətcə dəyişilməsi yolu ilə deyil, həm də lüğət tərkibindəki sözlərin keyfiyyətcə inkişafı –mənaca dəyişməsi vasitəsilə də həyata keçir. Dilə yeni sözlərin gəlməsi əgər ictimai –siyasi quruluşun dəyişməsi, elm və texnikanın sürətlə inkişafı ilə bağlıdırsa, sözlərin semantik yolla, yəni mənaca dəyişilməsi daha çox dilin özünün daxili qanunauyğunluqlarından və milli xüsusiyyətlərindən irəli gəlir. Bu yazıda məqsədimiz dilin lüğət tərkibinin zənginləşməsi yollarından söz açmaq olmadığından, sadəcə olaraq, dilin lüğət tərkibinin zənginləşməsinin kiçik bir qolundan semantik üsulla, yəni mənaca dəyişilərək söz artımının bəzi məqamlarından yazmağı nəzərdə tutmuşuq.

Bildiyimiz kimi, semantik yolla söz artımı üç yolla baş verir:

a) Əsl Azərbaycan sözlərinin mənaca dəyişilib başqa məna kəsb etməsi ilə

b) Alınma sözlərin semantik yolla yeni məna yaratması ilə

c) Türkmənşəli sözlərin öz mənasından ayrılıb yeni məna kəsb etməsi ilə

Onu da qeyd etmək vacibdir ki, semantik yolla söz çoxaltmaq, söz yaratmaq o deməkdir ki, hər hansı bir söz vaxtilə bir mənada işlənsə də, hazırda öz ilkin mənasından uzaqlaşıb yeni məna kəsb edir. Məsələn, bəy sözü vaxtilə varlı, seçilmiş adamlara deyilirdi. İndi isə müraciət formasıdır. Həmçinin xanım sözü əvvəlki dövrlərdə bəylərin, xanların, digər kübar arvadlarına deyilirdisə, hazırda hər bir Azərbaycan qadınına, qızına xanım deyərək müraciət olunur.

Qeyd etməliyik ki, sözlərdə gedən semantik dəyişiklik: əsasən, ya tamamilə yeni mənanın qazanılması, ya onların mənalarının çoxalması–şaxələnməsi yaxud da mənaların daralaraq çoxmənalılıqdan təkmənalılığa keçməsi ilə üzə çıxır.

Aşağıda bəzi türkmənşəli sözlərin ilkin–leksik məna tutumuna və bu günkü mənasına–semantikasına diqqət yetirək.

1. Qarı türkmənşəli sözdür. Həm fel, həm isim, həm də sifət kimi işlənib. Əvvəlcə geniş mənada qarı (düşmən), qarımaq, qocalmaq, köhnəlmək, köhnə mənasını daşımışdır. Məsələn, İ.Nəsiminin şeirlərindən bir beytə nəzər salaq.

Fani cahanın sevgisi tamu odudur, yandırır.

Keç, ey könül, şol qarıdan, asılma zülfü xalinə.

Qarı sözü burda köhnə mənasında işlənib. Klassik şairlərin əksəriyyətinin şeirlərində bu söz həmişə köhnə mənasını daşımışdır. Kişvərinin dilində də bu söz həmin mənanı verir.

Kişvəri qarı qulundur, sürmə qapundan ani.

Başqa yazılı mənbələrdə türk, türkmən, qaqauz, özbək, qırğız dillərində də qarı köhnə mənasını vermişdir. Müasir ədəbi dilimizdə bu söz əvvəlki semantikasını azacıq saxlamaqla qoca, qocalmaq, qismən də köhnə mənasındadır. Məsələn, qız qarıdı, evdə qaldı (xalq deyimləri), qarı düşmən dost olmaz (El sözü). Bu söz müxtəlif leksik şəkilçilər qəbul edib yeni söz yarada bilmir. Çünki adi dərəcəli sifətdir, əşyalaşaraq ismin xüsusiyyətlərini daşıya bilir. Qarı nənə cəhrənin ipini çıxardı və s.

2. Qopmaq. Türkmənşəli təsirsiz feldir. Bu sözün ilkin, qədim mənası "əmələ gəlmək", "yaranmaq" olmuşdur. Amma zaman–zaman bu söz mənasından uzaqlaşaraq yeni semantikaya malik olmuşdur.

"Dədə Qorqud" dastanlarından bəzi nümunələrlə fikrimizi təsdiqləyək: "Bayat boyundan Qorqud Ata derlər bir ər qopdu" yaxud "Dövlətli bir oğul qopsa, ocağının közüdür, dövlətsiz oğil qopsa, ocağının küridir". Bu söz əvvəllər də ümumi dillər üçün müştərək söz kimi işlənib. İndi isə bu söz qırılmaq mənasında olsa da, bəzi ifadələrdə ilkin mənasını saxlamaqdadır. Məsələn, toz qopdu, külək qopdu, ürəyim qopub yerinən çıxdı. Qeyd edək ki, bu söz təkmənalılıqdan çoxmənalılığa doğru inkişaf edən, məcazlaşan sözdür. Məsələn, gül budaqdan qopdu, hay–küy qopdu, tufan qopdu və s.

3.Qıymaq. Bu söz türk dillərində, o cümlədən dilimizin ilk dövrlərində "xırda–xırda doğramaq" mənasında işlənib. Məsələn, İ.Nəsimidə "Bunca namərdi gördüm, bir ər qıyarlar, ağlamaz", yaxud xalq nağıllarında "igidi qıyma–qıyma doğradılar" mənasında işlədilən qıyma sözü türk və türkmən dillərində indi də həmin mənada işlənməkdədir. Lakin müasir dövrümüzdə həmin

söz vermək mənasındadır. Məsələn, Aşıq Şəmşirdə: "Qoynunda xəstəyə nar olan vaxtı, qıymadın bir dənə bol vədəsində", yaxud "bir o qədər almadan birini mənə qıymadın" və s. Qıymaq sözü də təkmənalılıqdan çox mənalılığa inkişaf dövrü keçirib. Məsələn, qıyma mənim canıma, qıyımsız qız qıyımsız anaya oxşayar. Onun gözləri getdikcə qıyılırdı və yaxud , gözünü qıymadan mənə baxırdı və s.

Doğrudur, qıymaq sözü əvvəlki mənasında işlənməsə də, çoxmənalılıq baxımından ilkin mənasını az da olsa, saxlamaqdadır. Belə ki, qıymaq–xırdalamaq, azaltmaq, kiçik bir hissə, azacıq mənasında işlənib. İndi də "bir kisə almadan bir dənəsini mənə vermədin" cümləsində elə bir alma tamın böyük tamın kiçik bir hissəsidir. Yaxud, "bir almadan bir dilim mənə vermədin" cümləsində həmin fikir özünü doğruldur. Yəni bir dilim alma kiçik bir tamın–bir almanın daha kiçik bir hissəsidir. Deməli, qıymaq sözü bəzi məqamlarda ilkin mənasını saxlamqdadır.

4. Dəli sözü xalq arasında dəli könül, dəli yaz, dəli–dolu oğlan və ifadələrə çox rast gəlirik. Deməli, dəli sözü də öz inkişaf mərhələsində müəyyən məna dəyişikliyinə uğramışdır. Belə ki, türk dillərinin qədim tarixinə aid lüğətlərdə həmin söz bir qayda olaraq cəsur, mərd, çılğın, qəhrəman, döyüşçü, igid mənalarında işlənmişdir. Məsələn, İ.Nəsimi: "Düşdü yenə dəli könül gözlərinin xəyalinə. Kim nə bilir bu könlümün fikri nədir, xəyali nə?" deyərək sübhəsiz ki, dəli sözünü çılğın, odlu–alovlu mənasında işlədib. Bu söz "Koroğlu "dastanlarında öz leksik mənasını tamamilə saxlamışdır. Məsələn,

Demə ki, Koroğlu təkdi,
Yetmiş yeddi dəlisi var.
Dəmirçioğlu, Bəlli Əhməd,
Eyvaz, İsabalısı var.

Göründüyü kimi, dastanda bu söz igid, cəsur, qəhrəman mənasında işlənib. Lakin müasir dövrdə bu söz birmənalı olaraq ağıldan kəm, gicbəsər, sərsəm, mənasındadır.

5. Sağ sözün də müəyyən inkişaf dövrü keçərək daralma, konkretləşmə, mənasını vermiş, sonralar yazılı abidələrin dilində əsas, doğru, düzgün, təmiz mənalarını bildirmişdir. Aşıq ədəbiyyatında "Kişi adam öz sözünə sağ gərək" deyəndə, M.V.Vidadi: "Ərz eyləyim bu sözümün sağıdır" şəklində ifadə edəndə sağ sözünün "doğru, düzgün, təmiz" mənasında istifadə etmişlər.

İndi isə bu söz əsl mənasını əsasən itirərək: sağ tərəf, sağ qol, sağ əl, yəni sol sözünün antonimi kimi işlənməkdədir. Bəzən də omonim xüsusiyyətini daşıyaraq sağ (salamat, sağlam, yaxud sağ – ölməmiş). Məsələn, Fikrət qoca hələ sağdır–dünyasını dəyişməyib və s.

6. Müasir dilimizdə tam məna dəyişikliyinə uğramış leksik vahidlərdən biri də banlamaq sözüdür. "Dədə Qorduq" dastanlarında bu söz oxumaq anlamında işlənmişdir. Məsələn, "Minarədən banlayanda fəqih görklü". Burada banlamaq əzan vermək mənasındadır. Sözün kökü-ban feli qədim türk dillərində "çağırmaq, bərkdən qışqırmaq" deməkdir. Bağırmaq sözü də həmin kökdəndir, hazırda türk dilində bu söz çığırma, ucadan danışma mənasındadır. Bizdə isə banlamaq xoruzun banlaması mənasında işlənir. Qədim bayatıların birində: xoruz ban verəndə gəl, yaram qan verəndə gəl. Sağlığımda gəlmədin, barı can verəndə gəl.

Bəzi şivələrdə molla banlıyır, manlıyır ifadələri işlənməkdədir. Bu da əzan vermək mənasına gətirib çıxarır ki, ilkin mənasını özündə saxlayır.

Qeyd edək ki, ban sözü ancaq vermək feli ilə işlənir, bir də-la leksik şəkilçisini qəbul edib fel yaradır.

7. Ər–bu söz qədim türk abidələrində, "Dədə Qorduq" dastanlarında, həmçinin M.Kaşğarinin məlum lüğətində kişi, igid, qəhrəman, nər kimi kişi və s. mənalarda işlənib. Hazırda ər sözünün ilkin mənası daralmış, əsasən, qadının həyat yoldaşı mənasında işlənir. Şübhəsiz ki, son 200 ilə yaxın bir dövrdə rus dilinin təsirindən əmələ gəlib. Çünki rus dilində qadının əri müj adlanır. Bəlkə də, elə bu səbəbdən bu gözəl türk sözünün mənası daralıb, sadəcə həyat yoldaşı anlamına gəlib. Buna baxmayaraq, bizim zehnimizdə ər elə ərdir, kişidir, mərddir, igiddir, qəhrəmandır.

8. Don sözü vaxtilə nəmər, başlıq, pul mənasını ifadə edib. Zaman keçdikcə həmin sözün mənası konkretləşməyə doğru imkişaf edib. Aşıq şeirlərinin birində ərə gedən qızın dilindən elçilərə belə cavab verilib.

Beş yüz manat bəy babama don pulu,
Əlbət ki, min tümən özüm istərəm.

Artıq burada don paltar mənasında işlənib. İndi də konkret olaraq həmin söz paltar mənasındadır.

9. Oxumaq sözü də sonrakı dövrlərdə ilkin mənasından uzaqlaşmış, yeni məna kəsb etmişdir. Belə ki, "Dədə Qorduq" dastanlarında işlən-

miş bir cümləyə nəzər yetirək: "Oğul, qalın oğuz bəylərini odamıza oxuyalım" misaldan da görünür ki, oxumaq əvvəlcə çağırmaq mənasında işlənib. İndi də bəzi türk dillərində (özbək, qaraqalpaq, tatar və s) oxumaq "çağırmaq" məqamında işlənməkdədir.

10. Çalmaq feli qədim türk dillərində nisbətən dar mənada–vurmaq, salmaq kimi işlənib. "Dədə Qorduq" dastanlarında: "Oğlan yumruğu ilə Buğanın alnına qıya tutub çaldı", Nəsimidə: "Şişəmi dün taşə çaldım, həqqi izhar eylədim ", M.Gəncəvidə: "Dün kaşı kuzəmi daşlara çaldım, sərxoşdum, bilmədim əlimdən saldım" və s.

Göründüyü kimi çalmaq sözü də dar mənada vurmaq anlamında işlənib, lakin müasir dilimizdə və bəzi türk dillərində bu söz semantikasını genişləndirərək çoxmənalılıq kəsb etmişdir. Belə ki, indi bu söz onlarla ifadənin tərkib hissəsi kimi çıxış edir. Lakin ilkin mənasını qismən də olsa, saxlamışdır. Məsələn, ilmə çalmaq, nağara çalmaq, saz, zurna, qarmon və s. çalmaq, əl çalmaq, kirpik çalmaq, qatıq çalmaq, mıxça, paz çalmaq, ot çalmaq və s.

Nümunələrin sayını daha da artıqmaq olar. Yəni dilimizdə yüzlərlə söz vardır ki, o sözlər ya qismən, ya da tamamilə öz ilkin mənasını dəyişib, yeni məna kəsb edib, ya təkmənalılıqdan çoxmənalılığa, ya da çoxmənalılıqdan təkmənalılığa doğru inkişaf edib.

Söz sonu qeyd edə bilərik ki, bu tipli sözlərin izahı bir məqaləyə sığmadığına bəzi sözləri də qısaca şərh edirik:

Bəy -əvvəllər varlı, titul sahibi, indi isə müraciət formasıdır.

Xanım -əvvəllər bəyin, xanın, hökmdarların arvadına, bacısına, qızına deyilirdisə, indi müraciət formasıdır.

İndi hazırda hamının başa düşdüyü, işlətdiyi anlamda olan bəzi sözlərə nəzər salaq. Mötərizədə verilmiş sözlər əvvəlki mənalarıdı: oğul (nəsil, övlad), qanad (burun pərəsi), kişi (adam, insan), söyüş (danışıq, söyləmək), qonmaq (gecələmək, qalmaq), yemiş (meyvə), ordu (el, oba, yurd, iqamətgah), tüstü (tütün, tənbəki), baş (yara, çiban), qaş (üfüq), tarım (yer, yaşayış məntəqəsi), al (qırmızı) və s.

Təkrar olsa da, qeyd edək ki, bu tipli sözlərin şərhi bir yazıya sığmaz.

Ədəbiyyat

1. Qurbanov, A. Azərbaycan dilinin leksikologiyası. / A.Qurbanov – Bakı, – 1964.
2. Qurbanov, A. Azərbaycan dilinin semasiologiyası. / A.Qurbanov – Bakı, – 1964.
3. Həsənov, H. Azərbaycan dilinin semasiologiyası. / H.Həsənov – Bakı, – 1978.
4. Cəfərov, S. Müasir Azərbaycan dilinin leksikası. / S.Cəfərov – Bakı, – 1956.
5. Cəfərov, S. Müasir Azərbaycan dili. / S. Cəfərov – Bakı: – 1982.
6. Azərbaycan dilinin orfoqrafiya və orfoepiya lüğəti. – Bakı: – 2011.
7. Bağırov, Q. Azərbaycan dilində fellərin leksik–semantik inkişafı. / Q.Bağırov – Bakı: – 1971.
8. Kitabi Dədə Qorduq dastanları. – Bakı: – 1971.
9. Aşıqlar. – Bakı: – 1969.

Məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Həsənəli Eyvazov tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 19 fevral 2022-ci il
Son daxilolma tarixi: 05 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 94(479.24) + 821.512.162

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 143-146
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 143-146
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 143-146

"MOLLA NƏSRƏDDİN" JURNALININ SOVET DÖVRÜ VƏ NAXÇIVAN HƏYATI

Müəllif:

Günel Əsgərova
AMEA Naxçıvan Bölməsi
Dissertant

E-mail:
gunelasgarova@mail.ru

Açar sözlər:
"Molla Nəsrəddin" jurnalı, Naxçıvan ədəbi mühiti, çar Rusiyası, Sovet dövrü, mətbuat, tənqid hədəfləri.

Annotasiya. Şərqin ilk satirik-yumoristik jurnalı olan "Molla Nəsrəddin"in birinci nömrəsi Tiflisdə Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə və Məşədi Ələsgər Bağırzadənin təşəbbüsü ilə 7 aprel 1906-cı il tarixdə işıq üzü görmüşdür. "Molla Nəsrəddin" fəaliyyəti dövründə Tiflis, Təbriz və Bakı şəhərlərində nəşr edilmiş, demokratik mətbuatın inkişafına güclü təsir göstərmişdir. Jurnal həm çar Rusiyası, həm də Sovet dövründə öz səhifələrində təkcə Azərbaycan xalqının deyil, bütün Şərq-Qərb dünyasının ictimai-mədəni həyatında baş verən neqativ halları satira gücü ilə ifşa edirdi. Azərbaycanın digər regionları ilə yanaşı Naxçıvanda qadın azadlığı məsələsi, maarif, səhiyyə, idarə orqanlarındakı problemlərin işıqlandırılmasına da öz səhifələrində geniş yer verirdi. Məqalədə sovet dönəmində Naxçıvan və onun bölgələrindən yazan naxçıvanlı müxbirlərin yazıları araşdırılmış, mövzular üzrə qruplaşdırılaraq ideya-məzmun cəhətdən təhlil edilmişdir.

Author:

Gunel Askerova
Nakhchivan Branch of ANAS
Dissertator

E-mail:
gunelasgarova@mail.ru

Key word:
"Molla Nasreddin" magazine, Nakhchivan literary environment, tsarist Russia, Soviet period, press, targets of criticism.

SOVIET PERIOD AND NAKHCHIVAN LIFE OF "MOLLA NASRADDIN" MAGAZINE

Abstract. The first issue of Molla Nasreddin, the first satirical-humorous magazine of the East, was published in Tbilisi on April 7, 1906 at the initiative of Jalil Mammadguluzade, Omar Faig Nemanzade and Mashadi Alasgar Baghirzade. "Molla Nasreddin" was published in the cities of Tbilisi, Tabriz and Baku during its activity and had a strong influence on the development of the democratic press. The magazine used satire to expose the negative situations in the social and cultural life of not only the people of Azerbaijan, but also the entire East-West world, both in Tsarist Russia and in the Soviet period.
In addition to other regions of Azerbaijan, the issue of women's freedom in Nakhchivan, problems in education, health care, and administrative bodies were covered on their pages. In the article, the writings of Nakhchivan correspondents who wrote from Nakhchivan and its regions during the Soviet period were examined, grouped by topics and analyzed in terms of ideas and content.

Автор:

Гюнель Аскерова
Нахчыванское отделение НАНА
Диссертант

E-mail:
gunelasgarova@mail.ru

Ключевые слова:
журнал "Молла Насреддин", литературная среда Нахчывана, царская Россия, советский период, пресса, объекты критики.

СОВЕТСКИЙ ПЕРИОД И НАХЧЫВАНСКАЯ ЖИЗНЬ ЖУРНАЛА "МОЛЛА НАСРАДДИН"

Аннотация. Первый номер первого сатирико-юмористического журнала Востока "Молла Насреддин" вышел в Тифлисе 7 апреля 1906 года по инициативе Джалила Мамедгулузаде, Омара Фаига Неманзаде и Мешади Алескера Багирзаде. "Молла Насреддин" за время своей деятельности издавался в городах Тбилиси, Тебриз и Баку и оказал сильное влияние на развитие демократической печати. Журнал с силой сатиры разоблачал на своих страницах негативные события, происходившие в общественно-культурной жизни не только азербайджанского народа, но и всего восточно-западного мира, как в царской России, так и в советское время. Наряду с другими регионами Азербайджана, на их страницах освещались вопросы свободы женщин в Нахчыване, проблемы образования, здравоохранения, административных органов.В статье были рассмотрены статьи и заметки Нахчыванских авторов, писавших в советское время о Нахчыване и его регионах, сгруппированы по темам и проанализированы в идейно-содержательном плане.

XX əsrin əvvəlləri dünyada, eləcə də Azərbaycanda inqilabi hadisələrin yüksəldiyi dövr idi. Siyasi hadisələrin, dövlət çevrilişlərinin, müharibələrin mövcud olduğu şəraitdə bir çox sahələrdə çətinliklər yaranmış, bu vəziyyət ədəbiyyat və mətbuat orqanlarının da fəaliyyətinə öz təsirini göstərmişdi. Siyasi böhranla əlaqədar olaraq bir çox qəzet və jurnallar öz nəşrini dayandırmışdı. 1906-cı ildə Tiflisdə çap olunmağa başlayan "Molla Nəsrəddin" jurnalı da 1917-ci ildə fəaliyyətini dayandırmalı olmuşdu.

1920-ci ildə C.Məmmədquluzadə qardaşı Mirzə Ələkbərin təklifi ilə Təbrizə gedir və 1921-ci ildə Təbrizdə jurnalın cəmi 8 nömrəsi nəşr olunur. "C.Məmmədquluzadə Təbrizə, Cənubi Azərbaycana bütün varlığı ilə bağlı olsa da, fikri Sovet Azərbaycanında idi. C.Məmmədquluzadə "Molla Nəsrəddin"in fəaliyyətində ciddi bir dönüş yaratmaq və qələm dostlarının köməyi ilə jurnalın ideya sənətkarlıq səviyyəsini daha da yüksəltmək üçün Bakıya gəlməyi arzulayırdı" [1, s.76-77]. 1921-ci ilin may ayında Sovet hökuməti Mirzə Cəlili Bakıya dəvət edir və 1922-ci ilin 2 noyabr tarixində "Molla Nəsrəddin"in birinci nömrəsi Sovet Azərbaycanında çap edilir.

"Molla Nəsrəddin"in Tiflis və Təbriz nəşrlərində olduğu kimi Sovet dönəmindəki "yazılarda da satirik gülüş hakim idi. Amma bu gülüşün hədəfləri də, mahiyyəti də, ruhu da əsaslı şəkildə dəyişmişdi. O vaxtadək köhnə dünyaya qarşı yönələn satira indi yeni həyat quruculuğunun səmimi, ardıcıl, fəal köməkçisi idi. O vaxt köhnə dünyanın dağılmasına kömək göstərən gülüş indi yeni dünyanın qurulmasına, möhkəmlənməsinə xidmət edirdi" [2, s.7].

Jurnalın 1906-1931-ci il nömrələrində Azərbaycanın bütün bölgələri ilə yanaşı, Naxçıvanın da 30 illik tarixini özündə əks etdirən əhəmiyyətli materiallar çap olunmuşdur. Onun baş redaktoru C.Məmmədquluzadə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanı daim diqqətdə saxlayır, bu qədim diyarın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş verən hadisələri məcmuədə geniş şəkildə işıqlandırırdı. "Molla Nəsrəddin"in naxçıvanlı müxbirləri sovet dövründə də köhnə dünyaya qarşı amansız mövqedə dayanır, yeni cəmiyyətin qurulması yolunda öz fəaliyyətlərini daha mütərəqqi şəkildə davam etdirirdilər.

Mövzu dairəsi olduqca geniş olan jurnal 1922-1931-ci illərdə də ideya və məzmun cəhətdən aktual olan məsələlərə toxunurdu. Qadınların təhsil və maarif məsələsi mollanəsrəddinçilərin diqqətində dayanan ən vacib, ən aktual məsələlərdən idi. Sovet dövründə də Azərbaycan qadınlarının hüquq və azadlıqlarının müdafiəçi olan jurnal yazırdı: "İndi gəldik çatdıq bu günlərə Şura aləmində qadın da bir insandı. Qadına da bir ixtiyar lazımdı, kişiyə də, nə kişi qadına sahib ağadı, nə qadın kişiyə-ancaq bunlar yoldaşdırlar" [3, 1924, №2, s.2]. jurnalda Azərbaycanın digər yerlərində olduğu kimi Naçıvan bölgəsində də qadınların söz hüququnun olmaması, döyülüb alçaldılması, məcbur edilərək zorla erkən yaşda nikahlanması istehza ilə tənqid edilirdi. "Culfa çocuq yurdu müəllimi Məşədi Rəməzan 13 yaşında bir qızın yaşının 16 olmağına iki nəfər etibarlı şahid ilə zaqsa aparıb kəbin qeyd etdirmişdir" [3, 1929, №50, s.5]. "zavod Komsomol özəyinin üzvü Babayev söz veribdir ki, bundan sonra arvadını çəkməsinin altına salıb döyməsin" [3, 1930, №3, s. 7].

Jurnalın sovet dönəmində Naxçıvan və onun ətraf ərazilərindəki məktəblərin miskin vəziyyəti satirik şəkildə diqqətə çatdırılırdı. "Cırcırama" imzası ilə dərc olunan "Əslinə mütabiqdir" adlı yazıda Naxçıvan məktəblərində nizam-intizam qaydalarının olmadığı diqqətə çatdırılır: "Naxçıvanda maarif komissarı Həmid bəy Mahmudov məktəbi təftişə gedir və dərslərin vaxtında başlamadığını görür, komissar nəinki, müəllimləri bircə töhmətlə etməklə qurtarır, bəlkə də bunları haman günkü maaşlarından məhrum edir. Sonra "Cırcırama" Nikolayın müfəttişlərdən misal gətirib deyir: Nikolayn müfəttişləri müəllimləri zəhmət maaşından məhrum qılarmış, bəzən isə müəllimlərdə tənbəllik görəndə bunları atalıq nəsihəti ilə düzənə salıb gedərdilər". Sonda isə müəllif çar Rusiyası ilə sovet dövrünün müqayisə edərək yazır: "Biz müntəzir idik ki, indi gərək işlər köhnə işlərə bənzəməyə və azad məmləkətdə azad maarifin komissarı müəllim yoldaşları tənbəl gördükdə onları yoldaşlıq nəsihəti ilə düzəldəydi, nəinki töhmət və cərimə ilə" [3, 1923, №13, s. 6].

"Heyran" adlı müxbir isə Ordubadda yüz nəfər molla ola-ola, bir nəfər müəllimin tapılmadığını oxucunun diqqətinə çatdırır: "Ordubadda darülmüəllimin açılsa bir nəfər müəllim də şərifi-Məkkə kimi kilidini cibinə qoysa, bu yazıq tələbələr sözünü kimə desin" [3, 1924, №27, s. 7]. "Vahab" imzalı müxbirin Xalq Maarif Komissarlığına təqdim etdiyi ərizədən məlum olur ki, təkcə Ordubadda deyil, Şıx Mahmud kəndində də vəziyyət eynidir: "Şıx Mahmud məktəbinin lazım olan təmiratı və əsassiyəsi və proqram əməliyyatı və müəllim odası olmadığa cəhət məcburuz ki, hər gün kənddən şəhərə, şəhərdən kəndə piyada gedib-qayıdam. Buna binaən acizanı rica ki, hərgah lazım olarsa, Şıx Mahmud kəndinə bir ayrı müəllim göndəriz" [3, 1925, №29, s.8]. Naxçıvandan "Bacarmıyan" imzalı müxbir xəbər verir ki: "Naxçıvan Pedaqoji Texnikumunun müəllimləri saat 9-dan 12-yə qədər Türk teatr bufetində tələbələrlə nərtaxta oynayırlar. Allah belə müəllimlərdən razı olsun" [3, 1926, №39, s. 4]. 1931-ci ilin birinci nömrəsində Naxçıvandan yazırlar: "Dəmiryol stansiya məktəbində iki otağın uşağını bir otağa yığıb iki müəllimin biri hesabdan, o biri ictimaiyyətdən dərs keçir. Uşaqların fikri qarışmadığından dərs otaqlarının artırılmasını lazım bilmirlər" [3, 1931, №1, s.7].

"Molla Nəsrəddin" maarif sahəsindəki problemlərin həlli yolunu "özümüzü boş-boşuna mədh və təhsin ilə yox, quru tərif və yalançı alqışlar ilə yox, məhz acı həqiqəti meydana qoymaq ilə" maarif evini abad etməkdə görürdü [3, 1923, №15, s.3].

Rəiyyət və füqəranın yaxın dostu olan "Molla Nəsrəddin" 25 illik fəaliyyəti dövründə "Ey rəiyyət, ey fəqirü fələ, dehqan-qəm yemə" şüarı ilə fəhlə və kəndlilərin yanında olmuş, onları müdafiə etmişdir. Fəhlə və kəndlilərin yaxın dostu olan "Molla Nəsrəddin" 1922-ci ilin birinci nömrəsində yazırdı: "Rəiyyət və kəndlilərin köhnə dostu Molla Nəsrəddin kənardan durub bu işlərə bitərəf baxa bilməz. On altı il bundan əqdəm kəndli adını ehtiyat ilə çəkirdik. İndiki əsrdə fəxr edirəm ki, artıq cürət ilə köhnə dostlarımza tərəfadar oluruq" [3, 1922, №1, s.5].

"Molla Nəsrəddin" sözün əsl mənasında fəhlə və əkinçilərin dostu olmuş "on il fəhlə və kəndliləri müdafiə etmiş, onlara öz satirası və karikaturaları ilə yardım göstərmişdir". [4, s. 69]. 1923-cü ildə dərc olunan "Pambıq" adlı məqalədə "Molla Nəsrəddin" kəndlilərin pambıq əkini ilə məşğul ola bilməməsini qeyzlə nəzərə çatdırırdı: "Nə qədər ki, pambıq işinin başında duranlar yuxarıdakılardır, pambıq əkilməyəcək, əkilməyəcək, əkilməyəcək" [3, 1923, №17, s.3]. 18-ci nömrədə "Molla Nəsrəddin"ə cavab olaraq "Bir nəfər Pambıqçı" yazır ki: "Molla əmi, sən payızda gördüyün adamlar çıxıb gediblər işlərinin dalisicə. Bu günlərdə Rusiya pambıq idarəsi ilə bir şirkət düzəldi.bu şirkət həm Azərbaycan tərəfindən, həm də Rusiya tərəfindən pambıq işini gözəl bilən adamlardır. Hətta Naxçıvana da çiyit göndərilir. Allaha şükür edirik ki, pambıq idarəsi sən deyən adamların əlindən çıxdı və idarənin başında bir nəfər iş görən adam qoyuldu" [3, 1923, №18, s.5]. "Mozalan" oğluna nəsihət edib deyir: "Bugünkü günə kimi gördüyüm və eşitdiyim bu olub ki, "əzəl katibləri" İran fəhlələrinin baxtını qara yazmışlar". "Dəli" imzalı müxbir isə "Mozalan"a sən ac fəhlə sözündən danışırsan, gör mən nə deyirəm: "Bir gün ağaların biri mədənlərə gedəcək imiş ki, fəhlələrə nəsihət eləsin. Camaat gözləyir, gözləyir, ağa gəlmir. Ağa xəbər göndərir ki, bu gün gələ bilmədim, çünki aftamabilim yoxdu, vaqon ilə də gələ bilmərəm. Heç ağa sabahkı günü də gəlib çıxmadı" [3, 1922, №3, s.5]. "Naxçıvan dükançılar"ı "Mola Nəsrəddin"ə yazıb izahari-təşəkkür edirlər ki: "Hərgah müdir cənabları dükana manufaktura gələn kimi bizim payımızı bölüb verməsə idi, yəqin ki, biz acımızdan ölmüşdük" [3, 1924, №14, s.5].

"Molla Nəsrəddin" öz səhifələrində özündən əvvəl və sonra nəşrə başlayan bir sıra mətbu orqanların fəaliyyəti haqqında yazılara geniş yer vermişdir ki, bu mətbuat orqanlarından biri də 1921-ci ildə Naxçıvanda nəşrə başlayan "Şərq qapısı" qəzeti idi. "Şərq qapısı" qəzetinin adına ilk dəfə jurnalın 1923-cü il tarixli 13-cü nömrəsində dərc olunan "Əslinə mütabiqdir" adlı yazıda rast gəlirik.

Filologiya elmləri doktoru Fərman Xəlilov bu barədə təfsilatlı məlumat verərək qeyd etmişdir ki: "Molla Nəsrəddin" həmişə "Şərq qapısı"nı izləmiş, onun səhifələrində dərc olunan materiallarla yaxından tanış olmuşdur. Zəngin təcrübəyə malik olan bu jurnal yeri gəldikcə "Şərq qapısı"nın daha mükəmməl tərtibatla çap olunması üçün ona bəzi məsləhətlər verməyi də məqsədəuyğun hesab etmişdir. "Molla Nəsrəddin" jurnalı yaradıcılıq təcrübəsi keçməkdə şərqqapısıçılar üçün həm də bir məktəb idi" [5, s. 57]. Belə ki, "Molla Nəsrəddin" "Şərq qapısı"nın inkişaf edib formalaşmasında ədəbi məktəb rolunu oynamışdır. Eyni zamanda hər iki mətbuat orqanı qarşılıqlı əməkdaşlıq fəaliyyəti göstərmişdir. Məsələn, "Molla Nəsrəddin" oxucuların "Şərq qapısı"na abunə yazılması üçün 1928-ci ildə belə bir elan verir: "Naxçıvan şəhərində nəşr olunan "Şərq qapısı" qəzetinə abunə dəftəri açıqdır" [3, 1928, №6]. "Şərq qapısı"nın naxçıvanlı müxbirləri də "Molla Nəsrəddin"nin geniş kütlə içərisində, uzaq kəndlərdə yayılmasına yaxından köməklik göstərmişlər: "Molla Nəsrəddin" məcmuəsini geniş kütlə içərisinə, ələlxüsus qəza və dairə mərkəzindən uzaq kəndlərinə yaymaq məqsədi ilə üç ayda bir ilə qədər yüz nüsxə abunə (yüz nəfərə) toplayaraq aşağıdakı yoldaşları da dəvət edirəm: Gəncədən Abbas Rəcəblini, Qubadan Münəvvər Mirzəyevanı, Naxçıvandan Abbas Əliyevi Naxçıvan mətbuat müvəkkili M.Ə.Əsədullazadə" [3, 1930, №7, s. 7]. Naxçıvanlı müxbirlər Naxçıvanla bağlı jurnala göndərdikləri tənqidi yazılarına görə dəfələrlə təqib və hədələrə məruz qalmış, lakin öz mübarizəsindən dönməmişlərdir. Ehtiyatı əldən verməyən müxbirlər görünür ki, bir müddət jurnala Naxçıvan və onun ətraf ərazilərində baş verən hadisələr ilə bağlı yazı göndərməmişlər. Bu vəziyyəti oxucuların nəzərinə çatdıran jurnal "Müxbirlər lazımdır" sərlövhəli yazıda bildirir ki: "Naxçıvanda nə olduğunu kimsə bilmir. Halbuki keçmişdə Naxçıvan mollalarının, kefli və qumarbazlarının həmişəlik məcmuəmizdə yarım səhifə yeri var idi. Əlbəttə, indi bizə deyəcəklər ki, onlar adam olublar, o cür işləri daha görmürlər" [3, 1925, №27, s. 7].

1922-1931-ci illərdə jurnalın mövzu dairəsi olduqca geniş idi və dövrün aktual, həlli vacib olan problemlərini işıqlandırırdı. Sovet hakimiyyəti zamanında Naxçıvan sosial-iqtisadi həyatında ciddi problemlər mövcud idi. Bu problemlər dövlət idarə orqanlarındakı özbaşınalıq, rüşvətxorluqda, xalqın-dövlətin malını mənimsəmədə özünü göstərirdi. Jurnalın 1923-cü il 11-ci nömrəsində verilən "Hiyleyi-şəri" adlı yazıda rəvayət edilir ki: "Mən Naxçıvanda camaat torpağını icarəyə verəndə səhər tezdən icarədar həyətin dal qapısından uşaq yurdu adına mənə put yarım yağ, altı hinduşka, bir Buxara dərisi və əldə qayrılmış gümüş papiros qabı gətirir. Bu ki, rüşvət olmadı. İndi bir fərmayiş edin görək, mənə nə məntiq ilə mücazat vermək olar? [3, 1923, №11, s. 4].

Jurnalın səhifələrində tez-tez idarə məmurlarının dövlətin pulunu mənimsəməsi tənqid edilirdi: "Ordubad ilə Culfa arasında poçta nəqliyyatı üçün 40 at saxlanırdı. İndi isə yeni üsulda çıxan poçta mərasilatında poçta idarəsi ancaq altı eşşəyə kifayət edir. Zənn olunur ki, bu üsul əlverişli olduğundan bir çox yerlərdə qəbul olunsun" [3, 1923, №20, s. 4]. Elektrikin düzgün verilməməsindən şikayətlənən Naxçıvan camaatına "Şəb-pərə" yumorla cavab verir ki: "Kommunxoz razı olmur ki, gözlərimiz elektrik işığından qamaşsın" [3, 1929, №28, s. 4]. Xüsusən də yerli idarə orqanlarında özbaşınalıq edən əcnəbilər qeyzlə tənqid olunurdu. Naxçıvanda Dmitri adlı dərzi ustasının artelə gələn kostyumları öz evinə aparıb tikdirib qazancını cibinə qoyması satirik boyalarla tənqid edilmişdi: "Dmitri kefi istəmədiyi adamı artelə qəbul etməz, nöqsanlarını deyənin maaşını azaldıb öz piyalə yoldaşlarınkını artırır" [3, 1930, №12, s. 3].

"Bisavad" xəbər verir ki: "Naxçıvan Firqə Komitəsinin təşkilat şöbə müdiri 12 gündür ki, idarənin qapısını bağlayıb mənzilində istirahətlə məşğuldur" [3, 1930, №28, s. 6]. "Xəstə müdir" həmin yazıya istinadən jurnalın 1930-cu il 29-cu nömrəsində dərc olunan eyni adlı karikaturada da tənqid edilmişdir. Filologiya elmləri doktoru Fərman Xəlilovun apardığı tədqiqtların nəticəsində məlum olmuşdur ki, ifşa edilən həmin şəxs o vaxt Naxçıvan Firqə Komitəsinin şöbə müdiri vəzifəsində işləyən milliyətcə erməni Danelyan soyadlı birisi imiş [5, s. 56].

"Molla Nəsrəddin"in çar Rusiyası və Sovet dövrü nəşrlərində İran mövzusu ən aktual mövzulardan

biri idi. Jurnal İranda mövcud olan ictimai-siyasi hadisələr, Cənubi Azərbaycan xalqının ağır həyat tərzini göstərən yazılara geniş yer verirdi. Xüsusilə də Culfa gömrükxanasındakı özbaşınalıqlar məqalə, felyoton və karikaturalarla tənqid edilirdi. İdarə orqanlarında rus, iranlı vətəndaşlarının rəhbərliyi, xalqa zülm etməsi "Məclis vükəlası Culfa gömrükxanasında" adlı karikaturada satirik boyalarla təsvir edilmişdi. [3, 1909, №50, s. 12]. "İran fəhləsi" Naxçıvanda bəzi idarə və konsulxananın kef məclislərinə çevrildiyini, məmurlarının özbaşınalığını, satirik tərzdə belə ifadə edir:

Konsulxana olubdur bir meyxana,
Sahib varmı? İşləri alsın sana
Qulluqçu çox, sanı yox heç sanana
Səhər tezdən işə gələn neyləsin? [3, 1925, №23, s. 6].

Culfa gömrükxanasındakı intizamsızlıqlar, yerli əhalinin işsiz qalması "Culfa stasyonunda" adlı sərlövhəli yazıda oxucunun diqqətinə çatdırılır: "Naxçıvan ölkəsi Culfa stasyonunda bu axır vaxtlarda bir çox intizamsızlıqlar olur. Bunun səbəbi bir çox işsizlərin stasyonda hammallıq etmələridir" [3, 1927, №9, s. 5]. Əcnəbi məmurların itbazlıqla məşğul olub xalqa xidmət etməməsini rişxənd obyektinə çevirən "Bacoğlu" imzalı müxbir xəbər verir ki: "Bakı itbazlarına küçük lazım olsa, Culfa gömrükxanasının müdiri Leonidova müraciət etsinlər" [3, 1927, №14, s. 7]. Leonidovun ifrat dərəcədə özbaşınalığını göstərən 18-ci nömrədəki yazı da güclü ifşaedici təsirə malikdir: "Culfa gömrükxana müdiri balaca ağ iti üçün idarədə ayrıca bir stul ayrılmışdır" [3, 1927, №18, s. 7].

"Bacoğlu"nun "İtmişdir" adlı yazısı da bu cəhətdən maraqlıdır: "Qoşadizə" kolxozunda toplanan arpa və buğdanın içindən 14 kisə torpaq və kəsək çıxdığından "əşyayi-dəlil" olaraq məhkəməyə verilmişdir. 14 tay torpaq 15 ay məhkəmə padvalında qaldığı halda məhkəməyə verilmiş iş aralıqda itmişdir" [3, 1931, №2, s. 7].

"Molla Nəsrəddin" Naxçıvanın şəhər və rayonlarda rabitə və poçt idarələrindəki vəziyyətlə bağlı yazılar da dərc edirdi. Rabitənin vəziyyətini əks etdirən "Naxçıvandan" başlıqlı bir məqalədə yazılır: "Molla əmi! Rabitə olmadığından bura xəbərlərini sizə yetirməkdə acizəm, Yəni təqsir məndə deyil ha, hətta qayət əcələ surətdə yazılan məktublar bir ay beş günə ancaq Bakıdan Naxçıvana gəlir. Hələ onu demirəm ki, 1921-ci ilin sentyabrında yazılan bir əhəmiyyətli kağız 1922-ci ilin oktyabr ayında Gəncədən Naxçıvana gəldi". [3, 1923, №11, s. 7].

"Rəfi-İştibah"da yazır ki: "Xalq arasında böylə bir şayiə buraxıblar ki, guya poçta idarəsi heç bir iş görmür, poçtaya verilən qəzetlər vaxtlı-vaxtında yerinə çatmır. Ona görə də biz idarədən bir nəfər müxbiri poçta idarəsinə göndərib bu işləri təhqiq etmək istəmişdik. Məlum olur ki, keçənlərdə Ordubad ilə Culfa arasında poçta nəqliyyatı üçün 40 at saxlanılırdı. İndi yeni üsulda çıxan poçta mərasilatında poçta idarəsi ancaq altı eşşəyə kifayət edir. Bu üsul əlverişli olduğundan bir çox yerlərdə qəbul olunsun" [3, 1923, №20, s. 4].

"Molla Nəsrəddin" Sovet hakimiyyəti illərində Naxçıvan səhiyyə sisteminindəki vəziyyətlə bağlı da yazılar dərc edirdi. Şəhərdə maddi-texniki bazanın olmaması, həkim çatışmazlığı, aralıq həkimlərin rüsvayçılığı, dədə-babadan qalma müalicə üsullarını və s. açıq şəkildə tənqid edən jurnalın "Açar" imzalı müxbiri səhiyyənin vəziyyəti barədə yazır ki: "Şükür göz ağrısı bu ölkədə yoxdur. Səbəbi də göz həkiminin çoxluğudandır. O "traxomadı" nədi onu yeddi dəfə qül hüvəllah oxuyub yeddi düyü suya salıb o sudan gözə vururlar, üçcə günün içində göz ağappaq olur" [3, 1925, №17, s. 10].

Naxçıvanda səhiyyənin bərbad vəziyyəti "Doktor gəldi" adlı bir xəbərdə isə belə təsvir edilmişdir: "Naxçıvan qəzasında göz həkimi olmadığından gözləri ağrıyanların kor olanı kor olurdu, Xədiceyi-Kubra pirinin kəramətindən şəfa tapanların gözləri açılırdı. Ancaq səhiyyə idarəsinin təlaşı nəticəsində bu günlərdə Naxçıvana bir göz həkimi varid oldu. Göz xəstələri toy-bayram edir. "Heç olmaqdansa, gec olmağı yaxşıdır. Lənət heçə" [3, 1926, №26, s. 6]. "Deyirlər ki, Ordubad xəstəxanasında xəstələr doktoru gözləməkdən yorulub yatırlar. Saat 10-da 11-də doktor gələndə naxoşları güc ilə qalxızırlar" [3, 1927, №11, s. 7].

Naxçıvanda halı pisləşən xəstələrin çarə tapmaq üçün həkim yanına getməyib də pir və ziyarətgahlara üz tutmaları jurnalda tənqid obyektinə çevrilmişdir. "Xəstə" imzalı müxbir bildirir ki: "Naxçıvanda Mir Həbib ağanın həyətində bir "südlü nənə" daşı var. Haman daş qadınların çox işlərinə yarayıb gözəl nəticə bağışlayır, nəzir nəzirin dalınca gəlir" [3, 1927, №25, s. 4].

Deyilənlərdən aydın olur ki, "Molla Nəsrəddin" on il sovet hakimiyyəti dövründə öz səhifələrində Naxçıvanın ictimai-siyasi, sosial-iqtisadi həyatı ilə bağlı problemlərə geniş yer vermiş, Naxçıvan mühitində köhnəliyin qalıqları və vaxtı keçmiş adət-ənənlərə qarşı mübarizə aparmaqla yanaşı, mədəniyyət, elm, təhsil sahələrində islahatlar aparılması və yeni dünyanın qurulmasında yaxından iştirak etmişdir.

Ədəbiyyat

1. Həsənzdə T. Cəlil Məmmədquluzadənin Cənub səfəri və "Molla Nəsrəddin" jurnalının Təbrizdə nəşri. 1991, 84 s.
2. Əsgərov H. Mirzə Cəlilin satira desantları Naxçıvanda. Naxçıvan: "Əcəmi" NPB, 2019, 112 s.
3. "Molla Nəsrəddin" jurnalı.
4. Nazim Ə. Cəlil Məmmədquluzadə və yaradıcılığı / Cəlil Məmmədquluzadə məqalələr, xatirələr. Bakı: Elm, 1967, 450 s.
5. Xəlilov F. "Şərq qapısı" qəzeti"nin nəşri tarixinin ilk mərhələsi və yeni ədəbi mühitin formalaşmasında rolu. Naxçıvan: "Əcəmi" NPB, 2022, 96 s.

Məqalə filologiya üzrə fəlsəfə doktoru, dosent Həsənəli Eyvazov tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 02 fevral 2022-ci il
Son daxilolma tarixi:17 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 519.62

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 147-150
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 147-150
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 147-150

I NÖV ÇEBIŞEV ÇOXHƏDLİLƏRİN TƏTBİQİ İLƏ BƏZİ MƏSƏLƏLƏRİN HƏLLİ

Müəlliflər:
Sahib Əliyev
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
E-mail: sahibali60@yahoo.com
Ceyhun Əliyev
Naxçıvan Müəllimlər İnstitutu
E-mail: ceyhunaliyevnmi@gmail.com

Aygün Əfəndiyeva
Naxçıvan Müəllimlər İnstitutu

E-mail:
aygunefendiyeva1961@gmail.com

Açar sözlər:
I növ Çebişev çoxhədliləri, mövcudluq və yeganəlik şərti, rekurent düstur, triqonometrik tənliklər, inteqrallar

Annotasiya. Məqalədə əsas I növ Çebişev çoxhədlilərinin tətbiqi ilə bəzi məsələlərə baxılmışdır. Bunun üçün çəki funksiyası və bu funksiyaya nəzərən ortoqonal və ortonormal I növ Çebişev çoxhədliləri müəyyənləşmişdirilmişdir. Mövcudluq və yeganəlik şərtindən istifadə edərək yeni metodun köməyilə bu çoxhədlinin bir neçə həddi verilmişdir. Ümumi şəkildə verilmiş Çebişev çoxhədliləri aşkar şəkildə verilmiş çoxhədlilər üçün rekurent düstur təyin edilmişdir. Bu rekurent düsturdan istifadə etməklə triqonometrik tənliklərin həlli, limitlər təyin edilmiş, müəyyən inteqralların tapılması və s. məsələləri həlli daha əlverişli olur.

Authors:
Sahib Aliyev
Nakhchivan Teachers Institute
Doctor of philosophy in mathematics, associate professor
E-mail: sahibali60@yahoo.com
Jeyhun Aliyev
Nakhchivan Teachers Institute
E-mail: ceyhunaliyevnmi@gmail.com

Aygun Efendiyeva
Nakhchivan Teachers Institute
E-mail:
aygunefendiyeva1961@gmail.com

Key word:
Chebyshev polynomials of the first type, existence and uniqueness condition, recurrence formula, trigonometric equations, integrals

SOLUTİON OF SOME PROBLEMS BY APPLYİNG CHEBYSHEV POLYNOMİALS OF TYPE I

Abstract. In the article, some issues were considered with the application of basic I type Chebyshev polynomials. For this purpose, the weight function and orthogonal and orthonormal type I Chebyshev polynomials have been defined for this function. Several limits of this polynomial are given with the help of a new method using the condition of existence and uniqueness. Chebyshev polynomials given in general form are defined as a recurrence formula for polynomials given in obvious form. Solving trigonometric equations, determining limits, finding definite integrals, etc., using this recurrent formula. problem solving becomes more convenient.

Авторы:
Сахиб Алиев
Нахчыванский институт учителей
Доктор философии по математике, доцент
E-mail: sahibali60@yahoo.com
Джейхун Алиев
Нахчыванский институт учителей
E-mail: ceyhunaliyevnmi@gmail.com

Айгюн Эфендиева
Нахчыванский институт учителей
E-mail:
aygunefendiyeva1961@gmail.com

Ключевые слова:
многочлены Чебышева I рода, условие существования и единственности, рекуррентная формула, тригонометрические уравнения, интегралы

РЕШЕНИЕ НЕКОТОРЫХ ЗАДАЧ С ПРИМЕНЕНИЕМ МНОГОЧЛЕНОВ ЧЕБЫШЕВА I РОДА

Аннотация. В статье рассмотрены некоторые вопросы применения основных многочленов Чебышева I рода. Для этого были определены весовая функция и ортогональные и ортонормированные многочлены Чебышева I рода с точки зрения этой функции. С помощью нового метода с использованием условия существования и единственности даны несколько пределов этого многочлена. Обобщенные многочлены Чебышева рекуррентная формула определена для явно заданных многочленов. Используя эту рекуррентную формулу, можно решать тригонометрические уравнения, задавать пределы, находить определенные интегралы и т. д. решение вопросов становится более доступным.

Klassik ortoqonal çoxhədlilərindən biri olan I növ Çebişev çoxhədlilətinə baxacağıq. Əvvəlcə çəki funksiyasına nəzərən bu çoxhədlilərin ortoqonal və ortonormal olduğunu müəyyənləşdirək.

Tutaq ki, $T_n(x) = \cos(narccosx)$ çoxhədliləri verilmişdir. Bu çoxhədlinin $h(x) = \frac{1}{\sqrt{1-x^2}}$ $x \in (-1,1)$ çəki funksiyasına nəzərən əvvəlcə ortoqonal olduğunu göstərək.

$$J_{mn} = \int_{-1}^{1} h(x)T_n(x)T_m(x) = \int_{-1}^{1} \frac{1}{\sqrt{1-x^2}} T_n(x)T_m(x)dx = \int_{-1}^{1} \frac{1}{\sqrt{1-x^2}} T_n(x)T_m(x)dx =$$

$$= \int_{-1}^{1} \frac{1}{\sqrt{1-x^2}} T_n(x)T_m(x)dx = \int_{-1}^{1} \frac{1}{\sqrt{1-x^2}} \cdot \cos(narccosx)\cos(marccosx)\,dx$$

$x = cos\theta$ əvəz edək $0 \le \theta \le \pi$

Onda $T_n(x) = T_n(cos\theta) = cos[narccos(cos\theta)] = cosn\,n\theta$,

$T_m(x) = cosm\theta$

$$J_{mn} = \int_{\pi}^{0} cosn\theta cosm\theta \frac{-sin\theta}{\sqrt{1-cos^2\theta}} = \int_{0}^{\pi} cosn\theta cosm\theta \cdot \frac{sin\theta}{sin\theta squsin\theta} d\theta =$$

$= \frac{1}{2}\int_{-\pi}^{\pi} cosn\theta cosm\theta d\theta.$

Triqonometrik ortoqonal funksiyalar sisteminə görə

$$J_{mn} = \begin{cases} 0 & n \neq m \\ \frac{\pi}{2} & n = m > 0 \\ \pi & m = n = 0 \end{cases}$$

Deməli $T_n(x)$ I növ Çebişev çoxhədlisi ortoqonaldır.

Əgər normanı təyin etsək, onda ortonormal sistem aşağıdakı kimi olacaq

$$\bar{T}_0(x) = \frac{1}{\sqrt{\pi}}, \quad \bar{T}_1(x) = x \cdot \sqrt{\frac{2}{\pi}}, \quad \bar{T}_2(x) = (2x^2-1)\sqrt{\frac{2}{\pi}}, \ldots$$

Yeni metodun köməyilə mövcudluq və yeganəlik şərtindən istifadə edərək I növ Çebişev çoxhədlilər sisteminin qurulmasına baxaq.

$\bar{T}_0(x) = \mu_0$. Onda ortoqonallıq şərtinə görə, $\int_{-1}^{1} h(x)\mu_0^2(x)dx = 1$

$$\mu_0^2 \int_{-1}^{1} \sqrt{\frac{1}{1-x^2}}\,dx = \mu_0^2 \lim_{\varepsilon\to 0} \int_{-1+\varepsilon}^{1-\varepsilon} \frac{1}{\sqrt{1-x^2}}\,dx = \mu_0^2 \lim_{\varepsilon\to 0} arcsinx \Big|_{-1+\varepsilon}^{1-\varepsilon} =$$

$$\mu_0^2 \left[\lim_{\varepsilon\to 0}[\arcsin(1-\varepsilon - \arcsin(-1+\varepsilon]\right] = \mu_0^2\left(\frac{\pi}{2}+\frac{\pi}{2}\right) = \mu_0^2\pi = 1$$

$$\mu_0^2 = \frac{1}{\pi}. \qquad \mu_0 = \bar{T}_0(x) = \frac{1}{\sqrt{\pi}};$$

Ortoqonal və ortonormal şərtindən istifadə edərək $\bar{T}_1(x)$ çoxhədlisinə baxaq.

$$\begin{cases} \int_{-1}^{1} h(x)\bar{T}_0(x)\bar{T}_1(x)dx = 0 \\ \int_{-1}^{1} \bar{T}_1^2(x)h(x)dx = 1 \end{cases}$$

$$\begin{cases} \int_{-1}^{1} \frac{1}{\sqrt{1-x^2}} \cdot \frac{1}{\sqrt{\pi}}\left(C_{01}\cdot\frac{1}{\sqrt{\pi}} + C_{11}x\right)dx = 0 \\ \int_{-1}^{1} \frac{1}{\sqrt{1-x^2}} \cdot \left(C_{01}\cdot\frac{1}{\sqrt{\pi}} + C_{11}x\right)^2 dx = 1 \end{cases}$$

İsbat etmək olar ki,

$C_{01} = 0$, $\quad C_{11} = \frac{\sqrt{2}}{\sqrt{\pi}}$

Onda $\bar{T}_1(x) = \frac{\sqrt{2}}{\sqrt{\pi}}x$.

Analoji qayda ilə $\bar{T}_2(x), \bar{T}_3(x)$ ... müəyyənləşdirmək olar.

Bunlardan istifadə edərək I növ Çebişev çoxhədlisinin tətbiqi ilə bəzi məsələlərin həllinə baxacağıq.

$\bar{T}_n(x) = \cos(narccosx)$ çoxhədlilərini aşkar şəkildə yazaq.
$T_0(x) = \cos(0arccosx) = cos0 = 1$
$T_1(x) = \cos(1arccosx) = x$
$T_2(x) = \cos(2arccosx) = cos^2(arccosx) - sin^2(arccosx) = 2cos^2(arccosx) - 1 = 2x^2 - 1$

Göründüyü kimi $T_3(x)$, $T_4(x)$ ... hədlərini tapmaq əlverişli olmur. Bunun üçün ümumi metoddan istifadə edək. Məlum olan triqonometrik bərabərliklərə baxaq.

$cos\alpha cos\beta = \frac{1}{2}[\cos(\alpha + \beta) + \cos(\alpha - \beta)]$
$\cos(\alpha + \beta) + \cos(\alpha - \beta) = 2cos\alpha cos\beta$
$\alpha = n\theta$, $\beta = \theta$ onda
$\cos(n+1)\theta + \cos(n-1)\theta = 2cos\theta cosn\theta$
$\theta = arccosx$ götürsək, onda
$\cos(n+1)arccosx + \cos(n-1)arccosx = 2cosarccosx \cdot cosn \cdot arccosx$

Nəticədə rekurent düsturunu almış olarıq.
$T_{n+1}(x) + T_{n-1}(x) = 2x \cdot T_n(x)$
$T_{n+1}(x) = 2xT_n(x) - T_{n-1}(x)$

Yuxarıdan məlumdur ki, $T_0(x) = 1$, $T_1(x) = x$. Onda
$T_2(x) = 2xT_1(x) - T_0(x) = 2x^2 - 1$
$T_3(x) = 2xT_2(x) - T_1(x) = 2x(2x^2 - 1) - x = 4x^3 - 3x$
$T_4(x) = 2xT_3(x) - T_2(x) = 2x(4x^3 - 3x) - (2x^2 - 1) = 8x^4 - 6x^2 - 2x^2 + 1 = 8x^4 - 8x^2 + 1$

Nəticədə aşkar şəkildə verilmiş $T_0(x)$, $T_1(x)$, $T_2(x)$ ... $T_n(x)$ çoxhədliləri alınır.
Bu I növ Çebişev çoxhədlilərinin tətbiqi ilə aşağıdakı məsələyə baxaq.

Misal 1: $\cos(5arccosx) = 6x$ tənliyini həll edin.

Bu qeyri-aşkar verilmiş Çebişev çoxhədlisinin tənliyinin həlli əlverişli olmur. Onda uyğun rekurent düsturundan istifadə etsək. Onda
$T_0(x) = 1$, $T_1(x) = x$, $T_2(x) = 2xT_1(x) - T_0(x) = 2x^2 - 1$
$T_3(x) = 2xT_2(x) - T_1(x) = 2x(2x^2 - 1) - x = 4x^3 - 3x$
$T_4(x) = 2xT_3(x) - T_2(x) = 2x(4x^3 - 3x) - (2x^2 - 1) = 8x^4 - 6x^2 - 2x^2 + 1 = 8x^4 - 8x^2 + 1$
$T_5(x) = 2xT_4(x) - T_3(x) = 2x(8x^4 - 8x^2 + 1) - 4x^3 + 3x = 16x^5 - 16x^3 + 2x - 4x^3 + 3x = 16x^5 - 20x^3 + 6x$

Deməli $\cos(5arccosx) = 6x$ və $T_5(x) = 6x$ və ya

$$16x^5 - 20x^3 + 6x = 6x$$
$$x \cdot (16x^4 - 20x^2 + 6) = 6x$$
$$x = 0$$
$$16x^4 - 20x^2 = 0$$
$$x^2(16x^2 - 20) = 0$$
$$x = 0$$
$$16x^2 - 20 = 0$$
$$16x^2 = 20$$
$$4x^2 = 5$$
$$x^2 = \frac{5}{4}$$
$$x = \pm\frac{\sqrt{5}}{2}$$

Deməli həll $x = 0$, $x = \frac{\sqrt{5}}{2}$, $x = -\frac{\sqrt{5}}{2}$

Misal 2: $\int_0^1 \cos(5arccosx)\,dx$ inteqralını hesablayın.

Bu inteqralı hesablamaq üçün əlverişli olmur. Ona görədə rekurent düsturundan istifadə etsək. Onda

$$\int_0^1 T_5(x)dx = \int_{-1}^1 \cos(5arccosx)\,dx = \int_0^1 (16x^5 - 20x^3 + 6x)dx = (16\frac{x^6}{6} - 20\frac{x^4}{4} + 6\frac{x^2}{2})|_0^1 = \frac{8}{3} - 5 + 3 = \frac{2}{3}$$

Məqalə riyaziyyat üzrə elmlər doktoru, dosent Yaqub Məmmədov tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 26 fevral 2022-ci il
Son daxilolma tarixi:11 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 519+ 372

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 151-157
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 151-157
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 151-157

$(f(x))^{g(x)}=(f(x))^{p(x)}$ ŞƏKLİNDƏKİ ÜSTLÜ-QÜVVƏT TƏNLİKLƏRİNİN HƏLLİ HAQQINDA

Müəllif:

Abdulla Həsənov
Naxçıvan Müəllimlər İnstitutu
Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
E-mail:
hesen.1955@mail.ru

Açar sözlər:
tənlik, üstlü-qüvvət tənlikləri, kənar kök, təyin oblastı, loqarifmalama.

Annotasiya. Məktəb riyaziyyatının, həmçinin ali məktəblərdə "Elementar riyaziyyat" fənninin tədrisində tənliklərin həllinə xüsusi diqqət yetirilir. Digər tənliklər kimi üstlü-qüvvət tənliklərinin həlli məktəb riyaziyyat kursunda və universitetlərdə "Elementar riyaziyyat" fənninin tədrisində maraq doğurur. Bu tənliklərin həllində anlaşılmazlıq qüvvətin əsası 1-ə bərabər olduğu və müsbət olmadığı hallarda meydana çıxır. Ən çox $(f(x))^{g(x)}=(f(x))^{p(x)}$ və $(f(x))^{g(x)}=(f(x))^{h(x)}$ şəklindəki üstlü-qüvvət tənliklərinə rast gəlinir. Qeyd edək ki, belə tənlikləri həll edərkən çox zaman üstlü və qüvvət funksiyasının xassələrinin ödənilməsini tələb edirlər. Bu halda da tənliyin köklərinə verilən tərif ödənilmir.Üstlü-qüvvət tənliklərində arqumentin təyin oblastına daxil olan qiymətlərində $f(x)=0$ və üstü- qüvvət funksiyası müəyyən şərtləri ödədikdə $f(x) \leq 0$ ola bilər. Bu məqalədə tənliyin köklərinə veriən tərifə və üstlü-qüvvət funksiyalarının xassələrinə əsasən $(f(x))^{g(x)}=(f(x))^{p(x)}$ şəklindəki üstlü-qüvvət tənliklərinin həlli üsulu tam araşdırılmışdır.

Author:

Abdulla Hasanov
Nakhchivan Teachers Institute
Doctor of philosophy in mathematics, associate professor
E-mail:
hesen.1955@mail.ru

Key word:
the equation, exponential-power equations, extraneous roots, scope of definition, logarithm.

ABOUT THE SOLUTİON OF THE EQUATİONS OF FORCE-THE SUPERİMPOSED İN THE FORM OF $(f(x))^{g(x)}=(f(x))^{p(x)}$

Abstract. Special attention is paid to the solution of equations in the teaching of school mathematics, as well as the subject of "Elementary mathematics" in higher schools. The solution of surface-power equations, like other equations, is of interest in the school mathematics course and in the teaching of "Elementary mathematics" in universities. The misunderstanding in the solution of these equations arises in cases where the base of the force is equal to 1 and is not positive. The surface-force equations in the form of and are most common. It should be noted that when solving such equations, they often require the satisfaction of the properties of the surface and power function. In this case, the definition given to the roots of the equation is not fulfilled.In surface-force equations, the value of the argument can be included in the determination region, and the superpower function can be if it satisfies certain conditions.In this article, the method of solving surface-force equations in the form based on the definition of the roots of the equation and the properties of surface-power functions is fully investigated.

Автор:

Абдулла Гасанов
Нахчыванский институт учителей
Доктор философии по математике, доцент
E-mail:
hesen.1955@mail.ru

Ключевые слова:
уравнение, показательно-степенные уравнения, посторонние корни, область определения, логарифмирование

О РЕШЕНИИ ПОКАЗАТЕЛЬНО-СТЕПЕННЫХ УРАВНЕНИЙ В ВИДЕ $(f(x))^{g(x)}=(f(x))^{p(x)}$

Аннотация. Особое внимание уделяется решению уравнений в школьной математике, а также при преподавании предмета "Элементарная математика" в вузах. Решение показательно- степенных уравнений, как и других уравнений представляет интерес в школьном курсе математики и в преподавании предмета "Элементарная математика" в вузах. Недоразумение при решении этих уравнений возникает в тех случаях, когда основание степени равно 1 и не является положительным. Наиболее часто встречаются показательно-степенных уравнений в виде $(f(x))^{g(x)}=(f(x))^{p(x)}$ və $(f(x))^{g(x)}=(f(x))^{h(x)}$. Заметим, что при решении таких уравнений часто требуется удовлетворять свойствам показательной и степенной функции. И в этом случае определение корней уравнения не оплачивается.В показательно-степенных уравненях могут иметь $f(x)=1$ и $f(x) \leq 0$. В данной статье полностью исследовано метод решения уравнений $(f(x))^{g(x)}=(f(x))^{p(x)}$.

Məktəb riyaziyyatının, həmçinin universitetlərdə "Elementar riyaziyyat" fənninin tədrisində tənliklərin həllinə xüsusi diqqət yetirilir. Çünki müxtəlif mürəkkəb, qeyri-standart tənliklərin, o cümlədən üstlü-qüvvət tənliklərinin həlli üsullarının mənimsənilməsi şagirdlərin, tələbələrin zehni və yaradıcılıq qabiliyyətlərini yüksəldir. Tapşırıqlar həll edilərkən şagirdlər, tələbələr ilk tədqiqat işi bacarıqları əldə edir, onların riyazi mədəniyyəti zənginləşir, məntiqi təfəkkür qabiliyyəti inkişaf edir.

Digər tənliklər kimi, üstlü-qüvvət tənliklərinin həlli məktəb riyaziyyat kursunda və universitetlərdə "Elementar riyaziyyat" fənninin tədrisində maraq doğurur. Bu tənlik və bərabərsizliklərin həllində çətinlik ən çox qüvvətin əsası 1-ə bərabər olduğu və müsbət olmadığı hallarda meydana çıxır.

Ən çox $(f(x))^{g(x)}=(f(x))^{\varphi(x)}$ və $(f(x))^{h(x)}=(g(x))^{h(x)}$ şəklindəki üstlü-qüvvət tənliklərinə rast gəlinir. Qeyd edək ki, belə tənlikləri həll edərkən çox zaman üstlü və qüvvət funksiyasının xassələrinin ödənilməsini tələb edirlər. Bu halda da tənliyin köklərinə verilən tərif ödənilmir. Tərifə əsasən "dəyişənin tənliyi doğru bərabərliyə çevirən qiymətlərinə onun kökləri deyilir". Ona görə də

$$(f(x))^{g(x)}=(f(x))^{\varphi(x)} \text{ və } (f(x))^{h(x)}=(g(x))^{h(x)}$$

şəklindəki üstlü-qüvvət tənliklərində arqumentin təyin oblastına daxil olan qiymətlərində $f(x)=1$ və qüvvət üstü funksiya müəyyən şərtləri ödədikdə $f(x)\le 0$ ola bilər.

Yuxarıda deyilənləri nəzərə alaraq bu məqalədə $(f(x))^{g(x)}=(f(x))^{\varphi(x)}$ şəklindəki üstlü-qüvvət tənliklərinin həlli araşdırılmışdır.

$(f(x))^{g(x)}=(f(x))^{\varphi(x)}$ şəklindəki üstlü-qüvvət tənliklərinin həlli

Qeyd edək ki, bu cür tənlikləri həll edərkən tənliyin mümkün qiymətlər oblastını (MQO-nu) müəyyən etmək lazımdır. Çünki həll prosesində məchulun elə qiymətləri alınır ki, onlar MQO-ya daxil olmur. Yəni kənar köklərdi.

Qüvvətin və üstlü funksiyanın xassələrinə, tənliyin köklərinə verilən tərifə əsaslanaraq üstlü-qüvvət tənliklərinin həllində aşağıdakı hallar araşdırılmalıdır.

1. $g(x)=\varphi(x)$ tənliyi həll edilir. Bu tənliyin kökləri $f(x),g(x),\varphi(x)$ funksiyalarının təyin oblastlarının kəsişməsinə daxil olarsa, onda: a) bu köklərdən $f(x)>0$ şərtini ödəyənlər verilmiş tənliyin kökləri olacaq; b) əgər $f(x)<0$ şərtini ödəyən köklərin uyğun qiymətlərində $g(x),\varphi(x)$ funksiyaları tam qiymətlər alarsa, onda bu köklər verilmiş tənliyin kökləri olacaq; c) əgər $f(x)=0$ şərtini ödəyən köklərin uyğun qiymətlərində $g(x)>0,\varphi(x)>0$ olarsa, onda bu köklər verilmiş tənliyin kökləri olacaq.

2. $f(x)=0$ tənliyi həll edilir. Bu tənliyin köklərindən $f(x),g(x),\varphi(x)$ funksiyalarının təyin oblastlarının kəsişməsinə daxil olanları və $g(x)>0,\varphi(x)>0$ şərtini ödəyənləri verilmiş tənliyin kökləri olacaq.

3. $f(x)=1$ tənliyinin köklərindən $f(x),g(x),\varphi(x)$ funksiyalarının təyin oblastlarının kəsişməsinə daxil olanları verilmiş tənliyin kökləri olacaq.

4. $f(x)=-1$ tənliyinin köklərindən $f(x),g(x),\varphi(x)$ funksiyalarının təyin oblastlarının kəsişməsinə daxil olan köklərin uyğun qiymətlərində $g(x)$ və $\varphi(x)$-in hər ikisi tək və ya cüt tam ədədlər olarsa, onda bu köklər də verilmiş tənliyin kökləri olacaq.

Bəzən üstlü-qüvvət tənliklərini loqarifmalamaqla həll edirlər. Yəni tənliyi

$$g(x)\ln f(x)=\varphi(x)\ln f(x)\Rightarrow(g(x)-\varphi(x))\ln(f(x)=0$$

şəklinə gətirərək həll edirlər. Bu zaman isə loqarifma işarəsi altında olduğuna görə $f(x)\le 0$ halı nəzərdən keçirilə bilmədiyindən köklər itirilə bilər.

Bu deyilənlərə əsasən $(f(x))^{g(x)}=(f(x))^{\varphi(x)}$ şəklindəki üstlü-qüvvət tənliklərinin həlli

1) $\begin{cases} g(x)=\varphi(x), \\ f(x)>0, f(x)\neq 1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi) \end{cases}$; 2) $\begin{cases} f(x)=0, \\ g(x)>0;\ \varphi(x)>0 \end{cases}$; 3) $\begin{cases} f(x)=1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi) \end{cases}$;

4) $\begin{cases} f(x)=-1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi), \\ g(x),\ \varphi(x)\in Z, g(x),\ \varphi(x)\ cut, ya\ tek \end{cases}$; 5) $\begin{cases} g(x)=\varphi(x), \\ f(x)<0, f(x)\neq -1, \\ x\in Z\cap D(f)\cap D(g)\cap D(\varphi) \end{cases}$

beş sistemin həllərinin birləşməsindən ibarət olacaq.

Yuxarıda deyilənləri nümunə tənlikləri həll etməklə izah edək.

Nümunə. $(x^2+4x+3)^{x-2}=(x^2+4x+3)^{\frac{x^2-9}{x+2}}$ tənliyini həll edək.

$$f(x)=x^2+4x+3,\ g(x)=x-2,\ \varphi(x)=\frac{x^2-9}{x+2}.$$
$$D=D(f)\cap D(g)\cap D(\varphi)=(-\infty;-2)\cup(-2;+\infty).$$

1. $\begin{cases} g(x)=\varphi(x), \\ f(x)>0, f(x)\neq 1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi). \end{cases}$

x-in heç bir qiymətində $x-2\neq\frac{x^2-9}{x+2}$ olduğuna görə bu halda tənliyin həlli yoxdur.

2. $\begin{cases} f(x)=0, \\ g(x)>0;\ \varphi(x)>0. \end{cases}$ $x^2+4x+3=0\Rightarrow x=-3;\ x=-1.$

$g(-3)=-5<0,\ g(-1)=-3<0$ və $\varphi(-3)=0, \varphi(-1)=-8.$ $g(x)>0,\ \varphi(x)>0$ şərti ödənilmir. Deməli, bu halda tənliyin həlli yoxdur.

3. $\begin{cases} f(x)=1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi). \end{cases}$ $\begin{cases} x^2+4x+3=1, \\ x\in(-\infty;-2)\cup(-2;+\infty) \end{cases}\Rightarrow\begin{cases} x_1=-2-\sqrt{2}, x_2=-2+\sqrt{2}, \\ x_1,x_2\in(-\infty;-2)\cup(-2;+\infty). \end{cases}$

Deməli, $x=-2-\sqrt{2}, x=-2+\sqrt{2}$ tənliyin həllidir.

4. $\begin{cases} f(x)=-1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi), \\ g(x),\ \varphi(x)\in Z, g(x),\ \varphi(x)\ cut, ya\ tek \end{cases}$; $\begin{cases} x^2+4x+3=-1, \\ x\in(-\infty;-2)\cup(-2;+\infty) \end{cases}\Rightarrow\begin{cases} x=-2, \\ -2\notin(-\infty;-2)\cup(-2;+\infty). \end{cases}$

Deməli, bu halda tənliyin həlli yoxdur.

5. $\begin{cases} g(x)=\varphi(x), \\ f(x)<0, f(x)\neq -1, \\ x\in Z\cap D(f)\cap D(g)\cap D(\varphi). \end{cases}$

$x-2\neq\frac{x^2-9}{x+2}$ olduğuna görə bu halda tənliyin həlli yoxdur.

Cavab. $x=-2-\sqrt{2}, x=-2+\sqrt{2}$.

Nümunə. $(x-2)^{x+4}=(x-2)^{x^2+2}$ tənliyini həll edək.

$$f(x)=x-2, g(x)=x+4, \varphi(x)=x^2+2.$$
$$D=D(f)\cap D(g)\cap D(\varphi)=(-\infty;+\infty)$$

1. $\begin{cases} g(x)=\varphi(x), \\ f(x)>0, f(x)\neq 1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi). \end{cases}$

$$\begin{cases} x+4=x^2+2, \\ x-2>0, \end{cases}\Rightarrow\begin{cases} x^2-x-2=0, \\ x>2 \end{cases}\Rightarrow\begin{cases} x_1=-1,\ x_2=2, \\ x>2 \end{cases}\Rightarrow f(-1)=-3<0,\ f(2)=0.$$

Deməli, bu halda tənliyin həlli yoxdur.

2. $\begin{cases} f(x)=0, \\ g(x)>0;\ \varphi(x)>0. \end{cases}$

$$\begin{cases} x-2=0, \\ x+4>0, x^2+2>0 \end{cases} \Rightarrow \begin{cases} x=2, \\ g(2)=2+4=6>0,\ \varphi(2)=4+2=6>0. \end{cases}$$

Deməli, bu halda x=2 tənliyin həllidir.

3. $\begin{cases} f(x)=1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi). \end{cases}$ $\begin{cases} x-2=1, \\ x\in(-\infty;+\infty) \end{cases} \Rightarrow \begin{cases} x=3, \\ 3\in(-\infty;+\infty). \end{cases}$

Bu halda $x=3$ tənliyin həllidir.

4. $\begin{cases} f(x)=-1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi), \\ g(x),\ \varphi(x)\in Z, g(x),\ \varphi(x) cut, ya\ tek. \end{cases}$ $\begin{cases} x-2=-1, \\ x\in(-\infty;+\infty), \\ g(x),\ \varphi(x)\in Z \end{cases} \Rightarrow \begin{cases} x=1, \\ 1\in(-\infty;+\infty), \\ g(1)=5, \varphi(1)=3. \end{cases}$

$g(1)=5$ və $\varphi(1)=3$. Hər ikisi tək tam ədəd olduğundan x=1 tənliyin həllidir.

5. $\begin{cases} g(x)=\varphi(x), \\ f(x)<0, f(x)\neq -1, \\ x\in Z\cap D. \end{cases}$

$$\begin{cases} x+4=x^2+2, \\ x-2<0, \\ x\in(-\infty;+\infty) \end{cases} \Rightarrow \begin{cases} x^2-x-2=0, \\ x<2, \\ x\in(-\infty;+\infty) \end{cases} \Rightarrow \begin{cases} x_1=-1,\ x_2=2, \\ x<2 \end{cases} \Rightarrow \begin{cases} g(-1)=\varphi(-1)=3, \\ -1<2. \end{cases}$$

Deməli, bu halda $x=-1$ tənliyin həllidir.

Cavab. {-1; 1; 2; 3}.

Verilən tənliyi e əsasına görə loqarifmalamaqla həll edək.

$$\ln(x-2)^{x+4}=\ln(x-2)^{x^2+2} \Rightarrow$$

$$\Rightarrow (x+4)\ln(x-2)=(x^2+2)\ln(x-2) \Rightarrow (x^2-x-2)\ln(x-2)=0 \Rightarrow$$

$$\Rightarrow \begin{cases} x^2-x-2=0, \\ \ln(x-2)=0, \\ x-2>0 \end{cases} \Rightarrow \begin{cases} x_1=-1, x_2=2, \\ x-2=1, \\ x>2 \end{cases} \Rightarrow \begin{cases} x_1=-1, x_2=2, \\ x=3, \\ x>2. \end{cases}$$

Buradan görünür ki, verilən tənliyin yalnız bir kökü var: $x=3$.

$x=-1;1;2$ olduqda

$$\ln(x-2)=\ln(-3),\ \ln(x-2)=\ln(-1),\ \ln(x-2)=\ln 0$$

olur ki, onların da mənası olmur. Deməli, loqarifmalamaqla həll etdikdə üç kök itirilir.

Nümunə. $(x-1)^{3x}=(x-1)^{3x^2-5x+5}$ tənliyini həll edək.

$$f(x)=x-1,\ g(x)=3x,\ \varphi(x)=3x^2-5x+5.$$
$$D=D(f)\cap D(g)\cap D(\varphi)=(-\infty;+\infty).$$

1. $\begin{cases} g(x)=\varphi(x), \\ f(x)>0, f(x)\neq 1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi). \end{cases}$

$$\begin{cases} 3x=3x^2-5x+5, \\ x-1>0 \end{cases} \Rightarrow \begin{cases} x_1=\frac{5}{3},\ x_2=1, \\ x>1 \end{cases} \Rightarrow x=\frac{5}{3}.$$

2. $\begin{cases} f(x)=0, \\ g(x)>0;\ \varphi(x)>0. \end{cases}$

$$\begin{cases} x-1=0, \\ 3x>0,\ 3x^2-5x+5>0 \end{cases} \Rightarrow \begin{cases} x=1, \\ 3\cdot 1=3>0,\ 3\cdot 1^2-5\cdot 1+5=3>0 \end{cases} \Rightarrow x=1.$$

3. $\begin{cases} f(x)=1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi). \end{cases}$

$$\begin{cases} x-1=1, \\ x\in D \end{cases} \Rightarrow \begin{cases} x=2, \\ x=2\in D \end{cases} \Rightarrow x=2.$$

4. $\begin{cases} f(x)=-1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi), \\ g(x),\ \varphi(x)\in Z, g(x),\ \varphi(x) \textit{ cut, ya tek}. \end{cases}$

$x-1=-1\Rightarrow x=0\in(-\infty;+\infty)$. $g(0)=0, \varphi(0)=-5\Rightarrow(-1)^0\neq(-1)^5$.

Deməli, x=0 kök deyil. Yəni bu halda tənliyin həlli yoxdu.

5. $\begin{cases} g(x)=\varphi(x), \\ f(x)<0,\ f(x)\neq -1, \\ x\in Z\cap D(f)\cap D(g)\cap D(\varphi). \end{cases}$ $\begin{cases} 3x=3x^2-5x+5, \\ x-1<0, \\ x\in Z\cap D \end{cases} \Rightarrow \begin{cases} x_1=\dfrac{5}{3}, x_2=1, \\ x<1. \end{cases}$

Deməli, bu halda tənliyin həlli yoxdu.

Cavab. $\left\{1;\ \frac{5}{3};\ 2\right\}$.

Nümunə. $\left(x^2-4\right)^{x+1}=\left(x^2-4\right)^{x^2-1}$ tənliyini həll edək.

$$f(x)=x^2-4,\ g(x)=x+1,\ \varphi(x)=x^2-1.$$
$$D=D(f)\cap D(g)\cap D(\varphi)=(-\infty;+\infty).$$

1. $\begin{cases} g(x)=\varphi(x), \\ f(x)>0,\ f(x)\neq 1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi). \end{cases}$

$$\begin{cases} x+1=x^2-1, \\ x^2-4>0, \end{cases} \Rightarrow \begin{cases} x^2-x-2=0, \\ x\in(-\infty;-2)\cup(2;+\infty) \end{cases} \Rightarrow \begin{cases} x_1=2,\ x_2=-1, \\ x\in(-\infty;-2)\cup(2;+\infty). \end{cases}$$

$x_1=-1,\ x_2=2$ ədədləri $x\in(-\infty;-2)\cup(2;+\infty)$ şərtini ödəmədiyinə görə verilmiş tənliyin kökü deyil.

2. $\begin{cases} f(x)=0, \\ g(x)>0;\ \varphi(x)>0. \end{cases}$

$$\begin{cases} x^2-4=0, \\ x+1>0,\ x^2-1>0 \end{cases} \Rightarrow \begin{cases} x_1=-2,\ x_2=2, \\ x>-1, (-\infty<x<-1)\cup(1<x<+\infty) \end{cases} \Rightarrow \begin{cases} x_1=-2,\ x_2=2, \\ x\in(1;+\infty). \end{cases}$$

$-2\notin(1;+\infty)$ və $2\in(1;+\infty)$. Deməli, $x=2$ tənliyin köküdür.

3. $\begin{cases} f(x)=1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi) \end{cases}; \begin{cases} x^2-4=1, \\ D=(-\infty;+\infty) \end{cases} \Rightarrow \begin{cases} x=\pm\sqrt{5}, \\ \pm\sqrt{5}\in(-\infty;+\infty). \end{cases}$

Deməli, $x=\pm\sqrt{5}$ tənliyin köküdür.

4. $\begin{cases} f(x)=-1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi), \\ g(x),\ \varphi(x)\in Z, g(a)\cdot\varphi(a) \textit{ cüt, ya tek}. \end{cases}$

$$x^2-4=-1\Rightarrow x=\pm\sqrt{3};\quad \pm\sqrt{3}+1\notin Z.$$

Deməli, $x=\pm\sqrt{3}$ tənliyin kökü deyil.

5. $\begin{cases} g(x)=\varphi(x), \\ f(x)<0,\ f(x)\neq -1, \\ x\in Z\cap D(f)\cap D(g)\cap D(\varphi) \end{cases}; \begin{cases} x+1=x^2-1, \\ x^2-4<0,\ x^2-4\neq -1 \end{cases} \Rightarrow \begin{cases} x^2-x-2=0, \\ x\in(-2;2) \end{cases} \Rightarrow \begin{cases} x_1=2,\ x_2=-1 \\ -1\in(-2;2). \end{cases}$

Deməli, $x=-1$tənliyin köküdür.

Cavab. $\{-\sqrt{5};-1;2;\sqrt{5}\}$.

Nümunə. $(x-1)^{\sqrt{1-x}}=(x-1)^{\frac{x+1}{2}}$ tənliyini həll edək.

$$f(x)=x-1,\ g(x)=\sqrt{x-1},\ \varphi(x)=\frac{x+1}{2}.$$

$$D=D(f)\cap D(g)\cap D(\varphi)=(-\infty;1].$$

1. $\begin{cases} g(x)=\varphi(x), \\ f(x)>0, f(x)\neq 1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi). \end{cases}$ $\begin{cases} \sqrt{1-x}=\dfrac{x+1}{2}, \\ x-1>0, x-1\neq 1, \\ x\leq 1. \end{cases}$ $\Rightarrow \begin{cases} -1\leq x\leq 1\Rightarrow x=-3+2\sqrt{3}, \\ f(-3+2\sqrt{3})<0, \\ x\leq 1. \end{cases}$

Şərtlər ödənilmir. Deməli, bu halda tənliyin həlli yoxdur.

2. $\begin{cases} f(x)=0, \\ g(x)>0;\ \varphi(x)>0. \end{cases}$ $\begin{cases} x-1=0, \\ \sqrt{1-x}>0; \dfrac{x+1}{2}>0 \end{cases} \Rightarrow \begin{cases} x=1, \\ g(1)=0,\ \varphi(1)=1. \end{cases}$

Şərtlər ödənilmir. Deməli, bu halda tənliyin həlli yoxdur.

3. $\begin{cases} f(x)=1, \\ x\in(-\infty;1]. \end{cases}$ $\begin{cases} x-1=1, \\ x\in(-\infty;1] \end{cases} \Rightarrow \begin{cases} x=2, \\ 2\notin D. \end{cases}$

Şərtlər ödənilmir. Bu halda da tənliyin həlli yoxdur.

4. $\begin{cases} f(x)=-1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi), \\ g(x),\ \varphi(x)\in Z, g(x), \varphi(x) \text{ cüt, ya tək.} \end{cases}$ $\begin{cases} x-1=-1, \\ x\leq 1 \end{cases} \Rightarrow \begin{cases} x=0, \\ x\leq 1, \\ g(0)=0\in Z,\ \varphi(0)=\dfrac{1}{2}\notin Z. \end{cases}$

Şərtlər ödənilmir. Bu halda da tənliyin həlli yoxdur.

5. $\begin{cases} g(x)=\varphi(x), \\ f(x)<0, f(x)\neq -1, \\ x\in Z\cap D. \end{cases}$

$$\begin{cases} \sqrt{1-x}=\dfrac{x+1}{2}, \\ x-1<0, x-1\neq -1, \\ x\in Z\cap D \end{cases} \Rightarrow \begin{cases} x_1=-3-2\sqrt{3}, x_2=-3+2\sqrt{3}, \\ x<1, x\neq 0, \\ x\in Z\cap D \end{cases} \Rightarrow \begin{cases} x_1=-3-2\sqrt{3}, x_2=-3+2\sqrt{3}, \\ x<1, x\neq 0, \\ x_1, x_2\notin Z\cap D. \end{cases}$$

Bu halda da tənliyin həlli yoxdur.

Nümunə. $\left(x^2-9\right)^{x^2-2}=1$ tənliyini həll edək.

$$f(x)=x^2-9,\ g(x)=x^2-2,\ \varphi(x)=0.$$

$$D=D(f)\cap D(g)\cap D(\varphi)=(-\infty;+\infty).$$

Tənliyin ifadəsindən görünür ki, aşağıdakı hallar ola bilər.

1. $\begin{cases} x^2-2=0, \\ f(x)>0, f(x)\neq 1, \\ x\in D \end{cases} \Rightarrow \begin{cases} x=\pm\sqrt{2}, \\ f\left(-\sqrt{2}\right)<0, f\left(\sqrt{2}\right)<0, \\ x\in D. \end{cases}$

Bu halda tənliyin həlli yoxdur.

2. $\begin{cases} f(x)=0, \\ g(x)>0;\ \varphi(x)>0. \end{cases}$

$\varphi(x)=0$ olub sabit funksiyadı. $\varphi(x)>0$ şərti ödənilmir. Ona görə də halda tənliyin həlli yoxdur.

3. $\begin{cases} f(x)=1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi). \end{cases}$

$$\begin{cases} x^2-9=1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi) \end{cases} \Rightarrow \begin{cases} x=\pm\sqrt{10}, \\ \pm\sqrt{10}\in D \end{cases} \Rightarrow x=\pm\sqrt{10}.$$

4. $\begin{cases} f(x)=-1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi), \\ g(x),\varphi(x)\,cüt,\,ya\,da\,tek. \end{cases}$

$$\begin{cases} x^2-9=-1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi) \end{cases} \Rightarrow \begin{cases} x=\pm\sqrt{8}, \\ \pm\sqrt{8}\in D(f)\cap D(g)\cap D(\varphi), \Rightarrow x=\pm\sqrt{8}\,. \\ g(\pm\sqrt{8})=6 \end{cases}$$

5. $\begin{cases} g(x)=\varphi(x), \\ f(x)<0,\ f(x)\neq -1, \\ x\in Z\cap D(f)\cap D(g)\cap D(\varphi). \end{cases}$

$$\begin{cases} x^2-2=0, \\ f(x)<0,\ f(x)\neq -1, \\ x\in D(f)\cap D(g)\cap D(\varphi) \end{cases} \Rightarrow \begin{cases} x=\pm\sqrt{2}, \\ f\left(-\sqrt{2}\right)=-7<0,\ f\left(\sqrt{2}\right)=-7, \Rightarrow x=\pm\sqrt{2}. \\ x\in D(f)\cap D(g)\cap D(\varphi). \end{cases}$$

Cavab. $\left\{\pm\sqrt{2};\ \pm\sqrt{8};\pm\sqrt{10}\right\}$.

Nəticə

1. Üstlü-qüvvət tənliklərinin həlli üsulları məktəb riyaziyyat dərsliklərində və vəsaitlərində, universitetlərdə elementar riyaziyyat kursunda tam araşdırılmamışdır.

2. $f(x)=1,\ f(x)=-1, f(x)\le 0$ olduğu hallarda tənliyin köklərinin tapılması qaydası göstərilmişdir.

3. Bu məqalədə $\left(f(x)\right)^{g(x)}=\left(f(x)\right)^{\varphi(x)}$ şəklindəki üstlü-qüvvət tənliklərinin həlli tam araşdırılmışdır.

Ədəbiyyat

1. Həsənov, A.İ. Elementar riyaziyyat. Dərslik. / A.İ.Həsənov – Bakı: – 2021. – 463 s.
2. Həsənov, A.İ. Riyaziyyat II hissə. Dərslik. / A.İ.Həsənov – Naxçıvan: – 2008. – 303 s.

Məqalə riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Elşad Ağayev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 08 fevral 2022-ci il
Son daxilolma tarixi:20 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 519+ 372

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 158-165
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 158-165
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 158-165

f(f(x))=x ŞƏKLİNDƏ TƏNLİKLƏRİN HƏLLİ HAQQINDA

Müəlliflər:

Azad Məmmədli
AMEA Naxçıvan Bölməsi
Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
E-mail: azad_mammadli@yahoo.com

Ülvü Vəliyev
AMEA Naxçıvan Bölməsi
E-mail:veliyev_ulvu@mail.ru

Açar sözlər:
eynigüclü tənliklər, ciddi artan funksiya, təklif, tənliyin kökləri, alt çoxluq.

Annotasiya. Məqalədə *f(f(x))=x* (A) şəklində tənliklərin həlli üçün zəruri olan təkliflər verilmiş və isbat edilmişir. Göstərilmişdir ki, f(x) funksiyası müəyyən şərtləri ödədikdə (A) tənliyinin əvəzinə onunla eynigüclü olan daha sadə *f(x)=x* (B) tənliyi həll edilir. (A) və (B) tənlikləri eynigüclü olmadıqları halda da, (B) tənliyini həll etməklə (A) tənliyinin köklərinin bir hissəsini tapmaq olar. Bu köklərdən istifadə etməklə (A) cəbri tənliyinin yaxud cəbri tənliyə gətirilə bilən tənliklərin digər kökləri asanlıqla təyin edilir. Verilmiş çoxluqda (A) tənliyinin həlli üçün istifadə olunan ənənəvi üsul da (B) tənliyinə gətirir ki, onun köklərinin tapılması baxılan təklifləri tətbiq etmədən çətin olur.Məqalədə misal olaraq bir neçə tənliyə baxılmış, təkliflərin onların hər birinin həllində necə tətbiq olunması göstərilmişdir.

ON THE SOLUTİON OF EQUATİONS İN THE FORM *f(f(x))=x*

Authors:

Azad Mammadli
Nakhchivan Branch of ANAS
Doctor of philosophy in mathematics, associate professor
E-mail: azad_mammadli@yahoo.com

Ulvi Valiyev
Nakhchivan Branch of ANAS
E-mail:veliyev_ulvu@mail.ru

Key word:
equivalent equations, strictly increasing function, sentence, equation roots, subset.

Abstract. In the article, proposals necessary for solving equations in the form *f(f(x))=x* (A) were given and proved. It has been shown that when the function *f(x)* satisfies certain conditions, instead of the equation (A), the simpler equation *f(x)=x* (B) which is equivalent to it is solved. Although equations (A) and (B) are not equivalent, solving equation (B) can find some of the roots of equation (A). Using these roots, other roots of the algebraic equation (A) or other equations that can be reduced to an algebraic equation are easily determined. The traditional method used to solve equation (A) in the given set also leads to equation (B) whose roots are difficult to find without applying the propositions discussed.In the article, several equations were considered as examples, and how the suggestions are applied in solving each of them.

О РЕШЕНИИ УРАВНЕНИЙ ВИДА *f(f(x))=x*

Авторы:
Азад Мамедли
Нахчыванское отделение НАНА
Доктор философии по математике, доцент
E-mail: azad_mammadli@yahoo.com

Ульви Велиев
Нахчыванское отделение НАНА
E-mail:veliyev_ulvu@mail.ru

Ключевые слова:
равносильные уравнения, строго возрастающая функция, предложение, корни уравнения, подмножество

Аннотация. В статье представлены и доказаны предложения, необходимые для решения уравнений вида *f(f(x))=x* (A). Показано, что когда функция *f(x)* удовлетворяет некоторым условиям, вместо уравнения (A) решается более простое уравнение *f(x)=x* (B), равносильное ей. В случае, когда уравнения (A) и (B) не являются равносильными, можно найти часть корней уравнения (A), решив уравнение (B). С помощью этих корней легко определяются другие корни алгебраического уравнения (A) или уравнений, которые можно привести к алгебраическому уравнению. Традиционный метод, используемый для решения уравнения (A) в заданном множестве, также приводит к уравнению (B), корни которого трудно найти без применения рассматриваемых предложений. В статье в качестве примеров рассматриваются несколько уравнений и показано, как можно применить предложения к решению каждого из них.

Ali məktəblərə qəbul imtahanlarında və olimpiadalarda bəzən

$$f(f(x))=x \tag{A}$$

şəklində yazıla bilən tənlikləri həll etmək təklif olunur, burada $f(x)$ – hər hansı funksiyadır.

Məsələn,.

$$(x^2-5x+5)^2-5(x^2-5x+5)+5=x, \tag{a}$$

$$\sqrt[3]{\sqrt[3]{x+24}+24}=x, \tag{b}$$

$$\sin(\sin x))=x\ , \tag{c}$$

$$\sqrt{6-2\sqrt{6-2x}}=x \tag{ç}$$

tənlikləri (A) şəklində tənliklərdir. Doğrudan da, (a) halında $f(x)=x^2-5x+5$, (b) halında $f(x)=\sqrt[3]{x+24}$, (c) halında $f(x)=\sin x$, (ç) halında isə $f(x)=\sqrt{6-2x}$ -dir.

(A) tənliyi ilə yanaşı

$$f(x)=x \tag{B}$$

tənliyinə də baxmaq olar.

Belə ki, aydındır ki, (B) tənliyi (A) tənliyindən asandır, onda bu vəziyyətdən (A) tənliyinin həlli üçün istifadə etməyə cəhd etmək lazımdır. Daha sadə olan (B) tənliyindən istifadə edərək (A) şəklində tənliyi həll etmək üçün tətbiq olunan aşağıdakı təklifləri verək:

Təklif 1. (B) tənliyinin hər bir kökü (A) tənliyinin də köküdür. Doğrudan da tutaq ki, x_0 ədədi (B) tənliyinin köküdür. Onda $f(x_0)=x_0$ ədədi bərabərliyi ödənilir. Bu bərabərlikdən iki dəfə istifadə edərək alarıq ki, $f(f(x_0))=f(x_0)=x_0$, başqa sözlə $f(f(x_0))=x_0$-dır. Bu isə o deməkdir ki, x_0 ədədi (A) tənliyinin köküdür. Təklif 1 isbat edildi.

Qeyd edək ki, burada sonralar tənliklərin yalnız həqiqi köklərinə baxacağıq.

Təklif 2. Tutaq ki, $f(x)$ funksiyası X çoxluğunda ciddi artır və tutaq ki, istənilən $x_0\in X$ üçün $f(x_0)\in X$-dir. Onda (A) və (B) tənlikləri X çoxluğunda eynigüclüdür (X çoxluğu $f(x)$ funksiyasının təyin oblastı ilə üst-üstə düşə bilər, yaxud da onun bir hissəsi ola bilər).

Yuxarıda göstərildiyi kimi (B) tənliyinin istənilən kökü həm də (A) tənliyinin köküdür. İndi göstərək ki, əgər $f(x)$ funksiyası X çoxluğunda ciddi artırsa və istənilən $x_0\in X$ üçün $f(x_0)\in X$ isə, onda (A) tənliyinin X çəxluğuna daxil olan istənilən kökü (B) tənliyinin də köküdür.

Tutaq ki, $x_0\in X$ ədədi (A) tənliyinin köküdür, onda $f(f(x_0))=x_0$ ədədi bərabərliyi doğrudur. İsbat edək ki, $f(x_0)=x_0$ ədədi bərabərliyi də doğrudur.

Əksini fərz edək, başqa sözlə $f(x_0)\neq x_0$ olsun. Onda əgər $f(x_0)>x_0$ isə, $f(x_0)\in X$ və $x_0\in X$ olduğunu nəzərə alaraq, $f(x)$ funksiyasının X çoxluğunda artmasına görə alarıq ki, $f(f(x_0))>f(x_0)$ ədədi bərabərsizliyi doğrudur. Burada $f(x_0)>x_0$ ədədi bərabərsizliyindən istifadə edərək alırıq ki, $f(f(x_0))>x_0$, bu isə $f(f(x_0))=x_0$ şərtinə ziddir.

Əgər $f(x_0)<x_0$ isə, onda $f(x_0)\in X$ və $x_0\in X$ nəzərə alaraq, $f(x)$ funksiyasının X çoxluğunda artmasına əsasən alarıq ki, $f(f(x_0))<f(x_0)$ ədədi bərabərsizliyi doğrudur. Buradan da alırıq ki, $f(f(x_0))<x_0$, bu isə $f(f(x_0))=x_0$ şərtinə ziddir.

O nəticəyə gəlirik ki, $f(x_0)\neq x_0$ təklif səhvdir və $f(x_0)=x_0$ bərabərliyi doğrudur, başqa sözlə x_0 ədədi (B) tənliyinin köküdür.

Əgər ki, (A) və (B) tənliklərindən heç olmasa birinin X çoxluguna daxil olan kökü yoxdursa, onda o biri tənliyin də X çoxluğuna mənsub olan kökü yoxdur.

Doğrudan da, tutaq ki, (B) tənliyinin X çoxluğundan olan kökü yoxdur. Onda əgər fərz etsək ki, (A) tənliyinin $x_0 \in X$ kökü var və $f(x_0) \in X$, onda yuxarıda göstərildiyi kimi, (B) tənliyi də eyni kökə malikdir, bu isə (B) tənliyinin kökünün olmaması şərtinə ziddir. Analoji olaraq, təklif 1-ə istinad etməklə, isbat edilir ki, əgər (A) tənliyinin X-dən olan kökü yoxdursa, onda (B) tənliyinin də X çoxluğuna daxil olan kökü yoxdur.

Təklif 2 tamamilə isbat edilmiş olur.

Qeyd edək ki, əgər $f(x)$ funksiyası X çoxluğunda ciddi artırsa və istənilən $x_0 \in X$ üçün $f(x_0) \in X$ isə, onda $f(x) = x$, $f(f(x)) = x$, $f(f(f(x))) = x$ və s. tənlikləri də X çoxluğunda eynigüclüdür.

Təbii olaraq belə bir sual ortaya çıxır: təklif 2-yə analoji olan, lakin ciddi azalan $f(x)$ funksiyası üçün təklif doğrudurmu?

$f(x) = \sqrt[3]{1-x}$ funksiyasına baxaq. O, R çoxluğunda ciddi azalır və istənilən $x_0 \in R$ üçün $f(x_0) \in R$-dır. $f(x) = x$ tənliyi şəklinə malikdir və o $x^3 + x - 1 = 0$ tənliyinə eynigüclüdür. Bu sonuncu tənliyin isə yeganə $x_0 \in (0;1)$ kökünə malik olduğunu göstərmək olar.

$f(f(x)) = x$ tənliyi $\sqrt[3]{1-\sqrt[3]{1-x}} = x$ şəklindədir. Onun kökləri arasında, $f(x) = x$ tənliyinin kökləri olmayan 0 və 1 ədədləri var. Deməli, bu funksiya üçün (A) və (B) tənlikləri eynigüclü deyildir.

Beləliklə, ciddi azalan $f(x)$ funksiyası üçün (A) və (B) tənliklərinin eynigüclülüyü haqqındakı təklif 2-yə analoji olan təklif, ümumiyyətlə desək, doğru deyildir.

İndi də tənlikləri həll edərkən təklif 2-nin necə tətbiq olunmasını göstərək.

Misal 1. Tənliyi həll edin:

$$\sqrt[3]{\sqrt[3]{x+24}+24} = x \qquad (1)$$

$f(x) = \sqrt[3]{x+24}$ funksiyası R çoxluğunda ciddi artır və istənilən $x_0 \in R$ üçün $f(x_0) \in R$ olur. . Onda təklif 2-yə əsasən (1) tənliyi

$$\sqrt[3]{x+24} = x \qquad (1')$$

tənliyinə eynigüclüdür.

(1′) tənliyi $x^3 - x - 24 = 0$ tənliyinə eynigüclüdür ki, onun da yeganə $x_1 = 3$ kökü vardır. Deməli, ona eynigüclü olan (1) tənliyi də yeganə x_1 kökünə malikdir.

Cavab: 3.

Qeyd edək ki, (1) tənliyinin həllinə ənənəvi üsulun tətbiqi – ardıcıl olaraq üçüncü dərəcədən qüvvətə yüksəltmə

$$x^3 - 72x^6 + 1728x^3 - x - 13848 = 0$$

kimi doqquz dərəcəli tənliyə gətirir ki, onun da həlli yuxarıda verilmiş həllə müqayisədə daha mürəkkəb olur.

Misal 2. Tənliyi həll edək:

$$x^3 + 6 = 7\sqrt[3]{7x-6} \qquad (2)$$

(2) tənliyinin eynigüclü çevirmələrini yerinə yetirək:

$$\left(\frac{x^3+6}{7}\right)^3 = 7x - 6,$$

$$\frac{\left(\frac{x^3+6}{7}\right)^3+6}{7}=x \qquad (2')$$

$f(x)=\frac{x^3+6}{7}$ funksiyasına baxaq, o, R çoxluğunda ciddi artır və istənilən $x_0 \in R$ üçün $f(x_0)\in R$-dir. (2′) tənliyi $f(f(x))=x$ şəklindədir, deməli, təklif 2-yə görə o, $f(x)=x$ tənliyinə, başqa sözlə $\frac{x^3+6}{7}=x$ tənliyinə eynigüclüdür. Sonuncu tənlik isə üç $x_1=1$, $x_2=2$ və $x_3=-3$ köklərinə malikdir. Nəticədə alırıq ki, ona eynigüclü olan (2) tənliyinin də eyni həlləri vardır.

Cavab: 1; 2; -3.

Misal 3. Tənliyi həll edək:

$$\sqrt{\sqrt{|x|-1}+\frac{3}{4}}+\frac{7}{4}=x \qquad (3)$$

Kvadrat kökün təyin olunması qaydasına görə, əgər (3) tənliyinin kökləri varsa, onda onlar $X=\left[\frac{7}{4};+\infty\right)$ çoxluğuna daxil olar. Ona görə də biz (3) tənliyinə bundan sonra bu çoxluqda baxacağıq. Burada (3) tənliyini

$$\sqrt{\left(\sqrt{x-1}+\frac{7}{4}\right)-1}+\frac{7}{4}=x \qquad (3')$$

şəklində yazmaq olar.

X çoxluğunda $f(x)=\sqrt{x-1}+\frac{7}{4}$ funksiyasına baxaq. Aydındır ki, $f(x)$ bu çoxluqda ciddi artır və istənilən $x_0 \in X$ üçün $f(x_0)\in X$ olur. Belə ki, (3′) tənliyini $f(f(x))=x$ şəklində yazmaq olar, onda təklif 2-yə görə (3′) tənliyi X çoxluğunda

$$\sqrt{x-1}+\frac{7}{4}=x$$

tənliyinə eynigüclüdür və bu tənliyin yeganə $x_1=\frac{13}{4}$ həlli vardır. Deməli, X çoxluğunda ona eynigüclü olan (3) tənliyi də yeganə x_1 kökünə malikdir.

Cavab. $\frac{13}{4}$.

Misal 4. Tənliyi həll edək:

$$\sin(\sin x)=x \qquad (4)$$

İstənilən α bucağı üçün $|\sin\alpha|\le 1$ olduğundan alırıq ki, əgər (4) tənliyinin kökü varsa, onda bu köklər $X=[-1;1]$ çoxluğuna daxildir. X çoxluğunda $f(x)=\sin x$ funksiyası ciddi artır və hər bir $x_0 \in X$ üçün $f(x_0)\in X$-dir. Ona görə də təklif 2-yə görə (4) tənliyi X çoxluğunda

$$\sin x=x$$

tənliyinə eynigüclüdür. Bu tənliyin X çoxluğuna daxil olan yeganə $x_1=0$ kökü vardır. Deməli, X çoxluğunda ona eynigüclü olan (4) tənliyinin də yeganə x_1 kökü vardır.

Cavab. 0.

Misal 5. MDU, mexanika riyaziyyat fak., 1974. Tənliklər sistemini həll edək:

$$\begin{cases} x^3+2x^2+2x=y, \\ y^3+2y^2+2y=z, \\ z^3+2z^2+2z=x. \end{cases} \tag{5}$$

$f(u)=u^3+2u^2+2u$ funksiyasına baxaq, o, R çoxluğunda təyin olunmuşdur və onun bütün qiymətləri R-ə daxildir. Sistemi $\begin{cases} y=f(x) \\ z=f(y) \\ x=f(z) \end{cases}$ şəklində yaxud əvəzləmə metodunu tətbiq edərək

$$\begin{cases} y=f(x) \\ z=f(f(x)) \\ x=f(f(f(x))) \end{cases} \tag{5′}$$

şəklində yazaq.

$f(u)$ funksiyasının törəməsi $3u^2+4u+2$ ifadəsinə bərabərdir, o, u-nun istənilən qiyməti üçün müsbətdir, ona görə də $f(u)$ funksiyası R çoxluğunda ciddi artıt. Deməli, (5′) sisteminin üçüncü tənliyi

$$x^3+2x^2+2x=x \tag{5″}$$

şəklində olan $f(x)=x$ tənliyinə eynigüclüdür.

(5″) tənliyi yalnız iki $x_1=0$ və $x_2=-1$ köklərinə malikdir. Onda (5) sistemindən onun iki həlli asanlıqla tapılır: $(0;0;0)$ və $(-1;-1;-1)$.

Cavab. $(0;0;0)$; $(-1;-1;-1)$.

Göstərək ki, təklif 1-i tənliyin həllində necə tətbiq etmək olar.

Əgər $f(x)$ funksiyası (A) tənliyinin kökləri axtarılan X çoxluğunda ciddi artan deyilsə, onda (A) tənliyinin həlli üçün təklif 2-ni tətbiq etmək olmaz. Bu halda bəzən təklif 1-dən istifadə etmək olar.

Təklif 1-dən alınır ki, (B) tənliyinin bütün kökləri (A) tənliyinin köklərıdir. Ona görə də (B) tənliyini həll edərək (A) tənliyinin köklərinin bir hissəsini tapmaq olar. Əgər (A) tənliyi cəbridirsə yaxud cəbri tənliyə gətirilə bilirsə, onda onun köklərinin bir hissəsini bilmək cəbri tənliyi çoxhədlilərin hasilinin sifra bərabərliyi şəklində yazmağa imkan verir ki, təbii olaraq, bu da (A) tənliyinin digər köklərini tapmağı asanlaşdırır. Bunun misallar üzərində necə edildiyini göstərək:

Misal 6. Tənliyi həll edək:

$$(x^2-5x+5)^2-5(x^2-5x+5)+5=x \tag{6}$$

$f(x)=x^2-5x+5$ funksiyasına baxaq, onda (6) tənliyi $f(f(x))=x$ şəklində olar. $f(x)$ funksiyası R çoxluğunda təyin edilmişdir və istənilən $x_0\in R$ üçün $f(x_0)\in R$-dir, lakin bu funksiya R çoxluğunda ciddi artan deyildir. Bununla belə təklif 1-ə görə (6) tənliyi $f(x)=x$ tənliyinin, başqa sözlə

$$x^2-5x+5=x \tag{6′}$$

tənliyinin bütün kökləri olan köklərə malikdir.

(6′) tənliyinin $x_1=1$ və $x_2=5$ kimi iki kökü vardır. Deməli, (6) tənliyi də bu köklərə malikdir. Indi (6) tənliyini $P_4(x)=0$ şəklində yazaq, burada $P_4(x)$ – dörd dərəcəli çoxhədlidir.

Bu çoxhədlinin iki x_1 və x_2 köklərinin olduğunu nəzərə alaraq, onu vuruqlarına ayıraq. Bu halda (6) tənliyini

$$(x^2-6x+5)(x^2-4x+1)=0 \qquad (6'')$$

şəklində yazarıq.

$(6'')$ tənliyi və ona eynigüclü olan (6) tənliyi dörd həllə malikdir: $x_1=1$, $x_2=5$, $x_3=2-\sqrt{3}$, $x_4=2+\sqrt{3}$.

Cavab. 1; 5; $2-\sqrt{3}$, $2+\sqrt{3}$.

Misal 7. Tənliyi həll edək:

$$\sqrt{6-2\sqrt{6-2x}}=x \qquad (7)$$

Kvadrat kökün təyin olunmasına əsasən alırıq ki, əgər (7) tənliyinin kökləri varsa, onda onlar $X=[0;3]$ çoxluğuna daxildir. Ona görə də biz (7) tənliyinə X çoxluğunda baxacağıq.

X çoxluğunda $f(x)=\sqrt{6-2x}$ funksiyasına baxaq, onda (7) tənliyi $f(x)=x$ şəklində olur. Aydındır ki, $f(x)$ funksiyası X çoxluğunda təyin olunub və ixtiyari $x_0\in R$ üçün $f(x_0)\in X$ olur, ancaq bu funksiya X çoxluğunda ciddi azalır. Ona görə də (7) tənliyinin həlli üçün təklif 2-ni tətbiq etmək olmaz.

Təklif 1-ə görə $f(x)=x$ tənliyinin, başqa sözlə

$$\sqrt{6-2x}=x \qquad (7')$$

tənliyinin bütün kökləri (7) tənliyinin köklərıdir. $(7')$ tənliyini həll edək. X çoxluğunda o,

$$x^2+2x-6=0$$

tənliyinə eynigüclüdür və bu sonuncunun iki $x_1=-1+\sqrt{7}$ və $x_2=-1-\sqrt{7}$ kökləri vardır. Onlardan yalnız $x_1\in X$-dir, ona görə də təkcə x_1 (7) tənliyinin köküdür. İndi (7) tənliyinin bir kökünü bilərək, bu tənliyi həll edək. (7) tənliyi X çoxluğunda

$$6-x^2=2\sqrt{6-2x} \qquad (7'')$$

tənliyinə eynigüclüdür.

$(7'')$ tənliyinin bütün kökləri $X_1=\left[0;\sqrt{6}\right]$ çoxluğuna daxildir, həmçinin $x_1\in X_1$, $X_1\subset X$ olur. X_1 çoxluğunda $(7'')$ tənliyi

$$x^4-12x^2+8x+12=0 \qquad (7''')$$

tənliyinə eynigüclüdür.

Belə ki, $P_4(x)=x^4-12x^2+8x+12$ çoxhədlisinin bütün əmsalları tam ədəddir və onun $x_1=-1+\sqrt{7}$ kökü vardır, onda bu çoxhədlinin həm də $x_2=-1-\sqrt{7}$ kökü var. Deməli,

$$P_4(x)=(x-x_1)(x-x_2)P_2(x),$$

burada $P_2(x)$ – iki dərəcəli çoxhədlidir. $(x-x_1)(x-x_2)=x^2+2x-6$ olduğundan tapırıq ki, $P_4(x)=(x^2+2x-6)(x^2-2x-2)$. Nəticədə $(7''')$ tənliyi

$$(x^2+2x-6)(x^2-2x-2)=0$$

şəklində yazıla bilər.

İndi bütün kökləri tapmaq olar: $x_1=-1+\sqrt{7}$; $x_2=-1-\sqrt{7}$; $x_3=1+\sqrt{3}$; $x_4=1-\sqrt{3}$. Asanlıqla yoxlamaq olar ki, bu ədədlərdən yalnız $x_1\in X_1$-dır. Bu isə o deməkdir ki, (7) tənliyinin yeganə x_1 kökü var.

Cavab. $-1+\sqrt{7}$.

Qeyd edək ki, (7) tənliyinin həll üçün tətbiq edilən ənənəvi üsul – tənliyin ardıcıl olaraq kvadrata yüksəldilməsi – X_1 çoxluğunda (7) tənliyinə eynigüclü olan (7‴) tənliyinə gətirərdi. Lakin, (7‴) tənliyinin təklif 1-i tətbiq etmədən köklərinin tapılması olduqca çətin məsələdir.

İsbatı demək olar ki, təklif 2-nin isbatı ilə üst-üstə düşən üçüncü təklifi verək.

Təklif 3. Tutaq ki, $f(x)$ funksiyası X_1 çoxluğunda ciddi artır və tutaq ki, X çoxluğu X_1 çoxluğuna aiddir. Tutaq ki, istənilən $x_0 \in X$ üçün $f(x_0) \in X_1$ olur, onda $f(f(x)) = x$ və $f(x) = x$ tənlikləri X çoxluğunda eynigüclüdür.

Misal 8. Tənliyin $X = \left(-\frac{\pi}{4}; \frac{\pi}{4}\right)$ aralığına daxil olan bütün köklərini tapaq:

$$\tan(\tan x) = x \tag{8}$$

X çoxluğunda $f(x) = \tan x$ funksiyasına baxaq, bu çoxluqda $f(x)$ funksiyası ciddi artır, lakin, heç də hər bir $x_0 \in X$ üçün $f(x_0)$ ədədi X çoxluğuna daxildir. Ona görə də (8) tənliyinin həlli üçün təklif 2-ni tətbiq etmək olmaz. Bununla belə, istənilən $x_0 \in X$ üçün $f(x_0) \in (-1;1)$, həmçinin $X \subset (-1;1)$ olur. $f(x)$ funksiyası $X_1 = (-1;1)$ aralığında ciddi artır, ona görə də təklif 3-ə görə (8) tənliyi X çoxluğunda

$$\tan x = x \tag{8′}$$

tənliyinə eynigüclüdür.

Göstərək ki, (8′) tənliyinin X çoxluğuna daxil olan yeganə $x_1 = 0$ həlli var. Aydındır ki, x_1 ədədi (8′) tənliyinin köküdür.

Hər bir $x_0 \in \left(0; \frac{\pi}{4}\right)$ üçün $\tan x_0 > x_0$ bərabərsizliyi doğrudur, buradan da alınır ki, elə bir $x_0 \in \left(0; \frac{\pi}{4}\right)$ ədədi yoxdur ki, onun üçün $\tan x_0 = x_0$ bərabərliyi ödənilsin, başqa sözlə (8′) tənliyininn $\left(0; \frac{\pi}{4}\right)$ intervalında kökü yoxdur. $\tan x$ və x funksiyalarının təkliyinə görə alırıq ki, (8′) tənliyinin $\left(-\frac{\pi}{4}; 0\right)$ intervalında da kökü yoxdur. Deməli, (8′) tənliyi X çoxluğunda, həqiqətən də yeganə $x_1 = 0$ kökünə malikdir.

Cavab. 0.

Qeyd edək ki, təklif 3-ün köməyi ilə $X = \left(-\frac{\pi}{3}; \frac{\pi}{3}\right)$ çoxluğunda (8) tənliyinin kökünü tapmaq olmaz. Doğrudan da, istənilən $x_0 \in \left(-\frac{\pi}{3}; \frac{\pi}{3}\right)$ üçün $-\sqrt{3} < \tan x_0 < \sqrt{3}$ olur, $\tan x$ funksiyası isə $(-\sqrt{3}; \sqrt{3})$ aralığında ciddi artan deyildir (o, hətta bu aralığın $-\frac{\pi}{2}$ və $\frac{\pi}{2}$ nöqtələrində təyin edilməmişdir).

Misal 9. a parametrinin hər bir mənfi olmayan qiymətində

$$\sqrt{a + \sqrt{a + \sin x}} = \sin x \tag{9}$$

tənliyini həll edək.

$t = \sin x$ işarə edərək, (9) tənliyini

$$\sqrt{a + \sqrt{a + t}} = t \tag{9′}$$

şəklində yazaq.

İndi (9) tənliyinin həlli üçün (9′) tənliyinin $X=[0;1]$ aralığına daxil olan həllini tapmaq lazımdır. $f(t)=\sqrt{a+t}$ funksiyasına baxaq. Bu funksiya $X_1=[-a;+\infty)$ aralığında ciddi artır. Belə ki, $a\geq 0$ olduğundan $X\subset X_1$ olur. Bundan əlavə, hər bir $t_0\in X$ üçün $f(t_0)\in X_2=\left[\sqrt{a};\sqrt{a+1}\right]$, həmçinin $X_2\subset X_1$ olur.

(9) tənliyi $f(f(t))=t$ şəklindədir. Təklif 3-ə görə o, X aralığında $f(t)=t$ tənliyinə, yəni

$$\sqrt{a+t}=t \qquad (9'')$$

tənliyinə eynigüclüdür. X aralığında (9″) tənliyi

$$t^2-t-a=0$$

tənliyinə eynigüclüdür və onun iki $t_1=\dfrac{1+\sqrt{1+4a}}{2}$ və $t_2=\dfrac{1-\sqrt{1+4a}}{2}$ kökləri (istənilən $a\geq 0$ üçün) vardır.

$a=0$ olduqda $t_1=1$ və $t_2=0$ alırıq, həm də $t_1\in X$ və $t_2\in X$ olur. Nəticədə $a=0$ olduqda (9″) tənliyi, deməli (9′) tənliyi X aralığında $t_1=1$ və $t_2=0$ köklərinə malikdir.

İstənilən $a>0$ üçün isə $t_1>1$ və $t_2<0$ alırıq, yəni t_1 və t_2 kökləri X aralığına daxil deyildir. Bu o deməkdir ki, $a>0$ isə, (9″) tənliyi, deməli (9′) tənliyi X aralığında köklərə malik deyildir.

(9) tənliyinə qayıdaraq alırıq ki, istənilən $a>0$ üçün onun həlli yoxdur, $a=0$ olduqda isə onun bütün həlləri iki $\sin x=0$ və $\sin x=1$ tənliklərinin bütün həllərinin birləşməsindən ibarət olur. Deməli, $a=0$ olduqda (9) tənliyinin iki seriya $x_k=\pi k, k\in Z$ və $x_n=\dfrac{\pi}{2}+2\pi n,\ n\in Z$ həlləri vardır.

Cavab. $a>0$ üçün həll yoxdur, $a=0$ üçün isə $\pi k, k\in Z$; $\dfrac{\pi}{2}+2\pi n,\ n\in Z$.

.

Ədəbiyyat

1. Чирский, В.Г. Уравнения элементарной математики. Методи решения. В.Г.Чирский, Е.Т.Шавгулидзе – М.: Наука. ГРФМЛ, – 1992.
2. Козко, А.И. Задачи с параметрами. / А.И.Козко, В.Г.Чирский – М.: МЦНМО, – 2007.
3. Канель-Белов, А.Я. Как решают нестандартные задачи. А.Я.Канель-Белов, А.К.Ковальджи – М.: МЦНМО, – 2014.
4. Иванов, О.А. Элементарная математика для школьников, студентов и преподавателей. О.А.Иванов – М.: МЦНМО, – 2009.

Məqalə riyaziyyat üzrə elmlər doktoru, professor Bilal Bilalov tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 05 fevral 2022-ci il
Son daxilolma tarixi:19 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 378.147+004

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 166-170
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 166-170
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 166-170

TƏHSİLİN İNFORMASİYALAŞDIRILMASI VƏ RƏQƏMSALLAŞDIRILMASINA DAİR

Müəllif:

Rumiyyə Məmmədova
Naxçıvan Dövlət Universiteti
E-mail:
mamdova33r@gmail.com

Açar sözlər:
təhsil, informatika, İKT, internet, kompyuter

Annotasiya.Günümüzdə informasiya kommunikasiya texnologiyalarından istifadə geniş yayılması təhsil cəmiyyətindən də yan keçməyərək onun inkişafına lazımi töhfə verməkdədir. Keçmişlə müqayisədə informasiya kommunikasiya texnologiyaları sahəsindən əldə olunan uğurların, yeniliklərin elm, təhsil sahəsində tətbiq olunması bu sahənin inkişafına səbəb olan əsas amillərdəndir. Məqalədə Azərbaycanda təhsil sisteminin Avropa standartlarına uyğun şəkildə qurulması, bu istiqamətdə istər ibtidai təhsil müəssisələrində, istərsə də ali təhsil ocaqlarında bu istiqamətdə yaradılan şərait, hazırkı dövrdə təhsilin tələbləri, qarşıya qoyulan məqsədlər, eləcə də müəyyən dövr ərzində təhsil cəmiyyətində müsbət mənada baş verən dəyişikliklər, informasiyanın təhsildə səbəb olduğu yeniliklər barədə izahlı qeydlər yer tutur. Bundan başqa, tədrisin yeni metodu olan distant təhsil və ölkəmizdə İKT sahəsində görülən işlər, aparılan islahatlar barədə məlumat verilir. Distant təhsilin üstünlükləri, tədrisi labüd olan məsələlər nəzərdən keçirilir.

ON INFORMATION AND DIGITALIZATION OF EDUCATION

Author:

Rumiya Mammadova
Nakhchivan State University
E-mail:
mamdova33r@gmail.com

Key word:
education, informatics, ICT, internet, computer

Absract. Today, the widespread use of information and communication technologies does not bypass the educational society and makes a necessary contribution to its development. Compared to the past, the application of successes and innovations in the field of information and communication technologies in the field of science and education is one of the main factors that lead to the development of this field. In the article, the establishment of the educational system in Azerbaijan in accordance with European standards, the conditions created in this direction in both primary educational institutions and higher education institutions, the requirements of education in the current period, the goals set, as well as the positive changes in the educational society during a certain period, information there are explanatory notes about the innovations caused in education. In addition, distance education, which is a new method of teaching, and the work done in the field of ICT in our country, the reforms carried out are reported. The advantages of distance education, the issues that must be taught are considered.

К ИНФОРМАТИЗАЦИИ И ЦИФРОВИЗАЦИИ ОБРАЗОВАНИЯ

Автор:

Румия Мамедова
Нахчыванский государственный университет
E-mail:
mamdova33r@gmail.com

Ключевые слова:
образование, информатизация, цифровизация, ИКТ, интернет, компьютер

Аннотация. В настоящее время широкое распространение использования информационно-коммуникационных технологий не обходится без образовательного сообщества, которое вносит необходимый вклад в его развитие. Применение достижений, инноваций в области информационно-коммуникационных технологий по сравнению с прошлым в области науки, образования является одним из основных факторов, способствующих развитию этой области. В статье содержатся заметки о построении системы образования в Азербайджане в соответствии с европейскими стандартами, об условиях, созданных в этом направлении как в общеобразовательных учебных заведениях, так и в высших учебных заведениях, о требованиях к образованию в текущий период, о целях, а также об изменениях, произошедших в образовательном обществе в положительном русле за определенный период, об инновациях, вызванных информацией в образовании. Кроме того, предоставляется информация о новом методе обучения - дистанционном обучении, о работе, проводимой в нашей стране в области ИКТ, о проводимых реформах. Рассматриваются преимущества дистанционного обучения, вопросы его преподавания.

Artıq XXI əsrdə yaşayırıq. Dövrümüzün tələbləri olduqca dəyişib və insanlar bu tələblər əsasında yaşayır. İnformasiya və kommunikasiya texnologiyaları (İKT) müəyyən məsələlərdə olduqca köməyimizə çatır, işimizi asanlaşdırır. Arayıb-axtardığımız bir çox məlumat bircə toxunuşla bizim ixtiyarımızda olur ki, bununla da ilk olaraq vaxta qənaət etmiş oluruq. Təsadüfi deyil ki, yaşadığımız əsri "Kompüter əsri" adlandırırlar. Ümumiyyətlə, internet resurslarından qədərində və düzgün istifadə edildiyi təqdirdə, o bizim əsl köməkçimizə çevrilir.

Yuxarıda da qeyd edildiyi kimi, müasir dövrün tələbləri fərqlidir. Yaşadığımız dövr inkişaf, irəliləyiş, dəyişiklik, rəqabət tələb edir. Bu rəqabətə tab gətirmək üçün isə müxtəlif sahələrdə inkişafa nail olmaq lazımdır. Təhsil, innovasiya iqtisadiyyatı, informasiya texnologiyaları isə bu istiqamətdə inkişafı mütləq şəkildə təmin olunmalı ən önəmli sahələrdəndir.

Bir çox məsələlərdə digər ölkələrlə ilə sıx əlaqədə olan, əhalinin rifahına, gəncliyin inkişafına aparan müsbət amilləri örnək götürərək həyata keçirən ölkəmizdə bu məsələ də diqqətdən kənar qalmayıb. Hazırda ölkəmizdə kompüter texnologiyasından təhsil sahəsində də geniş istifadə olunur. Elə bu istiqamətdə 2003-cü ildə "Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya" qəbul edilib.

Azərbaycanda təhsilin modernləşdirilməsi, təhsildə innovasiya texnologiyalarının tətbiqi istiqamətində bu günə qədər müxtəlif işlər görülüb. Bu işlərin nəticəsidir ki, son illərdə ölkəmizdə texnologiya sahəsində müxtəlif uğurlara imza atılıb.

Texnologiya sahəsində əldə olunan uğurlar təhsil tətbiqlərinə həmçinin yeni imkanlar da təqdim edir.

Bəzi şeylər var ki, onların təməli müəyyənedilmiş bir yerdən başlayaraq atılmalıdır. Eynilə bir insanın İKT ilə yaxından tanışlığı kimi. Məsələnin bu yerində orta məktəblərdə uşaqlara ilkin İKT biliyinin aşılanmasından söhbət açmaq olar. Belə ki, gələcəkdə İKT biliyinə mükəmməl yiyələnməyin ilkin yolu orta məktəblərdən keçir.

Azərbaycanda da məktəblərin İnformasiya Kommunikasiya Texnologiyaları ilə təmin olunması son illərdə dövlətin diqqət mərkəzindədir. Bu fikri təsdiqləyən digər bir addım isə 2005-ci ilin avqustunda qəbul olunmuş "Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramıdır"dır. Sözü gedən proqramın hədəfi orta ümumtəhsil ocaqlarının kompüterlərlə təmin olunmasıdır. Amma, təkcə kompüterləşdirilmə ilə bu işləri bitirmək olmaz. Çünki informasiya cəmiyyəti təkcə kompüterləşdirilmə ilə yox, eyni zamanda bu kompüterlərin müasir bir şəbəkə infrastrukturunda qoşulmasını təmin etməkdir. Bəs bu özündə nəyi ehtiva edirdi? Məktəblərin kompüter avadanlıqları ilə təchiz olunması, həmin avadanlıqların internetlə təmin edilməsi, dərslərə uyğun elektron dərsliklərin hazırlanması, dərsi tədris edən müəllimlərə İKT sahəsində müxtəlif təlimlərin keçirilməsi məsələləri bu proqramda öz əgsini tapırdı. Hazırda isə ölkəmizdəki demək olar ki, bütün təhsil müəssisələrində informasiya texnologiyalarından geniş istifadə olunur. Digər dərslərlə müqayisədə kompüterlə aparılan dərslər uşaqlarda xüsusi maraq doğurur. Kompüterin zəngin imkanlarından istifadə olunaraq tədris edilən dərslər daha yaddaqalan olur. Uşaqların idrak aktivliyinə, dünyagörüşünə, zehni qabiliyyətinə, potensialını ortaya çıxarmağa, düşüncə qabiliyyətinin inkişafına dəstək olan bu amillər onların gələcəkdə intellektual yarışlarda, olimpiadalarda yüksək nəticələr əldə etmələrinə bir növ təkan verir. Dərsin əyaniliyini təmin edən növbəti amil isə tədris prosesində interaktiv lövhədən istifadə olunmasıdır. Bu amil dərsin əsas prinsiplərindən biridir desək, yanılmarıq. İnteraktiv lövhə özündə aparılan hər bir əməliyyatı video formatında yaddaşda saxlaya bilmək xüsusiyyətinə sahibdir. Üstün cəhət isə həmin əməliyyatı istədiyimiz qədər təkrar şəkildə izləyə bilmək imkanı yaradır. Əslində bu xüsusiyyət olduqca əhəmiyyətlidir. Məsələn, deyək ki, hansısa bir şagird müxtəlif səbəbdən dərsdə iştirak edə bilməyib və bu səbəbdən də normal olaraq mövzu barədə məlumatsızdır. Belə halda o, iştirak edə bilmədiyi dərsin video formatını izləyərək mövzu barədə müəyyən məlumatları əldə edə bilər. Bu, həm də dərsdə iştirak etsə belə, mövzunu tam şəkildə qavraya bilməyən şagirdlərə də şamil edilə bilər. Belə halda həmin şagirdlər dərsi video format şəklində yenidən izləyə, diqqətlərindən yayınan məqamı dəfələrlə təkrar şəkildə analiz edə bilərlər.

Ölkəmizdə fəaliyyət göstərən ümumtəhsil müəssisələrinin əksəriyyəti internetə Azərbaycan Təhsil Şəbəkəsi vasitəsilə qoşulub. Tədris mate-

riallarının əksəriyyəti, müxtəlif dərsliklər, video dərslərin çox hissəsi daxil olmaqla, online şəkildə mövcuddur.

Ali təhsil seqmentində isə bağlantılar yüksəkdir. Ölkənin əksər universitetləri internetə fiber-optik sistemlə qoşulub. Əvvəllər internet tələbənin hansısa mövzu barədə məlumat axtardığı zaman köməyinə çatırdısa, hazırda bir çox dərslər məhz internet vasitəsilə kompüterlə idarə olunur. Təbii ki, ötən ildə üzləşdiyimiz çətinliklər (Covid 19 pandemiyası ilə əlaqədar) buna daha da geniş şərait yaratdı. Nəticədə əyani şəkildə iştirak edə bilmədiyimiz üçün dərsləri smartfonlara, kompüterlərə daşıdıq.

Ali təhsil müəssisələrinə nəzər salındıqda isə Naxçıvan Dövlət Universitetində də informasiya texnologiyalarından yüksək səviyyədə istifadə olunur. Burada milli və beynəlxalq təhsil sistemində baş verən dəyişikliklərə adekvat reaksiya göstərilir və yeniliklərin tətbiqinə yüksək həssaslıqla yanaşılır. "Nuhçıxan" informasiya agentliyində qeyd olunub ki, - "Universitetdə "Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsinin 2012-ci ildən hazırlıqlarına başlanılıb. Sözügedən layihə çərçivəsində 2015-ci ildən etibarən isə İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi istifadəyə verilib. Bundan başqa, tədris prosesində elektron vasitələrdən, informasiya texnologiyalarından istifadə edilir. Həmçinin universitetdə distant təhsil həyata keçirilir, elektron test imtahanlarında müəyyən dəyişikliklər edilir ki, bütün bunlar da universitetin sözügedən sahədə ciddi inkişafının göstəricisidir. Azərbaycan Ali təhsil məkanında büdcəsinə və layihəsinin genişliyinə görə ən irihəcmli layihələrdən biri kimi "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsini göstərmək olar. Bu layihənin icrası elektron təhsil şəbəkəsi üçün xüsusi əhəmiyyətli hadisə hesab olunur.

Son illərdə ali məktəb texnopark vəhdətinin yaradılması da diqqət mərkəzində saxlanılır. Buna səbəb informasiya cəmiyyətinin biliklərə əsaslanan iqtisadiyyatın qurulmasında biliklərin mərkəzinə çevrilən universitetlərin mühüm rol oynamasıdır. Sözügedən texnoparklar universitetlərlə, onların elmi tədqiqat mərkəzləri ilə əlaqəli olurlar. Onların yaradılmasında məqsəd isə universitetlərin tərkibində elmi nəticələr və yüksək texnologiyalara əsaslanan müəssisələrin yaranması və onların inkişafına təşəbbüs göstərməkdir. Universitet isə bu istiqamətdə texnoparkda fəaliyyət göstərən müəssisələrə dəstək verir. Qısacası, texnoparklar yeni ideyaların yaranması, onların formalaşması, tətbiq olunması və inkişaf etdirilməsi istiqamətində müəyyən şəraitin yaradıldığı innovativ fəaliyyətləri təmin edən məkandır.

Heç şübhəsiz ki, adı çəkilən bu məkanların irəliləyişinə şərait yaradan, fəaliyyətlərindəki inkişafa təkan verən bir sıra amillər də mövcuddur. Bu istiqamətdə verilən qərarlar, imzalanan Sərəncamlar və sair bunun bariz nümunəsidir. Bu barədə "Nuhçıxan" İnformasiya Agentliyində məlumat verilir: Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il dekabrın 14-də imzaladığı "Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında" Sərəncam bu sahədə irəliyə atılmış addımlardan biridir. Sərəncama əsasən isə 2021-ci il iyun ayının 16-da universitetdə Texnologiyalar Parkının təməlatma mərasimi keçirilib.

Layihə Naxçıvan Dövlət Universitetinin dövrümüzün tələblərinə uyğun fəaliyyət göstərməsinə, dünya universitetləri sırasında özünəlayiq yer tutmasına, daha böyük uğurlara nail olmasına şərait yaradacaqdır. Bundan başqa, həmçinin universitetin imzası olan yeni texnologiyaların işlənməsi, həyata keçirilməsi və müxtəlif kütlə qarşısına çıxarılaraq tanınması yolunda bir iz olacaqdır.

Naxçıvan Dövlət Universitetin təhsil sistemini dünya ölkələri standartları və Azərbaycan təhsil qanunvericiliyinə uyğun qurub. Universitet tarixində görülən işlər baxımından 2015-2016-cı tədris ili daha yaddaqalan olub. Belə ki, qeyd olunan tədris ilində Cənubi Koreyanın KOICA təşkilatı ilə birlikdə Naxçıvan Dövlət Universiteti üçün "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması" layihəsinin açılış mərasimi keçirilib. Eyni zamanda sözügedən tədris ilində burada Elektron Universitet də fəaliyyətə başlayıb. Layihə Azərbaycan ali təhsil məkanında büdcəsinə və layihəsinin genişliyinə görə ən irihəcmli və əhəmiyyətli layihələrdən biri hesab olunur. Elektron Universitet Elektron təhsil, Onlayn Sənəd dövriyyəsi, Akademik İdarəetmə və s. kimi təhsilinin idarəedilməsi modellərini özündə birləşdirir. Bununla da kifayətlənməyərək, təhsilin elektron vasitələrlə həyata keçirilməsi ilə yanaşı elektron imtahanları

da əhatə edir.

Mövzular bir-biri ilə əlaqəli olduğu üçün gəlib dayanırıq distant təhsil formasında. Bu təhsil forması ənənəvi təhsil formasından bir qədər fərqli xarakter və xüsusiyyətlər daşıyır. O, hazırda bir çox dünya ölkələrində əsas təhsil formasına çevrilib. Bundan başqa, sözügedən təhsil forması təhsil və informasiya mədəniyyəti sahəsində də köklü dəyişikliklərə səbəb olub desək, yanılmarıq.

Bəs nədir distant təhsil? Distant təhsil tədris prosesinin internet imkanları vasitəsilə həyata keçirilən, qısacası, online formasıdır. Hazırda dünyada tələbələrə bu təhsil növünü təklif edən universitetlərin sayı-hesabı yoxdur. Belə universitetlərin çoxu "açıq universitet" adı altında fəaliyyət göstərir. Bu təhsil sistemində ənənəvi təhsildə olduğu kimi, dərsin icra olunması üçün tələbə və müəllimin eyni məkanda, yaxud da eyni auditoriyada olması heç də gərəkli deyil. Dərslər üz-üzə deyil, internet üzərindən online şəkildə həyata keçirilir. Əslində distant təhsil təhsilə əlçatanlığın, təhsilin mümkünlüyünün də simvoludur. Bu sistemlə istədiyi təhsili almaq üçün lazımi yerə getmək imkanı olmayan, yaxud da zaman olaraq bunu uyğunlaşdıra biləyən insanlar üçün bütün çətinliklər aradan qaldırılır. Beləliklə, internet imkanlarının da köməyi ilə istədiyimiz istiqamətdə təhsilə yiyələnmək üçün yaşadığımız yerin heç bir önəmi qalmır. Digər bir məqam isə yaş meyarıdır. İnsan həyatının bütün yaş dövrləri müxtəlif mərhələlərə bölünsə də, bəzən bu mərhələlərdə yerdəyişmə, yaxud da gecikmə halları ilə də qarşılaşa bilirik. Belə hallarda təhsil almaq istədiyimiz zaman bir də baxırıq ki, artıq yaşımız buna imkan vermir. Əslində məsələ yaşda deyil, həmin yaşda sahib olduğumuz məsuliyyətlər və təhsilin arxasınca gedə bilmək üçün şəraitin olmamasıdır. Və yaxud da təhsilli şəxsik və cəmiyyətdə özümüzə müəyyən yer tutmuşuq. Buna baxmayaraq isə, daimi olaraq biliyimizi artırmaq, öz sahəmizdə bizi irəli aparacaq faydalı məlumatlar əldə etmək istəyirik, lakin iş rejimimiz buna imkan vermir. Belə məqamda yenidən distant təhsil təhsil almaq istəyən şəxsin köməyinə çatır. Distant təhsilin məqsədi də məhz budur: əlçatanlıq. Beynəlxalq statistika da bunu təsdiq edir. Həmin statistikaya görə, distant təhsil alan şəxslərin əksəriyyətiniin yaşı 25-i ötmüşdür. Belə olduqda bu təhsil forması əksər insan üçün olduqca əlverişlidir. Heç şübhəsiz ki, evdən idarə oluna bilən bu təhsil forması fəaliyyətə başlayandan sonra təhsilalanların da sayında artım müşahidə olunub.

Xüsusilə də pandemiya ilə üz-üzə qaldığımız zamanda tədrisin bu növündən çox geniş istifadə olundu. Fəaliyyətini əyani şəkildə dayandıran təhsil ocaqları, yolların qapanması nəticəsində təhsil müəssisəsindən uzaqda qalan təhsilalanlar distant təhsilin inkişafına daha da qüvvə verən amillərdən oldu. Düzdür, bəziləri bu təhsil növünün effektindən razı qalmasa da bu, subyektiv fikir olaraq qalır. Əslində bu fikri bir xalq olaraq əyani təhsilə öyrəncəkli olmağımız da doğura bilər, lakin distant təhsillə tələblərə cavab verəcək səviyyədə irəliləyən təhsilalanlar kifayət qədərdir. Əslində Distant təhsil bir növ özündə qiyabi təhsili əks etdirən forma kimi başa düşülsə də, əslində bu düzgün bənzətmə deyil. O, qiyabi təhsil formasından xeyli fərqlənir. Məsələn qiyabi təhsil alan şəxslər ildə 1-2 dəfə də olsa, təhsil aldığı müəssisəyə getməli, müəyyən zaman kəsiyində burda tədris olunan dərslərdə iştirak etməli, mühazirələrə qulaq asmalı və onlar üçün müəyyən olunmuş tapşırıqları yerinə yetirməlidir. Bir sözlə, bu sadalananları etmək məcburidir. Distant təhsil, qiyabi təhsilin geniş formasıdır: Yuxarıda da qeyd edildiyi kimi, distant təhsili qiyabi təhsilə bənzədən, hətta eyni təhsil forması hesab edənlər də var. Lakin, qiyabi təhsildə mövcud olan məcburiyyətlər distant təhsildə öz əksini tapmır. Digər bir məsələ isə qiyabi təhsil əyani şəkildə tədris olunur, lakin distant təhsil internet üzərindən, yəni online şəkildə həyata keçirilir. Yəni, qiyabi təhsildə təhsilalan şəxs mütləq ki təhsil aldığı müəssisəyə gələrək dərsdə iştirak etməlidirsə, distant təhsildə bu mühüm məsələ deyil. Həmin şəxslər istədikləri yerdən dərsə qoşula bilərlər. Təbii ki, bunu informasiya texnologiyalarının təhsil sahəsində yaratdığı geniş imkanlardan biri kimi də qiymətləndirmək olar.

Yuxarıda da qeyd olunduğu kimi, Naxçıvan Dövlət Universitetində də distant təhsil həyata keçirilir. Universitetin Distant Təhsil Mərkəzi hər bir şəxsin distant təhsil alması üçün zəruri imkanları təmin edir. Mərkəzdə bakalavr, magistratura pillələrində təhsil almaqla yanaşı, ixtisasartırma, əlavə təhsil, onlayn kurslar üzrə də tədris proqramları mövcuddur.

Ölkəmizdə müxtəlif illərdə İKT- nin inkişafı yönündə müxtəlif addımlar atılıb. "Bakı-xəbər" elektron saytının verdiyi məlumata görə - "2010-cu ilin Təhsil Nazirliyi tərəfindən "Təhsildə İKT

ili” elan olunmasını isə Azərbaycanda bu sahədə görülən işlərin zirvəsi hesab etmək olar·”Təhsildə İKT·ili” çərçivəsində·elektron·resursların yaradılması barədə·yeni·layihələr və tədbirlər həyata·keçirilib”.

Ölkənin gələcəyi onun gəncliyinin əlindədir. Gənclik isə dövrün tələblərinə uyğun yetişdirilməli, dünya miqyasında istər əməkdaşlıq, istərsə də rəqabətyönümlü çıxış üçün hazırlanmalıdır. İKT-nin sadə bir vətəndaşdan tutmuş, müəyyən bir statusda qərarlaşan vətəndaşa kimi hamının həyatında tutduğu yer məlumdur. Artıq birinci sinifdə təhsil alan şagirdlərə belə ilkin addım olaraq informatika fənni tədris olunur. Bu isə o deməkdir ki, ölkədə məsələ ilə bağlı görülən işlər, tədbirlər öz müsbət təsirini göstərir.

Ədəbiyyat

1. http://serqqapisi.az/index.php/humanitar/elm-v-t-hsil/31475-onlayn-konfrasans-kedzhirilib.html
2. https://wwHYPERLINK “http://www.celt.az/informasiya-texnologiyalarinin-t%C9%99hsild%C9%99-rolu/”wHYPERLINK “http://www.celt.az/informasiya-texnologiyalarinin-t%C9%99hsild%C9%99-rolu/”.celt.az/informasiya-texnologiyalarinin-t%C9%99hsild%C9%99-rolu/
3. https://nuhcixan.az/news/elm-tehsil/48604-tehsilde-reqemsallasdirma-elektron-tehsil-ve-informasiya-cemiyyeti-movzusunda-onlayn- respublika-elmi-konfransi-kecirilib
4. http://wwHYPERLINK “http://www.anl.az/down/meqale/baki_xeber/2014/mart/357005.htm”wHYPERLINK “http://www.anl.az/down/meqale/baki_xeber/2014/mart/357005.htm”.anl.az/down/meqale/baki_xeber/2014/mart/357005.htm
5. https://kayzen.az/ blog/informatika/24601/elektron -t%C9%99hsil.html
6. https://wwHYPERLINK “http://www.arti.edu.az/az/newsd/525-azarbaycan-respublikasinin-tahsil-sisteminda-elektron-tahsil-tacrubasinin-tasviqi-layihasi”wHYPERLINK “http://www.arti.edu.az/az/newsd/525-azarbaycan-respublikasinin-tahsil-sisteminda-elektron-tahsil-tacrubasinin-tasviqi-layihasi”.arti.edu.az/az/newsd/525-azarbaycan-respublikasinin-tahsHYPERLINK “http://www.arti.edu.az/az/newsd/525-azarbaycan-respublikasinin-tahsil-sisteminda-elektron-tahsil-tacrubasinin-tasviqi-layihasi”il-sisteminda-elektron-tahsil-tacrubasinin-tasviqi-layihasi

Məqalə riyaziyyat üzrə elmlər doktoru, professor Soltan Əliyev tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 02 fevral 2022-ci il
Son daxilolma tarixi:18 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 634.11

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 171-175
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 171-175
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с.171-175

ORDUBAD RAYONU ƏRAZİSİNDƏ AŞKAR EDİLMİŞ HEYVA FORMALARININ TƏDQİQİ VƏ ONLARIN POMOLOJİ XÜSUSİYYƏTLƏRİNİN ÖYRƏNİLMƏSİ

Müəllif:

Loğman Bayramov
AMEA Naxçıvan Bölməsi
Aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent

E-mail:
bayramov-logman@mail.ru

Açar sözlər:
Fenoloji müşahidə, seleksiya, pomologiya, kolleksiya, aqrobioloji,

Annotasiya. Məqalədə Ordubad rayonu ərazisində aşkar edilmiş heyva formalarının onların pomoloji xüsusiyyətləri verilmişdir. Formaların yayıldığı ərazilər öyrənilmiş, onların ad və sinonimləri yayıldığı kəndin adı ilə şərti olaraq adlandırılmışdır. İlk dəfə olaraq Ordubad rayonu ərazisində heyvanın 3 formasının becərildiyi aşkar edilərək onların yetişmə müddətləri müəyyənləşdirilmişdir. Aşkar edilmiş formalar üzərində fenoloji müşahidələr aparılmışdır. Aşkar edilmiş heyva formalarının yayıldığı ərazilərdən asılı olaraq aprel ayının sonlarından may ayının sonuna kimi çiçəkləməsi müşahidə edildi. Heyva formalarının inkişafa başlamasından mütəmadi olaraq onların zoğlarının inkişaf dinamikası və meyvələrin inkişaf dinamikası izlənilmişdir. Perspektivli, məhsuldar formalardan calaq materialı götürülmüş yayıldığı ərazidə və İnstitutumuzun təcrübə sahəsində calaq edilmişdir. Perspektivli formaların pomoloji xüsusiyyətləri öyrənilmişdir. Burada hər bir formanın ayrı ayrılıqda məhsuldarlığı, bir meyvənin orta kütləsi, meyvənin iriliyi, dadı, dequstasiya qiymətləri oyrənilmiş və məqalədə öz əksini tapmışdır. Ordubad rayonu ərazisində aşkar edilmiş heyva formaları Sabirkənd-2, Vənənd -1 və Əndəmic-2 formalarıdır. Vənənd-1 və Əndəmic-2 ən perspektivli və məhsuldardır.

Author:

Logman Bayramov
Nakhchivan Branch of ANAS
Doctor of philosophy inagrari an sciences, associate professor

E-mail:
bayramov-logman@mail.ru

Key word:
Phenological observation, selection, pomology, collection, agrobiology

STUDY OF QUİNCE FORMS IN THE TERRITORY OF ORDUBAD DISTRICT AND THEIR POMOLOGICAL CHARACTERISTICS

Abstract: The article gives their pomological features of quince forms found in Ordubad region. The areas where the forms are spread were studied, and their names and synonyms were conventionally named after the village where they were spread. For the first time in the territory of Ordubad region, 3 forms of quince were found to be cultivated and their maturation periods were determined. Phenological observations were made on the detected forms. Flowering was observed from late April to late May on depending the areas where the quince forms were found. Since the beginning of the development of quince forms, the dynamics of development of their shoots and the development of fruits have been constantly followed. Grafting material was taken from productive forms and grafted in the area of its distribution and in the field of practice of our Institute. Pomological features of perspective forms were studied. Here, the productivity of each form, the average weight of a fruit, the size of the fruit, the taste, the tasting prices are studied and reflected in the article. Quince forms found in Ordubad region are Sabirkend-2, Vanand-1 and Endemic-2. Vanand-1 and Endemic-2 are the most promising and productive.

Автор:

Логман Байрамов
Нахчыванское отделение НАНА
Доктор философии по аграрным наукам, доцент

E-mail:
bayramov-logman@mail.ru

Ключевые слова:
фенологическое наблюдение, селекция, помология, сбор, агробиологическая

ИЗУЧЕНИЕ ФОРМ АЙВЫ, ВЫЯВЛЕННЫХ НА ТЕРРИТОРИИ ОРДУБАДСКОГО РАЙОНА, И ИЗУЧЕНИЕ ИХ ПОМОЛОГИЧЕСКИХ ХАРАКТЕРИСТИК

Аннотация: В статье приведены помологические особенности форм айвы, произрастающих в Ордубадском районе. Изучены ареалы распространения форм, условно названы их названия и синонимы по населенному пункту, где они распространены. Впервые на территории Ордубадского района выявлено культивирование 3 форм айвы и определены сроки их созревания. За выявленными формами проведены фенологические наблюдения. Цветение наблюдалось с конца апреля до конца мая в зависимости от ареалов распространения выявленных форм айвы. С начала развития форм айвы постоянно отслеживали динамику развития их побегов и динамику развития плодов. Прививочный материал был взят от перспективных, продуктивных форм и привит в ареале его распространения и на опытном поле нашего института. Изучены помологические особенности перспективных форм. Здесь изучаются и отражаются в статье урожайность каждой формы, средний вес плода, величина плода, вкусовые качества, дегустационные цены. Формы айвы, встречающиеся в Ордубадском районе, - это Сабиркенд-2, Вананд-1 и Эндемик-2. Наиболее перспективными и продуктивными являются Вананд-1 и Эндемик-2.

Naxçıvan Muxtar Respublikasının torpaq-iqlim şəraiti meyvə bitkilərinin böyüməsi və inkişafı üçün olduqca əlverişlidir. Həmçinin Ordubad rayonu ərazisi ta qədim dövrlərdən müxtəlif meyvə bitkilərinin becərildiyi meyvəçilik mərkəzlərindən biridir. Naxçıvan Muxtar Respublikasının iqlimi sərt kontinental olmasına baxmayaraq meyvə bitkilərinin becərilməsi üçün çox əlverişlidir. Bununla yanaşı qışda havaların istiləşməsi və yazın əvvəllərində kəskin soyumasıda bu region üçün xarakterik xüsusiyyətlərdəndir. İqlimin qeyri əlverişli olmasına baxmayaraq Naxçıvan Muxtar Respublikası meyvə sortlarının zəngin genofonduna malikdir. Bu genofonda daxil olan tumlu meyvələr içərisində heyva alma və armuddan sonra üçüncü yerdə duraraq mövcud tumlu meyvə bağının 15-20 %-ni təşkil edir [1, s. 15-18; 2, s. 203-207].

Heyva bitkisi gülçiçəklilər (Rosaceae Jus) fəsiləsinə və (Maloideae web) yarım fəsiləsinə mənsub olan (Cydonia L.) cinsinə aiddir (2n=34). Monofiletik mənşəli bitkidir, yalnız bir növü məlumdur adi heyva (C.oblonga L.). Bütün mədəni heyva sortu bu növdən əmələ gəlmişdir. Orta boylu (5 m), geniş çətirli kol tipli ağacdır. Gövdəsi bozumtul qara rəngli olub, yaşlandıqca qabığı parça-parça tökülür. Tumurcuqları və zoğları xırda tükcüklərlə örtülüdür. Çiçəkləri iri tək-tək yerləşən, açıq-çəhrayı rənglidir. Çiçəkləri zoğ üzərində əmələ gəlir. Heyvanın tez yetişən və gec yetişən sortları vardır. Tez yetişən sortlar oktyabrın sonu yetişir, gec yetişən sortlar isə hava şəraitindən asılı olaraq, noyabrın sonu dekabrın əvvəlləri dərilir. Heyva bitkisi 50-60 il yaşayır, hər bir ağac orta hesabla 100-220 kq-a qədər məhsul verir. Heyva bitkisi demək olar ki, muxtar respublikanın bütün rayon və kəndlərində becərilir [3, s.64-69; 4, s. 3-7].

İşin məqsədi: Yerinə yetirilən elmi-tədqiqat işində əsas məqsədimiz Ordubad rayonu ərazisində aşkar edilmiş heyva formalarını tədqiq etmək, onların yayılma zonalarını müəyyənləşdirmək, ad və sinonimlərini dəqiqləşdirmək, hansı sortotipə mənsub olduğunu müəyyənləşdirmək, torpaq-iqlim şəraitinə uyğunlaşmış məhsuldar, keyfiyyətli, xəstəlik və zərərvericilərə davamlı olan formaların seçilməsi və fermer təsərüfatlarına tövsiyə edilməsi olmuşdur.

Material və metodika: Tədqiqatın əsas materialı Ordubad rayonu ərazisində aşkar edilmiş formalar götürülmüş və onlar üzərində fenoloji müşahidələr aparmaqla, aqro-bioloji xüsusiyyətləri öyrənilmişdir. Tədqiqat işinin yerinə yetirilməsində meyvəçilikdə qəbul olunmuş, Z.M. Həsənov "Meyvəçilik laborator praktikum" [5 s. 80-101]; İ.V.Miçurin adına ÜİETİ-nun metodikası [6, s. 93-124]; (6); «Программа и методика интродукчии и сортоизучения плодовых культур» [7, c. 60-62] və s. proqram və metodikalardan istifadə edilmişdir.

Eksperimental hissə: Apardığımız tədqiqatlar nəticəsində Naxçıvan MR-nın Ordubad rayonu ərazisində aşkar edilmiş heyva formalarının aqrobioloji xüsusiyyətləri öyrənilmiş perspektivli formalar seçilib artırılmışdır ki, gələcəkdə seleksiya işlərinin aparılmasında bu formalardan başlanğıc valideyn cütləri kimi istifadə ediləcəkdir. Seçilmiş formalar seleksiya baxımından qiymətlidirlər.

Azərbaycan Respublikasının əsas meyvəçilik bölgələrindən biri sayılan Naxçıvan MR-nın Ordubad rayonu ərazisində yayılmış heyva formalarının öyrənilməsi, üstün xüsusiyyətlərinə görə aşkar edilmiş formaların "Meyvə genofondu" kolleksiya bağında toplanılması və onların aqrobioloji xüsusiyyətlərinin öyrənilməsi tədqiqatın məqsədini təşkil edir. İşin gedişində ilk dəfə olaraq Ordubad rayonu ərazisində heyvanın pomoloji xüsusiyyətlərinə görə fərqlənən 3 formasının olduğu müəyyənləşdirilmişdir. Aşkar edilən formalar yayıldığı zonanın adı ilə şərti olaraq adlandırılmış və hansı sortotipə məxsus olduğu aydınlaşdırılmışdır. Həmin sort və formalar Bioresurslar İnstitutunun "Meyvə genofondu" kolleksiya bağında 15-ə yaxın ağac olmaqla toplanılmış, onların aqrobioloji xüsusiyyətləri öyrənilmişdir. Respublikanın torpaq-iqlim şəraitinə uyğun, yüksək məhsuldar, xəstəlik və zərərvericilərə, şaxtaya, xüsusən də yaz şaxtalarına davamlı olan formaların "Meyvə genofondu" kolleksiya bağında toplanması, bu formalardan gələcəkdə fermer təsərrüfatlarında, həmçinin fərdi təsərrüfatlarda yeni meyvə bağlarının salınması zamanı və seleksiyada başlanığıc material kimi və calaqaltı üçün istifadə edilməsi məqsədə uyğundur.

Ekspedisiyalar nəticəsində tərəfimizdən aşkar olunmuş heyva formaları əsasən muxtar respublikanın Ordubad rayonunun Sabirkənd, Vənənd, Əndəmic, kəndlərində becərilir. 2020-ci ilin may ayından başlayaraq Ordubad rayonunun qeyd edilən kəndlərində aşkar edilən heyva

formaları üzərində tumurcuqların şişməsindən meyvələrin yetişməsinə qədər müşahidələr aparılmışdır. Onların təsərrüfat və aqrobioloji xüsusiyyətləri öyrənilmiş, perspektivli formalardan calaq materialı götürülərək, calaq edilmiş, gələcəkdə Genofond kolleksiya bağına köçürülməsi planlaşdırılır.

Tədqiqat ilində Ordubad rayonu ərazisində aşkar edilmiş heyva formaları yetişmə müddətlərinə görə qruplaşdırılmış və pomoloji xüsusiyyətləri öyrənilərək aşağıda verilmişdir.

Sabirkənd-2:- İlk dəfə olaraq Ordubad rayonunun Sabirkənd kəndində fərdi həyətyanı sahədə aşkar edilmişdir. Şərti olaraq yerləşdiyi ərazinin adı ilə adlandırılmışdır. Ağacı alçaqboy, çətiri piramidaşəkillidir. Meyvəsi oval şəkilli, zirvəsi basıqdır. Hər meyvənin orta kütləsi 180-220 qramdır (şəkil 1).

Şək. 16 Sabirkənd-2

Sabirkənd-2 forması Armudvari sortotipinə oxşayır, lakin meyvəsinin iriliyinə, dadına və lətinin sıxlığına, saplağının uzunluğuna və formasına görə həmin sortotipdən kəskin fərqlənir. Rəngi sarı olub, üzərində nəzərə çarpacaq dərəcədə çox kiçik ağ və qara nöqtələri vardır.

Meyvələri yumru formada olub əsası batıqdır. Hər meyvənin orta kütləsi 170-180 q olur. Ləti ağımtıl, orta dərəcədə şirindir. Ləti demək olar ki, kövrək və yumuşaqdır. Toxum kamerası balaca olmaqla digər sortlara nisbətən yağlılığı çoxdur. Hər toxum kamerasında 4 ədəd kafe rəngli tum yerləşir. Meyvə saplağı budağa birləşmişdir. Oktyabrın sonlarında yetişir. Tam istehlak yetişgənliyi isə noyabrın üçüncü on günlüyündə olur. Heyva şirəsi üçün əvəzedilməz xammaldır. Daşınma üçün əlverişlidir. Xəstəlik və zərərvericilərə qarşı davamlıdır. Dequstasiya qiyməti 4,9 balla qiymətləndirilmişdir.

Vənənd-1:- Bu forma yeni aşkar edilmişdir. Ordubad rayonunun Vənənd kəndində həyətyanı sahədə aşkar edilmişdir. Şərti olaraq yayıldığı ərazinin adı ilə adlandırılmışdır (şəkil 2).

Bu forma Turş heyva sortotipinə bənzəyir, lakin saplağının qalınlığına, toxum kamerasının genişliyinə, lətinin sıxlığına, qabığının qalınlığına görə bu sortotipdən kəskin fərqlənir.

Ağacı orta hündürlükdə 3-3,5 m, çətiri geniş azca ətrafa sərilən, gövdəsi açıq şabalıdı rəngdədir. Meyvəsi yumru-oval formada, zirvəsi dartılmış, əsası azca batıq üzəri hamardır. Hər meyvənin orta kütləsi Turş heyva sortotipindən fərqli olaraq 250-300 qramdır. Rəngi açıq-sarı olub üzərində gözlə görünəcək qədər kiçik nöqtələri vardır.

Şək. 2. Vənənd-1

Ləti sarı, sulu, şirin və xoş aromatik iyi vardır. Turşuluğu turş heyva sortundan azdır. Toxum kamerası geniş, tumları tünd şabalıdı, üzəri sıx şirə ilə örtülmüşdür. Meyvə saplağı budağa sıx birləşmişdir. Oktyabrın sonlarında yetişir və aprel ayına kimi saxlamaq olur. Daşınma üçün əlverişli olmaqla bərabər heç bir xəstəlik və zərərvericilərə tutulmur, saxladıqca aromatik iyi artır. Dequstasiya qiyməti 4,6 baldır.

Əndəmic-2:- Bu forma ilk dəfə olaraq tərəfimizdən Ordubad rayonunun Əndəmic kəndində fərdi təsərrüfatda aşkar edilmişdir (şəkil 2). Sahibkarın dediyinə görə toxumdan yetişdirmişdir. Şərti olaraq yayıldığı ərazinin adı ilə adlandırılmışdır. Bu forma Sarı heyva sortotipinə bənzəyir, lakin meyvəsinin iriliyinə, qabığının qalınlığına, lətinin sıxlığına və saplağının uzunluğuna görə həmin sortotipdən fərqlənir. Ağacı koltipli olub 3-3,5 metr, çətiri tərs pirmidal, ətrafa əyilmişdir.

Birillik zoğları tünd qəhvəyidir. Uzunluğu 15-17 sm-dir. Yarpağı yumurtavari formada, yarpaq saplağı isə gödəkdir.

Yayıldığı ərazidən asılı olaraq may ayının əvvəllərində çiçəkləyir, meyvəsi yumru qabırğalı alt tərəfdən dərin basıq olmaqla beş guşəlidir.

Meyvəsinin üzərində çoxlu tükcüklər və gözlə görünən xallar vardır. Rəngi sarı, gün tutan hissəsi azacıq tündləşmişdir. Ləti yumşaq, sarımtıl-ağ, orta dərəcədə sulu, toxum kamerası kiçik, daşlaşmış hüceyrələri çox, kovrəkdir. Meyvəsi iri, hər meyvənin çəkisi 180-200 q olur.

Şək. 3. Əndəmic-2

Yayıldıgı ərazidən asılı olaraq may ayının əvvəllərində çiçəkləyir, meyvəsi yumru qabırğalı alt tərəfdən dərin basıq olmaqla beş guşəlidir.

Meyvəsinin üzərində çoxlu tükcüklər və gözlə gorünən xallar vardır. Rəngi sarı, gün tutan hissəsi azacıq tündləşmişdir. Ləti yumşaq, sarımtıl-ağ, orta dərəcədə sulu, toxum kamerası kiçik, daşlaşmış hüceyrələri çox, kövrəkdir. Meyvəsi iri, hər meyvənin çəkisi 180-200 q olur.

Çox məhsuldardır, hər ağacdan 35-40 kq məhsul verir. Meyvə saplağının uzunluğu 20-25 mm, qalınlığı 1,5-2 mm-dir. Üzəri zəif tükcüklüdür yetişmiş meyvələrə birləşməsi möhkəmdir. Aprel ayının ikinci ongünlüyündə çiçəkləyir, çiçəkləri topa halında, rəngi açıq çəhrayı rəngdə olur. Meyvələri budaqda bəzən bir-birinin ardınca düzülür. Mürəbbə və kompot üçün qiymətlidir. Meyvələri noyabr ayının əvvəllərində dərilir. Daşınma üçün əlverişlidir, xəstəlik və zərərvericilərə qarşı davamlıdır. Dequstasiya qiyməti 4,8 baldır.

Respublikada aqrar sahədə aparılan islahat torpaqlardan səmərəli istifadə olunmasını və torpaq münbitliyinin qorunub saxlanmasını günün vacib problemi kimi qarşıya qoyur. Bu problemin həlli öz əksini bir çox məsələlər ilə yanaşı vahid sahədən yüksək məhsuldarlıq əldə etməkdən ötrü yüksək keyfiyyətli və hər bölgənin torpaq-iqlim şəraitinə uyğunlaşmış sortlardan istifadə edilməsi məqsədəuyğundur. Beləliklə, deyilənlərdən aşağıdakı nəticələrə gəlmək olar: Heyva meyvələri tibbi nöqteyindən bir çox xəstəliklərin dərmanı olduğu üçün bu heyva formalarının əkin sahəsinin genişləndirilməsi vacib şərtlərdən biridir. Həmçinin yüksək keyfiyyətli məhsuldar formalardır.

Heyva meyvələrinin insan orqanizminə xeyri qısaca olsada aşağıda verilmişdir. “Heyvanın yetişmiş meyvəsi sidikqovucudur, mədəni, ürəyi və beyni möhkəmləndirir, gümrahlaşdırır və iştahanı açır. Şiddətli ürək döyüntüsündə, qara ciyər xəstəliklərində, sarılıq və ürəkbulanmada heyvanı yemək faydalıdır. “Tibbnamə” də göstərilmişdir ki, soyuqdəymə zamanı heyva şərbəti və ya çaxırını içmək çox yaxşı nəticə verir. Şərqdə qədimdən heyvanı şkaflara və sandıqlara qoyurdular ki, güvəni qovsun, paltarlara xoş ətir hopdursun. Yarpaqlarından hazırlanan çay əsəb sistemini sakitləşdirir. Heyva çiçəyini qaynadıb içmək ana südünü artırır, ürəyini möhkəmləndirir. Bu dəmləmə baş ağırısınada faydalıdır. Ağızdakı yaralar, boğazda şişlik və ağrı olanda heyvanın özünü və ya yarpaqlarını qaynadıb qarqara etdikdə yaxşı nəticə verir. Dəriyə və dırnaqlara parlaqlıq verir.

Ədəbiyyat

1. Bayramov, L.Ə. Şahbuz rayonu ərazisində becərilən heyva bitkisinin yayılma zonaları və aqrobioloji xüsusiyyətlərinin öyrənilməsi // Azərbaycan Aqrar Elmi – 2019. №3, – s. 15-18
2. Байрамов Логман Биология цветения, плодоношения и жизнеспособности пыльцы сортов и форм айвы, возделываемых на территории нахчыванской автономной республики // Бюллетень науки и практики, Электрон. журн, Нижневартовский, ул. Ханты – Мансийская 17, – 2021, – Т.7. №3. – с. 64-69
3. Байрамов, Л.А. Изучение зон распространения и агробиологических особенностей айвы, возделываемой в шахбузском районе нахчыванской автономной республики// Бюллетень науки и практики, Нижневартовский, – 2020, – т.

6, №2, – c. 137-142
4. Xudaverdiyev, F.P. Naxçıvan MSSR-in tumlu meyvə sortları və onların becərilməsinə dair tövsiyələr. / F.P.Xudaverdiyev – Bakı: – 1984, – s.4-6
5. Həsənov, Z.M. Meyvəçilik (Laborator-praktikum). / Z.M.Həsənov– Bakı: Bilik, – 1977, – 151 s
6. Методика ВНИИС им. И.В.Мичурина, 1973, с.93-124 Бейдеман И.Н. Методика изучения фенологии и растителных сообществ. – Новосибирск: Наука, – 1974, – 156 с.
7. Программа и методика интродукчии и сортоизучения плодовых культур. – Кишинев: Штинча, – 1972, – с. 60-62

Məqalə biologiya üzrə elmlər doktoru, dosent İsmayıl Məmmədov tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 01 fevral 2022-ci il
Son daxilolma tarixi:15 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 502.5:502.17(19); 502.521:631.6

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 176-178
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 176-178
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 176-178

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DAĞLIQ ƏRAZILƏRİNİN EKOLOJİ PROBLEMLƏRİ

Müəllif:

İlahə Seyidova
AMEA Naxçıvan Bölməsi
Gültəkin Hacıyeva
AMEA Naxçıvan Bölməsi

E-mail:
ilaherahim16@gmail.com

Açar sözlər:
torpaq, dağlıq ərazi, eroziya, deqredasiya, ekologiya,otlaqlar,

Annotasiya. Məqalədə Kiçik Qafqazın cənub-qərb qurtaracağında yerləşən Naxçıvan Muxtar Respublikasının dağlıq ərazilərinin biçənək və torpaq eroziyası otlaqlarının ekoloji problemlərindən bəhs edilir. Dəmirlidağ, Elincə Ərəfsə, Xanəgah və Ləkətağda aşınma nəticəsində yaranan çatışmazlıqlar qeyd olunur. Aparılmış tədqiqatlar nəticəsində dağ qurşağında eroziya prosesi daha güclü getdiyindən, ərazinin deqredasiyaya və eroziyaya uğramış sahələri aşkar edilərək qeydiyyatı aparılmış, onların yaranma səbəbləri öyrənilmiş, bütün bunların qarşısının alınması eroziyaya qarşı mübarizənin, dağ yamaclarında sürüşmənin, sel daşqınlarının, suvarılan otlaqların və biçənəklərin bataqlığa çevrilməsinin, otlaqların yandırılması və ziyanvericilərə (həşərat, siçan, gəmiricilər) qarşı mübarizə tədbirlərini gücləndirmək məqsədi ilə bir sıra təkliflər tövsiyə edilmişdir.

Author:

Ilaha Seyidova
Nakhchivan Branch of ANAS
Gultekin Hajiyeva
Nakhchivan Branch of ANAS

E-mail:
ilaherahim16@gmail.com

Key word:
land, mountainous area, erosion, degradation, ecology, pastures,

ENVIRONMENTAL PROBLEMS OF MOUNTAINOUS AREAS OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Abstract. The article discusses the environmental problems of hayfields and soil erosion pastures in the mountainous areas of the Nakhchivan Autonomous Republic, located in the south-western end of the Lesser Caucasus. Defects caused by wear and tear are noted in Demirlidagh, Elinja Arafsa, Khanagah and Lakatag. As a result of the research, as the erosion process intensified in the mountain belt, degraded and eroded areas were identified and registered, their causes were studied, all of which were prevented by erosion control, landslides, floods, irrigated pastures and meadows A number of proposals have been recommended to strengthen incineration and control measures against pests (insects, mice, rodents).

Автор:

Илаха Сеидова
Нахчыванское отделение НАНА
Гюльтекин Гаджиева
Нахчыванское отделение НАНА

E-mail:
ilaherahim16@gmail.com

Ключевые слова:
земля, горный рельеф, эрозия, деградация, экология, пастбища,

ЭКОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ГОРНЫХ РАЙОНОВ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

Аннотация: В статье рассматриваются экологические проблемы сенокосов и эрозионных пастбищ в горных районах Нахчыванской АР, расположенных в юго-западной оконечности Малого Кавказа. Демирлидаг, Элинджа Арафса, Ханага и Лякатаг отмечают дефекты, вызванные износом. В результате исследований по мере усиления эрозионного процесса в горном поясе были выявлены и зарегистрированы деградированные и эродированные участки, изучены их причины, все это было предотвращено за счет борьбы с эрозией, оползнями, наводнениями, орошением пастбищ и лугов. Предложений рекомендовано усилить сжигание и меры борьбы с вредителями (насекомыми, мышами, грызунами).

Kiçik Qafqazın cənub-qərb qurtaracağında yerləşən tipik dağlıq ölkə olan Naxçıvan Muxtar Respublikası başlıca olaraq düzənlik və dağlıq hissələrdən ibarətdir.

1992-ci ildə Rio-de Janeyroda BMT-nin ətraf mühitin inkişafı üzrə keçirdiyi Beynəlxalq Konfransın materiallarında yerin torpaq örtüyündən deqredasiyası haqqında aşağıdakı rəqəmlər göstərilir: həddindən çox dərəcəli deqredasiyası -1%, güclü deqredasiya -15%, orta-46%, zəif-38%. Bu materiallarda torpağın ən çox deqredasiya növlərinin nisbətidə göstərilir: su eroziyası-56%, külək eroziyası-28%, kimyəvi deqredasiya-12%, fiziki deqredasiya -125%.

Torpağın bütün digər deqredasiya növlərinə nisbətən ən zərərlisi torpaq eroziyasıdır. İ.A.Krupenikovun bədii ifadəsinə görə, "Torpağa münasibətdə eroziya gilyotin (daşkəsən maşın) rolunu oynayır. O, həqiqi mənada torpağı fəaliyyətsiz edir, torpağın münbitliyi olan üst humus horizontundan məhrum edir. Turş torpağı neytrallaşdırmaq, şoran torpağı-duzsuzlaşdırmaq, şorakəti-şorakətsizləşdirmək, bərk torpağı yumşaldmaq olur. Lakin eroziyaya uğramış torpağı bərpa edib əvvəlki halına çevirmək qeyri-mümkündür [4, s.65-91].

Landşaftda deqredasiya və eroziyanı yaradan səbəblərdən biri də ərazidə biçənəklərin düzgün istifadə olunmamasıdır. Deqredasiya (deqredasiya-pillə)-ilkin keyfiyyətin pisləşməsi, itirilməsi deməkdir.

Aparılmış tədqiqatlar nəticəsində ərazinin deqredasiyaya və eroziyaya və eroziyaya uğramış sahələr aşkar edilərək qeydiyyatı aparılmış, onların yaranma səbəbləri öyrənilmişdir.

Rayonun otlaq və biçənəkləri, heyvandarlığın inkişaf etməsində yem bazası olmaqla yanaşı, həm də böyük sutənzimedici və torpaqqoruyucu funksiyasını daşıyır. Ərazidə yay otlaq və biçənəkləri dəniz səviyyəsindən 900-2800 m yüksəkliklərdə yayılmasıdır. Yüksəklikdə yayılmış subalp çəmənlərindən yalnız otlaq kimi deyil, həmçinin biçənək kimi də istifadə olunur. Bu çəmənlərin növ tərkibinin əsas hissəsini taxıl fəsiləsinə aid olan çoxillik bitkilər və müxtəlif otlar təşkil edir. Yay otlaqlarının əsasını təşkil edən subalp çəmənlərinin 85%-ni çoxillik, 15%-ni isə birilliklər təşkil edir: Anadolu lərgəsi – vicia anatolica Turrill, uzunyarpaq lərgə - angustifolia Reichard, bozumtul lərgə - vicia cinerea Bieb., Qrossheym lərgəsi - vicia Qrossheymi Ekvtim., alp paxladələn - alrinus L., noxudvari paxladələn-astragalus cicer L., tikanlı paxladələn-astragalus euoplus Trautv., dağ çovdarı-montanum Guss., dərələyəz çovdarı – secale daralagesi Thund., Vavilov çovdarı- secaleVavilovii Grossh., [4, s.65-67]. Paxlalılar fəsiləsinin bəzi növlərinin kök sistemi güclü olduğundan dağlıq ərazidə eroziya prosesinin qarşısını alır.

Eroziya yunan sözü olub ayrılma deməkdir. Eroziyaya uğramış torpaqların münbitliyini bərpa etmək ümumiyyətlə, dağlıq zonanın torpaqlarını mühafizə etmək üçün kompleks tədbirlər planı hazırlanmalıdır. Buna görə də ərazidə eroziyaya uğrama təhlükəsi olan torpaqlardan daha səmərəli istifadə edərək, onların münbitliyini artırmaq lazımdır [3, s.26-66]. Bunun üçün ərazinin relyef quruluşu və torpaq şəraiti nəzərə alınaraq növbəti əkin sisteminin, gerçəkləşdirilməsi meşə zolaqlarının və yolların düzgün salınması çox vacib məsələlərdəndir.

Aparılan tədqiqatlar (2005-2009) nəticəsində məlum olmuşdur ki, ərazinin dağətəyi və dağlıq zonalarının torpaqları eroziyaya məruz qalaraq münbitliyini itirmişdir [2, s.165-167]. Belə vəziyyətə Culfa rayonunun Şurut, Əlincə, Xanəgah , Ərəfsə, Ləkətağ ərazilərində rast gəlinir.

Qeyd etmək lazımdır ki, bu ərazilərdə mal-qaranın vaxtından əvvəl və hədsiz otarılması, eyni yol ilə aparılması yamaclarda çim və torpaq qatının pozulmasına, eroziya prosesinin güclənməsinə və sel axınları mənbələrinin yaranmasına səbəb olmuşdur. Bunun nəticəsində də yay otlaqları başdan-başa eroziya prosesinə məruz qalaraq mal-qaranı lazımı səviyyədə yemlə təmin etmir. Ona görə də bu ərazilər tamamilə istifadədən çıxaraq daşlı və bitkisiz sahələrə çevrilir.

Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, Dəmirli dağın ətəklərində, Kola, Cəvik meşələrində Xəzinədərə və Daş körpü ərazilərində ekoloji və antropogen amillərin təsirindən baş verən eroziya prosesləri nəticəsində təbii fitosenozların arealı kiçilib və məhsuldarlığı aşağı düşüb.

Ərazidə eroziya prosesinin əmələ gəlmə səbəblərindən biri də yağıntılardır. Belə ki, torpağı dağıdıb özü ilə aparan suyun miqdarı düşən yağıntının miqdarı və formasından asılıdır [1, s.178-181]. Dağ yamaclarında su eroziyasına daha geniş rast gəlinir. Burada eroziya prosesinin güclü getməsinin əsas səbəbləri: dik yamaclarda meşələrin qırılması və eroziyaya qarşı aqrotexni-

ki tədbirləri həyata keçirmədən yamacların şumlanması, dağ-çəmən zonasında isə çim qatının dağılmasıdır. Bu səbəbdən də torpağın üst münbit qatı yuyulur. Təkcə bir leysan yağışın əmələ gətirdiyi səthi eroziya nəticəsində yamacların hər hektarından 200-250 m3 torpaq yuyulur [5, s.32].

K.A.Ələkbərov qeyd edir ki, Azərbaycanda hər il torpaqların üst münbit qatının yuyulması nəticəsində onun tərkibindən 81.6 min ton N, 57,6 min ton P, 1.2 min tok K, qiymətli maddələr itir. Nəticədə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı eroziyaya uğramış orta yuyulmuş torpaqlarda 1.5-2 dəfə, güclü yuyulmuş torpaqlarda 3-4 dəfə azalır. Azərbaycanda ayrı-ayrı təbii sahələr üzrə ərazisi ən çox eroziyaya uğramış rayon Naxçıvan Muxtar Respublikası (73.7) və Kür-Araz ovalığıdır (38.8)

Eroziyaya qarşı mübarizə tədbirlərini gücləndirmək məqsədi ilə aşağıdakı təklifləri tövsiyə edirik:

- dağ qurşağında eroziya prosesi daha güclü getdiyindən, otlaq və biçənəklərin məhsuldarlığı azaldığından mal-qaranın otarılması normasına ciddi əməl edilməlidir. Məhsuldarlığı çox olan sahələrin hər hektarına 5-6 baş heyvan otarılmalıdır.

- torpağın eroziyaya uğramış və bitkilərin məhsuldarlığı azalmış sahələrdə yem bitkilərinin toxumlarını səpmək lazımdır.

- dağ yamaclarında eroziyanın qarşısını almaq üçün meşələri bərpa etmək, bunun üçün də yeraltı ağac və kol bitkilərinə üstünlük verilməlidir.

- dağ yamaclarında sürüşmənin qarşısını almaq üçün su axınını başqa yerə yönəltmək və bu məqsədlə yamaclarda arxlar düzəldilməlidir.

- sel daşqınlarının qarşısını almaq üçün dayaq daş divarlarının və mühafizə bəndlərinin qurulması, çəmən və meşə fitosinozlarının qorunması lazımdır. Bunun üçün yamacların meyilliyi, yuyulma dərəcəsi, iqlim amilləri nəzərə alınmalıdır.

- rayonda olan çay hövzələrini eroziyadan, sel hadisəsindən qorumaq üçün hidrotexniki tikililərdən istifadə edilməlidir.

- suvarılan otlaqların və biçənəklərin bataqlığa çevrilməsinə qarşı mübarizə aparılmalıdır.

- otlaqların yandırılmasına və ziyanvericilərə (həşərat, siçan, gəmiricilər) qarşı mübarizə aparılmalıdır.

Ədəbiyyat

1. Bababəyli, N.S. Araz su anbarında ekoloji gərginliyin dinamikası. // – Bakı: Naxçıvan Regional Mərkəzinin əsərləri – 2003. №7, – s.178-181

2. Süleymanova, G.S. Naxçıvan MR-nın dağlıq zona landşaftının eroziyaya görə rayonlaşdırılması. // – Naxçıvan: NDU-nun elmi əsərləri, №1(26), – s.165-167

3. Hacıyev, S.Ə. Naxçıvan MR torpaqlarının ekocoğrafi şəraiti. / S.Ə.Hacıyev – Bakı: – 2009. – s.26-66.

4. Крупенников, И.А. Биосферно-екологические последствия ерозионных прочессов. Оценка смытых почв // – Ерозия почв. Кишинев, – 2001. – с.65-91

5. Новрузов, А.К. Ерозия почв и фитомелиоративные меры борьбы с нею в горно-луговой зоне Нах. АССР: Автореф. Дис.канд. биол.наук. – Баку: –1974. – с.32.

Məqalə biologiya üzrə elmlər doktoru, professor Tariyel Talıbov tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 02 fevral 2022-ci il
Son daxilolma tarixi:13 fevral 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 612+372.857

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 179-183
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 179-183
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с.179-183

MƏRKƏZİ SİNİR SİSTEMİNİN FİZİOLOGİYASI FƏNİNİN ALİ MƏKTƏBLƏRDƏ TƏDRİSİ MƏSƏLƏLƏRİNƏ DAİR

Müəllif:

Günel İbrahimli
Naxçıvan Müəllimlər İnstitutu

E-mail:
gunay-ibrahimli@mail.ru

Açar sözlər:
Azərbaycan təhsili, ali məktəblər, fiziologiya, mərkəzi sinir sistemi, tədris məsələləri

Annotasiya. Məqalədə ali məktəblərdə mərkəzi sinir sisteminin tədrisi məsələlərindən danışılır. Mərkəzi sinir sisteminin ekperimental və kliniki tədqiqat üsullarından bəhs edilir. Qeyd olunur ki, "Mərkəzi sinir sisteminin fiziologiyası" insan və heyvan fiziologiyasının ən mühüm bölmələrindən biridir. O, öz inkişafında müqayisəli və ontogenetik yanaşmalara, neyromorfoloji, neyrofiziki, neyrofizioloji, neyrokibernetik, etoloji, psixofizioloji, neyropatoloji və neyrofarmokoloji tədqiqatlara arxalanır, dialektik materializm fəlsəfəsinin və təbiət elmlərinin metodologiyasından, fundamental ideyalarından və idrak üsullarından, ən yeni texniki tədqiqat vasitələrindən geniş istifadə edir. Həmçinin məqalədə fənnin tədris olunması istiqamətlərindən danışılır. Bu məqalədə bədən hərəkətlətinin tənzimi və mərkəzi sinir sisteminin ayrı-ayrı şöbələrinin, onurğa beyin, arxa beyin (uzunsov beyin, varol körpusü), orta beyin, beyincik, ara və ön beyinin sensor funksiyasının tədrisinin səmərəli üsul və vasitələrindən bəhs edilir.

Author:

Gunel Ibrahimova
Nakhchivan Teachers Institute

E-mail:
gunay-ibrahimli@mail.ru

Key word:
Azerbaijani education, higher schools, physiology, central nervous system, educational issues

PHYSİOLOGY OF THE CENTRAL NERVOUS SYSTEM ON TEACHİNG İSSUES İN HİGHER SCHOOLS

Abstract. The article talks about the teaching of the central nervous system in higher schools. Experimental and clinical research methods of the central nervous system are discussed. It is noted that "Physiology of the central nervous system" is one of the most important sections of human and animal physiology. In its development, it relies on comparative and ontogenetic approaches, neuromorphological, neurophysical, neurophysiological, neurocybernetic, ethological, psychophysiological, neuropathological and neuropharmacological studies, widely uses the methodology, fundamental ideas and cognitive methods of dialectical materialism philosophy and natural sciences, and the latest technical research tools. The article also talks about the directions of teaching the subject. This article deals with effective methods and means of teaching the regulation of body movement and the sensory function of separate departments of the central nervous system, spinal cord, hindbrain (oblong brain, varol bridge), midbrain, cerebellum, middle and forebrain.

Автор:

Гюнель Ибрагимова
Нахчыванский институт учителей
E-mail:
gunay-ibrahimli@mail.ru

Ключевые слова:
Азербайджанское образование, высшие школы, физиология, центральная нервная система, вопросы преподавания

К ВОПРОСАМ ПРЕПОДАВАНИЯ ДИСЦИПЛИНЫ «ФИЗИОЛОГИЯ ЦЕНТРАЛЬНОЙ НЕРВНОЙ СИСТЕМЫ» В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

Аннотация: В статье рассказывается о вопросах обучения центральной нервной системы в высших учебных заведениях. В ней говорится об экспериментальных и клинических методах исследования центральной нервной системы. Отмечается, что «Физиология центральной нервной системы» является одним из важнейших разделов дисциплины «Физиологии человека и животных». В своем развитии он опирается на сравнительно-онтогенетические подходы, нейроморфологические, нейрофизиологические, нейрокибернетические, этологические, психофизиологические, невропатологические и нейрофармокологические исследования, широко использует методологию философии диалектического материализма и естественных наук, фундаментальные идеи и методы познания, новейшие технические средства исследования. Также в статье рассказывается о важных вопросах преподавания предмета. В ней рассматриваются вопросы преподавания эффективных методов и средств регуляции движений тела, обучения сенсорной функции отдельных отделов центральной нервной системы, спинного мозга, заднего мозга (продолговатый мозг, варолиевый мост), среднего мозга, мозжечка, среднего мозга и переднего мозга.

Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın ümummilli lideri, Azərbaycan təhsilinin böyük hamisi Heydər Əliyevin xalqımız qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycan təhsilini himayə etməsi, təhsilin gələcək inkişaf yollarını müəyyənləşdirməsidir. Heydər Əliyev şəxsiyyəti olmasaydı, Azərbaycan təhsili də bugünkü səviyyəyə gəlib çata bilməzdi.

Bu gün ulu öndərimizin əsasını qoyduğu ənənələri bütövlükdə, müasir təhsil konsepsiyası ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməkdədir. Bu siyasət Azərbaycanın milli təhsil sisteminin aydın strategiya və konsepsiyasını, təhsilin idarəolunmasında yeni prinsiplərin bərqərar olmasını, onun beynəlxalq standartlara uyğunlaşdırılmasını və dünya təhsil sisteminə inteqrasiyasının sürətləndirilməsini tam olaraq özündə əks etdirir və hər bir təhsil işçisinin qarşısında mühüm vəzifələr qoyur.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev təhsil siyasətinin yerinə yetirilməsi, müasir proqram və yeni dərsliklərin müstəqil ölkəmizin tələbatlarına cavab verməsi, yeni pedaqoji texnologiyaların, dünya təcrübəsinin öyrənilməsi, tətbiqinə nail olunması və bir çox ciddi addımların atılması ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilmiş, təhsil mühitinə daxil edilmişdir.

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq bu gün doğma Azərbay-canımızın hər yerində, bütün bölgələrində yeni-yeni məktəblər tikilir, onların maddi-texniki bazası gücləndirilir, ən müasir kompüter avadanlıqları ilə və digər ləvazimatlarla təchiz edilir. Azərbaycan təhsili böyük sürətlə Avropa və dünya təhsil sisteminə inteqrasiya olunur.

Naxçıvan Muxtar Respublikasında da ölkə Prezidentinin təhsil sahəsində müəyyənləşdirdiyi vəzifə və yeni yanaşmalar yüksək səviyyədə həyata keçirilməkdədir. Bu baxımdan Naxçıvan MR-dakı Ali məktəblərdə müxtəlif fənləri tədris edən professor müəllim heyətinin üzərinə mühüm bir vəzifə düşür. Müxtəlif fənlərin tədrisi səviyyəsini yüksəltmək üçün yeni vasitə və üsullar axtarıb tapılmalıdır.

Ali məktəblərdə tədris olunan fənlərədən biri də mərkəzi sinir sisteminin fiziologiyasıdır. Mərkəzi sinir sisteminin fiziologiyası insan və heyvanların fiziologiyasının ən mühüm bölmələrindən biridir. O, əsasən baş və onurğa beyninin funksiyalarını, onların formalaşması qanunauyğunluqlarını, təzahür formaları və prinsiplərini, həyata keçməsi şəraitini, sinir və psixi proseslərin təbiətini, beyin fəaliyyətinin mahiyyətini, orqanizmin mühit şəraitinə uyğunlaşmasında onun rolunu öyrənir. Mərkəzi sinir sisteminin fiziologiyası eksperimental və nəzəri elm sahəsidir. Bu istiqamətdə aparılan tədqiqatlar ayrıca sinir hüceyrəsindən bütöv beyinə kimi ən yüksək inkişaf etmiş canlı materiya formasına, adi reflektor reaksiyalardan ali sinir fəaliyyətinə qədər çox geniş bir diapozonu əhatə edir.

Mərkəzi sinir sistemi orqanizmin hüceyrələri, toxumaları və ayrı-ayrı üzvləri arasında qarşılıqlı əlaqə yaradır, onların tamlığını təmin edir. Buna görə də adi fizioloji şəraitlərdə müxtəlif qıcıqlandırı-cılara qarşı orqanizmin reaksiyaları mürəkkəb davranış aktları şəklində təzahür edir. Hər bir hərəkət aktı üç komponentdən ibarət olur. Sensor(hissi) funksiya-reseptorlardan impulsların mərkəzi sinir sisteminə daxil olması, mator (hərəki) funksiya-skelet əzələlərinin fəaliyyəti, vegetativ funksiya-daxili üzvlər, damar mənfəzi, maddələr mübadiləsi və toxumaların funksional vəziyyətinin tənzimi, adətən orqanizmin hissi və hərəki funksiyalarını birləşdirərək somatik funksiyalar adlandırırlar.

Bu məqalədə bədən hərəkətlətinin tənzimi və mərkəzi sinir sisteminin ayrı-ayrı şöbələrinin, onurğa beyin, arxa beyin (uzunsov beyin, varol körpusü), orta beyin, beyincik, ara beyin (görmə qabarları və görmə qabaraltı) və ön beyinin (beyin yarımkürələri və qabıqaltı nüvələrlə birlikdə) sensor funksiyasını şərh edəcəyik.

Mərkəzi sinir sistemi fəaliyyətini öyrənmək fiziologiya elminin qarşısında duran çətin və son dərəcə mühüm məsələlərdən biridir. Müasir elm mərkəzi sinir sisteminin fizioloji xüsusiyyətlərini tədqiq etmək üçün bir çox üsullardan istifadə edir.

Mərkəzi sinir sistemi funksiyalarının coxsaylı tədqiqat üsulları vardır. Mərkəzi sinir sisteminin tədqiqi iki üsulla həyata keçirilir: eksperimental və kliniki. Eksperimental üsullara kəsiklər, ekstirpasiya, beyin strukturlarının dağıdılması, qıcıqlandırma və elektrik koaqulyasiyası aid edilir. Kliniki üsullara ensefaloqrafiya, törədilmiş potensiallar üsulu, tomoqrafiya və s. aid edilir.

Eksperimental üsullar:

1. Kəsik aparılması və söndürmə üsulu. Mərkəzi sinir sisteminin müxtəlif sahələrinin kə-

silməsi və söndürülməsi üsulu müxtəlif üsullarla həyata keçirilir. Bu üsuldan istifadə edərək şərti-reflektorik davranışların dəyişilməsini müşahidə etmək olar.

2. Soyuqla söndürmə üsulu. Baş beyin strukturlarının soyuqla söndürülmə üsulu müxtəlif funksional vəziyyətlərdə şərti reflekslərin əmələ gəlməsi zamanı elektrik proseslərinin fəza-müvəqqəti mozaikasını vizuallaşdırmağa imkan verir.

3. Molekulyar biologiya üsulu şərti reflekslərin əmələ gəlməsində DNT, RNT molekullarının, digər bioloji aktiv maddələrin rolunun öyrənilməsinə yönəlmişdir.

4. Stereotaksiki üsul onunla nəticələnir ki, heyvanların qabıqaltı strukturlarına elektrodlar yeridilir. Həmin elektrodların köməyi ilə qıcıqlandırmaq, dağıtmaq və ya kimyəvi maddələri yeritmək mümkün-dür.

Kliniki üsullar.

Kliniki üsullar beynin sensor funksiyasının, aparıcı yolların, stimulların qəbul edilməsi və analizinə görə beyni qabiliyyətinin düzgün qiymətləndirilməsinə, həmçinin böyük beyin yarımkürələrinin ali funksiyalarının pozulması əlamətlərini aşkara çıxarmağa imkan verir.

1. Elektroensefaloqrafiya EEQ. Elektroensefaloqrafiya MSS-nin bir qədər yayılmış elektrofizioloji tədqiqat üsulu hesab edilir. Bu üsul zamanı iki aktiv elektrod arasında və ya qabığın müəyyən zona-sındakı aktiv elektrodla beyindən uzaqda yerləşdirilmiş passiv elektrod arasındakı böyük beyin qabığının müəyyən nahiyələrindəki potensialların ritmiki dəyişiklikləri qeyd edilir. Elektroensefaloq-ramma sinir hüceyrələri əhəmiyyətli miqdarda qrupunun daimi dəyişən bioelektrik aktivliyi potensiallarının cəmini qeyd edən əyridir. Bu cəmə sinaptik potensiallar və neyronların və sinir liflərinin təsir potensialı hissəsi daxildir.

2. Sinir hüceyrələrinin impulsiv aktivliklərinin qeydə alınması üsulu. Neyronların və ya neyron qruplarının impuls aktivliyi yalnız heyvanlarda və tək-tək hallarda isə beyində aparılan cərrahi müdaxilələr zamanı qiymətləndirilə bilər. İnsan beyninin neyron impulsları aktivliyinin qeydə alınması üçün ucluqlarının diametri 0,5-10 mkm olan mikroelektrodlardan istifadə edilir. Bu elektrodlar paslanmayan poladdan, volframdan, platin-radium xəlitəsindən, qızıldan ola bilər. Elektrodlar beyinə xüsusi mikromanipulyatorların köməyi ilə yeridilir. Bu mikromanipulyatorlar elektrodu lazımi yerə dəqiq yeritməyə imkan verir. Müxtəlif funksional vəziyyətlər zamanı qanunauyğun olaraq dəyişilən tək bir neyronun elektrik aktivliyi müəyyən ritmə malikdir. Netron qruplarının elektrik aktivliyi neyroqrammada qeyd edilir.

3. Törədilmiş potensiallar üsulu.

Stimulla əlaqədar olan spesifik aktivlik törədilmiş potensial adlanır. Bu, insanda periferik resep-torların (görmə, eşitmə, taktil) EEQ-da birdəfəlik qıcıqlandırılması zamanı yaranan elektrik aktivliyinin dəyişilməsidr. Heyvanlarda afferent yollar və afferent impulsasiyanın qoşulma mərkəzləri qıcıqlandırılır. Törədilmiş potensial əsas xəttdən müsbət və mənfi tərəfə əyilmələrdən ibarətdir və stimulun təsirinin qurtarmasından sonra təxminən 300 ms davam edir. Törədilmiş potensialın amplitudasını və latent dövrünü müəyyən edirlər.

4. Tomoqrafik üsullar. Tomoqrafiya – xüsusi texnikanın köməyi ilə beyin kəsikləri təsvirlərinin alınmasına əsaslanmışdır. Bu üsulun ideyası ilk dəfə 1927-ci ildə C.Rodon tərəfindən irəli sürülmüşdür. O, göstərdi ki, obyektin strukturunu onun proyeksiyalarının cəminə görə bərpa etmək olar, obyekt özü isə proyeksiyaların çoxluğu ilə təsvir oluna bilər.

Kompüter tomoqrafiyası – müasir üsul olub kompüter və rentgen qurğusunun köməyi ilə insanın beyin quruluşunun xüsusiyyətlərini vizuallaşdırmağa imkan verir. Kompüter tomoqrafiyası zamanı beyindən rentgen şüalarının nazik seli buraxılır ki, onun da mənbəyi başın göstərilən müstəvisi üzrə fırlanır; kəllədən keçən şüalanma stsintallasion sayğac vasitəsilə ölçülür. Beləliklə, beynin müxtəlif tərəflərdən hər bir sahəsinin təsviri alınır. Sonra isə kompüter proqramının köməyi ilə bu göstəricilərə əsasən müayinə olunan müstəvinin hər bir nöqtəsində toxumaların radiasion sıxlığı hesablanır. Nəticədə göstərilən müstəvidə beyin kəsiyinin yüksək kontrastlı təsviri əldə edilir. Pozitron-emision tomoqra-fiyası. Bu üsul beynin müxtəlif sahələrində metabolik aktivliyi qiymətləndirməyə imkan verir. Müainə olunan şəxs beynin bu və ya digər şöbəsindəki qan cərəyanı dəyişikliyini izləməyə imkan verən radioaktiv birləşmə udur. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, radioaktiv birləşmə tərəfindən buraxılan hər bir pozitron elektronla toqquşur; bu zaman hər iki hissəcik 1800 bucaq altında iki-şüa-

sı buraxaraq məhv olurlar. Bunlar başın ətrafında yerləşən fotodetektorlarla tutulur. Maraqlıdır ki, onların qeydiyyatı bir-birinə əks yerləşmiş detektorlar eyni zamanda oyandıqları üçün baş verir. Alınmış göstəricilərin əsasında müvafiq müstəvidə təsvir yaranır, hansı ki, beyin toxumasının müainə olunan həcminin müxtəlif sahələrinin radioaktivliyini əks etdirir.

Nüvə-maqnit rezonansı üsulu. NMR-tomoqrafiyası rengen şüalarının və radioaktiv birləşmələrin tətbiq edilməməsi ilə beyin quruluşunu vizuallaşdırmağa imkan verir. Müainə olunanın başı ətrafında daxili fırlanmaya malik hidrogen atomlarının nüvəsinə təsir edən güclü maqnit sahəsi yaranır. Adi şəraitdə hər bir nüvənin fırlanma oxu təsadüfi istiqamətə malikdir. Maqnit sahəsində isə onlar oriyen-tasiyalarını bu sahənin güc xətlərinə müvafiq dəyişirlər. Sahənin söndürülməsi atomlar vahid fırlanma oxu istiqamətini itirməsinə və bunun da nəticəsində enerji şüalandırmasına gətirir. Bu enerjini verici fiksasiya edir, informasiya isə kompüterə ötürülür. Maqnit sahəsinin təsir sikli dəfələrlə təkrarlanır və nəticə etibarilə kompüterdə müainə olunan şəxsin beyninin qatbaqat təsviri yaranır.

5. Reoensefaloqrafiya. Reoensefaloqrafiya insanın beyin qan dövranının müainə olunma üsuludur. Bu üsul yüksək tezlikli dəyişən cərəyana qarşı beyinə qan toplanmasından, beynin tonusundan, damar-ların elastikliyindən və venozlu ödemin vəziyyətindən asılı olaraq beyin toxuması müqavimətlərinin dəyişilməsinin qeyd olunmasına əsaslanır.

6. Exoensefaloqrafiya. Bu üsul ultrasəs dalğalarının beynin strukturlarından, serebrospinal mayedən, kəllə sümüklərindən, patoloji törəmələrdən müxtəlif cür əks olunma xasəsinə əsaslanır. Bu üsulun köməyi ilə nəinki beyindəki bu və ya digər törəmələrin lokalizasiyasını müəyyən etmək olur, eləcədə beyin qan dövranının sürətinin və istiqamətinin müəyyən edilməsinə imkan yaranır.

Mərkəzi sinir sisteminin fiziologiyası öz inkişafında müqayisəli və ontogenetik yanaşmalara, neyromorfoloji, neyrofiziki, neyrofizioloji, neyrokibernetik, etoloji, psixofizioloji, neyropatoloji və neyrofarmokoloji tədqiqatlara arxalanır, dialektik materializm fəlsəfəsinin və təbiət elmlərinin metodo-logiyasından, fundamental ideyalarından və idrak üsullarından, ən yeni texniki tədqiqat vasitələrindən geniş istifadə edir. Mərkəzi sinir sistemi fiziologiyası əsasında sinir sisteminin və onun periferik aparat-larının funksiyalarının konkret mexanizmlərini öyrənən neyrofiziologiya və bütövlükdə sinir sisteminin, beynin bütün bioloji aspektlərinin kompleks tədqiqi ilə məşğul olan neyrobiologiya kimi böyük elm sahəsi formalaşır. İnsan və heyvan orqanizmində beynin, sinirlərin, hiss (sensor) üzvləri və sinir kələfl ərinin fizioloji xassələri çoxdan öyrənilirdi. Lakin bu sahədə mühüm nailiyyətlər yalnız XX əsrdə, xüsusilə həmin əsrin ikinci yarısında əldə edilmişdir. Bu dövrdə beyinin müxtəlif şöbələri, sahələri və mərkəzləri arasındakı morfo-funksional əlaqələr, onların funksiya üzrə ixtisaslaşma dərəcəsi, müxtəlif beyin törəmələrinin və neyron elementlərinin bioelektrik fəallığı və onun genezi, sinir fəaliyyəti və neyronlararası sinaptik əlaqələrin elektrokimyəvi və molekulyar əsasları, beyinlə digər orqan və sistem-lərin qarşılıqlı əlaqə və təsirləri, orqanizm davranışının sinir, somatik və visseral mexanizmləri daha ətraflı öyrənilmişdir. Neyrofiziologiya elminin inkişafında rus, alman, ingilis, fransız, italyan, çex, macar və yapon alimlərinin xidmətləri böyükdür. İndi dünyanın müxtəlif ölkələrində neyrofizioloji və neyro-bioloji problemlərlə məşğul olan xüsusi elmi mərkəzlər və institutlar fəaliyyət göstərir. Beyin tədqiqatları üzrə dünya alimlərinin birgə əməkdaşlığının əhəmiyyəti günü-gündən artır. Bu işi əlaqələndirmək və inkişaf etdirmək üçün milli və beynəlxalq elmi cəmiyyətlər və təşkilatlar yaradılmışdır.

Ali məktəblərdə biologiya (xüsusilə fiziologiya), tibb, psixologiya, pedaqoqika, zootexnika, baytarlıq kimi ixtisaslar üzrə təhsil alan tələbələrin neyrobiologiya, neyrofiziologiya, mərkəzi sinir sisteminin fiziologiyası, ali sinir fəaliyyətinin fiziologiyası, sensor sistemlərinin fiziologiyası, zoopsixo-logiya, etologiya, psixofiziologiya sahəsində əldə edilmiş müasir biliklərə mükəmməl yiyələnməsi çox vacibdir. Bu baxımdanda Mərkəzi sinir sisteminin fiziologiyasının tədrisi öyrənilən nəzəri materiallarla yanaşı mütləq mərkəzi sinir sisteminin fizioloji xüsusiyyətlərini tədqiq etmək üçün istifadə olunan üsullar labarotor dərslərində əyani şəkildə öyrədilməli, inkluziv təhsilin inkişaf etdirilməsi üçün isə virtual labaratoriyalardan mütləq şəkildə istifadə olunmalıdır.

Ədəbiyyat

1. Əliyev, Ə.H., F.Ə.Əliyeva, V.M.Mədətova İnsan və heyvan fiziologiyası. – Bakı: – 2007. – 416 s.

2. Cəfərov, F.İ. İnsan fiziologiyası. – 2001, Tibb universiteti.

3. Şəlalə Məhyəddinqızı. Akademik Hüseyn Həsənov. Bakı: MM-S müəssisəsi, – 2017, – 230 s.

Məqalə biologiya üzrə fəlsəfə doktoru Lamiyə Quliyeva tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 12 fevral 2022-ci il
Son daxilolma tarixi:11 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 738

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 184-188
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 184-188
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 184-188

KERAMİKA-ORNAMENTAL VƏ SÜJETLİ TƏSVİRLƏR

Müəllif:

Ləman Məmmədova
Naxçıvan Müəllimlər İnstitutu
E-mail:
lemanmamedovaa@mail.ru

Açar sözlər:
keramika, dekorativ-tətbiqi sənət, ornamental kompozisiya, bədii sənətkarlıq, rəsm, bədii ənənələr, məmulatların forması, süjetli təsvirlər

Annotasiya.Məqalədə keramikanın əsas tendensiyaları, istiqamətləri və spesifik xüsusiyyətləri göstərilmişdir. Dünya keramika istehsalı mərkəzlərinin tarixi keramika məmulatları üçün xarakterik olan müxtəlif süjet motivlərində, dekor növlərində qarşımıza çıxır. Keramika dekorativ-tətbiqi sənətin və monumental incəsənətin geniş sahəsini təşkil edir: gillərin plastik xassələri və keramika dekorasiyasının zənginliyi müxtəlif bədii qablar, heykəllər, pannolar, vazlar və s. yaratmağa imkan verir. Azərbaycanda, Türkiyədə və başqa ölkələrdə keramika memarlıqda yüksək inkişaf etmişdir. Xüsusilə Azərbaycanda gözəl boyalı qablar seçilirdi. Bu, material orijinal formalı, plastik və rəng müxtəlifliyinə malik unikal bəzəkli keramikadır. Kərpicdən tutmuş xırda heykəlciklərə qədər qədim keramika məmulatlarına qısaca nəzər salmaq belə deməyə əsas verir ki, Azərbaycanda dulusçuluq sənətinin səviyyəsi çox yüksək olub. Belə ki, Azərbaycan məişət keramikasında geniş şəkildə təmsil olunan təsviri motivlər onu bütövlükdə ölkə orta əsrlər dekorativ sənətinin inkişaf etmiş qollarından biri kimi səciyyələndirir. Müasir dövrdə keramika sahəsində yaradıcı axtarışlar keramikanın plastikliyinə, zəngin rəng qammasının mürəkkəbliyinə, rəngin tonal axınına gətirib çıxarır.

Author:

Leman Mamedova
Nakhchivan Teachers Institute
E-mail:
lemanmamedovaa@mail.ru

Key word:
ceramics, arts and crafts, ornamental composition, artistic skill, drawing, artistic traditions, product form, subject images.

CERAMICS WITH ORNAMENTAL AND SUBJECT DRAWINGS

Abstract. The article shows the main trends and specific features of ceramics. The history of the world centers of production of ceramics appears before us in a variety of plot motives, types of decor typical for ceramic products. The main technological types of ceramics are terracotta, majolica, faience, stone mass, porcelain, etc. Ceramics constitutes a vast area of decorative and applied art and monumental art: the plastic properties of clays and the richness of ceramic decor make it possible to create a variety of artistic utensils, sculptures, panels, vases, etc. In Azerbaijan, Turkey and other countries, architectural ceramics has developed highly: patterned brickwork, carved terracotta, polychrome majolica tile and mosaic facing of buildings. Excellent ceramic utensils were also created here. Beautiful painted vessels stood out especially in Azerbaijan. This is a unique decorated ceramics, which has excellent forms, plastic and color variety of texture, which enhances the feeling of even originality of the material. In the modern world, creative searches in the field of ceramics lead to a richly developed plasticity of the object, the severity and complexity of the color range, and tonal flow of color. A brief look at ancient ceramics, from bricks to small statuettes, suggests that the level of pottery in Azerbaijan was very high: the shape of the pottery was perfectly smooth, and the cooking was uniform. In the decoration of monochrome pots and pans, floral ornaments were used, mainly buds, palmettes and elements of Islamic ornament. Products with a human image have a special place in the theme compositions. Often these are scenes of worldly hunting and horse games “chovgan”. The general decoration scheme of such products is directly related to local traditions. Thus, the descriptive motifs, which are widely represented in Azerbaijan household ceramics, characterize it as one of the developed branches of medieval decorative art in the country as a whole. In modern times, creative research in the field of ceramics leads to the plasticity of ceramics, the complexity of the rich color gamut, the tonal flow of color.

Автор:

Ляман Мамедова
Нахчыванский институт учителей
E-mail:
lemanmamedovaa@mail.ru

Ключевые слова:
керамика, декоративно-прикладное искусство, орнаментальная композиция, художественное мастерство, рисунок, художественные традиции, форма изделий, сюжетные изображения

КЕРАМИКА С ОРНАМЕНТАЛЬНЫМИ И СЮЖЕТНЫМИ РИСУНКАМИ

Аннотация: В статье подчеркивается, что история мировых центров производства керамик предстаёт перед нами в разнообразии сюжетных мотивов, видов декор характерных для керамических изделий. Основными технологическими видами керамики являются терракота, майолика, фаянс, каменная масса, фарфор и т.д. Керамика составляет обширную область декоративно-прикладного искусства и монументального искусства: пластические свойства глин и богатство керамического декора позволяют создавать разнообразную художественную утварь, скульптуру, панно, вазы и т.д. В Азербайджане, Турции и в др. странах высоко развивалась архитектурная керамика: узорная кирпичная кладка, резная терракота, майоликовая полихромная плиточная и мозаичная облицовка зданий. Здесь же создавалась превосходная керамическая утварь. Особенно выделялись в Азербайджане красивые сосуды с росписью. Это уникальная декорированная керамика, у которой превосходные формы, пластическая и цветовая разновидность фактуры, усиливающей ощущение ровной первородности материал. В современном мире творческие поиски в области керамики приводят к богато развитой пластике предмета, строгости и усложнённости колористической гаммы, тональным перетеканиям цвета. Сложная объёмная структура предмета уподобляет его скульптуре, способствует пространственной активности.

Способ декорирования керамики печатным рисунком был очень распространён в XIX веке в европейских странах, особенно в Англии. Процесс переводной печати вначале был применён для оформления изделий из эмали на фабрике в Бэттерси (1753-1756 гг.). В 1756 году талантливый гравер Роберт Хэнкок вводит этот метод декорирования для фарфоровых изделий сначала на фабрике в Боу (в малом объёме), а затем на фабрике в Вустере, где печатный рисунок стали использовать очень широко [1].

Кратко метод может быть изложен следующим образом. Сначала рисунок гравировался на медных пластинах, после этого он отпечатывался на специально подготовленной тонкой бумаге, которая очень аккуратно и плотно располагалась на поверхности керамического изделия. Затем изделие погружалось в холодную воду, в результате чего бумага легко снималась. Оставшийся на поверхности керамического предмета монохромный рисунок закреплялся с помощью обжига. Печатный рисунок обходился намного дешевле ручной росписи и очень ускорял процесс декорирования керамики.

В Британском музее и музее Виктории и Альберта в Лондоне хранятся коллекции керамических плиток, оформленных Джоном Сэдлером и Гаем Грином [1]. Темы и сюжеты изображений самые разнообразные – люди на фоне пейзажа, охотничьи сцены, изображения в восточном стиле, иллюстрации, реже встречаются религиозные сюжеты. Как правило, печатные рисунки на керамике XVIII века отличаются удивительной тонкостью и артистизмом. Керамисты использовали чаще всего уже известные гравюры крупных художников, в отдельных случаях можно установить их источники. Достаточно много изображений выполнено по гравюрам с картин мастеров французской школы, таких как Антуан Ватто, Франсуа Буше, Жак-Оноре Фрагонар, Никола Ланкре и другие (3).

В первой половине XIX века подглазурная синяя печать была излюбленным видом украшения английского фаянса и фарфора. Изделия, декорированные таким способом, распространилась по всему миру. Среди других сюжетов особенно популярным был пейзаж в китайском стиле с изображением ивы (он иллюстрирует сказочную историю о девушке). На переднем плане – ива. Этот рисунок был разработан около 1780 года Томасом Минтоном, а несколькими годами позднее использовался Джозайей Споудом на его фабрике (1). Изображение обладает большой условностью и даже схематизмом. Отдельные его элементы как бы накладываются на белую поверхность. Следуя духу китайской живописи, эта белизна заключает в себе глубину и бесконечность пространства. Согласно китайской традиции, рисунок исполнялся синей подглазурной краской. Мастера также очень широко применяют подглазурную синюю печать на своём превосходном фаянсе «цвета сливок». В первом двадцатилетие XIX века некоторые из рисунков были заимствованы из ботанических атласов. Один из них, самый знаменитый, – «Водяная лилия». По всей вероятности, художник, который готовил этот рисунок для украшения керамики, не слепо копировал иллюстрацию в книге по ботанике. На тарелке изображены как бы заповедные заросли, где над водой вздымаются белые нежные цветы и упругие, гибкие листья. Рисунок полностью покрывает внутреннюю поверхность предмета, причём в композиции, кажущейся сначала запутанной, мы чувствуем чёткую продуманность, листья и бутоны у края борта изгибаются по воле художника, подчиняясь округлой форме. Реалистическая достоверность в передаче водяных растений не мешает созданию впечатления романтической таинственности глухого уголка природы. Такое изображение могло появиться и появилось именно в начале XIX века, когда веяние романтизма окрасили все европейские искусства.

В Государственном Музее Керамики (Россия) хранится достаточно редкое и первоклассное в художественном отношении произведение английской керамики, которое мы можем определить как создание эпохи романтизма. Это тарелка тонкого фаянса с изображением морской бури и кораблекрушения (1). Уже в выборе темы гравюры сказывается её романтическая направленность. Она с особой силой передаёт трагизм бессилия человека

перед разбушевавшейся стихией и в то же время трепетную надежду на спасение. Эмоциональная напряжённость выражается здесь во всём: и в намеренно ассиметричной композиции, как бы подчёркивающей неустойчивость, зыбкость движущихся масс воды, и в ритме линий рисунка бурных волн и рушащихся матч, и в светотеневых контрастах облаков, и, наконец, в фигурках людей на скале, протягивающих руки к тонущим. Гравированное изображение было выполнено с удивительным артистизмом, а линии рисунка настолько тонки, что с течением времени красочный слой в некоторых местах стёрся, обнажив блестящую поверхность глазури.

Совсем иным настроением проникнуто изображение гравированного оттиска, выполненного в мягких коричневых тонах, на блюдце 1830-х годов (аналогия в собрании музея Виктории и Альберта). Здесь нарисован вид города с крепостными стенами и башнями, с парусными лодками и фигурами рыбаков на переднем плане. Спокойствием, умиротворённостью, размеренностью бытия веет от этого изображения. Пейзажи, особенно итальянские, нередко появляются среди печатных рисунков на керамике, в чём, вероятно, проявилась романтика путешествий, дальних странствий.

В XVIII веке и в первой трети XIX века печатный рисунок на фаянсе был монохромным: чёрным, синим, красным, коричневым. В 40-е годы XIX века появляется полихромия, когда графическая композиция выполняется в трёх цветах. Так, в оформлении изделия мастера использовали в изображении пейзажа в основном три цвета: чёрный, зелёный и голубой. Печатный рисунок имел высокую технику исполнения: чёткое построение пространственных планов с учётом воздушной перспективы, тонкие градации тонов (4). Если на переднем плане мы различаем даже форму листьев деревьев и кустарников, то мост, постройки на противоположном берегу реки или залива даются достаточно обобщёнными объёмами, а горы вдали как бы тают в голубой дымке.

Около 1781 года в Англии была введена подглазурная синяя печать, причём одним из первых кобальтовых печатных рисунков был уже знакомый нам сказочный китайский пейзаж с изображением ивы.

Особое внимание хотелось обратить на оформление бортов и краёв фаянсовых изделий с печатным рисунком. Каждое керамическое предприятие создавало особый рисунок бордюра, который никогда не копировался соперниками, и в том случае, когда на керамическом предмете нет марки, орнаментальная кайма по борту может стать определением места производства. Развитие бордюра на фаянсе происходило от простого к сложному. Впервые его предложил Вильям Брукс в 1802 году, взяв за источник узкую полоску обоев (1). В первой четверти XIX века, в соответствии со строгими классицистическими вкусами, бортовой рисунок имел или геометризированный характер, или, если использовались какие-то определённые растительные мотивы, отличался чёткой построенностью с равномерно чередующимися элементами. В это время, в частности, часто встречается мотив дубовых листьев и желудей. Далее (в 30-х годах) трактовка бордюра становится более свободной. Цветы, листья, травы группируются по борту более естественно, изображаются очень живо и реалистически точно. Среди фаянса 40-х годов встречаются изделия с орнаментом, который как бы повторяет тканые переплетения. К середине XIX века бордюр приобретает всё большую насыщенность, цветы становятся всё пышнее, объединяются вместе со сложным узором из завитков, которые опять, вместе со вторым рококо, широким потоком хлынули в декоративное искусство. В орнаменте наряду с крупными многолепестковыми цветами и гроздьями сирени либо гортензии присутствуют также загадочные головки существ, отголосок гротескового декора. Эта маленькая деталь – уже примета эклектики. В целом же все эти разнообразные бордюры, виртуозно выполненные, отражают большое мастерство художников-декораторов, работавших над оформлением керамики. И вовсе не случайно английский фаянс в последней четверти XVIII – первой четверти XIX века считался лучшим в Европе. Он отличался высоким качеством самого материала, был удивительно лёгок, имел тонкий черепок. Формы изделий

были просты и удобны в употреблении. Печатные рисунки во многих случаях обладали достоинствами первоклассных произведений графики. Каждый отдельный графический мотив с большим мастерством располагался на поверхности предмета и подвергался неоднократным изменениям в соответствии с особой формой конкретного изделия. Тщательность и большая культура работы с фаянсом с самого начала процесса производства и до конца, естественно, имели результатом ту элегантность и изысканность, которые так привлекали людей.

Фрагмент керамического блюда «минаи»

Глазурованные сосуды XIII-XIV веков

История декорирования керамических изделий в Азербайджане имеет древние корни. Даже поверхностный взгляд на древние керамические изделия, начиная от кирпича и кончая небольшими статуэтками, говорит о том, что уровень гончарного искусства в Азербайджане был очень высоким: форма предметов, сделанных на гончарном круге, была идеально ровной, а обжиг равномерным (5). Керамическая продукция, производившаяся на территории Азербайджана с древнейших времен, отличается большим многообразием типов и зрелостью форм. В целом она может быть подразделена на две большие основные группы: бытовая керамика (неполивная и глазурованная) и строительная керамика (архитектурная – поливная, изразцы, применявшиеся в облицовке зданий, и неполивная – кирпичи, водопроводные трубы). Искусство поливной керамики получает особое распространение в таких крупных торгово-ремесленных центрах страны, как Нахчыван, Бейлакан, Гянджа, Габала, Шабран, Баку и т.д. (2). Несмотря на общность стиля и принципов построения декора, художественная керамика этих городов отличается локальными особенностями, присущими каждому городу в отдельности. Глазурованная (поливная) керамика имела, несомненно, более практичное значение, она отличалась большим разнообразием форм (прежде всего – видов и типов посуды) и художественного оформления. Основным способом декорирования поливной керамики является роспись цветными красками по ангобу. При этом многие центры керамического производства отличались индивидуальными, свойственными только им, декоративными и колористическими особенностями керамической продукции. В декоре этих изделий, наряду с геометрической орнаментацией, большое распространение получил стилизованно-растительный орнамент. В дальнейшем в декоре керамических изделий начинает активно применяться эпиграфический орнамент. Из растительных орнаментов в декоре монохромных чаш и блюд использовались в основном бутоны, пальметки и элементы орнамента «ислими». Особое место занимают изделия с изображением человека в сюжетных композициях. Часто это сцены светской охоты и конной игры «човган». Общая схема декора таких изделий напрямую связана с местными традициями. Таким образом, изобразительные мотивы, широко представленные в бытовой керамике Азербайджана, характеризуют ее в целом как одну из развитых отраслей средневекового декоративного искусства страны (6).

Большой интерес вызывают фаянсовые изделия типа «минаи», выявленные при археологических раскопках на городище Шамкир в 2007-2016 гг. Они представлены

двумя подгруппами: а) с молочно-белой глазурью; б) с бирюзовой глазурью, причем преобладает первая разновидность. Эта керамика выделяется высокохудожественными образцами, украшенными изображениями людей и животных, близкими к книжным миниатюрам. На дне одной чаши, в центре композиции, имеется изображение всадника на растительном фоне. Подобные изображения коня встречаются на миниатюрах средних веков. Рисунок коня выполнен различными оттенками оранжевого цвета. Растительный орнамент отличается неестественно голубыми листьями с красно-коричневым бутоном. Рисунок заключен в широкий круг, также красно-коричневого цвета. Стенки чаши расписаны сеточным узором с ромбовидными и треугольными ячейками, внутри которых изображены кружочки красно-коричного и зелено-голубого цвета. Сюжетные изображения отличается динамикой, чему способствует сочетание светло-коричневых, бледнокоричневых и серых оттенков с черным и красным цветами. На изделиях керамики типа «минаи» отчетливо прослеживается влияние искусства миниатюры. Подобно книжным миниатюрным иллюстрациям, изображения на этой керамике представляют собой отражение реальной действительности. Они напоминают миниатюрные иллюстрации рукописей. Стиль изображений почти идентичен миниатюрным иллюстрациям известного памятника книжного искусства азербайджанской рукописи «Варга и Гюльша» начала XIII века (7). Важно отметить, что и каллиграфия переходит из книжных рукописей в область художественной керамики. Живопись часто сопровождается эпиграфическим орнаментом.

Изучая произведения керамики прошлого, ещё и ещё раз убеждаешься, какой бесценной художественной сокровищницей является наследие былых эпох.

Литература

1. Карякина, Т. Английский фаянс с печатным рисунком. Декоративное искусство 2/327, – Москва, – 1985. – 48с.
2. Əliyev, H. Təsviri sənət nəzəriyyəsi. / H. Əliyev, L. Məmmədova – Naxçıvan: Qeyrət, – 2017. – 245s.
3. Популярная Художественная Энциклопедия / – Москва: Сов Энциклопедия, – Книга I, – 1986, – 447 с.
4. Фёдорова З.С., История художественной керамики / З.С.Фёдорова, Р.Р.Мусина. Учебное пособие, – Москва: МГХПУ им. – Строганова, – 2013. – 360 с.
5. https://azerhistory.com/?p=8577
6. https://azerhistory.com/?p=36239
7. https://azerhistory.com/?p=21175

Məqalə sənətşünaslıq üzrə fəlsəfə doktoru Həbibə Allahverdiyeva tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 01 fevral 2022-ci il
Son daxilolma tarixi:02 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

UOT 785.7

Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2022, № 2, s. 189-193
Nakhchivan Teachers Institute. Scientific Works, 2022, № 2, p. 189-193
Нахчыванский институт учителей. Научные труды, 2022, № 2, с. 189-193

FİKRƏT ƏMİROV AZƏRBAYCANDA KONSERT JANRININ YARADICISI KİMİ

Müəllif:

Ruhiyyə Dünyamalıyeva
Naxçıvan Dövlət Universiteti
E-mail:
ruhiyedunyamaliyeva@gmail.com

Açar sözlər:
Fikrət Əmirov, Azərbaycan, mədəniyyət, musiqi, konsert janrı

Annotasiya.Məqalədə ilk milli nümunələri F.Əmirovun yaradıcılığında meydana gələn konsert janrının Azərbaycanda təşəkkülündən, bəstəkarın simfonik təfəkkürü, fortepiano yaradıcılığı, bu alətlə orkestr səslənməsinin üzvi qovuşmasını ən gözəl şəkildə təqdim edən konsert əsərlərinin yaranmasından bəhs edilir. F.Əmirovun yaradıcılığı zəngin elementlər, milli xüsusiyyətlər, yenilikçi cəhətləri ilə diqqəti cəlb edən, özündə xəlqilik, dünyəvilik kimi mühüm faktorları birləşdirən əzəmətli yaradıcılıqdır. Konsert janrında yazdığı əsərlər F.Əmirovun yaradıcılıq təxəyyülünün yeni ideyaları üçün laboratoriya rolunda çıxış edir. Bu janrda etdiyi eksperimentlərdə Avropa və ya xalq çalğı alətlərinin solo alət ilə möhtəşəm deyişməsində incə nüanslar kəşf edir və simfonik muğam təfəkkürünü hazırlayır. Ərəb mövzularını milli lad-məqam intonasiyaları ilə özününküləşdirən bəstəkar musiqili inkişafda yeni ştrixlər əldə etmişdir. Azərbaycanda klassik Avropa qanunauyğunluqlarının orijinal təcəssümü F.Əmirovun yaradıcılığında ilk nümunələri yaranan konsert janrında növbəti dəfə özünün milli xarakterini qazanır. Məqalədə F.Əmirovun konsert janrında etdiyi nailiyətlər öz əksini tapmış və F.Əmirov yaradıcılığına xas olan xüsusiyyətlər araşdırılmışdır.

Author:

Ruhiya Dunyamaliyeva
Nakhchivan State University
E-mail:
ruhiyedunyamaliyeva@gmail.com

Key word:
Fikret Amirov, Azerbaijan, culture, music, concert genre

FIKRAT AMİROV CONCERT İN AZERBAIJAN AS THE CREATOR OF THE GENRE

Abstract. The article discusses the formation of the concert genre in Azerbaijan, the first national examples in the works of F. Amirov, the composer's symphonic thinking, piano work, the creation of concert works that best present the organic combination of orchestral sound with this instrument. F.Amirov's work is a great work that attracts attention with its rich elements, national features, innovative features, combining such important factors as nationalism and secularism. His works in the concert genre act as a laboratory for new ideas of F. Amirov's creative imagination. In his experiments in this genre, he discovers subtle nuances in the magnificent exchange of European or folk instruments with a solo instrument and develops symphonic mugam thinking. The article reflects F.Amirov's achievements in the concert genre and examines the peculiarities of F.Amirov's work.

Автор:

Рухия Дуньямалиева
Нахчыванский государственный университет
E-mail:
ruhiyedunyamaliyeva@gmail.com

Ключевые слова:
Фикрет Амиров, Азербайджан, культура, музыка, концертный жанр

ФИКРЕТ АМИРОВ КАК СОЗДАТЕЛЬ КОНЦЕРТНОГО ЖАНРА В АЗЕРБАЙДЖАНЕ

Аннотация: В статье рассматривается становление концертного жанра в Азербайджане, первые национальные образцы в творчестве Ф. Амирова, симфоническое мышление композитора, фортепианное творчество, создание концертных произведений, в которых наилучшим образом представлено органичное сочетание оркестрового звучания с этим инструментом. Творчество Ф.Амирова – великое произведение, привлекающее внимание богатыми элементами, национальными чертами, новаторскими чертами, сочетающими в себе такие важные факторы, как как народность, светскость Его произведения в концертном жанре выступают лабораторией новых идей творческого воображения Ф. Амирова. В своих опытах в этом жанре он обнаруживает тонкие нюансы в великолепном обмене европейских или народных инструментов с сольными инструментами и развивает симфоническое мугамное мышление. В статье отражены достижения Ф.Амирова в концертном жанре и рассмотрены особенности его творчества.

Azərbaycan musiqi mədəniyyəti tarixində yaradıcılıq dühası və bəstəkarlıq üslubu ilə fərqlənən görkəmli sənətkarlardan biri də F.Əmirovdur. Məhz F.Əmirovun yaradıcılığında konsert janrının ilk nümunələri meydana gəlmişdir. F.Əmirovun simfonik təfəkkürü, bu təfəkkürün məhsulu olaraq yaranan simfonik muğam janrı konsert janrının da Azərbaycanda təşəkkülünün əsasını formalaşdıran mühüm amillər olaraq qəbul edilməlidir.

F.Əmirovun musiqisi tembr səslənməsində rəngarəng səs çalarları, incə ifadə tərzi ilə diqqəti cəlb edir. Bəstəkar hər bir alətin səs tembrinə diqqətlə yanaşaraq olduqca cazibədar melodiyalar yaratmışdır. Onun musiqisinin əhəmiyyəti də məhz melodiyalarının zənginliyi ilə xatrakterizə olunur. F.Əmirovun musiqisi milli elementlər, xalq musiqisindən yaradıcı təfəkkürlə istifadə edildiyi üçün bu qədər əzəmətlidir.

F.Əmirovun yaradıcılığında fortepiano və orkestr müsiqisi əhəmiyyətli sahələrdən biridir. Digər janrlar kimi bu iki müxtəlif sahənin dialoqunda da bəstəkar ecazkar obrazlar aləmi yaratmağa nail olmuşdur. F.Əmirovun konsert janrında yazdığı əsərlərin mahiyyətini dərk etmək üçün onun fortepiano və simfonik janrda yazdığı əsərləri düzgün qiymətləndirmək lazımdır. F.Əmirov üçün simfonik musiqi yaradıcılıqda yeni nailiyyətlərin ifadə edilməsində mühüm vasitədir. Bəstəkarın simfonik təfəkküründə monumental formalar və ziddiyyətli dramaturji inkişaf yaddır. Lakin F.Əmirovun orkestr musiqisi olduqca əhatəlidir. Bu sahədə o instrumental konsert, kapriççio, qravür, simfonik muğam, simfonik rəqslər kimi müxtəlifliyi ilə seçilən əsərlər yazmışdır.

F.Əmirovun fortepiano müsiqisini isə miniatür xarakter daşıyıb, ilk növbədə silsiləli əsərlərin panoraması kimi də xarakterizə edə bilərik. Bəstəkarın "Uşaq lövhələri" və "On iki miniatür" bu baxımdan maraqlıdır. Digər tərəfdən onun 50-ci illərə aid "Romantik sonata"sı, variasiyaları, 2 ekspromtu, prelüdləri fortepiano musiqisi sahəsində novator xüusiyyətlərə malik əsərlərdir. Ümumiyyətlə bir çox "ilk"lərə imza atan F.Əmirovun konsert janrında yazdığı əsərlərində də fərdi bəstəkarlıq üslubu, ifadədə yaradıcılıq təxayyülünün çoxşaxəliliyi diqqəti cəlb edir.

40-cı illəri F.Əmirovun həyatında təkamül illəri kimi qiymətləndirmək olar. Bu illərdə bəstəkarın yaradıcılığında müxtəlif musiqi janrlarının ilk milli nümunələri yaranır. Onun 1945-ci ildə yazdığı skripka və fortepiano üçün "İkili konsert" əsəri Azərbaycan musiqi mədəniyyəti tarixində konsert janrında yazılmış ilk əsər olur. Daha sonra o, A.Babayevlə birlikdə fortepiano və xalq çalğı alətləri üçün konsertini yazır. Bu əsər də Azərbaycanda fortepiano ilə xalq çalğı alətləri orkestrinin mükəmməl duetini yaradan ilk əsərdir. Konsert ilk dəfə S.Rüstəmovun dirijorluğu və E.Qranberqin solistliyi ilə xalq çalğı alətləri orkestrinin ifasında 1948-ci ildə Keçmiş Sovetlər Birliyinin Bəstəkarlar İttifaqının plenumunda ifa olunaraq müəllifi haqqında müsbət rəylərin meydana gəlməsinə səbəb olur.

"İkili konsert"də hər iki solo alətin tembr xüusiyyətlərində rəngli çalarlar kəşf edən bəstəkar bu çalarlarla orkestr səslənməsində incə palitra yaratmağa nail olmağı bacarmışdır.

"İkili konsert"də F.Əmirovun melodiyalar zincirinin zənginliyi ilə qarşılaşırıq. Burada xalq musiqisinin incəlikləri, muğam elementlərindən bəhrələnən bəstəkar emosional, eyni zamanda zərif duyğular tərənnüm edir. Konsertdə bütün orkestrin susqunluğunun fonunda mövzu ilk dəfə fortepiano alətində keçir. Burada "Sevil" operasından Balaşın ariyasınının melodik əsası eşidilir. Bu intonasiyalar bütün əsər boyu davam edir. Mövzu gah fortepiano, gah da skripka partıyasına ötürülür. Bəzən də orkestrin ümumi ahəngində əriyir.

Fortepiano partiyasında keçən mövzudan sonra inkişaf skripka partiyasında davam edir. İlk başda fortepianonu sanki müşayiət edir təsiri bağışlayan solo skripkanın partiyası daha sonra intensiv xarakter alır. Burada bəstəkarın "Lay-lay" əsərindən kiçik motivləri eşitmək mümkündür. Yenə "Sevil" operasından Balaşın ariyası ilə yaxın mövzu inkişafı davam etdirir.

Sonra inkişaf hər iki alətin səslənməsində dramatik çalarlar qazanmağa başlayır. Temp tezləşir, bu dəyişkənlik xarakterin dəyişməsi ilə nəticələnir. Hərəkətə nəfəsli alətlər qoşulur. Fleytalar öz partiyasında mövzuda eşidilən intonasiyaları inkişaf etdirir. Sonra skripka, fortepiano, orkestrin maraqlı dialoqu ortaya çıxır. F.Əmirov yaradıcılığına ümumilikdə xarakterik olan incə tonlar Balaşın ariyasından tanış elementləri canlandırır. Sonrakı inkişafda bəstəkarın simfonik muğamlarına xas xüsusiyyətlər ortaya çıxır. "Bayatı-Şiraz" məqamına edilən meyililik orkestrdə nəfəsli alətlərlə xarakterizə olunur. Onlarla fortepianonun duetinə skripka qoşulur. Hər iki alətin qarşılıqlı əlaqəsi möhtəşəm səslənmədə özünü göstərir. Skripkalarda yenidən inkişaf sürətlənir. Balaşın ariyasının movzusu növbəti dəfə keçir.

Skripka, fortepiano orkestr üçün yazılmış "İkili konsert" ilə tanış olarkən cəsarətlə demək olar ki, bu əsərində F.Əmirov "Sevil" operasının vokal partiyaları üçün maraqlı zəmin hazırlayıb. Bu da nəzərə alınsa ki, əsər "Sevil" operasından hardasa 10 il əvvəl yazılmışdır. Bunun məhz belə olduğu qənaətinə gəlmək mümkündür.

Özünün "İkili konsert"ində maraqlı obrazlar aləmi yaradan F.Əmirov əsərlə milli musiqi tarixində yeni janrın yaradıcısı kimi çıxış edərək milli musiqi xəzinəmizi janr müxtəlifliyi ilə zənginləşdirir. Əsərin muğam əsası F.Əmirovun milli folklorla əlaqəsinin növbəti təntənəsidir. Ümumiyyətlə Azərbaycanda 50-60-cı illərdə konsert janrına xas xüsusiyyətlərin folklor və F.Əmirov ənənələri ilə bağlılıqla inkişaf etdiyini vurğulayan T.Seyidov yazır: "Nəzərdən keçirilən dövrün konsert janrı F. Əmirov tərəfindən əsası qoyulan və folklor istiqaməti ilə bağlı ənənələrdə inkişaf edirdi. Milli (F.Əmirov və A. Babayevin konserti), eyni zamanda qeyri-milli (ərəb mövzularına konsert) folklor materialı Azərbaycan bəstəkarlarının yaradıcılığında yeni intonasiya və obraz sahəsində axtarışlar üçün zəminə çevrildi"[13, s.117].

Azərbaycan bəstəkarlarının kosert janrında yazılmış əsərlərində virtuz xarakter böyük əhəmiyyət kəsb edir. Bəstəkarlarımız xüsusilə fortepiano konsertlərində solo alətin texniki imkanlarının möhtəşəmliyini nümayiş etdirməyə çalışırlar. Konsertlərdə metro-ritmik xüsusiyyətlər milli folklor nümunələri, xalq musiqisinə əsaslanır. Bu əsərlərdə muğam ifaçılığından taniş olan intonasiyalarla tez-tez qarşılaşmaq mümkündür. Metrin sabitliyi və ya nisbi sabitlik çox vaxt rəqslərdən tanış olan o qədər də mürəkkəb olmayan ritmik xüsusiyyətlərlə uzlaşır. Azərbaycan bəstəkarlarının konsertləri üçün muğam sənətinə xas ritm dəyişkənliyi xasdır. Belə ki, "dəstgah"larda olduğu kimi milli konsert nümunələrində də bütün hissələr vahid ölçü əsasında inkişaf etmir. Bu cəhət bir çox mənada F. Əmirov yaradıcılığı üçün də xarakterikdir.

F.Əmirov konsert janrında ilk uğurundan sonra bəstəkar A.Babayevlə birlikdə fortepiano və xalq çalğı alətləri üçün konsertini yazır. Bu əsər də özünün muğam əsası ilə diqqəti cəlb edir. Əsər xalq çalğı alətlərinin möhtəşəm girişi ilə başlayır. Sonra solo alət ilə bütün orkestrin dialoqu gah intensiv, dramatik, gah da zərif xüsusiyyətlər qazanır.

F.Əmirov konsert əsərlərində sonrakı illərdə əsasını qoyduğu simfonik muğamların ilkin elementlərini işləyir. Burdan da görünür ki, konsert janrında yazdığı əsərlər F.Əmirovun yaradıcılıq təxəyyülünün yeni ideyaları üçün laboratoriya rolunda çıxış edir. O, bu janrda etdiyi eksperimentlərdə Avropa və ya xalq xalq çalğı alətlərinin solo alət ilə möhtəşəm deyişməsində incə nüanslar kəşf edir və simfonik muğam təfəkkürünü hazırlayır.

İlk milli nümunələri F.Əmirovun yaradıcılığında meydana gələn konsert janrının Azərbaycanda təşəkkülü bir sıra digər mühüm amillərlə də aləqədar olmuşdur. Bu amillərə misal olaraq milli xalq təfəkkürünün məhsulu olan muğam sənətindən, xalq musiqisi, aşıq musiqisi intonasiyalarından bəstəkar yaradıcılığında istifadə olunması kimi çoxşaxəli inkişaf prinsipini göstərmək olar. Əsası

Ü.Hacıbəyli tərəfində qoyulmuş Azərbaycan bəstəkarlıq məktəbinin hər bir nümayəndəsi bu zəngin mənbədən mütləq bəhrələnmiş, və onu yaradıcılıqlarının fundamental əsasına çevirmişlər. Buna görə də xalq musiqisindən istifadə məsələsi milli konsert janrından da yan keçməmişdir. Bəstəkarlarımız xüsusilə solo alətlər və xalq çalğı alətləri orkestri üçün yazılmış konsertlərində xalq musiqisi nümunələrinə daha çox müraciət etmişlər. Solo alətlərin xalq çalğı alətlərinin müşatyətində möhtəşəm səslənmə yaratmasının əsas səbəblərindən biri də xalq musiqisinin onlarda yüksək pafosla ifadə olunması ilə əlaqədardır.

Xalq müsiqi ilə zəngin harmonik inkişaf yaratmaq bəstəkarlarımızın bütün əsərlərinin məna dəyərini artırmışdır. Bu konsert janrlarında musiqidən istifadə olunması da milli koloritin özünməxsus dərinliklə ifadə olunması demək idi. Bəstəkarlarımız konsert janrında xalq musiqisindən istifadə məsələlərinə hər dəfə yeni yaradıcılıq istiqamətindən yanaşmış, bu əsərləri incə, bəzən qəhrəman, bəzən dramatik xarakterli xalq musiqisi nümunələri, müxtəlif obrazlı muğam sənəti intonasiyaları ilə zənginləşdirmişlər.

Bütün digər janrlar kimi konsert əsərləri də musiqişünaslıq baxımından tədqiq olunması üçün zəngin materialdır. Buna görə də konsert əsərlərinin Azərbaycanda təşəkkül prosesi daim diqqət mərkəzində olmuşdur. Bu haqda yazılır: "Azərbaycan instrumental konsert musiqisi özünəməxsus təkamül və inkişaf yoluna, mükəmməl əsərlərə və yüksək bədii keyfiyyətlərə malik olduğu üçün, digər tərəfdən isə, müasir bədii-estetik tələblərə cavab verdiyi üçün tədqiqatçıların elmi marağına səbəb olmuşdur. Bu baxımdan, instrumental konsert musiqisinin XX əsrdə keçdiyi tarixi təşəkkül, təkamül və inkişaf yolu, onun intensivliyi, mərhələvi xarakteri, müxtəlif janr, forma və üsluba, yüksək bədii məziyyətlərə malik yeni violin əsərlərinin meydana gəlməsi, onların ifaçılıqda və tədrisdə uğurlu tətbiqi-bütün bu nailiyyətlər instrumental musiqisinin elmi tədqiqtçıları üçün bir sıra maraqlı mövzular və məsələlər qaldırmışlar" [6, s.3].

Konsert janrının özünəmxsuluğu F.Əmirovun bu sahədə yenidən orijinal əsər yazmağını yetişdirərək 1957-ci ildə ərəb mövzuları əsasında yeni nailiyyətin əldə olunması ilə nəticələnir. Bəstəkar 1957-ci ildə E. Nəzirova ilə birlikdə "Fortepiano və orkestr üçün ərəb mövzularına konsert"ini yazır.

F.Əmirov üçün ərəb mövzuları yaradıcılıq təxəyyülünün ifadəsində mühüm əhəmiyyətə malik olmuşdur. Təsadüfi deyil ki, o oriyental xüsusiyyətlərlə zəngin olan ərəb motivlərinə dəfələrlə müraciət etmişdir. Bəstəkar bu mövzulara istinad edərək yardıcılığının şah əsəri olan "Min bir gecə" baletini yaratmışdır. O, ərəb mövzularından ilk dəfə H.Cavidin eyni adlı dramına yazdığı musiqidə istifadə etmişdir. Bu hər kəs tərəfindən sevilən "Şeyx Sənan" dramına yazılmış musiqi nömrəsidir. Fortepiano konsertində isə F.Əmirovun mövzulardan orijinal formada bəhrələnmək qabiliyyəti üzə çıxır. Bu da qeyd edilməlidir ki, ərəb mövzularını bəstəkar öz əsərlərində milliləşdirir. Yəni ərəb oriyentalizmini milli təfəkkürə tabe tutan bəstəkar Azərbaycan musiqisinin lad-məqam ünsürləri vasitəsilə yeni maraqlı melodiyalar yaradır. Bu baxımdan da onun fortepiano konsertinin musiqisi Azərbaycan dinləyicisi üçün doğma xüsusiyyətlər qazanır. Bu haqda S. Ağayeva yazır: "Əsərdə ərəb mövzusu Azərbaycan milli incəsənətinin nöqteyi-nəzərindən verilir. Bəstəkar və ifaçı özlərinin dərin, özünə məxsus musiqi dilini onlara doğma olan Azərbaycan incəsənəti zəminində yaratmışlar. Həmin musiqinin milli əsası elə dərin və üzvidir ki, hətta onlar orijinal, həqiqi örnəklərdən istifadə etmə-dikləri hallarda da musiqi milli çalarını qoruyur. Konsertdə ərəb musiqi materialı müəlliflərin musiqi materialı ilə qovuşmuşdur və onlar arasında fərq duyulmur" [3, s336].

"Fortepiano və orkestr üçün ərəb mövzularına konsert" F.Əmirovun Misir və Suriyaya etdiyi səfərin təssüratları əsasında yazılmışdır. Milli konsert janrında yazılmış ilk əsərlər arasında ən gözəl xüsusiyyətləri ilə diqqəti cəlb edən əsər musiqisində parlaq səs çalarlarının bolluğu ilə diqqəti cəlb edir. Əsər ərəb nağıllarında təsvir olunan bədii obrazların musiqi dili vasitəsilə ifadəsi təssüratı bağışlayır. Lakin bu milli ornamentli musiqidir. Onun təyinatı da xalq musiqi nümunələri ilə izah olunur. Konsertdə orkestr səslənməsində orijinal üslub kəşf edən müəlliflər ərəb dünyasının ekzotik oriyental xüsusiyyətlərini canlandırır. Bu zaman ərəb ölkələrində geniş istifadə olunan musiqi alətlərinin simfonik orkestrdə imitasiyası rəngarəng obrazların yaranmasında əhəmiyyətli cəhət kimi ortaya çıxır. Konsert daha çox alətlər qrupu ilə solo partiyanın ansamblı səciyyəsi daşıyır. Bu ansamblı möhtəşəm deyişmə kimi də xarakterizə edə bilərik. Konsertdə mövzular arasında keçidlər alətlər partiyasında da birindən digərinə ötürülür.

Ümumiyyətlə konsertin melodiyasında şərq xalqlarına xas melodik inkişafın improvizasiyalılığı diqqəti cəlb edir. Bu dinamik xətdə başlıca cəhət kimi özünü nümayiş etdirir.

"Fortepiano ilə orkestr üçün ərəb mövzularına konsert"də fortepiano partiyasının möhtəşəm atəşfəşanlığı ilə qarşılaşırıq. Solo alətin musiqili ifadəsi o qədər zəngin çalarlara malikdir ki, bu emosional başlanğıcın əsasını təşkil edir. Fortepiano partiyasının fakturasında akkord əlaqələri melodiyanın pafoslu kulminasiyasını təmin edir.

Konsertin fakturasında müxtəlif ritmik xətlər, zəngin akkord passajları, mürəkkəb texniki vasitələr ifaçılıq sənətində də əhəmiyyətli ünsür kimi qiymətləndirilir. Belə ki, ifaçıdan yüksək peşəkarlıq tələb edən konsert virtioz forptepiano ifaçılarının tez-tez müraciət etdiyi əsərlərdəndir.

Beləliklə XX əsrin zəngin musiqili mühitində öz başlanğıcını F.Əmirovun yaradıcılığından götürmüş konsertin 40-50-ci illərdə yaranmış ilk milli nümunələrinin simasında Azərbaycanda janrın xarakterik xüsusiyyətlərinin formalaşdığının və bununla da mürəkkəb inkişaf prinsipi ilə maraqlı dialoq-deyişmə yaradan həmin janrın Azərbaycanda təşəkkül tapıb, formalaşdığının şahidi oluruq.

Ədəbiyyat

1. Azərbaycan musiqi tarixi I cild – Bakı:Elm, – 2012.
2. Azərbaycan musiqi tarixi II cild – Bakı:Elm, – 2017.
3. Azərbaycan musiqi tarixi III cild – Bakı:Elm, – 2018.
4. Azərbaycan musiqi tarixi IV cild – Bakı:Elm, – 2019.
5. Abdullayeva Z. Azərbaycan musiqi ədəbiyyatı –Bakı: Adiloğlu, – 2009.
6. Cahangirov, C. Violin və orksetr üçün konserinin tar və forteiano üçün köçürməsi – Bakı: – 2019. – s.3.
7. Əliyeva, F. Azərbaycan musiqisində üslub axtarışları. – Bakı: – 1996.
8. İsgəndərova, A. Fikrət Əmirovun fleyta və fortepiano üçün pyeslərinin üslub xüsusiyyətləri // Konservatoriya – 2021. №2.
9. Qasımova, S. Azərbaycan musiqi ədəbiyyatı. / S.Qasımova, Z.Abdullayeva – Bakı: Elm və təhsil, 2011.
10. Qasımova, S. Azərbaycan musiqi ədəbiyyatı. Dərslik. I hissə – Bakı: Adiloğlu, – 2009
11. Zöhrabov, R.F. Muğam. / R.F.Zöhrabov – Bakı: Azərnəşr, – 1991.

Məqalə musiqişünas Məhəbbət Babayeva tərəfindən təqdim olunmuşdur.

İlk daxilolma tarixi: 08 fevral 2022-ci il
Son daxilolma tarixi:11 mart 2022-ci il
Qəbuledilmə tarixi: 26 aprel 2022-ci il

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi pedaqogika, psixologiya, tarix, filologiya, riyaziyyat və informatika, biologiya və incəsənət üzrə yazılmış mövcud tələblərə cavab verən keyfiyyətli elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və keyfiyyətlə redaktə olunmuş orijinal elmi məqalələr dərc edilir.
3. Məqalələrin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada göstərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Dərc olunan hər məqalə haqqında redaksiya heyəti üzvlərindən ən azı birinin, həmin sahə üzrə mütəxəssisin rəyi təqdim olunmalıdır.
6. Məqalələr üç dildə - Azərbaycan, ingilis və rus dilərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə açar sözlər və xülasə verilməlidir.
7. Məqalənin mətni kompyuterdə A4 formatında "14" ölçülü hərflərlə, səhifənin parmetrləri yuxarıdan 2 sm, aşağıdan 2 sm, soldan 3 sm, sağdan 1,5 sm məsafə ilə, sətirdən-sətrə "defislə" keçmədən, sətir aralığı 1 interval olmaq şərtilə Times New Roman şriftində yazılır. Mətnin daxilində olan cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin başlığında sağ küncdə "12" ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı, sonra aşağıda "12" ölçülü adi şirftlə işlədiyi təşkilatın adı (məs: Naxçıvan Müəllilər İnstitutu, Naxçıvan Dövlət Unversiteti, AMEA Naxçıvan Bölməsi və s), 1 interval ara verməklə «12» ölçülü qalın və böyük hərflərlə məqalənin adı, aşağıda 1 interval ara verməklə məqalənin yazıldığı dildə xülasə və açar sözlər yazılır. Məqalənin əsas mətni yenə də 1 sətir boş buraxmaqla yazılır.
9. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı "12" ölçülü hərflərlə yazılmalıdır. İstinadlar əlifba ardıcıllığı ilə deyil, ədəbiyyatların mətndə rast gəlindiyi aradıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir. «Ədəbiyyat» sözü səhifənin ortasında qalın hərflərlə yazılmalıdır.
Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə yığılır. Məs:
Kitablar:
Mehrabov A., Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı, 2007, 182 s.
Məcmuə məqalələri:
Həbibbəyli I.Ə. Naxçıvanda elm və mədəniyyət /Azərbaycan tarixində Naxçıvan. Bakı: Elm, 1996, s.73-91.
Jurnal məqalələri:
Seyidov M.A., Seyidova A.M. Kimyəvi elementlərin tədrisində fənlərarası əlaqədən istifadə metodikası // Naxçıvan Müəllimlər Institutunun Xəbərləri, 2008, №1 (13), s. 97-100.
10. Məqalənin xülasəsində müəllifin adı və soyadı "12" ölçülü kiçik və qalın, mövzunun adı böyük və qalın, xülasənin özü və açar sözlər isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir. Məqalənin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır.
11. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-15 səhifədən ibarət olmalıdır.
12. Çap olunmuş əlyazma disketlə birlikdə jurnalın redaksiyasına şəxsən təqdim edilir. Əlyazmaların elektron qaydada təqdim edilməsi də mümkündür. Bu zaman əlyazma jurnalın elektron poçtuna (elmieserler@nmi.edu.az, contact@elmieserler.net) göndərilir.
13. Müəlliflər redaksiyaya əlyazma ilə birgə doldulmuş anket də təqdim edirlər. Anketdə müəllif haqqında ətraflı məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, elmi dərəcəsi və elmi adı, ünvanı, iş və ev telefonları, elektron poçt ünvanı) verilir.
Qeyd: "Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər" jurnalının hər bir nömrəsində müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.

TO THE ATTENTION OF AUTHORS

1. The main purpose of the journal is the publication of SCIENTIFIC articles of high quality meeting determined needs written on pedagogy, psychology, history, philology, mathematics and informatics, biology and art
2. Briefly and perfectly edited SCIENTIFIC articles which are the results of novel researches not presented to other publications are published in the journal.
3. The number of co-authors of the articles with more than 3 is undesirable.
4. The author is directly responsible for the quality of the articles and the correctness of the facts suggested in the article.
5. At least, one of the members of editorial staff, the review of specialist in that field should be presented about every article to be published.
6. The articles may be published in 3 languages - Azerbaijani, English and Russian. Except the language of the article, key words and resume should be given in 2 other languages.
7. The text of the article is presented to the editorial office of the journal written in computer, with A4 format, in "14" size type, with the margin parameters of 2 cm at the top, 2 cm at the bottom, 3 cm on the left and 1,5 cm on the right, without shifting with "hyphen" from line to line, with the line space of 1 interval and in Times New Roman type. The parameters of the schedule in the text must be – 3,7 cm from right and left.
8. At the top of the page, the title of the article is written in "12" bold type and capital letters leaving 1 interval space, with the name and surname of the author (authors) written in "12" bold type leaving 1 interval space (for example, Nakhchivan Teachers' Institute, Nakhchivan State University, Nakhchivan section of ANAS and so on). The main text of the article is written below leaving 1 line space.
9. SCIENTIFIC sources should be quoted related to the theme. The list of references given at the end of the article should be written in "12" size type. The list of references should not be numbered in alphabetic order, it should be numbered in the order as the quoted references are met in the text. For example, it should be marked as [1], [1, p.119]. If the same reference is quoted once again in another place of the text, the very reference should be shown in previous number. The word "Reference" should be written in bold type. The list of references is given in case letters in the language which is written. For example,

Books:

Mehrabov, A., Javadov I. Monitoring and evaluation in comprehensive schools. Baku, 2007, 182 pp.

Articles in bouk:

Habibbaily I.A. Science and Culture in Nakhchivan/ Nakhchivan in Azerbaijan history. Baku: Science, 1996 p.73-91

Articles in journal:

Seyidov M.A., Seyidova A.M. Usage methods of interdisciplinary relationships in the teaching of chemical elements// News of Nakhchivan Teachers' Institute, 2008, № 1 (13), p.97-100.

10. In the resume of the article, the name and surname of the author sould be written in "12" size case, bold letters; the title of the theme should be written in capital and bold letters; and the resume itself is written in ordinary letters. The resume should encompass the theme completely, the results obtained should be given in detail. The resumes of the article in different languages should overlap and be relevant to the content of the article.
11. The total volume of the article should not exceed 15 pages including graphic materials, photos, tables, formulae, the list of references and resumes.
12. The printed manuscript is presented to the editorial office together with the floppy disk. Manuscripts are also available electronically. In this case, the manuscript is sent to the journal's e-mail (elmieserler@nmi.edu.az, contact@elmieserler.net).
13. The authors also submit a review with the manuscript. In the review, the author will be given detailed information about the author (surname, name and patronymic, workplace, post, degree of science and SCIENTIFIC title, address, work and home phones, electronic mail address).

Note: Only one article by the author is considered to be published in every issue of "Nakhchıvan Teachers Institute. Scientific works".

К СВЕДЕНИЮ АВТОРОВ

1. Основная цель журнала – публикация качественных научных статей по педагогике, психологии, истории, филологии, математике и информатике, биологии и искусствоведению, отвечающих установленным требованиям.
2. В журнале публикуются результаты исследований в виде оригинальных и тщательно отредактированных научных статей, ранее не представленных к другим изданиям.
3. Количество соавторов более трех человек нежелательно.
4. Автор носит прямую ответственность за качество содержания статьи и достоверность указанных в ней фактов.
5. Для опубликования статьи в журнале необходимо представить рецензию одного специалиста по этой области научных знаний и представления одного из сотрудников редколлегии.
6. Статьи могут быть написаны на одном из трех языков - азербайджанском, английском или русском. Ключевые слова и аннотации должны быть написаны и на двух других языках.
7. Текст статьи должен быть сверстан на компьютере шрифтом Times New Roman, (размер шрифта -14 pt) на бумаге А4 с полями: верхним – 2 см; нижним – 2 см; правым – 3 см; левым – 1,5 см, без переносов с межстрочным интервалом 1,5 см. Параметры внутритекстовых таблиц - 3,7 см с правой и левой стороны.
8. Текст статьи должен быть написан следующим образом: в правом верхнем углу первой страницы имя и фамилия автора (авторов) заглавными жирными и прямыми буквами (размер шрифта -12 pt), ниже прописным шрифтом (размер шрифта – 12 pt) - место работы (например, Нахчыванский институт учителей, Нахчыванский государственный университет, Нахчыванский отделение НАНА и т. д.), далее через интервал по середине заглавными жирными и прямыми буквами (размер шрифта -12 pt) – название статьи, ниже через интервал с начала строки с отступом - аннотацию и ключевые слова на языке оригинала, далее через интервал - основной текст статьи
9. В статье делаются ссылки на научные источники по тематике. Список литератур, данный в конце статьи, пишется прописными буквами размером 12 pt. Ссылки нумеруются по последовательности размещения их в тексте, а не по алфавиту. Ссылки вставляются прямо в тексте научной работы в виде [1, с. 2] или просто [1]. При повторной ссылке указывается номер той же литературы. Слово «Литература» пишется жирными буквами по середине, через интервал за текстом.
Список литературы составляется прописным шрифтом на языке оригинала. Напр:

Книги:

Мехрабов А., Джавадов И. Мониторинг и оценка в средних школах. Баку, 2007, 182 с.

Статьи в сборнике:

Габиббейли И.А. Наука и культура в Нахчыване / Нахчыван в истории Азербайджана. Баку: Наука, 1996, с. 73-91.

Журнальные статьи:

Сейидов М.А., Сейидова А.М. Методика применения химических методов в обучении химическим элементам // Известия Нахчыванского института учителей, 2008, №1 (13), с. 97-100.

10. В аннотации имя и фамилия автора пишутся прописными и жирными, название статьи заглавными и жирными, а сама аннотация и ключевые слова прописными буквами. Аннотация должна полностью отражать содержание статьи, подробно освещать полученные результаты. Аннотации на разных языках должны быть идентичны, соответствовать содержанию статьи.
11. Общий объем статьи должен быть в пределах 5-15 страниц, включая графические материалы, фото, таблицы, список литературы и аннотации.
12. Напечатанная рукопись вместе с дискетой лично представляется в редакцию. Можно представить рукописи и через интернет. При этом рукопись можно отправить на mail-адрес редакции (elmieserler@nmi.edu.az, contact@elmieserler.net).
13. Автор вместе с рукописью представляет в редакцию и анкет автора, который содержит подробные сведения о нем (фамилии, имени и отчестве, месте работы, должности, ученой степени и ученом звании, адресе, рабочем и домашнем телефоне, электронном адресе)

Примечание. В каждом номере журнала «Нахчыванский институт учителей. Научные труды» предусмотрена публикация одной статьи автора.

DÜZƏLİŞLƏR ÜÇÜN SƏHİFƏ

Nəşriyyatının direktoru: Zöhrə Sadiqova
Redaktor: Tünzalə Abdullayeva
Korrektor: Aruzə Qurbanova

Yığılmağa verilmişdir: 02.05.2022
Çapa imzalanmışdır: 15.05.2022
Kağız foarmatı: A4
Şərti çap vərəqi: “Times New Roman” qarniturı
Tirajı: 100

İnternet saytı: https//elmieserler.net
E-mail: contact@elmieserler.net
elmihisse@nmi.edu.az
Ünvan: Az – 7003, Naxçıvan şəhəri,
Heydər Əliyev prospekti-2